Şəmistan Nəzirli

Azərbaycan hərb tarixinin və Səməd Vurğun ömrünün araşdırıcısıdır. Hər iki sahədə silsilə əsərlər müəllifidir. “Vurğun keçib bu yerlərdən”, “Ellər Vurğunu”, “Yaddaslarda yaşayan Vurğun”, “Qəribə talelər”, “Qoridən gələn qatar”, “Azərbaycan generalları”, “Daş Salahlı Məmməd koxa”, “Cümhuriyyət generalları”, “Qacarlar”, “Vurğun ömrü məktublarda”, “Tam artilleriya generalı S.Mehmandarov”, “Arxivlərin sirri açılır”, “Nəzirli ocağının üç sairi”, “Qarxunlu Əşrəfbəy” və başqa tarixi əsərləri ilə tanınır.

Azərbaycan Yazıçılar və Jurnalistlər birliyinin üzvüdür. “Səməd Vurğun fəxri diplomu”na (1996), “Qacarlar” əsərinə görə İran Dostluq Cəmiyyətinin birinci dərəcəli mükafatına (1995), “General Həzi Aslanov”, “General Əliağa Şıxlinski” (1995) və “Elm” fondunun “İlin ən yaxşı kitabı” mükafatına (1999) layiq görülüb.

**ŞƏMİSTAN NƏZİRLİ**

# TOPOQRAF - GENERAL
# İBRAHİM AĞA VƏKİLOV

**BAKI – “ZAMAN” - 2002**

Elmi redaktoru: **Qərib Şamil oğlu Məmmədov**
Azərbaycan Milli Elmlər
Akademiyasının müxbir üzvü,
biologiya elmləri doktoru, professor.

Üz qabığında İ.Vəkilovun tərtib etdiyi milli
xəritədən istifadə olunmuşdur.

Şəmistan Nəzirli. Topoqraf-general İbrahim ağa Vəkilov.
Bakı, "Zaman" nəşriyyatı,- 2002. 296 səh. və 32 səh. şəkillər.

Azərbaycanda elə nəsillər var ki, həkim, maarifçi, mühəndis, elm xadimi yetişdirməklə yanaşı, onların hərbçi oğulları da olmuşdur. Hələ imperiya və Cümhuriyyət dövründə Qacarlar nəslindən səkkiz, Naxçıvan Kəngərlilərindən beş, Bakıxanovlardan üç, Cavanşirlərdən dörd, Yadigarovlardan üç, Şıxlinskilərdən iki, Talışxanovlardan dörd nəfər general yetişmişdir. Bunlar bir nəslindən sayca çox olanlardır.

Nüfuzlu Vəkilovlar nəsli isə Azərbaycan hərb tarixinə topoqraf-general İbrahim ağa Vəkilovu (1853-1934) bəxş etmişdir.

Hərb tariximizdə müstəsna xidmətləri olmuş topoqraf-general Zaqafqaziyada yeganədir - nə özündən əvvəl və sonra, nə də müasirləri arasında bu sahə üzrə belə ali hərbi rütbəli mütəxəssis olmayıb.

Tədqiqatçı, polkovnik-leytenant Şəmistan Nəzirlinin yeni kitabında general-mayor İbrahim ağa Usubovun (1872-1920), general-leytenant Fərəc bəy Ağayevin (1811-1891), general-mayor Həbib bəy Səlimovun (1881-1920), Həsən ağa Bakıxanovun (1833-1898), Ağası bəy Avşarovun (təx.1830-?), şahzadə Rzaqulu Mirzə Qacarın (1837-?), Tərlan bəy Əliyarbəyovun (1892-1956), Əsəd bəy Talışxanovun (1857-1919), polkovnik Bəhram bəy Nəbibəyovun (1884-1930), Qalib bəy Vəkilovun (1888-1937), Gəray bəy Vəkilovun (1884-1952), kapitan Bahadır bəy Vəkilovun (1889-1920) və başqa görkəmli hərb xadimlərinin ömür yolu zəngin faktlar əsasında qələmə alınmışdır.

Kitabda həm də ötən yüz illiklərdə indiyədək açılmayan səhifələr barədə (Hərb tariximizdə nələr olmuşdur?) oxuculara ilk dəfə məlumat verilir.

**© Ş.Nəzrli - 2002**

# QƏRİBƏ TALE

General İbrahim ağa Vəkilov Zaqafqaziryada yeganədir -
nə özündən əvvəl və sonra, nə də müasirləri arasında bu
sahə üzrə belə ali hərbi rütbəli mütəxəssis olmayıb

Batan günəş soruşdu: - Ehey, burada kim var.
Mənim işimi davam etdirsin?
Saxsı şıraq cavab verdi: - Mən əlimdən
gələni edirəm, ey hökmdar.

Rabindranat Taqor
Məşhur hind yazıçısı

Qaş qaraldı, uzaqlar yavaş-yavaş görünməz oldu. Axşam düşürdü. Örüşdən qayıdan mal-qaranın mələşməsi kəsildi. Yal gözləyən itlər zəncir gəmirir, dartmıb gah hirslə yazıq-yazıq zingildəyirdi. Yenicə doğmaqda olan Ay Kürün sularında "yuyunurdu".

Salahlı obasına qərib bir axşam düşmüşdü. İbrahimin səbri tamam kəsilmişdi. Tez-tez torpaq dama girib-çıxır, dinclik tapa bilmirdi. Gözü o tayda qalmışdı. Pənah kişi isə görünmürdü. İbrahim bir neçə dəfə gəlib Pənah kişinin xalxalına baxıb məyus qayıtmışdı. Atasının dostu ilxıçı Pənah sözünə düz adam idi. Paşa ağanın ölümündən sonra ilxıçı bu dostluğu ailənin böyüyü İbrahimlə davam etdirirdi. "Nə oldu, görəsən, Pənah əmi niyə gəlmədi, bəlkə..." Öz-özünə verdiyi suallar İbrahimin intizarını daha da artırırdı.

Şəmmətli meşəsinin bərabərində bir at kişnədi. Üstündəki adam ata acıqlandı. At şappıltı ilə suya girdi. Bir göz qırpımında payızın bulanıq sularını yarıb bu taya keçdi.

İbrahim sahildə atlı ilə üzbəüz gəldi. Hürkək və zəif bir səslə:

- Pənah əmi, sənsənmi? - dedi.

İlxıçı duruxdu. Qəfil zərbə dəymiş adam kimi əvvəlcə özünü itirdi. Sonra özünə gəlib:

- Mənəm, oğul, - dedi, - sən deyəsən getməyi lap doğrulamısan, yaxşı, hazırsanmı? Burda gözlə, evə dəyib gəlirəm.

Atını cığıra salıb, bir az aralandı. Birdən yarı yolda geri dönüb:

- Ayə, a İbi, - dedi, barı evə bir söz demisənmi?

- Deməmişəm, Pənah əmi, amma əmioğlu Yusifə bərk-bərk tapşırmışam ki, işdi, gördün çox axtarırlar, anam çox ağlayıb-sızlayır, onda deyərsən ki, dünən Qazaxda idim, eşitdim İbrahim Tiflisə oxumağa gedib.

- Onda get Bala bərənin yanında gözlə, birdən buralara hərlənən olar, indi gəlirəm, bir az da orda fikirləş.

Pənah kişi atını mahmızladı.

İbrahim qamışlıqda xeyli gözlədi. O, Pənah kişinin “bir az da gözlə” deməyindən şübhələndi. “Yəqin anamdan qorxur, qarğış sahibi olmaq istəmir”. Kür aşıb-daşanda gətirib sahilə çıxartdığı qarağac kötüyünün üstündə oturub, ağzı qaralan evlər arasından Pənah kişinin evini tapdı.

Gündüzlər ayaqyalın, başıaçıq oynadığı hay-küylü sahil gecə yuxusunda uyuyurdu. Səssizlik onun qulağını batırır, qorxusunu artırırdı. Sakit çay da elə bil gündüzün haray-həşirindən yuxuya getmişdi. Daş atmasan, onun səsini eşitməzdin. Qamışlıq xışıldadı. İbrahim diskinib əlini yerə uzatdı. Qamışlığı yara-yara ona tərəf nəsə gəlirdi. Qaranlıqda iki göz od kimi yanırdı. İbrahim “a kafir”, - deyib qorxa-qorxa daş atdı. Çaqqal sivişib qamışlıqda yox oldu. “Yaxşı ki, dovşan deyil, nənəm deyərdi yola çaqqal uğurludu”.

İbrahim yenidən Pənah kişinin evini axtarıb tapdı. İlxıçının qara damının qapısı cırıltı ilə açıldı. Əvvəl Pənah kişi, sonra da əli xurcunlu arvadı çıxdı.

- A kişi, uşaqlara tuman-köynək almağı unutma.

- Rəhmətliyin qızı, mən at satmağa gedirəm, yoxsa tuman-köynək almağa, - deyə Pənah kişi arvadına hirsləndi:

- Axşama kimi kor Baqrat tuman-köynək satır, ondan alsan belin qırılarını?

- Onda, sən atanın goru, bir az mampası al, uşaqlar neçə gündü sevincək olublar ki, dədəmiz şəhərdən mampası alacaq.

Pənah kişi könülsüz, - Yaxşı, yaxşı, - deyib, xurcunu atın belinə aşırdı. Atı yedəkləyib xalxaldan çıxartdı. Ibrahimin yanına qədər ata minmədi. Atı qamışlığın arxasına çəkib sağrısını, boynunu sığalladı, oxşadı.

- Əlimdən möhkəm tut, indi atıl min. İbrahim bir göz qırpımında ata sıçradı.

- Geri otur, - Pənah kişinin səsində arvadla danışdığı əsəbilik qalmışdı. O, birdən fikrini dəyişib: - Yox, yox, a İbi, qabağa otur, bu üzülmüş xamdı, birdən çayın ortasında hürküb eləyər, yıxar səni. Yalmanından bərk tut, çətini çayı keçənə kimidi.

İlxıçı “ya allah” deyib ata mindi. Xam at çayırı dərin-dayaz yerinə baxmayıb suyu yarır, fınxıra-fınxıra o taya tələsirdi.

Sahilin o tayı başdan-başa meşə idi. Şəmkirdən başlayan qədim Qarayazı meşəsi Kürün sahili boyunca yaşı kəmər kimi Gürcüstan sərhədlərinə doğru uzanırdı. Çayın sağ sahilindəki Salahlı, Şıxlı obalarının dolanacağı da bu meşə idi. Əhali otu, odunu buradan aparır, mal-qarasını burada otarırdı. Pənah kişi də burada ilxı saxlayırdı. Hər ilin payızında beş-altı dilbozu Tiflisə aparıb satır, pulunu dolanacağına sərf edirdi.

O taya çıxan kimi at tanış cığırda yerişini artırdı. Meşə bir az seyrələndə duruxub kişnədi və birdən götürüldü. Pənah kişi atın başını çəkdi:

- Əyə, üzülmüşün boynunu sığalla, gecə vaxtı nə hay-küy salır.

İbrahim atın yalmanın sığallaya-sığallaya:

- Pənah əmi, - dedi, - bu nə dəli atdı, bunnan heç oğurluğa-zada getmək olmaz.

- Təzə tutmuşam, a bala, hələ, yaxşı öyrəşməyib. Sən niyə bu gecə vaxtı tərs atın üstündə tərs söz danışdın. Allaha şükür, nəsil-nəcabətmdə oğurluq eləyən də yoxdur. Oğurluq haradan ağlına gəldi?

İbrahim nə ağ dindi, nə də qara.

- A İbi, sən Mirzənin evini tanıyırsanmı?

Kişi İbrahimin yaralı yerinə toxundu. Odur ki, kefsiz-kefsiz:

-  Yox, - dedi.

- Əyə, bə nə təhər gedib çıxacaxsan? Heç şəhərdə olubsanmı?

- Ötən yay Mirzə kəndə gələndə bir kağrz yazıb verdi. Ünvanı da var orda.

- A bala, səndən qorxuram, gedib o dinsizlərin içində itib eləyərsən, mən qanda qalaram. Sonra anan Tükəzbanın əlindən qurtara bilmərəm.

- Qorxma, Pənah əmi, məndən sonra evdə anamın on balası var. Hürkütməsə saya bilmir. Mən heç yada dyşməyəcəyəm.

- Elə demə, a bala, ana ürəyidi, yoxluğundan əsim-əsim əsəcək. Bir də, nə var o şəhərdə, bilmirəm, qaçıb gedirsən ora. Gərək qalıb kənddə işləyəydin, evin də böyüyü sən idin, anana da kömək olardın.

- Yox, Pənah əmi, gedib oxuyub bir sənət qazanacam, adam olacam.

- Burada, kəndimizdə Molla Mustafanın məktəbi səni adam olmağa qoymur? Oxu, molla ol, ya da Abbasağa kimi özünnən şer quraşdır. Elə o da molla kimi bir şeydi.

- Şairlik mollalıq döyül, Pənah əmi, Abbasağa kişi şairdi.

- Niyə o boyda Vidadiyə, Vaqifə mollalıq yaraşdı, Abbasağaya yaraşmadı.

- Pənah əmi, Vidadiynən Vaqif sən deyən o Mustafa kimi molla döyül ey. O vaxtlar babalarımız onlara savadlarına görə molla deyiblər.

- Yaxşı, bunlar bir yana qalsın, sən gedib şəhərdə nə olacaxsan, nə oxuyacaxsan? - Pənah kişi hirslə soruşdu. İbrahimin canına qorxu düşdü ki, birdən cavabımdan razı qalmasa, bu dəli Pənah məni qaytarar ha... Özünü ələ alıb:

- Mən başqa şey oxuyacam - dedi, - voyenni olacam.

- O nə sözdü əyə, olmaya əfsər olacaxsan? İbrahim qorxa-qorxa:

- Hə, - dedi.

- Dilini bilirsənmi? Urusun deyirəm.

- Mampassatan Baqratdan bir-iki söz öyrənmişəm, qalanını da orda öyrənəcəm.

- Ay öyrəndin ha, axşama kimi gürcü çobanlarıynan bir yerdəyəm, Qoqodan, bicodan artıq kəlmə bilənin dədəsi tünbətün olsun. Dil öyrənmək su içmək döyül, oğul.

İbrahim istədi desin ki, sənin savadın, fərasətin yoxdu, mən neyləyim. Qorxdu ki, dəli Pənah elə buradaca onu dəli atından düşürər, qalar dizinə döyə-döyə.

Meşə yolu qurtardı. Onlar sonu görünməyən Ceyrançöl düzünə çıxanda Ay Avey dağının bərabərində idi. Çöl bulud arxasında girib-çıxan Aydan gah nurlanır, gah da qaralırdı. Xeyli uzaqda otlayan ilxı qəbir daşları kimi qaralırdı. Onların mindiyi at ilxını görəndə bir neçə dəfə kişnədi. Atların bir neçəsi başını qaldırıb fınıxırdı. Birdən yaxındakı kolun dibindən bir adam qalxdı. Vahimələnən İbrahim atın yalmanından yapışdı. Pənah kişi bunu dərhal hiss edib:

- Qorxma, - dedi, - mənim ilxıçı yoldaşımdı, bunu gördüyünü heç yerdə danışma ha, yazıq bir gürcüdü, xozeynini öldürüb qaçıb. Mənə pənah gətirib. Goda kəndində bir dəmirçi dostum var, onun qardaşı oğludu. Zalım oğlu qorxu nə olan

şeydi bilmir. Deynən get qəbiristanda yat, yatajax, eymənmək-zad yoxdu. Bunda urusca qəzət də var, gündə çıxardıb oxuyur. Məni günortadan gözləyir...

- Qatso, o kimdi, sənnən gələn?

- Paşa ağanın oğludu, İbidi, bu da şəhərə gedir.

- Xeyir ola, bu uşağın Tiflisdə nə işi var?

- Nə bilim, Nikolaz, - deyir gedib oxuyub, voyennidi, əfsərdi, nədi ondan olajam.

Nikoloz qayğılı-qayğılı:

- Qatso, dəlisən-nəsən, - dedi. - Xalqın uşağını aparıb itirərsən.

- Niyə itir, on dörd yaşında cavan da şəhərdə itərini? ...İbrahim həmkəndlisi Mirzə Hüseyn Qayıbzadənin Şeytanbazar yanındakı evini asanlıqla tapa bildi. Çünki o vaxtlar Tifiisdə çoxlu azərbaycanlı yaşayırdı. Mirzə Hüseyn Əfəndi də çox hörmətli və məşhur şəxs idi.

O, Tiflisdə rus-tatar məktəbində şərq dilləri müəllimi, Zaqafqaziya müftisi vəzifələrində işlədiyindən böyük nüfuza malik olmuşdu. Oxumaq istəyən kasıb balalarına kömək əli uzatmağı, onların bu işıqlı arzularının həyata keçməsinə şərait yaratmağı Mirzə Hüseyn Əfəndi ən nəcib, ən şərəfli vəzifə hesab edirdi.

Müftmin həyat yoldaşı Səadət xanım İbrahimi görəndə gözlərinə inanmadı. Bu gözəl və nəcib qadın heyrətdən, təəcübdən az qala qışqıracaqdı. O, İbrahimi bağrına basıb doğma balası kimi öpdü, oxşadı. Kəndi, gohumları soruşdu. Atası Paşa ağanın vaxtsız ölümünə heyfsləndi. İbrahimin oxumaq dalınca gəlməsini eşidəndə ona elə bil dünyanı bağışladılar.

- Səadət xanım, - Hüseyn Əfəndi ağır-ağır soruşdu: - İbrahimin haraya qəbul olunmaq istədiyindən xəbərin varmı?

- Xeyr!

- Ot kökü üstə bitər. Praporşik Paşa ağanın oğlu hərbi qulluqçu olmaq istəyir.

- Hə, - qadın xeyli duruxdu, - demək mənim kəndimin, Salahlının ilk savadlı hərbi qulluqçusu olacaqsan. Çox yaxşı, çox gözəl, oğul, - Səadət xanım onu yenidən qucaqladı.

- Kadet korpusunda yer yoxdur, bir az gec gəlib, bu gün sentyabrın altısıdır. Amma Hüseyn əmisi onu məyus qaytarınaz.

Mirzə ipək kimi yumşaq və dumağ saqqalını sığallayıb ani olaraq susdu:

- Bəxtindən üçüncü Mejevoy Hərbi Gimnaziyasında bir yer var. Bu məktəbin direktorunun mənimlə dostluğunu bilirsən. Mənə belə gəlir ki, burda İbrahim üçün çətin olmayacağ. Direktor milliyyətcə Kazan tatarıdır. Bizim dilə yaxşı bələddir. Ona həm rus dilini öyrədər, həm də təhsil verər.

## TOPOQRAF-GENERAL İBRAHİMAĞA VƏKİLOV

Şerimiz, sözümüz, elimiz də var,
Arif yaşamışdır bizim babalar.
Lakin xoş olsa da, söz ilə sənət,
Böyük sərkərdələr yetirən millət.
Yalnız qalibiyyət çələngi taxar,
Gələcək günlərə vüqarla baxa

**Səməd Vurğun**

Xalqımızın yetirdiyi elə şəxsiyyətlər var ki, onların adına ancaq müxtəlif mənbələrdə, arxiv sənədlərində rast gəlmək olar. Yaşadığı dövrdə, illərdə bunların fəaliyyəti geniş işıqlandırılsa da, zaman keçdikcə onlar məlum səbəbdən unudulub. Xalqımız üçün gördükləri əvəzsiz işlər ört-basdır edilib. Totalitar rejimin "müsavat generalı" damğası vurduğu onlarca belə qeyrətli sərkərdəmiz yaddaşlardan qeyb olub. Böyüməkdə olan gənc nəslin, demək olar ki, adı ara-sıra çəkilən bu şəxsiyyətlərdən xəbəri yoxdur. Halbuki, onların keçdiyi mübariz həyat yolu bu gün bizim üçün böyük məktəbdir.

Topoqraf-general İbrahim ağa Paşa ağa oğlu Vəkilov da belə unudulmuş şəxsiyyətlərdən biridir.

1853-cü il mayın 7-də keçmiş Yelizavetpol quberniyası Qazax qəzasının Qırax Salahlı kəndində anadan olan İbrahim ağa Vəkilov on bir yaşında atadan yetim qalıb. Atası Paşa ağa 1864-cü ildə vəfat edib. On nəfərlik ailəni güc-bəla ilə saxlayan anası Tükəzban xanım Yusif ağa qızı İbrahimin fəhmi, fərasəti ilə daha çox öyünür, qürrələnirdi.

**General İbrahim ağa Vəkilovun ata və babaları barədə arxiv sənədi:**

1900-cü mart ayının 15-ci günü! Qazax Qəza Rəisi cənablarının 7 yanvar 1900-cü il tarixli 80 nömrəli yazılı müraciəti əsasında mən Qazax Qəzası II sahəsinin Pristavı vəzifəsinin icraçısı Poruçik Kolomeytsev bu tarixdə gizir Paşa Xəlil ağa, mayor Əli Vəkil Qazaxlı və Pənah Bəy Vəkilov Qazaxlının nə vaxt və hansı valideynlərdən doğulduqlarını aydınlaşdırınaq məqsədilə dindirilmə aparmaqla Salahlı kəndinin uzunömürlü sakinləri Molla Nəsib Oruc oğlunu, Mustafa Hacı oğlunu, Molla Əli Malik oğlunu, İbrahim Əfəndi oğlunu, Məmməd Panbıq Bəşi oğlunu, Əmirxan Hacı oğlunu, Yaqub Hacı Vəli oğlunu, Vəli Umud oğlunu, yerli ruhanilər Molla Usub Əfəndini, Məmməd Əfəndi oğlunu və Molla Məmməd Zərif oğlunu dəvət etmişəm. Onların şəhadətləri inandırıcıdır və qabaqcadan şəhadətlə gətirilərək dindirınişəm və yuxarıda ərz olunan məsələ ilə əlaqədar onlar bunları demişlər: bizə dürüst məlum olduğu kimi gizir Paşa Ağa qanuni valideyinləri - atası Xəlil Ağadan və anası Fatma Xanım Əlibəy qızından doğulmuşdur; gizir Xəlil Ağa, mayor Əli Ağadan və Şəhriyar Xanım Hacı Qasım Ağa qızından doğulmuşdur; mayor Əli Ağa Pənah Ağadan və Zöhrə xanım Abdulla Ağa qızından, Pənah bəy isə Məmməd Şərif Ağadan və anası Yetər Xanım Yolçu qızından doğulmuşlar. Fəqət onların məhz nə vaxt anadan olmalarını doğulduqları dövrdən xeyli ötüşdüyünə görə bilmirik. Yuxarıda ərz olunanlarla

əlaqədar mən, Pirstavın vəzifələrinin icraçısı qərara aldım: Hazırkı protokolu tərtibləyərək siz Qazax Qəza Rəisi cənablarına təqdim etmək.

II Sahənin Pristavı Kolomeytsev[1]

Hazırkı surəti əsli ilə düzdür, dövlət rüsumu ödənilmiş və hərbi topoqraflar Korpusunun Kapitanı İbrahim bəy Vəkilova onun xahişi əsasında təhvil verilmişdir. Bunu da Zaqafqaziya Sünnü Ruhani İdarəsi imza və dövlət möhürü ilə təsdiq edir. Dekabr ayının 12-ci günü 1901-ci il Tiflis şəhəri.

**İdarənin rəisi Zaqafqaziya Müftisi:**
**Mirzə Hüseyn əfəndi Qayıbzadə**
**Möhür**
**katib: imza,**
**katibin köməkçisi: imza.**

Azərbaycan Dövlət Tarix Muzeyinin elmi arxivində saxlanılan əlli altı nömrəli qovluqda İbrahim ağa Vəkilovun 1866-cı il sentyabrın 6-da Tiflisdəki üçüncü Mejavoy Hərbi Gimnazyasına daxil olduğu göstərilir. Orta məktəb həcmində təhsil verən bu məktəbdə doqquz il oxuduqdan sonra həmyerlisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin məsləhətilə İbrahim Peterburqdakı hərbi topoqrafiya məktəbinə daxil olur.

1879-cu ildə İbrahim ağa Vəkilov həmin məktəbi müvəffəqiyyətlə bitirib, praporşik rütbəsi alır. Qulluq üçün Tiflisə göndərilən gənc zabit bir müddət Qafqaz hərbi dairəsinin topoqrafiyaya qərargahı şöbəsində çalışır.

Xidmətmin ilk illərində Dağıstanda topoqrafik çəkilişlərlə məşğul olan İbrahim ağa Vəkilov 1883-cü ildə Rus-İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edir. Belə bir ciddi işi vaxtından əvvəl - iki ilə müvəffəqiyyətlə yerinə yetirdiyinə görə, İbrahim ağa Vəkilovun xidməti İran hökumətinin ən yüksək “Şire-Xorşid” ordeninə layiq görülür. Beş il Qafqaz hərbi dairəsinin topoqrafiya şöbəsinə rəhbərlik edən İbrahim ağa Qafqazın və Krımın müxtəlif rayonlarında topoqrafik çəkilişlərlə məşğul olur. 1891-ci ildə Türkiyəyə ezam olunan İbrahim ağa Vəkilov dörd il rus səfırliyində yaşayaraq xüsusi tapşırığı yerinə yetirir. Mayor rütbəsində yenidən Qafqaz hərbi dairəsində mühüm işlər icraçısı işləyir.

1901-ci ildən şöbə rəisi podpolkovnik İbrahim ağa Vəkilov Qars vilayətmin Rus-Türk sərhədlərində topoqrafiyak çəkilişə rəhbərlik edir və Bosforun hərbi xəritəsini hazırlayır.

1912-13-cü illərdə Rus-İran hökumətinin danışıqlarına əsasən polkovnik İ.Vəkilov Cənubi Azərbaycanın Təbriz, Urmiya və Xoy şəhərlərində keçirilən topoqrafik çəkilişlərə də başçılıq edir. Birinci Dünya müharibəsi illərində döyüşən ordu qərargahında fəaliyyət göstərən polkovnik İbrahim ağa Vəkilov 1917-ci il inqilabından sonra Tiflisə qayıdır. Onun xidmətləri Stanislav, Anna və dördüncü dərəcəli Vladimir ordenlərinə layiq görülür.

---

[1] Sənədin əsli Şöhrət Vəkilovda saxlanılır. – Ş.N.

İbrahim ağa Vəkilov Qafqazda hərbi topoqrafiya üzrə general-mayor rütbəsinə layiq görülmüş yeganə şəxsiyyətdir.

Bir müddət Tiflisdə Zaqafqaziya Federasiyasında yə Zaqafqaziya Xeyriyyə Cəmiyyətinin sədri vəzifəsində çalışan İbrahim ağa sonralar Bakıda və Gəncədə fəaliyyət göstərir.

1918-ci ildə o, Azərbaycan Milli Ordusunun təşkilində fəal çalışanlardan olmuşdur. Bundan əvvəl Azərbaycan hökuməti onu Qazax qəzasına kənd və şəhər sovetlərinin seçkilərinə rəhbərlik etməyə göndərmişdi. Vəkilovun nüfuzu yeni yaranan Azərbaycan Demokratik Cümhuriyyətinin bölgədə dərinləşməsinə güclü təkan vermişdi.

1918-ci il iyunun 23-də Respublika daxili işlər nazirinin əmrilə polkovnik İbrahim ağa Vəkilov Gəncənin qubernatoru təyin olunur. Goran mahalında və ayrı-ayrı kəndlərdə sığınacaq tapmış daşnak tör-töküntülərinə divan tutan qubernator onları tərksilah etmişdi. Onun daxili işlər nazirinə göndərdiyi 1919-cu il 23 mart tarixli məlumatında bildirilirdi ki, Gəncə qəzasında daşnak irticasının və xarici müdaxiləçilərin törətdiyi fitnə-fəsadlar aşkar edilmişdir. Yerli bolşeviklərlə birləşən ermənilər müsəlmanlar arasında qırğın törətmək istərkən yaxalanmışlar. Onların başçısı qolçomaq Cümşüd Voskanov həbs edilmişdir.

1919-cü ilin martında Novruz bayramı münasibətilə milli ordunun paradı keçirilirdi. Respublika Hərbiyyə naziri Səməd bəy Mehmandarov və bir qrup parlament üzvü parad-nümyişdə iştirak etmək üçün Gəncəyə gəlmişdi. Gəncə qarnizonundakı səliqə-sahmana və nümunəvi qayda-qanuna görə hərbiyyə naziri İbrahim ağa Vəkilova səmimi təşəkkürünü bildirmişdi.

Azərbaycan hökumətinin 1919-cu il 30 mart tarixli qərarı ilə uzun illər ordudakı nümunəvi xidmətinə görə İbrahim ağa Paşa ağa oğlu Vəkilova general-mayor rütbəsi verilmişdi.

Ay yarım sonra (1919-cu il martın 14-də) general İbrahim ağa Vəkilov hökumətin 248 nömrəli əmri ilə Baş Qərargahda hərbi topoqrafiya şöbəsinin rəisi təyin olunmuşdu. O, rusların aprel işğalına qədər bu vəzifədə qeyrət və vicdanla çalışmışdı.

1919-cu ilin dekabr ayında ilk hərbi bayrağımızın təsdiq olunması haqqında Baş Qərargah İdarəsi qərar verdi. Bayrağın yaradıcısı hərbi topoqrafiya şöbəsinin rəisi general-mayor İbrahim ağa Vəkilov idi. İpək sapla işlənmiş bayrağın bir üzündə əski əlifba ilə “Azərbaycan”, o biri üzündə isə Müqəddəs Qurandan: “Allahdan kömək və qələbə yaxındadır” ayəsi yazılmışdı. Baş Qərargah İdarəsinin verdiyi beş saylı qərarda göstərilir ki, süvari, piyada alaylarında, əlahiddə tabor və hərbi məktəblər üçün vahid formada bayrağın yaradıldığı elan olunur.

Hələ əsrin əvvəllərində Tiflis ədəbi mühitində yaxından iştirak edən İbrahim ağa Vəkilov böyük dramaturqumuz Cəlil Məmmədquluzadə ilə dostlaşmışdı. Onların ikisi də xalqımızın nicatı üçün birgə çalışırdı. Bu fakta Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın “Mirzə Cəlil haqqında xatirələrim” kitabında da rast gəlmək olar. Həmidə xanım yazır: 1907-ci ildə Qarabağda çəyirtkə və aclıq gözlənilirdi... Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri İbrahim ağa Vəkilov, katibi Mirzə Cəlil bizim rayonun qaldığı çıxılmaz vəziyyətdən xəbər

tutduqda zərərçəkənlərə paylamaq üçün poçt ilə mənim adıma altı yüz manat pul göndərmişdi.

Polkovnik İbrahim ağa Vəkilov 1906-cı ilin yanvarın səkkizində Qafqaz kənd təsərrüfatı cəmiyyətinin zalında Müsəlman Xeyriyyə Cəmiyyətinin ilk sədri seçilir. Azərbaycanın qabaqcıl ziyalıları polkovnik İbrahim ağa Vəkilovu səsə qoyulmadan xeyriyyə cəmiyyətinin idarə heyətinə sədr təyin edirlər.

Cəmiyyətin katibi Cəlil Məmmədquluzadə, üzvlüyə namizədlər isə Əlimərdan bəy Topçubaşov, Səməd ağa Qayıbov, Osman bəy Müftizadə, Rəşidbəy İsmayılov, İmadəddin Sübhanqulov, Kamal Əfəndi Ünsizadə, Məmmədhəsən İmanov, Adil-Girey Daidbəyov, Əbdürrəhman bəy Əfəndiyev və başqaları seçilir.

Bizdə Mirzə Cəlillə general İbrahim ağa Vəkilovun birgə fəaliyyətini təsdiq edən daha bir etibarlı sənəd var. O da 1909-cu il martın 22-də çap olunan “Molla Nəsrəddin” jurnalının on ikinci sayındandır. Həmin sayda İbrahim ağa haqda iki dostluq şarjı verilib. Birinci şarjda küçədə İbrahim ağaya rast gələn ziyalı müsəlmanların hamısı ona baş əyir, xoş təbəssümlə təzim edirlər. Onlar deyirlər ki, sən Xeyriyyə Cəmiyyətinin təşkil et, biz sənə maddi cəhətdən kömək göstərəcəyik. İzof Rotterin məharətlə çəkdiyi bu şəklin altında belə yazılıb: “İbrahim ağa Vəkilov Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri seçilməmişdən əvvəl”

İkinci şarjda isə İbrahim ağa küçənin ortasında tək dayanıb. Ondan baş götürüb qaçan ziyalı müsəlmanlara baxıb, acı-acı gülümsəyərək “Bunlara nə oldu?” - deyir. Bu “ziyalı” müsəlmanların kimisi qaçır, kimisi də gizlincə tindən, dalandan qorxa-qorxa İbrahim ağaya baxır. Hərbi formalı İbrahim ağanın indi küçədə əlləri təəccüblə açıq qalıb. Şəklin altında oxuyuruq: “Xeyriyyə Cəmiyyətinin sədri seçiləndən sonra”.

Əsrin əvvələrində İbrahim ağa bir topoqraf kimi çox məşhur olub. Qırx ilə yaxın hərbi topoqraf kimi fəaliyyət göstərən İbrahim ağa Vəkilovun xidmətləri Müqəddəs Anna ordeninin üçüncü dərəcəsilə (1886), İranın “Şire-Xorşid” ordenilə (1888), Müqəddəs Stanislav ordeninin ikinci dərəcəsilə (1894), Müqəddəs Anna ordeninin ikinci dərəcəsilə (1897), Müqəddəs Vladimir ordenin dördüncü dərəcəsilə (1903) qiymətləndirilib.

1902-ci ildə Tiflisdə nəşr olunmuş “Rus imperatorluğunun coğrafi birliyinin Qafqaz şöbəsi xəbərləri” kitabının (XV cild) iki yüz əlli səkkizinci səhifəsindəki xəbər eloğlumuzun fəaliyyəti barədə xoş təsəvvür yaradır: “Podpolkovnik İbrahim ağa Vəkilovun rəhbərlik etdiyi dördüncü bölmə Qars qalası rayonunun yarım verstlik miqyası (məsafədən) çəkilişini davam etdirınək tapşırığını almışdı. İndiyə kimi çəkiliş şöbə tərəfindən əla aparılmışdı. Podpolkovnik I.Vəkilovun coğrafi çəkiliş şöbəsində kollej assesoru Baqdanov, podyesaul Borisenko, podporuçik Bekleşov və üç torpaq ölçən iştirak etmişdir”.

1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifı və respublikamızda topoqrafiya məktəbinin yaradıcısı da general-mayor İbrahim ağa Vəkilov olmuşdur. O, 1918-ci il mayın 28-də Azərbaycanın istiqlalını bəyan etmiş Milli Şuranın üzvü idi.

1922-ci il dekabrın 3-də Xalq Komissarlığının və Hərbi Dənız Donanmasının əmrində oxuyuruq:

“Hərbi topoqrafiya şöbəsinin rəisi İbrahim ağa Vəkilov yoldaş hərbi topoqrafiya kurslarının təşkili və rəhbərliyi sayəsində misilsiz xidmətlərinə, eləcə də yeni topoqrafların yetişdirilməsinə səmimi və vicdanla yanaşmasına görə, topoqrafçıların birinci buraxılışının təntənəsi günü, ümümi iclasın qərarlarına əsasən hərbi topoqrafiya kurslarının fəxri kursantı seçilmişdir.

**Hərbi Dəniz Donanmasının Xalq komissarı**
**Qərargah rəisi”.**

Yeni gələn şura hökuməti onu “müsavat generalı” kimi gözümçıxdıya salsa da, İbrahim ağa hərbi-elmi, pedaqoji fəaliyyətini dayandarmayıb. Ehtiyac içində yaşayan general ömrünün son günlərində hökumətə yazdığı ərizəsində bildirirdi: “Dulam. Bir çarpayıdan, bir mizdən və bir arakəsmədən savayı heç nəyim yoxdur. Oğlumun darısqal evinin kiçik bir küncündə yaşayıram...”

Ədalətsizliyə bax ki, arxivdə saxlanan “Hərbi xidmət kitabçası”nın “rütbəsi” yazılan qrafasında Sovet hökumətinin hansısa xəbis ürəkli bir nümayəndəsi general-mayor sözlərinin üstündən tuşla qara xətt çəkib.

Onun çox böyük topoqraf təcrübəsi inqilabdan sonra yalnız milli diviziyalarda deyil, həm də Respublika Xalq Torpaq Komissarlığı Topoqrafiyaya-Geodeziya İdarəsinin rəisi vəzifəsində, Azərbaycanın Qədim Dövr İncəsənət Abidələrini və Təbiəti Müafizə Komitəsində işləyəndə karına gəlmişdi.

General İbrahim ağa Vəkilovun zəngin arxivi ilə tanış olduqca şəkil və sənədlərdə fədakar, vicdanlı, xalqını, millətini sevən bir insanın dolğun obrazını açıq-aydın görmək olur.

İstər hərbi topoqrafiya, istərsə də tariximizin ayrı-ayrı ziddiyyətli, mürəkkəb dövrünü öyrənmək üçün generalın məqalələri kifayət qədər material verir. Onun Azərbaycan Dövlət Tarix Muzeyinin arxivində mühafizə olunan əlyazmasında sovet dövründəki məqalə və məruzələri qeydə alınıb. Əlbəttə, bu, general İbrahim ağa Vəkilovun inqilabdan əvvəlki, həmçinin 1918-20-ci illərdə Milli Azərbaycan ordusundakı misilsiz xidmətinin yalnız bir hissəsidir. Hətta, onun sovetlər dövründəki elmi-tədqiqi xidmətinin də tam əksi deyil:

1) Hərbi idarə üzrə 3 dekabr 1922-ci il 373-a nömrəli əmrin surəti, 4-cü § təsdiq edir ki, mən doğrudan da topoqrafiya kurslarının fəxri kursant seçilmişdim.

2) Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Mərkəzi İcra Komitəsinə 8 may 1929-cu il 2406 nömrəli məlumatını hazırlamışam.

3) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 23/XI-1922-ci il tarixli jurnal qərarının çıxarışını yazmışam.

4) Azərbaycan Hərbi Komissarlığının 8 may 1923-cü il tarixli 1347 nömrəli vəsiqəsini tərtib etmişəm.

5) Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1 aprel 1922-ci il tarixli qətnaməsinin çıxarışını yazmışam.

6) Köçərilər haqqında məqaləm "Azərbaycanı Tədqiq Edən və Öyrənən Cəmiyyətin Xəbərləri" jurnalının 3-cü nömrəsində dərc edilib.

7) "Yeni kənd" jurnalında Ağamalı oğlu adına Torpaq Ölçmə Texnikumunun yaradıcısı kimi mənim fotoşəklim verilib.

8) T.Q.Sultanovun "Naxçıvan Diyarı və onun iqtisadiyyatı" kitabı mənim tərtib etdiyim xəritə ilə birlikdə nəşr olunub.

9) a) Azərbaycanın, b) Bütün Qafqazın, v) Avropanın, q) Asiyanın, d) Amerikanın (Şimali və Cənubi), i) türk xalqlarının Asiya və Avropada məskunlaşmasının xəritələrini tərtib etmişəm.

## ALİM SÖZÜ

**Qoca tarix ilham almış,**
**mərd əllərin yazısından.**

**Səməd Vurğun**

General İbrahim ağa Vəkilovun sərkərdlik fəaliyyətindən başqa ayrı-ayrı sahələrdə də xalqımız qarşısında xidmətləri çox olmuşdur. Azərbaycan Respublikasının siyasi və təbii xəritəsinin ilk tərtibçisi də İbrahim ağadır.

Bu dəyərli xəritənin taleyi necə olmuşdur? Bu milli xəritə nə az, nə də çox, yetmiş ildən artıq xalqımızdan gizlədilmiş, sovet dövründə ondan istifadə olunmamışdır. Yaddaşlardan qeyb olunan xəritənin yeganə nüsxəni qeyrətli alim, coğrafiya elmləri namizədi, dosent Malik Mirzəyev qoruyub bu günümüzə qədər saxlaya bilmişdir.

**- Malik müəllim, general İbrahim ağa Vəkilovun kartoqrafik xəritəsi sovet xəritələrindən hansı keyfiyyətlərinə görə fərqlənir?**

- Generalın tərtib etdiyi "Azərbaycan Respublikasının siyasi və təbii xəritəsi" kartoqrafik bir əsərdir. O, məşhur dünya alimlərinin və kartoqraflarının tərtib etdikləri xəritələrlə müqayisədə nəinki onlardan geri qalmır, hətta onlardan çox-çox üstündür. Adətən, xəritə tərtibçiləri bir sahəni (relyef, siyasi, iqtisadi, fiziki və s.) əks etdirınəklə kifayətlənirlər. Bir xəritədə iki sahəni birləşdirmək ideyası ilk dəfə general İbrahim ağa Vəkilova müyəssər olmuşdur. O, bir xəritədə həm siyasi, həm də təbii məkanları birləşdirmiş və nəticədə dərin məzmunlu, zəngin təfsilatlı, asan oxuna bılən orijinal kartoqrafık əsər yaratmışdır. Xəritənin təhlilindən aydın olur ki, müəllif onu tərtib etmək üçün gərgin elmi axtarışlar aparmış, topoqrafiya, toponimika, tarix, onamistika, eləcə də coğrafiya elmlərinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Xəritə qırmızı rəng çaları ilə işlənmiş, ay-ulduz bayrağı ilə birgə çap olunmuşdur. Onun üçün l:420000 miqyas seçilmişdir. O dövr üçün hər yerdə-ölkədə ondan asanlıqla istifadə etmək üçün ingilislərin işlətdiyi miqyasın da (verst) verilməsi onun praktiki əhəmiyyətini xeyli artırmışdır. Xəritədə verilən marşrut işarələrinin yığcamlığı xüsusi əhəmiyyət kəsb edir. Bunların sayı indiki xəritələrlə müqayisidə xeyli azdır. İnşa olunmuş, inşa olunan, ensiz dəmir yolları, araba, şosse yolları və axan çay aydın nəzərə çarpan şəkildə

çəkilmişdir. Onun təhlili göstərir ki, müəllif topoqrafiyanı əla bildiyindən iri yaşayış məntəqələri ətrafinda, ayrı-ayrı sahələrdə bağları, şorluqları, bataqlıqları da göstərmişdir. Xüsusilə, Xocavənd, Lənbəran, Kvartaboyəhmədli ərazilərində bağlıq sahələr daha çox qeyd olunmuşdur.

**- Malik müəllim, bəs, təbii yer adları necə işlənmişdir? Onlar rus xəritə və mənbələrindəki kimi dəyişdirilmiş, yoxsa türkcəsi saxlanılmışdır?**

- General İbrahim ağanın xəritəsinin ən böyük dəyəri yer adlarının türkcə işlənməsidir. Məsələn, Kür-Araz ovalığında Muğan bozqırı, Mil bozqırı, Şirvan bozqırı kimi adlar saxlanılmışdır. Təbii coğrafi yer adları isə indikilərdən az fərqlənir. Məsələn: Dəli Məhəmmədi.

Xəritədən kifayət qədər maraqlı məlumatlar almaq olar. Xüsusilə, tarixi adların verilməsi onun dəyərini daha da artırır (Qarabulaq, Əbdəllər, Korusu, Tərtər, İrəvan, Tiflis). Salyan və Sabirabad ərazisində bir çox qalaların adları (Mahmud qala, Cavad qala, Şin qala, Əbul qala) tarixi məna kəsb edir. Xəritədə bu qalaları yaradan Arazdan ayrılan bir qolun, Yeni Arazın çəkilməsi, göstərilməsi də elmi cəhətdən çox maraqlıdır. Xəzər dənizi boyu - Dərbənddən Astaraya qədər çoxlu burunların və ətəkələrin hamısı türk - Azərbaycan adı ilə göstərilmişdir. Müəllifin silsiləni sıralar, aşırımı aşma, çölü bozqır, kəndi köy kimi yazması da dilçilik baxımından çox maraqlıdır.

Son illər erməni millətçiləri bir çox coğrafi adları əsassız olaraq dəyişdirmiş və təhrif etmişlər. Həmin başabəla "tədqiqatçılara" İ.Vəkilovun xəritəsi tutarlı cavabdır. Oxçu, Ağstafa, Alagöl, Qaragöl, Bazarçay və s. türk mənşəli adlar bunlara əyani misaldır. Xəritədə coğrafi adların düzgün verilməsi (oronimlər, hidronimlər, oykenimlər) hazırda böyük elmi əhəmiyyətə malikdir. Saxtakar erməni tədqiqatçılarını ifşa etmək üçün bu xəritə tutarlı mənbə hesab oluna bilər.

İbrahim ağa Vəkilovun xəritəsi onun əlimizdə olan yeganə kartoqrafik əsəridir. Xəritənin tarixçi, dilçi, coqrafiyaçı alimlər və siyasətçilərin dərindən təhlilinə ehtiyacı var. İndiki dövrdə bəzi mübahisəli məsələlərin (ad, sərhəd) aydınlaşdırılmasında ondan istıfadə etmək vacibdir. Xəritədə göstərilmiş, indi isə unudulmuş türk mənşəli adların bərpa olunmasında bu xəritənin çox böyük rolu ola bilər.

Azərbaycan Respublikasının qonşu dövlətlərlə sərhədlərinin xəritədə göstərilməsi (xüsusən, Ermənistan, Dağıstan) müəllifin Qafqazı yaxından tanınmasından irəli gəlir.

İbrahim ağa Vəkilovun "Azərbaycan Respublikasının siyasi və təbii xəritəsi" adlı məzmunlu kartoqrafık əsəri qəza sərhədlərini (siyasi vəziyyəti) çox əyani göstərən bir xəritədir.

İstedadlı topoqrafik-xəritəçi İbrahim ağa Vəkilovun bu xəritəsinin üzərində kiçik əl gəzdirinəklə yenidən çap olunması vacibdir. Mənə belə gəlir ki, İ.Vəkilovun əlimizə gəlib çatmayan çoxlu əsəri hələ də müxtəlif arxivlərdə öz tədqiqatçısını gözləyir.

Azərbaycan Respublikasının müstəqillik yolunda atdığı addımlar bizi unutdurulmuş məşhurlarımızla daha yaxından tanış olmağa, onların əsərlərinin toplanıb çap olunmasına köməklik göstərəcəkdir.

İbrahim ağa Vəkilovun topoqrafiya və kartoqrafiya sahəsində apardığı işlər onun həmvətənlərinə layiqincə çatdırılmalıdır. Bunun üçün gənclərə Vətən təəssübkeşliyi, milli hiss, keçmişimizə qayğı kimi mənəvi keyfiyyətlər aşılanmalıdır.

Təəssüf ki, belə bir görkəmli alim-general haqqında Azərbaycan Ensiklopediyasında bir sətir belə yoxdur.

## AİLƏNİN BƏXT ULDUZU

Arvadla kişini bağlayır kəbin
Bu işə yol verir şəriət, ayin.
Mənimsə kəbinim bir rübaidir,
Varmı bu kəbinə yol verən bir din?

**Məhsəti Gəncəvi**.

Arxiv sənədlərində general İbrahim ağa Vəkilovun hərbi topoqrafiya sahəsində qeyrət və vicdanla çalışmasına aid maraqlı sənədlər, rəylər vardır. Bir şəhadətnamə də diqqətimi cəlb edir. O, 1928-ci il iyulun 30-da Azərbaycan SSR Xalq İctimai Təminat komissarı Muxtar Hacıyev tərəfindən verilib: "Bununla təsdiq edirəm ki, hərbi topoqraf İbrahim ağa Vəkilov, mən Azərbaycan MİK-nin sədri olarkən, bir neçə dəfə müxtəlif komissiyalara üzv seçilib, eləcə də Azərbaycan və Ermənistan respublikalarının sərhəddi təyin ediləndə və ümumiyyətlə, Azərbaycan MIK yanında müxtəlif işlərdə iştirak etmişdir. Yoldaş Vəkilov ixtisasını qəlbən sevir, üzərinə düşən vəzifəni vicdanla, ləyaqətlə və səliqəli yerinə yetirirdi".

Şair Mənsur Vəkilovun yaddaşından:

1952-ci ildə Azərbaycan Respublikasın Səhiyyə Nazirinin müavini işləyən atam Fəxri Məmmədrza ağa oğlu Vəkilovla bağlı maraqlı bir hadisəni indi də unuda bilmirəm. Gecə yarısı qəfildən qəbuluna çağıran Stalinin qəddar silahdaşı Mircəfər Bağırov elə qapının astanasında sərt səslə atamdan soruşmuşdur: "General Vəkilov sənin qohumundur?" Bu qəfil çağrışdan yaxşı heç nə gözləməyən rəngi saralmış atam "Bəli" cavabını verir. Bir az mülayimləşən Bagırov səsinin ahəngini yumşaldıb demişdir: "Niyə həyəcan keçirirsən? Belə qohumla ancaq fəxr etmək olar. Bu yaxınlarda bizim sərhədlərimiz haqqında mən ermənilərlə mübahisə edirdim. Vəkilovun xəritəsini tapıb əyani olaraq onlara sübut etdim ki, sizin mübahisə etdiyiniz torpaqlar bizimdir."

Bu əlbəttə o dövrün dəhşətli möcüzəsi idi: bunları o adam deyirdi ki, general İbrahim ağa Vəkilovun iki oğlundan birini-polkovnik Qalib bəyi güllələtmişdi, mühəndis Faris bəyi isə on səkkiz illik sürgünə göndərmişdi.

1933-cü il noyabrın 29-da qocaman generala Azərbaycan SSR Xalq Komissarlığı fərdi təqaüd kəsmişdir.

Ömrünün çoxunu Tiflisdə yaşayan və işləyən İ.Vəkilov 1884-cü ildə rus qızı Yelena Yefiraovna Yermolayeva ilə ailə həyatı qurmuşdur. Bir-birini sevərək

xoşbəxt ailə quran gəncləri imperator Üçüncü Aleksandrın ədalətsiz qanunu çıxılmaz vəziyyətdə qoymuşdu. Çarın qanununda deyilirdi ki, müsəlmanın rus qızına evlənməyi qəti qadağan olunur. Əks təqdirdə müsəlman oğlanı rus qızına evlənərsə, o, mütləq öz islam dinindən çıxıb, xristianlığı qəbul etmirsə, valideynlik hüququndan məhrum olunur. Vəziyyətdən çıxış yolu axtaran İbrahim ağa Vəkilov imperator III Aleksandrın müqqəddəs sinoduna, yəni ruhanilər məclisinin oberkuryerinə - məşhur Pobedonosevə müraciət etməli olur. O, xahiş edir ki, xristian dinini qəbul etməyi ona məcbur etməsinlər və kəbini qanuniləşdirsinlər. Çarın sadiq nökəri Pobedonosev qəti etirazını bildirir, hətta onun üzərinə hücum edib təqsirləndirərək deyir ki, siz rus qızı ilə kəbin kəsdirinəyi heç xəyalınıza belə gətirməyin. Biz sizdən uşaqları belə alacağıq, sizin onlara atalıq etməyə hüququnuz yoxdur.

Nəhayət, 1891-ci ildə bu gənc ailənin bəxt ulduzu doğdu. Tale sanki özü onların xoşbəxtliyini himayəçiliyinə götürdü. Həmin ili kapitan İbrahim ağa Vəkilov çarın xüsusi əmri ilə ən yaxşı topoqrafiya mütəxəssisi kimi Türkiyəyə ezam olundu.

İki il sonra 1893-cü ildə İbrahim ağa ilə Yelenaya Bolqarıstanlı keşiş Georgi Misarov qanuni kəbin kəsdi. Bu vaxt ər otuz doqquz, arvad isə otuz iki yaşında idi. Artıq onun ailəsi də böyümüşdü: ailənin böyük oğlu Faris bəyin yeddi, kiçik oğlu Qalib bəyin isə altı yaşı vardı.

General İbrahim ağa Vəkilov böyük şairimiz Səməd Vurğunun əmisi oğludur. Şairin qardaşı Mehdixan Vəkilov "Mənim qardaşım" xatirə povestində yazır:

"Səməd Vurğunun general İbrahim ağa ilə axırıncı söhbəti (general I.Vəkilov 1934-cu iliyunun 2-də vəfat edib - Ş.N.) onun arvadı Yelena Yefimovnanın öz oğlanlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə L.N.Tolstoydan məsləhət istəməsi haqqında göndərdiyi məktub və aldığı cavab ətrafinda olmuşdur".

## LEV TOLSTOYA MƏKTUB

Qəlbimizdə allahın nuru vardır.
onun da adı vicdandır.

**Lev Tolstoy.**

Aradan altı il keçdi. Ancaq nə İbrabim ağanın ata ürəyi sakit olur, nə də Yelena Yefimovnanın ana qəlbinin narahat döyüntüləri kəsilirdi. Onların intizaırının əsas səbəbi oğlanlarının hansı dinə qulluq etmələri idi. Tale onlara üçüncü övlad da bəxş etmişdi. Reyhanın artıq on üç yaşı vardı. Hara gedib, kimdən ağıllı bir məsləhət almalı? Rəsmi dövlət idarələri və din xadimləri çıxılmaz vəziyyətdə qalan ailəyə bu barədə kömək edə bilmirdilər.

Generalın Peterburq Texnologiya İnstitunda təhsil alan böyük oğlu Borisi, Moskvadakı Alekseyev hərbi məktəbində oxuyan Qlebi də bir sual düşündürürdü:

Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz sual qarşısında qalan hər iki qardaş tez-tez ana-ataya müraciət edirdilər.

Faris bəy Vəkilovun söhbətmdən:

- Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904-05-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bəd niyyətli rus-yapon müharibəsi, xalq kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə “Din azadlağı haqqında manifest” nəşr olundu. Orada hər hansı bir səbəbdən ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dininin müdafiəçilərinin bilavasitə yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ata - İbrahim ağa Vəkilov və ana - Yelena Yefimovna belə qərara gəldilər ki, müdrik yazıçı Lev Tolstoydan başqa heç kəs bu ciddi ailə məsələsinə ağıllı cavab verə bilməz. Ona görə də 1909-cü il martın 2-də Tiflisdən Yelena Vəkilova yazırdı:

**“Bizim dərin istəkli müəllimimiz**
**Lev Nikolayeviç!**

Öz məktubumla Sizi narahat etdiyimə görə, Sizin qarşınızda üzrxahlıq üçün söz tapa bilmirəm. Bilirəm ki, mənim kimi Sizdən məsləhət almaq istəyənlər çoxdur, bütün bunlara baxmayaraq mən də sizə müraciət edirəm. Çünki həyat mənim qarşımda gücüm çatmaz bir məsələ qoymuşdur.

Mən çalışacam ki, istədiyimi qısaca izah edim. Mənim əlli yaşım var, üç uşaq anasıyam, ərim müsəlmandır, ancaq kəbinimiz qanunidir. Uşaqlarımız Pravoslav (xristian) dininə etiqad edirlər. Qızım on üç yaşındadır. Oğlanlarımdan birinin iyirmi üç yaşı var. O, Peterburq Texnologiya İnstitutunun tələbəsidir. O birinin iyirmi iki yaşı var. Moskvadakı Alekseyev Hərbi Məktəbinin yunkeridir. Bax, bu oğullarım atalarının dini etiqaınıa, daha doğrusu, müsəlmanlığa keçmək üçün məndən icazə istəyirlər. Mən nə etməliyəm? Mən bilirəm ki, indi bu, mümkündür və həmçinin bizdə yaşayan yadellilərə pis münasibəti də bilirəm. Onlarda bu fikrin oyanmasına səbəb xırda həyati məsələlər deyil: nə maddi təminat, nə də mənsəbpərəstlik onları bu işə təhrik edir. Ancaq qaranlıqda qalan tatar (Azərbaycan - Ş.N.) xalqına kömək etmək məqsədini güdürlər. Xalqla qovuşmağa, xalqa yanaşmağa din onlara mane olur. Amma mən qorxuram ki, bu dar düşüncəli məsləhətimlə onları pis məqsədə təhrik edəm. Mən öz dərdlərimlə tənhayam. Ah, əgər mən əzablarımı və mübarizəmi yaza bilsəydim... Mən öz övladlarını dəlicəsinə sevən bir ananın göz yaşları ilə yazıram. Budur, əzabdan ağlını itirmiş halda sizdən məsləhət almaq qərarına gəldim. Siz, yalnız Siz öz

ağlınızla həyatımızın hazırkı şəraitində bunun nə ilə nəticələnəcəyini duya bilərsiniz. Sizə mənim dərdim kiçik və xırda görünə bilər. Ancaq bu, mənə dəhşətli əzablar verir.

Lev Nikolayeviç, Siz bizə, biz balaca adamlara heç vaxt ürəkdən gələn dəyərli məsləhətlərinizi əsirgəməmisiniz. Bunu bildiyim üçün cəsarət edib Sizi öz xahişimlə narahat etdim. Məni təsəlli oduna atın.

Çox-çox üzr istəyirəm ki, Sizin qiymətli vaxtınızı aldım. Bu addımı atmağa məni məcbur edən dəlicisinə analıq sevgisidir.

Bütün qəlblə Sizə sadiq olan
**Yelena Yefimovna Vəkilova.**
Tiflis şəhəri,
Uçebnıy Pereulok 1, ev 8.

* * *

1909-cu il martın on beşində Yasnaya Polyanadan göndərdiyi cavab məktubunda dahi sənətkar yazırdı:

**Yelena Yefimovna (Vəkilova)**

Sizin oğullarınızın tatar xalqının maariflənməsinə kömək etmək arzusunu təqdir etməyə bilmərəm. Belə olduğu halda Məhəmmədin dinini qəbul etməyin nə dərəcədə lazım olduğunu da deyə bilmərəm. Ümumiyyətlə, Sizə deməliyəm ki, hökuməti etiraf etmədən, adamın hansı dinə mənsub olması barədə kimə olursa-olsun, məlumat verməsini artıq hesab edirəm. Elə buna görə də Sizin oğullarınızın dinini pravoslavdan üstün tutaraq qəbul etmələri, yəni bir dindən başqa dinə keçmələri barədə kiməsə məlumat vermələri gərək deyildir. Bəlkə bu, zəruridir, lakin mən bu haqda bir şey deyə bilmərəm, ona görə də Sizin övladlarınız bu haqda lazımı hökumət orqanlarına xəbər verib-verməmələri barədə özləri qərar qəbul etməlidirlər.

Müsəlmançılığın pravoslavlıq qarşısındakı üstünlüyünə və xüsusilə Sizin övladlarınızın xidmət etdikləri məqsədin alicənablığına gəlincə, bu hərəkətə bütün qəlbimlə rəğbət bəsləyirəm.

Xristian idealı və təlimini onun həqiqi mənasında hər şeydən üstün tutan bir adam üçün bunu demək nə qədər qəribə olsa da deməliyəm ki, müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavlığından müqayisəolunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur. Belə ki, əgər bir kəsin qarşısında kilsə pravoslavlığına, yoxsa ki, islam dininə sitayiş etmək yollarından hansını seçmək məsələsi qoyularsa, onda hər bir ağıllı adam, mürəkkəb və anlaşılmaz ilahiyyatın - üçsifətli allahın, günahın bağışlanması mərasiminin, dini ayinlərin, İsanın anasına yalvarışının, müqqəddəslər və onların şəkillərinə saysız-hesabsız ibadətlərin əvəzinə bir ehkamı vahid Allahı və peyğəmbəri olan islam dinini, şühbəsiz ki, üstün tutar. Bu, başqa cür ola da bilməz, çünki xristian

təliminin mahiyyətini qaranlıqlaşdıran və kilsəyə daxil olan bir çox mövhumi mərasimlərin olmaması baxımından və xristianlıqdan 600 il sonra meydana çıxması baxımından müsəlmançılıq xristianlıqdan üstün durmaya bilməz. Ayrıayrı fərdlərin, bütün insanlığın və bütün insanların həyatının əsasını-təşkil edən dini şüurun təkmilləşdiyi kimi, həyatda hər şey inkişaf edir və təkmilləşir. Dinin təkmilləşməsi isə onun sadələşməsindən, aydınlaşmasından və onu müəmmalı edən hər şeydən azad olmasından ibarətdir. Dini həqiqətin onu əmmalı edən hər vasitədən azad edilməsi ən qədim zamanlardan bəri, bütün böyük dinlərin əsasını qoyan bəşər mütəfəkkirləri tərəfindən həyata keçirilmişdir. Beləliklə, bizə məlum olan bütün dinlərin hamısından əvvəl belə yüksək, uca din anlayışı Vedının (Hianistanda) ktablarında sonralar Moiseyin, Buddanın, Konfutsyanın, Lao-Tsenin, Xristianın və Məhəmmədin  təlimlərində verildir. Dini onun köhnə, kobud mənasından azad edib, daha dərin: sadə və ağıllı həqiqətlərlə əvəz edən bütün bu təzə din xadimləri böyük adamlar olublar, lakin məhz böyük adam olduqlarındandır ki, həqiqəti olduğu kimi, bütün aydınlığı, dərinliyi və saflığı ilə keçmiş yanlış fikirlərindən azad şəkildə ifadə edə bilməyiblər. Bu adamların səhv edə bilməyəcəkləri, onların bütün dediklərinin təkzibolunmaz əsl həqiqət olduğu güman edilsə də, onların özlərindən çox-çox aşağıda duran şagirdləri həqiqəti bütün dərinliyi ilə dərk etmədən, təbiidir ki, onu daha dəbdəbəli və hamı üçün mütləq etmək arzusu ilə ona çoxlu lazımsız əlavələr, ələlxüsus əcaib ünsürlər daxil etdiklərindən, əksəriyyət üçün həqiqəti vacibliyi ilə görmək çətin olur. Həqiqətm din tərəfindən belə təhrifi nə qədər çox etiraf edilmişdirsə, bu təhrifiər o qədər də çox artmış, nəticədə din xadimləri tərəfindən kəşf olunmuş əsl həqiqət qaranlıqlaşmışdır. Elə buna görə də ən qədim dinlərdə həqiqəti gizləyən möcüzə və mövhumatlar hər şeydən çoxdur: bu, ən çox, ən qədim dində, oramin dinində, ondan az yəhudi dinində, ondan da az budda, konfuksiya, taosist dinlərində, daha az xristian dinində, nəhayət, lap az və axırıncı böyük din olan islam dinindədir. Odur ki, müsəlmanlıq bu baxımdan ən əlverişli şəraitdədir.

İslam dini onda xarici, qeyri-təbii nə varsa, hamısını atsa və öz bünövrəsinə Məhəmmədin dini - mənəvi təliminin əsaslarını qoysa, təbiidir ki, bütün böyük dinlərin əsasları, ələlxüsus, həqiqəti etiraf edən xristian təliminin əsasları ilə birləşir. Sizə belə uzunuzadı ona görə yazıram ki, siz mənim fikirlərimi oğullarınıza çatdıracaqsınız və bu fikirlər onların gözəl məramlarının həyata keçməsinə yaraya bilərlər. Dinin mahiyyətmi təşkil edən həqiqətlərin böyük onu qaranlıqlaşdıran hər şeydən təmizlənməsinə təsir etmək insan fəaliyyətinin ən yaxşı növlərindən biridir. Əgər Sizin övladlarınız bu fəaliyyəti həyat məqsədləri hesab etsələr, onda onların həyatı dolu və tam olacaq.

Bilmirəm, müsəlmançılıqda mənə məlum olan, ali əsas həqiqətləri gizlədən yanlış  fikrlərdən və mövhumatından azad edilməsinə xidmət edən iki təlim Sizə və Sizin övladlarınıza məlumdur, ya yox. Buna görə, hər iki təlim təqibə məruz qalıb, indi də məruz qalır. Bu təlimlərdən biri İranda yaranmış, sonra Türkiyəyə keçmiş və orada təqibə məruz qalan babistlər təlimi indiki Akkedə yaşayan Baqo-Ullanın oğlunda səfərbər olub.

Ancaq bütün insanlıq üçün vahid olan məhəbbət dinini qəbul edən bu təlim, ibadətin heç bir xarici formasını qəbul etmir.

İkinci təlim Kazanda meydana çıxıb. Onun tərəfdarları özlərini banilərinin adıyla, Allah alayı və yaxud da Vaisovçular adlandırırlar. Bu adamlar da inamın mahiyyətini məhəbbətdə görürlər və məhəbbətə zidd gedən bütün tədbirlərdən kənarda qalırlar. Bu sekta da təqib olunur və bu günlərdə onun rəhbərləri tutulub həbsxanaya salınıblar.

Əgər mənim məsləhətlərim heç olmasa bir şeyə yarasalar, Siz və yaxud da Sizin oğullarınız özlərinin sonrakı fəaliyyətləri haqqında qərarlarını mənə bildirsələr, çox şad olaram.

**Lev Tolstoy** [2]

Görünür, böyük Tolstoyu ananın məktubu bərk həyəcanlandırıb. Bunu dörd səhifəlik və demək olar ki, təcili yazılan cavab məktubundan da hiss etmək olur. Tolstoyun: “müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavçılığından müqayisə olunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur” cümləsi onların ailə intizarına son qoydu. Məktub ailədə hökm kimi oxunub, qanun kimi qəbul olundu.

Lev Tolstoyun məktubundan sonra Tiflisdəki Zaqafqaziya Ruhani İdarəsi general-mayor İbrahim ağa Vəkilovun övladlarını müsəlmanlığa qəbul etmiş və bu barədə Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadənin imzası ilə rəsmi sənəd vermişdir. Uşaqların adını da dəyişdirmişlər: Boris Faris olmuş, Qleb isə Qalib kimi rəsmiləşmişdir.

Lev Tolstoyun Yelena Yefimovna Vəkilovaya yazdığı məktubun əslini oğlu Faris 1978-ci ildə Moskvadakı Lev Tolstoy adına Muzeyə vermişdir. Surəti isə bu sətirlərin müəllifindədir.

Dahi Tolstoy müsəlman dininə etiqadını təkcə bu məktubla izhar etməmişdir. Onun çoxminli qələm və qəlb dostları Tolstoyun İslam dininə, Məhəmməd peyğəmbərin şəxsiyyətmə ülvi məhəbbəti barədə yazır, söhbət açırlar. Tolstoyun özünün birbaşa etirafi isə ilk dəfə möhtərəm oxuculara təqdim etdiyimiz aşağıdakı söhbətmdə aydın görünür.

Milləyyətcə slovak olan D.P.Makovitski altı il Lev Tolstoyun şəxsi həkimi olmuş və çoxsaylı qonaqların Tolstoyu ziyarət etməsi barədə “ 1904-1910-cu illərdə Tolstoyun yanında” adlı monumental bir əsər yazmışdır.

1979-cu ildə həmin dörd cildlik “Yasnopolyana qeydləri” adı ilə Moskvada ilk dəfə nəşr olundu. Kitabın üçüncü cildinin üç yüz əlli altıncı səhifəsində Tolstoyun ailəvi söhbəti verilib. Oxucu orada dahi yazıçının general İbrahim ağa Vəkilovun həyat yoldaşından qayğısının və İslam dinini qəlbən sevməsinin bir daha şahidi olur.

Duşan Petroviç Makovitski yazır:

“1909-cu il martın 13-də Lev Nikolayeviç söhbət zamanı dedi: bir anadan məktub almışam, yazır ki, uşaqlarımın atası müsəlmandır, özüm isə xristianam. Iki oğlum var: biri tələbədir, o biri zabit. Hər ikisi də müsəlman dininə keçmək istəyir.

---

2 Lev Tolstoyun məktubu makinada yazılıb. Müəllif cümlənin altından xətt çəkib və sonda “Lev Tolstoy” sözlərini öz dəsti-xəttilə yazıb - Ş. N.

**Sofya Andreyevna:** - Yəqin ki, oğlanları müsəlman dininə çox-arvadlı olmaq xatirinə keçmək istəyir.

**Lev Nikolayeviç**: - Nə olar ki... Məgər bizdə çoxarvadlılar azdır?

Sonra Lev Nikolayeviç dedi ki, bu məktub haqqında fikirləşərkən mənim üçün çox şey aydınlaşdı. Məhəmməd həmişə Yevangelini üstələyir. **O, İsanı Allah hesab etmir və özünü də Allaha bərabər tutmur. Müsəlmanların allahdan başqa allahı yoxdur və Məhəmməd onun peyğəmbəridir.** Burada heç bir müəmma və sirr yoxdur. Hansı yaxşıdır: xristianlıq yoxsa müsəlmançılıq? **Mənim üçün aydındır ki, müsəlman dini daha yaxşıdır, daha üstündür.** Qısa müddət susduqdan sonra Lev Nikolayeviç təkrar etdi: - **Müsəlmançılıq müqayisəolunmaz dərəcədə xristianlıqdan üstündür. Müsəlmançılıq mənə çox kömək etmişdir.**

**Mixail Vasilyeviç**: - Zaporojyeli nekrasovçular [3] müsəlman dininə keçmişlər.

**Lev Nikolayeviç**: - İnsan inkişaf etdikdə dinin əsasları da: taosizm, buddizm, xristianlıq da inkişaf edir. Bunların da hamısının dini əsasları birdir. Zaman keçdikcə bu da birliyə və sadəliyə gətirib çıxardır.

## GECİKMİŞ CAVAB

Düz səksən iki il keçəndən sonra "Literaturnaya qazeta" yeddi nömrəli dosyesində (1991-ci il) general İbrahim ağa Vəkilovun ailə məktubu haqqında məlumat verdi. Dosye islam dininin bütün doğmalarını özündə birləşdirən dahi kitab - Qurani-Kərimə həsr olunmuşdu. Bu təşəbbüs İslam dininin əsasları barədə çoxminli rus oxucularına açıq, mübaliğəsiz məlumat vermək üçün gözəl bir başlanğıc idi.

Yazıçı Lev Tolstoyun Yelena Vəkilovaya yazdığı məktubdan hissələr dərc edən qəzet həm də sorğu vermişdi ki, çox təəssüf edirik, Vəkilovanın şəxsiyyəti haqqında heç bir məlumatımız yoxdur.

Azərbaycanda bu sorğuya cavab verən bircə adam tapıldı - generalın yeganə nəvəsi, professor Leyla Qalib qızı Vəkilova. Cavabında bu məsələni dəqiq açıqlayan Leyla xanım yazır:

**"Əhvalat belə olmuşdu: Qızlıq famili Yermolayeva olan Yelena Yefimovna hərbçi-zadəgan ailəsində doğulmuşdur. Tiflisdə zabit toplarışlarının birində o, gənc zabit İbrahim ağa Paşa ağa oğlu Vəkilovla görüşüb tanış olur.**

Bizim Vəkilovlar nəsli Azərbaycanın qəza şəhəri Qazaxdandırlar. Zadəgan silkinə məxsus olan nəslimiz rəsmi olaraq üç yuz əlli ildən çoxdur ki, davam edir. Bizim nəsil öz xalqına, vətəninə bir çox görkəmli hərbçi, alim, yazıçı və sairə bəxş etmişdir ki, onların arasında müasir Azərbaycan ədəbiyyatının korifeyi şair Səməd Vurğunun adını çəkməmək olmaz.

---

3 1708-ci ildə Bulavin üsyanı yatırıldıqdan sonra ataman İqnat Nekrasovun rəhbərliyi ilə Türkiyəyə köçən Don kazakları - Ş. N.

İki gənc - Yelena Yefimovna və İbrahim ağa Paşa ağa oğlu bir-birini sevirlər. Lakin onların birgə səadətlərinə din ayrılığı mane olurdu. Azərbaycanlı İ.Vəkilov islam, Y.Yerınolayevna isə pravoslav dininə məxsus idi. Rusiya imperiyasının o vaxtı qanunlarına görə kəbin kəsdirmək üçün ikisindən biri öz dinindən imtina etməli idi. Ancaq onların heç biri tərbiyə olunduqları dini ehkamlara qarşı çıxa bilmir. Belə olduğu halda mənim babam İbrahim ağa Vəkilov imperatora müraciət edir. Əla-Həzrətdən xahiş edir ki, onların dinlərini dəyişdirmədən kəbin kəsdirınələrinə icazə versin. Uzun çəkişmələrdən sonra bu icazə verildi. Lakin Rusiya imperiyasının qanunlarına görə belə kəbindən sonra dünyaya gələn uşaqlar pravoslav dinində tərbiyə almalı idilər.

Beləliklə, Yelena Yefimovna hər üç uşağını - qızı Reyhanı, oğlanları Boris və Qlebi xaç suyuna salır. Lakin atalarının, dost və qohumlarının təsiri ilə uşaqlar islam dininə daha çox meyl və rəğbət göstərirlər. Analarını çox sevən hər üç uşaq böyüyəndə ondan xahiş edirlər ki, onların müsəlman dininə keçmələrinə razılıq versin.

Məhz bu səbəbə görə də mənim nənəm onu üzən "nə etməli?" sualı ilə "xristian dininin vicdanı" sayılan yazıçı Lev Tolstoya müraciət etməyə məcbur olur.

Lev Tolstoy dörd səhifəlik, geniş məktubla nənəmə cavab yazır. Həmin məktubdan bəzi parçaları Siz qəzetmizin yeddinci nömrəsində - dosyedə dərc etmisiniz.

Tolstoyun məktubundan sonra Yelena Yefimovnanın və İbrahim ağa Paşa ağa oğlunun uşaqlarının üçü də müsəlman dinini qəbul edir. Oğlanları adlarını belə dəyişirlər - Boris Faris, Qleb isə Qalib olur.

Yelena Yefimovna bütün həyatını sadiq ərinə və sevimli uşaqlaırna sərf etmişdir. Hərbi vəzifəsinə görə ərinin hara göndərilməsindən asılı olmayaraq (babam qərargah generalı rütbəsinə qədər yüksəlmişdir) nənəm həmişə onu müşayiət etmişdir. O, çox savadlı qadın olmuş, bir neçə dil bilmiş, ədəbibədii tərcümələrlə məşğul olmuş, maraqlı xatirələr yazmışdır. Nənəm 1923-cü ildə Tiflisdə vəfat etmişdir.

Mənim babam və onun hər iki oğlu öz xalqına, Vətəni Azərbaycana böyük inam və sadiqliklə qulluq etmişlər. Xüsusilə, 1918-20-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulmasında onların əvəzsiz xidmətləri olmuşdur.

Babam Ibrahim ağa hərbi topoqraf idi. O, İran, Türkiyə və Zaqafqaziyanın xəritəsini yaratmışdı. Azərbaycanın ictimai həyatında görkəmli yer tuturdu. Azərbaycanda Demokratik Respublika olduğu zaman o, Gəncənin general-qubernatoru idi. Türk, İran və rus ordenləri ilə təltif olunmuşdu.

Atam Qalib bəy İbrahim ağa oğlu Vəkilovun hərbi-texniki təhsili vardı. Birinci dünya savaşında iştirak etmişdi. Hərbi xidmətlərinə görə bir sıra ordenlərlə, o cümlədən müqəddəs Georgi xaçı ilə təltif olunmuşdu.

Əmim Faris bəy İbrahim ağa oğlu isə ixtiralarına görə bir sıra patent qazanmış istedadlı mühəndis idi. Təəssüf ki, bizim ailəmiz də siyasi təzyiq tədbirlərindən kənarda qalmadı.

1931-ci ildə atam birinci dəfə həbs olundu, sonra səhhətinə görə həbsdən azad edildi. 1937-ci ildə onu ikinci dəfə həbs etdilər və günahsız olmasma baxmayaraq, keçmiş çar və müsavat zabiti kimi güllələdilər...

Əmim isə on səkkiz il Karaqanda, Maqadan və Sibir sürgunü çəkmişdi. Atamdan xatirə olaraq məndə yalnız onun (ölümündən sonra) bəraət alması haqqında olan arayışlar qalmışdır.

Sizin dosyenin səhifsində adını çəkdiyiniz Y.Y.Vəkilovanın ailəsi haqqında mənim demək istədiyim bunlar idi.

“Hə, bir neçə kəlmə də özüm haqqında demək istəyirəm. Mən-Leyla Qalib qızı Vəkilova - pedaqoji elmlər doktoru, M.F.Axundov adına Pedaqoji rus dili və ədəbiyyatı Institutunun professoru, Azərbaycanın ali və orta məktəbləri üçün rus dili üzrə bir sıra dərsliklərin müəllifiyəm. Bütün şüurlu həyatımı gənclərin tərbiyəsinə və təhsilinə sərf etmişəm.”

## QÜRBƏTDƏN GƏLƏN MƏKTUB

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində iki qardaşın yeganə bacısı Reyhan xanım idi. Atasından və əmisindən fərəhlə danışan Leyla xanım bibisi haqqında heç bir məlumat vermir. Əlbəttə, bu səbəbsiz deyil. 1919-cu ildə Azərbaycan nümayəndəsi kimi Fransada işləyən Abbas bəy Ataməlibəyov həyat yoldaşı Reyhan xanımı da özü ilə aparmışdı. 1920-ci il aprel çevrilişindən sonra onlar geri qayıtmadılar. Şübhəsiz ki, Reyhan xanım “Vətən” deyib, bolşevik-daşnak rejimilə yaşayan o vaxtkı Azərbaycana qayıtsaydı, bəy nəsilli, müsavat generalının qızına da yaxşı məlumdur. Otuz yeddinin qara, məşum günlərində doqquz yaşlı uşağa on bir il həbs cəzası kəsən, ata-anasını, hətta uzaq qohumlarını güllələdən sovet totalitar hakimiyyətmə etibar edib qayıtmaq mümkünmü idi? ƏJbəttə yox. Bütün bunları - sürgün və güllələmələri onlar okeanın o tayında yaşasalar da, bilirdilər.

Yadımdadır, yetmişinci illərdə Faris bəylə tez-tez görüşəndə bir neçə dəfə bacısı Reyhan xanımın adını çəkib ağladı.

- Faris bəy, bacınız sizdən böyük idi, yoxsa kiçik? - deyə soruşdum.

- Ailəmizin ən kiçiyi idi, - dedi. - Şən, şıltaq bircə bacımız vardı. O, 1896-cı il iyunun 20-də Tiflisdə anadan olmuşdu. İki oğuldan sonra dünyaya gələn bacımın şərəfinə atam bir qoç qurban kəsdi. Bacım ilk təhsilini Tiflisdəki Nücabə qızlar məktəbində almışdı. 1917-ci ildə onun toyu oldu. Əri Abbas bəy Ataməlibəyov əslən Şamaxıdan olan, lakin çoxdan Bakıda yaşayan Seyfulla bəyin oğlu idi. Onlar varlı-dövlətli, həm də ali dərəcədə ziyalı bir nəsil idi. Abbas bəy Üzeyir bəyin qardaşı Ceyhun bəy Hacıbəyli, Əlimərdan bəy Topçubaşovla yaxın dost idi. Onlar Fransaya da birgə getdilər, bir daha qayıtmadılar. Atamın sağlığında, qardaşım və mən həbs olunmamışdan əvvəl məktublaşırdıq. İndi isə nə öldüsündən, nə də qaldısından xəbərimiz yoxdur...

Nə az, nə də çox, yetmiş yeddi ildən sonra general ailəsinin yeganə varisi Leyla xanım Amerikadan məktub və fotoşəkil aldı. Məktub və fotoşəkli ona bibisi oğlu Qalib göndərib. Təbii ki, belə məktubu oxumaq nə qədər sevindirici olsa da,

həyəcaın ondan qat-qat artıqdır. Professor Leyla xanım Vəkilova ingilis dilində yazılmış məktubun mətni ilə məni tanış edir.

- Bibim Reyhan xanım 1923-cü ildə anadan olan oğluna mənim atamın, yəni kiçik qardaşı Qalib bəyin adını qoyub. Mənə uşaq vaxtı babam demişdi ki, sənin bibin oğlu var. Hətta onun balaca vaxtı çəkilmiş iki foto şəklini də göstərmişdi. 1934-cü ildə babam İbrahim ağa vəfat etdikdən sonra nə bibim Reyhan xanımdan, nə də onun oğlunun taleyi haqında heç bir məlumatım yox idi. İki min birinci ilin iyun ayında mənə xəbər verdilər ki, bibin oğlu Qalib Atamalibəyov sizi axtarır. Mən ona ev telefonumu və ünvanımı göndərdim.

- Leyla xanım, 1919-1920-ci illərdə Reyhan xanım və ailəsi Fransada yaşayıb. Bəs necə olub ki, indi Amerikadan məktub gəlib?

- Bibim oğlunun yazdığına görə 1920-ci ildən sonra onlar çox çətin və əzablı günlər yaşayıblar. Bu əzablara baxmayaraq, Qalib yaxşı təhsil alıb, dünyanın bir neçə böyük ölkəsini dolaşıb. Hələ Parisdə yaşayanda o, Sarbonna universitetmi bitirib. Müharibə vaxtı fransızların işğalçı qoşunlarının tərkibində Almaniyada hərbi qulluqda olub.

1946-cı ildə onlar ailəlikcə Gənubi Amerikaya, Çiliyə köçüblər. Qalib farınokologiya mütəxəssisi kimi firınada işləyib. Onun Tayvanda, Çilidə, Hindistanda, Yuqoslaviyada və Misirdə filialları olub. Nəhayət, altınışıncı illərin sonunda Amerikada daimi yaşayıb. Bibim Reyhan xanım 1966-cı ildə Çilidə, əri Abbas bəy isə 1971-ci ildə Amerikada vəfat edib.

Yuqoslaviyada bibim oğlu milliyyətcə serb, sənəti kimyaçı olan bir qızla tanış olub ailə qurub. Onların indi iki övladı var - oğlu Abbas-Dominik və qızı Tamara-Mariya adlı. Məktubunda Qalib söz verir ki, 2002-ci ildə dədə-baba Vətəni Azərbaycana ziyarətə gələcək.

## TİFLİSDƏKİ İZİMİZ

Azərbaycanlı seminaristlər Qoridə özlərinin gənclik illərini keçirmişlər. Onlar Gürcüstan və gürcülər haqqında ən yaxşı təəssüratlarla gedirlər. Gürcüstan Azərbaycanın bir çox mədəniyyət xadimlərinin mənəvi vətəni olmuşdur. Belə vətəni unutmaq olarmı? Mən Gürcüstan və Qori şəhərinin sakinlərinə səmimi münasibətlər üçün dərin minnətdarlığımı bildirirəm.

**Firudin bəy Köçərli,**

(1918-ci ildə “Qruziya” qəzetinin müxbirinə verdiyi müsahibədən).

Ötən əsrin əvvələrindən başlayaraq Tiflisdə bizim mütərəqqi fikirli ziyalılarımız daha çox məskən salıblar. Ona görə də inqilaba qədərki ziyalılarımızın hansının ömür yoluna nəzər salırsansa, istər-istəməz Tiflislə bağlılığına rast gəlirsən. Təəssüf ki, belə görkəmli şəxsiyyətlərimizin adları əbədiləşdirilmir. Olub-qalan nişanələr isə bir yandan silinib itirilir.

General-topoqraf İbrahim ağa Vəkilovun ötən əsrin sonlarında tikdirdiyi şəxsi mülkü Uş.Çxeidze küçəsində əsl memarlıq abidəsi idi. İki göz istəyirdi tamaşa eləsin. Bu evi mən 1985-ci ildə generalın oğlu Faris bəyin çəkdiyi sxem vasitəsilə axtarıb tapmışdım. Bakıya qayıdanda Faris bəyə dedim ki, eviniz sağ-salamatdı, getdim, Tiflisdə ziyarət elədim. Onda Faris bəyin necə sevindiyinə bir Allah, bir də mən şahidi oldum. Doxsan dörd yaşlı tənha qoca durub qara şkafin enli siyirınəsində saxladığı həmin evin foto şəklini tapdı, dönə-dönə öpdü, uşaq kimi kövrəldi.

İkimərtəbəli mülkdə iki gürcü, bir erməni ailəsi yaşayırdı. Soruşdum ki, bilirsiniz bu mülk kimin olub? Cavab verdilər ki, bir tatar generalının.

Bu dəfəki gəlişimdə də dözməyib, yenə həmin evə baş çəkmək istədim. Hansı gözəgörünməz qüvvəsə məni ora çəkirdi. Elə bilirdim orda - o mülkdə, qarşısındakı o cənnətəbənzər bağda Azərbaycanın bir parçası öz oğlunun həsrətindədir. Üstəlik də Faris bəy danışmışdıki, qapımızdakı ağacların hamısını atam Qarayazıdan, Salahlıdan gətirtmişdi. Atam o ağaclarla həmişə həmsöhbət olardı. Onları sığallaya-sığallaya, hər bir ağacın boyunu sevə-sevə böyüdərdi. Uzaq şəhərlərə topoqrafiya çəkilişlərinə gedəndə onlara da salam yazırdı. Anama, bizə dönə-dönə tapşırardı ki, ağaclar amanatdı, onlara vaxtında su verin, korluq çəkməyə qoymayın.

Veriyski körpüsünə keçib balaca dikdirə çıxanda gözlərimə inanmadım. Generalın mülkü yox idi, yer üzündən silinmişdi, sanki heç burda belə şey olmayıbmış. Yalnız sahibsiz bağın ağacları qalmışdı. Məni qınamayın, mənə elə gəldi ki, o ağaclar yetim uşaq kimi ağlaşırdılar. Yaxınlaşıb oxşadım onları. Əlimi gövdələrinə çəkdim. Generalın ruhuna rəhmət oxudum, yaxşı tanıdığım mərhum Faris bəyi yada saldım. Kövrəldim. “Eh, dünya, niyə belə vəfasızsan” - pıçıldadım. Başım üstündə göyə yüksələn ağacların yarpaqları xışıldadı. Küləkmi tərpətdi onları, yoxsa mənim gəlişimə sevinclə pıçıldaşdılar? Deyə bilmirəm, bircə şeyi bilirəm ki, canıma ad saldı o ağacların qürbətdə yetim qalmağı...

Xeyli aralıdakı qonşulardan soruşdum ki, bu mülkü niyə uçurublar? Cavab verdilər ki, guya yanından keçən yolu genişləndirınək istəyiblər, yol-zad da çəkməyiblər. Evi uçurduqlarına da peşman olublar...

Beləcə, bizim bir tarixi abidəmiz, tariximiz keçmiş Tiflisdən silinib. Acınacaqlı haldır ki, bu da bizim səlahiyyətli vəzifə adamlarımızı narahat etmirdi. O vaxt, 1985-ci ildə ev salamat olanda Bakıda rəsmi idarədə, bir rəsmi vəzifə sahibinə dedim ki, Tbilisidə generalın evi qalır.

- Nə demək istəyirsən? - deyib, boz-boz üzümə baxdı.

- Yaxşı olar, - dedim - Gürcüstan hökuməti ilə danışıb mülkə bir lövhə vurdurasınız. Axı, o evdə xalqımızın yeganə topoqraf-generalı İbrahim ağa Vəkilov yaşayıb. General İbrahim ağa Vəkilov tarixi şəxsiyyətdir...

Məni axıra qədər dinləməyən rəhbər şəxs etinasızlıqla:

- Fikirləşərik, - dedi, - indi vaxt yoxdur.

Bizim "ağıllı rəhbərimiz" fikirləşməyə vaxt tapana kimi "dəli vurub çayı keçdi"...

Həmin il - 1985-ci ilin iyununda Tbilisidə şahidi olduğum bir hadisəyə azərbəycanlı kimi hədsiz sevindim. İndi unuda bilmirəm. Bir küçədən keçəndə kitab mağazası görüb içəri keçdim. Satıcı yaraşıqlı cavan bir oğlan idi. Mən rusca soruşdum ki, sizdə tarixi mövzuda yaxşı kitab varmı? Saxlancın varsa, ver, neçəyə desən alaram. Oğlan üzümə baxıb, təmiz Azərbaycan dilində:

- Var, - dedi, - buyurun, alın, cavan yaşında Gəncədə vəfat etmiş şair Nikoloz Barataşvilinin həyatından sənədli povestdir. Alsanız peşman olmazsınız. Burda o dövrün Gəncəsi haqqında maraqlı epizodlar var.

- Azərbaycanlısanmı? - deyə, sevinclə soruşdum.

- Yox, - dedi, gürcüyəm. Meydanda yaşayıram. Bizim Meydanda yaşayan bütün millətlər Azərbaycan dilində mənim kim təmiz danışırlar, hələ sizin mahnıları da oxuya bilirəm, hər bazar günü saat ikidə "muğamat saatı"nı səbirsizliklə gözləyirəm.

Dünən general İbrahim ağa Vəkilovun mülkünün uçurulmağı qanımı qaraltmışdısa, bu gün dilimizə, musiqimizə olan hörmət məni göyün yeddinci qatma qaldırdı. Kitab mağazısından sinədolusu sevinclə çıxdım.

## HƏRBÇİ VƏKİLOVLAR

Zatından bir hünər görünsə səndə,
Səni yaşadacaq özün ölsən də.

**Əmir Xosrov Dəhləvi,**
**məşhur hind şairi.**

İstər imperiya dövründə, istər 1918-1920-ci illərdə Azərbaycan "Demokratik Cümhuriyyətn Milli ordusunda və aprel" çevrilişindən sonra da Vəkilovlar nəslinin silah tutan cəsur övladları hərbi sahədə layiqincə qulluq etmişlər. Azərbaycanın Rusiya işğalından sonra sevimli şairimiz Səməd Vurğunun mənsub olduğu Vəkilovlar nəslindən imperiya ordusunun sıralarında igidlik göstərən hərbçi oğullar olmuşdur. 1855-ci il sentyabrın 12-də Qafqaz Əlahiddə Ordusunun komandanı general N.N.Muravyovun verdiyi əmrdə oxuyuruq:

**"Üçüncü müsəlman-süvari (Azərbaycan - Ş.N.) alayındakı qazaxlılardan ibarət bölüyün komandiri, kapitan Mənsur ağa Vəkilova "İgidliyinə görə" və üstü yazılı dördüncü dərəcəli "Müqəddəs Anna ordeni", Qazax bəy polusotniyasından olan milis praporşiki Mir Mirzə Məhəmməd Şərif oğluna podporuçik rütbəsi, Borçalı bəy polusotniyasının vəkili Məmməd Şah Ağasultanova gümüş temlyak gəzdirınək huququ və yunker rütbəsi, Qazax bəy polusotniyasından Mustafa ağa Mirzəli ağa oğlu Vəkilova gümüş**

**temlyak gəzdirınək huququnda yunkerlik rütbəsi verilsin" (Bax. "Kafkaz" qəzeti, № 85, 24 sentyabr 1855-ci il).**

1889-cu ildə Tiflisdə nəşr olunmuş Qafqaz hərbi-tarix muzeyinin "Soraq kitabçasında belə bir məlumata rast gəldim: "Polkovnik Mirzə Xudadat bəy Vəkilov 1822-ci ildə Salahlı kəndində anadan olub. İlk zabit rütbəsini 1847-ci il iyunun 2-də, polkovnik rütbəsini 1879-cu il dekabrın 14-də alıb. Hazırda Qafqaz Əlahiddə ordusunda xidmətdədir. İgidliyə görə təltif olunduğu ordenlər: dördüncü dərəcəli Müqəddəs Anna (1847), üçüncü dərəcəli Müqəddəs Anna, bantla birgə (1851), Müqəddəs Stanislav (1858), İmperatorun tacqoyma mərasimi münasibətilə orden (1860), ikinci dərəcəli Müqəddəs Anna, qılıncla birgə (1861), Dördüncü dərəcəli Vladimir bantla, birgə (1875), üçüncü dərəcəli Müqəddəs Vladimir (1883) və 1862-ci ildə İranın üçüncü dərəcəli "Şire-Xorşid" ordeni".

Polkovnik Mirzə Xudadat bəy Vəkilov Tifüsdəki hərbi gimnaziyanı bitirib. Qafqaz Əlahiddə Ordusunda Şərq dilləri üzrəmütərcim-tərcüməçi işləyib. O, məşhur tibb alimi doktor Məmmədrza ağa Vəkilovun əmisi oğlu, müsavat lideri Əlimərdan bəy Topçubaşovun isə dayısıdır.

## ALLAHIN MƏRHƏMƏTİ İLƏ BİZ
## ÜMUMRUSİYA İMPERATORU VƏ HÖKMDARI
## BİRİNCİ ALEKSANDR
## BİZƏ SƏDAQƏTLİ QAZAX XALQINA[4]

Bizim Gürcü çarlığının Baş rəisi general A.P.Tormasovun[5] məlumatma görə, keçən 1809-cu ildə çoxsaylı İran qoşunlarının Bizim sərhədlərə basqını zamanı Gürcüstanda yaşayan[6] Qazax camaatı misilsiz şücaət göstərmiş. Bizim taxt-taca sədaqətli olduqlarını göstərmişlər.

Qazax süvarilərinin bu şücaətmi və Bizə göstərilən sədaqətmi nəzrə alaraq (Qazax camaatma) Bizim hökmdarın təşəkkür və ehtiramını bu Fərmanla bildirməyinizi lazım hesab edirik.

**Sankt-Peterburq**
**Bizim Çarlığımızın onuncu ili**
**İmperator Birinci Aleksandr.**
**Daxili işlər naziri: Kozodoyev.**
**7 may 1810-cu il**

---

[4] Səhvdir.Qazax xalqı yox, Qazax caamatı olmalıdır – Ş.N.
[5] A.P.Tormasov 1809-cu ilə kimi rus qoşunlarının Qafqazda Baş komandanı olub – Ş.N.
[6] Gürcüstanla qonşu olan yazılmalıdır. Qazax sultanlığı 1801-ci ildə Şərqi Gürcüstanla birgə Rusiyaya ilhaq olunmuşdu. Şübhəsiz ki, bu səhv ordan yaranıb – Ş.N.

**ALLAHIN MƏRHƏMƏTİ İLƏ BİZ<br>ÜMUMRUSİYA İMPERATORU VƏ ÇARI<br>İKİNCİ ALEKSANDR**

Qoy, hər kəsə aydın və məlum olsun ki, hamımızın sevimlisi imperator Nikolay Pavloviç, Ümumrusiya padşahı, bizim çar atamız, Komet Kazım Hüseynqulu oğluna, onun xidmətdə göstərdiyi çalışqanlıq və səylərə görə, ən mərhəmətlimiz, min səkkiz yüz əlli birinci il, avqustun otuzuncu günü ona Podporuçik rütbəsi vermişdir. Ona görə də Biz, bütün təbəələrimizə bildirərək əmr edirik ki, Kazım Hüseynqulu oğluna Podporuçiklik təsis edib bağışlayırıq və onu Bizim Podporuçik kimi lazım olan qaydada tanıyıb hörmət edin. Biz inanırıq ki, O, ən mərhəmətli tərəfindən ona verilmiş rütbəyə layiq, sadiq və mehriban, zabitə yaraşan kimi hərəkət edəcək. Buna əsasən, Biz Hərbi Nazirliyin Müfəttişlik Departamentmə, imzalayıb Bizim dövlət möhürü ilə təsdiq etməyi tapşırdıq.

**Sankt-Peterburqda 1855-ci il dekabrın 26-cı günü verilmişdir.**

**İmperator Həzrətlərinin Baş Qərargahının<br>Növbətçi Generalının köməkçisi Əlahəzrətm məiyyəti<br>General-mayor -<br>Vitse Direktor vəzifələrini yerinə yetirən -<br>Polkovnik -<br>Hərbi Nazirliyin Müfəttişlik Departamentmdə<br>9218 sayla təsvir edilmişdir.<br>Xarci İşlər Nazirliyində 1519 sayla möhürlənmişdir.**

* * *

Bu rəsmi sənədlərdə imperator Birinci Aleksandrın təşəkkürünü və ehtiramanı qazanan qazaxlılardan ibarət süvari dəstənin kapitanı Mənsur ağa Vəkilov, Vəkil Alı ağa oğlu Hacı Məmmədxan ağa, Xan Şıxlinski, mayor Mustafa ağa Arif Şıxlinski, Alqazax oğlu Əliağa, Nəsrulla bəy, poruçik Mehralı bəy Söyünbəyli, Allahyar ağa Dilbazov, Süleyman ağa Usubov, Həsən ağa Kəsəmənli, Şərif Zaloğlu, Molla İmanverdi Tüklübaşoğlu, Çopur Nəsib və başqaları olmuşlar.

İmperator fərmanının əsli hazırda (kapitan Mənsur ağa Vəkilovun nəvəsi) şair Mənsur Fəxri oğlu Vəkilovda saxlanılır.

Tarixi mənbələrdə belə bir fakt da var ki, 1837-ci ilin yaz-yay aylarında Qafqazda olan çar birinci Nikolay ayrı-ayrı şəhər və mahalları gəzmişdir. Avqustun 18-də Dilicandan Tifiisə qayıdan çarı nüfuzlu şəxs və etibarlı ağa olan Məmmədqulu ağa Vəkilov müşayət etmişdir.

Bu barədə 1912-ci ildə Tiflisdə nəşr olunmuş “Kavkazski sbornik” (I hissə, XXII-cild, səh. 329-da) məcmuəsi daha dəqiq məlumat verir:

"...Mülki qubernator ikinci dəfə Əlahəzrət imperatoru Dilicanda Yelizavetpol vilayətmin və Şəmşəddin məntəqəsinin ağalarından ibarət otuz doqquz nəfərlə qarşıladı. Onların iyirmi nəfəri poruçik Təhsi xanın komandanlığı ilə İstibulaq kəndinə qədər əlahəzrəti müşayət etdilər. Burada əlahəzrət imperatoru otuz nəfərdən ibarət Qazax ağaları qarşıladı. Burdan da iyirmi süvari podpolkovnik Həsən ağanın komandanlığı ilə müşayətçi təyin edilərək Əlahəzrəti Qırmızı körpüyə qədər yola saldılar. Sonra Sıqnax qəzasının hörmətli sakinləri öz başçıları ilə Əlahəzrəti qarşılayaraq əvvəlki qayda ilə knyaz və zadəganlardan ibarət iyirmi nəfər onu Muğanlıya qədər müşayət etdilər. Muğanlı dayanacağında Əlahəzrəti Borçalı məntəqəsindən otuz nəfər qarşıladı. Onların iyirmi nəfəri nüfuzlu Məmmədqulu ağa Vəkilovun komandanlığı ilə Əlahəzrəti Tiflis qəzasının Alget məntəqəsinə qədər müşayiət etdi".

Birinci Cahan savaşında və ondan əvvəlki müharibələrdə Vəkilovlar nəslindən döyüşən orduda xidmət edib ad-san qazananlar da az olmamışdır. Polkovnik Əsəd ağa Vəkil ağa oğlu Vəkilov (1853-1921), Abbasqulu bəy Məmmədhəsən oğlu Vəkilov (1844-1927), Gəray bəy Abbasqulu bəy oğlu Vəkilov (1884-1952), praporşik Lütvəli bəy Abbasqulu bəy oğlu Vəkilov (1890-1932) və başqaları imperiyanın orden, medalı ilə təltif olunmuşlar.

Onlardan biri - **polkovnik Abbasqulu bəy Vəkilov** imperiyanın kavaler ordenləri ilə təltif olunmuşdur. 1867-ci il oktyabrın 10-da zabit rütbəsi alan Abbasqulu bəy uzun müddət Qars şəhərində yerləşən yüz əlli beşinci Quba süvari alayında xidmət edib. Tiflis hərbi gimnaziyasını bitirən Abbasqulu bəy Vəkilov 1884-cü il martın altısında podpolkovnik rütbəsi ilə təltif olunmuşdur. O, qırx ilə yaxın xidmət illərində Hərbi fərqlənmə ordenilə (1861), üçüncü dərəcəli Müqəddəs Stanislav (1873), dördüncü dərəcəli Müqəddəs Vladimir (bant və qılıncla birgə, 1873), ikinci dərəcəli Müqəddəs Stanislav (qılıncla birgə, 1879), ikinci dərəcəli Müqəddəs Anna (1888) və başqa orden, medalla təltif olunmuşdur.

Polkovnik Abbasqulu bəy Məmmədhəsən oğlu Vəkilov 1927-ci ildə yetmiş üç yaşında Bakıda vəfat etmişdir.

1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətmdə Parlamentm üzvü, Bakıda ilk poliklinikaların təşkilatçısı və 1900-cü ildən Qafqaz Tibb Cəmiyyətinin həqiqi üzvü Məmmədrza ağa Vəkilov (1864-1944), daxili işlər naziri Mustafa bəy Vəkilov (1899-1943), Rəhim bəy Vəkilov (1897-1934), Parlamentdə Dəftərxana İdarəsinin rəisi Məmməd ağa Vəkilov (1863-1939) dövlət xadimi kimi fəaliyyət göstərmişlər.

Respublika Mərkəzi Dövlət Tarix Arxivində bir siyahı saxlanılır. Orada Birinci Cahan savaşı başlayanda Qazax qəzasından könüllü olaraq 1915-ci ilin iyun ayında cəbhəyə getmək üçün Tatar-Azərbaycan süvari alayın da yazılanların adı, soyadı göstərilir.

Həmin siyahıda Qazax qəzasnın ayrı-ayrı kəndlərindən 67 nəfər könüllünün adı yazılıb. Salahlı kəndindən olan doqquz nəfərin beşi Vəkilovlar nəslindəndir:

1.Əhməd ağa Qasım ağa oğlu Vəkilov,

2. Mustafa ağa Abdulla ağa oğlu Vəkilov,

3. Mustafa ağa Əbdülkərim ağa oğlu Vəkilov,

4. Saleh ağa Əhməd ağa oğlu Vəkilov,
5. Vəli ağa Nəbi ağa oğlu Vəkilov.

## POLKOVNİK GƏRAY BƏY VƏKİLOV

Hər bir həqiqi insan öz
irsiyyəti ilə fəxr etməlidir.

**Səməd Vurğun.**

1918-ci ildə yeni yaranan süvari rotalarının təşkilatçılarından olub. Birinci süvari alayının komandiri kimi Gəncədə, Tərtər və Bakıda xidmət edib. 1920-ci ilin əvvəllərində isə Bakıdakı birinci kadet korpusunda hərbi təhsil idarəsinin rəisi idi.

Polkovnik Gəray bəy 1884-cü ildə Abbasqulu bəy Məmmədhəsən oğlu Vəkilovun ailəsində anadan olub. Tiflisdəki kadet korpusunu bitirib. Rus-Yapon və Birinci Cahan savaşlarında döyüşən orduda iştirak edib. Döyüş xidmətlərinə görə "Müqəddəs Georgi" ordeninin üçüncü dərəcəsilə təltif olunub. Iyirminci ildən sonra Şəkidə yerləşən ikinci qırmızı kadet korpusunda xidmət edib.

Çar və Müsavat zabiti olduğuna görə şübhəli şəxs kimi dəfələrlə həbs edilib. Xalq şairi Səməd Vurğunun məşhur "Komsomol poeması"ndakı Gəray bəy obrazının müsbət keyfiyyətlər baxımından prototipidir. Heç təsadüfi deyil ki, ölkədə havanın "tutqun" olduğu tuthatut illərində yazdığı poemada Səməd Vurğun daxili bir vüqarla Gəray bəyin mərdliyini, tarixi faciəsini də verə bilmişdir:

**Keçdi o günlər ki, Gəray bəy vardı,**
**Mahaldan-mahala at oynadardı...**
**Elə zəni etmə ki, yenə mən sağam,**
**At sürüb ellərə səs salacağam.**

Səksəninci ilin əvvəllərində professor Fatma xanım Vəkilova ilə tez-tez görüşərdim. Görüşümün səbəbləri çox idi. O vaxtlar "Qoridən gələn Qatar" sənədli povestimi işləyir, lazımi materiallar toplayırdım. Əsərin əsas qəhramanı məşhur ədəbiyyatşünasalim Firudin bəy Köçərli idi. Arxivlərdə, xüsusilə Gürcüstan Dövlət Maarif Arxivinin sənədlərində daha çox iki şəxsin adına rast gələrdim. Məmmədağa və İsmayıl ağa Vəkilovlar. Xeyirxah insan Mirqasım Əfəndiyevdən öyrəndim ki, hər iki Vəkilovlar qardaşdırlar, Firudin bəyin seminariya yoldaşı və sonralar qayrıı olublar. Fatma xanım İsmayıl ağa Vəkilovun qızı idi.

Fatma xanımla Yusif Məmmədəliyev küçəsindəki mənzilində ilk dəfə 1983-cü il aprelin üçündə görüşdüm. Bu tarix qeyd dəftərçəmdə indi də qalır. Mənə məşhur sərkərdəmiz Əliağa Şıxlinskinin müasirlərimizdən heç kəsin bilmədiyi ailə şəcərəsi haqqında geniş məlumat verdi. Onun anası Növrəstə xanım, generalın

bacısı Bədircahan xanımın qızı, generalın bacısı oğlu, qəza pristavı İsfəndiyar bəy Muradov Fatma xanımın doğmaca dayısı imiş.

1912-ci il təvəllüdlü Fatma xanım Vəkilovların və Şıxlinskilərin ailə, kök, nəsil qohumluğunu, necə deyərlər, saçaq-saçaq bilirdi. Bir sözlə, hər iki nüfuzlu nəslin ensiklopediyası idi. O vaxtlarda Fatma xanım əmisi Məmməd ağa və atası İsmayıl ağa haqqında da mənə maraqlı epizodlar danışıb nadir fotoşəkillər bağışladı. Onlardan “Qoridən gələn Qatar” povestində istifadə elədim. Haqqında çox az məlumatım olan, yalnız adını eşitdiyim polkovnik Gəray bəy Vəkilov barədə də ondan məlumat öyrənmək istədim. Professor Fatma xanım mehriban ana qayğısı ilə;

- Oğul, - dedi, - Nazim İbrahimovu tanıyırsanmı? Tanımamış olmazsan?

- Respublika Mətbuat və Nəşriyyat Komitəsinin sədri Nazim İbrahimovu deyirsiniz?

- Bəli!

- Tanıyıram, - dedim, - kitab nəşri sahəsində bütün peşəkar yazarların taleyi ondan asılıdır. Xüsusilə, yazıçılar onun qayğısından razıdırlar. Amma aramızda vəzifə, yaş fərqi var... Fatma xanım, Nazirn müəllimi nə münasibətlə yada saldınız?

- Söhbətimin canı var. Sən bilirsənmi ki, Nazim İbrahimovun həyat yoldaşı Nazimə xanım polkovnik Gəray bəy Vəkilovun nəvəsidir? Nazimə xanımın anası Sona xanım indi də sağsalamatdır. Sona xanım da polkovnik Abbasqulu bəy Vəkilovun nəvəsidir. Yəni polkovnik Gəray bəyin doğma qızıdır. Bizim Vəkilovların bir qolu inqilabdan çox əvvəl İrəvanda, Naxçıvanda, digəri isə Qarsda və Tiflisdə yaşayıb, Gəray bəy də Qarsda anadan olub. Ona görə də Sona xanımla da görüşməyin yaxşı olardı...

Aradan nə az, nə də çox, yeddi il keçəndən sonra “Topoqraf-general İbrahim ağa Vəkilov” kitabını nəşrə hazırlayanda o illərki qeyd dəftərçəmi vərəqlədim. İstər-istəməz mehriban ana, mərhum Fatma xanımın nurlu sifətini xatırladım. Hər iki nüfuzlu nəsil haqqında mənə qiymətli faktlar söylədiyi üçün ona dönə-dönə rəhmət dilədim. Qeyd dəftərçəmi vərəqlədikcə gördüm ki, onun dediklərindən bir çoxuna hələ əməl etməmişəm. Onlardan biri də polkovnik Gəray bəyin qızı ilə görüşmək idi.

...Aylarla bir kamerada olan dustaqlar başlarına gələn qəzavüqədəri danışmaqdan yorulmuşdular. Üç gündən bir müstəntiqin sorğu-sualı olurdu:

- Gəncə üsyanında harada olmusan? Nuru paşa ilə sonuncu dəfə nə vaxt görüşmüsən? Zaqatala üsyanına kim başçılıq edirdi?

“İttihad”çılardan kimləri tanıyırsan, onların təşkilatına nə vaxt qəbul olunmusan?

Belə sorğuların sonu yox idi. Dustaqlar da yaddaşına güc verib altı il əvvəl harada, kiminlə nahar etdiyini xatırlamağa məcbur idilər.

Axşamdan xeyli keçmişdi. Ştabs-kapitan Fərhad bəy Əlibəyovla bir kamerada olan polkovnik Gəray bəy bikef halda oturmuşdu. O, evi, ailəsini fikirləşirdi. Özünün güllələnəcəyini də düşünürdü:

- Onsuz da bir can borcluyam. Gec-tez bu dünyanı tərk etməliyəm. Məndən sonra Sitarənin dörd uşaqla qalması, ona ömürlük əziyyət olacaq...

...Hər gün şər qarışanda elə bil kameraya yığın-yığın qəm-qüssə ələnirdi. Uşaqların hərəkəti, danışığı, illah da axşam işdən qayıdanda bircə qız balası Süfiyyənin onun qucağına atılmasını, şaqraq səsini yadına salanda dəli-divanə olurdu. Dustaq Gəray bəyin iztirab dolu qəlbinin ən dərin guşəsində əziz anasının adını daşıyan Süfiyyəyə ayrıca ata məhəbbəti vardı. Bu sonsuz övlad məhəbbəti bir il idi dustaq polkovnik Gəray bəy Vəkilova əzab verirdi.

Ürəyi köksündə sürətlə döyünən Gəray bəy bikef halda:

- Fərhad bəy, - dedi, - görünür, bizim qismətimizə belə yazılıbmış...

Tavanda tor məftilə salınmış işıq getdikcə zəiflədi. Onun ancaq közərtisi qaldı. Bu, dustaqlara yatmaq üçün işarə idi. Bundan sonra növbətçini, ya da komendantı çağırmağa icazə verilmirdi.

- Aha, - dedi, Fərhad bəy - qismət dedin, işığımız da söndü. Mən bir şeydən qorxuram, Gəray bəy, qorxuram...

Fərhad bəy sağ əlini irəli uzadıb şəhadət barmağını açıb-qatladı.

- Qorxuram qisas alalar...

- Axı, nəyə görə, biz nə günahın sahibiyik? - deyə Gəray bəy hüznlü səslə soruşdu.

- Bəs altı ildi güllələnən yüzlərlə Azərbaycanlı ziyalısı, zabit və əsgəri məgər günahkardı? Sən də, mən də Müsavat zabitiyik, vəssalam! Azərbaycanda meydan sulayan daşnak, bolşeviklərə elə bu bəhanə bəsdi.

- Düz deyirsən vallah, hər şey ola bilər - Gəray bəy bikef halda təsdiq etdi.

- Dayan, - deyib Fərhad bəy onun biləyindən yapışdı. Sol əlilə qapını göstərdi. Kimsə gəlir, yəqin nəzarətçidir.

Şişpapaq bolşevik zabiti gözlüyü açıb, bağladı. Kamerada işıq yenidən artdı. Nəzarətçi şişman qarnı üstündəki kəmərmi sığallaya-sığallaya içəri girdi. Hər iki dustaq dərhal ayağa durdu.

- Polkovnik Gəray bəy Vəkilov hansınızdır? - deyə nəzarətçi xəbər aldı.

- Mən, - deyib Gəray bəy qəddini düzəldib əsgəri qaydada dimdik durdu.

Nəzarətçi onu ilk dəfə görürınüş kimi laqeyd nəzərlərlə başdan-ayağa süzdü. Özü ilə gələn iki əsgərə işarə etdi:

- Çox yaxşı, "hədiyyənizi" götürə bilərsiniz.

Gəray bəy irəli addım atanda nəzarətçi əlini qaldırıb, sərt səslə dilləndi:

- Elə yox, elə olmaz, şələ-külənizlə, əmr belədir.

Fərhad bəy qolunu geniş açıb geriyə dönən Gəray bəyi bərk-bərk qucaqladı. Yaman kövrəlmişdi:

- Allah amanında, qardaş, bu nə iş idi...

Bikef Gəray bəy:

- Niyə narahat olursan, - dedi, - bəlkə başqa yerə dəyişirlər, bəlkə sürgünə...

- Artıq söhbəti kəsin, dustaq Vəkilov, şələ-küləni götür, haydı, - deyə nəzarətçi onlara təpindi.

Sonra qıyqacı baxışlara Fərhad bəyi süzdü:

- Siz dostunuz üçün narahat olmayın, o, çox yaxşı yerə gedir. Onun ikibaşlı danışığından daha da şübhələnən Fərhad bəy:

- Hara gedir? - deyə dərhal soruşdu.

- Hara gedə bilər ki, evə, əzizim, evə, vəssalam! Nəzarətçiyə inanmayan, onu dodaqaltı söyən Fərhad bəy üzünə bağlanan qapıya baxa-baxa quruyub qalmışdı. Kamerada işıq yenidən zəiflədi...

Şamaxı yolundakı həbsxananın komendantı əlini zəif yanan peçdə qızdıra-qızdıra:

- Hə, polkovnik Vəkilov, belə-belə işlər - deyə, ona müraciət etdi.

Stolun üstündəki əl boyda kağızı göstərib:

- Buyurun, hələli sizi bolşevik hökuməti yanında günahınız sübut olunmadı. Ən yaxın adamınız üzünüzə dursa da “İttihad”çılar bunu inkar etdilər.

- Siz də hərbçisiniz, bilməmiş olmazsınız, peşəkar hərbçilər həmişə siyasətdən uzaq olublar. Bu, tarixən belədir, daha doğrusu, əsgəri qaydadır...

- Oho, Vəkilov, sən çox ağıllı, düşüncəli adamsan. Görünur, bəy titulunu nahaq yerə daşımırsan. - Komendant iri bir dəftərxana kitabını ona tərəf itələdi: - Burdan qol çəkin, hələlik azadsınız, evinizə buraxılırsınız. Bundan sonra fəxrlə deyə bilərsiniz ki, bolşevik gülləsi sizdən yan keçdi. Amma siz... - kinli-kinli Gəray bəyə baxıb - bolşeviklərə çox güllə atmısınız, bolşeviklərin qanını su yerinə axıtmısınız, elə deyilmi?

Gəray bəy dinmədi...

Bu epizodu mənə ilk görüşümüzdə Gəray bəyin qızı Sona xanım danışdı. 1926-cı ildə qarlı qış axşamı gecədən xeyli keçəndən sonra Sitarə xanımın qapını açması və atası Gəray bəyin qəfil gəlişini Sona xanım çox yaxşı xatırlayır.

- Bu gözlənilməz gəlişdən özünü itirən anam hey təkrarən atamdan soruşurdu ki, a kişi, nə yaxşı səni buraxdılar.

Atam isə sevinclə bizi öpür, qucaqlayırdı. O, qardaşım Böyükağanın, Rüstəmin dərslərini soruşdu. Balaca Fərruxu və məni dizinin üstündə oturdu. Ata məhəbbətini, həmin gecənin sevincini mən indi də unuda bilmirəm. Həmin gecə evimizin işığı səhərə kimi sönmədi. Birdən atam sərt səslə anama dedi:

- Elə deyirsən ki, nə yaxşı buraxdılar. Axı mənim nə günahım var ki, buraxmayaydılar. Namərd bir qohumla məni üzləşdirdilər.

O mənə nə qədər şər atdısa da faydası olmadı. Onda namərd dedi ki, sən Gəray bəy ağqvardiya ordusunda qulluq etmisən. Mən də cavab verdim ki, əvvəla Müsavat ordusu ağqvardiyaçılardan ibarət deyildi. Əgər sən deyən kimidirsə, onda ikimiz də birgə qulluq etmişik. Müsavat ordusunda sən praporşik, mən isə polkovnik olmuşam. Mənim qismətimə insaflı müstəntiq düşmüşdü. O, milliyyətcə Həştərxan tatarı idi. Növbəti istintaqın birində məndən soruşdu ki, 1924-cu ildə harada olmusunuz? Şəkidə Qırmızı Kadet korpusunda işləmişəm, - dedim. Həmin ili kursantların buraxılışı münasibətilə 1924-cü il noyabrın 7-də Moskvada kursant heyətilə birgə Nərimanovun qəbulunda olmuşam. Bu görüşdən fotoşəklimiz də var.

Bunu eşidən müstəntiqin əhval-ruhiyyəsi tamam dəyişdi. Dedi ki, 1918-ci ildə Nərimanov Həştərxanda olanda məni müalicə edib. Məni ölümdən xilas edib, həyata qaytarıb. Ona görə rəhmətlik Nərimanova böyük hörmətim var.

Atam sonralar da danışırdı ki, sağ-salamat buraxılmağımın səbəbkarı həmin müstəntiqin Nərimanova olan hüsrırəğbətindən irəli gəlib. Ona görə də atam Gəray bəy ömrünün sonuna kimi Nərimanova rəhmət oxuyardı.

- Sona xanım, atanız Gəray bəy Müsavat ordusunda Gəncədə, Tərtərdə hərbi qulluqda olub. 1920-ci ildə Şəkidə Qırmızı Kadet məktəbinin rəisi işləyib. Bəs o həbs olunan ili - 1926-cı ildə harada yaşayırdınız?

- Həmin ili Bakıda Çadrovı küçəsindəki onuncu dalanda (indiki M. Əliyev - Ş.N.) yaşayırdıq. Mən 1920-ci il fevralın 11-də Bakıda anadan olmuşam. Atam Gəray bəy bu xəbəri eşidəndə deyib ki, anam Süfiyyə xanım yenidən dünyaya gəlib. Atamın eyhamını dərhal anlayan anam Sitarə xanım Məmməd qızı Bədəlova mənə nənəmin adını qoyub. Sonralar necə olubsa məni Sona deyə çağırıblar. Atam heç vaxt ikinci adımı dilinə gətirməzdi, acığı gəlirdi. Həmişə məni Süfiyyə deyə çağırardı.

Anamın əsli Şəkidən olub. Atam kimi nəcabətli nəsldən olan anamın ailəsi o vaxt Tiflisdə yaşayırmış. Onlar 1913-cü ildə evləniblər. Ana babam Məmməd məşhur tacir olub. Tiflisdə xüsusi mülkü, mağazaları varmış. Anam ali təhsilli həkim idi.

- Sona xanım, Tiflis dediniz yadıma atanızın arxivdə saxlanılan bir teleqramı düşdü. Onu poruçik Gəray bəy Vəkilov 1901-ci il oktyabrın 7-də ilk qız məktəbinin açılışı münasibətilə Hacı Zeynalabdin Tağıyevə vurub. Atanız Gəray bəy yazır ki, Ünasiyə məktəbinin güşadı günü ilə Sizi təbrik edib, tofıq istəyirəm.

- Siz poruçik deyəndə atamın kinayə ilə tez-tez işlətdiyi bir məsəli yadıma düşdü. O, acığı gələn zabitə deyərdi:

- Praporşik zabit olsa, toyuq da quş olar.

1926-cı ildə tutulanda onun üzünə nahaqdan duranın rütbəsi praporşik olub. Ömrünün son illərində atam süvari generalı Hüseyn xan Naxçıvanskini tez-tez xatırlardı. Hüseyn xan Port-Artur döyüşlərində atamın komandiri olmuşdu.

Yadımdadır, danışardı ki, 1905-ci ildə yaponlarla döyüşdə Hüseyn xan əmr verdi ki, xəncəri dişimizə alaq, qılıncı sağ əlimizə, tüfəngi isə sol əlimizə. Belə yaraqlanıb hücüma keçdik, yaponlar mövqelərini qoyub qaçdılar. Biz bir güllə belə atmadan cəbhəni aldıq.

Polkovnik Gəray bəy Vəkilovun üç oğlu son illərə kimi sağ idi: Böyükağa (1914-1995), Rüstəm (1916-1998). Fərrux (1921-1998). Bu sətirlərin müəllifi onların hər üçü ilə görüşüb söhbət etmişdi.

Böyükağa EA Geologiya institutunun laboratoriya rəhbəri, geologiya-minerologiya elmləri namizədi, Rüstəm əməkdar mühəndis, Fərrux isə baş ədliyyə polkovniki və fəxri prokurorluq işçisi idi.

1992-ci ildə görüşlərimizin birində Böyükağa müəllim mənə iki nadir fotoşəkil göstərdi. İlk dəfə gördüyüm bu tarixi şəkillər altınış səkkiz il əvvəl - 1924-cü il noyabrın yeddisində çəkilmişdi. Şəkildə xalqımızın görkəmli oğlu Nəriman Nərimanov və Zaqafqaziya Hərbi Hazırlıq məktəbinin kursant və zabit heyəti Moskvada təsvir olunmuşdu. Böyükağa Vəkilov da həmin kursantlar arasında olduğuna görə fotoşəklin çəkilmə tarixini mənə nəql etmişdi:

- 1922-ci ilin yazında atam məni “Qırmızı kadetlər korpusu” məktəbinə oxumağa qoydu. Onda mənim səkkiz yaşım vardı. Həmin məktəbə yeddi yaşından on dörd yaşınadək olan uşaqları götürürdülər. Məktəb beynəlmiləl idi. Orda müxtəlif millətlərdən olan uşaqlar oxuyurdu. Azərbaycanlılar əksəriyyət təşkil

edirdi. 1923-cü ildə bizim məktəbin adı dəyişdirilib Zaqafqaziya Proletar Hərbi məktəbi, bir il sonra isə Hərbi Hazırlıq məktəbi adlandırıldı.

Yadımdadır, məktəbin tədris korpusu Bakıda, indiki 1 nömrəli orta məktəbdə, yataq korpusu isə indiki Zabitlər evinin binasında yerləşirdi. Təlim, siyasi-tərbiyə işləri və mədəni-kütləvi tədbirlər tədris korpusunda keçirilirdi. Bu, Zaqafqaziyada yeni-tipli nümunəvi hərbi məktəb idi. Məktəbimiz 1921-ci ilin oktyabrında Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun təşəbbüsü ilə yaradılmışdı. Ona görə də həmişə Nərimanovun diqqət mərkəzində idi.

Hələ birinci kursda oxuyanda Nərimanov tərəfindən qəbul edilməyimiz də yaddaşıma həmişəlik həkk olunub.

Nəriman Nərimanov bir ata kimi bizimlə xeyli səmimi söhbət etdi. Təhsilimizlə, dolanacağımızla maraqlandı, kefimizi xəbər aldı. O, bizim hər birimizdən dönə-dönə soruşurdu ki, məktəbdə nə üçün, hansı məqsəd naminə oxuduğumuzu bilirikmi? Biz də onun bütün suallarına ürəkdən, cəsarətlə cavab verirdik ki, komandir olmaq istəyirik. Bizi ata qayğısı ilə dinləyən Nərimanov şad bir halda “mərhəba, balalarım, sağ olun!” - deyirdi.

1924-cü ildə hərbi paradda iştirak etmək üçün məktəbimizin yüz iyirmi altı nəfər kursant və zabit heyətmi Moskvaya dəvət etdilər. Noyabrın üçündə yola düşdük. Rostova qədər yük vaqonlarında getdik. Gecikdiyimizə görə bizi ordan sürət qatarında yola saldılar. Noyabrın yeddisində səhər Qızıl meydana çatdıq.

Bizi Moskvaya aparan komandirlərimizi yaxşı xatırlayıram. Zaqafqaziya Hərbi Hazırlıq məktəbinin kurs komandiri Həqqi Kəngərlinski, siyasi rəhbər Allahqulu Mehdiyev, məktəbin rəisi Hacıağa İbrahimbəyli, tədris hissəsinin rəisi, atam Gəray bəy Vəkilov və başqaları bizimlə getmişdilər.

Qızıl meydandan keçəndə tribunada dövlət rəhbərləri arasında dayanan Nəriman Nərimanovu görüb daha gur səslə “Ura”! - deyə qışqırdıq. Rəsmi keçiddən sonra bizim batalyonu tribunanının önündə saxladılar. Dövlət rəhbərləri bizim yanımıza enib salamlaşdılar. Mənim kimi 10-12 yaşlı balaca kursantları səmimiyyətlə dindirir, bəzələrini də atıb-tutur, öpürdülər.

Səhərisi bizi SSRİ MİK-nin sədrinin sədri Nəriman Nərimanov Kremldəki klubda qəbul etdi. Xeyli səmimi söhbət edən Nərimanovun sevincinin həddi-hüdudu yox idi. O dedi ki, tapşırıq vermişəm, Sizin hər birinizə Xalq Komissarları Sovetinin hesabından iyirmi manat pul ayırsınlar. Bu pul sizə gündəlik xərclik və valideynlərinizə hədiyə alıb aparmaq üçün verilir.

Sonra bizim kursant batalyonu Kremldə yerləşən hərbi komandirlər heyəti məktəbində oldu.

Bu görüşlərdən sonra Nəriman Nərimanov, MİK Rəyasət Heyətmin katibi Avel Yenukidze bizimlə birgə Kremlin həyətindəki “Çar zəngi”nin yanında şəkil çəkdirdi.

Bu tarixi fotoşəkildə görün kimlər var. O vaxt kursant olanların əksəriyyəti indi görkəmli alim, hərbçidirlər. Polkovnik Əliağa Babayev, Respublika EA keçmiş prezidenti, akademik Rüstəm İsmayılov, əməkdar elm xadimi, elmlər doktoru Məmmədtağı Nağıyev, SSRİ Neft Sənayəsi Nazirliyinin idarə rəisi Əlövsət Qarayev, irriqatoralim Karrar Əliyev, Sovet İttifaqı Qəhrəmanı Aslan

Vəzirov, SSRİ xalq artisti məşhur dirijor Niyazi, Çingiz Hacıbəyov, akademik Şəfaət Mehdiyev, əməkdar mühəndis Böyükağa Məmmədov, elmlər doktoru Məmməd Fərzəliyev, məşhur şairimiz M.Ə.Sabirin oğlu Məmmədsəlim Tahirov, professor, hüquq elmləri doktoru Əyyub Əskərov, polkovnik Səttar Hacıyev, Fərhad Ağayev, müharibə veteranı Əsgər Mirzəyev, fizikariyaziyyat elmləri doktoru Kamal Məmmədov, batalyon komandiri Hüseyn Rəhimov və başqaları.

Onların əksəriyyəti dünyasını dəyişib. Bu nadir fotoşəkil isə o günlərdən nəsillərimizə yadigar qalıb.

Gəray bəyin oğlu Rüstəm Vəkilov: - Atam 1920-ci ilə kimi şərəfli ömür yaşadığını tez-tez xatırlardı. Amma Müsavat dövründəki döyüş yolunu xatırlamaq ona çox çətin idi...

Yadımdadı, otuzuncu illərdə Səməd Vurğun bizə tez-tez gələrdi. Onların ikilikdə elədikləri söhbət gecədən xeyli keçənə qədər davam edərdi. Bəzən mübahisələri qızışıb, səsləri ucalanda anam Sitarə zarafatla deyərdi:

- Balam, bu sinfı düşmənlərin söhbəti qurtarınır ki, qurtarınır.

O da yadımdadır ki, bir dəfə çay aparanda atamın 1924-cü ildə Moskvada Nəriman Nərimanovla görüşündən danışdığını eşitdim. Qorxu hissiyə bunu anama bildirdim. Anam narahatlıqla dedi:

- Bu kişinin gözünü qan örtüb, yenə bizi işə salacaq...

Axı, o illərdə Nəriman Nərimanovun şəxsiyyətinə haqsız olaraq qara kölgə salmışdılar. Onun silahdaşları həbs edilirdi.

1924-cü ildə ordudan təxris olunan Gəray bəy ömrünün axırınadək Respublika Maliyyə Nazirliyində işləyib. 1952-ci il martın on dördündə Bakıda vəfat edib.

Görkəmli müğənnimiz Rəşid Behbudovun anası, maarifçi qadın Firuzə xanım Vəkilova (1889-1933) polkovnik Gəray bəy Vəkilovun doğma bacısı idi.

Ştabs-kapitan Nəsib ağa Əsəd ağa oğlu Vəkilov 1899-cu ildə Qazaxda anadan olub. Qori Seminariyasının Azərbaycan şöbəsini bitirib. 1919-cu ildə Gəncədə praporşiklər məktəbində hərbi təhsil alıb. Müsavat zabiti olduğuna görə 1940-cı ildən 1955-ci ilə qədər Maqadan və Norilskiyə sürgün edilib. 1954-ci il mayın səkkizində qohumu, xalq şairi Səməd Vurğuna məktub yazıb, Vətənə qayıtması üçün ondan kömək istəyib. Şair günahsız həbs olunmuş əmisi oğlu Nəsib ağanın ailəsinə maddi kömək etmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, otuzuncu illərdə Vəkilovlar nəslindən bir çoxları repressiyaya uğramışdır. Səməd Vurğun onlardan yalnız birini - xalq müəllimi Teymur bəy Vəkilovu həbsdən azad etdirə bilmişdi.

Nəsib ağa Vəkilov Norılsk sürgünündən yazırdı:

"Hörmətli və əziz Səməd!

On altı il ayrılıqdan sonra sən mənim məktubumu alıb yəqin ki, təəcüblənəcəksən. Mən qohumlardan heç kəsə məktub yazmırdım ki, onları narahat etməyim. Onlara xətər gəlməsindən qorxurdum. İndi mən? demək olar ki, yarı da olsa azad vətəndaşam. Ona görə də məktub yazıb, özümü xatırlatmağa ciürət edirəm. Bu məktubu sənə Norilskidən evə qayıdan, bizim ümumi tanışımız Əli Səbri çatdıracaq.

Əli Səbri mənim haqqımda məlumat verəcək Xahiş edirəm, əgər sənin üçün çətin olmazsa və mümkünsə uşaqlarımın xatirinə mənim Vətənə qayıtmağıma imkan daxilində kömək edəsən.

Mən çox qocalmışam, ömrümün son illərini uşaqlarımın yanında, doğma diyarda keçirmək istəyirəm. Mənə elə gəlir ki, sən mənim xahişimi rədd etməzsən, çünki indi zaman o zaman deyil. Burdan qohumlarının və tanışlarının vəsatətmə əsasən çoxları evə qayıdırlar. Mehdixana və Xavər xanıma mənim ürəkdən gələn salamımı çatdır. Öpürəm səni, Mehdixanı, Yusifı və Vaqifi. Xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

**Hörmətlə: Nəsib ağa.**

1955-ci ildə Vətənə Qayıdan Nəsib ağa Vəkilov 1963-cü ildə Bakıda vəfat edib. O, polkovnik Əsəd ağa Vəkilovun oğlu idi.

* * *

1919-cu il fevralın on dördündə **praporşik Lütvəli bəy Vəkilov** Azərbaycan süvari alayının komandirinə belə bir məlumat göndərmişdir:

"Sizin nəzərinizə çatdırıram ki, 1918-ci il iyunun on səkkizində dördüncü Borçalı alayının polkovniki Tuqanov cəbhədəki döyüş xidmətlərimə görə min beş nömrəli əmrlə məni Müqəddəs Georgi xaçı ordeninin bütün dörd dərəcəsi ilə təltif olunmağa təqdim etmişdi. Və buna əsasən mənə birinci Mozdok Dağ Kazak alayı min yüz qırx altı nömrəli attestatı da verilmişdir. Orada ordenlərin hər birinin nömrəsi də yazılıb. Həmin döyüşlərdə mən dörd dəfə yaralanmışam və kontuziya olmuşam. Bunların hamısı Sizə göndərdiyim şəxsi işimdə göstərilib."

Vərəqin o biri üzündə praporşik Lütvəli bəy Vəkilovun dəstixəttilə yazılmış qeydi də var: "Mənim şücaətlərimin və təltifatlarımın cəbhədə şahidi olan rotmistr Çayevski idi. O, hazırda Hərbi Nazirliyin Baş Qərargahında baş zabit kimi xidmətdədir."

Əlbəttə, praporşik Lütvəli bəy Vəkilovun bu məlumatı müasir oxucuya adi ərizə kimi görünə bilər. Lakin unutmaq olmaz ki, o dövrdə belə bir yüksək ordenlə zabitlər çox nadir hallarda təltif olunurdu. Qeyri-adi igidlik göstərən, müqəddəs Georgi ordeninin bütün dərəcəsinə layiq görülən oğullarımızı barınaqla saymaq olar: rotmistr Teymur bəy Novruzov, praporşik Səyad bəy Zeynalov, poruçik Osman ağa Gülməmmədov.

Yüz qırx birinci səhifədə Lütvəli bəyin silahdaşı Çayevskinin Baş Qərargaha təqdimatı saxlanılır. O, yazır ki, dördüncü Borçalı süvari alayının praporşiki Lütvəli bəy Vəkilovla Birinci Dünya müharibəsinin ilk günlərindən 1918-ci ilin sentyabrınadək birgə döyüşlərdə olub. Onun bütün qəhrəmanlıqlarının canlı şahididir. Qazaxda, Lori dərəsində, Borçalıda erməni daşnaklarına qarşı döyüşlərdə, Bakı, Qarayazı və Şamxorda bolşeviklərlə vuruşlarda onun cəsur

süvari kimi igidlik göstərdiyinə zəmanət verir. Belə bir igid zabitin yüksək rütbəyə layiq olduğunu tamamilə qanuni hesab edir.

Rotmistr Çayevskinin Baş Qərargaha iftixarla yazdığı təqdimatı iki general məmnuniyyətlə təsdiq edib, dərkənar qoyublar: süvari diviziyaınn rəisi, general-mayor Şahzadə Əmir Kazım Qacar və qərargah rəisi general Zaxar Amaşukeli.

Çox təəssüf ki, sənədlərin izi elə buradaca itir. 1890-cı il təvəllüdlü praporşik Lütvəli bəy Abbasqulu bəy oğlu Vəkilovun bundan sonra hansı rütbəyə layiq görüldüyü məlum olmur.

Polkovnik Gəray bəy Vəkilovun kiçik qardaşı, praporşik Lütvəli bəy Vəkilovu Zaqafqaziya Baş Siyasi İdarəsi 1932-ci il fevralın 2-də antisovet ruhlu zabit kimi həbs edib beş illik sürgünə göndərmişdi. Minlərlə günahsız Azərbaycan zabiti kimi qırx iki yaşlı Lütvəli bəyin də ömrünün hansı həbs düşərgəsində sona yetdiyi məlum deyil.

**Podporuçik Sadıq Əsgər oğlu Vəkilov** 1895-ci ildə Qazax qəzasının Salahlı kəndində anadan olub. Müsavat ordusunda üçüncü Gəncə piyada alayında kiçik zabit kimi xidmət edib. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Tatar-Azərbaycan şöbəsini və 1918-ci ildə Gəncədəki praporşiklər məktəbini bitirib.

Azərbaycan Milli Ordusunun kapitanı **Bahadır bəy İbrahim ağa oğlu Vəkilov** da bu nüfuzlu nəslin nümayəndəsidir. 1889-cu il martın 24-də Qazaxda zadəgan ailəsində anadan olub. İlk təhsilini Tiflisdə birinci kişi gimnaziyasında alıb. 1918-ci il mayın 15-də yeni yaranan Müsəlman korpusuna könüllü daxil olub. Sentyabrın 1-dən piyada qoşunlarında kiçik yunker, böyük yunker rütbəsində xidmət edib, noyabrın 18-də isə Gəncədəki praporşiklər məktəbini birinci dərəcə ilə bitirib. Məktəbi əla qiymətlərlə bitirdiyinə görə o, hərbi məktəbdə rota komandiri vəzifəsində saxlanılıb. Məktəbin rəisi polkovnik Şirin bəy Kəsəmənski 28 fevral 1919-cu ildə gənc zabit Bahadır bəyə verdiyi xasiyyətnamədə qeyd edir ki, əla davranışa və yüksək əxlaqa malikdir. Zabit kadrlarının yetişdirilməsinə tam layiqdir. Siyasi hazırlığı var. Martın iyirmi ikisində hərbi nazir, tam artilleriya generalı Səməd bəy Mehmandarov Gəncə praporşiklər məktəbinin rəisinə belə bir əmr göndərib:

"Gəncə praporşiklər məktəbinin əlli nəfərdən çox məzununa əziz Novruz bayramı ərəfəsində praporşik rütbəsi verilsin. Onlar xidmət üçün birinci Azərbaycan süvari diviziyasına, üçüncü Gəncə süvari alayına, Əlahiddə Zaqatala batalyonuna yüngül artilleriya divizionuna göndərilsin. Gəncə praporşiklər məktəbini əla bitirdiklərinə görə podpraporşik İsrafıl ağa Şıxlinskiyə, Bahadır bəy Vəkilova, Musa bəy Şəmsəddinskiyə, Həşim bəy Sultanova, Həmid Mustafayevə, Mahmud Mustafayevə, Əli Ağa oğlu Şıxlinskiyə və Süleyman xan Sultanov-İlisuluya bayram münasibətilə pul mükafatı verilsin".

Həmin ilin mart ayında bacarıqlı zabit Bahadır bəy Vəkilov üçüncü Gəncə süvari alayının tərkibində ölkənin Şərq-Qərb cəbhəsinə ezam olunur. O, Ordubad rayonunda yerləşən hərbi dəstənin komandanı təyin olunur. Naxçıvan və Şərur qəzasının komandanı Kəlbalı xan Naxçıvanski 1919-cu il mayın 9-da Baş Qərargahın rəisinə göndərdiyi raportda praporşik Bahadır bəy Vəkilovun İran

quldur dəstələrinə və daşnak generalı Andronikə, qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlığı haqqında məlumat verir.

O, yazır: “Martın 17-də Yaycı kəndində hücum edən səksən nəfərlik İran quldur dəstəsi yerli əhalinin iki yüz yetmiş beş iri buynuzlu mal-qarasını oğurlamışdı. Praporşik Vəkilov mənim ərimlə otuz nəfər süvari dəstə ilə onların dalınca gedib quldurları Araz sahilində yaxalamışlar. Güclü döyüşlərdən sonra mal-qara geri alınmış və on beş nəfər quldurun meyidi Araz sahilində qalmışdır.

Martın 26-da Parağa kəndinə hücum edən ermənilər iki yüz iribuynuzlu mal-qaranı aparmışlar və yeddi müsəlman kəndlisini öldürınüşlər. Səhərisi erməni kəndini süvari dəstəsilə mühasirəyə alan praporşik Vəkilov tələb etmişdir ki, mal-qara qaytarılsın və cinayətkarlar cəzalandırılmaq üçün bizə verilsin. Lakin ermənilər atəşlə cavab vermişlər. Praporşik Vəkilovun cəld və bacarıqlı komandanlığı sayəsində üç saatlıq döyüşdən sonra ermənilər malqaranı və cinayətkarları qaytarınışlar. Döyüsdən sonra məlum olur ki, praporşik Vəkilovun üç nəfər əsgəri yaralanmışdır.

Aprelin 10-da ermənilərin “qəhrəmam” Andronik ingilislərlə danışığından sonra Gorusdan Ordubadın 25 kilometrliyindəki Karçevan kəndinə gəldi. Nizami erməni dəstəsi Ordubadın ayrı-ayrı kəndlərini zəbt etmək üçün Nüsnüs kəndinə hücum etdi. Praporşik Vəkilovun bacarıqlı döyüş əməliyyatı sayəsində Nüsnüs kəndi ermənilərdən təmizləndi. Digər müsəlman kəndləri də erməni hücumundan xilas oldu.

Aprelin 15-də ermənilərin nizami hərbi dəstəsi Ordubadın səkkiz verstliyindəki darvazaya yenidən hücum etdi. Erməni hərbi dəstəsinin güclü qüvvə ilə hücum etməsinə baxmayaraq, beş saatlıq ara verməyən döyüşdə düşmənin əksər qüvvəsi öldürüldü, qalanları isə qaçmağa məcbur oldu. Bu döyüşdə praporşik Vəkilov Bahadır bəyin yeddi əsgəri həlak oldu, on iki nəfər isə yaralandı.

Bütün göstərilənlərdən sonra xahiş edirəm ki, üçüncü Gəncə süvari alayının praporşiki Bahadır bəy döyüşlərdə yüksək səviyyədə komandanlıq etdiyinə və qəhrəmanlığına görə ona podpruçik rütbəsi verilsin”.

Bundan sonra respublika Mərkəzi Dövlət Arxivinin sənədlərində mərd kapitan Bahadır bəy İbrahim ağa oğlu Vəkilovun heç bir sənədinə rast gəlmək mümkün olmadı. Lakin Milli Təhlükəsizlik Nazirliyinin arxivində Bahadır bəy Vəkilova məxsus 21392 saylı çox nazik bir qovluq var. 1920-ci il iyunun 25-də həbs olunan Bahadır bəyin istintaq işini müstəntiq Akopcanov və Levitski aparıb. Sorğıı-sual qısa və yığcamdır. Həbs vərəqində “cinayətm xarakteri” qrafasının qarşısında oxuyuruq: “Müsavat ordusunun zabiti və rota komandiri olub. Güllələnsin!”

İstər-istəməz düşünürsən və təəccüb edirsən: öz xalqının Milli ordusunda qulluq etmə nə vaxtdan cinayət sayılıb? Bu da XI ordunun xüsusi şöbə rəisi, cəllad Semyon Pankratovun təsdiq etdiyi dərkənar: “Güllələnsin, hökm dərhal yerinə yetirilsin. 3 iyul 1920-ci il”.

Bəli, torpağını yağılardan qoruyan iyirmi bir yaşlı mərd kapitan Bahadır bəy Vəkilovun ömrü belə bitdi.

Bu məşhur soyadın oğlunu Bakıda heç kəs tanımadı. Qazaxda ulu nəslinin hərbçi, maarifçi oğulları haqqında səbrlə söhbət edən Ədilə xanım Şıxlinskaya

“Nikolaydan qalma” bir albomu stolun üstünə qoydu. Albomun ilk səhifəsində çərkəzi geyimli cavan bir zabit şəkli... İri, ala gözləri necə də tanış və doğmadır. Mənim şəklə diqqətlə baxdığımı görən Ədilə xanım:

- Dayımdı,- dedi,- müsavat zabiti olduğuna görə bolşeviklər iyirminci ildə güllələyiblər.

Onun səsinə hopan təsvirəgəlməz kövrəklik, həzin bir qəm dalğası varlığımı titrətdi. Adam belə anlarda qarşısındakına təsəlli verməkdən də məhrum olur. Daxili təlatüm, vicdanın səsi olub keçmiş ədalətsizliyi, vəhşiliyi ittiham edir. Dərindən köks ötürüb, “heyf” deməkdən başqa əlindən bir şey gəlmir. Çünki nahaq qan tökənləri, heç nədən insan güllələdənləri ittiham etmək gecdir. O vəhşilikləri indi tarix mühakimə edir. Tarix öz səhifələrində onlara amansız cəza verir, gec də olsa əyrini-əyri, düzü-duz yazır.

Ağır qəm yükünün altından qurtarınaq xatirinə soruşdum:

- Dayınızın adı necədir, Ədilə xanım?

- Bahadır bəy Vəkilov, rütbəsi kapitan...

- Ola bilməz, - dedim. Özümdən asılı olmayaraq səsim bərkdən çıxdı.

Onda bu şəkillərə baxın, zəhmət olmasa... Mən özümlə götürdüyüm bir qrup Milli Ordu əsgər və zabitinin iki fotoşəklini ona göstərdim.

- Bu, tən ortada oturan Bahadır dayımdı, - dedi. İkinci şəklə baxır: - Bu da odu, dayımdı... Bu şəkillər bizdə yoxdu. Sizdə hardandı? - deyə kədərlə soruşdu.

- Arxivdən tapmışam, - dedim.

- Oy, nə yaxşı görınüsünüz, çox sağ olun... Heyf dayımdan, cavankən, cəmi iyirmi bir yaşında güllələnib, heç evlənməyibmiş. Sizin tapdığmız şəklin arxasında yazılıbmı neçənci ildə çəkilib?

- 1919-cu ildə çəkilib, - deyə cavab verdim.

- Mənimlə yaşıddı dayımın şəkli, - dedi.

Ədilə xanım qəmli-qəmli köksünü ötürür. Ovcundakı xırdaca güllü dəsmalla nəmli gözlərini silir.

- Ədilə xanım, daymız Bahadır bəyin nişanlısı, istəklisi olubmu?

- Mən bilmirəm, rəhmətlik anam danışardı, deyəsən olub.

- Mən bilirəm, - dedim, - olub. Daymıza məxsus həbs qovluğunda dörd əl boyda məktub var. Onların da üzünü çıxartdırmışam. Sonuncu məktubu sevgilisi iyunun 24-də yazıb. Həmin gecə Bahadır bəyi Milyutin küçəsindəki dörd saylı evin üçüncü mərtəbəsində həbs ediblər. Orqan işçiləri əşyayidəlil kimi məktubları da işə tikiblər. İcazə verirsinizmi sonuncu məktubu oxuyum.

- Buyurun, əlbəttə...

“Bahadır, sən niyə narahatsan? Neçə dəfə soruşdum, araya söz qatdın. Mən heç vaxt səni belə qəmli görməmişdim. Axı, sən özün dünən mənə yalvardın ki, görüşək. Mən bütün gecəni yata bilməyib sənə məktub yazıram. İndi mən sənə yalvarıram. Sabah mütləq görüşə gəl. Başa düşə bilmirəm, son günlər niyə sənin varlığın qəm, kədərlə doludur. Xüsusilə kədərli gözlərin məni yandırıb-yaxdı.

Dözəcəm, bütün gecəni allahıma dua edəcəm ki, səhər tez açılsın səni yenidən görüm, amma kədərsiz, qəmsiz. Həmişəki kimi təbəssümlü, gülərüz.

Dəryada çıraq yanır,
Baxdıqca iraq yanır.

Sevgi şirin şərbətdir,
Içdikcə ürək yanır.

Sənin Səfurən."

Təəsüf ki, açılan səhər onlara xoşbəxtlik nədi, heç görüş də qismət eləmədi. Kapitan Bahadır bəy Vəkilovun səhəri bolşevik zirzəmisində açıldı...

* * *

**MƏMMƏD AĞA MUSTAFA AĞA OĞLU VƏKİL(1863-1939)** Gürcüstan Mərkəzi Dövlət arxivinin 1920-ci ilə qədərki sənədlərində adı hörmət və ehtiramla çəkilən Məmməd ağa Vəkilov əsrin əvvələrində - 1905-1906-cı illərdə Azərbaycan dilində qəzet açmaq üçün təşəbbüs göstərmişdi. O, "İqbal" adlı qəzeti dostu Cəlil Məmmədquluzadə ilə birgə nəşr etmək istəyirdi.

"...Qafqazda türklərin mətbuatı ölü, bəlkə də yox bir halda idi. Onunçün biz tək öz dərdlərini qələmlə meydana qoymağa həris olan yazıçılar - gah bizim millətdən, gah qonşu millətlərdən hökumətdən qəzet icazəsi istəməyə başladılar. Biz türklərdən bu icazəni istəyən - Bakıdan Əhməd bəy Ağayev idi, Tiflisdən belə icazə istəyən Məmməd ağa Vəkilov, Rəşid bəy İsmayılov idi və yenə bir Nuxa əhli idi ki, onun adı gərək Mustafayev ola: Batumidən Məmməd bəy Sancaqbəyzadə idi və Tiflisdən də mən idim". (Cəlil Məmmədquluzadə. "Xatiratım, Əsərləri, 3-cü cild, 1967- il nəşri, səh. 666-da")

Uzun yazışmalardan sonra Məmməd ağa "İqbal" adlı qəzeti buraxmağa dövlətdən icazə ala bilmişdi. Lakin qəzeti buraxmamışdır. Həmin dövrdə Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalını nəşr etmək təşəbbüsünü alqışlamış yə demişdi ki, mən rəsmi dövlət qulluğunda çalışdığıma görə "İqbal"da xalqımızın nəfinə cəsarətli yazılar verə bilməyəcəyəm. Belə qəzetin də millətə, xalqa heç bir faydası olmayacaq. Yaxşısı budur ki, "Molla Nəsrəddin"i qoruyub saxlayaq.

Qafqaz canişinliyinin nəşr etdiyi kitab və məcmuələrdə göstərilir ki, Məmməd ağa Mustafa ağa oğlu Vəkilov Qori Seminariyasını bitirdikdən sonra az müddət kənd müəllimi işləyib. Bilik və bacarığına görə saray müşaviri vəzifəsinə də dəvət olunur. Məmməd ağa Baş Hərbi İdarədə türk dili tərcüməçisi, 1901 - 1917-ci illərdə isə Qafqaz canişinliyinin Dəftərxanasında Şərq dillərinin baş mütərcimi vəzifəsində işləyir. Məmməd ağa Vəkilov 1904-cü ildə "Xalq qanmağa asan olan füqərə əhalilərə məxsus vəba azan haqqında bir inşadır" kitabını Azərbaycan dilinə tərcümə edir.

Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundovdan sonra Qafqaz canişinliyində yüksək vəzifədə çalışan üçüncü azərbaycanlı Məmməd ağa Vəkilov olmuşdur. Məmməd ağa Vəkilov həm də Tiflisdəki Şərq dilləri üzrə zabit hazırlığı məktəbində türk dilindən dərs deyir. 1914-cü ildə həmin məktəbin müəllimi, general-mayor M.D.Qutorla müştərək "Türk dilinin qısa qrammatikası"nı tərtib edir.

1918-ci ilin mayında Azərbaycan Demokratik hökuməti yarananda Məmməd ağa Bakıya köçür. 1920-ci ilin aprel çevrilişinə qədər Respublika Parlamentində Dəftərxana idarəsinin rəisi vəzifəsində işləyir.

**OĞLU MUSTAFA AĞA VƏKİLOV (1899-1943)** 1924-cü ildə Sarbonna Universitetmin hüquq fakültəsini bitirib. Hüquq magistri elmi dərəcəsi alan Mustafa ağa vətənə qayıtdıqdan sonra ədliyyə orqanlarında işləyib və ali məktəblərdə dərs deyib. Elmi-tədqiqatla, tərcümə və hüquqi əsərlərin redaktəsilə məşğul olan gənc alim Mustafa ağa Vəkilov "İnqilabdan əvvəl Azərbaycanda nigah münasibətləri" kimi sanballı əsər yazıb. O, 1939-cu ildə əksinqilabi-millətçi təşkilatın üzvü olmaqda günahlandırılaraq həbs edilib.

Professor Mustafa ağa Məmməd ağa oğlu Vəkilov dörd illik əzablı sürgün həyatından sonra 1943-cü il aprelin 30-da Komi Muxtar Vilayətmdə həbsxanada vəfat edib.

Professor Mustafa ağa Vəkilov kimi işıqlı zəka sahiblərinin ömür yolu ilə tanış olanda istər-istəməz dahi Nizami Gəncəvinin kəlamları yada düşür:

Mən torpaqda yatan bir mirvariyəm,
Qaldırsan görərsən sən tək diriyəm,
Batıb gedən bilmə sən hər gedəni,
Məni görməsən də görürəm səni.
Bu yerdə mənim tək çoxdu yatanlar,
Hansı yad edilər, hansı anılar?

## MƏMMƏDRZA AĞA MƏNSUR AĞA OĞLU VƏKİLOV (1864-1944).

Vay, səd vay, Şamaxı genə viran oldu,
Əhli Şirvanın işi naləvü əfqan oldu.
Vəkilovdan nə deyim, çox onun zəhməti var,
Ruhsuz cismlərə ruh verib can oldu.

Bu misraları 1902-ci ildə Şamaxı zəlzələyə mübtəla olanda Şirvanlı şair Mirzə Məmmədtağı Qasımzadə yazıb. Zəlzələnin dəhşətlərini eşidən bir qrup Azərbaycan ziyalısı, başda görkəmli maarifçi, naşir Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, doktor Məmmədrza ağa Vəkilov və bir neçə imkanlı şəxslər olmaqla Şamaxı camaatma köməyə getmişlər. Doktor Məmmədrza ağa Vəkilovun yaralılara təmənnasız yardımı barədə o dövrdən qalan xatirələrdə və bədii əsərlərdə çoxlu xatırlamalar var.

Məmmədrza ağa Vəkilovun təşəbbüsü ilə 1901-ci ildə Bakıda ilk müalicəxana açılmışdır. Həmin ambulatoriyanın açılışında o, Hacı Zeynalbadin Tağıyevə və Musa Nağıyevə müraciət edərək demişdir:

- Cənablar, kim xalqını, millətini sevirsə, onun ağrısını və əzabını yaxşı başa düşməlidir. Xalqını sevən hər bir kəsin ona yardım əli uzatmaq müqəddəs borcu olmalıdır. Allah da kasıbı, zəhmətkeşi çox sevir. Kasıba ruzi verən

dövlətlinin payını gözə görünməz allah həmişə artıqlaması ilə qaytarır. Çinlilərin qədim bir məsəlində deyilir ki, yeddi mərtəbəli budda məbədi tikməkdənsə, bir insan ömrünü xilas etmək daha böyük savabdır.

Bir il əvvəl (1900-cü ildə) yenə Bakıda altı ambulatoriyanın yaradılmasının təşəbbüskarı da Məmmədrza ağa olmuşdur. Aprel inqilabından əvvəl Azərbaycanda tez-tez baş verən epidemiyalara qarşı mübarizədə və yerli əhali arasında sanitariya mədəniyyətinin yüksəldilməsində Məmmədrza ağa Vəkilovun böyük xidmətləri olmuşdur. Onun əvəzsiz xidmətlərini çar hökuməti layiqincə qiymətləndirib.

Azərbaycanda, Zaqafqaziyada doktor Vəkilov kimi şöhrət qazanan Məmmədrza ağa 1900-cü il mayın 2-də Qafqaz İmperatoru Tibb Cəmiyyətinin həqiqi üzvü də seçilib. Azərbaycanda ilk ali təhsilli həkim olan Məmmədrza ağa Vəkilov 1887-ci ildə Birinci Tiflis klassik gimnaziyasını, 1893-cü ildə isə Xarkov Universitetinin tibb fakültəsini əla qiymətlərlə bitirib.

İlk həkimlik fəaliyyətinə Tiflisdəki Mixaylovsk xəstəxanasında başlayan Məmmədrza ağa Vəkilov Qars dəmir yolu tikintisində əlli çarpayılıq səyyar xəstəxananın müdiri olub. 1900-cü ildən isə Bakıda doğma xalqının sağlamlığı keşiyində dayanıb.

Təəsüf ki, ömrünü xalqının sağlamlığına həsr edən belə bir görkəmli şəxs unudulub. Yalnız ağsaqqal adamlar Bakıdakı ikinci şəhər poliklinikasına (indi S. M.Əfəndiyevin adını daşıyan - Ş.N.) hələ də "doktor Vəkilovun" müalicəxanası deyirlər. Axı, yuxarıda xatırlatdığımız kimi Məmmədrza ağa bu poliklinikanın yaradıcısı olmuşdur. Nə az, nə çox həmin poliklinikaya düz qırx üç il rəhbərlik etmişdir. Görkəmli tibb xadimi 1944-cü il dekabrın 30-da Bakıda vəfat etmişdir.

**BADİSƏBA XANIM MUSTAFA AĞA QIZI VƏKİLOVA - KÖÇƏRLİ (1881-1954).** Vəkilovlar nəslinin görkəmli qadın nümayəndələrindən biri də məşhur maarifçi Badisəba xanım Mustafa ağa qızı Vəkilova - Köçərlidir. O, xalqımız qarşısında əvəzsiz xidmətləri olan ədəbiyyatşünas Firidun bəy Köçərlinin həyat yoldaşı idi. Xatirələrdən məlum olur ki, Badisəba xanım Firidun bəyin ömür-gün yoldaşı olmaqla yanaşı, onlar həm də əqidə, məslək birliyi ilə yaşamışlar. Hələ Qori şəhərində yaşayanda Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı çox dəyərli əsərini yazarkən əlavə və düzəlişlərdən sonra əsərin üzünü yenidən köçürınək lazım olurdu. Badisəba xanım Firidun bəyin bu qiymətli əsərinin üzünü böyük həvəs və məhəbbətlə bir neçə dəfə yazmışdı. Firidun bəy Köçərlinin ölümündən sonra Badisəba xanım ədəbi-pedaqoji fəaliyyətini dayandırınayıb. Onun təşəbbüsü ilə 1925-1926-cı illərdə Firidun bəyin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsəri ilk dəfə Bakıda işıq üzü görüb. Badisəba xanım səmərəli fəaliyyətini ilk dəfə xalqımıza mərhum yazıçı Hacağa Cümşüdlü "Badisəba" sənədli povestmdə (Azərnəşr, 1963-cü il) çatdırınışdır.

Badisəba xanım Vəkilova - Köçərlinin Respublika Əlyazmalar İnstitutunun arxivində (Arx.24, Q-l) 1948-ci il aprelin 20-də öz dəsti - xəttilə yazdığı "Tərcümeyi-hal"ı saxlanılır. Onu olduğu kimi ilk dəfə təqdim edirik: "Mən Badisəba Mustafa ağa qızı Köçərli 1881-ci il martın ikisində Qazax rayonunun Salahlı kəndində anadan olmuşam.

Hələ beş yaşım tamam olmamış atam vəfat edib. Anam Fatma xanım Paşa ağa qızı səkkiz uşaqla dul qalıb. On altı yaşında ikən 1897-ci ildə böyük qardaşım Məmməd ağanın məktəb yoldaşı Firidun bəy Köçərliyə məni ərə veriblər. Sonralar Firidun bəy Köçərli Qori Seminariyasının müəllimi olmuşdur. 1920-ci ilə qədər evdar qadın olmuşam. Yoldaşım öləndən - sonra 1921-ci ildə Maarif Komissarlığının əmrilə Bakı Pedaqoji Texnikumunda tərbiyəçi olmuşam. Yoldaşım müəllim olduğuna görə məni evdə oxutmuşdu. 1922-ci ildə Bakı Pedaqoji İnstitutunun Umumi şöbəsində təhsilimi davam etdirınişəm. 1925-ci il mayın 1-də Maarif Komissarlığının əmrilə Zaqatala Pedaqoji Texnikumunu təşkil etmək üçün məni oraya direktor göndərdilər.

1929-cu ilin sentyabr ayına qədər Zaqatalada işlədim. Həmin ilin oktyabr ayının beşində Maarif Komissarlığının əmrilə Quba Pedaqoji Texnikumunda təsərrüfat işləri pozğun olduğuna görə məni o rayona müdir müavini göndərdilər. Az müddət işlədikdən sonra xəstələndim. Bakıya qayıdıb beş ay müalicə olundum.

1930-cu ilin oktyabr ayında Respublika Maarif Komissarlığının əmrilə Nuxa iki nömrəli uşaq evini təşkil etməyə göndərildim. O vaxtdan bu günə qədər burada direktor vəzifəsində işləyirəm. Zəhmətimi hökumət qiymətləndirib: 1945-ci ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi adı ilə, 1946-cı ilin mart ayında "Şərəf nişanı" ordeni və həmin ildə "Qafqazın müdafiənə görə" medalı ilə təltif olunmuşam.

Qohumlarından bir qardaşım və bir bacım var. Qardaşım Kirovabadda (indiki Gəncə - red.) isləyir və pensiya alır. Bacım isə evdar qadındır. Xarici ölkədə qohumlarım yoxdur.

Nuxa iki nömrəli uşaq evinin direktoru Badisəha xanım Köçərli.

## ŞƏHADƏTNAMƏ

Verilir qız xeylağı Mədinə xanım Mehdi ağa qızı Vəkilovaya ondan ötrü ki., o, təqdim etdiyi sənədlərdən göründüyü kimi, Rusiya İmperiyasının təbəəsi, Yelizavetpol quberniyası Salahlı kəndinin əhli, zadəgan qızı, 1886-cı il iyulun 9-da doğulmuş, Məhəmməd dininə etiqadlıdır.

Müqəddəs Nina Tiflis Qızlar məktəbində fənlər kursunu bitirmiş və ona 1904-cü il iyunun 2-də verilmiş 162 nömrəli attestatdan məlum olur ki, əla tərbiyə ilə birlikdə İlahiyyat dərsindən əla, kilsə-slavyan və ədəbi dildə rus dilindən yaxşı və rus dilində inşadan kafi, riyaziyyatdan kafı, ümumi və rus coğrafiyasından yaxşı, ümumi və rus tarixindən yaxşı, təbiət tarixindən kafı, fızikadan, riyazi və fıziki coğrafiyadan kafi, hüsnxətdən yaxşı və əl işindən əla qiymətlər almış; gimnaziya kursunun qeyri-icbari fənlərindən pedaqogikaya, fransız və tatar dillərinə və rəsmə əla yiyələnmiş; sonra o, Mədinə xanım Vəkilova elə həmin qızlar məktəbinin VIII əlavə sinfinə daxil olmuş, eiəcə də İlahiyyət dərsinin, ana dilinin və hesabın ibtidai tədris üsulları ilə tanış olmuş və dərs ili ərzində ona verilən bütün nəzəri və praktik işləri kifayət qədər yerinə yetirmişdir. Onun, Mədinə xanım Vəkilovanın ev müəllimi olmaq arzusunu nəzərə alaraq və onun təqdim etdiyi təsdiqedici şəhadətnamələri tam qənaət bəxş hesab edərək ona,

Mədinə xanım Vəkilovaya 1870-ci il mayın 24-də (iyunun 5-də) Ali tərzdə təsdiq edilmiş Xalq Maarifı Nazirliyinin qızlar gimnaziyaları haqqında fərmanın 4-cü paraqrafına müvafiq olaraq rus dilini tədris etmək hüququ və göstərilən ada müqabil səmərə və üstünlüklər olmaqla ev müəllimi adını daşımaq hüququ verilmişdir. Bunun təsdiqi olaraq ona, Mədinə xanım Vəkilovaya lazımi imza və Qafqaz Təhsil Dairəsi Popeçiteli Dəftərxanasının möhürü olan bu səhadətnamə verilir.

**Tiflis şəhəri,**
**1905-ci ilin 4 iyun günü.**
**Qafqaz Təhsil Dairəsinin**
**Popeçiteli**
**Dəftərxana müdiri**

## ŞƏHADƏTNAMƏ

Verilir Qazax qəza idarəsindən Salahlı kənd sakini Məmməd Ağa Pənah Ağa oğlu Vəkilova ondan ötrü ki, o, Qazax qəzasının Salahlı kəndinin yerli ağalarındandır. Adı ağaların 1860-cı ildə tutulmuş kameral siyahısında öz atası Pənah Ağanın ailəsində 83-cü nomrə altında qeyd olunmuşdur. Cənab Yelizavetpol qubernatorunun 5 sentaybr 1870-ci il tarixli 50/9 saylı sərəncamı ilə Qazax qəza idarəsinə göndərilmiş Ağalar Komissivasının ağalar və bəylər siyahısında isə onun ağalar və bəylər rütbəsi qəbul olunmamışdır. Həmın rutbəyə təqdim edilənlərin siyahısında Məmməd Ağa Pənah Ağa oğlu göstərilməmişdir. Dövlət möhürü basılmış imza ilə təsdiq edilir. Yanvarın 28-ci günü 1871 il. Dağkəsəmən kəndi.

QAZAX QƏZA RƏİSİ
mayor

## UZUN ÖMRÜN SƏHİFƏLƏRİ

Qarayazı,
Kür qırağı Qarayazı,
Ömrə çox da bel bağlama
Bir də gördün qara yazı.

**El bayatısı**

Məni çox kefsiz və bir az da könülsüz qarşıladı. Əvvəlcə başa düşə bilmədim, bu etmasızlıq mənim gəlişimə görədir, yoxsa qoca xəstəhaldır. Elə-belə,

nəzakət xatirinə “keçin, əyləşin” - dedi. Bu tənha yaşayan qocanın tərtəmiz geyimindən, ev şəraitmdən hiss etmək olurdu ki, çox səliqəli adamdır.

Qoca əvvəl eynəyini çıxartdı, sonra da dizinin üstündəki kitabı qatlayıb kənara qoydu. İri şkafin enli siyirtməsini çəkib dərindən nəfəs ala-ala, qara məxməri parçaya bükülmüş bağlamanı açdı. Balaca bir şəkil tapıb işığa tərəf tutdu. İri ala gözlərini geniş açıb “budur - atam, - dedi, buyur, bax!” “Atam” - deyəndə səsi qırıldı. Bu qocanın bütün varlığını qəribə, təsvirolunmaz bir kövrəklik titrətdi. Udqunub üzünü yana döndərdi.

Mən şəkli alıb baxdım. Bu, cavan, çox yaraşıqlı bir zabitin ötən əsrdə çəkümiş şəkli idi.

- Faris baba, - dedim, - bəs sənədləri? Təkcə bu şəkillə nə eləmək olar? Mümkünsə sənədləri də tapın, birgə baxaq, elə buradaca... Heç yerə aparınayacağam.

O, könülsüz geri döndü, ağır addımlarla yenidən şkafa yaxlaşdı. Xeyli əlləşdi. Bayaq oxuduğu kitabı o küncdən bu küncə qoyur, dəftəri açıb baxır, arasından heç nə tapa bilməyib əsəbiləşirdi...

Səbrim tükənmişdi, onun əhvalı mənə də təsir etmişdi. Nəhayət, şkafin tək gözündən götürdüyü qalın bir qovluğu mənə verib titrək, kövrək səslə soruşdu:

- Cavan oğlan, sənin nəyinə lazımdı mənim atamın sənədləri?

- Faris baba, atanız xalqımızın hərbi-topoqrafiya tarixində yeganə general olub. İstəyirəm qəzetdə, jurnalda onun barəsində bir yazı ilə çıxış edim, qoy bugünkü gənclik xalqımızın belə bir şöhrətli generalı olduğunu bilsin.

- Mənim atam çoxdan unudulub, - deyə incik halda əlini yellədi. Ani fasilədən sonra əlavə etdi: - Bəlkə, elə belə yaxşıdı. Müsavat generalı kimin nəyinə lazımdır?.. - İndi başa düşdüm ki, qoca məni nəyə görə könülsüz qarşıladı.

- Bir vaxt özüm çox çalışdım ki, üzə çıxsın, generallar arasında onun da adı çəkilsin. O da Azərbaycan üçün, xalqı üçün can qoyub, cəbhələrdə vuruşub, gecəsi-gündüzü topoqraflya çəkilişlərində keçib.

- Hələ 1883-cü ildə rus-İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edib. Belə bir ciddi işi vaxtından əvvəl yerinə yetirən atamın xidməti İran hökumətinin ən yüksək “Şire-Xorşid” ordeninə layiq görülüb. O, Krımın, Dağıstanın və bütün Qafqazın topoqrafik xəritəsini tərtib edib. 1892-ci ildə Türkiyəyə ezam olunan atam Qars vilayətinin rus-türk sərhədlərində topoqrafiya işlərinə rəhbərlik edib. Cənubi Azərbaycanın Təbriz, Xoy, Urıniya və başqa şəhərlərinin də topoqrafik çəkilişinə atam rəhbərlik edib. Hər gələn bir sənədini, şəklini istədi, elə o gedən oldu. - Kövrək-kövrək, - mən də ki, belə, gördüyün kimi, qocaldım, əldən düşdüm. Sənəd, şəkil aparanların da ünvanını, telefonunu itirdim.

O, insafsızlar da nə atam haqqında yazdılar, nə də şəklini qaytardılar.

- Mən burda baxacam, heç nəyi heç yerə aparan deyiləm. Qeydlərimi də burada eləyəcəm...

- Yaxşı, onda aç qovluğu, söhbət eləyək. Əvvəla, de görüm atamın sorağını sənə kim verib? - zəndlə üzümə baxıb soruşdu.

- Bir marşalın “Mənim xatirələrim” adlı yeni kitabı çıxıb. Orda atanız, polkovnik İbrahim ağa Vəkilovun Sərdarabad, Baş Abaran əməliyyatındakı

fəaliyyətindən geniş məlumat verilir. Qərargah rəisi polkovnik İbrahim ağa Vəkilovun hərbi döyüşlərdə məharətmi marşal bütün ordu heyətmə nümunə göstərir, - dedim.

Üz-gözündən gördüm ki, bu fakt onu hədsiz dərəcədə sevindirdi. Məndən qabaq əl uzadıb qovluğu özü açdı.

...1978-ci ilin yazında Faris bəy İbrahim ağa oğlu Vəkilovla tanışlığım belə oldu. Həmin il atası haqqında “Azərbaycan” jurnalında çıxış etdikdən sonra yenidən onun görüşünə getdim.

Faris baba jurnalı aldı, yazını o üz-bu üzə vərəqlədi. Divanda yanaşı əyləşdik.

- Oxu, - dedi, - görüm nə yazmısan?

Yarıya çatmamış sərlövhəsini bir də soruşdu.

- “Qəribə tale”, - dedim və dönüb ona baxdım. Onun ağıllı, iri gözlərində yaş damcılan görüb dayandım.

- Daha oxuma, özüm oxuyacam, - deyib buz kimi əlilə biləyimdən yapışdı, - atamı yad etdiyiniz üçün hamınıza minnətdaram...

Yol boyu bu tənha qocanı düşündürdüm. “Mənim bu uzun ömrümün qarası ağından çox olub”. Bu sözlər onun dilindən elə-belə çıxmamışdı. Sonralar onun həyat tarixçəsi ilə yaxından tanış olanda heyrətə gəldim ki, bütün bu əziyyəflərə necə dözüb? Qəribə burasıdır ki, həmişə batı qovğalarda olan, çox əziyyətlər çəkən bu insanın yaddaşı zərrəcə zəifləməmişdi.

Faris bəy nə az, nə çox, ömrünün on səkkiz ilini doğma Azərbaycandan uzaqda, əzab-əziyyətlə sürgündə keçirınişdi. Neçə inqilabın, neçə müharibənin sınaqlarından sayıq çıxmışdı. Çünki amalı düz, əqidəsi pak olmuşdu. Harda, hansı şəraitdə olmasına baxmayaraq, qəlbində bir çırağın işığı yanmışdı. O çırağın da adı Azərbaycan idi. Lakin bir acı ilin sərt küləyi onun üzünü elə qarsımışdı ki, qapısını elə bərk çırpmışdı ki, o, hələ də özünə gələ bilmirdi.

Birinci Dünya müharibəsi başlananda Texnologiya İnstitutunun beşinci kurs tələbəsi Faris bəy Vəkilov Petroqradın Putilov zavodundakı top emalatxanasının müdafiənə səfərbər olunur. Gənc mühəndisin bu zavoddakı yaxşı fəaliyyəti onu pillə-pillə ucaldır. 1916-cı ildə yaxşı xasiyyətnamə ilə Petroqraddakı məşhur “Feniks” zavodunda baş mühəndis təyin olunur. Bir il sonra oktyabr tufanları zamanı bu səhmdar idarə öz fəaliyyətini dayandırır. Faris bəy Tiflisə - ailəsinin yanına qayıdır. O, bolşevik Əliheydər Qarayevlə birgə ictimai-siyasi işlə məşğul olur. Onlar Peterburqda fəaliyyət göstərən “Azərbaycan Həmyerliləri cəmiyyəti”ndə tanış olmuşdular.

1918-1920-ci illərdə Faris bəy Azərbaycan Respublikasının Gürcüstan hökuməti yanında səlahiyyətli nümayəndəsi kimi mühüm vəziəfdə çalışır.

Azərbaycanda aprel işğalından sonra təqib olunan ziyalılardan biri kimi Fransaya mühacirətə gedir. Parisdəki “Reno” zavodunda konstruktor işləyir.

Beş il Paris şəhərində işləyən Faris bəy Vəkilov mühacirətdə olan həmyerlimiz general-mayor Məmmədsadıq bəy Ağabəyzadə ilə görüşür, texniki biliyini artırır. Lakin Vətən həsrəti, ata məhəbbəti onu Azərbaycana qayıtmağa məcbur edir.

“Parisdə müvəqqəti qaldığıma əmin idim, tez-tez Azərbaycanda qalmış atamla əlaqə saxlayırdım. 1925-ci ildə atam yazırdı ki, məni Peterburqdan şəxsən tanıyan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Əliheydər Qarayev təklif edir ki, Vətənə qayıdım və hadisələr zamanı dağılmış təsərrüfatların bərpa edilməsində iştirak edim. Mən bu təklifdən çox məmnum oldum.

Sovet konsulluğundan lazım olan sənədləri aldım və 1926-cı ilin fevral ayında öz həyat yoldaşım ilə birlikdə Bakıya qayıtdım.

Əliheydər Qarayev məni səmimi qarşıladı. Mənzil almağa kömək etdi və leytenant Şmidt adına zavoda işə göndərdi”.

...Axşam qonşusu mənə zəng eləyib dedi ki, Faris baba sabah sizi görmək istəyir. Mümkünsə ona baş çəkin.

Işdən bir az tez çıxıb onun yanına gəldim. Biz neçə ilin dostu, hətta deyərdim, qohum kimi görüşdük.

- İndi mənim sənə işim düşüb, - dedi. - Xəbərin varmı, atamın dayısı oğlu İbrahim ağa Usubov da general olub. Ondan da yazmaq lazımdır.

Həmin günü mənə çoxlu şəkil, sənəd göstərdi. Səxavət əli açılan Faris babanın mənə hədiyyə verdiyi şəklin biri 1901-ci ildə Qarsda çəkilib. Burda atası İbrahim ağa Vəkilov topoqrafiya çəkilişi zamanı təsvir olunub. Hər iki şəklin orijinalı indi də məndədir. Anası Yelena Yefimovna Vəkilovanın 1909-cu il martın 2-də böyük rus yazıçısı Lev Tolstoya öz övladlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə yazdığı məktubdan söhbət açdı.

Faris baba bu məktubun fotosurətmi və öz əlilə rus dilində yazdığı xatirələrini avtoqrafla mənə verdi.

- Oğul, - dedi, - mənim ömrüm qurtarır, səninki isə başlayır, qoy bunlar səndə qalsın. Amma mən tənha qocaya tez-tez baş çək, sənə lazım olan çoxlu materiallar verərəm...

## GENERAL-MAYOR İBRAHİM AĞA USUBOV

Bu dəfə söhbətimizin əsas mövzusu Faris babanın əmisi İbrahim ağa Usubov oldu. General-mayor İbrahim ağa Usubov 1872-ci ildə Qazax qəzasının Qıraq Salahlı kəndində dünyaya gəlib. Sənədlərdən öyrənirəm ki, generalın atası Musa ağa da rus ordusunun zabiti olub. İran şahzadəsi Abbas Mirzənin qoşunları 1826-cı ildə Azərbaycana hücum edəndə atası Musa ağa və əmisi Süleyman ağa Usubovlar Qazax süvari dəstəsində mərdliklə vuruşmuşlar. Sonralar Polşa müharibəsindəki nümunəvi xidmətinə görə Musa ağa ştabs-kapitan rütbəsinə qədər yüksəlib.

Faris baba sənədlərindən birini açır, titrək barınağını üstündə gəzdirə-gəzdirə:

- Fikir ver, əmim də Əliağa Şıxlinski və atam kimi Tiflisdəki kadet korpusunu bitirib, özü də əla qiymətlərlə, - deyir, - 1890-cı ildə Xarkov piyada Hərbiyyə məktəbinə daxil olur. Həmin məktəbi əla qiymətlərlə bitirib ştabs-kapitan rütbəsində əsrimizin əvvələrində başlayan rus-yapon müharibəsində iştirak edir.

Port-Artur döyüşlərində mərdliklə vuruşan əmim müqəddəs Georgi ordeninin dördüncü dərəcəsiylə və bir neçə medalla təltif olunur.

Podpolkovnik rütbəsi alır.

Həmyerliləri, artilleriya generalları Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovla çiyin-çiyinə vuruşan podpolkovnik İbrahim ağa Usubov rus-yapon müharibəsində az şücaət göstərınir. Port-Artur döyüşlərindən sonra yenidən Xarkov şəhərində hərbi xidmətə başlayır. 1910-cu ildə İbrahim ağa Usubov Tiflisdə yaşayan qohumu, Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin kiçik qızı Gövhər xanımla ailə həyatı qurur.

Müsahibimdən soruşdum:

- Generalın oğlu, qızı qalırını?

- Bu saat hamısını deyəcəyəm, - Faris baba yenidən əl-ayağa düşür. Köhnə cib dəftərçələrinin birini götürüb, o birini qoyur, - İki adamla görüş, söhbət elə. Əmim qızı Nigar xanım Usubova və generalın qardaşı qızı Gövhər Usubova ilə.

Elə həmin günü Mirzə Şəfi küçəsinin altı nömrəli mənzilində yaşayan Gövhər xanıma baş çəkdim. General-mayor əmisinin adını eşidən kimi səksən yaşlı qadını da gözlərində, sifətində qəribə bir işıq yandı. Sonra o işıq qəfildən çəkildi və yerində təəccüb qaldı: "Nə əcəb? Haradan yada düşüb?".

Gövhər ana əlini dizlərinə vurub yana-yana dedi:

- Fələyin gözü tökülsün, bircə əmim oğlu vardı, o da 1940-cı ildə qəfildən vəfat etdi. Yeganə kişi nişanəsi idi əmim ocağının. Atam İsmayılı zorla xatırlayıram, 1910-cu ildə vəfat etdikdən sonra əmim İbrahimin himayəsinə keçdim. O, Xarkovda hərbi qulluqda olsa da doğma kəndi Salahlını unutmurdu. 1914-cü ildə məni Bakıya gətirib Hacı Zeynalabdin Tağıyevin Qız məktəbinə qəbul etdirdi. 1917-ci ilədək bu məktəbdə oxudum. Bir il sonra Azərbaycan Demokratik Hökumətinin dəvətilə Xarkovdan Bakıya köçdü.

Adətən hərbçi zəhmi ağırdı, deyirlər. Əlbəttə, işdə, qulluqda necə olmağını deyə bilmərəm, amma evdə, ailədə əmim xoşxasiyyət, həssas qəlbli insan idi. Təhsil və tərbiyə məsələsinə ciddi fikir verərdi. "Gövhər, deyərdi, - səni atanın arzusu ilə müəllimliyə qoymuşam. Sənin qarşında mədəni insan yetişdirmək kimi nəcib bir vəzifə durur. Gərək elə şagird yetişdirəsən ki, onunla həmişə iftixar edə biləsən". Yadımdadı, general Əliağa Şıxlinski tez-tez bizə gələrdi, hər iki bacanaq Port-Artur döyüşlərindən, Birinci Dünya müharibəsindəki fəaliyyətlərindən söhbət açardılar.

İbrahim ağa Usubov görkəmli dövlət xadimi Nəriman Nərimanovla, Əliheydər Qarayevlə, Mixail Frunze və başqaları ilə yaxın idi, 1916-cı ildə döyüş meydanlarında göstərdiyi şücaətə görə ona polkovnik rütbəsi verilmişdi.

Bu müharibədə onun göstərdiyi şücaət haqqında "Kaspi" qəzetinin 26 fevral 1916-cı il sayında Ceyhun Hacıbəyli yazır: "Yüz iyirmi ikinci Tamboy süvari alayının zabiti, ikinci dərəcəli "Müqəddəs Anna" ordenli İbrahim ağa Usubov bu alaya təyin olunandan sonra polkovnik rütbəsi almışdır. 1914-cü il oktyabrın on dördündə Mizines kəndi ətrafindakı yüksəkliyə hücum zamanı İbrahim ağa batalyona komandirlik edərkən düşməni iki cərgə səngərdən vurub çıxartmış və üç gün bu yüksəkliyi avstriyalıların əkshücumlarından qoruyub saxlamışdır.

Polkovnik İbrahim ağa Usubov artilleriyası ilə öz alayına himayədarlıq etmiş və Peremışl qalasından düşməni vurub çıxartmışdır. 1918-ci ilin may ayında İbrahim ağa Usubovu milli Azərbaycan diviziyasında işləmək üçün dəvət etdilər. O, Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Əbdülhəmid bəy Qaytabaşı, Oavadbəy Şıxlinski və başqa hərbiçilərlə birgə Azərbaycan Demokratik Hökumətinin milli ordusunun təşkilinə başladı. On səkkizinci ilin aprelində Gəncədə praporşik məktəbi açdılar. Burada azərbaycanlı gənclər təhsil alırdılar. Bir il sonra həmin məktəb Bakıya köçürüldü və Azərbaycan Hərbiyyə məktəbi adlandırıldı. 1919-cu ildə milli hökumət xalqına sidq-ürəklə xidmət etdiyinə görə polkovnik İbrahim ağa Usubovu general-mayor rütbəsi ilə təltif etdi.

Milli hökumət İbrahim ağanı on doqquzuncu ildə Azərbaycan ordusu üçün hərbi ləvazimat və hərbi geyim alıb gətirmək məqsədilə İtaliyaya ezam etmişdi. İbrahim ağa Usubovun xarici ölkəyə ezam olunması təsadüfı deyildi. O, fransız, ingilis, alman və polyak dillərini mükəmməl bilirdi. Respublika Mərkəzi Dövlət Arxivində saxlanan bir sənəd Müsavat dovlətmin İtaliyadakı nümayəndəsinin müsavat ordusuna geyim və təchizat əşyaları almaq üçün hərbi nazirliklə danışıqları barəsində teleqram - bunu təsdiq edir.

2 dekabr 1919-cu il

Özünün sərəncamında olmadığından Italiyanın hərbi nazirliyi paltar və silah verə bilmir. O avtomobillər, aeroplanlar, projektorlar, dizliklər, mələfələr və adyallar verir. Geyim əşyaları göndərilməsi Gellə tapşırılıb. Ilk partiya dekabrın axırlarında Batuma gələcək. Keyfiyyətli köhnəpaltar tapmaq mümkün deyil. Əgər qiyməti əl versə, bu əşyaların əvəzinə parça almaq barəsində fikirləşərəm. Parçanın bizdəki qiymətini bildirməyinizi xahiş edirəm.

General<br>Ibrahim ağa Usubov.

- Əmim çox zarafatcıl idi, - deyən Gövhər xanım söhbətini davam etdirir. - Bir dəfə süfrə başında olan bir əhvalat yadıma düşdü. İbrahim əmim köksünü ötürüb:

- Of, - dedi, - balalarım, kaş hər şeydə: ağılda, kamalda, şöhrətdə özümə oxşasınlar. Amma bircə şeydə mənə yox, dayılarına oxşasalar yaxşıdı.

Həyat yoldaşı - bibim tez üstünə düşdü.

- De görüm, o nədi elə?

Əmim bığaltı gülümsünüb:

- Boyumu deyirəm, - dedi, - bircə boy-buxundan kəm-kəsirim var.

Əmim ortaboylu idi, ona işarə vururdu. Əliağa Şıxlinski də ona zarafatla cavab verdi.

- Eybi yoxdu, - dedi, - İbrahim, qəm eləmə, o da igidə bir yaraşıqdır.

- Gövhər xanım, general əminizin son taleyi necə olub.

- Iyirminci ilin aprelində XI ordu gəldi. Əliağa Şıxlinski, İbrahim ağa Vəkilov, Səməd bəy Mehmandarov, Firudin bəy Vəzirov, əmim və bütün azərbaycanlı hərbçilərə, generallara ilk günlər toxunmadılar. Xüsusi əmr verdilər ki, poqonlarınızı çıxarın, indi Qızıl Orduda xidmət edəcəksiniz. Onlar da dinib-danışmadılar. Dedilər, təki xalqa toxunmasınlar, biz də xalqa xidmət edərik. Səhv etmirəmsə, hətta, onlara əmək haqqı da təyin etmişdilər. Əmimə vəsiqə də vermişdilər ki, o, diviziya komandiri kimi xidmət edir. Yadımdadır, iyul ayının ilk günləri idi. Evimizdə Qazaxdan gələn qonaq da vardı. Əliağa əmim, İbrahim dayım da bizə gəlmişdi. Hamı kəndi, qohumları, uşaqlıq dostlarını soruşur, deyib-gülürdülər. O vaxt bütün hərbçilər indiki İstiqlal küçəsindəki beş nömrəli evdə yaşayırdılar. Gecə on ikiyə işləyəndə hər kəs öz evinə getdi. Yenicə yatmağa hazırlaşırdıq ki, küçədə bir yük maşını dayandı. Maşından tökülüşən əsgərlər qaça-qaça bloklara doldular. Tüfənglərin qundağı ilə qapıları döyüb içəri soxuldular. Əsgərlər içəri girən kimi əmimi əhatəyə aldılar. Mən əmimə tərəf atılıb zorla əlindən yapışıb ağladım. Əsgərlər ev əşyalarını siyahıya aldılar. Əmimin orden-medallarını və özünü də apardılar. O gecə azərbaycanlı generalları - Əliağa Şıxlinskini, Səməd bəy Mehmandarovu, Murad Gəray bəy Tlexası, Firudin bəy Vəzirovu, general-qubernator Nərimanbəyovu, polkovnik Rüstəm ağa Şıxlinskini, kapitan Bahadır bəy Vəkilovu, əmim İbrahim ağa Usubovu - hamısını yük maşınına doldurub apardılar. Dallarınca çox gedib-gəldik, bir xəbər öyrənə bilmədik. Onları həbs etdirən İlya adlı hərbçi idi. O, yarı erməni, yarı yəhudi idi. Əmimi, on iki azərbaycanlı general və zabiti 1920-ci il iyunun on altısında gecə ilə Nargin adasına aparıb orada güllələyiblər. Çox get-gəldən sonra əmim arvadı Gövhər bibimə əl boyda kağız verdilər ki, onları səhvən güllələyiblər. Şura hökuməti ailənizdən üzr istəyir.

Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov isə ayrı kamerada olublar. Xoşbəxtlikdən onların Nəriman Nərimanova göndərdikləri məktub çatıb və onlar xilas olublar. Orduya soxulan terrorçu-daşnaklardan ehtiyat edən Nərimanov ona görə də 1920-ci il avqustun 1-də Ə.Şıxlinskini və S.Mehmandarovu Moskvaya göndərdi.

General İbrahim ağa Usubovdan çox az nişanə qalıb. Bir neçə şəkil, bir də qızı - Azərbaycan Dövlət koservatoriyasının müəllimi, əməkdar incəsənət xadimi, professor Nigar xanım Usubova... Mübarizələrdə keçən ömrün anları indi illərin saralıb-soldurduğu çox az şəkil və sənədlərdə yaşayır. General-mayor İbrahim ağa Usubovun qızı Nigar xanım atasından fəxrlə söhbət açır:

- Əliağa əmim deyirdi ki, atan İbrahimin hərbçi istedadı Birinci Dünya müharibəsi dövründə özünü parlaq şəkildə göstərdi. Döyüş zamanı çevikliyi, piyada qoşundan məharətlə istifadə etməsi, xüsusilə əsgərlərlə səmimi rəftarı İbrahimi rus ordusunda mahir bir sərkərdə kimi tanıtdı. Əliağa əmim bir də danışırdı ki, M.V.Frunze atanı yaxşı bir insan kimi tanıyırdı. Birinci Dünya müharibəsindəki fəaliyyətini, hərbi sənətkarlığını çox yüksək qiymətləndirirdi.

Mən Xarkovda anadan olmuşam. Uşaq olsam da, bəzi əhvalatları yaxşı xatırlayıram. Yadımdadır, nə münasibətləsə evimizdə qonaqlıq vardı, məclisdə yüksək rütbəli zabitlərlə yanaşı sıravi əsgərlər də iştirak edirdi. Əsgərlərdən biri

atam haqqında dedi: - baxmayaraq ki, o, rus deyil, azərbaycanlıdır, ancaq bizim üçün doğma atadan da yaxındır.

Atam həqiqətən də əsgərlə zabit arasında sərt sədd çəkməyən adam idi. Əsgərin bürün hüquqlarını əlindən alan zabitlərlə o, heç vaxt razılaşmazdı. Məhz bu keyfiyyətlərinə görə onu əsgərlər ata kimi sevir, hörmət edirdilər.

...Faris baba ilə görüşlərimin birində gördüm ki, o, lüğətlə bir Azərbaycan yazıçısının romanını oxuyur.

- Faris baba, - dedim, - indən belə dil öyrənmək gec deyilmi?

- Öyrənirəm ki, İbrahim əmim kimi dünənə sabah deməyim.

- O nə deməkdir?

- Bu saat danışacam, - deyib qoca iri gözlərilə gülümsündü. - Xatirimdədir, 1914-cü ilin yazında atam məni də götürüb kəndimiz Salahlıya gəlmişdi. Hələ müharibə başlamamışdı. Atam doğma kəndinə getməyi, qohumlara baş çəkməyi çox sevirdi. Ali rütbədə, yüksək bir yerdə işləməyinə baxmayaraq, ildə bir neçə dəfə kəndə gedərdi. “Bu kənd - deyirdi, - oğul, harda olsam mənimlədi, adam nə qədər böyük şəhərlərdə, uzaq ellərdə olsa da doğmasını, ondan süd əmdiyi yeri unuda bilmir. Buna haqqı da yoxdur”.

Atam eşidir ki, İbrahim ağa Usubov da ailəsi ilə kəndə gəlib. Abdulla əmimlə onun görüşünə gedirlər. Abdulla əmim İbrahim əmimdən soruşur ki, nə vaxt gəlmisən?

İbrahim əmim cavab verir ki, “Sabah”.

Atam təəccüb edir ki, bu nə danışıqdır. Abdulla əmim işin nə yerdə olduğunu başa düşür. Gülə-gülə deyir:

- İbrahim, əgər sabah gəlmisənsə, yəqin ki, dünən də qayıdıb gedəcəksən. - Qoca əhvalatı danışıb kədərlə gülümsündü. - İbrahim əmim - dedi, - uzun müddət Rusiyada qulluq etdiyindən Azərbaycan dilini bir az yadırğamışdı. Məni də tale ölkədən-ölkəyə, şəhərdən-şəhərə atıb. Fransız, ingilis və bir neçə dildə sərbəst danışıb yaza bilirəm. Amma hiss edirəm ki, o qədər yadlarla oturub-durınuşam ki, doğmamı unutmaq ərəfəsindəyəm.

Faris baba çoxillik ömründə bitib-tükənməyən hadisələrin, əhvalatların şahidi olmuşdu. Heyf ki, bu səmimi, mehriban qoca ilə görüşüm onun həyatının son günlərinə təsadüf etdi. O, bizim işıqlı dünyamızdan ömrünün doxsan dördüncü ilində köçdü.

Minillik ədəbiyyata, mədəniyyətə malik xalqımızın minillik də qəhrəmanlıq tarixi var. İgid Cavanşirin, əyilməz Babəkin, köhlən at belində yadellilərə qarşı vuruşan Koroğlunun, Nəbinin adı həm öz xalqımızın, həm də bütün bəşər tarixinin səhifələrində yaşayır. Onların hər biri öz doğma torpağını, öz yurdunu, öz xalqının əsrlərdən bəri yaratdığı mədəniyyəti qəsbkarlardan mərdliklə müdafiə ediblər.

Hər əsr tarixə öz qəhrəmanlarını verib, hər igid özünün şücaəti ilə gələcək nəslə örnək olub. Zaman keçib, illər ötsə də, onlar yenə unudulmur, tarixin əbədi yaddaşında, sənədlərdə həmişəyaşar qalırlar.

İnanırıq ki, hərbi qüdrət tarixmizin səhifələrində general-mayor İbrahim ağa Usubov da beləcə yaşayacaqdır.

## YARALI SÖHBƏT

**Bizim işimiz müqəddəs, haqq işidir, bizim ölməyimizlə o məhv olmayacaq. -Qalibiyyət yolunda bizim qanımız hələ çox töküləcək, ancaq göstərilən fədakarlıqla, verilən qurbanlarla böyük ideyalar qalib gəlir. Biz ölməklə, al qanımıza boyanmış azadlıq və bərabərlik bayrağını intiqam və qalibiyyət irsini gələcək nəsillərə qoyub gedirik.**

**Spartak**

Topoqraf-general Ibrahım ağa Vəkilovun qəribə taleyı ilə bağlı axtarışlar aparıb mətbuatda çıxış etdikdən sonra onun doxsan iki yaşlı oğlu Faris baba ilə dostluğumuz başlandı. Bir neçə dəfə görüşdükdən sonra qoca mənə etibar edib öz həyat yolundan, general-mayor İbrahim ağa Usubovdan danışdı. Hər dəfə görüşəndə günahsız olaraq həbs edilib əvvəl Mordoviyada, sonra Karaqandada on səkkiz il çəkdiyi əziyyətlərdən, iztirablardan yana-yana, bir-birindən dəhşətli əhvalatlar söyləyirdi.

Eşitmişdim ki, Faris babanın kiçik qardaşı polkovnik Qalib bəy Vəkilovun 1918-ci ildə yaranan Milli Orduda böyük xidmətləri olub. Onu da otuz yeddidə həbs ediblər. Arabir qardaşı haqqında soruşurdum. Hər dəfə də o, söhbətin yönünü dəyişir və bu barədə danışmaq istəmirdi. Yüzü haqlayıb, uşaq kimi kövrək olan qocaını qəlbinə dəyməyə qıymırdım. Bir dəfə söhbəti Çingiz İldırımdan saldım. Bilirdim ki, Çingiz İldırımla Qalib bəy dost olublar. Qoca məcbur olub ötəri bir əhvalat danışdı. Mən əl çəkməyib, - Qalib bəy niyə tutulub? - deyə soruşanda qoca qəmli-qəmli üzümə baxıb xeyli dinmədi. Bu an divardakı qədim saatın səsi bizi diksindirdi. Hər ikimiz dönüb ona baxdıq. Əqrəblər düz on birin üstündə dayanmışdı. Bu gün Faris baba ilə söhbətimiz həmişəkindən daha çox olmuşdu. Həqiqətən onu bərk yorınuşdum. Durub getmək istəyəndə qoca əlimdən yapışıb:

- Bərk yorulmuşam, - dedi. Qoy qardaşım Qalib haqqında söhbət sonraya qalsın, onun faciəsi çox uzundur. Bu, illərlə ürəyimdə gəzdirdiyim yaralı bir söhbətdir.

Yazıq görkəm alan qoca üzrxahlıq elədi, - İncimə, gələn şənbə-bazar gözləyəcəm...

Təəsüf ki, Faris baba mənə görüşmək üçün vəd etdiyi bazar gününə kimi yaşamadı...

Sonralar Qalib bəy Vəkilovun doğma qızı Leyla xanımla bir neçə dəfə görüşdüm. Pedaqoji elmlər doktoru, professor Leyla xanım Vəkilova M.F. Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunda işləyirdi.

General Əliağa Şıxlinskinin onlarda saxlanan nadir şəkillərinin üzünü çıxartdıranda, general babası İbrahim ağa Vəkilov haqqında veriliş hazırlayanda arabir atası haqqında da soruşdum. O da əmisi kimi suallarıma çox qısa cavab verir və nədənsə bu mövzunun üstündən sükutla keçirdi.

“...Bu gün bütün bunlar qəribə görünür, ancaq o illər repressiya olunanların, hətta uşaqları da bəzən öz ata-analarının günahkar olmasına inanır və açıq-aşkar onlardan üz çevirirdilər. Bu, nə ilə əlaqədar idi? Qorxaqlıqla, yoxsa öz şəxsi həyatını qorumaqla? Bu da vardı, amma əsas səbəb yalnız kor-koranə, fanatik inam idi”.

Professor Nikolay Truşenkonun bu sətirlərini “Smena” jurnalında (1988, № 9) oxuyanda dərhal Leyla xanımı xatırladım. Susmağının səbəbini sanki bu sətirlərdə tapmışdım. Elə ki, atası haqqında danışmağa başladı, bir daha gördüm və hiss etdim ki, Leyla xanımdan qorxu hissi, doğrudan da, çox uzaqdır. Zarafat deyildi, doğma atadan danışmaq, yazmaq əlli ildən çox idi yasaq edilmişdi. O, heç vaxt “xalq düşməni” atasından üz döndərməmişdi. Nə kor-koranə, fanatikcəsinə “ellər atası Stalinə”, nə də cəllad M.C.Bağırova özünün pənahı kimi pərəstiş edə bilməmişdi. O illərdə incidilmiş əlli bir min “gözükölgəli” azərbaycanlı ailəsindən biri kimi dərdini ürəyində çəkmişdi. Və bəlkə də Leyla xanımın ağlına gəlməzdi ki, vaxt gələcək, aşkarlığın, demokratiyanın işığında hər şey açıq-aydın etiraf ediləcək. Bütün gümanlar, şübhələr ürəklərdən silinib atılacaq, haqq-nahaq öz yerini tapacaq.

- Təəsüf ki, mən atamı babam İbrahim ağadan daha az görmüşəm, - Leyla xanım söhbətinə general babasından başlayır. – İlk dəfə atam Qalib bəy həbs ediləndə mənim cəmisi altı yaşım vardı.

İkinci dəfə isə on üç yaşında idim. Ona görə də atam haqqında anamın söhbətlərindən yadımda qalanlar daha çoxdur.

- Bəs general babanız İbrahim ağa Vəkilov atanız həbs ediləndə sizə onun haqqında heç nə danışmayıb?

- Yox, Babam heç vaxt oğlunun günahsız həbs olunması haqqında söhbət salmazdı. Sonralar mənə məlum oldu ki, babam atamın tutulmasını ürəyində sağalmaz yara kimi gəzdirirmiş. Mənim kimi körpə qız uşağına xalqının, Vətəninin rifahı üçün çalışan atamın xidmətlərini və onun günahsızlığını başa salmaq iqtidarında deyilmiş. Atam tutulandan sonra babamın qəddinin əyilməyini indi də gözüm önünə gətirəndə kövrəlirəm. Babam o ağır illərdə qanadları qırılmış quş kimi gəzirdi.

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində üç övlad böyüyürdü. 1866-cı il iyunun 20-də isə tale bu ailəyə yeganə qız payı - Rəna xanımı bəxş etmişdi. Xoşbəxt ailənin bircə nigarançılığı vardı: ata müsəlman, ana isə xristian dininə mənsubdur. Bəs övladları hansı məzhəbə qulluq etməlidir? - sualı ailəni keçilməz sədd, dibigörünməz qaranlıq qarşısında qoymuşdu.

Qleb sənətmdə atanın yolunu seçdi. O, hərbçi olmaq məqsədi ilə Tiflis kadet korpusunu müvəffəqiyyətlə bitirib Xarkovdakı üçüncü Aleksandr adına Ali Hərbi-Texniki İnstituta qəbul olundu. İkinci kursdan sonra Qleb Vəkilov könüllü olaraq həmin institutu tərk etdi. Sonralar Moskvadakı Alekseyev Hərbi Məktəbində təhsilini davam etdirdi.

Əsrin əvvəllərində fəhlə sinfi ayağa qalxıb mütləqiyyətm rədd olunmasını tələb edirdi. Qanlı bazar hadisələrindən hiddətlənən xalq hərəkatı coşmuşdu. İmperiyanın hər yerində çarizmin qanlı cinayəti nifrətlə qarşılandı. Belə təlatümlü, qarışıq bir dövrdə ananın da, atanın da əzabı onlara dinclik vermirdi. Peterburqda

təhsil alan böyük oğlu Borisi, Moskvada yunker məktəbində oxuyan Qlebi də bir sual düşündürdü. Mən kiməm, hansı millətə məxsusəm? Bu izahedilməz sual qarşısında qalan hər iki qardaş tez-tez ata-anaya müraciət edirdilər.

**Faris Vəkilovun söhbətmdən**: - Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. l904-05-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bədniyyətli rus-yapon müharibəsi, xalq kütləl əri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə "Din azadlığı haqqında manifest" nəşr olundu. Orada hər hansı bir səbəbdən öz ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dinin müdafiəçilərini bilavasitə yaxınlığında bu məsələni qaldırınağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarınaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ona görə də çıxılmaz vəziyyətdə qalan anam Yelena Yefimovna Vəkilova 1909-cu il martın 2-də dahi yazıçı Lev Nikolayeviç Tolstoya məktubla müraciət etməli olub.

1910-cu ildə yunker Qalib bəy Vəkilov Moskvadakı Alekseyev hərbi-texniki məktəbini bitirib xidmətə başladı. Birinci Dünya müharibəsi başlananda o, Qərb cəbhəsindəki mühəndis alayında döyüşürdü. Molodeçnıy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə podpolkovnik Qalib bəy Vəkilov 2-ci dərəcəli müqəddəs Georgi ordeni ilə təltif olundu. Hərbi-texniki mütəxəssis kimi Qalib bəy Vəkilovun ən başlıca vəzifəsi düşmənin qəfil hücum edəcəyi bərə və keçiddlərin möhkəm qurulması, səngərlərdə piyada və tank əleyhinə mərmilərin dəqiq yerləşdirilməsi idi.

Leyla xanımın stolun üstünə qoyduğu müxtəlif sənəd və foto-şəkillərin hamısı inqilabdan əvvələ məxsusdur. Onların arasında çox qalın olmayan bir kitab da var. Bu, məşhur ədəbiyyatşünas Firudin bəy Köçərlinin ilk "Azərbaycan tatarlaının ədəbiyyatı" kitabıdır. Onu müəllif 22 oktyabr 1903-cü ildə avtoqrafla Leyla xanımın general babasaına  hədiyyə verib. "Hörmətli İbrahim ağa Vəkilova böyük məhəbbət nişanəsi ilə Firidun bəy Köçərlidən. Qori şəhəri".

Şəkillərdən ikisi daha maraqlıdır. Onlar general-leytenant Əliağa Şıxlinskiyə məxsusdur. İndiyədək heç kəsə məlum olmayan və heç yerdə dərc edilməyən bu şəkillər 1915-ci ilə aiddir. Bir qrup zabit və üç nəfər şəfqət bacısı ilə birgə şəkildə isə Əliağa Şıxlinski həyat yoldaşı Nigar xanımla birgə dayanıb.

- Nigar xanımla yanaşı əyləşən anam Aleksandra İvanovna Vəkilovadır. Anam da atam Qaliblə birgə Birinci Dünya müharibəsi illərində döyüşən orduda xidmət edib. Anamın rütbəsi leytenant olub. O da Nigar xanım kimi hərbi səhra qospitalında şəfqət bacısı işləyib. Oktyabr inqilabı başlananda onlar Minsk ətrafindakı cəbhədə olublar. Atam üç ay ordu sıralarında komandir kimi xidmət etdikdən sonra komandanlıq onu qulluğunu davam etdirınək üçün Bakıya ezam edir. O, yeni yaranan Azərbaycan Milli Ordusunda hərbi-mühəndislər idarəsinin

rəisi təyin olunur. Podpolkovnik rütbəsində Azərbaycan ordusunun süqutuna qədər işləyir. Sonra atam XI Ordunun Ənzəli şəhərindəki mühəndis qoşunları hissəsinin rəisi vəzifəsində qulluq edir.

Anam da bu yürüşdə atamla birgə olub. Atam bu yürüşdə ağır xəstələnib. O, malta qızdırınasına rutulub. Xəstəliyinə baxmayaraq, 1922-ci ildə yenidən Azərbaycan Baş Hərbi - Mühəndislər Idarəsinin rəisi vəzifəsində işə başlayıb. Sonra Zaqafqaziya Qızıl Ordu hərbi inqilab şurasının hərbi sənaye komitəsinin direktoru olub. Bu vəzifədə beş il işləyib.

- Leyla xaınm, bayaq dediniz ki, atanız iki dəfə həbs edilib. Otuz yeddinci ildən əvvəl nə vaxt həbs olunmuşdu?

- Atam ilk dəfə 1931-ci ildə həbs edilib. O, inşaatçı-mühəndis sifətilə Belomor-Baltik kanalının tikintisində dustaq kimi işləmişdi. 1933-cü ildə o, həbsxanadan gəldi. Qocalıb əldən düşmüş, xəstəhal atamın saçı tamam ağarınış və dinibdanışmaz olmuşdu. O, tək bircə dəfə mənimlə həbs olunması haqqında söhbət edəndə dedi: “Kim mənim haqqımda sənə nə deyirdesin, bilmirəm. Bircə onu yadında saxla ki, mən nə Vətənimin, nə xalqımın qarşısında, nə sənin, nə ananın, nə də heç kəsin qarşısında günahkar deyiləm”.

Belomor-Baltik kanalı tikintisindən qayıdandan sonra atam Bakıda məişət-tikinti trestində direktor müavini işlədi.

Yadımdadır, çox tez-tez xəstələnirdi. Semaşko adına xəstəxanada, dəmiryolu xəstəxanasında, sonra da Bayıldakı xəstəxanada müalicə olunurdu. Onu operasiya elədilər. Anamla yanına çox çətinliklə gedib-gəlirdik. Bir xeyli sonra atamın səhhəti yaxşılaşdı. Ailəmizin güzəranı da pis deyildi. O, işini dəyişmişdi. İndi Kür üstündəki Bankə qəsəbəsində işləyirdi. Sən demə, ən dəhşətlisi geridə imiş. Otuz yeddinci il gəlib çatdı. Laxa ağzını açan bu dəhşətli qara il yüzlərlə saf Azərbaycan ziyalısı ilə birlikdə atamı da uddu...

1956-cı ildə atamın günahsız məhv edilməsi haqqında iki bəraət məktubu aldım. Biri 1931-ci ilə görə, biri də 1937-yə görə. Sonuncuda yazılmışdı ki, polkovnik Qalib Vəkilov 19 dekabr 1937-ci ildə həlak olub. Anamla mən isə otuz yeddinci ildən əlli altıya qədər onu həbsxənalarda axtarırdıq.

Leyla xanım Vəkilovanın stolunun üstündə daha bir tarixi şəkil var: süfrə arxasında altı nəfər əyləşib. Ovdan qayıdıb nahar edirlər. Məşhur sovet sərkərdəsi Mixail Frunze sol əli çənəsində dərin düşüncələrə dalıb. Onun sağ yanında dayanmış Əliheydər Qarayevlə Qalib bəy Vəkilov da fikirlidirlər. Təkcə diviziya komandiri Məmməd Veysov məşğuldur. O, əlindəki çəngəl-bıçaqla qarşısındakı qabda nəyisə doğrayır. Qalan iki nəfərin kimliyi məlum deyil. Leyla xanım deyir ki, bu şəkil 1925-ci ilin qışında M.V.Frunze ikinci dəfə Azərbaycana gələndə Xaçmaz rayonunun ərazisindək keçmiş Neruçev (indik №-li sovxoz) malikanəsində çəkilib.

Altı ay keçməmiş bu sıradan biri - M.Frunze qəfil vəfat etdi. Əliheydər Qarayev, Qalib bəy Vəkilov otuz yeddinin qurbanı oldular. Məmməd Veysov isə doqquzillik həbs cəzası çəkib 1957-ci ildə vəfat etdi.

- Leyla xaınm, atanızın dostlarından kimləri xatırlayırsınz?

- Hələ uşaq idim, yadıma gəlir ki, M.V.Frunze, Əliağa Şıxlinski, Serqo Orconikidze və ən çox Çingiz İldırım qonağımız olardı. Çingiz İldırım mənim

üçün “Çi dayı idi.” O, çox şən, səsli-küylü, çox vaxt mənimlə oynayan, mənə cürbəcür macəralar danışan “Çi dayı” idi.

Onun ailəsi yox idi. Vaxtının çoxunu atamla bizdə keçirərdi. “Çi dayı” uşaqlara xüsusi məhəbbət və hörmətlə yanaşardı.

Onun danışdığı yarımfantastik hekayətlər də yaxşı yadımdadır. O, nəql edərdi ki bir dəfə qatar gedə-gedə atılıb ona mindim, ordan da hoppanıb uçan təyyarənin üstünə qondum, bunları danışır, özü də mənimlə birgə gah təəccüblənər, gah da uğunub gedərdi.

O danışırdı ki, yadıma gəlir, bir dəfə Lənkəran tərəfdə ov eləyəndə qamışlıqdan qəfil çıxan atanı qaban zənn edib az qala qanına qəltan eləmişdim. “Çi dayı”hər gəlişində mənə rəngli uşaq kitabları gətirərdi. Bir dəfə ağacdan yonulmuş qaban heykəli gətirdi. Pəncəsində anama avtoqrof yazdırınışdı.

Həmin heykəl - qaban budur. İndi də saxlayıram. Atamın yazı stolunun üstündə “Çi dayı”nın Qırmızı Bayraq ordeni alandan sonra çəkilmiş fotoşəkli qoyulmuşdu. Onu Çingiz əmi avtoqrafla atama bağışlamışdı.

Birdən-birə “Çi dayı” yoxa çıxdı. Bir müddət bizə gəlmədi. Hər dəfə mən atamdan soruşanda ki “Çi dayı” niyə bizə gəlmir, onlar susardılar. Mənim sualım cavabsız qalardı. Xeyli sonra mən başa düşdüm ki, o qara illərin qorxunc əli onun da yaxasından yapışıb. Çingiz İldırım cəllad Bağırovdan yaxasını qurtarınaq üçün əvvəl Maqnitoqorsk, 1934-də isə Kirov-Roqa gedir. Amma cəllad Bağırov orda da onu axtarıb tapdırır və güllələtdirir.

Leyla xanım stolun üstündəki şəkli götürüb kədərli səslə: - “Çi dayı”nın atama bağışladığı bu şəkil qeyri-adi bir təsadüf nəticəsində bizdə qalıb, - deyir. Atam həbs olunanda onun kitabları, bağışlanmış şəxsi silahı, sənədləri hamısı müsadirə olundu. “Çi dayı”nın bu şəkli isə sonralar lazımsız bir kitabın arasından çıxdı. Atam Çingiz İldırımdan sonra həbs olunacağını gözləyirdi.

O, hətta, “Çi dayı”nın həbs olunmasmı eşidəndə anama deyib ki, indi növbə mənimdir.

Görünür, atam bilə-bilə “Çi dayı”nı şəklini lazımsız kitabın arasına qoyub ki, ələ düşməsin.

Çingiz İldırıma bəraət veriləndən sonra bu nadir şəkil o gözəl insandan demək olar ki, yeganə yadigar idi. Bizim muzeylər bu şəklin surətini çıxartdılar. Adını daşıyan Politexnik İnstitutu qarşısındakı büst də bu şəkil əsasında qoyuldu.

Indi hər dəfə yolum Nərimanov prospektinə düşəndə o büst qarşısında istər-istəməz baş əyir, sanki canlı “Çi dayı”yla salamlaşıram.

## ƏZABKEŞ İNSANIN XATİRƏLƏRİ

> Xatirə tarix elmi kimidir. Belə halda gərək hər şeyi olduğu kimi nağıl edəsən, artırıb-əskiltməyəsən. Düzgün xatirə yazmaq üçün gündəliyin əhəmiyyəti böyükdür. Çox təəssüf ki, bu gözəl mədəni adət bizdə az qala tamamilə unudulmuşdur.
>
> **Məmmədcəfər Cəfərov,**
> **akademik**

Sovetlər dövründə hər adam xatirə yazmağa, gündəlik tutmağa cəsarət eləmirdi. Çünki xatirəni dövlət xadimi, müdrik adamlar yazır. Vəzifədə olan azərbaycanlılar totolitar rejimdə o qədər sıxışdırılıb, o qədər "döyülüblər" ki, əksəriyyəti bu xeyirxah işdən vaz keçiblər. Əgər yazmalı da olsaydılar, mütləq dövrün onların səsini içində boğduğunu, ədalətsizliyi yazmalı idilər.

Faris bəy Vəkilovdan bizə yadigar qalan gündəlik çox yığcam xatirədir. Ömrünün doxsan birinci ilində yaddaşına arxalanan bu saf ziyalı inamla demək olar ki, heç bir tarixi faktda, ildə təhrifə yol verməyib. Yejov kimi qaniçənin hökmranlığı dövründə - 1936-1937-ci illərdə biliyinə və bacanğma görə Moskva yaxınlığındakı "Beş saylı zavodda"direktor işləyən Faris bəyi türk olduğüna görə təqib ediblər. O acı illəri xatırlayan Faris bəy yazır: "Mənim orada nələr çəkdiyimi yazan olsa, həcmcə böyük, məzmunca çox təsiri bir əsər yaranardı. Rusların təsəvvüründə "türk" sözü "düşmən anlayışı ifadə edirdi. Bir neçə həftə işdən evə qayıdarkən, soyunmadan yatırdım, hər an həbs olunacağımı gözləyirdim. Nə üçün? sualını vermək çox gülməli idi".

Nəhayət, vətəni Azərbaycana qayıtmağa məcbur olan Faris bəyin işdən getməsinə bircə nəfər - zavod partiya təşkilatı katibi Aleksandr Dudetski təəsüflə: - Siz niyə gedirsiniz? Biz Sizin büllur kimi təmiz adam olduğunuza əminik.

Xatirələrində Faris bəy 1917-ci ildən birbaşa 1923-cü ilə keçir. Bu da təbiidir. Yetmişinci illərdə hələ Sovet orqanlarının, senzorun qadağaları mövcud idi. Həyatının Müsavat dövrünü, Fransada yaşadığı illəri ötəri təsvir edir. Halbuki 1922-1926-cı illərdə Parisdə mühacirətdə olan alim-general Məmmədsadıq bəy Ağabəyzadə Fransadan xalası oğlu, məşhur alim Əlibəy Hüseynzadəyə 1922-ci ildə yazdığı məktublarda şəhərdə Faris bəy Vəkilova rast gəlib, vətən haqqında dərdləşdiklərindən yanıqlı epizodlar yazır.

Əlbəttə, bütün bunlan yazmamaq Faris bəy Vəkilovun günahı deyil. Günah zamanın sərt abı-havası idi. "İlan vuran ala çatıdan qorxar" - deyib atalar. Faris bəy 18 illik sürgündə gözü ilə odalov görüb gəlmişdi.

Atalar yaxşı deyib ki, qismətdən artıq yemək mümkün olmadığı kimi, bəladan da qaçıb qurtarınaq olmaz. Vətəndə Faris bəyi pis qarşılamadılar. Mütəxəssis kimi o, lazım idi. Amma müsavatçı kimi də gözdən iraq buraxmadılar. "Rəhbərlik məni zavoddan çıxardıb, Baksovet sisteminə keçirməyi qərara aldı.

Baksovetm müəssisələrinin səmərəli işinə, rəhbərlik etmək, ruhlandırmaq isə, üçüncü şəxs, "sayıq göz", xüsusi şöbənin rəisi Arsen Arakelova həvalə edildi. Onun peşəsinin nə olduğunu bilirdim. Ancaq onun nə üçün orada olduğunu yaxşı bilmirdim. Köhnə mühəndis, partiyaçı olmayan, bəy ailəsindən olan Faris bəy Vəkilovu nəzarətsiz qoymaq olmazdı".

Nəhayət, 1942-ci ilin yayında Faris bəy Vəkilovun həyatma qara bir səhifə yazılır. Orqan işçiləri - Medvedyev və İşxanov addımbaşı izlədikləri Faris bəyi həbs edirlər.

İlk dindirilmədə müstəntiq İşxanov (İşxanyan - Ş.N.) kin-küdurətlə deyir:

- Sizin istehsalat fəaliyyətiniz bizə yaxşı bəllidir, o, nöqsansızdır (bu, onun dediyi sözlərdir), ancaq siz düşüncə tərzinizə görə cəzalanmalısınız.

Yalnız düşüncə tərzinə görə on səkkiz il həbsxanalarda, sürgündə olmazın əzab çəkən Faris bəy vətənə qayıda bilir. Sonralar Sovet Dövlət Təhlükəsizlik şöbəsinin polkovniki Veliçko ona bəraət verərkən demişdi:

- Sənədlər və faktlar göstərir ki, sənin heç bir günahın yoxdur. Müstəntiq İşxanovun sənin haqqında topladığı iki cildlik sənədlər heç bir çürük yumurtaya da dəyməz.

Zənnimizcə, Faris bəy Vəkilovun ən böyük "günahı" 1918-1920-ci illərdə Gürcüstan hökuməti yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi, çar və müsavat generalının oğlu olması yə əla bir mühəndis kimi şöhrət qazanması idi. Namərd erməni İşxanov bunların üçünü da yığcamlaşdırıb ona "düşüncə tərzi" adı ilə siyasi rəng verib.

O illərdə ağıllı adamların biliyinə, fikirlərinə siyasi rəng vermək orqan işçiləri arasında dəbdə idi. Çünki belə günahsız ziyalılara ayrı cür qara yaxa bilmirdilər. Ümumtürk tarixinin görkəmli tədqiqatçısı Lev Nikolayeviç Qumilyovu 1937-ci ildə həbs edən XDİK-nın prokuroru xüsusi müşavirənin qərarını oxuyaraq demişdi:

"Siz təhlükəlisiniz, çünki çox savadlısınız. Ona görə də on il həbs cəzası alacaqsınız".

Faris bəy Vəkilovun 1977-ci ildə səliqə-səhmanla yazdığı xatirələri 1914-cü ildən başlanır. Maraqla oxunan bu xatirə şəxsi xarakter daşımır. Burda elə epizodlar, elə hadisələr var ki, onu həyəcansız oxumaq mümkün deyil. Nə gizlədim, bir nəfəsə oxudum bu saf qəlblə, şirin qələmlə yazılmış xatirələri. Oxuduqca fransızların müdrik bir xalq deyimini xatırladım: "Yazanda, vicdanla, allah dərgahına üz tutaraq, bir də bəşəriyyətm istəkləri naminə yazmaq lazımdır". Ömrü əzabalardan keçən Faris bəy xatirələrinə belə epiqraf seçib:

"Unudulmuş qəbirlərin birinin üstündə yazılıb:

**Ey mühəndis rahat yat,**
**Vətən üçün çəkdin cəfa.**
**Zəhmətinin misli yox,**
**Ötnür qılmadı vəfa.**

## MƏNİM NƏ ZAMAN VƏ HARADA İŞLƏDİYİM HAQQINDA QISA TƏƏSÜRAT

(Petroqrad, 1914-1915-ci illər, Putilov zavodu)

Mənim əmək fəaliyyətim 1914-cü ildə başlayıb. Mən İmperator I Nikolayın Peterburq Texnoloji İnstitutunun 5-ci kursunun tələbəsi idim və diplom layihəsinin müdafiənə hazırlaşırdım. Almaniya ilə müharibə başladı. Mən tam ali təhsilli ixtisasçı olmasam da, müdafiədə işləməyə - Petroqrad Putilov zavodunun Top emalatxanasına ezam edilim.

O zaman zavodda 30000-ə yaxın işçi vardı. Yalnız Top emalatxanasında 3000-ə yaxın fəhlə çalışırdı. Mən ora getməmişdən qabaq Top emalatxanasında bizim institutu bitirmiş beş gənc mühəndis işləyirdi. Onlar hamısı kontor xarakterli işlərdə - layihə, planlaşdırına və sairədə işləyirdilər. Bir neçə gün bəzi qrafik işlər ilə məşğul olduqdan sonra, mən başa düşdüm ki, bu, mənim işim deyil. Sexlərdən eşidilən dəzgah və motor səsləri mənim diqətimi cəlb edirdi. Hiss edilirdi ki, orada qayrıar iş gedir. Mən emalatxananın baş mexaniki Nikolay İvanoviç Pomelov ilə tanış olmuşdum və onu müxtəlif dəzgahlar, onların xüsusiyyətləri və xassələri haqqında suallarla narahat edirdim. Nikolay İvanoviç böyük həvəs ilə çoxillik təcrübəsini mənimlə bölüşürdü. Fəhlə ailəsində həyata gəlmiş, xüsusi savadı olmayan, böyük iş təcrübəsi olan bu şəxs, özünün məndən qat-qat təcrübəli olduğunu hiss etdirınədən, bildiklərini məndən əsirgəmirdi. Bizim tanışlığımızdan bir neçə gün sonra, mənim inciyəcəyimdən ehtiyat edərək o, böyük ədəblə mənə özünün köməkçisi yerini təklif etdi. Mən bu təklifə görə çox sevindim, təşəkkür etdim və Nikolay İvanoviçə bildirdim ki, mən tələbəlik həyatını bitirsəm də, istehsalatda heç bir təcrübəm yoxdur və ola bilər ki, çox da yaxşı köməkçi olmayam. Nikolay İvanoviçi bu sözlər fikrindən döndərınədi. Mənim razılığımı qəbul edib, elə həmin gün bu haqda Top emalatxanasının rəisi Bonifatiy Pavloviç Fyodorovla danışdı. Fyodorov isə o zamankı vaxt və şərait üçün nüfuzlu bir şəxsiyyət idi. Müharibə vaxtı bilavasitə üç topçu generalın müşahidəsi altında, 3000 fəhləsi olan məsul bir emalatxanada rəhbərlik etmək çox çətin iş idi. Fyodorov diplomlu mühəndis deyildi. Fəhlə ailəsində böyümüş, zavod zəhmətkeşlərinin sərt məktəbini keçmiş bu şəxs, yersiz incəliklərdən uzaq idi. Onun tabeliyində iki diplomlu mühəndis var idi. O, çox tələbkar idi, heç bir güzəştə yol verməzdi. Fyodorov öz emalatxanasının bəlası idi. O, məni köməkçi götürmək üçün Pomelova razılıq verdi. Birinci günlər hərlənən, küy salan maşınların səsindən çəkdiyim həyəcanları uzun müddət unuda bilmirdim. Fəhlələr tezliklə mənim dəzgahlardan xəbərdar olmadığımı başa düşdülər. Onlar mənim hətta xırda məsələləri belə həll edə bilmədiyimi görürdülər. Yazı masaları arxasında işləyən mühəndislər, mənim əllərimin, bəzən isə, hətta sifətimin çirkli olduğunu gördükdə, təkəbbürlə gülümsəyirdilər. Mənim istehsalat işinə meylim, bu yolda çəkdiyim mənəvi əziyyət onlara qəribə gəlirdi.

Mənə yad olan bu həyata qapıldığımdan üç həftə sonra başa bəla - Fyodorov məni yanına çağıraraq, rəisim Pomelovun xəstələndiyini və bir neçə ay zavodu tərk edəcəyi xəbərini mənə çatdırdıqda, mənim nə cür hisslər keçirdiyim, indi də, 60 il keçdikdən sonra da yaxşı yadımdadır. Top emalatxanasının böyük təsərrüfatının

tələb olunan halda saxlanılması və təmir edilməsi vəzifəsi mənim üzərimə düşürdü. Üstümə ağır yük kimi düşmüş işin həcmindən mən dəhşətə gəlirdim. Mən verilən tapşırıqdan imtma etmək istədim, lakin Fyodorov özünə məxsus sərtliklə: "Müharibə zamanı istəklə işləmək olmaz. İşə başlayın, çətinliklərə rast gəldikdə şəxsən mənə müraciət edin" - dedi. Tərslikdən, mənim müstəqil işə başladığım ilk günlər kiçik tokar dəzgahları qrupunda qəza baş verdi. Transmissiya valı çatladı, bu transmissiyada işləyən 40 ədəd dəzgah sıradan çıxdı. Xoşbəxtlikdən ehtiyat valları var idi. Val əvəz edildi... Həftə yarım keçdikdən sonra yeni val həmin yerdən sındı. Valı yenə dəyişdik... Dəhşət... - yenə də o müddət keçdikdən sonra həmin yerdə, həmin qəza. Görəsən buna səbəb nə ola bilərdi? Bu hal pis qiymətlənirdi, bütün baxışlar mənə dikilmişdi.

Heç yerdən kömək gözlənilmirdi. Vəziyyətdən çıxmaq lazım idi. Bu hadisələrdən bir az əvvəl "Vesmik texnoloqa" jurnalında metalların yonulması haqqında məqalə oxumuşdum. Bu məqalə məndə - görəsən mənim valım tez-tez deformasiyaya uğramırını - fikrini yaratdı.

Valı yoxlayarkən məlum oldu ki, onun podşipniklərindən biri yerini dəyişmişdir və val əks istiqamətlərdə vaxtaşırı əyilir. Qəzanın səbəbi məlum oldu. Yeni val norınal işləməyə başladı. Mənim kənardan kömək almadan vəziyyətdən çıxmağım hamının diqqətmə səbəb oldu. Mənim nüfuzum artdı. Fyodorov məni birinci iş müvəffəqiyyətimə görə təbrik etdi. Bu, mənə çox baha başa gəlmişdi. Ən yaxşısı o idi ki, mən fəhlələr arasında hörmət qazanmışdım. Pomelov daha zavoda gəlmədi və mən il yarım tək işləməli oldum. 1916-cı ilin əvvəlində, Fyodorovun mənə verdiyi çox yaxşı xasiyyətnamə ilə məni səhmdar cəmiyyətinə məxsus olan, ancaq ölkənin Müdafiə üçün də işləyən "Feniks" maşınqayırma zavoduna işə göndərdilər.

## "FENİKS" ZAVODU
(1916-1917-ci illər)

"Feniks" zavodu Petroqradın əks tərəfinə diametral olaraq, Polyustrov sahilində Finlandiya vağzalı rayonunda yerləşmişdir.

Yeni şəraitdə ilk vaxtlar mən baş mühəndis "cənablarının" öhdəsində idim. Sonra isə sexlərdən birinin rəisi oldum. "Feniks" zavodunda mən özümün mühəndis bacarığımı göstərə bilmədim, çünki: əvvəla, təsərrüfat əvvəlcədən işlənilmiş texniki proseslər və hərbi sifariş çərçivəsi ilə ciddi məhdudlaşdırılmışdı. Onlara dəqiq əməl edilməsinə, detalların hazırlanmasının keyfiyytinə və miqdarına nəzarət etmək lazım idi. İkincisi isə o zamankı düşüncələr adi fəaliyyət çərçivəsindən kənar idi. Bu, 1916-cı ilin ikinci yarısı, 1917-ci ilin ərəfəsi idi. Zavodun rəhbərliyi sanki, qarşıdakı hadisələrin nəhəngliyini, xarakterini görmür və zavodun gələcək inkişafi haqqında perspektivlər hazırlayırdı.

Bizim zavodun direktoru gənc mühəndis Mixail İsayeviç Barski idi. Mən yaxşı işçilər sırasında idim və Amerikaya ezam ediləcək mühəndislərin siyahısına daxil edilmişdim. Rusiyada baş verən hadisələr ilə əlaqədar olaraq, Amerika məsələsi baş tutmadı. Mən texniki personal və qulluqçular tərəfindən yeni təşkil

edilmiş zavod komitəsinə nümayəndə seçildim. O vaxtlar bizim zavodda işləyən tokarlardan biri, yoldaş Kadatski mənim yaxşı yadımdadır, yüksək zehni inkişafa və erudisiyaya malik olduğu üçün sonralar o, partiya işçisi və Lensovetm sədri olmuşdu. 1917-ci ilin oktyabr ayında səhmdar cəmiyyət fəaliyyətini dayandırdı. Zavod bağlandı, fəhlə və qulluqçular haqq-hesablarını aldılar. 1917-ci il, dekabr ayının axırlarında mən Petroqraddan Tiflisə getdim, orada mənim qohumlarım yaşayırdı. O zaman Zaqafqaziyada federativ respublika yaratmaq cəhdi boşa çıxdıqdan sonra, müstəqil Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları əmələ gəlmişdi. Bir neçə vaxt mən siyasi-ictimai işlə məşğul oldum[7]. İxtisasım üzrə işləməməyin qeyri-mümkün olduğunu görərək öz ixtisas dərəcəmi artırınaq üçün oradan Fransaya getməyi qərara aldım.

## Paris, Reno zavodu
## (1923-1926-ci illər)

Paris şəhərinə gəldim. Fransız dilini az-çox bildiyimə görə, bir müddət sonra RENO maşınqayırma zavodunun konstruktor şöbəsinə işə düzəldim. RENO zavodu daxiliyanma mühərriklərinin böyük çeşidini buraxan nəhəng müəssisə idi. Müxtəlif növ yük və minik avtomobillərindən başqa, zavod traktor, tank, stansional mühərrikləri də istehsal edirdi. Zavod ən yeni texnika ilə təmin edilmişdi, öyrənməli çox şey var idi. Zavodun konstruktor şöbəsində işlədiyim 4 il ərzində, mən özümün texniki biliyimi xeyli artırdım. Paris şəhərində müvəqqəti qaldığıma əmin idim, tez-tez Azərbaycanda qalmış atam ilə əlaqə saxlayırdım. 1925-ci ildə atam xəbər verdi ki, məni Peterburqdan şəxsən tanıyan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Əliheydər Qarayev təklif edir ki, vətənə qayıdım və hadisələr zamanı dağıdılmış təsərrüfatların bərpa edilməsində iştirak edim. Mən bu təklifdən çox məmnun oldum. Sovet konsulluğundan lazım olan sənədləri aldım və 1926-cı ilin fevral ayında öz həyat yoldaşım ilə birlikdə Bakıya qayıtdım.

## AZƏRBAYCAN DÖVLƏT METALSƏNAYESİ
(1926-1932-ci illər)

Qarayev məni səmimi qarşıladı, ev almaqda kömək etdi və Leytmant Şmidt adına zavoda işə göndərdi. Mən orada vətəndaş Pavel Georgieviç Qolikov ilə tanış oldum. Onun zavodda hansı vəzifə daşıdığını mən öyrənə bilmədim, ancaq o, partiya və zavod komitələrində aparılan müxtəlif mövzuda olan söhbətlərdə fəal iştirak edirdi. Onun ötkəmliyi və nüfuzlu olması böyük təsir göstərirdi, elə bil ki, ona hamı qulaq asırdı. Yaşına görə məndən böyük mühəndis olduğunu zənn edərək, onun hansı institutu bitirdiyi ilə maraqlandım. Qolikov cavab verdi: “Peterburq Texnoloji İnstitutunu”, yəni mənim oxuduğum institutu. İnstitut yoldaşı ilə görüşdüyümə sevinərək, onunla institut, professor və müəllimlər haqqında

---

[7] Həmin vaxtlar Faris bəy Vəkilov Gürcüstan hökuməti yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi olmuşdur. - Ş.N.

xatirələri yada salmağa çalışdım. Bu zaman eşitdiyim cavab məni sarsıtdı. Qolikov dedi ki, vətəndaş müharibəsi iştirakçısıdır, vuruşmalardan birində o, başından kontuzıya almışdır və bunun nəticəsində yaddaşını tam itirmişdir, ona görə də o, keçmişi, o cümlədən də institut haqqında heç bir şey xatırlamır.

Bu hal qəribə görünsə də, Qolikovun səsində olan qətiyyətlik onun dediklərinə şübhə etməyə imkan vermirdi. Şmidt zavodunda mən cəmi 3-4 ay işləməli oldum. Bu zaman ümumittifaq xalq təsərrüfatı sistemində xalq təsərrüfatının ehtiyaclarını ödəmək üçün metal emal edən müəssisələr kompleksi yaradıldı. Kompleks beş müəsissədən - iki mexaniki zavod, iki çuquntökmə zavodu, bir poladtökmə zavodu - ibarət olmalı idi. Kompleksə partiya üzvü olan yoldaş Slavnitski direktor-administrator, Qolikov baş mühəndis təyin edilmişdi.

Qolikov mənə texniki şöbəyə rəhbərlik vəzifəsini təklif etdi. Kompleksə daxil olmuş müəssisələr çox acınacaqlı vəziyyətdə idi. Onlar vaxtı ilə hər hansı bir şəxsə mənsub olmuş mümkün dərəcədə istifadə edilmiş kiçik emalatxanalardan ibarət idi. Köhnəlmiş dəzgahlardan ibarət olan avadanlıq, dağılmış binalarda yerləşirdi. Apancı orqan olan texniki şöbə dar bir dəhlizdə yerləşdirilmişdi. Hər hansı bir texniki ədəbiyyatdan danışmağın belə mənası yox idi. Tale Paris zavodu RENO-dan sonra məni belə bir şəraitə atınışdı. Direktorun zavod işi haqqında təsüvvürü belə yox idi. O, yalnız yanğın söndürdüyü zaman göstərdiyi şücaətlərdən danışmağı bacarırdı. Kompleksə direktor təyin olunmazdan qabaq uzun illər boyu o, yanğınsöndürmə komandasında işləmişdi. Aldığı kontuziyadan yaddaşını, institutda qazandığı “yüksək biliyi” itirmiş baş mühəndis öz “imkanlarından” istifadə edə bilmirdi. (İnstitut haqqında təsəvvürü o, onu Peterburqda gəzdirən faytonlardan əldə etmişdi). Mən yeni iş yerində bu cür rəhbərlərin başçılığı altında işləməli idim.

Bu cür şəraitdə işləməyin əsəb gərginliyinə necə səbəb olmasını, yalnız bu cür şəraitə düşənlər başa düşə bilər. Bu çətinliklərə əlavə olaraq mən adımın “Faris bəy” ağırlığını da daşımalı idim. O zaman bəylərə münasibət də kəskinləşmişdi. İndi, illər keçdikdən sonra mən səmimi qəlbdən deyə bilərəm ki, mənim çiyin-çiyinə işlədiyim fəhlə kollektivinin qarşılıqlı yoldaş etibarlığı sayəsində mənim mənəvi gücüm möhkəmlənirdi. Aşağıdakı adlar həmişəlik mənim yadımda qalmışdır; model ustası Makarov, əla qazan nişanvuranı Ajotkin, frezerçi Obnosov, nişanlayıcılar - Lunin və Qalimov. Oz biliyimi onlarla bölüşdürınəklə yanaşı, mən özüm də onlardan çox şey öyrənirdim. Elə vaxt olurdu ki, mən onlar ilə birlikdə saatlarla bir çertyojun üzərində işləyir, bu ağır şəraitdə detallan necə əldə etmək haqqında fikirləşirdik.

Bütün çətinliklərə baxmayaraq, bizim zavodun istehsal etdiyi ilk işlərdən biri Bakı ticarət limanının tikilməsində monolitlərin döşəməsi üçün düzəldilmiş 73 tonluq üzən kranın təchiz edilməsi idi. O zaman, 1927-ci ildə limanın rəisi yoldaş Baqlay idi. O, limanın tikilməsi üçün bizim zavoddan ciddi iş, kömək gözləyirdi. Bizim direktor və baş mühəndis işdən xəbərdar olan kimi, işin texniki şöbəyə tapşırıldığını Baqlaya çatdıraraq, onu mənə caladılar. Mən monolitləri qaldırınaq üçün ştamp ilə sürgü qolunun konstruksiyası və hesabatı ilə məşğul olmalı oldum. Biz işi vaxında başa çatdırdıq və sifarişçini tam razı saldıq. Bizim hazırladığımız sürgü qolunu sınaqdan keçirdiyimiz zaman nə direktor, nə də ki baş mühəndis

orada yox idilər. Əgər ki, biz müvəffəqiyyətsizliyə uğrasaydıq, onlar bu hərəkətləri ilə özlərini təmizə çıxarınış olacaqdılar. 75 tonluq bir nəhəngin bizim düzəltdiyimiz bir qoldan asılı vəziyyətdə sallanmalı olduğu 15 dəqiqəlik sınaq müddətini mən böyük həyəcanla keçirdim. Sınaq müvəffəqiyyətlə keçdi. Zavoda göndərdiyi xüsusi məktubda yoldaş Bəqlay mənə təşəkkürünü bildirdi.

Bizim qüvvəmizin xeyli gərginliyini tələb edən ikinci böyük işimiz, Muğan çölünün pambıq tarlalarının suvarılması üçün 5 nəhəng mərkəzdənqaçma nasosunun düzəldilməsi oldu. Bu, Mərkəzi Komitənin xüsusi tapşırığı idi. Cəmi 12 nasos - 7-sini Şmidt zavodu - 5-ni bizim zavodumuz - hazırlamalı idi. Bu tapşınğın yerinə yetirilməsi üçün bizdə olan imkanları Şmidt zavodu ilə müqayisə belə etmək olmazdı. Ən böyük çətinlik onda idi ki, belə iri nasosların çertyojları yox idi. Bunun üçün bu tip dağılmış nasosların hissələrindən istifadə etmək, korpus və təkərlərin tökmələri modellərinin çertyojunu çəkmək lazım gəlirdi. O zaman model ustası yoldaş Şiryayevin mənə etdiyi köməyi qeyd etməyə bilmərəm. Biz ümumi gücümüzü birləşdirərək tapşırığı yerinə yetirə bildik. Nasoslar hazır idi. Bu məsul işdə bir direktor, bir də baş mühəndis iştirak etmirdi. Bizim nasoslardan üçü Muğanın Zərdab kəndinə göndərildi. Onların montajı və işə salınması üçün təcrübəli çilingər Stepan Borodin ezam edildi.

Nasosların hər biri daxiliyanma gücü 75-80 MN olan motorlarla hərəkətə gətirilməli idilər. Motorlar vaqon təmiri zavodundan verilməli idi. Bu nəhəng nasosların zavod şəraitmdə sınaqdan keçirilməsi mümkün deyildi, bu da çox ciddi və təhlükəli hal idi. Biz onları sınaqdan keçirməmiş yollamalı olduq. Nasosları quraşdırılacaqları yerə göndərdikdən bir müddət keçdikdən sonra Borodindən zavoda teleqram gəldi: “Nasoslar su vurınur, yəqin ki,çertyojlarda səhvləriniz olub. Mühəndis göndərin. “Müvəffəqiyyətsizliyimizdən xəbərdar olan birinci katib Bağırov - hidravlika üzrə mütəxəssis-professor Arxangelskinin nasosların qurulacağı yerə getmələri haqqında əmr verir. Tiflisdən Zaqafqaziya su təsərrüfatı baş mühəndisi Kondratyev və əlbəttə kı, nasosun hazırlandığını zavodun nümayəndəsi də ora getməli idi. Bizim zavodun direktoru da, baş mühəndisi də üzlərini turşutmuşdular. Əlbəttə ki, onlar heç bir işdə təqsirkar deyildilər, günahkar təkcə Vəkilov idi. Təsəvvür edin ki, mən yola nə vəziyyətdə hazırlaşırdım... Mən böyük təhlükə qarşısında idim. Nasosların hansı şəraitdə, hansı çətinliklər ilə hazırlandığı heç kəsi maraqlandırınırdı. Muğana su gəlməyəcək, pambıq olmayacaq, bütün bunların günahkarı Vəkilov idi. Bu hallarda Mir Cəfər Bağırovun işə nə cür münasibət bəslədiyini yaxşı bildiyim üçün, gələcək aqibətimi təsəvvür edirdim. Çertyoj və indikatoru özümlə götürərək mən Ucar stansiyasına yollandım. Ucar ilə Zərdab kəndinin arasında 20 kilometrlik məsafə var idi. Ucar stansiyasında Zərdaba getmək üçün fayton gözlədiyim zaman Bakıya gedən bir qrup yerli sakinlə rastlaşdım. Mən onların Zərdabda nə hadisə baş verdiyini, nasosların həqiqətən də su vermədikləri haqqında məlumat almaq istədim. Onlar mənə dərhal cavab verdilər kı, düzdür nasoslar su vermir, lakin buna nasoslar deyil, onları hərəkətə gətirən motorlar səbəbdir. Mən elə bil ki, bu xəbərdən özümə gəldim və yenidən onlardan sual-cavab etməyə başladım. Onlar məni əmin etdilər ki, doğrudan da nasosların işləməməsinin səbəbi motorların yararsız olmasıdır. Mən Zərdaba gəldikdə, mühəndis Kondratyev artıq orada idi. Professorlar gəlib

çıxmırdılar. Kondratyev ilə birlikdə biz qurğunu sınaqdan keçirdik. Motor işə düşdükdə nasos bütün gücü ilə suyuatırdı, lakin həmin an gücdən düşmüş motorlar sönürdü. Məsələ ayd idi. Hər ehtimala qarşı mən motorlardan birinin indikator diaqrammasını çəkdim. Diaqramma göstərdi ki, porşenin halqaları köhnəlib yararsız hala düşmüşdür, buna görə də slindrlərdə lazım olan təzyiq alnmır. Motorların yararsız olduğu sübut edildi. Mən nasosun suyu necə qovduğunu müşahidə etdikcə, böyük məmnunluq hissi keçirirdim. Kondratyev və kolxoz sədrinin imzası ilə akt tərtib edib, mən Bakıya qayıtdım. Özümü yeni dünyaya gəlmiş kimi hiss edirdim. Zavodun rəhbərliyi aktı götürərək yuxarıya getdilər və qürurla məlumat verdilər ki, zavod ondan tələb edildiyindən də böyük iş görmüşdür. Lakin, məni özləri ilə aparınağı lazım bilmədilər.

Bu hadisədən bir qədər sonra zavodda gözlənilməz, bir az da qeyri-adi bir hal baş verdi. Qolikovun ona məxsus olan xüsusiyyətlərindən biri də, nöqsanları tez görmək və bunu o, adamın üzünə demək idi ki, bu da müxalifətçilik vəziyyəti yaradırdı. Belə bir hal onunla Çingiz İldırım arasında yaranmışdı. Çingiz İldırım Ümumittifaq Xalq Təsərrüfatı (ÜİXT) sədri Ağababovun müavini vəzifəsində işləyirdi. Çingiz onun özünə qarşı çıxanları sevmirdi. Günlərin bir günü o, zavoda gəldi, tələbə yoldaşı kimi məndən texnoloji institutda oxuyarkən Qolikovla tanış olub-olmadığımı soruşdu. Mən cavab verdim ki, tanımırdım, lakin yaşı məndən böyük olduğu üçün ola bilər ki, o, institutu tez bitirib. Onda Çingiz İldırım bu haqda teleqram ilə instituta müraciət etdi, cavabında məlum oldu ki, Qolikov heç vaxt institutun tələbəsi olmayıb. Qolikovun yalanı açıldı. Qolikov hiss etdi ki, bundan sonra o, zavodda qala bilməz. Bundan bir neçə gün sonra Qolikov işə gecikməyə başladı. Evinə nümayəndə göndərildi. Məlum oldu ki, ev boşdur, Qolikov yoxa çıxmışdır. Hara - məlum deyil.

Bizim zavodda işləyən Yenox Lvoviç Avajanskiy baş mühəndis vəzifəsinə təyin edildi. O özündə olan çertyojlara əsasən, ancaq tara kimi istifadə edilən boçkaların istehsal edilməsi üçün bondar dəzgahlarının hazırlanması ilə məşgul olurdu. Baş mühəndis vəzifəsinin icrasına başlayan kimi, Alajanski mənə bildirdi ki, o ondar dəzgahlarının hazırlanmasından başqa, texniki şöbənin işinə, ümumiyyətlə heç bir işinə qarışmayacaq. Bu bildiriş ilə o, zavodda baş verən hər bir hadisə üçün məsuliyyət daşımayacağını məlum etdi. Baş mühəndis vəzifəsinin böyük hissəsi mənim üzərimə düşürdü. Bu zaman zavodun fəaliyyət sahəsi xeyli genişlənmişdi. Sifarişçilər çoxalır, onların tələbləri də artırdı. Azərdövlətmetal sənayesinə baş zavodda hazırlanmış ikinci marten peçi verilmişdi. Bu şəraitdə kompressor təsərrüfatının zəifliyi aydın görünürdü. Marten peçi üçün, hava çəkicləri polad təbəqələrin kəsilməsi üçün hava tələb olunurdu. İki az güclü kompressor azlıq edirdi. Havanın çatmaması bu və digər sahədə işin dayanmasına səbəb olurdu. Kompressorların gücünü artırınaq vacib idi. Təzə kompressorlar almaq qeyri-mümkün idi. Yerli sənaye çox az kompressor buraxırdı. Çətin vəziyyətdən çıxmaq lazım idi. Köhnədən qalmış sınıq-salxaq maşınların içində mənə tanış olmayan iki maşın korpusu aşkar etdim. Bunlar ya buxar mühəriklərinin, ya da kompressorun korpusları idilər. Korpuslar yaxşı qalmışdı. Məncə, onlar heç işlənməmişdi, lakin detalların çoxu çatışmırdı. Üstlərindəki yazılardan məlum olurdu ki, onlar İngiltərədə hazırlanmışdılar.

Onların üzərində fİrmanın adı və ünvanı olan etiketlər də var idi. Mən bizim İngiltərədə olan daimi nümayindəliyimizə məktub yazıb xahiş etdim ki, onlar həmin firınaya müraciət etsinlər və maşınların pasportlarını bizə göndərsinlər. Lakin, mən hiss edirdim cavab çox gec gələcək, ona görə də risk edərək o maşınlardan kompressor kimi istifadə etməyi qərara aldım. Bu işdə mənə texniki şöbədə işləyən yaxşı texnik Latış Siroqe kömək edirdi. Biz özümüz bildiyimiz kimi, çatışmayan detalların çertyojunu çəkdik və zavodda hazırladıq. Maşını yığdırdıqdan və onun altında müvəqqəti bünövrə qurduqdan sonra, yaxın bazar günlərindən birində, zavod işləməyən bir gün sınaq işi aparınağı qərar aldım. Sınaq haqqında Aljanskini və direktoru xəbərdar etdim. Onlardan heç biri gəlmədi. Mən yığdırılmış maşını kompressor üzrə növbətçinin və elektromontyorun köməkliyilə işə saldım. Bizim xoşbəxtliyimizdən əla nəticə alındı. Təzə kompressorun gücü köhnə iki kompressorun gücünün cəminə bərabər idi. Müvəffəqiyyətdən ruhlanaraq, ikinci kompressoru da bu cür sazladım. Bünövrə üstündə qurulmuş bu iki maşın zavodumuzun kompressor gücünü üç dəfə artırdı. Bu, çox böyük nailiyyət idi. Zavoda, demək olar ki, bir qəpiksiz başa gəlmiş bu iş üçün, bu müvəffəqiyyətdə heç bir iş görməyən şəxslər təşəkkür qazandılar. Zavodda baş vermiş bu hadisədən yuxarı təşkilatlar da xəbərdar oldu. Yuxarı təşkilatda işləyən bir nəfər söhbət əsnasında mənə bildirdi: “bu nədir, Vəkilov, zəif işləyirsiniz... Zavodda kompressor olduğu halda, siz zavod üçün kompressor tələb edirsiniz. Yaxşı ki, Avajanskiy gəldi və kompressorlar aşkar olundu”.

Beləliklə, bir daha qeyd etmək istəyirəm ki, bütün məsul hallarda baş mühəndis və direktor kənarda qalmağı üstün tuturdular, hər şey müvəffəqiyyətlə bitdikdə isə yuxarı təbəqələrdə onlar olurdular. Bakı limanı üçün yetmiş beş tonluq kranı, Muğan üçün çətin nasosların və zavodun kompressor gücünün artırılması işində də belə olmuşdu.

1932-ci ildə Azərdövlətmetal sənayesi yenidən təşkil edildi. Onun Şmidt zavodunun yaxınlığında yerləşən baş zavodu əraziyə görə həmin zavod ilə birləşdirildi. Şmidt zavodunun direktoru vətəndaş müharibəsi qəhrəmanı, ordenli Qolubev idi. O, mənimlə görüşdükdə bildirdi ki, məni birləşdirilmiş Şmidt zavoduna baş mühəndis təyin edirlər. Bu, məni təəcübləndirdi və mən bu hissi Qolubevdən gizlətmədim. Əgər bu vəzifəyə bizim zavoddan namizəd verilirdisə, onda bu şəxs Alşanskiy olmalı idi, çünki zavodun baş mühəndisi o idi. Qolubev cavabında bildirdi: “Elə bilməyin ki, bu məsələyə baxılmayıb, yəqin ki, buna səbəb vardır. Bizə məlumdur ki, zavoda başqa bir şəxs deyil, yalnız sizin ağlınızla rəhbərlik edilib”.

- Beləliklə, mənim Azərdövlətmetalsənayesindəki işim başa çatdı. Burada nə iki baş mühəndis, nə də direktor zərrə qədər belə mənə kömək etmirdilər. Beləliklə, mən birləşmiş Şmidt zavodunun baş mühəndisi oldum. Neft sənayesinin nəhəng təsərrüfatma xidmət etmək üçün, kollektivi 4000 nəfər olan bir zavodun texniki rəhbəri olmaq çox fərəhli idi. Ona görə də mən vəzifəni ləyaqətlə yerinə yetirınəyi qərar aldım. Çox təəssüf ki, mən buna nail ola bilmədim.

Azərdövlətmetalsənayesində işlədiyim vaxtı xatırlayarkən bir gülməli hadisə yadıma düşdü. Bizim poladtökmə sexində Qrişin adlı bir krançı işləyirdi. O özü Ryazan şəhərindən, azsavadlı olsa da, təbiətən çox ağıllı və hiyləgər oğlan idi. O

öz işini yaxşı öyrənmiş, kranı əla idarə edə bilirdi. Demək lazımdır ki, əridilmiş poladın tökülmə prosesində kran çox böyük iş görürdü. Sex iki növbədə işlədiyi üçün, o biri növbədə Qrişini əvəz edən var idi. Əvəz edən işi pis bilirdi, ona görə də o, əridilmiş poladın tökmə prosesində işləmirdi. Günlərin bir günü Qolikov mənim “kabinet” adlanan iş küncümə gəldi, onun əlində kranın əyilmiş bir detalı var idi. O, bildirdi ki, kran xarab olub, xahiş etdi ki, mən sərəncam verim, zavodda bu detalı hazırlasınlar. Bu zaman o, o biri növbə zamanı baş vermiş qəza ilə əlaqədar olaraq, öz təəccübünü də bildirdi. Detalı tez hazırladılar, Qrişin razılıqla çıxıb getdi. Kran işləməyə başladı. Ərdilmiş poladı tökərkən qarınaqdan asılmış təknəni yuxarı qaldırınaq lazım gəlmir. Ertəsi gün səhər kranda yenə Qrişini əvəz edən şəxs işləyirdi. Saat 12-ə yaxın yenə Qrişin yanıma gəldi və məlum etdi ki, həmin detal yenidən sınmışdır. Mən onun nəzərinə çatdırdım ki, o, onu əvəz edənin işi ilə lazımi qədər maraqlanmalıdır. Yeni detal hazırlanırdı, Qrişin işini davam etdirdi. Mən Qrişinə tapşırdım ki, səhər də işə çıxsın və kranın işini özü müşahidə etsin. Mən əmin idim ki, Qrişin qəzanın səbəbini özü ayırd edəcəkdir, ancaq ertəsi gün səhər mən “kabinetə” daxil olduqdan bir az sonra o, yenidən əyilmiş detal ilə mənim yanıma gəldi. O, elə bil ki, başını itirmişdi, əvvəlki sayıqlığından əsər-əlamət belə yox idi. O, and içirdi ki, kranı özü idarə edirıniş, nə baş verdiyini ayırd edə bilmirdi. Əlbəttə, çox təəccüblü hal idi, üç gün dalbadal eyni qəza baş verirdi. O, mənə tərəf əyilərək, tam cəldliklə pıçıldadı: “Mənə inanın, yoldaş Vəkilov, bu şeytan əməlidir. Nə edək?” Əsəbiləşsəm də, bu sözdən məni gülmək tutdu. Mən ona cavab verdim: “Mən sənə göstərərəm şeytan əməlini, get burdan, get partkoma, orada de ki, sənin sexində şeytan əmələ gəlmişdir, yoldaş Vəkilov da deyir ki, şeytan onun sözünə baxmır. Partkomdan qayıdarkən yenə mənim yanıma gəl”. Tək qaldıqdan sonra mən kranın kinemarik sxemini araşdırmağa başladım. Bu hadisə yalnız kranın həddən artıq yüklənməsi zamanı baş verə bilərdi. Bü yükü tapmaq lazım idi. Yadıma düşdü ki, kranın özünün məhdudlaşdırıcısı vardır. Deməli, Qrişini əvəz edən şəxs təcrübəsizliyin nəticəsi olaraq, məhdudlaşdırıcını çıxarmışdır, elə qəzaya da səbəb bu olur. Partkomda Qrişinə nə demişdilərsə, o, mənim yanıma gözü yaşlı qayıtdı. Mən gülməyimi güclə saxlayaraq ona dedim ki, “şeytanı” tapmışam. Qrişin mütəəssir halda gözlərimin içinə baxaraq soruşdu: “Düz deyirsiniz, yoldaş Vəkilov, şeytan hanı?”. Mən qətiyyətlə dedim: “Şeytan ya sənsən, ya da səni kranda əvəz edən şəxs”. Qrişin elə bildi ki, mən onu ələ salıram: “Nə baxırsan? Yəqin ki, məhdudlaşdrıcını çıxarmısınız”. Məhdudlaşdırıcı sözünü eşidən Qrişin güllə kimi götürüldü.

“Şeytan”ı işdən qovdular. Çoxları zavodda Qrişinə “şeytan” deyirdi. Sonralar biz Qrişin ilə birlikdə bu hadisəni tez-tez xatırlayırdıq.

## BAKSOVETİN YERLİ SƏNAYE ŞÖBƏSİ (YSŞ)
(1932-1936-cı illər)

Bu dövr hələ də Azərbaycan Respublikasının yaranma dövrü idi. Bakı şəhirinin şəhər təsərrüfatının qaydaya salınmasına böyük əhəmiyyət verilirdi. Baksovetm nəzdində yerli sənaye şöbəsi açmaq lazım gəldi. Nəzərdə tutulmuş

şöbəyə rəhbərliyi azərbaycanlı, partiya üzvü, Azərdövlətmetalsənayenin fəhləsi yoldaş Rzayev Fərruxa tapşırmaq qərara alındı. Belə bir şöbəni yaratmaq və ona rəhbərlik etmək heç də asan iş deyildi, dəzgah arasından çıxmış fəhlə üçün bu, çox çətin vəzifə idi. Rzayevə təklif edildi ki, özünə köməkçi olaraq bir mühəndis tapsın. Mühəndislərin arasında onun tanışı yox idi. O, ancaq mühəndis Vəkilovu tanıyırdı və o, mənim adımı çəkdi. Rəhbərlik məni zavoddan çıxarıb, Baksovet sisteminə keçirməyi qərara aldı. Baksovetm müəssisələrinin səmərəli işinə rəhbərlik etmək, ruhlandırınaq isə, üçüncü şəxs "sayıq göz" xüsusi şöbənin rəisi Arakelov Arsenə həvalə edildi. Onun peşəsinin nə olduğunu bilmirdim, ancaq onun nə üçün orada olduğunu yaxşı bilirdim. Köhnə mühəndis, partiyaçı olmayan, bəy ailəsindən olan Faris bəy Vəkilovu nəzarətsiz qoymaq olmazdı.

Beləliklə, təşkil edilmiş bu üçlük, onlar üçün tam yenılık olan bu müəssisəyə rəhbərlik etməyə başladılar. Metal sənətkarları Rzayev və Vəkilov pivə zavodlarının, qənnadı fabriklərinin, trikotaj sexlərinin, poliqrafik müəssisələrin, asfalt karyerlərinin və s. direktorlarına göstəriş verməli idilər. Maşınqayırma sənayesinə alışmış beynimdə bütün yuxarıdakıları götür-qoy etməkdə çətinlik çəkirdim. Mən özümü başqa planetdən düşmüş kimi hiss edirdim. Lakin tapşırılmış vəzifədən imtma etmək olmazdı. Yeni şəraitə alışmaq lazım idi. Demək olar ki, tamamilə başa düşmədiyin məlumatı dinlədikdə ağıllı, düşüncəli bir təsəvvür yaratmalıydı. Bu hal həmişə alınmırdı. Müəssisə rəhbərlərinin bizdən necə təəssüratla ayrıldıqlarını başa düşürdüm. Təsəvvürün belə olmadığı işi təlmatlandırınaq lazım gəlirdi. Mənim tabeliyimə verilmiş müəssisələr arasında çuquntökmə emalatxanası da var idi. Bu müəssisənin süpürgəçi və gözətçi də daxil olmaqla cəmi-cümlətanı 30 nəfər işçisi vardı. Bu müssisə mənim üçün qurtuluş köməyi oldu. Bu müəssisə "Zavod-2" adlanırdı. Burada Baksovetm sifarişçiləri üçün kiçik detallar düzəldilirdi. Ancaq, bu "Zavod-2" Bakı şəhərinin təsərrüfat həyatında mühüm rol oynadı. Məni hələ də tərk etməmiş istehsalata olan həvəsim öz yerini tapdı, otuzuncu illərin əvvəllərində mənzil tikintisinə böyük əhəmiyyət verilirdi. Yeni evlər göbələk kimi artırdı. Bu, onunla izah edilirdi ki, Bakı yaxınlığında tikinti materialları - daş və əhəng istədiyin qədər var idi. Ancaq, təkcə daşla tikinti aparmaq olmazdı. Bir çox başqa materiallar, o cümlədən çuqun, kanalizasiya boruları da tələb olunurdu. Qafqazda onları hazırlayan zavod yox idi, onlar çox az miqdarda Rusiyadan gətirilirdi. Tikilmiş binalar çirkab təmizləyən borular və onlar üçün fasonlu hissələr gözləyirdi. Bizim yerli sənaye şöbəsinə bu çətinlikdən çıxmaq tapşırığı verildi. Beş il müddətmdə məni zavoddan tanıyan rəis Fərrux bu işi mənə tapşırdı. Mən öz kabinetimdən "Zavod-2"- yə keçdim və sınaq işləri aparınağa başladım. Mənim mexanikadan bildiklərim azlıq təşkil edirdi. Bu işi daha yaxşı bilən də yox idi. Bakı zavodlarının təcrübəsindən də istifadə etmək olmurdu, orada iri diametrli, qalın divarlı borular hazırlanırdı. Çirkab təmizləyən boru üçün bu, yaramırdı. Mənim atdığım addımlar fayda vermədi. Mən Leninqrada ezam olunmağımı tələb etdim. Eşitdiyimə görə orada vaxtıilə sahibkara məxsus olmuş "Svenqalli zavodu var idi, bu zavodda çirkab təmizləyən borular hazırlanırdı. Yol yoldaşı olaraq bizim fəhlə, partiyanın üzvü Arutunyov Arseni mənə qoşdular. Uç-dörd günün ərzində biz Leninqradda zavodun təsərrüfat işi ilə tanış olduq. Mən lazım olan texnologiyanı, istehsal prosesini yazdım, eskizlərini

çəkdim, Bakıya qayıtdıqdan sonra, topladıqlarımız materiallardan istifadə etməyə başladıq. Məlum oldu ki, çirkab təmizləyən boruların istehsal etdikləri iri çuqun borulardan tamam fərqlənir.

Bizim bakılı yoldaşlar, çuqun əridənlər bizim işimizə inanmır, müvəffəqiyyətsizliyimə şübhə etmirdilər. Bütün bunlara baxmayaraq, biz Leninqraddan aldığımız məlumatlara əsasən sınaq işi keçirdik və yoldaşlarımız gözləmədikləri müvəffəqiyyəti əldə etdik. Alınmış nəticələrdən vəcdə gəlmiş mənim Fərruxum tramvay ilə hələ soyumamış borunu Baksovetm sədrinə çatdırdı. Tikinti üçün böyük xidməti olan bu istehsalın təməli belə qoyuldu. Sonralar "Zavod-2"-nin bu təcrübəsi daha böyük zavoda verildi və zavodun məhsulu təkcə Bakıda deyil, bütün Azərbacanda yayılmağa başladı. Bakının tikinti işçiləri təntənə içində idilər. Bu təntənələr içində mənim adım itdi, boru tökənlər və direktor qəhrəman oldular.

Qazandığımız qələbənin təntənəli sədaları kəsilməmiş bizim qarşımıza daha böyük bir ciddi məsələ çıxdı. Tikilən mənzil binalarında Bakıda olan təbii qaz ilə işləyən sobalar qurulurdu. Yaşayış otaqlarına, mətbəxlərə qaz boruları çəkilirdi, ancaq onları birləşdirınək üçün qaz ventilləri yox idi. Bu kiçik detalı hazırlamaq çox böyük diqqət tələb edirdi, çünki onlar yaşayış binalarına zəhərləyici qazın daxil olmasının qarşısnı almaq üçündür. Ventilin korpusu çox möhkəm olmalıdır ki, qazın keçməsini saxlaya bilsin. Çuqundan düzəldilmiş korpus bu bərkliyi verə bilməzdi, ona görə də qaz ventillərinin korpusunu tuncdan hazırlamaq lazımdır. Lakin tuncdan daha mühüm detallar hazırlanır, ona görə də qənaət etmək lazım gəlir. Azərbaycana ventillər Rusiyanın mərkəzindəki zavodlardan gətirildi. Yeni tikilmiş yaşayış binaları ventillərin olmaması səbəbındən istifadəyə verilmirdi. Bu vəziyyətdən çıxış yolu tapmaq lazım idi. Yenə də məni yada saldılar. Çox götür-qoy etdikdən sonra, mən ventil korpusu düzəltmək üçün döyülə bilən çuqundan istifadə etməyi qərara aldım. Bakı üçün bu, yenilik idi, döyülən çuqundan düzəldilmiş şeylər var idi, lakin döymə çuqunun özünü əldə etmək yenilik idi. Bu təcrübəni heç kəsdən öyrənmək mümkün deyildi. Məqsədimə özüm nail olmalı idim. Çuqunu qızdırıb, yumşaq hala salmaq üçün peç hazırladım. Ərinmiş metala hava təzyiqi altında maye şüşə qataraq onu möhkəmlətməyi təcrübədən keçirdik. Hər bir ventili mən özüm 2-3 atınosferdən. Hava təzyiqi 0, 2-0, 3 atınosferdən artıq olmur.

Qırx beş il bundan qabaq, o vaxt necə həyəcan keçirdiyim yaxşı yadımdadır. Mən üzərimə düşən məsuliyyəti, ventillərin yaşayış binalarında qəzaya səbəb ola bildiyi halda məni nə gözlədiyini yaxşı başa düşürdüm. Özümü yoxlamaq və bu işə tənqidçilərin necə münasibət bəsləyəcəklərini eşitmək üçün mən Moskvada çıxan "Maşino-stroyeniya" qəzetmdə "Döyülən çuqundan ventillər" məqaləsini çap etdirdim. Çox təəsüf ki, məqaləyə qarşı tənqidi çıxış edən olmadı, yalnız Rusiyanın hansı bir şəhərindənsə, kimsə həmin təcrübəni öyrənmək arzusunu bildirdi. Bütün bu işlər o zaman Baksoveti qaz hasiletmə şöbəsinin müdiri işləyən gənc mühəndis Şərifov Məmməd Qasım oğlunun gözləri qarşısında baş verirdi. O, bizim işimizlə çox maraqlanırdı, çünki ventillər olmadığından binaları qazla təmin etmək mümkün olmurdu. Bizim çalışmağımız nəticəsiz olmadı. Bizim ventillər sınaqdan yaxşı çıxdı. Yoldaş Şərifov bu haqda Baksovetin sədrinə məlumat verdi və mənim

tərəddüd etdiyimə baxmayaraq, ventillərin kütləvi buraxılması təklifini verdi. Birinci sifariş ilə bizdən 5000 ventil tələb edildi. Məsələ həll edilmiş sayılırdı. Bu da böyük nailiyyət idi. Binaların qaz ilə təchiz edilməsi həyata keçirilirdi.

Bizim ventillər həyat vəsiqəsi qazandı.

## ORYOL ŞƏHƏRİ. BEŞ NÖMRƏLİ ZAVOD

Baksovet sistemində mən 6 ildən bir aya qədər az işlədim. Bu müddət ərzində bizim şöbədə beş müdir dəyişildi. Bu şəxslərin hamısı yüksək vəzifə, hətta nazir vəzifəsi daşıyan, sonra isə iyerarasiya pillələri ilə aşağı vəzifəyə keçirilmiş müdirlər idilər. Onların heç birinin mütəxəssis kimi təcrübəsi yox idi, ona görə də onlar yalnız əmr verməklə kifayətlənirdilər. Şəraitə alışmamış onları yenidən başqa işə göndərirdilər. Mənim vəzifəm hər bir yeni müdiri şəraitlə tanış etmək və onunla dil tapmaqdan ibarət idi. Bu, mənə çox pis təsir edirdi. Öz ixtisasına uyğun işdə çalışmaq istəyirdim. 1936-cı ildə mən Moskvaya ağır metal sənayesi Xalq Komissarlığına müraciət etdim. O zaman ora yoldaş Orconikidze rəhbərlik edirdi. Məktubda mən zavod mühəndisi kimi İttifaqın hər hansı bir şəhərində işləmək arzumu bildirirdim. Tezliklə aldığım cavab məktubunda mənə Oryol şəhərindəki “Zavod №5”-də texniki direktor vəzifəsi təklif olundu. Yay məzuniyyətmdən istifadə edərək, mən ora getdim, müəssisə ilə tanış olduqdan sonra texniki direktor vəzifəsini icra etməyə başladım. Texniki direktor vəzifəsində mən çox qısa bir müddət işlədim, ancaq mənim orada nələr çəkdiyimi yazan olsa, həcmcə çox böyük, məzmunca çox təsirli bir əsər yaranar. Əsəb gərginliyi texniki məsələlərdən daha çox, o zamankı ümumdövlət mühitindən irəli gəlirdi. Bu, Yejovun hökmranlıq etdiyi (1936-1937-ci illər) dövr idi. Ağlasığmaz hadisələr baş verirdi: inqilabı yaradan və onu qoruyan ən fəal döyüşçülərdən biri olan Orconikidze qəflətən vəfat etdi. Adları vətəndaş müharibəsi təsəvvürü və Sovet hakimiyyətmin qurulması ilə bağlı olan Buxarinin, Kamenevin, Zinovyevin, Tuxaçevskinin, Qamarkinin, Pyatkovun başları vuruldu. Yaradılan yeni quruluşun xəstəliyindən xəbərdar olan açıq və gizli düşmənlərin kökləri kəsilirdi. Öz qurbanlarının qanı ilə boğularaq, cəlladların açdıqları vakxanaliyada şəxsiyyətə pərəstişkarlığın hökmranlıq etdiyi Moskvaya yaxın olan zavodda texniki direktor vəzifəsini “türk” daşıyırdı, rusların təsəvvüründə həmin söz “düşmən” anlayışını ifadə edirdi. “Zərər” verən nümayəndə kimi, daha yaxşı fiqur ola bilməzdi. Bu şərait haqqında bir neçə kəlmə deməklə, mənim mənəvi vəziyyətimi sizə çatdırınağa çalışacağam. Bizim zavodda baş verən hadisələr məndə ümidyeri qoymamışdı. O zaman sağlamlaşdırıcı sayılan məhvedici dalğa bizim zavoda da gəlib çatdı. Bir neçə mühəndis, sonra partiya üzvü olan baş direktor Nikolay Zaxaroviç Dandıkin, bir neçə gündən sonra üçüncü direktor (o da partiya üzvü idi). Lev Xonoviç Yavnıx yoxa çıxdılar. Zavodun rəhbərliyini təşkil edən üçlükdən təkcə mən, “türk”, bitərəf ikinci direktor - texniki direktor qalmışdım. Bu şəraitdə mənim özümü necə hiss etdiyimi təsvir etməyə ehtiyac yoxdur. Bir neçə həftə, işdən evə qayıdarkən, soyunmadan yatırdım, hər an həbs olunacağımı gözləyirdim. Nə üçün: - sualını vermək çox gülməli idi. Lakin, yəqin ki, mənim qismətim başqa imiş. Mən bu hadisələrdən kənarda qaldım. Lakin buna baxmayaraq mən Oryol şəhərində

qalmalı olmadım. 1936-37-ci illərin qışında yanıma gəlmiş arvadım, rusiyanın soyuğuna tab gətirə bilmirdi, buna görə də mən oranı tərk etməli, vətənə qayıtmalı oldum. Mən zavodun partiya təşkilat katibi Aleksandr Ivanoviç Dudetskaya zavodu tərk etmək fikrimi bildirdikdə, onun verdiyi cavab yaxşı yadımdadır: “Siz niyə gedirsiniz? Biz sizin billur kimi təmiz adam olduğunuza əminik”.

O hadisələr ilə dolu olan dövrü xarakterizə edən daha bir neçə maraqlı anlar olmuşdu, ancaq onlar istehsalata aid deyildilər və özü-özünü tərifləməyin də mənası yoxdur. Zavodda baş vermiş bir hadisə haqqında isə danışmaq istəyirəm.

Mən zavoddan gedərkən, şüurlu surətdə başa düşürdüm ki, zavodda xeyli xidmət göstərmişəm. Məsələ onda idi ki, bizim zavodun elektrik stansiyası yox idi. Biz çox zəif olan şəhər şəbəkəsindən elektrik alırdıq. Elektrik enerjisinin tez-tez kəsilməsi səbəbindən bizim bəzi sexlər işi dayandırınalı olurudu. Çox nadir hallarda onların hamısı eyni zamanda işləyə bilirdi. Çox vaxt sexlərdən biri və ya ikisi dayanırdı. Mən zavodun işini yenidən qurdum, ümumi istirahət gününü ləğv etdim. Hər sexin özünün istirahət günü var idi. Beləliklə, heç bir sex işsiz qalmır, zavodun proqramı yerinə yetirilirdi. Bu, nailiyyət demək idi. Bizim Moskvada yerləşən baş idarə bunu qiymətləndirdi və məni “təşəbbüskar texniki direktor” kimi mükafatlandırdı.

İlk baxışda çox da əhəmiyyətli olmayan, lakin mənim xatirimdə silinməz bir iz buraxan bir hadisə də baş vermişdi. Görülmüş iş üçün norınaların və qiymətlərin tez-tez dəyişilməsi fəhlələrin narazılığına səbəb olurdu. Vaxtaşırı yuxarı idarələrdən bu cür tapşırıqlar alırdıq. Yeni daha ciddi norınaların qəbul edilməsi fəhlə kollektivi ilə razılaşdırlmalı idi. Bu, çox çətin məsələ idi və bu işi yerinə yetirınək üçün zavodun rəhbərliyindən ağıllı və bacarıqlı olmaq tələb edilirdi. Bu cür günlərdə partiya təşkilatı çox qayğılı olurdu, çünki fəhlələrin belə tədbirin həyata keçirilməsi üçün hazırlanması çox çətin olurdu. Bu əməliyyat bütün sexlərdə eyni zamanda keçirilməli idi. Bu sexlərdən hər birinə bir rəhbər nümayəndə gəlməli, fəhlələrə bu norınanın qəbul edilməsinin lazımi və vacib olduğunu başa salmalı idi. Bu nümayəndə qabaqcadan hazırlıqlı olmalı idi. Bu iş ilə, əslində, partiya təşkilatı məşğul olurdu. Belə günlərdən birində mən, lap ağır-tökmə sexinə nümayəndə getməli oldum. Bu sexdən qadınlar çox çətin işdə çalışırdılar. Onlar çox vaxt gecələr işləyirdilər. Mən çox zaman gecələr həmin sexlərə gəlir, onlar ilə söhbət edirdim. Onlar məni yaxşı tanıyır, məsləhətlərimə qulaq asırdılar, biz bir-birimizi yaxşı başa düşürdük. Bütün bunlara baxmayaraq, norınaları müəyyən etmək üçün mən o sexə gedərkən həyəcan keçiriridim. Qabaqcadan nə deyəcəyimi planlaşdıraraq, qısaca mətləbi açdım, bu işin əhəmiyyətmdən danışdım və təklıf etdim ki, onlar öz sözlərini desinlər. Boynuma alıram ki, çox həyəcanlı idim, bilmirdim ki, onların etirazlarına necə cavab verəcəyəm. Onlardan heç biri çıxış etmədi, heç bir etiraz olmadı, norınalar ilə tanış olmadan, onları qəbul-etmək qərarına gəldilər. Bu münasibət onların mənə inamından əmələ gəlmişdi. Hətta onlar bilirdilər ki, madam mən təklif edirəm, deməli yeni norınalar qəbul edilməlidir. Əgər bir çətinlik baş verərsə, texniki direktor bu vəziyyətdən çıxmağa kömək edər. Bütün müzakirə cəmisi 20-25 dəqiqə davam etdi. İclasın protokolunu tərtib etdik, tələb olunduğu kimi fəhlə nümayəndələri onu imzaladılar. Mən iclasın nəticəsi haqqında məlumat vermək

üçün kontora getdim. Partiya təşkilat katibi məni həyəcanla qarşıladı, o, elə bildi ki, xoşagəlməz bir hadisə baş vermişdir, mən müvəffəqiyyətsizliyə uğramışam. O biri sexlərdən heç kəs qayıtmışdı. İclasın nəticəsi haqqında məlumat verdikdə, katib mənə inanmaq istəmədi, təəccübləndi. Həqiqətən də mən bu müvəffəqiyyətə fəhlələr ilə yaratdığım ünsiyyətə görə nail olmuşdum. Zavoddan getdiyim gün tökmə sexinin kollektivi məni yola salmağa gəlmişdi, bu da yuxarıda yazdıqlarımı bir daha təsdiq edir.

Oryol şəhərində yaşadığım və beş nömrəli zavodda işlədiyim müddət mənim həyatımın xüsusi aydın bir mərhələsi idi. O zamanın hadisələrinin şəraiti və xüsusiyyəti mənim üçün tamamilə başqa rəngə boyanmışdı, ona görə də bütün bunlar mənim xəyalımda silinməz iz buraxmışdır.

Oryol şəhərində gəlib, öz direktor kabinetimə daxil olduqda mən aşağıdakı hissləri keçirdim; xüsusi şərait, tamamilə tanımadığım şəhər, bir nəfər belə tanış adam yox, elə bil ki, başqa planetə düşmüşdüm. Görəsən nə olacaq? Maşınqayırma zavodunun texniki direktoru - yaxşı səliqəli kabinetdə bəzək üçün qoyulmuş müqəvva demək deyildi. Bu şəxs tam mənasında özünü unutmalı, yüzlərlə mexanizmin işini sazlamaq, istiqamətləndirınək, lap çətini isə ən mürəkkəb obyekt olan - insanla müəyyən istiqamətdə qarşılıqlı anlayış yaratmaq bacarığına malik olmalı idi. Mənim işə başladığım kollektiv yaşına, zehni inkişafina, şəxsi maraqlarına və sairəyə görə hər cəhətdən çox müxtəlif idi.

Təchizat və təsərrüfatı idarə edən iki digər direktor müdir və kommersiya direktoru, şöbə rəisləri, sex rəisləri, mühəndis kollektivi və nəhayət, fəhlələr - hamısı xüsusi müraciət tələb edirdi. Şəxsən özünün mənliyini itirınədən hər bir kəslə münasibət yaratmaq lazım idi. Başladığım işi yaxşı bilsəm də, kollektivin tam yeni olması bu məsələni çətinləşdirirdi. Oryol Rusiyanın ürəyi idi. Zavodun həyatını əsl oryollular təşkil edirdi və onlar elə bil ki, möhkəm bir rus ailəsini təmsil edirdilər. O zaman həmişə olduğu kimi, özününkü qoyub, başqa millətin nümayəndəsinə üstünlük verilmirdi. Rus xalqı başqa xalqlardan dözümlülüyü ilə kəskin fərqlənsə də, özününkü ilə özgənin arasındakı fərqı unutmur. Uzaq keçmişdə olan hadisələr, türklər, tatarlar ilə olan münasibətlər onların qəlblərinin gizli guşələrində dərin iz buraxmışdır. Bax, elə bu mühitdə İvan İvanoviçlərin yə Nikolay Nikolayeviçlərin içində, çətin ifadə olunan Faris bəy İbrahimağa oğlu peyda olur, özü də texniki direktor kimi. Bu fikirlər məni təqib, edir, rahatlığımı pozurdu. Lakin sonralar vəziyyət, mən gözlədiyim kimi olmadı.

Zavod ilə tanışlığa gələcək iş yoldaşlarıma baş çəkmək ilə başladım. Baş direktor, kommersiya direktoru, zavod komitə sədri ilə tanış olduqdan sonra partiya təşkilat katibi Aleksandra İvanovna Dudatskayanın yanına yollandım - o gün o, zavodda tapılmadı. Mən iki-üç gündən sonra zavod telefonu ilə onu aradım və xahiş etdim ki, o məni qəbul edə biləcəyi vaxtı təyin etsin. O, dedi ki, özü vaxt təyin edib, mənə bildirəcək. Günlər keçir, mən işə alışırdım, ancaq ondan bir xəbər çıxmırdı. Partiya təşkilat katibinin texniki direktor ilə görüşmək istəməməsi mənə təəccüblü görünürdü. Bu fikir məni narahat edirdi, ancaq heç kəslə bu haqda danışmaq imkanım yox idi - ətrafda hamı yad idi. İşləyərkən vaxt tez keçir. Demək olar ki, bir ay keçdi, partiya təşkilat katibi ilə tanış olmamışdım. Günlərin bir günü elan edildi ki, işdən sonra fəhlə və qulluqçuların ümumi iclası keçiriləcək. Şəhər

partiya komitəsinin katibi də gələcək. Sexlərdən birində toplaşdıq. Rəyasət heyətmdə şəhər komitəsinin katibi, bizim baş direktor və birinci dəfə gördüyüm partiya təşkilat katibi əyləşmişdi. Mən birinci sıralardan birində, fəhlələrin arasında əyləşmişdim. Çıxışlar başlandı. Çıxış edən hər kəs yuxarı nümayəndə qarşısında özünü göstərınəyə çalışır, zavodda olan çatışmazlıqdan danışır, bu işlərə tənqidi münasibətlərini bildirirdilər. Növbə komsomol katibinə çatdı. Bu, çox fəal, acıqlı cavan bir oğlan idi. O zavod rəhbərliyinin zəif cəhətlərini amansızcasına tənqid etdi. Direktorların səhvlərini açıqlamağı lazım bildi. O, iclasda iştirak edənlərin nəzərinə çatdırdı ki, texniki şöbənin işçilərindən, mühəndislərindən bir nəfər də olsun bu iclasda iştirak etmir. O, haqlı idi - zavodun darvazaları bağlanmamış, həmin şöbənin işçiləri aradan çıxa bilmişdilər.

Darvazalar ona görə bağlanırdı ki, iclasda iştirak edənlərin sayı çox olsun.

Şöbənin işçilərinin iclasda olmamasının günahını komsomol katibi texniki direktorda görürdü. O, üzünü mənə tərəf tutaraq, qəzəblə bildirdi ki, bu, texniki direktorun tabeçiliyində olanlara təsir edə bilməməsindən irəli gəlir. Bu çıxışla o, mənim işimə qiymət vermiş olurdu. Mənə yad olan adamların içində birinci dəfə iclasda iştirak edən şəxs kimi mən deyilənlərə xüsusi diqqət yetirınəli idim. Demək olar ki, mənim zavodda qalıb-qalmamağım məsələsi həll olunurdu. Belə bir anda susmaq olmaz idi, çıxış etmək, gələcəyi aydınlaşdırınaq lazım idi. Mən söz istədim. Zavodda olduğum qısa müddətdə gördüyüm hallardan, şəraitdən danışdıqdan sonra, qeyd etdim ki, zavodda olan atınosfera onun işinin müvəffəqiyyətmi təmin etməlidir. Mən komsomol katibinə etdiyi tənqidə görə təşəkkür etdim, eyni zamanda bildirdim ki, iş vaxtı mühəndislər mənim nəzarətim altında olurlar, bu gün onların hamısı iş yerlərində olublar, ictimai işlərə müsbət münasibət yaratmaq isə, bilavasitə komsomol katibinin vəzifəsidir. Bəs nə üçün iclasda iştirak etməyənlərin günahı təkcə mənim üstümə atılır, komsomol katibi bu işdə özünü təqsirkar saymır? Əgər biz əl-ələ verib, hər ikimizin bu işdə günahkar olduğumuzu etiraf etsək, daha ədalətli olmazmı? Onu da nəzərə almaq lazımdır ki, mən yalnız bir aydır bu zavodda işləyirəm, gənclər isə çoxdan komsomolçudurlar. Bundan başqa, ilk çağlarda mən komsomol katibinin köməyini duymaq əvəzinə o, mənimlə heç müsahibə aparınamış, tanışlıq əvəzinə, texniki direktoru tənqid atəşinə tutur. Lakin mən, bu tənqiddən incimirəm. Mübarizə hissi ilə çulğalanan gənclik, bəzən şəxsi silahlanmanı yaddan çıxarır. Norınal iş üçün partiya təşkilatı ilə əlaqə yaratmaq məsələsi məni daha çox narahat edir. Lakin, mənim yoldaş Dudetskaya ilə görüşmək təşəbbüsüm indiyə qədər mümkün olmamışdır. Mən onu burada birinci dəfədir ki, görürəm. Mən müəssisə üçün partiya təşkilatının mənasının nə olduğunu yaxşı bilirəm, özümün həmin təşkilatdan təcrid olunmağımın səbəbini də yaxşı başa düşürəm. Yaranmış vəziyyəti başa düşə bildiyim üçün, vaxtdan istifadə edərək öz təəccübümü bildirirəm. Xahiş edirəm, bu məsələni açmaqda mənə kömək edəsiniz, çünki bu məsələ məni çox narahat edir və işimdə yaxşı nəticələr qazanmağıma mane olur.

İclas sona çatdı, camaat dağılışdı. Mən hamı ilə birlikdə çıxdım, bir-iki addım atmamış, kimsə məni çağırdı. Bu, bizim baş direktor idi. O, mənə dedi ki, şəhər komitəsinin katibi mənim çıxışıma xüsusi diqqət yetirib. Və mənimlə tanış olmaq, müsahibə aparmaq istəyir. Görüş çox yaxşı keçdi. Katib çıxış üçün mənə

təşəkkürünü, çıxışın diqqətəlayiq olduğunu bildirdi. O xahiş etdi ki, mən zavodda olan nöqsanların aradan qaldırılması üçün var qüvvəmlə çalışam. Eyni zamanda o, bilirdi ki, mənə qarşı heç bir zidd fikir yoxdur, mən işimi sakit davam etdirə bilərəm və lazım olarsa o, mənə kömək etməyə hazırdır.

Mənə elə gəlirdi ki, Dudetskaya mənim çıxışımdan inciyəcək, sonra isə bu haqda narazılığını bildirəcək. Lakin, mən səhv edirdim, Dudetskaya nəinki narazılığını bildirdi, əksinə mən ondan həmişə yoldaşlıq münasibəti gördüm, Oryolda olduğum son günlərədək onun köməyini hiss edirdim. Yaxşı yadımdadır, bir gecə sexləri gəzərkən bir nəfərin mənə tərəf yönəldiyini gördüm - bu, Dudetskaya idi. O, təəccüblə məndən soruşdu: “Yoldaş Vəkilov, bu vaxt siz burada neyləyirsiniz?” Mən cavab verdim: Mənim izərimə qoyulmuş vəzifənin məsuliyyəti tələb edir ki, mən zavodun müvəffəqiyyəti və xeyri üçün cavabdeh, qayğıkeş olmalıyam, bu müvəffəqiyyətlər isə təkcə gündüz növbəsi işinin nəticəsi deyildir. Gecə növbəsinin öz tələbləri, öz çətinlikləri var. Bütün bunları öyrənmək və tədbir görmək lazımdır. Mən bu tələbləri onların öz dillərindən eşitmək istəyirəm. Elə buna görə də mən gecələrdə gəlirəm. Öz növbəmdə mən də ondan soruşdum: “Bəs Siz niyə gündüz işi ilə kifayətlənməyib gecə də bura gəlmişsiniz? Siz burada neyləyirsiniz? “Mən də elə ona görə”- deyə o cavab verdi. “Yoldaş Vəkilov, görünür ki, bizim ikimizin də məqsədimiz eynidir, ona görə də biz gərək bir-birimizə kömək edə-edə istədiyimizə nail ola bilək”. O, işə belə yanaşırdı və bunu öz hərəkətlərilə sübut edirdi. O, mənim zavoddan getməyimə sənimi qəlbdən təəsüflənirdi və məni mehribanlıqla yola saldı. Yeri gəlmişkən demək lazımdır ki, qısa müddətə mənim yanıma gəlmiş həyat yoldaşım Liya xanımla görüşərkən, Dudetskaya ona Oryol şəhərində qalmağı və ali məktəblərin birində təhsil işinə rəhbərlik etməyi təklif etmişdi.

Üç direktorumuzu həbs etdikdən sonra Moskvadan bizə dörüncü direktor - Kuznetsovu göndərdilər. Bu, çox koloritli şəxs idi. Açığını desək, o, mənə ruhi xəstəxanadan, müalicəsini yarımçıq qoyub qaçmış xəstəni xatırladırdı. O, heç kəslə sakit, təmkinlə danışmağı bacarınırdı. Kiminlə olursa-olsun onun söhbəti mütləq dava ilə qurtarırdı. Axmaqlığından o, hamıya bildirdi ki, onu təhlükəsizlik orqanları buraya xüsusi tapşırıqla qiyamın qarşısını almaq üçün göndərmişlər. O, heç kəslə hesablaşmırdı, onun bəzi hərəkətləri lətifə xarakteri daşıyırdı. Hamını hörmət etdiyi Aleksandra İvanovna Dudetskaya deyirdi ki, Kuznetsov ona Şurka deyə müraciət edir. Zavodun işçiləri ilə yaxşı münasibətdə olduğum üçün tez-tez məktublaşırdıq. Mənə yazdılar ki, məndən sonra Kuznetsovu şəhər komitəsinə çağırıb yaxşıca danlayıblar və yeri gəlmişkən soruşublar: “Nə üçün sən texniki direktor Vəkilovla işləyə bilmədin? Cavabında o deyib: “O türkdür”. İç üzü açıldıqdan sonra onu da işdən çıxarıb, o biri direktorların ardınca göndərmişdilər.

## BAKI. TİKİNTİ MATERİALLARI BAŞ İDARƏSİ

(1938-1942-ci illər)

Vətənə qayıtdıqdan sonra, mən texniki kadrlar sırasına daxil oldum. Bu zaman Azərbaycanda Tikinti Materialları Baş İdarəsi təşkil olunurdu. O idarənin səlahiyyəti təxminən nazirlik səlahiyyətinə bərabər idi və həmin idarə İttifaq Tikinti Materialları Nazirliyinin tabeliyində idi. Bu idarəyə rəis mühəndis Əlizadə Zeynəb İbrahim qızı təyin edilmişdi. Mir Cəfər onu vəzifəyə təyin etdikdə, tapşırınışdı ki, o, özünə müavin olaraq təcrübəli mühəndis seçsin. Əlizadə qabaqlar Bakı Sovetmin mənim baş mühəndis işlədiyim yerli sənaye şöbəsinin sisteminə daxil olan daş karxanalarında işləmişdi. Əlbəttə ki, o məni yaxşı tanıyırdı və o, Bağırova Vəkilovun namizədliyini təklif etdi. Bağırov soruşdu: “O, Faris bəy?” Etiraz etmirəm, götürün”. Beləliklə, mən Baş idarənin baş mühəndisi oldum. 1940-cı il rəis Əlizadəni mühəndis Şərifov Məməd Qasım oğlu əvəz etdi. Bu vaxt mən çox əhəmiyyətli bir tədbir həyata keçirdim. Mən qır bişirınəyin mexanikləşdirilməsini işləyib hazırladım. Qır bişirilərkən qazanlarda qır kütləsi uzun polad ştanqalar vasitəsilə əl ilə qarışdırılırdı. Mən bu əməliyyatı mexanikləşdirdim. Elektrik mühərriki ilə işləyən qarışdırıcının layihəsini hazırladım. Sınaq yaxşı nəticə verdi. Baş idarədə rəisin təsdiq etdiyi hesablamalar göstərdi ki, ölkə ildə 50000 manat məbləğində qənaət etmiş olacaqdır. Məni mükafata təqdim etdilər, lakin bu zaman müharibə başlandı, mükafatın məbləği çox böyük idi, mən yalnız onun bir hissəsini ala bildim. Söz verdilər ki, qalan hissəsini müharibədən sonra verəcəklər. Müharibə başa çatdıqda (1945-ci il) mən elə vəziyyətdə idim ki, mükafat haqqında danışmağa belə dəyməzdi. Mənə çatan məlumatata görə mexanikləşdirilmiş qırbişirınə prosesindən Xırdalandaki qır zavodunda istifadə edilirdı. Sonra mənim cəbhəyə kömək əmək fəaliyyətim başlandı. Hərbçilərin xahişi ilə əsgər1ərin səngər şəraitində inkişaf edən, artan parazitlərlə mübarizə ücün səyyar, daşına bilən duşxana qurğusunu sınaqdan keçirdilər, kütləvi buraxılışa razılıq verildi. Hazır qurğuları hərbçilər lazım olan yerlərə çatdırırdılar. Cəbhəyə ikinci xidmətim, Nalçik şəhərində yerləşən Tırnauz kombinatının mobildən istehsalında doğrama dəyİrmanlarında süxurların doğranması üçün kürələr ilə təchiz etməyim oldu. Mən Tırnauz kombinatma təklif etdim ki, polad kürələr güclü manqalı çuqun kürələr ilə əvəz edilsin. Bu təklifim bəyənildi və çuqunəritmə sexlərindən biri manqalı şarların hazırlanması ilə məşğul olmağa başladı. Bizim idarədən həmin kombinat minlərlə kürə alırdı.

1942-ci ilin gecələrindən birində məni telefon zəngi yuxudan oyatdı. Bu zəng mənim cəbhəyə üçüncü xidmətimin zəmini oldu. Yoldaş Şərifov xahiş etdi ki, onun iş kabinetmə gəlim. Orada məni pencəyinin ilməsində üç şpal olan, DSİ (Dövlət Siyasi İdarəsinin) işçisi Medvedyev gözləyirdi. O mənə müraciət edərək, söylədi: “Yoldaş Vəkilov, biz bilirik ki, siz cəbhə üçün çox narahatlıq keçirirsiniz. Xahiş edirik cəbhə üçün üçüncü bir iş görəsiniz. Əl qumbaraları üçün çuqun korpuslar hazırlamaq lazım idi. Mənə çertyoju göstərdilər, gördüm ki, çox çətin məsələdir. Məsələ onda idi ki, qumbaranın divarları çox nazik olur, bunun üçün çox duru çuqun tələb olunurdu. Bizim primitiv texnika şəraitmdə belə bir çuqun almaq çox çətin iş idi. Öz mülahizəmi bildirərək, söz verdim ki, çalışaram bu məsələni həll edəm. Səhəri gün məni DSİ-nin rəis müavininin (Yemelyanov idi) yanına çağırdılar. Mən yenə də Medvedyevə dediklərimi təkrar etdim, söz verdim ki, bacardığımı əsirgəməyəcəyəm. Yemelyanov mənim əlimi sıxdı və

müvəffəqiyyətimə ümid bəslədiyini söylədi. Mən zavodda olan bütiin qüvvələri səfərbər etdim. Səkkiz gün keçdikdən sonra mən Medvedyevə zəng edib, xahiş etdim ki, gəlib sınaq nümunələrini aparsın. Bır neçə saatdan sonra Medvedyev mənə zəng çaldı və böyük sevinclə təbrik etdi. Zavod 10000 qumbara hazırlamaq haqqında sıtanş aldı. Bu sifariş yerinə yetirildi. Yemelyanov mənə təşəkkurünü bildirdi.

Müharibə dövrü ilə əlaqədar olan dördüncü tapşırıq daha böyük həcmli idi. Neft sənayesi özünün bəzi prosesləri üçün odadavamlı kərpic tələb edirdi. Bu məhsul Bakıya Rusiyanın cənub zavodlarından gətirilirdi. Bu rayonlar düşmən tərəfindən zəbt olunmuşdu və kərpic gətirilməsi çox çətinləşmişdi.

Bakıda odadavamlı kərpicin istehsal edilməsi zəruri idi. Odadavamlı kərpic sexinin layihəsini vermək və hazırlamaq lazım idi Mənə iki köməkçi mühəndis verdilər və biz işə başladıq. Bu, 1942-ci ilin yayı idi. Kərpic istehsalı bir yenilik deyildi, onun üçün xüsusi qurğu hazırlamaq lazım deyildi, ancaq həmin qurğunu hazırlamaq üçün çertyoj yox idi - onu hazırlamaq lazım idi. Biz bu məsələni həll edib, çertyojları öz zavodumuza təqdim etdik. Hazırlanma nəzarəti də mənə tapşırılmışdı. 1942-ci ilin payızında mən xüsusi ayrılmış bir binada qurğunun montaj edilməsinə rəhbərlik etməli oldum. İndiki kimi yadımdadır. Bizim yaratdığımız obyekt şəhərin qırağında "Ağ şəhər" deyilən yerdə yerləşirdi, ora getmək üçün mən iki tramvay dəyişməli olurdum. Nahar fasiləsində şəhərə gəlmək mümkün deyildi. Səhərdən axşama qədər iş yerində qalmalı olurduq. Tərslikdən mən soyuqlamışdım, hər iki qulağım iltihablaşmışdı. Qulaqlarım, başım bərk ağrıyırdı, hərarətim yuxarı idi. Doktor Şıxlinski evdə qalmaq lazım olduğunu bildirdi, işdən azad edən bülleten verdi. Lakin mən bu hərəkəti edə bilməzdim, bülleten cibimdə, başı sasıqlı işə davam edirdim. Bu vəziyyətdə işi başa çatdırdım və sexi təhvil verməyə hazırladım. Sentyabr ayının 28-də sex işləməyə başladı. Mən vəzifəmi bitirdim, lakin məni bülleten cibimdə, başı saraqlı halda birbaşa iş yerimdən DSİ-nə apardılar. Binaya girdikdən sonra mənim ciblərimi axtardılar, şalvarımın metal düymələrini kəsdilər, mən bacardığım kimi şalvarımı əlimlə saxlamalı oldum. Məni zirzəmiyə saldılar; kiçik qaranlıq bir otaq idi, divarlardan axan su yerdə gölməçə yaratmışdı. Boş, soyuq dəmir çarpayının üstündə oturtdular və paraşa[8] ilə birlikdə qoyub çıxıb getdilər.

Həyatımın yeni mərhələsi başlandı. Mənə qarşı bu münasibət nə ilə bağlı idi - bilə bilmədim. Mənim gizli saxladığım cinayətkar fikilərimi açmaq tapşırığı alan müstəntiq İşxanov aşağıdakı sözləri deməyə məcbur oldu: "Sizin istehsalat fəaliyyətiniz bizə yaxşı bəllidır - o nöqsansızdır (bu, onun dediyi sözlərdir), ancaq siz-düşüncə tərzinizə görə cəzalanmalısınız". O dedi ki, mənim xəstə-xəstə işə çıxmağımdan, isti qum ilə qulaqlarımı qızdırdığımdan xəbərdardır, ancaq bütün bunlar mənə bəraət qazandırınır. 18 il keçdikdən sonra mənim cinayət işimə yenidən baxan Dövlət Təhlükəsizlik şöbəsinin polkovniki Veliçenko mənə dedi ki, sənin hec bir günahın yoxdur, müstəntiq İşxanovun sənin haqqında topladığı iki cildlik sənədlər "heç bir çürük yumurtaya da dəyməz".

---

[8] Həbsxanada ləyən, vedrə

Lakin ömrümün bu mərhələsi ondan başladı ki, məni 8 ay ibtidai həbsdə saxladılar, bu müddət ərzində müstəntiq İşxanov mənim pis düşüncə tərzimi açmağa çalışır, iki tomluq sənədlərin üstündə tərləyirdi.

Daha sonra hərbi tribunal məni, tanımadığım 32 nəfərlə birlikdə əmlakımız müsadirə olunmaqla və cəzanı çəkib qurtardıqdan sonra 5 il seçicilik hüququndan məhrum edilməklə 10 il həbs cəzasına məhkum etdi. Böyük əsəb və zehni əmək sərf etməklə ağır zəhmət çəkdiyim 1926-1942-ci illər üçün Vətən məni bu cür mükafatlandırdı. Bu zaman məni tanıyan çox yoldaşlar mənə partiyaya daxil olmağı təklif edirdilər. Mən bu təklifləri rədd edirdim. İstəmirdim ki, məni partiyaya "soxulmaqda" günahlandırsınlar. Mən hiss edirdim ki, Azərbaycan ziyalılarının cəlladı Mir Cəfər Bağırovun yaratdığı şəraitdə bu hal baş verməli idi. Birinci iki ili mən Lənkəran rayonunda olan ümumi həbs düşərgələrində (cinayətkarın və siyasi düstaqların bir yerdə saxlandırıldıqları düşərgələr ümumi düşərgələr adlanırdı) saxlanıldım. Lənkəran düşərgələrində heç bir sənaye müəssisəsi yox idi, ona görə də mən öz ixtisasım üzrə işləmirdim. 1946-cı ildə Lənkəran düşərgələri ləğv edildi. Dustaqları başqa düşərgələrə payladılar - düşərgələrin sayı-hesabı yox idi. Mən Bakının Keşlə rayonunda yerləşən 3 nömrəli düşərgə məntəqəsinə düşdüm. Burada məni çoxları bir mühəndis və bir insan kimi tanındı. Bizim düşərgə məntəqəsinin rəisi əvvələr Şollar su kəmərmin - ikinci Bakı xətti tikintisi rəisinin köməkçisi vəzifəsində işləmişdi. Bizim zavod su kəməri üçün xüsusi hissələr hazırlayırdı. O zaman mən, zavodun texniki rəhbəri kimi, işçilər ilə birlikdə bizim hissələrdən istifadə edilən sahələrə gedirdim. Məni su kəməri tikintisindən tanıyırdılar. Düşərgə məntəqəsinin rəisi düşərgəyə gəlməyimi bilən kimi, məni tikinti obyektlərindən biri olan BEMZ-nin texniki şöbəsinə göndərdi. Orada məni tanıyan mühəndislərin əhatəsində idim. Mən bir az rahat nəfəs almağa başladım. Lakin, bu səadət uzun çəkmədi. DSİ-də mənim Bakıda olduğumu bildilər, bu Mir Cəfər Bağırovun ora rəis təyin etdiyi Yaqubovu dəli kimi coşurdu və o, Bağırova xoş olsun deyə məni ciddi rejimli düşərgələrdən birinə yollamaq haqqında əmr verdi Bu zaman mən Lənkəranda qazandığım malyariya ilə əziyyət çəkirdim. Mən düşərgənin tibb məntəqəsində 39-40 dərəcə hərarətlə yatırdım. Ancaq, xəstə dustaqları bir yerdən başqa yerə daşımağa icazə verilmədiyinə baxmayaraq, Yaqubovun tapşırığı ilə məni xəstəxana çarpayısından qoparıb yataba göndərdilər. On iki gün yük vaqonunda yol getdikdən sonra - vaqonda 70 nəfər idik məni Mordoviyada Penza şəhərinin Dubravlaq rayonunda yerləşən Tamnikovski düşərgələrinə gətirdilər. Bu düşərgələr ciddi rejimli düşərgələr idi, onlar hər birində 50 min dustaq olan bir neçə düşərgə məntəqəsindən ibarət idi. Bu zaman mən "xoşbəxt" həyatımın yeddinci onilliyinə qədəm qoymuşdum. Bu yaşda mən dustaqların meşədə gördükləri ağır işi yerinə yetirə bilmirdim. Məndən briqadaların yerinə yetirdikləri işlərin hesabını aparmaq üçün istifadə edirdilər. 1952-ci il-də mənim düşərgədə qalmalı olduğum 10 il həbs cəzam tamam oldu. Məni azadlığa buraxmalı idilər. Lakin, bir cinayətə görə iki cəza vermək olmaz qanununa zidd olaraq, məni evə buraxmaq əvəzinə 10 gün xüsusi yaradılmış, çox çətin şəraitdə Stolipin vaqonunda Qazaxıstan vilayətmin Karaqanda şəhərinə gətirdilər. Orada məni yansökük kənd evində yerləşdirdilər və iş təklif etdilər ki, özümü dolandıra bilim. Yeni ixtisas - qamışdan həsir toxumağı öyrənməli idim. Bu

işi görməklə mən gündə 20 qəpikdən artıq pul qazana bilmirdim. Moskvaya inadlı müraciətlərimdən sonra, məni nəhəng kompleks olan Qazaxıstan Maqnitkası tikilən Temir-Tau şəhərinə, öz ixtisasım üzrə işləməyə göndərdilər.

## TEMİR-TAU. QAZAXMETALTİKİNTİ
(1952-1958-ci illər)

Burada İMK-da (İstehsalat müəssisələri kombinatı) cürbəcür tapşırıqları yerinə yetirınək üçün mənə mühəndis vəzifəsi verdilər. Hər ehtimala qarşı mənə çatdırdılar kı, mən buraya "həmişəlik" göndərilmişəm. Atalar sözündə deyildıyi kimi, hər anın bir hökmü var; mən Temir-Tauda həmişəlik qalmadım, ancaq ömrümün yeddi ilini orada keçirməli oldum. Nəhəng miqyaslı tikinti şəraitmdə mexaniki-konstruktor işləri görməkdə lazım gəlirdi. Mən orada olduğum müddətdə bir neçə irihəcmli işləri yerinə yetirdim, o işlərə görə dəfələrlə mükafatlandırıldım, təşəkkürnamələr ilə təltif olundum.

Dəmir-beton hissələr hazırlayan sexə mexaniki betonyığan tələb olunurdu. Bu, mənim ilk işlərimdən biri oldu. Bu betonyığanı Rusiyanın hər hansı bir şəhərindən almaq mümkün olmadı. Onu hazırlamaq üçün 1 və ya 1,5 il vaxt verilirdi, bu da tikinti işlərini poza bilərdi ki, ona yol vermək olmazdı. Onu özümüz hazırlamalıydıq - Betonyığanı layihələşdirdim, trestin emalatxanaları isə onu qurdular. Bizim ümumi səyimiz müvəffəqiyyətlə nəticələndi; betonyığan bütün ili dayanmadan işlədi. Soyuq qış günlərində, o, açıq havada, buxarvermə kameranın üstündə buz bağlayırdı, buna görə onu Çelyuskinə yürüş etmiş gəmilərin şərəfinə "Çelyuskenli" adlandırırdılar. Beləliklə, mənim köməyimlə böyük bir məsələ həll edilmişdi. Tikilməkdə olan beton qatışıq qovşağının təchizatı zamanı da ikinci böyük bir çətinliklə rastlaşdım. Bu, hündürlüyü 30 metrə yaxın olan üçmərtəbəli bir tikinti idi. Avtomobillərlə daşınıb zirzəmilərə yığılmış sement onun yuxarı mərtəbəsinə verilməli idi. Binadan kənarda yerləşmiş zirzəmilərdə olan sement, yuxarı mərtəbəyə pnevmatik üsul ilə verilməli idi. Bina tikilmişdi, pnevmatika isə yox idi. Onu yalnız 2 ildən sonra verməli idilər. Bu müddət dözülməli deyildi. Vəziyyətdən çıxmaq üçün mənə xüsusi tapşırıq verildi. Sementi yuxarı mərtəbəyə vermək üçün mexaniki qurğu hazırlamalı idim. Məsələni çox mürəkkəb bir şəraitdə həll etmək lazım idi. Mən, 70 yaşlı bir qoca, 30 metr hündürlüyə qalxıb, lazım olan ölçünü götürməli olurdum. Bu məsələ də müvəffəqiyətlə həll edildi. Yuxarı mərtəbəyə sement vermək üçün istifadə edilməli qurğunun çertyojunu hazırladım, onun layihəsi verildi. Bu, tikinti üçün böyük nailiyyət kimi qiymətləndirildi. Mənim üçüncü diqqətəlayiq işim, taxtakəsən sexlə əlaqədar oldu. Həmin sexdə - böyük məhsuldarlıqla taxtakəsən dəzgah üç "Bomender" işləyirdi. Çoxlu taxta kəpəyi əmələ gəlirdi, təmizləmək çoxlu vaxt aparırdı və bu işlə adətən qadınlar məşğul olurdular. Hər bir iclasda bu işin yüngülləşdirilməsi məsələsi ortada qoyulurdu. Bu iş də pnevmatik görülməli idi, lakin məsələ açıq qalmışdı. Bu məsələni də həll etmək mənə tapşırıldı. Bu da çox çətin iş idi. Pnevmatik nəqliyyatın layihələşdirilməsi xüsusi bilik tələb edırdi. Bu işlə Leninqrad Politexnik İnstitutunun professoru, gərək ki, Şemyakin məşğul

olurdu. Mən kömək üçün ona müraciət etməyi qərara aldım. Professor cavabında mənə bildirdi ki, onun kitabı çox kiçik tirajla buraxılmış, tez satılmış, hətta onun üçün bir nüsxə belə qalmamışdır. Eyni zamanda o, mənə məsləhət gorürdü ki, çox ehtiyatlı olum, hesablamalar düzgün aparılmasa, mən böyük müvəffəqiyyətsizliyə uğraya bilərəm. Lakin, nə isə etmək lazim idi. Mən bir neçə kitab, o cümlədən də bir ensiklopedik lüğət tapa bildim, həmin lüğətdə bəzi hesablamaların forınulları var idi. Öz düşüncəmə və bu forınullara əsasən mən pnevmatik taxta kəpəkləri yığan mexanizmin layihəsini hazırladım. Mən müvəffəqiyytə əmin olmadığımı baş mühəndisə bildirdim, bununla mən üzərimə düşən məsuliyyəti onunla bölüşmək istəyirdim. İxtisasca inşaatçı gənc oğlan baş mühəndis məsuliyyətə mənimlə birlikdə cavabdeh olacağını söyləməklə, məni daha da ruhlandırdı. Ancaq mexanizmi işə salarkən sexdəki işçilər ona sualla müraciət etdikdə cavab verirdi ki, bu işdən o, xəbərdar deyildir. İşi bu təcrübəli, qocaman şəxs həyata keçirir o da müvəffəqiyyətə nail olmalıdır. Baş mühəndisin məsuliyyəti mənimlə bu cür "bölməyi" mənim kefimi pozurdu. Mən hiss edirdim ki, vəziyyətdən tək çıxmalı olacağam. Lakin tale mənə yar oldu, qurğu müvəffəqiyyətlə işləməyə başladı. Rəhbərlik mənə təşəkkürünü bildirdi. Qadınlar bu ağır işdən azad olmuşdular. Ancaq, onların narazı qalmaları mənim təəccübümə səbəb oldu. Onları əvvəlkidən də ağır bir sahəyə keçirınişdilər. Bir az sonra onlar boyunlarına aldılar ki, iş həqiqətən də çox ağır imiş, lakin onlar əmək haqqlarının artmasını tələb etmək niyyətmdə imişlər, mənim belə bir qurğu yaratmağım onlara böyük zərər gətirınişdi. Buna görə də onlar məni "lənətə gəmiış qoca" adlandırırdılar. Temir-Tau şəhərində mənim dördüncü işim ağackəsən maşının bünövrəsinin möhkəmləndirilməsi oldu. Bu aqreqatı quraşdırarkən suxurun vəzjyyətini nəzərə almamışdılar. Suxurun möhkəm olmamasına görə maşın möhkəmliyini itirirdi. Ağackəsən dəzgah laxlamağa başlamışdı. Möhkəmlətmək üçün onu bünövrədən çıxarmaq və yenidən quraşdırmaq lazım idi. Bu da işin uzunmüddət dayanması demək idi. Mən təklif etdim ki, onu sökmədən, bünövrəni möhkəmlətməklə bu çətinlikdən çıxmaq olar. Maşına lazım olan möhkəmliyi vermək üçün bünövrə salı ilə birləşdirilmiş və sement qatışığı ilə üstü örtülmüş metal konstruksiyasının layihəsini hazırlamalı olduq. Bütün əməliyyatı bir həftə ərzində yerinə yetirdik. Beləliklə, mən Timur-Tauda yeddi illik sürgündə olduğum illər ərzində bir neçə əmək qələbəsinə nail ola bildim. Rəhbərlik mənim işimi qiymətləndirirdi, bu haqda şəhər və vilayət qəzetlərində yazılar çap edilirdı. 1958-ci ildə ittifaqda siyasi şəraitdə olan dəyişikliklər ilə əlaqədar olaraq mən vətənə qayıtmaq hüququ əldə etdim. Bu zaman Qazax-metal tikinti trestində mənə iş təklif etdilər və söz verdilər ki, ailəli yaşamaq üçün lazım olan hər bir şəraitlə təmin edəcəklər. Lakin, bu vaxtı Bakıda Bağırov və məni həbsdə saxlamağa çalışan onun əlaltıları artıq həbs edilmişdilər. Gələcəkdə mən bəraət qazana bilərdim, ona görə də evə qayıtmaq qərarına gəldim.

## BAKIYA QAYIDIŞ

Vaxtı ilə mənimlə birgə işləmiş və məni yaxşı tanıyan mərhum Bədəlov Kamal Dəmir oğlu Temir-Tauya məktub yazır və təkid edirdi ki, mən Bakıya

qayıdım. Ömrün 18 ilini müxtəlif cəza yerlərində keçirdikdən sonra vətən məni yaxşı qarşıladı. Bu zaman Kamal Dəmir oğlu Sovnarxozun nəzdində olan tikinti materialları idarəsində rəis müavini vəzifəsində işləyirdi. O, idarənin bütün işçilərini topladı və mənə Qazaxmetaltikintidə verilmiş xasiyyətnaməni onlara oxudu. Yoldaşlar məni öz kollektivlərinə götürmək arzularını bildirdilər. Məni Tikinti Materialları və Qurğuları Elmi Tədqiqat İnstitutunun direktoru yoldaş Məlik-Yeqanova Tura xanım idi. Məlik-Yeqanova yüksək səviyyəli işçilər sırasına daxil idi. Dərin, parlaq zəkaya malik olan bu qadın, öz mənəvi cəhətlərinə görə də başqalarından kəskin surətdə fərqlənirdi. Onun yaratdığı şəraitdə işləmək özü də böyük xoşbəxtlik idi. Onun daxili aləmi ruhən kübar qadının aləmi idi. Hamı ilə əlaqə saxlayan, dil tapan bu qadın yanındakılardan seçilirdi. Onun mənə qarşı olan münasibəti, başqalarına qarşı olan münasibətdən seçilirdi. Mən onunla olan şəxsi söhbətlərimdə heç bir vaxt 18 il cəza yerlərində olduğum illər haqqında söhbət açmırdım. Ancaq buna baxmayaraq hiss edirdim ki, o, mənə qarşı olan ədalətsizliyi yaddan çıxartmır və çalışır ki, institutda işlədiyim şərait mənə keçmişləri yaddan çıxartmağa kömək etsin. Bütün bunları yaxşı başa düşərək mən institut üçün yaddaqalan, xüsusi əhəmiyyət kəsb edən bir iş görmək istəyirdim. Çox təəsüüflər olsun ki, bu mənə, müyəssər olmadı və institutda ışlədiyim 8 il mənim üçün peşimanlıq illərinə döndü. Məni 80 yaşın da, böyük hörmət və məhəbbətlə pensiyaya çıxartdılar. Mən ozümü bu şərəfə layiq bilmədiyim üçün əhəmiyyət kəsb edən ışlərimi yada salıb məmnum olurdum. Ancaq sonuncu mərhələdə mən heç bir yadda qalan iş görmədən orqanı tərk etməli oldum. Mən Məlik-Yeqanovanın ümidlərini boşa çıxartmış, onun gözlədiyi fəaliyyəti doğrultmamış olduğumu düşündükcə, çox ağır bır hiss keçirirdim.

## DAŞÇIXARINA LABARATORİYASININ DAŞYIĞAN MAŞINI

Mənə institutda tikinti materiallarının hazırlanması prosesində lazım olan maşınların və qurğuların çertyoilarını işləyib hazırlayan xüsusi konstruktor bürosuna (XKB) rəhbərlik etmək tapşırılmışdı. XKB-nin birinci işi institutun nəzdində olan daşçıxartma laboratoriyasının təklifini işləyib hazırlamaq oldu, bu işi xatirladıqca mən dərin bir peşimançılıq hissi keçirirəm. Süxurlardan daş kubikləri yonularkən, bu kubiklərin maşınların altından yığılması çox ağır işdir. Bu iş bir əl ilə yerinə yetirilirdi. Bu işi mexanikləşdirınək lazım idi. Laboratoriyanın işçilərindən biri Politexnik İnstitutunun üçüncü kurs tələbsi Qabrielyan kəsilmiş kubikləri yığan maşın düzəltmək istəmişdi. O bu maşının şəklini çəkmiş, laboratoriyaya təqdim etmişdi. Lakin bu maşın üzərində dərindən düşünmək və maşınqayırma zavodlarında istifadə edilə bilən elmi çertyojlar hazırlamaq lazım idi. Bu tapşırığı Şmidt zavodunun konstruktorlarına vermək istəyirdilər. Bu eskizlə tanış olduqdan və onun çox savadsız tərtib edildiyini müəyyən etdikdən sonra Şmidtçilər onu işləyib, hazırlamaqdan imtma etdilər. İnstitutun nəzdində XKB-nin açılmasını eşidən laboratoriya ilk növbədə həmin tapşırığı yerinə yetiriləcəyinə əmin idi. XKB-nin yarandığı ilk günlər idi, təklifi rədd etmək olmazdı. Mən

direktoru işin çətinliyindən, eskizin çox savadsız olmasından xəbərdar etdim, eyni zamanda ona çatdırdım ki, bu işdən imtina etmək lazımdır. İşə başlamağa məcbur olduğumu gördükdə, xahiş etdim ki, Qabrielyanı da layihələşdirinə işinə cəlb etsinlər. Fikirləşdim ki, onun özünün iştirakı ilə, onun müəlliflik hüququna toxunmadan layihədə lazım olan dəyişilikləri edərik. Aqreqatın üzərində nə qədər çalışsaq da onu lazım olan tələblərə cavab verməli hala gətirə bilmədik. Mən bu haqda təkcə öz direktorumuza deyil, eyni zamanda Sovnarxozun Tikinti Materialları İdarəsinin rəisinə də məlumat verdim. Xahiş etdim ki, idarəyə gəlsinlər və çertyojlar ilə tanış olsunlar. Rəhbərlik həmin maşını qurınaq qərarına gəldi. Onu qurdular, zavodda sınaqdan da keçirdilər. Zavodda elə bil ki, yaxşı nəticə alındı, lakin daş karxanasında, əsl iş şəraitmdə, o işə yaramırdı. Laboratoriyanın təşəbbüsü iflasa uğradı. Təklifin müəllifləri, o cümlədən də demək olar ki, maşınqayırma işindən tamamilə xəbərsiz olan laboratoriya müdiri Qarbulov özü müvəffəqiyyətsizliyi XKB-da gördülər. Onların fikrincə guya XKB bu işi "bacarınamış", ya da ki, bu təklifin həyata keçirilməsinə "biləbilə" - maneçilik törətmişdir. Bu uzunu XKB-ya pis münasibətlənirdi. Bir istiqamətdə işləməli iki orqan arasındakı bu münasibət müsbət nəticə verə bilməzdi.

## DUVANLI KARXANASININ KANAT YOLU

Maraqlı və əhəmiyyətli iş axtararkən mən Duvanlı daş karxanasında düzəldilmiş kanat yolu üzərində dayandım. Bu yolun əsas məqsədi yüksəklikdə olan karxanasından yonulmuş daşları yüksəkliyin ətəyində olan dəmir yoluna çatdırınaq idi. Yolun layihələşdirilməsi və tikilməsi Gürcüstanda olan kanat nəqliyyatı qurğuları hazırlayan təşkilat tərəfindən vermə yetirilmişdi. Bir neçə yüz metr uzunluğunda olan, çox savadlı şəxslər tərəfindən çəkilən bu yol, çox baha başa gəlmişdi. Dəqiq rəqəmlər yadımda qalmamışdır. Əsas vardı ki, həmin xərc işin hesabına ödəniləcəkdi. Çox təəssüf ki, belə olmadı. Məsələ onda idi ki, yolun istismarı bir sıra əlavələr tələb edirdi; karxanadan çıxan daşları hərəkət edən kanat (yuxarı stansiyada) tutmalı və konteynerə yığmalı, aşağıda stansiyada isə konteyneri boşaltınalı idi. Köməkçi qurğular müvəffəqiyyət qazana bilməyən başqa təşkilatda layihələşdirilirdi. Lazım olan vasitələrlə təmin olunmamış yol təyinatı üzrə istismar edilə bilmirdi. Bizim XKB təşkil olunan zaman, kanat yolu artıq bir neçə ay idi ki, işləmirdi. Mənim beynimə kanat yolunu təkrarən işləyib hazırlamaq və bu bahalı, mədəni yoldan istifadə etmək fikri düşdü. Mən öz fikrimi institutun direktoruna və nazirliyin rəhbərliyinə çatdırdım. Daş karxanasının baş mühəndisi Saxno idi. Mənim fikrim bəyənildi. Bu tədbiri həyata keçirmək üçün çoxlu xərc tələb olunurdu, buna görə də mən əvvəlcə işin iqtisadi tərəfini öyrənməyə başladım. Məhz bu iş üçün karxanaya iqtisadçı dəvət etdirdim, o mənim təklifimi təhlil etməyə başladı. İqtisadi hesablamalar ümidverici nəticələr verdi. Biz konteyner nəqliyyatı üçün bütün vasitələrin layihələrini verdik, bu zaman biz bütün əməliyyatları avtomatlaşdırınağa çalışırdıq. Bizim çertyojların hamısı hazır olandan sonra mən yenə də bu işlə əlaqədar istehsalatda işləyənləri dəvət etdim, bizim işimizlə onları tanış etdim. Onlar işi bəyəndilər, öz təkliflərini əlavə etdilər.

Biz sayı yüzdən artıq olan çertyojlara əsasən ümumi görünüşünün ətraflı işləyib hazırlanmasına keçdik. Böyük əhəmiyyətə malik olan bir iş gördüyümüzdən sanki qanadlanaraq işə başladıq. Birdən, gözləmədiyim bir halda, elə bil ki, mənim başımın üstündə məni şaşırdan bir ildırım çaxdı. Nazirlik Duvanlı daş karxanasının ləğv edilməsi haqqında qərar verdi: guya ki, orada daş azalmışdı. Daş istehsalı özünü ödəmirdi. Bu qərar ilə təkcə bizim hazirladığımız layihə deyil, həm də çox baha başa gəlmiş və həm də hec istifadə edilməmiş kanat yolu məhv edilmiş oldu. Nə üçün bu qərar bu qədər xərc çəkiləndən sonra qəbul edilmişdi, eləcə də naməlum qaldı.

## DAŞKƏSƏN VƏ YIĞAN KOMBAYN

Və nəhayət, bir daha lazımi tədbiri həyata keçirmək cəhdi. Bu, daş kəsən və yığan kombayrı yaratmaq cəhdi idi. Məsələ həmin məsələ idi, daş kəsən maşının altından daşların götürülməsi və onların tikintilərə çatdırılması üçün maşınlara yığılması əl ilə yerinə yetirilirdi. Bu, çox ağır fiziki əmək idi və bu iş zamanı daşların çoxu yararsız hala düşürdü. Kubiklərin iti bucaqları sınır, onların zahiri görkəmləri dəyişir bu da divar tikilərkən bir sıra çətinliklərə səbəb olurdu. Mən bu sahədə də öz gücümü sınamaq istədim. Boynuma almalıyam ki, məsələ çox çətin idi. Gənc mühəndislərlə birlikdə dostcasına qarşıya qoyulan problemin bir neçə variantmı verdik. Mən bu variantlardan birinin üzərində durdum və onu təcrübəli mühəndislərin, mexaniklərin, Bakının ali məktəblərində dərs deyən müəllimlərin müzakirəsinə verdim. Təkliflərimizi onların əlavələri ilə zənginləşdirərək çertyojları hazırlamağa başladıq. Yaradıcılığımızın bəhrəsini "daşkəsən kombayrı" adlandırdıq. O SM-89M adlı daşkəsən maşın idi və aşağıdakı işləri yerinə yetirirdi: 1) hazır daşın quyu dibindən qaldırılması; 2) süxurun çat olmasından əmələ gələn yaramaz daşların seçilməsi; 3) hər birində müəyyən sayda daş olan daş qalaqlarının formalaşdırılması; 4) daş qalaqlarının maşınlara yığılacaqları yerlərə daşınması; 5) daşların yonulması zamanı əmələ gələn xırda daşların iş sahəsindən uzaqlaşdınlması. Bütün bu əməliyyatlar SM-89M maşınının çərçivəsinə bərkidilmiş xüsusi hissələrlə yerinə yetirilməli idi. Bu formalaşdırına üçün heç olmasa maşının qabaritmi uzatmaq əsas şərt idi. Biz bütün bu tələbləri ödəməyə çalışdıq. Hazırlanmış texniki sənədlərin həcmi böyük idi. Tam komplektm çertyojlarının sayı 400 vərəqdən artıq idi. Ədalətlə desək, mən bu işin üzərində çox əziyyət çəkmişdim, onu əməyimin bəhrəsi hesab etməyə haqqım var idi. Onu harada və necə hazırlamaq məsələsi meydana çıxdı. Bunu hazırlamaq üçün institutun layiqli laboratoriyası yox idi. Bu işi özünü o qədər də yaxşı tanıtmamış Vorovski zavoduna tapşırınaq da ümidverici deyildi. O bizim nazir, məni yaxşı tanıyan Ələkbərov Mehman Salman idi. Mən ona bu mürəkkəb maşının hazırlanması zamanı meydana çıxacaq çətinliklərdən danışdım və təklif etdim ki, bu iş üçün təcrübəli işçilərdən ibarət xüsusi qrupa yaradılsın. Lakin, Mehdi Salmanoviç işə ciddi yanaşmadı. O, kömək edəcəyinə söz verdi və həmin dəqiqə də verdiyi sözü unutdu. Mən isə daima işə nəzarət etmək və bizim sifarişin yerinə

yetirilməsində iştirak etmək üçün bizim mühəndislərdən birini həmin zavoda göndərdim. Nazirlikdə daş karxanalarında bu maşının labüdlüyü və əhəmiyyətmdən çox söhbət aparılırdı, əslində isə heç bir kömək göstərilmirdi. Heç bir xüsusi işçi qrup yaradılmadı. Hazırlanmış detalların keyfiyyəti ilə heç kəs məşğul olmurdu. Hazırlanmış detallar yenidən işlənərək eybəcər hala salınırdı. Zavoda ezam edilmiş bizim mühəndis orada daima boşbekar gəzir, işçiləri tez-tez başqa işə cəlb edirdilər. Zavodun texniki şöbəsində demək olar ki, açıq ziyankarlıq etdilər. Biz ora səliqə ilə yığılmış hər birində 1200 vərəqə olan 400 çertyoj komplekti təqdim etmişdik. Texniki şöbədə bütün komplektlər qatıb-qatışdırılmış və lazım olan çertyoju tapa bilməmişdilər. Sonra isə bütün çertyojları yük maşınına yükləyib bizə göndərdilər ki, lazım olan çertyoj orada tapılmır. Bu, ağ yalan idi, çünki çertyojları bizim baş mühəndis komplektləşdirinişdi və mən özüm də orada iştirak etmişdim. Texniki şöbənin bu xuliqancasına hərəkəti cəzasız qaldı. Zavodda qaydasız halda hazırlanmış hissələr, daş karxanasının laboratoriyasına daşınırdı ki, maşını orada yığsınlar. Laboratoriya bu işi çox da həvəslə qarşılamırdı, onlar 5 il bundan öncə müvəffəqiyyətsizliyə uğradıqlarının səbəbini XKB-də görürdülər. Maraqlı odur ki, işin çətinliyindən gecə-gündüz bar-bar bağıran karxanalar da kombayrıın hazırlanmasına biganə yanaşırdılar. Fəhlələr də işə başlamaq istəmirdilər. Məsələ aydın idi; ağır əl əməyini görmək üçün başqa kəndlərdən işləmək üçün gəlmiş təsadüfi şəxslərdən istifadə edilirdi. Yaxşı pul alan bu müvəqqəti işçilər pullarını alıb çıxıb gedirdilər. Bu cür külli miqdarda pul ilə əməliyyat aparmaq karxananın müdiriyyəti üçün də əlverişli idi. Beləliklə, kombayrıın ətrafinda yaradılmış mühit onu məhvə gətirirdi. Yarıya qədər yığılmış kombayrı daş karxanası laboratriyasının bir küncündə atılıb qaldı. Mən bütün bunlar üçün dərin həyəcan, ürək ağrısı keçirsəm də, əlimdən heç bir iş gəlmirdi.

Kombaynın taleyi haqqında düşünərkən, mən öz günahlarımı da boynuma almaliyam. Mən şəraiti nəzərə almamış və kombaynın qurulması üçün lazım olan təşkilat işini qura bilməmişdim.

Çertyojları birdən zavoda göndərmək lazım deyildi - onlar işin həcmindən qorxdular və ondan canlarını qurtarınağa çalışdılar Gərək hər bir hissə ayrılıqda hazırlanaydı və ayrıca sınaqda" keçiriləydi. Bu, işi asanlaşdırardı və konstruksiyada əlavələr, düzəlişlər verməyə imkan verərdi. Ancaq bu cür yoxlamadan keçirilmis hissələr vasitəsilə maşını yığmaq olardı. Bu, mənim işdə buraxdığım böyük səhvdir və mən bunu özümə heç vaxt bağışlamyacağam. Ancaq onu da demək lazımdır ki, ətrafdakıların bu işə olan laqeyd münasibəti ilə yenə də mən çox çətin yaxşı nəticə qazana bilərdim. Lakin, bu etiraf da mənim günahlarımı yüngülləşdirinir. Kombayrıın məhv edilməsindən artıq on il keçmişdir. Mən bu müvəffəqiyyətsizlikdən sonra on il ömür etsəm də, həyatımın son günlərində belə bu ağrılı itki hissi bir an belə məni tərk etmir.

Faris bəy Vəkilov<br>1977-ci il.

## GENERAL HƏBİB BƏY SƏLİMOV

Vətən uğrunda ölüm həyatın davamıdır.
**Cambul Cabayev**

Iyirminci il martın iyirmi ikisində, Novruz bayramı axşamı daşnaklar Əsgəran keçidini kəsdilər. Onlar bu yeganə keçidi kəsməklə Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq istəyirdilər. Top və pulemyotlarla silahlanan qiyamçılara İrəvandan gələn daşnak generalı Dro Kanayan komandanlıq edirdi.

Azərbaycan Cümhuriyyətinin Müdafiə Nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmri ilə Əsgəran cəbhəsinə güclü qüvvə ayrıldı. Martın iyrıni üçündə Azərbaycan ordusunun əsas hissəsi - iyirmi minə yaxın əsgər və zabiti bu cəbhəyə göndərildi. O cümlədən, Üçüncü Gəncə, Beşinci Bakı, Birinci Cavanşir, Dördüncü Quba, Səkkizinci Ağdam alayları general Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Aprelin üçündə başlayan bu ölüm-dirim savaşı on iki gün davam etdi. Azərbaycanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrunda mərdliklə vuruşaraq Şuşa qalasına, Xankəndinə daxil oldular. Yenilməz fədəkarlıqla vuruşan əsgərlərimiz daşnak ordusunu darınadağın etdi. Erməni süvari dəstəsinin başçısı Dəli Qazar öldürüldü. Əsgəranın böyürbaşında gizlənən ermənilər xəndəklərdən çıxıb qaçmağa başladılar.

Qarabağ dağlarında yenidən Azərbaycan bayrağı dalğalandı. Bu vaxt cəbhəyə gələn hərbi nazir Səməd bəy Mehmandarov xain düşmən üzərində çalınan qələbəyə görə əsgərlərimizi təbrik edərək demişdi: “Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə olmuşam. Fəqət sizin qədər qəhrəman əsgərlərə az-az təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu müdafiə etdiniz”.

Əsgəranda qanlı döyüşlər gedəndə Maqsud Şeyxzadə yeniyetmə bir gənc idi. On səkkiz yaşı yenicə tamam olmuşdu. Bu qələbədən ruhlanan şair iyirminci ilin martında “Qarabağ” və “Əsgəran marşı” kimi sanballı şerlər yazmışdır. İkinci şer bu günümüzlə daha çox səslənir:

**Vardı Əsgəranda minlərlə əsgər,**
**Aslan yavrusu tək sarsılmsaz ərlər.**
**İrəli, irəli, ey islamlarım,**
**Yağı yuvasını dağıdanlarım.**

**Dəydi top gülləsi yad ordusunda,**
**İstərəm alaylar dağılıb sına,**
**İrəli, irəli, ey tərlanlarım,**
**Geniş üfüqlərə can atanlarım.**

**Görək mərd çıxacaq neçənci igid?**
**Laləzar salacaq neçənci şəhid?**
**İrəli, irəli, türk oğulları,**
**Sizsiniz qısaldan uzaq yolları.**

Azərbaycan hərb tarixinin səhifələrinə yazılacaq belə parlaq qələbələrin ömrü, təəssüf ki, bundan sonra bircə ay davam etdi. Mikoyanın, Qazarovun, Avetisovun, Amazaspın quyruq bulayıb qabaqlarına düşdüyü bolşevik-daşnak ordusu bir ay sonra işğalçı kimi Bakıya soxuldu.

Həyatının son dəqiqələrinə kimi o məşum günü ürək ağrısı ilə xatırlayan Məmməd Əmin Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyəti hökuməti aprel ayının 27-də yuxusundan sərsəm bir halda qalxdı. Bir tərəfdən Bakı limanında lövbər salan dəniz qüvələrinin üsyan bayrağını açdığını, digər tərəfdən Benaqazi (Binəqədi) Yanar dağı səmtdən Qızıl ordunun atəş saçaraq gəldiyini və geri qaçmaq istərkən yolunun türkiyəli bir zabitin komandasında olan "Yardım alayı" tərəfindən kəsildiyi gördü".

Bununla da dəhşətli, qorxunc bir dövr gəldi. Xüsusi bir amansızlıqla Vətənimizə hücum edərək bolşevikdaşnak ordu birləşmələri vətənpərvər oğullarımızı qan içində boğdu. Ölkəmiz təqibə, böhtana məruz qaldı. Min cür həngamələrlə, izahı olmayan həbslərin dalğası gücləndi. Azərbaycan Milli Ordusunun min iki yüzdən çox əsgər və zabiti Arazı keçərək o taylı qardaşlarınıza pənah apardı. Təqib olunan minlərlə ziyalımız Türkiyə, Fransa və Almaniyaya mühacirətə getdi. Bolşevik-daşnak təqibinin əzabkeşlərindən biri - zabit Ələsgər Ələsgərov - Kəngərlinski şahidlik edir ki, "şəxsən özüm tərəfindən yoxlanılmış siyahıya görə, bolşeviklərin Azərbaycandakı ağalığı dövründə ancaq hərbi rütbəlilərdən məhv edilənlər: generallar - on iki, polkovnik və podpolkovniklər - iyirmi yeddi, kapitan və ştabs-kapitanlar-poruçik və podporuçiklər - qırx altı, praporşik və podprapoşik - yüz qırx səkkiz, qalan ikiyüz altınış altı (hamısı müsəlmanlar)... 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrordan qırx səkkiz min adam öldürülmüşdü ki, bunun da çox hissəsi ziyalıların payına düsürdü".

1920-ci il mayın 30-da "Kommunist" qəzeti bolşevik terrorunun alçağlığına bəraət qazandıraraq, həyəsizcasına "Layiqli cəza"adlı məqalədə yazırdı: "Ali inqilab tribunalı bu işə yalnız həqiqi poletar ədliyyə orqanları nümayəndələrinə xas olan ehtiyat və təmkinlə nəzər salmışdır. Azərbaycanın azad əmək mənafeyini əsas tutan tribunal heç bir "qanuni intiqam" duyğularına yol vermədən özünün soyuq və ölçüb-biçilmiş qərarını vermişdir".

Bolşeviklər "təmkinlə", "soyuq və ölçülüb-biçilmiş" haqsız qərarları ilə bizi Azərbaycan Milli Ordusunun say-seçmə, yüksək rütbəli zabitlərindən və general oğullarından məhrum etdilər.

Yetmiş ildən çox adı və şöhrəti bağlı qapı arxasında qalan generallarımızdan biri də Həbib bəy Səlimov olmuşdu. 1918-ci ildə Milli Ordu yarananda polkovnik Həbib bəy Baş Qərargah və Dəftərxana rəisi olmuşdur.

Azərbaycan Demokratik Respublikasının hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun iyirmi altı fevral min doqquz yüz on doqquzuncu ildə otuz nömrəli əmri ilə general-mayor rütbəsi ilə təltif olunub, 1920-ci ilin martında "Əsgəran müharibəsi"nin qəhrəmanı kimi ad-san qazanmışdı. 1919-cu il iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hakimiyətmi tanımaq istəməyən

malakan və rus-erməni silahlı qüvvələri darınadağın edilmişdi. Düşməndən qənimət üçün götürdüyü bir təyyarəni, iyirmi dörd topu və altınış pulemyotu Azərbaycan ordusunda istifadəyə vermişdi. Muğan və Lənkaranı ana yurdu Azərbaycana qaytaran Həbib bəy buraya qısa müddətə vali təyin edilmişdi.

1918-ci ildə Azərbaycanda olmuş türk podpolkovniki Rüştü bəy Bakının böyük hərb yollarında" ("Hərbi məcmuə", 1934-cü il №93) jurnalında Həbib bəyi igid bir sərkərdə kimi xatırlayır. O yazır ki, cəsur və döyüş texnikasını gözəl bilən türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir. Döyüşlərdə cəbhə iki yerə ayrılırdı: şimal və cənub qruplarına. Cənub qrupunun komandiri polkovnik Həbib bəy Səlimov idi.

Hərbi tədqiqatçı, polkovnik-leytenant Mehman Süleymanov Türkiyədə yaradıcılıq ezamiyyətmdə olarkən general eloğlumuz Həbib bəy haqqında dəyərli məlumatlar əldə etmişdir. Həmin faktlar əyani surətdə göstərir ki, general Həbib bəy Səlimov daim ön cəbhədə olmuş və Azərbaycanı bolşevik-daşnak hərbi qüvvələrindən xilas etmək üçün mərdliklə vuruşmuşdur Həbib bəy Səlimovun komandanlıq etdiyi cənub qrupu Nəvai və Ağbulaq stansiyalarının bolşevik-daşnak qüvvələrindən azad etdikdən sonra o, Nuru paşaya aşağıdakı məzmunda raport göndərib:

"Birinci - bu gün Ağbulaq stansiyasını işğal edirəm. Yarın (1 avust 1918-ci il) Ələti düşmən alsa da, dəxi Allahın inayəti ilə işğal etmək üzrə irəliləyəcəyəm.

İkinci - mütəanibən (sonra) Bakı istiqamətində hərəkət edəcəyəm. Fəqət qrupun suyu qətiyyən yoxdur. Susuzluqdan əfrad (bəzi adamlar) bayılmış bir haldadır. Sürətlə su gətirilməsi üçün icad edənlərə əmr bulunmasını təkrar-təkrar rica edirəm.

Üçüncü - Ələtdən sonra qaradan (torpaq yol) hərəkət edəcəyimdən bir minik avtomobilinin təhriki üçün əmr bulunmasını edirəm.

...Avqustun birində cənub qrupunun komandanı Həbib bəy Səlimov bildirirdi ki, bu axşam Ələti işğal etdim. Dəfələrlə müraciət etməyimizə baxmayaraq, biz hələ də geridən içməli su almamışıq. Döyüşçülər susuz qaldığı kimi, su olmadığı üçün lokomotivlər işləmirlər. Polkovnik Həbib bəy Səlimov susuzluğun qrupda ağır vəziyyət yaratdığını və su gətirilməyincə Ələtdən o yana hərəkət etməyin mümkünsüzlüyünü vurğulayır."

Həbib bəy Səlimovun milli Azərbaycan Ordusunun formalaşmasında da böyük tarixi xidmətləri vardır. Hələ 1918-ci ilin avqustunda Qafqaz İslam Ordusu komandanı Ordusunun formalaşmasında da böyük tarixi xidmətləri vardır. Hələ 1918-ci ilin avqustunda Qafqaz İslam Ordusu komandanı Nuru paşanın əmri ilə Azərbaycan korpusu yenidən qurulmağa başlayanda hərbi təcrübəsinə və biliyinə görə bu korpusun qərargah rəisi təyin edilmişdi.

Gəncə-Bakı dəmiryolu ilə irəliləyən cənub qrupunun komandanı kimi H.Səlimovun göstərdiyi təşkilatçılıq qabiliyyəti və igidliyi Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirildi və elə bolşevik-daşnak qoşunlarına qarşı döyüşlərin gedişində ona polkovnik rütbəsi verildi.

1919-cü ildə Azərbaycan ordusundakı maddi çətinliklərə görə polkovnik Həbib bəy Səlimov hökumətin adına göndərdiyi raportunda ürək ağrısı ilə yazırdı:

“Demək olar ki, bütün əsgərlər Azərbaycan əyalətlərində yerli əhalinin hesabına dolanır, yarıac, yarıtox həyat sürürlər. Hətta böyük və varlı şəhər olan Bakıda əsgərlərə yemək tapılmır. Nə alayın, nə də korpusların anbarları yoxdur. Əsgərlərə həmişə “un şorbası” yedirtmək olmaz ki... Onuncu alayı çoxlu əsgəri çəkməsiz və corabsızdır. Ordunu yeməksiz, paltarsız atsız, təchizatsız yaratmaq olmaz. Yarıac, paltarsız əsgər əlbəttə ki, evə qaçmaq istəyəcək. Ona görə də özümə mənəvi borc bilərək aşağıdakı fikirlərimi çatdırdım:

1. Günün şüarı ancaq bu olmalıdır: hər şey ordu üçün.

2. Kağızda deyil, rəsmi şəkildə bir korpus yaratmaq lazımdır.

3. Belə korpusun yaradılması və təminatı üçün vəsaiti əsirgəməməli.Böyük Napoleon Bonapart deyirdi ki, müharibə üçün üç şey lazımdır. Birinci pul, ikinci pul, üçüncü yenə də pul.

Ordunu yedirınək, geydirınək və bolşevikləri nəzərdən qaçırınadan hər cür xəstəliklərdən qorumaq lazımdır”.

Cəsur general Həbib bəy Səlimovun muxtəlif arxivlərdən vətənpərvər ruhda yazılmış bir neçə məktub və teleqramını əldə edə bildik. Bu məktub və teleqramları Həbib bəy Qarabağ ərazi qoşunlarının komandanı olarkən, - odlu döyüşlər gedən Şuşa və Ağdamdan göndərmişdir. Bunlar Həbib bəy Səlimovun döyüş yolunu qismən də olsa öyrənməyə imkan verir.

“Azərbaycan” qəzetinin 15 iyun 1919-cu il tarixdə dərc olunmuş “Şuşadan axırıncı xəbər” yazısında deyilirdi:

“Ermənilər səkkiz gün ara vermədən şose yolunu və ona yaxın olan kəndləri atəşə tutublar. General Həbib bəy Səlimovun avtomobili, ingilislərin avtomobili, sərnişinlə dolu altı fayton, atla və piyada keçib gedənlər atəşə tutulmuşlar. Yalnız bu gün atəş kəsilmişdir.

Görüşmək üçün yerli əhalidən nümayəndələr də dəvət olunublar”.

**Qarabağın general-qubernatoru**
**Xosrov bəy SULTANOV**

**“Hərb nazirinə!**

Bakı alayında 390 süngü vardır. Noyabrın 23-də Qoçaz istiqamətmdə vəziyyət tədricən bərpa olunur. Düşmən hər tərəfdən Zabuq çayının sağ sahilinə atılmışdır. Ümid edirəm ki, bu günlərdə... rayonu tuta bilərək.Cəbrayıl dəstəsində vəziyyət tam başqadır. Ora iki batalyon - 1000 süngü qüvvə göndərilməsə, vəziyyəti düzəltmək mümkün olmayacaqdır. Yaranmış vəziyətdə bu cür qüvvəni Xaçmaz dəstəsinin tərkibindən çıxarmaq, məncə, mümkün deyildir.

Mən indi sizin barışıq fikrinizlə o şərtlə razıyam ki, barışandan sonra gələcək üçün sürətlə hazırlıq işləri görülsün.

General Həbib bəy SƏLİMOV
20 aprel 1920-ci ilt Şuşa.”

**“Bakı, general-leytenant Əliağa Şıxlinskiyə**

Dünənki döyüş göstərdi ki, ermənilər bütün vasitələrdən istifadə ediblər. Əsgəran cəbhəsində Dilicandan gəlmiş, əla təlim edilmiş və çox gözəl döyüş aparan Dəli Qazarın partizanları bir yerə cəmləşiblər. İndiki partizanlara ümid bəsləmək olmaz. Onlara kəsərli söz, xalqa çoxlu pul və bütün başqa vasitələrlə köməklik göstərınək lazımdır ki, onlar Vətənə daha böyük həvəslə xidmət etsinlər. Təkrar edirəm, məsələ çox ciddidir, artıq Ermənistan və Azərbaycan arasında Qarabağda gizli müharibə gedir. Hər tərəfdən patronlar tələb edirlər. Onların neçəyə olursaolsun, alınıb gətirilməsi vacibdir. Hazırda dövlətm ehtiyatları Gəncədən Araza qədər ərazidəki cəbhə üçün düşmən üçün müqayisədə həddindən artıq azdır. Ancaq etibarlı və yaxşı təşkil olunmuş partizanları müvəqqəti sizin tərəfə yönəldə bilərlər.

General Həbib bəy SƏLİMOV,
31 mart 1920-ci il."

**"Hərb nazirinə**

...Bu vəziyyət yerli əhali arasında çaxnaşma yaratdı. Onlar bizim Ağbulaq yaxınlığında dayanan alayımızı xəbərdar etmədən çaxnaşma sahr və qaçırlar. Abdal kəndində olan əsgərlərin bir hissəsini də arxalarınca aparırlar.

Bütün bunlar aralarında iki minə yaxın silahlı şəxslər olan Ağdam əhalisinin gözləri qarşısmda baş verirdi.

Bir nəfər belə gülablıların köməyinə gəlmədi, əksinə, iki-üç yüz erməninin Gülablıda görünməsi onları çaxnaşmaya saldı, əlbəttə, onlar səs-küyə salaraq mərkəzə teleqram vurdular və Bakı da tez onların köməyinə gəldi.

Mən Qarabağa baş verən hadisələrdən xəbərdaram və şəraitə görə mümkün olan bütün tədbirlərdən istifadə edirəm. Lakin, Abdllıların, Gülablıların, Xaçinki kənd əhalisinin arzusu ilə qoşunu bilmirəm. Ayın on doqquzunda səhər saat 10-da mən özüm Ağdamda oldum, partizanlar üçün məhkəmə qurdum, lazım olan tədbirləri gördüm. Nəticədə biz Güləbird kəndini, "Qızıl" hündürlüyünü tutmuşuq, Abdal kəndinə hücumu davam etdiririk.

Mənə inanın ki, mən özüm qorumuram, şəxsən olduğum və komandirlik etdiyim yerlərdə düşmənin qəflətən yaxalanmasına yol verməyəcəyəm.

Tatar alayının dərhal Cəbrayıla gəlməsinin böyük əhəmiyyətı olar çünki bu alayın əksəriyyətmi ləzgilər təşkil edir, bu da Quba qəzasında az fayda verə bilər.

General Həbib bəy SƏLİMOV,
10 aprel 1920-ci il, Şuşa."

**"Bakı, general-leytenant Əliağa Şıxlinskiyə**

Dronun (Qarabağ ərazisində döyüşən erməni-daşnak silahlı birləşmələrinin komandiri - Ş.N.) qüvvələrinin hücumu zamanı Şuşa şəhərinin vəziyyətmin nə dərəcə ağır ola biləcəyini nəzərə alaraq, ermənilərə Cavad qəzası süvari qoşunlarının köməyi ilə Cəbrayıl qəzası tərəfindən güclü təzyiq göstərilməsini lazım bilirəm. Eyni zamanda İran şahsevənləri Zəngəzur qəzasına soxulsaydılar, daha yaxşı olardı. Geniş hücum əməliyyatı aparmaq üçün tək Cöbrayıl qəzasının vəsaiti kifayət deyildir.

ADR-in Qarabağ ərazi
qoşunlarının komandanı,
general Həbib bəy SƏLIMOV,
31 mart 1920-ci il."

"...Bizimkilərin geriyə qaçmalarının qarşısını özüm rəhbərlik etdiyim yüz nəfərlik parlament mühafizə dəstəsi ilə aldım. Artilleriya, xüsusilə podpolkovnik Nəbibəyovun batareyası əla atışırdı, lakin təssüf ki, batareya komandiri hissə qapılıb batareya ilə həmləyə keçdi. Hal-hazırda ermənilər Əsgəranı, Xanabad kəndini, 3360-cı yüksəkliyi, Daşbaşı kəndini tuturlar.

Ümumiyyətlə, biz döyüşərək erməniləri iki verst geri çəkilməyə məcbur etmişik. Aşağıdakı itkiləri vermişik: alayın... praporşik Nəcəfəliyev və on altı əsgər öldürülüb. Parlamentin mühafizə dəstəsindən podporuçik Dauşvili, praporşik Əsgərov, Ərəbov yaralıdırlar. Əsgərlərdən yeddi nəfər ölmüş və on beşi yaralıdır.

Döyüşçülərin əhval-ruhiyyəsi yaxşıdır. Düşmən çox böyük itkilər vermişdir, tək Xaramutda 60-a qədər düşmən cəsədi sayılmışdır.

General Həbib bəy Səlimov
1 aprel 1920-ci il, Ağdam."

* * *

1918-20-ci illərdə Milli Azərbaycan Ordusunun yaranmasında əvəzsiz xidmətləri olan general Həbib bəy Səlimov 1881-ci ildə Naxçıvanda anadan olub.

Cümhuriyyət dövrünün ən görkəmli sərkərdələrindən biri, general-mayor Həbib bəy Hacı Yusif oğlu Səlimov 1918-ci il martın 4-də Petroqradda Baş Qərargah Akademiyasını bitirib.

Baş Qərargah rəisi kimi mühüm vəzifəyə təyin olunan Həbib bəy nə kabinet, nə də məiyyət generalı olmamışdır. Milli ordumuzun ilyarımlıq fəaliyyətində daim ön cəbhədə olmuş, fitri hərbi istedadı ilə Azərbaycanın müstəqilliyinə təcavüz etmək istəyən silahlı düşməni məhv etmişdir. Təəsüf ki, bu şöhrətm ömrü uzun çəkmədi. Həmin ilin aprelində ölkəmizə basqın edən bolşevik-daşnak qüvvələri mərd və yenilməz general Həbib bəy Səlimovu məhv etmək üçün min bir fəndkirliyə əl atdılar.

Respublika Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədlərindən öyrənirik ki, may ayında Həbib bəy Səlimov Naxçıvana hərbi komissar təyin olunur. 1920-ci il

iyulun 19-da Naxçıvan şəhər general-qubernatorunun 3402 saylı möhürlü rəsmi sənədi ilə Təbriz şəhərinə ticarət məsələləri ilə məşğul olmaq üçün on dörd günlüyə ezam olunur.

Avqustun 26-da Naxçıvan İnqilab komitəsinin sədri XI ordunun xüsusi şöbə rəisi, cəllad Pankrotova yazılı məlumat verir kı, Həbib bəy Səlimov iyunun 30-da qayıtdı. Qızıl ordunun ehtiyacı olduğu ticarət məhsullarından kifayət qədər gətirə bilmişdir.

Sentyabırın 1-də həbs olunan general Həbib bəy Səlimov üçün 2017 saylı həbs vərəqəsi yazılır. Yalançı ittihamların "bayramı" başlayır. Adamın varlığını sarsıdan odur ki, Qubin soyadlı rusdan başqa yalançı ittihamların əksər müəllifləri öz dindaşlarımızdır. Onlar çalışır ki, general Həbib bəyin yuxarıda xatırladığımız Əsgəran, Muğan və Lənkəran döyüşlərində əvəzolunmaz xidmətilərini dansınlar. Alınmır, ağ yalan belə igid generalın hərbi fəaliyyətinə ləkə sala bilmir. Onda naxələflər başqa fəndə əl atırlar. Devirlər ki, 1918-ci ildə türk generalı Nuru paşa Azərbaycana gələndə Həbib bəy Səlimov onun ordusunda bolşeviklərə qarşı döyüşlər aparmışdır.

Bu tarixi fakt həqiqətən olmuşdur. Gəncədən sonra cəbhəni iki yerə - şimal və cənub qruplarına ayıran Nuru paşa cənub qrupunun komandiri polkovnik Həbib bəy Səlimovu təyin etmişdi.

Hətta sonralar vətəni Türkiyədə "Böyük hərbdə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi" adlı kitab yazan türk polkovniki Rüştü bəy Həbib bəy Səlimovu əsərində igid bir sərgərdə kimi xatırlayır: "Cəsur, döyüş texnikasını gözəl bilən türk ordusunun vüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda yetişmiş azərbaycanlı zabitlərdəndir". Qəribə burasıdır ki, bolşeviklərə quyruq bulayıb Həbib bəy Səlimov haqqında iftira, ittihamlar verən dindaşımız rotmistrin özü də türklərlə birgə döyüşlərdə iştirak etmişdi. Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədlərindən öyrənə bildim ki, rotmistri (nüfuzlu nəslinə hörmətim olduğuna görə rotmistrin adını, soyadını çəkmək istəmirəm) 1926-cı ildə bolşevik ÇK-sı Solevetsk adalarına ömürlük sürgünə göndərib. Atalar demişkən, özgəyə quyu qazanın özü də düşər.

Yuxarıda xatırlatdım ki, general Həbib bəy Səlimovun milli orduda vəzifəsi Baş Qərargah rəisi idi. Peşəkar hərbçilər yaxşı bilirlər ki, qərargah ordunu idarə edən ağıl, beyin deməkdir. Məgər dünya şöhrətli sərkərdə, hərbiyyə naziri Səməd bəy Mehmandarov və onun müavini "artilleriyanın allahı" Əliağa Şıxlinski kimi peşəkar hərbçilər, bolşeviklərə quyruq bulayan rotmistrin zəif komandir zənn etdiyi Həbib bəy Səlimovu Baş Qərargah rəisi kimi məsul vəzifəyə təyin edərdilərini? 1919-cu il fevralın 26-da otuz bir saylı əmrlə polkovnik Həbib bəy Səlimova general-mayor rütbəsi verərdilərmi? Əlbəttə yox!

General Həbib bəy Səlimov 1918-20-ci illərdə milli ordumuzda xidmət edən, milliyyətcə Litva tatarı olan general-leytenant Məmməd bəy Sulkeviçdən sonra ikinci generaldır ki, ali hərbi təhsili vardı.

General Həbib bəy Səlimovun ittihamlarında göstərilir ki, Tifilisdə və Bakıda təşkilat fəaliyyət göstərir. Onlar üsyana hazirlaşırlar. Tiflis və Batumda əksinqilabçılara general Vrangel general Səlimov vasitəsilə silah göndərir. Bakı

quberniyasının Cavad qəzası İranın Şahsevən quldurlaının köməyi ilə üsyana hazırlaşir köməyi general Səlimovdan alırdı.

Sonrakı ittihamlardan məlum olur ki, niyə məhz general Səlimovu, Naxçıvan hərbi komissarını onun vəzifəsinə, sənətinə heç bir dəxli olmayan ticarət malı gətirməyə İrana göndərmişlər. Bunların hamısı mərd general Həbib bəy Səlimovu həbs etmək üçün hazırlıq idi.

Bir ay yarım həbsxanada üzünə oxunan yalançı ittihamları və üzləşmələri yazılı şəkildə rədd edən milli ordu generalı Həbib bəy Səlimovu güllələmək üçün "İran məsələsi" bolşeviklərin əlində daha əsaslı fakt olub.

1920-ci il oktyabrın 15-də agent məlumat verir ki, general Həbib bəy Səlimovun təşkilatı ilə bağlı aşağıdakılar öyrənə bildim:

"General keçmiş rus ordusunda polkovnik rütbəsində xidmət edib. Baş Qərargah Akademiyasının məzunudur. Azərbaycan hökuməti onu general-mayor rütbəsilə təltif edib. Təşkil etdiyi əksinqilabi dəstəni ingilislər maliyyələşdirir. Dəstənin fəaliyyət dairəsi Araz çayının sahilləridir. Onun əksinqilabi dəstəsinin üzvləri quldur ağqvardiyaçıların və şahsevənlərin qalıqlarından təşkil olunub. Komandir heyəti ağqvardiyaçı zabitlərdən, gürcü və ermənilərdən ibarətdir. Təşkil olunmuş dəstənin məqsədi: əgər gürcülər və ermənilər hücuma keçərlərsə, Bakı-Tiflis yolunu onların köməyi ilə bağlamaq. Ənvər paşa ilə hələ heç bir əlaqələri yoxdur. General Həbib bəy Səlimov Müsavat hökuməti vaxtı Xəlil paşa ilə apardığı münaqişəyə və yaramaz hərəkətlərinə görə müsəlman əhalisi arasında hörmətə malik deyil".

General-mayor Həbib bəy Səlimova məxsus 1920-ci il 19 dekabr tarixli istintaq işinin doxsan doqquzuncu səhifəsindən üçlüyün çıxarışı:

"Əksinqilabi fəaliyyətdə günahladırılan sabiq general-mayor Həbib bəy Yusif oğlu Səlimovun 1241 saylı işinə baxıldı. Onun günahları aşağıdakıların ibarətdir.

1. Sovet hökumətinə qarşı əksinqilabi mübarizəsi, Müsavat ordusunu döyüş hazırlığında saxlaması və rəhbərliyi.

2. Gəncə üsyanı zamanı Sovet Azərbaycanından qaçmaqda və İrandan gəlmiş qiyamçı dəstələrin Muğanda Qızıl orduya qarşı döyüşlərə rəhbərlikdə.

3. 1919-cü üdə Muğanda inqilabçı kəndliləri tərksilah etməkdə və qarətdə günahlandırılır. Səlimova qarşı yürüdülən ittihamlar və bir sıra başqa cinayətlər istintaq zamanı təsdiq olunmuşdur. Qərara alındı: Sovet hökumətinə qarşı çıxan Həbib bəy Yusifoğlu Səlimov güllələnsin. Ondan əmlak müsadirə olunsun və respublikanın gəlirinə keçirilsin. Cinayət işi və aktlar arxivə təhvil verilsin.

Əslini imzaladı: XI Ordunun xüsusi söbə rəisi Pankratov və böyük müstəntiq Qubin".

Naxçıvan Mərkəzi Dövlət Arxivində saxlanılan səksən iki nömrəli protokol isə cəsur general haqqında ağ yalanla doludur. 1920-ci il avqustun iyirmi ikisində Naxçıvan komyaçeykasının iclasında hərbi komissar Starovun sədrliyi və Fyodorovun katibliyi ilə yeddi nəfər bolşevik müsavat generalı Həbib bəy Səlimovun "fəaliyyəti barədə işə baxıblar. Lakin cəmi üç nəfər – "troika" dindirilmişdir.

Birinci şəxs Şaxtaxtmski: “General Səlimov zəhmətkeş xalqın satqındır, səbatsızdır. O, Bakıdan İrana qaçdı və oradan Naxçıvana gəlib camaatı dilə tutdu ki, əhali razılıq versin, onun polku 600 əsgər, 10 ədəd top və bir neçə pulemyotla Naxçıvana gəlsin. O, Sovet hökuməti əleyhinə təbliğat aparırdı. Lakin indiki hökumətə qarşı günahını boynuna almır. Alayın silahlarını İranda satıb mənimsəmişdir”.

İkinci şəxs Rüstəmov: “Mən Şaxtaxtinskinin dediklərini təsdiq edirəm və əlavə olaraq bildirirəm ki, general Səlimov yerli əhalini başa salırdı ki, onun başçılığı ilə Naxçıvana yeni alay toplasın və bolşeviklər əleyhinə vuruşsunlar. O, həqiqətən Sovet hökuməti əleyhinə təbliğat aparırdı...”

Üçüncü şəxs Xəlilbəy: “Daşnaklar Şuşaya hücum edəndə (1920-ci il mart ayında - S.N.) Azərbaycan hökuməti korpus təşkil edib Səlimovun başçılığı ilə cəbhəyə daşnaklarla vurusmağa göndərdi. Lakin Səlimovun təcrübəsizliyi və korpusa başçılıq edə bilmədiyindən, xeyli yaralı və ölüm hadisələri olmuşdur. Lakin mən qarışandan sonra döyüş müvəffəqiyyətlə basa çatdı və daşnak hücumu darınadağın edildi ”.

Bütün bunlardan sonra Azərbaycan hökuməti ona 242-ci polka və üçüncü kavpolka başçılıq etməyi tapşırdı. O vaxtkı qırmızılar Bakıya yaxınlaşırdı, mən ona təklif etdim ki, qırmızıları müdafiə etsin. O, söz versə də, sözünü yerinə yetirınədi, satqınlıq elədi. Sovet hökuməti əleyhinə təbliğat aparınağa basladı”.

Yekunda: yoldaş Startov təklif etdi ki, general Həbib bəy Səlimovu həbs edib XI ordunun hərbi sovetmin sərəncamına göndərınək.

Bütün bu yalançı ittihamlardan sonra bolşeviklər general Həbib bəy Səlimovu 1920-ci il dekabrın 30-da, saat 10.30 dəqiqədə güllələdilər. İstintaq işində Həbib bəyə yürüdülən ittihamlardan biri də onun əmlakının müsadirə olunmasıdır. Bəs nəyi vardı Həbib bəy Səlimovun? Sənədlərdə göstərilir ki, subaydır, 39 yaşı var. Qardaşı ilə birgə yaşayır, iki desyatin torpağı və üç desyatin dədə-baba bağ sahəsi... Vəssalam

## DAŞINAN SƏNƏDLƏR

(General İbrahim ağa Vəkilovun raport və məktubları)

### ДОНЕСЕНИЕ ГЯНДЖИНСКОГО ГУБЕРНАТОРА МУСАВАТСКОМУ МИНИСТРУ ВНУТРЕННИХ ДЕЛ О НЕОБХОДИМОСТИ ПОСЫЛКИ ВОИНСКИХ ЧАСТЕЙ ДЛЯ БОРЬБЫ С ОТРЯДОМ КЕРБАЛАЯ АСКЕР

12 ноября 1918 г.

В допалнение представления моего от 10 сего ноября за № 7459 и телеграммы от 11 числа сего же месяца за № 7482 , донашу вашему высокопревосходительству, что с появлением в Дезгамском районе Ганджинского уезда разбойничьей шайки под предводительством Кербалая Аскера и Рустама, полажение там стало весьма серьезным и если против

беглеца-каторжника Кербалая Аскера и его шайки не будет приняты экстренные меры к их ликвидации, то авторитет и популярность Кербалая Аскера среди темных масс населения возрастут до громадных размеров и надо ожидать в скорем времени, благодаря его злонамеренной агитации, погаловного восстания населения не только в названном районе, но и в целом уезде.

Для борьбы с шайкой Кербалая Аскера я не располагаю никакими реальными силами, а потаму прошу экстренного распоряжения о командировании в Гянджу воинского отряда для задержания Кербалая Аскера и его шайки, или же уничтожения таковой, в случае оказания ею воинскому отряду вооруженного сопративления.

О последющем распоряжением прошу мне телеграфировать.

Губернатор
полковник Ибрагим ага Векилов

ЦГАОР Азерб. ССР, Ф. 894,
оп.2, д.9, л. 23. Подлинник

## ДОНЕСЕНИЕ ГЯНДЖИНСКОГО ГУБЕРНАТОРА МИНИСТРУ ВНУТРЕННИХ ДЕЛ Х.ХАСМАМЕДОВУ ОБ ОТКАЗЕ ИСПОЛНЕНИЯ. ВОИНСКОЙ ПОВИННОСТИ КРЕСТЬЯН СЕЛЕНИЯ ЧАЙЛЫ КАЗАХСКОГО УЕЗДА

12 февраля 1919 г.

Секретно

Представляя присем копию с рапорта казахского уездного начальника от 6 февраля с.г. за №469, в котором он доносит о том, что Чайлинское общество отказывается от явки к исполнению воинской повинности, вообще не исполняет законных требований властей и держит себя крайне вызывающе, честь имею доложить, что общество это самое беспокойное в уезде, население враждебно настроено по отношению к власти и не останавливается в выступлениях демонстративного характера.

Село Чайлы является родным селом депутата парламента Гаджи Керима Саниева и в нем существуют две партии: одна во главе с родственниками Саниева, а другая - враждебная ей.

Благодаря такому положению вещей невозможно было назначить старшину из членов Чайлинского общества, а потому я принужден был предписать уездному начальнику назначить старшиной в этом обществе постороннее лицо.

Ко всему вышеизложенному честь имею присовокупить, что одновременно с сим мною предложено казахскому уездному начальнику послать в названное селение всех имеющихся в его распоряжении стражников и принять меры к приведению в покорность населения Чайлинского общества, так как я не имею возможности от Военного Министерства всякий раз посылки воинской силы для прекращения беспорядков и в уезде.

Губернатор полковник Ибрагим ага Векилов
ГААР, ф.894, оп.2.0.91. л.9-10

## ДОНЕСЕНИЕ ГЯНДЖИНСКОГО ГУБЕРНАТОРА МИНИСТРУ ВНУТРЕННИХ ДЕЛ Х.ХАСМАМЕДОВУ О НЕОБХОДИМОСТИ ВООРУЖЕНИЯ ПОЛИЦИИ ОРУДИЯМИ И ПУЛЕМЕТАМИ ДЛЯ БОРЬБЫ С ПРЕСТУПНЫМИ ЭЛЕМЕНТАМИ

24февраля 1919 г.

Во вверенной мне губернии преступный элемент вновь стал проявлять преступные действия. Во многих местах образовались шайки разбойников, которые начали нападать как на целые селения, так и на отдельных лиц, грабить и убивать. Для борьбы с этими шайками необходима хорошо вооруженная сила. Между тем наша азербайджанская армия начала лишь формироваться и отвлечение ныне войсковых частей из этой армии для борьбы с разбойничьими шайками принесет ущерб в деле скорейшего обучения новобранцев военному делу.

Хотя на основании полученного мною предложения правительства, мною предписано уездным начальникам увеличить число полицейской стражи почти вдвое для борьбы с преступностью, но таковое увеличение могли бы сделать лишь в некоторых уездах, так как за установленное конным чинам полицейской страже содержание немногое соглашаются поступить в стражу, ввиду того, что вследствие дороговизны фуража назначенное чинам страже содержание с фуражными деньгами старшим по 725 руб., младшим по 700 руб. В месяц недостаточно даже на прокормление лошади в месяц.

Кроме того, имеющаяся в настоящее время стража вооружена лишь ружьями, с которыми она не может достигнуть тех быстрых результатов, которые получаются отрядами, имеющими, кроме ружей, пулеметы и орудия. Поэтому я признаю необходимым, чтобы среди чинов полицейской стражи были лица, обученные стрельбе из пулеметов и из орудий и чтобы затем в мое ведение было представлено хотя бы четыре пулемета и два орудия.

Докладывая о вышеизложенном, прошу, если признаете возможным, сношения с военным министром о командировании в мое ведение нескольких инструкторов для обучения чинов полицейской стражи стрельбе

из пулеметов и орудий, а равно о предоставлении в мое распоряжение указанного выше числа пулеметов и орудий. О последующем прошу уведомить меня.

Губернатор полковник Ибрагим ага Векилов
ГААР, ф. 894, оп. 4. д. 91. л. 1-2.

ДОКЛАДНАЯ ЗАПИСКА ГЯНДЖИНСКОГО ГУБЕРНАТОРА МИНИСТРУ ВНУТРЕННИХ ДЕЛ Х.ХАСМАМЕДОВУ О ПОЕЗДКЕ ПО УЕЗДАМ
19 февраля 1919 г.

При объезде мною вверенной мне губернии, я посетил 7 уездов, причем останавливался кроме городов: Казаха, Нухи и Шуши, еще в 79-ти населенных пунктах (список прилагается), пробыв в поезде 35 суток. Во всех этих пунктах я имел беседу с населением, объясняя им события текущего момента, значение самостоятельности Азербайджанской Республики, злое влияние на армян Андраника, препятствующее упрочению мира между мусульманами и армянами, и призывал народ к спокойной, мирной работе, возвращению к сохе, предупреждая, что дальнейшее состояние на военном полажении может гибельно отразиться на благосостоянии как самого народа, так и государства.

Общее настроение мусульманских поданных Азербайджана и лояльных русских не оставляет желать лучшего. Народ устал от кровопролитий, жаждет мирной жизни и тоскует по своей обычной работе, заброшенной так или иначе благодаря событиям последних лет.

Я. полагаю, что при таком настроении народа, при помощи и поддержке правительства и администрации, не за горами то золотое время, когда молодая республика станет наряду с культурными государствами цивилизованного мира и земля, обагренная кровью, слезами и потом родных сынов, снова зацветет и щедрыми дарами воздаст за те горести и муки, которые в последние годы были единственным уделом населения.

Из докладов начальников уездов, разговоров с населением и личного знакомства с положением дел на месте, я выяснил положение губернии, которое в своем настоящем докладе я излагаю, указывая в отдельности в положение вещей в каждом уезде:

**I. Шушинский уезд**

1. В городе Шуше имеется: Реальное училище, Высшее начальное училище, Мариинское женское училище, женская гимназия, Армянская духовная семинария и классные училища: Шушинское 1 -е, 2-е, 3-е, 4-е, 5-е 6-е, 8-е, 9-е; Русско-татарское женское училище. Из последних Шушинское 1-е училище - земское. Учительский персонал в этих училищах состоит из

русских, мусульман и армян. В Шушинском же уезде имеются 24 одноклассных улищ

2 В городе Шуше имелась Шушинская городская больница, имени Джамгарова в коей были кровати, а в данное время эта больница превращена в барак для тифозных больных. В уезде же имелись больницы в селениях Агдам и Тагаверте, а равно в Агдаме приемный покой и в них были кровати, а фельдшерские пункты в селениях Николаевке и Халфарадине, где не было кроватей.

3. В уезде русских селений 5: Сунженка, Алексеевка, Николаевка, Котляровка и Скобелевка и хутор окончательно разгромлены, а армянских селений в уезде 92, из коих разгромлены 9 селений.

Кроме русских и армянских селений разгромлены еще во 2-м полицейском участке уезда мусульмански селения Гога, Салапятин, Ковшатлу, Шихимлу, Диваналилар и отселок Баланлу, а в 1-м полицейском участкее селения: Ходжалы, Керпа-Афатлы и отселок Зарыслы. Из этих татарских селений сожжено только селение Ходжлы

4. Беженцев в гор. Шуше исключительно из. разгромленного армянского селения Каладарсы Зангезурского уезда, в числе 1475 человек, которые никакого имущества не имеют. В уезде же имеется приблизительно 8300 человек беженцев, которые не имеют никакого имущества и скота...

5. Беженцы в уезде размещаются в частных домах они питаются подаяниями. Беженцы же, находящиеся в Агдаме, размещены в частном наемном доме и они питаются на средства казны.

6. В каждом разгромленном селении погибло приблизительно 20-25...

7. Население уезда главным образом занимается: хлебопашеством, скотоводством и садоводством, а в Агдаме и в городе Шуше торговлей.

8. Уезд съестными припасами первой необходимости не испечен до нового урожая. Крайне нуждается во всех продуктах...

9. В городе и уезде от болезни “испанка” погибло приблизительно 26 тысяч человек.

**II. Джебраильский уезд**

1. Еще до возникновении беспорядков, имевших место в Джебраильском уезде в конце позапрошлого 1917 года, было 4 женских и 16 мужских школ.

Учительский персонал в уезде состоял из 13 человек - мусульман, 3 - русских, 4 - грузин и 5 - армян. После возникновения анархии, т.е. с 1 января минувшего 1918 года занятия в школах прекратились, школы перестали функционировать и в настоящее время в мусульманских обществах нет ни одной мужской или женской школы, а существуют ли таковые в армянских обществах, не имеется сведений, ввиду прекращения сношения с армянским населением, не признающим власти азербайджанского правительства.

Для организации школ в данном уезде 12 сего января прибыл в Карягино ново назначенный инспектор народных училищ мусульманин Мусабек Кулиев.

2. В уезде, как раньше, так и теперь было и имеется две больницы, первая в Карягино, вторая в Джебраиле. В первой было четыре, а во второй две кровати, в настоящее время число кроватей в них увеличено: в карягинской больнице теперь 40, а в Джебраильской - 6 кроватей.

3. В уезде было по штату два врача, сельский и уездный, а в настоящее время имеется один сельский врач при тех фельдшерах и одной акушерке. Большой недостаток в медицинском персонале и в медикаментах...

4. В уезде русских селений не было и нет, а было и имеется 32 армянских селений, ничем не пострадавшие, не сожженные и не разоренные. Было и есть одно молоканское селение, жители коего пострадали, половина из них ушла, а остальные в уезде.

5 В настоящее время в уезде проживает 454 души мужского и 444 души женского пола мусульман и мусульманок беженцев из Зангезурского уезда. Они не имеют ни скота и никаких других имуществ. Беженцы прибыли сюда разновременно отдельными партиями почти голыми и живут в разных мусульманских селениях при скудной помощи местных жителей мусульман, испытывая самую острую нужду в правительственной помощи. Все они жители разных селений Зангезурского уезда, где, по их словам и по другим данным, разновременно с октября месяца по сие время разгромлено армянами до 60 мусульманских селений.

Сколько погибло в них мужчин, женщин и детей опросом беженцев и другим путем не могло быть установлено, так как, по заявлению беженцев, во время нападения и разгрома их селений они отдельными партиями успели спасти себя бегством, не имея сведений о судьбе оставшихся своих родственников, но, по частным сведениям, в разгромленных селениях погибло очень много мужчин, женщин и детей.

Об оказании помощи беженцам возбуждено было ходатайство перед министром призрения и, как видно из полученного уездным начальником сообщения окружного инспектора призрения Кулиева, им оставлена смета, представленная министру с ходатайством об открытии кредита для нужд беженцев.

6. Турецкими властями оставлено в Карягино и Джебраиле 2 продовольственных склада с запасом пшеницы, ячменя и проса в количестве 1688 пудов, принятых начальником уезда от бывшего коменданта.

7. Мусульманское население уезда преимущественно занимается земледелием, овцеводством и местами торговлей, а армянское - земледелием, садоводством, виноделием, пчеловодством и местами торговлей...

8. Население уезда съестными припасами не обеспечено, несмотря на обильный урожай минувшего 1918 года...

9. С июля месяца 1918 года по сего 1 января от разных свирепствовавших в уезде эпидемических болезней умерло 7891 человека мусульман. Сведения о числе умерших армян не имеются.

**III. Зангезурский уезд**

1. В уезде одноклассных сельско-нормальных училищ - 9, двуклассных - 5. Число учащихся установить невозможно ввиду того, что ныне училища не функционируют и из них 4 училища подожжены; учителя были из мусульман, грузин и русских.

2. Была больница с приемным покоем в селении Зангелане, с одним сельским врачом, двумя фельдшерами и одной акушеркой, которая перенесена в 1916 году в сел. Уджанис армянское.

3. По берегу Аракса начиная от селения Шарифан до сел. Алидара сожжены и разрушены казенных зданий - 12.

4. В уезде 84 армянских и одно русское село. Из числа армянских сел разорены 4.

5. Беженцы из разоренных мусульманских сел приютились в частных домах и нуждаются в насущном хлебе...

6. В уезде фабрики и заводы не разрушены.

7. Главная роль занятия населения хлебопашество занимаются также скотоводством, пчеловодством, чалтычной плантацией, садоводством...

8. Уезд съестными припасами первой необходимости не обеспечен; чтобы их обеспечить до нового урожая необходимо не менее 300000 пудов зерна...

9.От разных болезней... погибло около 2000 человек.

10. Число убитых армянами около 1200 человек, а число душ беженцев будет представлено особо вслед за сим Беженцев приблизительно около 40000.

**IV. Джеванширский уезд**

1. Во время анархии были разгромлены имущества всех заезжих домов и сельских управлений, из коих сожжены три... Покинутых во время анархии в селении было 3 русских и молоканских, 12 мусульманских, 5 армянских. Все дома мусульманские и молоканские, армянами сожжены и уничтожены, а почти все настройки армян в некоторых покинутых ими селениях сохранены и в них живут мусульмане разоренных армянами селений. Армянами селения Талыши уничтожена культурная усадьба Николая Мелик-Беглярова, уничтожены дома, вырублены фруктовые сады, лес и пр., причинив Мелик-Беглярову убытки на сотни тысяч рублей.

2. Беженцев этого же уезда из разоренных селений мужчин - 355, женщин - 616, детей - 909, пришлых из Даралагезского и Зангезурского уездов мужчин - 422, женщин - 335, детей - 223. Число пришлых из Зангезурского уезда и Эриванской губернии с каждым днем растет, вследствие постоянного пребывания их. Из местных беженцев большинство живут в покинутых армянами селах, имеют в ограниченном количестве скот, домашнее имущество и живет на своем иждивении. Пришлые же живут в разных селениях, форменно голодают, доставая себе пропитание подаянием и призрением благотворителей. Вышеперечисленные селения были покинуты хозяевами в мае месяце 1918 года; в них казенных и общественных зданий, школ, больниц не было. Во время погрома поселка Евлах погибли два

хлопкоочистительных завода и две; мельницы; этим погромом крупные убытки понесла Джульфа-Бакинская железная дорога и Елизаветпольская продовольственная управа.

3. В уезде две сельские больницы: первая в селении Барде, другая в Тертере; в первой 4 кровати, врач, фельдшер и акушерка, в последней 6 кроватей, врача нет, три фельдшера. Кроме этих больниц недавно открыт и оборудован в селении Хан Арабе фельдшерский пункт.

4 Всех училищ было 25 мужских, 4 женских. Из этого числа - 8 двуклассных смешанных, 11 мужских и 3 женских учреждены в армянских селениях и содержатся на земские средства. Только одна женская и две мужские двуклассные школы, учрежденные в мусульманских селениях, содержались за счет земства, а 3 мужские школы содержались в мусульманских за счет жителей. Учителя и учительницы в армянских школах были армяне и русские. Функционируют ли эти школы, сведений нет, так как армяне не признают правительства Азербайджана и никого из представителей в свою среду не допускают.

Помещения, находящиеся в мусульманском районе училищ, имевших до анархии от 25 до 50 учащихся в каждом, приведены в порядок, но, к сожалению, учителей нет, училища пустуют, за исключением Дорбатлинского, где в первых числах января собралось 7 учащихся...

6 К отбыванию воинской повинности привлечены 2539 человек, принято 907, освобождено по семейному положению и др. причинам 1492 человека, из них (забраковано 13) не явилось 140. За незначительным исключением дети беков уклоняются от воинской повинности, что и вызывает ропот в среде крестьян.

7. С 7 ноября по 15 января с.г. взыскано с населения 1-го и 2-го участков 257806 руб. 99 коп. разных налогов. Армяне ничего не внесли. Население участка терпит лишения, нуждаясь во всем...

8. Населении уезда преимущественно занимается хлебопашеством, скотоводством и незначительно в нагорных частях пчеловодством. Анархия и продолжавшееся безвластие почти разрушили экономическое положение населения, создали массу кровной вражды между отдельными лицами и селениями, прекратило взаимопомощь, общение, отражаясь, пагубно с экономической стороны на население. Хотя прошлогодний урожай хлебов в уезде был удовлетворительный и мог бы обеспечить население до будущего урожая, но бесцеремонный забор турками зерна то под видом закята, то для войска и т. п. почти истощил хлебное зерно и весь запас молочного продукта. По этой причине несомненно предвидится недостаток. В настоящее время население нуждается в сахаре, чае, керосине, рисе, мануфактуре. Население должно находится под угрозой голода еще в будущем, потому что посевная площадь сократилась почти на половину. Это произошло потому, что, с одной стороны, в сезон распашки армяне, расположенные у верховья оросительных каналов, не допускали мусульман запрудить воды из Тертера, а с другой, весь рабочий скот был занят, как перевозкой для турок продуктов, так и развозкой войска по шоссе, наконец с третьей - от повального

заболевания "испанкой". От этой болезни умерло в уезде 6400 человек, а может быть и более...

10. По вопросу о беженцах Министерством призрения пока не осуществлены ожидаемые меры помощи, а между тем сыпной голодный тиф уже наблюдается.

Ряд мероприятий выработан уездным начальником и врачом Аслановым для предупреждения распространения тифа, в смысле открытия питательного пункта, организации эпидемического отряда, санитарных комиссий и пр. и приступлено к осуществлению их.

11. Более половины мусульманского населения Гюнеймагала, успевших спастись от Андраниковской армии, бросив все, перебежали в Персию, почти все население Анджанан, Дарасы вырезано и уведены молодые женщины. Спасшиеся в Джебраильский, Шушинский и Джеванширский уезды женщины ищут своих мужей, а дети своих родителей, родители своих детей. Передаваемые беженцами сведения об отчаянном положении мусульман в Зангезуре, готовых покинуть территорию Азербайджана, а также последние события в Агдаме, оказали опасно тревожное влияние на настроение населения и общественное мнение в твердости существующего порядка и спокойствия.

**V. Нухинский уезд**

1. Город состоит из 2 частей: жители первой части главным образом мусульмане, а незначительная часть армяне; всего в этой части 30095 душ обоего пола. В этой части города имеется уездное управление, почтово-телеграфное отделение, городское общественное самоуправление, одна мужская гимназия, одно женское училище св. Нины, одно мужское высшее начальное училище. 2 женских начальных училища, 2 русско-татарских училища. Одна городская лечебница, ханский дворец и мечеть. В первой части города имеется 14 мечетей, 20 шелкомотальных и 8 шелкокрутильных заводов и 3 махорочные фабрики, 2 аптеки.

2. Жители второй части главным образом мусульмане, а незначительная часть армяне, всего жителей в этой части 21004 души общего пола. Имеется почтово-телеграфная контора, армянская церковь с приходским училищем, пять русско-татарских начальных училищ и 45 шелкомотальных и шелкокрутильных заводов и 20 мечетей, 1 аптека.

Первый участок. Резиденция пристава 1 участка находится в сел. Ашага-Гейнюк, состоит из 4 сельских обществ: 3 мусульманских и одного армянского, в участке имеется 2 дву-классных и 3 одно-классных школы; помещения школ, за исключением двух армянских, находится в целости.

На участке имеется жителей обоего пола всего 34120 душ, население занимается хлебопашеством и скотоводством.

Второй участок. Резиденция пристава ввиду уничтожения армянского селения Джафарабада, в настоящее время находится в сел. Беюк-Дегна в 40 верстах от г. Нухи. Участок состоит из 4-х сельских обществ... всего 21983 души обоего пола. Во время анархии участок этот разделен на два участка,

т.е. по два общества в каждом. Жители этих обществ занимаются хлебопашеством и овцеводством.. В этом участке имелось две школы, частных домах, которые после переворота закрылись и в настоящее время школ не имеется. Ввиду обильного урожая жители живут хорошо и между ними имеются состоятельные.

Северная часть этого участка состоит из двух обществ. Жители занимаются хлебопашеством, скотоводством и шелководством.

...Многие жители этого участка занимаются грабежом и другими преступными делами, особенно после анархии.

3 участок. Резиденция пристава в сел. Варташен. Участок состоит из 5 обществ:... и Зарабского. Последнее общество состоит исключительно из армян и жители этого селения, не желая подчиняться азербайджанскому правительству, переселились в Грузию. Подарское и Хачмазское общества состоят из мусульман, армян и удин, грузин, а Джолуто-Джугутлярское - из армян, евреев, мусульман. В участке имеется пять школ, за исключением селения Зарабского общества, где здания школ уничтожены.

На участке имеется жителей обоего пола всего 2762 души.

В сел. Варташен имеется фельдшерский пункт, но медикаментов нет и фельдшер почти за целый год жалованье не получает, почему аптека не закрыта.

Жители этого участка главным образом занимаются хлебопашеством и скотоводством. В селении Хачмаз свирепствовали холера, тиф и испанка.

4 участок. Резиденция пристава находится в сел. Кутгашен, отстоящем от г. Нухи на 82 версты. Участок состоит из 6 общества;

... из них четыре мусульманские, одно армянское, одно армянскомусульманское.

На участке имеется пять мужских и 3 женских школ, из них две двуклассных и шесть одно-классных. Здания двух школ казенные, а остальные частные. Все эти школы закрылись еще с января 1918 года за неполучением содержания преподавателями и вообще ввиду бывшего тревожного времени.

На участке имеется всего жителей обоего пола 48000 душ, из них было 10 армян, а остальные мусульмане. На участке имеются минеральные воды, один фельдшерский пункт с приемным покоем, который в настоящее время действует. Жители этого участка занимаются главным образом хлебопашеством, скотоводством и торговлею, на горных местах живут лезгины, которые занимаются овцеводством. Большая часть населения несостоятельная, ввиду причинения им убытков наводнениями. В селениях Бум и Кутгашен свирепствовали холера, тиф и испанка.

Сведения по Гянджинскому, Казахскому и Арешскому уездам будут представлены дополнительно.

Из вышеприведенного доклада о положении губернии ясно видны те прорехи, которые необходимо зачинить.

1. Прежде всего должно быть обращено внимание на восстановление функций школ, так как главным образом образование может быть тем лучом

света, который рассеет мрак невежества и озарит народ сознанием своих задач для процветания родной страны и убедит его в пользе и необходимости культуры. Мне кажется, что и в том случае, если народ сам не захочет просвещения, необходимо принудить его к тому, применив в данном случае теорию Макиавелли, так весь народ разделить на три группы: первая - понимающая пользу культуры и просвещения, вторая которая к этому убеждению приходит только после того, как ей будет это разъяснено, и третья, самая большая группа т.е. собственно темная народная масса, которая не понимает и часто отказывается понять даже после разъяснения.

2. Необходимо восстановить правильное почтовое и пассажирское движение по шоссейным дорогам, так как при настоящем положении этого вопроса страдает и дело и казна.

В крайне неудовлетворительном состоянии находится и телеграф.

По сведениям, порча телеграфной линии происходит в зоне армянского влияния, близ сел. Пир-Агбулага.

3. Ввиду эпидемических заболеваний, унесших массу жертв, необходимо поставить широко дело медицинской помощи населению, учредить новые больницы, имеющиеся возможно лучше оборудовать, снабдить медикаментами и достаточным персоналом врачей и фельдшеров. То же необходимо сказать и о ветеринарной помощи, так как тоже наблюдается эпизоотия, уносящая массу жертв.

4. Для правильного функционирования государственного механизма на местах и для вселения народу уважения к власти необходимо, чтобы все правительственные агенты, следователи, прокуроры, мировые судьи, податные инспекторы были на местах и исправляли добросовестно свои обязанности и соответствовали тому положению, которые они занимают.

Вследствие того, что в парламенте обсуждался вопрос о бездеятельности чинов администрации вверенной мне губернии, а также о злоупотреблениях по службе некоторых из них, так как было заявлено, что не принимаются никакие меры против злоупотребления, честь имею доложить о тех мерах, которые были мною уже предприняты до сего времени, для искоренения сих беспорядков и преступлений:

1. Были уволены за разные преступления и ввиду несоответствия занимаемым должностям следующие должностные лица:... (всего 8 чел.)

2. Были объявлены приговоры уездным начальникам, их помощникам, приставам и т.д.

3. Пристав 8 участка г. Гянджи ... был посажен под арест-на 7 суток.

4. были отданы под суд (2 чел.)

5. Направлены прокурорскому надзору дела о приставах Чайхорском и Бабаеве.

6. Отстранен начальник сыскной полиции... Сесидов.

7. Были произведены ревизии: 1. Канцелярия приставов Гянджинского уезда участков: 1, 2, 4, 6, и 7; 2. Канцелярии Джеванширского уездного начальника.

8. Послана ревизия в Агдамский район.

9. Сейчас идет ревизия в Казахском уезде по делу о контрабанде керосина и зерна...

10. Назначена ревизия Гянджинского полицмейстера и городских приставов.

11. Я. лично объехал в течение 35 суток 7 уездов вверенной губернии, причем мною было посвящено 79 населенных пунктов.

12. Для пользы службы и устранения разных шероховатостей были перемещения разных должностных лиц.

13. Мною намечены к увольнению многие чины администрации за несоответствие занимаемым ими должностям и по другим причинам.

14. Чуть ли не ежедневно мною рассылаются циркуляры направляющего характера для более усиленного и продуктивного хода работ администрации.

Ко всему изложенному должен присовокупить, что почти невозможно подобрать вполне подходящий контингент служащих ввиду того, что интеллигентные силы стремятся в Баку, одни для поступления в государственную службу, где в министерствах лучше оплачивается труд, а другие стремятся обогатиться торговыми оборотами, часто спекулятивного характера.

Вследствие существующей крайне низкой расценки труда в учреждениях вверенной мне губернии, можно опасаться того, что уйдут в поисках более лучшего заработка те немногие честные интеллигентные труженики, которые еще добросовестно стоят на своих постах, несмотря на разлагающее влияние многочисленных взяточников завзятых и тех, которых к тому толкает нужда и тяжелые условия жизни в настоящее время.

Губернатор, полковник Ибрагим ага Векилов
ГААР, ф.894, оп. 10, д. 105, л.6-19.

## GƏNCƏ QUBERNİYASI İBRAHİM AĞA VƏKİLOVUN ƏRZİ-HALI

**1919-cu il**

**Daxili İşlər Naziri Cənablarına**

Mənə etibar edilmiş müsəlman əhalisinin ağır vəziyyəti üzərimə xidməti borcdan əlavə Əlahəzrətmizə bu ərzi-halla müraciət etmək mənəvi borcu qoyur. Son illərin anarxiya hərəkatma gətirib çıxaran hadisələri bütün quberniya əhalisinin maddi güzəranını tamam sarsıtmışdır. Bar verən torpaq sahəsi əkinçisiz qalmışdır. İstilər düşməsinin yaxınlaşması ilə heyvandarlığın istifadəsindən ötrü yaylaqların açılması üçün təcili tədbirlər görülməsə, heyvandarlığı tam tənəzzül təhlükəsi gözləyir.

Bununla yanaşı, quberaiyanın bütün mədəni həyatı donub, kənd məktəbləri əksərən fəaliyyət göstərınirlər, şəhər məktəbləri və gimnaziyalar yoluxucu xəstəliklər ucbatından bağlanıb, zavodlar işləmir və ilaxır.

Əhali dinc həyat axarının həsrətmdədir, hakimiyyət həyatı lazımi məcraya yönəltmək üçün öz tərəfindən mümkün olan hər şeyi edir.

Sanki belə şəraitdə ən yaxın gələcəkdə ölkədə sakitləşmə, dinc əməyə və gənc respublikanın çiçəklənməsindən ötrü mədəni təşəbbüslərin həyata keçirilməsinə başlanmasını gözləmək olardı.

Sülh həsrətmdə olan əhalidən danışarkən, mən müsəlmanları, rusları və alman koloniyaçıları nəzərdə tuturam, ermənilər bu sarıdan, görünür, tamam başqa fikirdədirlər ki, bu barədə geniş şərhə hacət yoxdur. Onlar müsəlmanlara nifrətlə çulğanaraq qandan tamam məst olmuşlar, müsəlman kəndlərinin talan edilməsi, sakinlərin qırılması, qadınların və uşaqların zorlanması ilə ifadə olunan öz düşmənçilik hərəkətlərinə son qoymurlar.

Onların vəhşilikləri hədd bilmir, bunlar qarşısında zülmət orta əsr dəhşətləri kölgədə qalır. İnanmaq istəmirsən ki. 20-ci əsrdə öz mədəniliyi haqqında bütün Avropaya car çəkən müdafiəz dinc əhaliyə vəhşi məxluqatın bütün üsullarını tətbiq edən xalq mövcuddur. Quberniyanın hər tərəfindən gələn gündəlik raport və məlumatlarda səslənən o dəhşətlərin təəssüratı altında bu sətirləri yazmaq ağırdır; qadınlar zorlanıb,  uşaqlar tonqallarda yandırılır, dillər, qulaqlar kəsilir, işgəncələr, həqarətlər. Mən, quberniya rəisi kimi quberniya və qəza hakimiyyətinin mənə tabe olan rütbəli şəxslərindən həmişə respublikanın şüarlarına əməl olunmasını tələb edirəm: millətə fərq qoymadan, hamı qanun və hökumət qarşısında bərabərdir. Lakin, istər-istəməz bir şeyin üzərində düşünməli olursan ki, Allah və bəşər qanunlarını tanımayan xalq bütün elədiklərindən sonra başqa xalqın dinc övladının belə münasibətinə layiqdirini. Hansısa Farqat Balayansın quldurlarının oğurlanması bütün hakimiyyəti ayağa qaldırır. Ələt stansiyasında bir neçə başkəsənin bir neçə erməniyə quldur basqını, yüz minlərlə əvəzsiz qurban hakimiyyətm dəstəyini və müdafiəni gözləyərək sükutla göz yaşı axıtdıqları vaxt Parlamentdə şikayətə və ingilis komandanlığı qarşısında timsah göz yaşlarına səbəb olur.

Gözləmək olardı ki, Azərbaycan-erməni münasibətlərinə qarışmaqla ingilis komandanlığı müraciətlərin yatırılmasından ötrü xüsusi missiyaları göndərınəklə yuxarıda təsvir olunanların hamısına son qoymalı idi, ancaq məsələ başqa cürdür, ermənilər səfərbər olunmaqda davam edir və Böyük Britaniyanın nümayəndələri tərəfindən dəstəklənirlər. Müsəlmanlara basqınlar nəinki qurtarır, əksinə, getdikcə daha kəskin xarakter alır.

İngilis missiyası gəldikdən sonra 1918-ci il dekabrın 1-dən Cəbrayıl qəzasında ermənilərin müsəlmanlara qarşı qəddar zor işlətmə və cinayətləri haqqında məlumatları nəzərə çatdırıram. Budur onlar:

1) Dekabrın 3-də Qovğa kəndini mühasirəyə alaraq ermənilər 10-a qədər müsəlmanı həlak etmiş, ahıl mülkədar Əsəd ağa Ctavanşiri öldürınüş və ailəsini qırmışlar.

2) Dekabrın 2-də Arakül kəndinin silahlı ermənilәri Xələfli, Aşıq Məlikli, Tatar və Şıxlar kəndinə hücum edərkən 10 evi yandırıb dağıtmış, 2 qadını, 6 kişini yaralamış və 10 baş malı tələf etmişlər.

3) Dekabrın 5-də Qarakollu kəndindən Molla Nəbiyə və başqalarına məxsus 40-a qədər qoyun oğurlanıb aparlmışdır.

4) Dekabrın 7-də ermənilər Anş müsəlmanlarının 40 ədəd qoyununu sürüb aparmışlar.

5) Dekabrın 10-da Məhərrəm oğlu Doşuluların və başqalarının 12 baş malı aparılmışdır.

6) Dekabrın 10-da Miryusif Mirhəsən oğlu Əfəndililərin 12 baş malı aparılmışdır.

7) Dekabrın 15-də Siriklilərin 100 baş malı aparılmışdır.

8) Dekabrın 18-də ermənilər Məzrə kəndinə basqın edərək qarovulçu İsmayıl Mustafa oğlunu süngülərdən keçirmiş, 40 baş malı aparmış və min manata qədər məbləğdə ev əmlakını qarət etmişlər.

Yanvarda Düdükçü kəndində o kəndin mülkədarı Camal bəyə və digər Vəzirovlara məxsus bütün varidatı və başqa şeyləri odun ağzına verdilər, bütün əmlaklarını talan edərək 100 min manatdan artıq ziyan vurmuşlar.

Buna baxmayaraq, Cəbrayıl qəzasının müsəlmanları həmin hadisələri dərin hüzn hissi ilə qarşılayır və heç bir fəal hərəkətlərə əl atmadan özlərini və əmlaklarını basqından qorumaq üçün yalnız müdafiə mövqeyi tuturdular.

Həmin qəzada Qəza Rəisinin şəhadətinə görə, bu müddət ərzində müsəlmanlar tərəfindən ermənilərə qarşı qanunpozma halı olmamışdır.

Di gəl ki, ermənilər səbəb olmadan hal-hazırdakı dürüst məlumatlara görə bütün erməni quldur dəstələri üçün mənzil-qərargah olan Hadrut kəndində sürətlə silahlanırlar. Bundan belə nəticə çıxır ki, ermənilər silah və patron çatışmazlığından böyük zərər çəkə bilən həmsərhəd müsəlmanlarla ciddi toqquşmaya hazırlaşırlar.

Bu halda, heç bir hökmə tabe olmayan quldur Andranikin iştirakı və ingilislərin, hətta mənəvi də vəhşilikləri haqqında ərzi-halı başa çatdıraraq onu da əlavə edirəm ki, tək Zəngəzur qəzasında siyahılarını qoşduğum 105 (yüz beş) kənd talan və qəraət edilmişdir.

(Bundan başqa, İranla həmsərhəd rayonların müsəlmanları sərhəd kəndləri talan edən, sakinləri öldürən və onların mal-qarasını aparan İran quldur dəstələrinin basqınlarına məruz qalırlar).

Yuxarıda göstərilənləri ərz edərək Zati-Alinizdən öz əmlakını itirərək acınacaqlı həyat sürən müsəlmanların xilası və öz həmyerlilərinin başına gələnlərdən hələlik möcüzə nəticəsində xilas olanların talan edilməsinin qarşısının alınması üçün Sizdən asılı olan bütün tədbirləri görməyinizi itaətlə xahiş edirəm.

Əlahəzrətmizə ərz etməyi rəva bilirəm ki, mənim fikrimcə Hökumət İngilis komandanlığına onların inanmağa öyrəşdikləri və indiyədək dəstəklədikləri xalqı ram etməkdən ötrü sözsüz ki, sərəncamlarında olan bütün tədbirləri görmək tələbi ilə müraciət etməli və Qafqazdakı müttəfiq ordu komandanının əsl vəziyyəti bilməsinə çalışmalıdır...

Bununla eynən mən İran hökumətinin nümayəndələri ilə Xarici İşlər Nazirliyi vasitəsilə iranlı quldurların Azərbaycan ərazisinə basqınları əleyhinə tədbirlərin görülməsi ilə əlaqədar qurulması vəsatətini verirəm.

Sonda Əlahəzrətinizdən kəndlilərin təsərrüfatlarını bərpa etməkdən ötrü onları canlı və hərəkətsiz əmlak, toxum və pul yardımı etməklə köməklərinə gələrək qaçqın müsəlmanların doğma torpaqlarında məskunlaşmaları barədə məsələnin nəzərdən keçirilməsinə sirayət etmənizi xahiş edirəm.

Əlahəzrətinizin gələcək sərəncamları haqqında (və mənə etibar edilmiş quberniyanın müsəlmanlarının müdafiə haqqında vəsadətinin təmin edilməsi barədə) baxəbər olunmağına iltifat göstərmənizi arzuladım.

Qubernator İbrahim ağa Vəkilov,
Dəftərxana müdiri (imza)

## GƏNCƏ QUBERNATORU POLKOVNİK İBRAHİM AĞA VƏKİLOVUN ƏRZİ-HALI

Gəncə quberniyası cənub-şərq qəzalarının yoxlanışı zamanı biixtiyar ingilislərin Azərbaycanın vəzifəli şəxslərinə münasibətinə diqqət yetirməli olduq. Tutalım ondan başlayaq ki, ingilislər müsəlmanlar tərəfindən onlara deyilənlərin hamısına inanmırlar. Qeyd etmək lazımdır ki, ermənilərin müsəlmanlara əlləri istədikləri kimi çatır, məsələn, Ağdamda buğda və digər məhsullar alarkən, burada heç kəs onlara toxunmur. Buna ingilislər inanmırlar.

Şuşa şəhərində erməni kişi və qadınları ilə əhatə olunmuş iki ingilis zabiti həmsöhbətlərinin bütün dediklərinə inanırdılar. Şuşada yaşayan ingilislər Azərbaycanın hər işinə qarışırlar, belə ki: 1) Şuşa pristavından Xankəndindəki anbarlardan Şuşa realnı məktəbi üçün odun verilməsini tələb edir, deyirlər ki, bu odun rus hökumətinə məxsusdur; 2) Quliyev deyilən Ərzaq Nazirliyinin Nümayəndəsini ingilislər həbs edib konvoy altında Şuşaya gətirməyi Pristava təklif edirlər; 3) Başqa bir Quliyev də var - Cebrayıl qəzası xalq məktəblərinin müfəttişi. Onu da elə həmin zabitlər səbəbini izah etmədən Cəbrayıldan Şuşaya tələb edirlər. Qeyd etmək lazımdır ki, Cəbrayıldan Şuşaya və əksinə gediş-gəliş təqribən 3000 manata başa gələr; 4) Mayor Gibbon Zəngəzur qəzasının pristavına qatar zavodlarından Gorusa aparılan taxılı buraxmaq sərəncamı verir; özü də elə qeyd etmək lazımdır ki, qatar zavodlarında müsəlman kəndlərində qarət edilən taxıldan başqa taxıl yoxdur; 5) ingilis zabitləri Şuşa xəzinədarına Şuşa şəhərinin qorodovoylarına ayda hərəyə 300 manat ayırmaq (onların hərəsinə 150 manat düşür) sərəncamı veriblər ki, xəzinədar buna əməl etmişdir; 6) elə həmin zabitlər bu xəzinədara xəzinədə bir erməni qəpiyinin də olmasına baxmayaraq tiflə mübarizədən ötrü Şuşa səhər Qolovasına 50000 manat ayırmaq sərəncamı veriblər, bu pulların manatını Şəhər Qolovası mənim gəlişimə qədər almağa macal tapıb, 45 min manatın ayrılmasına isə icazə verməmişəm.

Deyilənlərə görə, zabitlər yuxarıda göstərlən xalq məktəbləri müfəttişi Quliyevi ona görə tələb edir ki, Azərbaycan hökumətini tanımayan erməni

məktəblərinin kənd müəllimlərinə məvacib ayırmaq sərəncamı versinlər; 7) ingilislər ermənilərin müsəlmanlardan bir ildən artıq əvvəl törədilmiş cinayətlərə aid şikayətlərini qəbul edirlər.

Salman bəy Əlibəyov deyilən - məşhur Şaumyanın, vaxtilə ondan dolanışıq xərci alan sağ əli Fərrux bəy Vəzirovun malikanəsini talan etmək ittihamı ilə həbs olunmuşdu. Salman bəy digər soyğunçularla birlikdə həbs edilmişdi və onlarla Şuşa həbsxanasında yatırdı. Erməni dostlarının razılığı ilə Salman bəy müstəntiq tərəfindən Şuşa şəhərinin erməni hissəsinə çağırılmış, burada onu müşayiət edən konvoy tərksilah edilmiş, Salman bəy isə azadlığa buraxılmışdır. Ermənilər onun üçün siyahı ilə pul toplamış və o, ermənilərin himayəsi altında Şuşada yaşayır. Həmin Salman bəy bu günlərdə ingilis zabitlərinin yanında olmuş, onlar ona demişlər ki, onun həbsinə heç kim cəsarət edə bilməz.

Belə misallardan çox çəkmək olar, lakin deyilənlərdən də aydındır ki ingilis zabitləri Azərbaycanın işlərinə qanşırlar. Yanvarın 19-da mən Şuşada olarkən burada qəza rəisi ilə söhbət aparıb, Qəza idarəsində ingilis zabitləri ilə müsəlmanların gediş-gəlişindən ötrü erməni kəndlərindən keçən bəzi yolların açılması mümkünlüyü barədə müşavirə keçirməyi lazım bildim. Qəza rəisi həmişə zabitləri Qəza idarəsinə müşavirəyə dəvət etmək üçün onların yanına yollandı, onlarsa cavab verdilər ki, "Biz Britaniya İmperiyasını numayəndələriyik, odur ki, qoy qubernator yanımıza gəlsin". Mən onların yanına getmədim və buna görə müşavirə baş tutmadı.

Qubernator
**Ibrahim ağa Vəkilov.**

**Экстренно.**
**Секретно.**
**г. Военному Министру.**
**5 апреля 1919 г. г. Елизаветполь.**

Управляющий Казахским уездом донес мне, что в Казахском уезде в настоящее время неспокойно и население вступает с анархическими действиями, например: в селениях Верхний Салахлы и Нижний Аскипара убили старшин и их разсыльных и разгромили их дома; во многих селах, как например, Кочаскер, Геогджалы, Татлы, Асланбеклы, Каймахлы, Кямарлы, Шыхлы 1-ое, отказываются давать аскеров и вовсе не допускают к себе представителей власти. Часто при вывозе контрабанды население вступает со стражей в перестрелки; вообще участились убийства и грабежи.

Вследствие вышеизложенного, покорнейше прошу Ваше Высокопревосходительство не отказать в командирование в сел. В.Салахлы и Н.Аксипара отряда с орудиями и пулеметами, или, если встречается препятствия в командировании отряда и Гянджи, то прошу назначения для этой цели отряда из состава батальона, квартирующего в.м. Казах, а орудия и пулеметы из г. Гянджи.

К сему честь имею присовокупить, что положение очень серьезное и я, ознакомившись с ними, принужден обратиться к Вашему Высокопревосходительству за помощью военной силы т.к. промедление может гибельно отразиться на спокойствии не только губернии, но даже Республики Азербайджана.

Губернатор,
Генерал-майор Ибрагим ага Векилов
Правитель Канцелярии... (имза)
(Республика Мяркязи ДювлятАрхиви, 2898, с. I.св. 10).

Письмо верховного британского комиссара О.Уордропа дипломатическому представителю мусаватского правительства в Тифлисе об отмене реквизиции английской фирмы "Бакинская компания проволочных канатов"

20 октября 1919 г.

Г-н Уордроп приветствует г. Фарисбека Векилова и извещает его, что британский вице-консул в Баку вчера телеграфировал о следующем:

"Я. извещен сегодня азербайджанскими властями, что в понедельник ими будет реквизирована стальная проволка О-ва "Бакинская компания проволочных канатов", как необходимая для нужд города. Я настоятельно указывал, что это Общество основано исключительно на британском капитале с правлением в Шеффильде и является единственным предприятием в России по изготовлению стальных канатов для нужд нефтяной и горной промышленности. Стальная проволока, безусловно, необходима для функционирования заводов.

Результатом действий азербайджанских властей явится задержка для нефтяной промышленности, неопределенное положение дел - Общества в будущем и серьезный ущерб его репутации, помимо финансовых потерь.

Согласен, что проволока необходима для телефонов, но для этой цели годится и железная проволка, а проволока указанного Общества из высшего сорта детали. Я ответил азербайджанским властям, что не мог согласиться на реквизицию британской собственности, тем более, что страна не находится на военном положении. Однако прошу вашей поддержки и безотлагательного уведомления Азербайджану не продолжать реквизиции".

Г-н Уордроп просит г. Фарисбека Векилова предпринять немедленные шаги с целью предупредить указанную реквизицию.

ЦГАОРАзерб. ССР,
Ф.970, оп.3, д.4, л.43.
Перевод с английского языка,
I современный подлиннику.

Письмо верховного британского комиссара в Закавказье О.Уордропа заместителю дипломатического представителя Мусаватского правительства в Тифлисе с требованием запретить проезд большевиков через Азербайджан в Иран.

13 января 1920 г.

Мистер Уордроп, свидетельствуя свое почтение г. Векилову, выражает пожелание, чтобы были приняты меры к воспрепятствию проезда большевистских эмиссаров через Азербайджан и Грузию в Персию. Британское правительство получило сведения, что недавно наблюдалось значительное движение такого рода лиц и мистер Уордроп выражает уверенность в том, что г. Фарисбек Векилов учтет необходимость прекратить это движение.

Подписал: принц каджар

ЦГАОРАзерб. ССР,
Ф.970,оп.3,д.3,л.10.
Перевод с анлийского языка,
современный подлиннику.

## VII. Расчеты

"Правительство", с одной стороны, и "Помощь" с другой, представляют взаимно счета за каждый месяц на отправленные продукты, показывающие количество вагонов, чистый вес груза и номера накладных. Все расчеты производятся в Тифлисе, причем, если они взаимно не покрываются, то сторона, в пользу которой образуется сальдо, имеет право в следующем за отчетным месяце сократить отправку продуктов против заказанного количества до погашения стороной накопившегося долга.

Тифлис, 26 января 1920г.
Подписи:

От имени "Помощи на Ближнем Востоке" В.Н.Гаскель.
полковник Генерального штаба армии
Соединненых Штатов Северной Америки
От имени Азербайджской Республики Фарисбек Векилов, дипломатический представитель Азербайджана в Грузии

ЦГАОРАзерб. ССР,
ф. 897, оп.1, д.69, л.55-57. Подлинник.

## İYİRMİNCİ İLDƏ QARABAĞ DÖYÜŞLƏRİ[9]

1920-ci il martın iyirmi ikisində, Novruz bayramı gecəsi Qarabağ vilayətinin dağ yerlərində məskun ermənilər qiyam edərək "Əskəran keçidi"ni tutdular. Bu səbəbdən də Əskəran cəbhəsinə mirliva Həbib bəy Səlimovun komandanlığı ilə qüvvətli bir ordu yeridildi. Aprelin üçündə Azərbaycan ordusu ermənilərə qarşı qüvvətli bir hücüm etdi. Əcəba, hansı azərbaycanlı o məsud günü xatırlamır?! Ordunun qalibiyyət və intizamı, mənəviyyatı təsvirolunmaz dərəcədə fövqəladə idi. Xarici aləm az bir müddət ərzində vəsaitsizlik içində bu qədər müntəzəm təşkilata malik bir əsgəri qüvvə vücudə gətirdiyimizə heyran qalmışdı. Əlahdən bir çoxu duyduğu həyacandan ağlayırdı.

O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi.

**Polkovnik İSRAFİL bəy,**
**"Azərbaycan Ordusu haqqında"**
**kitabı**

Hərbiyyə naziri Səməd bəy Mehmandarov Əsgəran cəbhəsinə gəlmişdi. Ön cəbhədə ölüm-dirim savaşında vuruşan əsgərləri təbrik edir, onların qələbəsinə uşaq kimi sevinirdi. Ordu yaranan gündən üç böyük qələbəsi olmuşdu.

1919-cu ilin ilk günlərində Zəngəzur erməniləri İrəvan daşnaklarının köməyi ilə qəzanı Azərbaycandan ayırıb Ararat respublikasına birləşdirınək üçün azərbaycanlıları qovur və kəndləri yandırırdılar. Ustəlik də elan eləmişdilər ki, Azərbaycan hökumətini tanımaq istəmirlər. Yanvar ayında general-mayor Cavad bəy Şıxlinskinin komandanlığı ilə Zəngəzura əsgəri qüvvə yeridildi.

Onun komandanlığı ilə piyada diviziyası bir aydan çox inadılı döyüşlər aparıb ermənilərin möhkəmləndirilmiş son şığınacağı olan Dağ kəndini də ələ keçirdilər. Zəngəzur qəzası yenidən Azərbaycan ərazisində qaldı.

İkinci qələbə həmin ilin iyul ayında olmuşdu. Muğanda və Lənkəranda Azərbaycan milli hakimiyyətini tanımaq istəməyən malakan və rus-erməni qüvvələri ordumuzun gücü ilə darmadağın edilmişdi.

Bu gün nazir Səməd bəy Mehmandarovun təbrikə gəldiyi üçüncü qələbə idi. 1920-ci il martın iyirmi ikisində Novruz bayramı gecəsi ermənilər qiyam edib Əskəran keçidini zəbt etdilər. Qiyama İrəvandan gələn daşnak generalı Dro Kanayan başçılıq edirdi.

Azərbaycan Cümhuriyyətinin müdafiə nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmrilə Əskəran cəbhəsinə qüvvə ayrıldı. Martın iyirmi üçündə Azərbaycan ordusunun

---

[9] Müstəqil Azərbaycanın yaşaması üçün 1920-ci ilin dəhşətli mart günlərində mənfur daşnakların torpağımıza təcavüz etməsi Milli Azərbaycan Ordusunun hər bir əsgərini təpədən dırnağacan silhlandirır. Qısa bir müddətdə (martın 22-dən aprelin 3-nə kimi ) xəyanətkar daşnak süvari dəstələrini darmadağın edən Azərbaycanın əsgər və zabitləri füsünkar Qarabağı düşməndən geri aldı. İlyarımlıq fəliyyətin dövründə qəhrəman Azərbaycan ordusunun üçüncq yürüşü də zəfərlə başa çatdı. – Ş. N.
"İyirminci ildə Qarabağ döyşləri" sənədli oçerkləində tam artilleriya generalları Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin, general –mayor Həbib bəy Səlimovun və polkovnik Bəhram bəy Nəbibəyovun unudulmaz xidmətləri yeni arxiv sənədləri əsasinda olunur. – Ş. N.

əsas hissəsi - iyirmi minə qədər əsgər və zabit cəbhəyə göndərildi. O cümlədən üçüncü Gəncə, beşinci Bakı, birinci Cövanşir, ikinci Quba polkları general-mayor Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Qızğın döyüşlər on iki gün ara vermədi. Azərbaycanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrundu mərdliklə vuruşaraq Şuşa qalasına və Xankəndinə daxil oldular.

Sonuncu iki qələbə Milli ordumuzun ən cəsur generallarından biri Həbib bəy Səlimovun mahir komandanlığı ilə qazanılmışdı. Əslində altınış dörd yaşlı hərbiyyə nazirini həyəcana gətirən və Qarabağa təbrikə aparan da general Həbib bəyin aprelin səkkizində göndərdiyi raport idi. Cəmisi bir səhifəlik raportu dönə-dönə oxuyan nazir bir neçə yerdə işarələr qoydu, ürəyində "afərin" sözünü təkrar etdi. Səməd bəy istər general, istərsə də nazir olanda da özünü həmişə sıravi əsgər, döyüşçü sanırdı. Neçə-neçə müharibənin iştirakçısı kimi o, yaxşı bilirdi ki, komandanın əsgərləri döyüş meydanında təbrik etməsi nə deməkdir. Ona görə də müavini Əlıağa Şıxlinskiyə:

- Əmr hazırlayın, əvəzimdə nazir vəzifəsində sən qalırsan, - dedi, - mən sabah tezdən Qarabağa döyüşçüləri təbrik etməyə gedirəm. Ancaq, Əliağa, bu raportda Həbib bəyin "günümüzün qəhrəmanı" - deyə təriflədiyi Nəbibəyovu nədənsə xatırlaya bilmirəm.

Azacıq eyhamla gülümsünən Əliağa Şıxlinski:

- Yadınızdadırmı, - dedi keçən ilin iyun ayında Siz bir neçə gün Yevlaxda olanda yenə nazir əvəzi məni təyin etmişdiniz. Onda birinci Cavanşir piyada alayının kapitanı Vahid bəy Nəbibəyov raport yazıb hərbi xidmətdən azad olunmasını xahiş etmişdi. O, raportunda belə bir cümlə işlətmişdi: "Səhhətim və şərait mənə respublika hökumətinə xidmət etməyə imkan vermir". Mən də məhz bu cümlədən qəzəblənib Azərbaycan Zabitinin ləyaqətini, şərəf və şanını yüksək tutmadığına görə yanıma çağırıb onu danladım, xidmətdən azad etməklə bir ay da həbs edilməsi barədə əmr verdim. Bir neçə gündən sonra Siz qayıdıb onun qanının arasına girdiniz. Səməd bəy Mehmandarov pensnesini silə-silə gülümsündü.

- Hə, yadıma düşdü, əzizim, indi bildim: ağır təbiətli, uca boy...

- Bəli, bəli, Sizin nəzərinizdə ağır təbiətli, Mənim fikrimcə tənbəl və bir azda yaşı ötmüş Vahid bəy Nəbibəyovudur. Həbib bəyin "günümüzün qəhrəmanı" dediyi isə onun kiçik qardaşı podpolkovnik Bəhram bəy Nəbibəyovdur Bəhram bəy Birinci Dünya müharibəsində də yaxşı döyüş yolu keçib. Buyurun, xidmət dəf-tərçəsini istəmisiniz, gətirinişəm. Tanış ola bilərsiniz.

- Verin, baxım. Nazir podpolkovnik Bəhram bəy Nəbibəyovun çox da böyük olmayan, cəmi səkkiz səhifəlik şəxsi xidmət dəftərçəsinin ilk səhifəsini açıb dayandı.

- Əliağa, - dedi, unutmamış onu da deyim ki, kapitan Vahid bəy mənim yanıma gəldi. Belə raport yazmaqda səhv etdiyini boynuna aldı. Hiss elədim ki, uzun müddət milis dəstəsində xidmət etdiyinə görə hərbi nizamnaməni o qədər də dərindən bilmir. Bildirdi ki, işlətdiyi cümlədə heç bir qərəzli məqsədi olmayıb. Ona inandım. Mən də şəxsən sənin, general Şıxlinskinin nüfuzunun qorunmasına ehtiramla yanaşmaq şərtilə kapitan Nəbibəyovun raportunun üstünə "mən ona verdiyim cəzanı bağışlayıram" - cümləsini dərkənar qoydum. Məsuliyyəti öz

üzərimə götürüb onu yenidən orduya qaytardım. Deyirsən podpolkovnik Bəhram bəy onun kiçik qardaşıdır, lap yaxşı.

- Səməd bəy, bu onun kimi astagəl zabitlərdən deyil. Bəhram bəy od parçasıdır. Nəbibəyovlardan bizim orduda dörd qardaş olmalıdır. Vahid bəy, Bəhram bəy, Hüseyn bəy yox, beş nəfərdir, bir də Məməd bəy.

Nazir:

- Əliağa, nə yaxşı da yadında qalıb, əhsən sənə və yaddaşına, dostum.

- Bilirsən, 1918-ci ilin noyabr-dekabr aylarında Tiflisdə Müsəlman korpusunu təşkil edəndə Nəbibəyov qardaşlarını orduya mən qəbul eləmişdim. Onda qərargahım Veriyski körpüsünün yanındakı "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi. Düzü, ona görə yadımda qalıb ki, bunların çox maraqlı, dünya görüşlü ataları var. Oğlanları ilə Qasım bəy özü də gəlmişdi. Türkmənistanda general Kuropatkinin qərargahında Şərq dilləri üzrə tərcüməçi olub. İndi istefadadır. Mirzə Fətəli Axundovla dostluğundan danışırdı.

- Demək, Bəhram bəy 1884-cü il dekabrın altısında Şəkidə bəy ailəsində anadan olub. Sonra Kutaisi realnı məktəbini və 1904-cü ildə, sentyabrın ikisində Peterburqdakı Konstantin Artilleriya məktəbini birinci dərəcəli diplomla bitirib. - Nazir dayanıb pensnesinin üstündən müavininə baxdı, fəxrlə: - Oho, nə yaxşı... bizim məktəbi bitirib ki, bir yuvadan pərvazlanmışıq... Görürsən, Əliağa, Konstantin məktəbinin artilleristlərini?..

- Səməd bəy, əsgər komandirinə, zabit generalına oxşamalıdır. Zərbməsələ dönmüş bu müdrik kəlamlar Sizə məxsusdur. Amma xalqımızda belə bir məsələ də var: Alma kökündən gen düşməz. Mən inanıram ki, podpolkovnik Bəhram bəy Sizin layiqli davamçınızdır.

- Demək istəyirsən ki, Bəhram bəy xidmətdə mənə oxşayıb? - deyən nazirin sevincdən gözləri parıldadı.

Əliağa Şıxlinski ciddi general zəhmilə:

- Mən hələ 1918-ci ilin iyun-iyul aylarında onun Hövsan və Nobel çənləri ətrafmdakı bolşevik-daşnaklara qarşı apardığı döyüşlərin şahidi olmuşam. Bəhram bəy çox qoçaq və bilikli zabitdir. Onunla fəxr etməyə dəyər. Dəli Qazar kimi generalı mühasirəyə salıb məhv etməsinə şəxsən mən şəkk-şübhə etmirəm. Belə qoçaq, hərbi işə böyük məhəbbəti olan zabitin yeri akademiyadır.

- Mən də bu fikirdəyəm. Ancaq hanı hərbi akademiya? Rusiyaya yollar bağlı, özümüzdə isə yox, ölkəmiz də müharibə vəziyyətində, - deyən nazir yenidən Bəhram bəyin sənədlərinə göz gəzdirdikcə baxışları canlanır, üzündə sevinc görünürdü:

- Qafqaz Əlahiddə ordusundakı iyirminci Artilleriya briqadasında podporuçik, 1909-cu ildə üçüncü batareyanın komandiri, sonra Əlahiddə Qafqaz ordusunda artilleriya rəisinin müavini vəzifsində çalışıb. Müharibəni axıra qədər Qafqaz cəbhəsində keçirib.

Təltiflərini axtarırsınız? O biri səhifənin arxasındadır - deyə Əliağa Şıxlinski şəhadət barınağını irəli uzadıb göstərdi.

- Aha, budur, - deyə Mehmandarovun iti nəzərləri kağızın üzərində gəzindi. “Müqqədəs Stanislav” ordeninin üçüncü dərəcəsi və “Müqəddəs Anna” ordeni[10]. Amma sonuncunun dərəcəsi göstərilməyib. Eybi yoxdur, hər şey aydındır. Siz doğru buyurursunuz, Əliağa. Belə peşəkar zabitlərimiz çoxdur. Onlar akademik hərbi təhsil ala bilsəydilər, ordumuzun gücü birəbeş artardı. Çifayda hələlik buna imkan, şərait yoxdur.

## POLKOVNİK BƏHRAM BƏYİN İGİDLİYİ

Raportun son cümlələri nazir Mehmandarovda xüsusi maraq oyatınışdı. General Həbib bəy Səlimov yazırdı ki, Zati-Aliniz tərəfindən yaradılan şanlı qoşunlarımız köhnə, döyüşlərdə bərkimiş hissələrə məxsus şücaətlə vuruşurdular.

Döyüşün qəhrəmanları bunlar idi: şığıyaraq Daşkənd yüksəkliyini ələ keçirən qubanlar və bir neçə erməni basqınına baxmayaraq bir an da sarsılmayan və üzərinə düşən hər mərmiyə görə dərhal cavab atəşi açan podpolkvnik Bəhram bəy Nəbibəyovun dördüncü batareyası.

Yol boyu qələbənin havası ilə öz-özünə danışan ilk baxışdan qara-qabaq nazirin ürəyi işıqlı arzularla dolu idi. Oğlu qədər sevdiyi, istedadlı komandir Həbib bəy Səlimovun uğurları ona elə bil qanad vermişdi. Üstəlik də Həbib bəy kimi qoçaq generalın Nəbibəyovun haqqında göndərdiyi raport ona sonsuz sevinc bəxş eləmişdi.

İnişil (1918-ci il, dekabr 5-də) yenicə təşkil olunan Azərbaycan ordusunun hissələrinə baxış keçirən hərbiyyə naziri Səməd bəy Mehmandarov Tərtərdə yerləşən Dağ batareyasının əsgər və zabitlərindən tam razı qalmışdı. Nazir səkkiz saylı əmrində qeyd edirdi ki, yoxlanış zamanı batareya komandiri Bəhram bəy Nəbibəyovun əsgərləri məndə xoş təəscürat yaratdı. Hiss olunur ki, batareya komandiri zabitlərlə birlikdə qüsurları aradan qaldırmağı bacarır. Komandir Nəbibəyovun qısa müddətdə etdikləri mənə qəti inam verir ki, ən yaxın vaxtda bu batareyanı daha yüksək səviyyədə görəcəyəm. Onun azsaylı zabitlərinə və komandir Nəbibəyova yorulmaz zəhmətlərinə görə təşəkkür edirəm.

Demək? Həbib bəyin raportundan belə məlum olur ki, Dəli Qazarın dəstəsini bizim Dəli Bəhram bəy Nəbibəyovun batareyası mühasirəyə salıb məhv edib. - Yaxşıdır, çox yaxşıdır, - deyə öz-özünə danışan nazir podpolkovniklə generalın döyüş dostluğundan qürrələnirdi. - Qələbə, ancaq və ancaq döyüş vaxtı əmr verənlə icraçının bir-birini başa düşməsi sayəsində qazanılır. Nə yaxşı, Nəbibəyov haqqında inişilki raportu yazanda zəndim məni aldatmayıb... Elə biri Baş qərargah rəisi, onda dolayısı da olsa mənə işarə verdi ki, Bəhram bəy yaxşı komandirdir. Amma çox çılğındır, bəzi məsələlərdə özünü cilovlaya bilmir...

- Komandir cəld və çılğın olmasa əvvəla əsgərlər onu saymaz. İkincisi də, döyüş vaxtı özü zorla yeriyən komandirin əsgərləri yerindən qalxana kimi düşmən onları haxlayıb məhv edər, - nazir Mehmandarov cavabını vermişdi.

---

[10] Polkovnik Bəhram bəy Qasım bəy oğlu Nəbibəyovun 1916-cı ilə qədər “Hərbi xidməti siyahsı”nın surətini 1999-cu ildə Rusiya Dövlət hərbi Tarixi Arxivindən nəvəsi Bəhram Aslan oğlu Sultanov gətirib – Ş. N.

Mehmandarov Milli Orduda Hərbiyyə Naziri vəzifəsində xidmətdə olandan ilk dəfə idi ki, təzə mundirini geyinmişdi. Təmtəraqlı geyimin o qədər də aludəsi olmayan nazir bu dəfə akselbant və venzili[11] də taxmışdı. Yaxasında isə bircə orden vardı: Birinci Cahan savaşında hər sərkərdənin ala bilmədiyi "Ağ qartal" ordeni... O, 1915-ci ildə alman generalı Makenzenin sürətli döyüş əməliyyatı planlarını puça çıxartdığına görə bu ali ordenlə təltif olunmuşdu.

## QƏHRƏMAN ALAY

Avtomobilin şeypuru təhlükə görmüş qaz kimi həyəcanlı gəlirdi. Qışlanın qabağında toplaşmış zabit və əsgərlər naziri tanıyıb "urra"- deyə qışqırdılar. Bəhram bəy irəli yeridi. Sərt səslə "sıraya düzülün" komandası verdi. Zabitlər qabaqda, əsgərlər də onlardan sonra nizami qıvraqlıqla sıraya düzüldülər. Bəhram bəy sıra qabağında vüqarla dayanıb ahəngdar səslə komanda verdi:

- Alay, sağa dön! Düzlən, düzlən, deyirəm, arxada səs var...

Alay bir nəfər vicud kimi sağa dönüb farağat dayandı. Maşından üç nəfər düşdü. Qarabağın genarl-qubernatoru Xosrov bəy Sultanov, Qarabağ ərazi qoşunlarının komandanı general-mayor Həbib bəy Səlimov və Hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov. Nazirin iti qartal baxışları nizami qaydada düzülən əsgərlərə zillənmişdi.

- Cənab hərbiyyə naziri, tam artilleriya generalı, Sizin gəlişiniz münasibətilə döyüşən ordunun üçüncü artilleriya batareyasının zabit və əsgər heyəti sıraya düzülmüşdür. Batareya komandiri, podpolkovnik Bəhram bəy Nəbibəyov.

Nazir Səməd bəy Mehmandarov gur və məğrur səslə:

- Azad, mənim Vətənimin qəhrəman əsgərləri, - deyib bir neçə addım irəli yeridi, Bəhram bəyin əlini sıxdı: - Mərhəba, alayına da, özünə də. Sizin döyüşdə göstərdiyiniz qeyriadi qəhrəmanlıqlar artıq Azərbaycanın hər yerində iftixarla söylənilir. Komandanınız general Həbib bəy Səlimov da buradadır. Əmr edirəm!

Üçüncü artilleriya batareyasının hər bir əsgər və zabit heyəti döyüşdə göstərdiyi igidliyə görə təltif olunsun. Komandiriniz Bəhram bəyi isə təbrik edə bilərsiniz. O, daha podpolkovnik yox, polkovnikdir...

Batareya üç dəfə: "urra, urra, urra", - deyə komandirini alqışladı. Nazir birdən sərt hərəkətlə yerində dikəlib, pəncələri üstə qalxdı.

- Mərhəba, yenə mərhəba, mənim Vətənimin xilaskarları!

Batareyanın əsgər və zabitlərindən dalğa-dalğa çıxan səs Qarabağ dağlarında əks-səda verdi. Onlar bir nəfər kimi avazla: "Azərbaycan xalqına xidmət edirik!" - cavabını verdilər.

Hərbiyyə naziri sıra qarşısında vargəl edib, tən ortada dayandı.

- Biz bu gün səhər Şuşada bir yığıncaq keçirdik. Mən orda da qoşunlarımızı təbrik etdım. Əvvəlcədən əmr vermişdim ki, sizin batareyanı oraya gətirməsinlər. Sonra Bakıdan çıxanda öz-özlüyümdə belə qərara gəldim ki, Sizi öz yerinizdə, döyüş bölgənizdə təbrik edim. Siz buna layiqsiniz, bu hörmət və ehtiramı

[11] Akselbant, venzel – imperiya ordusunda zabitlərin çiyinlərinə və döyüşlərinə taxdıqları zərli, hörmə qaytan – Ş. N.

qəhrəmanlığınızla qazanmısınız. Bəli, Dəli Qazar kimi generalı məhv edib, süvarisini də pərən-pərən salan üçüncü artilleriya batareyası Azərbaycan bayrağını ilk dəfə Qarabağda dalğalandırırdı. Martın iyirmi ikisindən iyirmi üçünə keçən gecə saat üç radələrində düşmən ilk dəfə güclü qüvvə ilə buradan, Əskərandan baş qaldırıb.

Bizim əlli nəfər əsgərimizin bir neçəsini məhv edib və əsir alıb.

Siz də ilk dəfə düşmənin burnunu Əskəranda ovub, öz silahdaşlarınızın qanını yerdə qoymadınız.

Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə oldum. Fəqət sizin qədər qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu layiqincə müdafiə etdiniz. Eşq olsun sizə və sizə döşlərindən süd verən analara!

Əsgərlər sevimli komandanlarını "Yaşasın Azərbaycan!" sözlərilə alqışladılar.

Urəyini boşaldan nazir xeyli sakitləşdi. O, özünü rahat və gümrah hiss edirdi. Sıradakı əsgər və zabitlərə yaxınlaşır, həmsöhbət olur və haləhval tuturdu. Mehmandarov cavan, sirsifətdən göyçək zabiti göstərib nəsə soruşdu. General Həbib bəyin işarəsilə həmin zabit nizami addımlarla qabağa çıxıb dedi:

- Möhtərəm Səməd paşa, mən Qafqaz İslam ordusundan könüllü olaraq Sizdə yardımçı qaldım. Çünki dilimiz bir, inancımız bir, tariximiz də birdir. Azərbaycan həm sizin, həm də bizim Vətəndir.

- İsminiz nədir? - nazir maraqla soruşdu.

- Əfv edin, günahkar bəndəyəm, unutdum, daha doğrusu, şaşırdım. İsmim: yarbay İsmayıl Həqqi əfəndidir.

General Həbib bəy Səlimov nazirə bir az yaxınlaşıb əlavə etdi:

- Cənab nazir, yarbay əfəndi yaxşı şərqilər qoşur. Döyüşlərarası fasilədə əsgərlər üçün tarixdən, ədəbiyyatdan, fəlsəfədən maraqlı söhbətlər eləyir. Hər gün də yarım saat özü yazdığı marşları əzbərlədir.

Nazir səmimiyyətlə:

- Afərin, - dedi, - bu da gərəkdir, çox gərəkdir. Yüz illik rus hakimiyyətindən azad olunmuş türk xalqlarına xatırlatmaq lazımdır ki, biz həmişə boyunduruq altında olmamışıq. Hətta, Avropa və Asiyaya öz tələblərimizi diktə etmişik. Xalq özünün ümumdünya tarixinin səhifələrində yazılmış şanlı, mübariz keçmişini bilməlidir. Əgər düşmənə qalib gəlmək istəyirsənsə, xalqda sağlam milli hissləri oyatmalısan. Cənab yarbay, evlisinizmi?

- Xeyr, hələ subayam.

- Nə oldu, briqada komandanı Həbib bəy - subay, diviziya komandiri Cavad bəy - subay, batareya komandiri Bəhram bəy -subay, siz də subay... Canım, atın bu subaylığın daşını.

İsmayıl Həqqi əfəndi:

- Möhtərəm paşam, - dedi - məstəvsiz gavurların axırına çıxaq, sonrasına...

Nazir general Həbib bəydən soruşdu:

- Yarbay İsmayıl Həqqi əfəndi harada yaşayır, Bakıda?

- Xeyir, cənab nazir, Şəkini özünə vətən kimi qəbul edib. Bu da, bilirsiniz, kimə görədir? O, Bəhram bəyin çox yaxın dostudur.

- Çox əla, çox pakizə, - deyib nazir dübarə sorğu-suala başladı:

- Yarbay İsmayıl Həqqi əfəndi, cəlallı İstambul üçün darıxmırsınız ki?

- Xeyir, mən öz Vətənim Azərbaycandayam, Mən Qeysər şəhərində dünyaya gəldim. İstambulda az, lap az yaşamışam. Qafqazda çox yerlərdə oldum. Dərbənddə, Teymurxan-Şurada, Axtıda, Hətta, İmam Şamilin köyünə də getdim. Amma oralarda bənd alardım. Çünki oralarda Islama, müqəddəs dinimizə, hörmət görmədim, orda şişpapaq bolşeviklər yabançı təbliğatlar aparırlar. Ötən il dostum Bəhram bəy məni Şəkiyə qonaq apardı. Şəkini Vətən kimi, Bəhram bəyi qardaş qədər sevdim, yenə sevəcəm. Oradan ev də aldım. Nazir soruşdu:

- Şarkılardan birin oxuyarmısan?

- Baş üstə, icazə verin. Mən oxuyan kimi bütün batareya mənə qoşulacaq.

**Biz əsgəriz - azəriyiz,**
**Aləmdə ürfanlıyız ,**
**Uca Qafqaz vətənimiz,**
**Qan axıdar məc fərimiz,**
**Pək şanlıyız!**
**Ata-ana əkbərimiz,**
**Allah, Allah rəhbərimiz,**
**Yaşa, yaşa xəncərimiz**
**Pək şanlıyız!**
**Düşmənləri qəhr edəriz,**
**Ordusunu məhv edəriz.**
**Aslan kibi cəng edəriz.**
**Biz bir tabur aslanlarız.**
**Mərdanlarız!**

## DÜŞMƏN TƏSLİM OLMAYAJNDA...

Mehmandarovun gəlişinə yığışanlar çəkilib getdilər. Otaqda nazirdən başqa üç nəfər qalmışdı: qubernator Xosrov bəy Sultanov, general Həbib bəy Səlimov və polkovnik Bəhram bəy Nəbibəyov. Nazir qonaq üçün ayrılmış otağın bürkülü havasından darıxdı. Üzrxahlıq edib yan otağa keçdi. Bir azdan ev qiyafəsində qayıdıb:

- Qafqazda, hər yer gözəldir! - dedi - Amma mənim Vətənim, dədə-baba torpağım Qarabağın füsunkar təbiətinin tayıbərabəri yoxdur. Əlli ilə yaxın ondan cismən ayrılsam da ruhən həmişə Qarabağlı olmuşam. Uzaq Şərqdə, Port-Arturda və Varşavada da olanda həmişə onu xatırlayıb, istəmişəm. Ən böyük arzum istefaya çıxıb ömrümün axırına kimi Şuşada yaşamaq olub. Atam rəhmətlik bu şəhəri övladı qədər sevərdi.

Sonra üzünü qubernator Xosrov bəyə tutub dedi: - Sənə qibtə eləyirəm qardaşım. Bilirəm ki, bu namərd daşnakların öhdəsindən Qarabağ general-

qubernatoru kimi bircə sən gələ bilirsən. Çünki sən, üzünə demək olmasın, hünər, əməl, iş adamısan. Nəsə, bu təhlükədən də sovuşduq...

Mehmandarov bu tərifləri Xosrov bəy haqqında nahaq yerə demirdi. Ötən ilin yayında Qarabağda hay-küy qaldıran daşnakları yenə Xosrov bəy dizə çökdürınüş və onları silah gücünə Azərbaycan hökumətini tanımağa məcbur etmişdi. Hətta Şuşadakı gizli daşnak komitəsinin üzvlərini qovub ərazidən çıxartmışdı. Əllərindən bir iş gəlməyən daşnaklar bolşevik əhval-ruhiyyəli müsəlmanların köməyilə səs yaymışdılar ki, Hərbiyyə naziri Xosrov bəyi geri çağıracaq. Bu şayələri kəsmək üçün Uzeyir bəy Hacıbəyov "Azərbaycan" qəzetində (24 iyun 1919 il) yazırdı:

"Həqiqətən, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatma tamamilə aşna olan hu zat sağlam bir vücüdə malik olan kimi sağlam və salamat politika yeridən və təht idarəsinə tapsırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında höyük və layiqli bir nüfuza malik olan və erməni cəmaəti tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital ocağı olmuşdu".

Dəmir çarpayıda mütəkkəyə dirsəklənən nazir astadan yorğun-yorğun danışırdı. Onun səsindəki yaşlı adamlara məxsus kövrəklik həmsöhbətlərinin diqqətindən yayınmamışdı.

- Altınış dörd yaşım var, - deyirdi general, xoşbəxtəm ki, ömrümün sonunda bir əsgər kimi vətənimə gərək oldum. Sonra birdən nəyisə xatırlamış kimi oldu. - Balam, elə təkcə mən danışıram. Bəs siz? Mən Bakıdan sizi eşitməyə gəlmişəm. Bayaq Əskərandan qayıdanda Həbib bəydən soruşdum ki, Dəli Qazar əməliyyatı necə olub, təfsilatı ilə bir danış görüm. O da cavab verdi ki, həmin əməliyyatı polkovnik Bəhram bəy aparıb, o da Sizə danışacaq. Hə, Bəhram bəy eşidirik səni.

Ayaq üstə dayanan Bəhram bəy gözləmədiyi sualdan qıpqırmızı oldu.

Nazir:

Danış, - dedi, bura çəkinməyin yeri deyil. Bu qələbənin, əgər belə demək mümkünsə, qəhrəmamam sənin batareyandır.

General Həbib bəy dostunun sıxıldığını görüb onun köməyinə gəldi.

- Daşbaşı yüksəkliyi uğrunda döyüşlərdə artilleriyanın susduran Bəhram bəy əvvəlcə məni hövsələdən çıxartmışdı. Yavərim tez-tez xatırladırdı ki, Bəhram bəy deyir tələsməsin. Dəli Qazarsa elə hey irəliləyirdi. Onu da deyim ki, Bəhram bəy batareyasını çox böyük məharətlə meşənin ətəyində gizlətmişdi. Sanki düşmən qarşısında heç nə yox idi. Dəli Qazarın süvari dəstəsi də inamla irəliləyirdi. Bəhram bəy susur, düşmən irəliləyir, dözmək olmur, az qala ürəyin partlayırdı. Nəhayət, dözməyib bunların mövqeyinə gəldim. Mənə işarə verdi ki, narahat olmayın. Kəşfiyyat xəbər gətirib ki, ermənilərin toplarının əksəriyyəti sıradan çıxıb, atınır.

Biclik eləyib yararsız topları da özlərilə gətirirlər. Necə deyərlər, bizə "xox" gəlirlər. Təxminən səkkiz-on dəqiqə keçdi. Bax, indi vaxtdır, - deyib, Bəhram bəy

var səs ilə komanda verdi: "İrəli, mənim tərlanlarım, irəli, anamız Azərbaycan uğrunda!"

Döyüşə bir qasırğa kimi başlayan batareya güllə yağışı altında düşmən üstünə şığıdı. Heç yarım saat çəkmədi erməni süvarisi yavaş-yavaş geri çəkilməyə məcbur oldu. Quba batalyonunun bir rotası və Zaqatala alayının xeyli hissəsi düşmənə yandan və arxadan göz açmağa imkan vermədi. - Dəli Qazarın süvarilərindən otuz-otuz beş adam ancaq qaçıb canım qurtara bildi. Ortada beş-altı nəfərlə sağ qalmış Dəli Qazar yaralı heyvan kimi bağırırdı. Bəhram bəyin səsini eşidib daha da qəzəbləndi.

Nazir maraqlandı:

- Necə, danşırdılar, yəqin ki, rusca?..

- Yox, əksər sözləri Bəhram bəy o itin öz dilində deyirdi. Düzü çoxunu başa düşə bilmirdim. Bir onu görürdüm ki, insanın tələyə düşməsi necə də böyük fəlakət imiş. Eşitmişdim ki, suda boğulan saman çöpünə əl atar. Bax, elə bir vəziyyətdə idi erməni generalı.

Nazir cəld bir hərəkətlə başını qaldırıb:

- Axı, nə deyirdin Bəhram bəy, sən ona?..

- Kutaisi realni məktəbində oxuyanda onların dilini öyrənmişdim. Əvvala, mən ona təklif elədim ki, təslim olsun, uşaqlara da tapşırdım ki, hələ atmayın, onu diri tutmaq istəyirəm. Gördüm ipə-sapa yatınır, yalandan dedim ki, zavvalı, sənin əsgərlərinə əvvəlcədən danışıb səni satın almışam. Səni özününkülər satıb. Təslim olmalısan...

General Həbib bəy Səlimov:

- Cənab nazir, eynilə bir teatr səhnəsi... Nazir:

- Dayan, dayan, Həbib bəy, qoy özü danışsın. Bəhram bəy davam elədi:

- Dedim, təslim olmursansa onda belə çıxır ki, özünü müsəlman əsgərinin gülləsilə ölməyə məhkum eləmisən.

- Gözəl demisən, əhsən sənə. Bax, görürsünüzmü peşəkar hərbçi olmaq budur. Bu əclafin döyüş ruhu varmış, qəsbkarlıq iştahı da varmış, amma döyüş qabiliyyəti yoxmuş. Yalançı general olduğunu dar macalda biruzə verib. Heç bir xidməti olmadan aldığı general rütbəsi onu iştahlandırıb ölümə gətirib. Belə adamdan yalnız döyüşçü kimi istifadə etmək olardı. Hə, maraqlıdır, sonra nə oldu?

Bəhram bəy:

- Dəli Qazar yalvarırdı ki, icazə verin çıxıb gedim. Dilcanda, bir də Qarabağda görünsəm, atama nəhlət. Uşaq aldadır. Gəldim Həbib bəyin yanına. Soruşdum ki, nə etməliyəm, əsgərlərim də qana susayıblar, öldürınək istəyirlər. O da yek kəlmə ilə cavab verdi:

Susdurun! Biz də tapşırığı əməl elədik.

Səməd bəy Mehmandarov:

- Düz eləmisiniz - dedi,- düşmən təslim olmadıqda onu məhv edərlər.

## GENERAL SƏMƏD BƏY NARAHATDIR...

Qapı astadan döyüldü Səməd bəy: "buyurun" deyənə kimi qapıya yaxın olan polkovnik Bəhram bəy irəli yeridi. Qapıda mehriban üzlü, qıvraq geyimli bir gənc

zabit "çay hazırdır, icazə verin gətirim", - deyib əli padnoslu içəri keçdi. Divara söykəndilmiş çox da böyük olmayan stolu nazirin çarpayısına yaxınlaşdırdı. Səməd bəy mütəkkəni kənara qoyub, çarpayıda oturdu. Çay gətirən gənc zabit dərhal dabansız ev ayaqqabılarını cütləiyb onun ayaqlarının yanına qoydu. Səməd bəy mehribanlıqla zirək zabitə baxıb ürəyində "afərin" - dedi. Üzü pörtmüş gənc zabit stəkanlara çay süzüb, stolun qırağındakı çayrııkin üstünə qalın dəsmal tutdu. "İcazə verin mürəxxəs olum". Nazir hələ də xoş təbəssümlə onun hərəkətlərini izləyirdi. General Həbib bəy:

- Azadsan, - dedi. Amma uzaq getmə...

Gənc zabit çıxan kimi Səməd bəy onun davranışını, səliqəli geyimini və əsl zabit yaraşığını təriflədi:

- Bəzi rus şovinistləri təkidlə deyirlər ki, siz müsəlmanlardan hərbçi olmaz. Buyursun, baxsın, belə yaraşıqlı zabiti rus ordusunda çıraqla da axtarsan tapmazsan. İlyarımlıq fəaliyyəti dövründə ordumuzda qabiliyyətli zabit yetişibsə, rus ordusu kimi üç yüz il yaşı olsaydı gör nələrə qadir olardıq.

O dərindon köks ötürdü:

- Qoyurlar ki. Yağlı tikə olan Azərbaycana hərə bir cayrıaq atır. Denikin rədd olub getdi. İndi də bu bic bolşeviklər cənuba qoşun yeritmək həsrətilə minbir oyundan çıxarırlar. Dağıstanda, Şimali Qafqazda kazaklarla dağlıların arasına təfriqə salıb toqquşdururlar. Bu, "ayır-buyur" siyasətinin ən bariz nümunəsidir.

- Səməd bəy, Sizcə Denikin yenidən Qafqazda peyda ola bilərmi? - qubernator Xosrov bəy Sultanov çəp gözlərilə[12] Səməd bəyə baxıb soruşdu.

- Yox, heç vaxt! Bolşeviklər artıq onun mahnısını oxudular... Denikinin işi bitdi. - Üzündə təbəssüm yox olan Səməd bəy sonra nifrət hissiylə əlavə elədi: Bolşeviklər elə toxumdur ki, onlar hara yerisələr orda yüz il ot bitməz. Bu saat Volqa boyunda və Sibirdə vətəndaş müharibəsi aparan Kolçak cənablarını da belə bir tale gözləyir.

- Əsir aldığımız ermənilər deyirlər ki, sizə qarşı ağqvardiyaçı Denikinlə birləşmək istədik, baş tutmadı - polkovnik Bəhram bəy Nəbibəyov söhbətə qoşuldu. - Gec-tez bolşeviklərlə əlbir olub Azərbaycan adlı müstəqil respublikaya divan tutacağıq. Keşişkənd uğrunda qanlı döyüşlər gedəndə ermənilərin çoxusu sərxoş idi. Podpolkovnik Rəfibəyovun və polkovnik Levestamın əsir götürdüyü ermənilər də bu barədə çox sayaqladılar.

Səməd bəy Mehmandarov:

- Bolşeviklər Bakıda yaşayıb işləyən rus fəhlələri və müsəlman bolşevikləri arasında güclü təbliğat aparıb Azərbaycan milli hökumətinə və bu hökuməti istəyənlərdə nifrət hissi yaratmağa çalışırlar. Bu gün də içimizdən təmizləyə bilmədiyimiz agent və şpionların sayəsində. Bir həftə əvvəl Gəncədə agent Smıslovun təxribatçı qrupunu həbs etdik. Bu dəstədə kimlər vardı? Bakıda Baş Qərargahda çalışan, adını çəkmək istəmirəm - bir nəfərin zövcəsi Nelli Çernışova, Stanislav Zuber və başqaları. Hamısı bizim əleyhimizə işləyib. Görünür, bizim əks-kəşfiyyat və daxili orqanlar zəif fəaliyyət göstərir, mürgüləyirlər...

---

[12] 1917-ci ildə Bakıda məhşur bir ağanın qoçusu ilə mübahisədən sonra bir-birinə güllə atıblar. Qoçu Xosrov bəy Sultanova sol gözündən xətər yetirib. Bundan sonra gözü çəp qalıb – Ş.N.

Mənim aldığım məlumata görə bolşeviklər Ermənistanda başqa cür təbliğat aparır. Onlar ermənilərə canıyananlıqla bildiriblər ki, Siz nə Azərbaycansınız, nə də Gürcüstan. Siz İran, Türkiyə və Azərbaycan kimi müsəlman ölkələri arasında boğulursunuz. Biz Sizə Türkiyə və Azərbaycandan torpaq qopartmaqla ərazinizi böyüdüb tam dövlət müstəqiliyinizə zəmanət veririk. Görürsünüzmü, bolşeviklər özlərinin ikiüzlü, xəbis siyasətlərilə Şimali Qafqazı və Dağıstan dağlılarını fəth edib, indi də murdar əllərini bizə - cənuba tərəf uzadırlar.

General Həbib bəy Səlimov ikrah hissi ilə:

- Rusların bu ikiüzlü siyasəti bizi təngə gətirib - dedi. - Siz ötən həftə Gəncədə olanda müavininiz general Şıxlinskiyə ermənilərin Qarabağdan qovub çıxartmaqla arxayınlaşmamaq barəsində bir məlumat göndərmişdim. Yəqin ki, Sizə çatdırıb. Şuşa və Xankəndikdəki Cavanşir alayının, Quba alayının, bir də Tatar süvari alayının sayını artırmaq şərtilə qvardiyanın da sayını çoxaltınalıyıq.

Çünki, əsir alınan ermənilər desə də, deməsə də daşnaklar Qarabağ iştahı ilə yaşayırlar. Mənim zənnimə görə onlar mütləq bolşeviklərlə birləşib məhz Qarabağa hücum edəcəklər.

Yorğun və əsəbi Səməd bəy Mehmandarov:

- Məncə, - dedi - hələlik Şəki və Ərəş alaylarını da burada saxlamalıyıq. Polkovnik Seyfulla Qacarın alayını isə Qazağa göndərin. Ordan da həyəcanlı xəbərlər gəlir. Əmir xan Xoyskinin məlumatma görə ermənilər sərhəd kəndi Kəmərliyə və Tatlıya hücuma hazırlaşırlar.

Dostları gedəndən sonra Səməd bəy yata bilmədi. Yuxusu ərşə çəkilmiş nazir oturduğu yerdə xeyli fikrə getdi. Gərgin düşüncələr onu ağır məngənə kimi sıxırdı. Günorta üstü polkovnik Bayram bəyin batareyasında olan şən əhval-ruhiyyəsindən elə bil onu illər ayırınışdı. Dirsəyini mütəkkəyə söykədi, göz qapaqlarını yumdu ki, bəlkə yuxuya gedə, mümkün olmadı. Həyəcandan boynunun damarları, əlləri titrəyirdi. Durub pəncərənin qabağına gəldi. Aşağılarda, Ərimgəldi təpəsindəki evlərdə təkəmseyrək işıqlar yanırdı. Uzaqdan qəfil güllə səsi eşidildi. İtlər dərhal ağız-ağıza verib hürüşdülər. Səməd bəy pəncərəyə yanakı durub Mehmandarovların dədə-baba mülkünə baxmaq istədi. Heç nə görə bilmədi. Birdən xatırladı ki, o, tamara başqa səmtdədir. “Sabah mütləq ora gedəcəm”, - deyə fikirləşdi. “Mütləq, yoxsa atam Sadıq bəyin, babam qatırçı Muradın ruhu məndən inciyər. Ya qismət, bir də nə yaxt gələcəm, Şuşaya allah bilir”... Fikir-xəyal ona aman vermirdi. İllah ki, bolşeviklərin Azərbaycana soxulmaq iddiası. – Dünyanın işinə bax ki, Bakıda yaşayan rus fəhlələri özlərini şəhərin mütləq sahibi kimi aparırlar. Onların hamısına malçişka Əlheydər dil verir. Cəfər Babayev kimisini Qusara göndərib alayda bolşevik təbliğatı apartdırır. Kimin fitvası ilə? - Mikoyan kimi daşnakın. Niyə bolşeviklər bu millətə sərbəst, müstəqil yaşamağı günah hesab edir? Qayıdan kimi belələrini həbs elətdirib ciddi rejim altında saxlamaq barədə sərəncam verməliyəm. Yoxsa... Əlheydər kimi bolşeviklər rus fəhlələrini öyrətməklə, özümüzün bəzi nadanlarımızı da başdan çıxarır. Bu da fitilə od vurmaq kimi bir şeydir. Mübarizə aparmalıyıq. Kim gəlir gəlsin, qabağına silahla çıxmalıyıq. Döyüşməliyik, vəssalam!”

Orta boylu, ağ saçlı, ağ saqqallı, səsində və sifətində hərbçi zəhmi olan altınış dörd yaşlı general Səməd bəy Mehmandarov gecənin qaranlığında xalqının taleyini fikirləşməkdən yumağa dönmüşdü. Qəzəb və hiddət hissi onu boğurdu.

İki addımlıqdakı Köçərli məhəlləsində xoruzlar səs-səsə verdi. Bikef nazir gözucu stolun üstündəki zəncirli saatma baxdı. Gözlərinə inanmadı, pensnesini taxıb təəccüblə dodaqlarını bir-birinə sıxdı. Saat dördə on dəqiqə qalırdı. Canı ağrıyan, narahat Səməd bəy çarpayısına tərəf getdi…

## 30-cu İL ŞƏKİ ÜSYANI

### (Polkovnik Bəhram bəy Nəbibəyovun ömür yolundan səhifələr)

Sovet çekistlərinin dili ilə desək, "Nuxa-Zaqatala banditizm üsyanı" məni çoxdan düşündürürdü. Düşünürdüm ki necə ola bilər ki, səkkiz rayonun əhalisi ayağa qalxıb hakimiyyətə qarşı üsyan etsin, sonra da onlar "bandit" adlandırılsınlar. Qəribədir ki, 1920-ci il aprel çevrilişdən əvvəl həmin ərazilərdə çar hökumətinə qarşı olmuş üsyanlara görə sovet hökuməti özünün tarix kitablarında xalqa haqq qazandırır və çar üsuli-darəsini tənqid edir. Bu mənada 1806-cı ildə Aşağı Göynük kəndlərində, 1830-cu ildə Car Balakəndə, 1838-ci ilin avqustunda Şəkidə Məşədi Məmmədin başçılığı ilə, 1863-cü ildə Hacı Murtuzun başçılığı ilə Zaqatalada olan üsyanlarda xalqa bəraət qazandırılır. Amma yüz il sonra sovetlər quruluşunda ac-yalavac saxlanan xalq üsyana qalxıb haqqını tələb etdiyinə görə səkkiz rayonun əhalisinə "bandit" damğası vurulur?

Mən bir neçə ildir ki, vaxt tapdıqca Şəki üsyanını arxiv sənədləri əsasında öyrənirdim. Respublika Mərkəzi Dövlət və Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədləri ilə "silahlanıb", ötən ilin oktyabr ayında Şəkiyə, yerli ağsaqqal və ağbirçəklərlə görüşə getdim. Balakən, Qax, Şəki, Zaqatalanın kəndlərini gəzib çox qiymətli fotoşəkillər, sənədlər və xatirələr topladım.

Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədlərinə əsasən "Nuxa - Zaqatala banditizm üsyanı"nın başçısı üç nəfər olmuşdur: Baş Şabalıdlı Molla Mustafa Şeyxzadə, Şəki rayon hərbi komissarı polkovnik Bəhram bəy Nəbibəyov və qaxlı Sadıq bəy Balacayev.

Üsyan məğlub olandan sonra istintaq Molla Mustafa Şeyxzadəyə 1933-cü il avqustun 10-da güllələnmə kəsmiş, lakin hökm icra olunmamışdır. Sənədlər göstərir ki, 1934-37-ci illərdə o, Solovetsk adalarından və sonralar Bakı türməsindən ailəsinə məktub yazmışdır. Molla Mustafa Şeyxzadənin əllinci illərdə də sağ olmasını sübut edən ikinci dəlil 1956-cı ilin yazında Mir Cəfər Bağırovun məhkəməsində şahid kimi dindirilən, həmin ərazidə müvəkkil işləyən Hacı Məmməd Padarovun məhkəmədə verdiyi ifadədir.

1956-cı ildə M.C.Bağırovun məhkəməsində dindirilən şahid Hacı Məmməd Padarov demişdir:

- Azərbaycan SSR DTN istintaq şöbəsinin rəisi işlədiyim dövrdə vətəndaşların Bağırov və Yemelyanovun göstərişi ilə çoxlu miqdarda qeyri-qanuni həbsə alınmasının şahidi olmuşam.

Mənə məlum olan cinayət faktına diqqət yetirməyi zəruri sayıram. 1930-cu ildə Nuxa - Zaqatala zonasının səkkiz rayonunda silahlı əksinqilabi üsyan baş verdi. Həmin üsyanın təşkilatçısı və başçışı ruhani ailəsindən çıxmış nuxalı molla Mustafa Şeyxzadə idi. Üsyan yatırılandan sonra üsyanın iştirakçılarına qarşı hərbi çekist əməliyyatı aparıldı. Fövqəladə üçlüyün başçısı Sumbatov-Topuridze idi. Həmin vaxt yuzlərlə adam həbs edildi, güllələndi və sürgünə göndərildi. Lakin mənə məlum olmayan səbəbdən üsyanın təşkilatçısı Şeyxzadə Molla Mustafa həbs olunmadı.

1932-ci ilin fevralında Azərbaycan Baş Siyasi İdarəsinin Balakən rayonu üzrə müvəkkili işlədiyim zaman öyrəndim ki, Şeyxzadə Molla Mustafa Tiflisdədir. Türkiyəyə keçməyə hazırlaşır. Mən Tiflisə getdim. Şeyxzadəni Borçalının Qızıl Hacılı kəndində tapdım. Həbs edib Bakıya gətirdim. O vaxtlar məlum idi ki, Şeyxzadənin ingilis və türk kəşfiyyatı ilə əlaqəsi var, üsyanı da onların tapşırığı ilə təşkil edib. Molla Mustafa Şeyxzadə çox təhlükəli cinayətkar idi və Sovet hökumətinə qarşı törətdiyi cinayətlər üçün güllələnməli idi. Mən Şeyxzadəni Bakıya gətirəndən sonra Baş Siyasi İdarəyə təhvil verdim və bu barədə Sumbatova məlumat verdim. Molla Mustafa Şeyxzadənin işini Baş Siyasi İdarənin müstəntiqi Zeynal Əliyevə tapşırdılar. Mən elə güman etdim ki, Şeyxzadə güllələnib. Ancaq 1937-ci ildə öyrəndim ki, Şeyxzadə sağ-salamatdır, qohum-əqrəbası ilə məktublaşır. Mən heyrətə gəldim ki, üsyanın sıravi iştirakçıları (onların arasında elələri var ki, Şeyxzadə başlarını aldadıb üsyana qoşmuşdu) Sumbatovun əmrilə güllələnib, üsyanın başçısı, casus isə sağ qalıb. Mən bu barədə Sumbatovla danışdım. O da özünü elə göstərdi ki, guya Molla Mustafa Şeyxzadənin yüngül cəza ilə yaxa qurtarması onu da hiddətlənir və söz verdi ki, Şeyxzadənin işinə yenidən baxmaq üçün tədbir görəcək. Əslində isə Sumbatov bu söhbəti gözdən pərdə asmaq üçün edirdi, çünki Şeyxzadə hal-hazırda sağ-salamatdır. Onun harada yaşadığı mənə məlum deyil, ancaq onu bilirəm ki, Nuxada yaşayan ailəsi ondan məktub alır (M.C.Bağırovun məhkəməsi, iş № 0043).

Padarov öz ifadəsində Molla Mustafa Şeyxzadənin ingilis kəşfiyyatı ilə əlaqəsi olduğunu bildirir. Bu, tamamilə yalan faktdır. Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədləri bunu tamamilə inkar edir. O ki, qaldı Molla Mustafa Şeyxzadənin “türk kəşfiyyatı” ilə əlaqəsinə, bu, həqiqətən olub. Sənədlərdən və həbs olunan üsyançıların istintaq ifadəsindən məlum olur ki, Molla Mustafa türk “Istihad”çıları və Tiflisdə yerləşən “Türkiyə komissiyası” ilə tez-tez görüşərmiş. Üsyanın da ideya rəhbərliyi Tiflisdə və Şəkidə gizli fəaliyyətdə olan “İttihadi-Tərəqqi” partiyası olub. Həmin partiyanın başçısı türk İsmayıl Həqqi idi.

Tala kənd sakini Süleyman Süleymanov 1921-ci ildən AzK(b)P üzvü idi. O, bu il (1930-cu il) aprelin 6-da Tiflisdəki gizli “Türkiyə komissiyası” təşkilatına belə bir ərizə ilə müraciət etmişdir:

“Ərizəmlə bildirirəm ki, mən 1921-ci ildən Kommunist partiyasının üzvü olmuşam. Təəssüf ki, Kommunist partiyasmın mahiyyətini başa düşməmişəm. İndi isə görürəm ki, bu partiya həqiqətin və inamın düşmənidir. Mən Allahın varlığını danan kompartiyanın fikri ilə razı deyiləm. Söz verirəm ki, sovet hökumətinin əleyhinə işləyəcəm və İslamın təntənəsi üçün var qüvvəmlə çalışacam. Bütün

varliğımla söz verirəm ki, Türkiyə hökumətinin varlığı və şərəfi uğrunda çalışacağam".

Həmin vaxtlarda səs yayılmışdı ki, Qabaqçöl kəndində yeddi min türk əsgəri gəlib, onlar meşədə saxlanılır, üsyanın başlanmasını gözləyirlər. Yalamada isə səkkiz min nəfərdir. Atatürk artıq Bakını alıb, özü də ordadır.

"Xalqlara Azadlıq Partiyası"nın "xalqçılar fraksiyası" Baş Göynükdə yerləşirdi. Onun sədri Molla Mustafa Şeyxzadə idi. Fraksiyanın 450-dən çox üzvü vardı.

Üsyan aprelin 12-nə planlaşdırılıb, lakin baş tutmayıb, 13-də başlayıblar.

Aprelin 11-də Baş Göynüklü Eyvaz kişinin evində silahlı üsyan haqqında son yığıncaq olub. Burada M.M.Şeyxzadə, üç nəfər Göynüklü qaçaq, iki ləzgi, iki erməni, Həmid Maşiyev və başqaları iştirak ediblər (həbs olunan və güllələnənlər arasında ermənilər yoxdu, görünür, CK işçisi olublar).

**Molla Mustafa Şeyxzadə deyib:** "Sovet hökuməti devrilməlidir. Üç aydır ki, mən hazırlıq işi aparıram. Türkiyənin Batumdakı konsulu razılıq verib ki, may ayında türk ordusu Azərbaycanı alacaq". Sonra Şeyx atasının məzarına and içib ki, sözlərimə məsuliyyət daşıyıram, aldığım məlumat dəqiqdir.

Kompartiya üzvü Maşiyev Həmid: "Bu günə qədər kor və kar olub, bolşeviklərə inanmışam. Dini və böyük Allahı inkar eləmişəm. İndi peşmanam, söz verirəm ki, bu gündən üsyançılara əlimdən gələn köməyi edəcəm. Millət və İslam dini uğrunda bolşeviklərə qarşı son nəfəsimə qədər vuruşacağam".

* * *

Qax rayonu ərazisində üsyanın başçısı olan Sadıq bəy Balacayev isə 1930-cu il iyulun 16-da həbs olunub güllələnmişdir.

Üsyanın üçüncü - əsas başçısı polkovnik Bəhram bəy Nəbibəyov isə Bideyiz kəndinin yanındakı Buxdur dağında ÇK-nın qoşunları ilə ölüm-dirim döyüşlərində 1930-cu ilin iyul ayında həlak olmuşdur. Arxiv sənədləri və ayrı-ayrı ağsaqqallar şahidlik edir ki, üsyan heç də sovetlərin dediyi kimi "banditizm" üsyanı deyildi. Bundan əvvəl də Baş Göynük kəndində, Şəkidə və Azərbaycanın hər yerində şura hökumətinin ağır rejiminə qarşı üsyanlar olub. 1920-ci ilin mayından Qarabağda, Qazaxda, Zaqatala və Qubada Azərbaycan xalqı üsyankar səsini qaldırmışdı. 1924-cü il aprelin 3-də Tifhsdə olan Äzərbaycan xalq komissarlığı sovetinin sədr müavini Mir Cəfər Bağırov "Zarya Vostoka" qəzetinə verdiyi müsahibəsində demişdi:

- Cinayətkar dəstələr üç ildən çox gənc sovet respublikamızın quruculuğuna mane olurdular. 1920-ci ilin yazında Gəncədə, Zaqatalada, Qarabağda və başqa rayonlarda üsyan qaldırdılar. 1922-ci ilin may ayında belə cinayətkar dəstələrdən cəmisi 58-i qalmışdı. Onların ümumi sayı 310 nəfər idi. Lakin ÇK da mürgüləmirdi. 1924-cü ilin mart ayında Azərbaycanda çox da gücə malik olmayan cəmisi beş cinayətkar dəstə qaldı. Mənim Tiflisə gəlişimdən bir az əvvəl 17 nəfər cinayətkar bandit hökumətə təslim oldular. İndi respublika ərazisi cinayətkar dəstələrdən, həm də eser, müsavat, monarxist təşkilatlardan tamamilə

təmizlənmişdir. Hətta kəndlilər belə onlarda olan silahı könüllü olaraq təhvil verir və iqtisdiyyatın ikişafına kömək edirlər.

Sovet orqanlarına inanıb desək ki, din xadimi molla Mustafa Şeyxzadə və var-dövləti əldən çıxmış Sadıq bəy Balacayev üsyan qaldırıb xalqı yoldan çıxartmışlar.

Bəs onda üçüncü, əsas şəxs, Şəki rayon hərbi komissarı Bəhram bəy Nəbibəyovun üsyana başçılıq etməkdə, əgər belə demək mümkünsə, "cinayətkar dəstələrə" qoşulmaqda məqsədi nə idi? Axı Bəhram bəy hərtərəfli təmin olunmuş şəxs idi: vəzifə, rütbə və hər bir imkana malik bəy nəsilli hərbçi.

Azərbaycan Baş Siyasi İdarəsinin sədri Mir Cəfər Bağırovun və Nevernovun imzası ilə 1930-cu il mayın 12-də 66 səhifə makina yazısı həcmində Moskvaya göndərdiyi rəsmi hesabatda bu üsyanın səbəbi aydınlaşır. Oradan belə anlaşılır ki, yerli raykom və icrakom milis orqanlarının əməkdaşları, ümumiyyətlə, səlahiyyətli vəzifə sahibləri xalqa yeni qurulan kolxozun mahiyyətini düzgün başa sala bilməyiblər. Zaqatala - Nuxa ərazisində rüşvətxorluq, əhalini yerli-yersiz incitmək, səhərdən axşama kimi ağır zəhmətlə məşğul olan rəiyyətə qara qəpik də verməmək üsyanın alovlanmasına səbəb olmuşdur.

Xalqın bu ağır güzəranının görüb ürəyi yanan imkanlı Bəhram bəy Nəbibəyov üsyana məhz bu məqsədlə qoşulmuşdu.

Polkovnik Bəhram bəy Nəbibəyov özü də şəkili idi. O, 1884-cü il dekabrın 6-da bəy ailəsində anadan olmuşdur. Birinci Dünya müharibəsinin iştirakçısı olan Bəhram bəy Nəbibəyov 1918-20-ci illərdə məşhur sərkərdələrimiz Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovla milli ordu quruculuğumuzun təməl daşını qoyanlardandır.

İlk təhsilini Kutaisi realnı məktəbində alan Bəhram bəy 1904-cü il sentyabrın 2-də Peterburqdakı Konstantin artilleriya məktəbini birinci dərəcəli diplomla bitirmişdir. Həmin ildən Qafqazdakı iyirminci Artilleriya briqadasında podporuçik kimi xidmətə başlayan Bəhram bəy Nəbibəyov 1909-cu il sentyabrın 7-də poruçik, 1912-ci il avqustun 31-də ştabskapitan rütbəsinə layiq görülüb.

Bir il sonra üçüncü batareyanın komandiri təyin olunan Bəhram bəy əlaçı zabit kimi birinci Əlahiddə Qafqaz ordusunun qərargahında artilleriya rəisinin müavini vəzifəsinə layiq görülüb. 1913-cü ildə Axalsixe şəhərində xidmət edən kapitan Bəhram bəy Nəbibəyov ordudakı nümunəvi xidmətinə görə "Müqəddəs Stanislav" ordeninin üçüncü dərəcəsi ilə təltif olunub.

Milli ordumuzun yaranmasında əvəzsiz xidmətləri olan Bəhram bəy qardaşı kapitan Vahid bəy və podpolkovnik Hüseyn bəylə birgə 1918-20-ci illərdə erməni daşnaklarına qarşı igidliklə vuruşmuşdur.

Polkovnik Bəhram bəy Nəbibəyovun və onun zabit qardaşlarının hərbi fəaliyyəti barədə Respublika Mərkəzi Dövlət Tarix Arxivində qismən də olsa, sənədlər saxlanılır. 1918-ci il dekabrın 5-də yenicə yaranmış Azərbaycan ordusunun hissələrinə baxış keçirən Hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov kapitan Bəhram bəy Nəbibəyovun komandir olduğu dördüncü Dağ batareyasında əsgər və zabitlərin hazırlığından tam razı qaldığını bildirir. Nazir səkkiz saylı əmrində qeyd edir ki, yoxlanış zamanı batareya komandiri Nəbibəyovun əsgərləri məndə xoş təəssürat yaratdı. Hiss olunur ki, batareya

komandiri zabitlərlə birlikdə qüsurları aradan qaldırmağı bacarır. Nəbibəyovun qısa müddətdə etdikləri mənə qəti inam verir ki, ən yaxın vaxtda bu batareyanın daha yüksək səviyyədə görəcəyəm. Onun azsaylı zabitlərinə və kapitan Nəbibəyova yorulmaz zəhmətlərinə görə təşəkkür edirəm.

**General-mayor Həbib bəy Səlimovun 1920-ci il martın 29-da Hərbiyyə Nazirliyinə göndərdiyi raportdan:**

- Bu gün saat 13-də Xanabadın ucqarı bizim partizanlar tərəfindən alındı. Bakı alayı sıldırım qayalara Daşbaşı yüksəkliyinə yanaşdı: podpolkovnik Nəbibəyov ermənilərin təqib edilməsinə uymasaydı və mövqeləri dəyişməsəydi, alayın həmləsi daha uğurlu olardı.

- Sol cinahda ermənilər Əsgəranda ələ keçirdikləri iki pulemyotla əks həmləyə keçdilər. Onları Xanabaddan vurub çıxartmağa və qaçmağa məcbur etdik. Artilleriya əla atırdı, xüsusən podpolkovnik Bəhram bəy Nəbibəyovun batareyası, ancaq təəssüf ki, batareya komandiri özünü cilovlaya bilmir və batareya ilə birlikdə döyüşə atılır.

Qoşunların əhval-ruhiyyəsi əladır, düşmən çoxlu itgi verib, təkcə Xaraşurtda 60-dək erməni meyidi var.

**General Həbib bəy Səlimov.**
**Şuşa 10 aprel 1920-ci il**

* * *

Podpolkovnik Bəhram bəy Nəbibəyovun üçüncü batareyasının topları aramsız döyüşlər apardığına görə tamamilə yararsız hala düşmüşdür. Yaxşı olar ki, onlar 1902-ci il nümunəli porşenli toplarla əvəz olunsun. Əlavə batareya qüvvəsi göndərməyinizi xahiş edirəm.

**General Həbib bəy Səlimov.**

Polkovnik Bəhram bəy Nəbibəyovun atası Qasım bəy 1920-ci il aprel inqilabına qədər uzun müddət podpolkovnik rütbəsində çar pristavı olmuşdur. Yaxşı təhsil almış Qasım bəy on beş il İrandakı rus səfirliyində çalışmış, 1915-17-ci illərdə isə Türkmənistanda məşhur general A.N.Kuropatkinin qərargahında Şərq dilləri üzrə tərcüməçi olmuşdur.

1930-cu il iyulun 14-də Şəki sakini Məbud Əli oğlu İmamverdiyev üsyanla bağlı dindirilərkən demişdi:

- Keçmiş çar podpolkovniki Qasım bəy Sovet hökumətinin düşmənidir. O, bu hökumətə qarşı əkstəbliğat aparır. Şəkidə və Türkmənistanda böyük mülk sahibidir. Onun oğlanları Zahid bəy, Bəhram bəy, Vahid bəy və Hüseyn bəy həmişə yaxşı vəzifədə olmuşlar. Bunların hamısı keçmiş çar və müsavat ordusunun zabiti idilər. Doxsan beş yaşı olmasına baxmayaraq, Qasım bəy yenə də hər il Türkmənistana gedir, orada icarəyə verdiyi mülkün pulunu alır və gəlir. Camaata sələmi ilə pul verib, qazanc əldə edir. Qasım bəy fəhlə-kəndli hökumətinin çox təhlükəli düşmənidir.

Üsyandan sonra silahdaşları ilə son gülləsinə qədər sovet-çekist qoşunları ilə vuruşub həlak olan polkovnik Bəhram bəy Nəbibəyovun qardaşlarını da həbs edirlər. Otuz səkkiz yaşlı Hüseyn bəyin və altınış yaşlı Vahid bəy Nəbibəyovun hərəsinə 1931-ci il martın 2-də 3 il həbs cəzası kəsilir. Bundan sonra təkcə hökumət yanında gözükölgəli olan ziyalı Nəbibəyovlar ailəsinin yox, həmin ərazidə yaşayan yüzlərlə soydaşımız günahlı-günahsız güllələnmişdir. Təkcə üsyan yatırılan günü iki yüz iyirmi altı adam həbs olunub, yüz səksən nəfər güllələnib, yüz əlli nəfər yaralanıb, səkkiz yuz altınış beş nəfər isə tutulub saxlanılıb. Bir sözlə, 37-ci ilin qara günlərinin təməl daşı qoyulub.

Baş Göynük kəndində ağsaqqal müəllim Yaqub Səmədov mənə belə bir əhvalat danışıb:

...Üsyan yenicə yatırılmışdı. Amma rus əsgərləri kəndlərə doluşur, qarşısına çıxan kişiləri, cavan günahsız oğlanları sorğusuz-sualsız güllələyirdilər. Ona görə də kişilərin çoxusu qaçıb meşələrdə gizlənmişdi. Əsgərlər kəndimizə doluşanda ağsaqqal həmkəndlimiz Həbibullah Şabəddinov onların qarşısına çıxır, canıyananlıqla:

- Hara gedirsiniz, - deyir, bəsdi, kənddə kişi qalmadı, hamısını qırdınız, olub-qalanı da meşələrə çəkilib, siz onları tapa bilməzsiniz. Mən sabah gedib kəndə qaytararam. Amma söz verin ki, onlara toxunmayacaqsınız...

- Aha, demək, sən qoca da üsyançılardan birisən, - deyib, Həbibullah Şabəddinovu güllələyirlər.

Sovet çekistləri günahlı-günahsızı araşdırmadan bir ucdan kimini həbs edir, kimini də güllələyirdilər.

Şəki üsyanı xalq şairi Bəxtiyar Vahabzadənin uşaqlıq yaddaşında bu gün də yaşayır:

- Üsyan yatırıldı, üsyançıların bir hissəsi həbs edilib dərhal güllələndi, bir hissəsi də dağlara çəkilib qaçaq oldular. Bizim evimiz şəhərin "Yuxarıbaş" məhəlləsində doğın döşündə meşənin içində yerləşdiyindən qaçaqlar qapımızı döyür, bizə və yaxud qoşunlarımıza pənah gətirirdilər. Səhər açılana qədər xurcunlarını ərzaqla doldurub, yenidən dağlara, meşələrə çəkilirdilər. Qaçaqlara yardım edən "düşmən" elan edilib dərhal cəzalandırılırdı. O zaman Şəkidə milis rəisi Zahidov familiyalı bir qaniçən idi. Onun hər şeyə səlahiyyəti çatırdı. Qaçağa çörək verdiyinə görə Zahidov neçə-neçə kəndlini məhkəməsiz, sübutsuz güllələmişdi. Onların ikisi atamın yaxın dostları idi. Qaçağa yardım göstərmək üstündə güllələnənlərdən biri də şəhərin ən hörmətli ağsaqqalarından HacıYusif Əfəndi idi. Atam onun haqqına danışırdı ki, üzünə güllələnmə aktını oxuyanda o, Zahidovdan iki rükət namaz qılmağa icazə istəmişdir. Torpaqla dəstəmaz alıb üzünü Zahidova tutmuşdur:

- Bir xahişim var, məni sinəmdən vurun.

Dediyi kimi də eləyiblər.

Qaçağa yardım etmək bəhanəsi ilə həbs olunanlardan biri də atam Mahmud ağa oldu.

Araşdırmalar göstərir ki, Şəki üsyanın başlanmasında bəzi rəsmi hökumət adamlarının - çekistlərin, partiya və dövlət adamlarının marağı varmış.

Sual olunur: məqsəd nə idi? Yalnız və yalnız kimin sovet hökumətini istəyib-istəməməsini aşkar etmək və sonra həmin adamları güllələmək. Üsyanqabağı Sovet təhlükəsizlik orqanlarının əməkdaşları cildə girib eyni vaxtda iki yerə işləyiblər. Onlar xalq arasında üsyançıları qızışdırmış, həm də gündəlik hadisə və şəxslər barədə danoslar yazıb yuxarılara çatdırmışlar.

## HƏRB TARİXİMİZDƏ NƏLƏR OLMUŞDUR?

Günəşdən rəng alan bir saf qanım var,
Mənim də yurdum var, qəhrəmanım varl

**Səməd Vurğun**

Totalitar sovet rejimi dövründə belə bir səhv fikir vardı ki, ötən əsrlərdə Azərbaycanın görkəmli hərbçiləri olmayıb. Guya ona görə də, bizim hərb tariximiz yox dərəcəsindədir. Lakin açılan məxfi qovluqlar, aparılan hərbi-elmi tədqiqatlar göstərdi ki, qədimdən-qədim olan xalqımızın mərd sərkərdə oğulları Azərbaycan hərb tarixinin solmaz, yaddan çıxmaz səhifələrini yaradıblar.

Uzun illər apardığımız axtarışlar sayəsində məlum olmuşdur ki, 1920-ci il aprel çevrilişinə qədər xalqımızın altınış üç general oğlu nizami ordu hissələrində xidmət edib. Onların iyirmi iki nəfəri 1918-20-ci illərdə Milli Ordumuzda xidmətini şərəflə etmişdir.

“Hərb tariximizdə nələr olmuşdur?” yazısı da bu ideyanın - faktın təsdiqidir.

* * *

Görkəmli Azərbaycan sərkərdəsi Fətəli xan Hüseynəli xan oğlu 1735-ci ildə anadan olub, əlli üç yaşında vəfat edib. 1758-ci ildə atası öldükdən sonra iyirmi üç yaşında hakimiyyətə gələn gənc Fətəli xan Quba, Dərbənd və Salyan xanlıqlarını birləşdirməklə Şərqi Qafqazın qüvvətli hökmdarı kimi tanınmışdır.

Vahid Azərbaycan naminə 40 min qoşun yaradan Fətəli xan Şamaxı, Şəki, Bakı xanlıqlarını, Car-Balakən azad cəmiyyətini və Ərəş sultanlığını ittifaqa çağırmışdır. Nadir şah Əfşarın öldürülməsindən sonra xırda xanlıqlara bölünən Azərbaycaın müstəqil və abad bir ölkə kimi görmək istəyən Fətəli xan Qubalı ittifaqa gəlməyən xanlıqları birləşdirınək üçün silaha əl atmağa məcbur olmuşdur. O, 1785-ci ildə Şəki xanlığını, 1787-ci ildə Şamaxı xanlığını və bir az sonra Bakı xanlığını özünə tabe etdi.

Otuz illik silahlı mübarizəsindən sonra Fətəli xan Azərbaycanın əsas xanlıqlarını birləşdirınəyə nail oldu.

Həmin illərdə (1769-cu ildə) Qafqaza səyahət etmiş akademik S.Q.Qmelin igid sərkərdə Fətəli xan Qubalının xalq arasında böyük ehtirama layiq olduğu haqqında iftixarla yazır:

“Dərbənd əhalisi onu sevirdi. Şamaxı təəbələri Fətəli xandan razı idilər. Bakı əhalisi, onun vergi, toplamaqla kifayətlənməyib, Bakıya sahib olmasını istəyirdi. Fətəli xan Azərbaycanı birləşdirınəyə 1759-cu ildə Dərbənddən başlamışdı. Dərbəndlilər öz xanlarının zəif təbiətindən narazı idilər. Onlar gizlicə Fətəli xanla əlaqə saxladılar. Fətəli xan da onlara yardım edərək Dərbəndi aldı”.

Ayrı-ayrı sənədlər və onun müasirləri olan tarixçilər şahidlik verir ki, Fətəli xan hakimiyyəti saxlamaq üçün ilk növbədə güclü qoşun yaratmışdı. Müharibədə könüllülərdən, partizan dəstələrindən və birləşmiş nizami qoşun dəstələrindən daha çox istifadə olunurdu.

Müasirləri Fətəli xanı mahir və istedadlı dövlət xadimi kimi xarakterizə edirlər. Görkəmli tarixçi Abbasqulu ağa Bakıxanov yazır ki, Fətəli xan öz ağlı, səxavəti və bacarığı nəticəsində yüksəlmişdi. O, hakimiyyət başına keçəndən sonra ağıllı və çalışqan hakim olduğunu göstərdi; bütün ətrafindakı adamları özünə cəlb etdi, düşmənlərinin fəaliyyətini zəiflətdi və ən çətin vəziyyətdən çıxa bildi.

Azərbaycan hərb tarixində igid sərkərdə kimi xatırlanan Fətəli xan Hüseynəli xan oğlu Qubalı 1735-ci ildə anadan olmuşdur.

Dayaz tədqiqat həmişə çaşqınlığa salıb, hətta bəzi nəsillər və şəxsiyyətlər arasında təfriqə yaradıb. Totalitar Sovet rejimi dağılıb mətbuat azadlığı yaranan kimi heç bir məxəzə, mənbəyə əsaslanmayan “qoçaq yazarlar” qol çırınayıb XIX əsr klassiklərimizə və sərkərdələrimizə hücuma keçdilər. Tariximiz qarşısında əvəzsiz xidmətləri olan Abbasqulu ağa Bakıxanova, İsmayıl bəy Qutqaşınlıya, Mirzə Fətəli Axundova, Fətəli xan Qubalıya qara yaxmağa başladılar. Guya onlar rus hakimiyyəti dövründə fəaliyyət göstərməklə torpaqlarımızı ruslara satıblar. Belə cızmaqaraçılara “Azərbaycan” qəzetinin 1992-ci il 11 noyabr tarixli sayında tarix elmləri doktoru Fəxrəddin Nərimanoğlu tutarlı cavab verdi. O, “Hüseynqulu xan kimdir?” məqaləsində haqlı olaraq yazırdı: “Təəccüblü odur ki, indinin özündə də mətbuat orqanlarımızda tarixi şəxsiyyətlərin xidmətlərinin bir kənara qoyulduğu, onların adi xətalarının belə şişirdilib göyə qaldırıldığı, bir sözlə, tarixi ədalətin unudulduğu yazıları rast gəlinir. Yaxşı olardı ki, yazarlarımız tarixi mövzulara müraciət edərkən ayrı-ayrı ədiblərin bədii əsərləri ilə yanaşı, tarixi mənbə və məxəzlərə müraciət edəydilər. Onda əsl həqiqət üzə çıxardı və oxucularda belə bir yanlış fikir oyanmazdı ki, bizim əsl milli faciəmiz Qubalı Fətəli xanın fəaliyyəti ilə bağlıdır. Halbuki tutarlı mənbələr əsasında tarixçilərimiz Fətəli xanın kimliyini oxuculara çoxdan çatdırmışlar. Bu danılmaz tarixi həqiqətdir ki, o, Azərbaycan ərazisini vahid bir hakimiyyət altında görmək arzusunda idi və bu yolda az iş görməmişdi. Məmləkətin az qala üçdə bir hissəsini öz hakimiyyəti altında birləşdirən Fətəli xan sözsüz, ayrı-ayrı xanların müqavimətinə də rast gəlmiş, onların bəziləri üzərində qələbə çalmış, bəziləri ilə də dostluq, qohumluq münasibətləri yarada bilmişdi. Yeri gəlmişkən, qeyd edək ki, XVIII əsrin ikinci yarısında Azərbaycan ərazisində ayrı-ayrı xanlıqların bir-birilə çəkişmələri inkaredilməz faktdır. Lakin belə bir çatışmazlıqdan istifadə edib, onları ayrı-ayrılıqda xarakterizə etmək, birinə obyektiv, digərinə qeyri-obyektiv qiymət vermək tarixi hadisələrə, tarixi şəxsiyyətlərə birtərəflı yanaşmağın nəticəsidir. Azərbaycanın bugünkü oxucusunun belə bir həqiqəti bilməsi daha düzgün olardı ki, XVIII əsrin ikinci yarsında Azərbaycanda Pənahəli xan, Gavad xan, İbrahim

xan, Məmməd Həsən xan, Hüseynqulu xan və başqaları kimi hakimlər tərəfindən dövlətçilik bərpa edilmiş, onilliklər ərzində qorunub saxlanılmışdır. O ki qaldı ayrı-ayrı xanlıqların bəzi qonşu dövlətlərə, o cümlədən Rusiya ilə münasibətlərinə, onda gərək biz XVIII əsrin axırlarından başlayaraq bu günə qədərki tariximizin üstündən qələm çəkək. Dünya diplomatiya tarixindən xəbərsizlər yalnız belə düşünə bilərlər. Qubalı Fətəli xanı Rusiyaya meyldə günahlandıranlar bilməlidirlər ki, son vaxtlar bu dövrlə məşğul olan tarixçi-tədqiqatçılarımız onun Türkiyə ilə də yaxınlığını sübut edən dəlillər aşkar etmişlər. Bizə belə gəlir ki, hər bir xalqın tarixi şərəfli səhifələrlə yanaşı, uğursuzluqlardan da xali deyildir. Milli faciəmizi tarixin ayrı-ayrı anlarında deyil, Allahın bizə bəxş etdiyi iqtisadi zənginliyimizdə axtarmalıyıq ki, bütün bunlar tarix boyu düşmənlərimizin gözlərini qamaşdırmışdır".

* * *

1919-cu il yanvarın 3-də Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev general-mayor rütbəsilə təltif olunub. Bu, Azərbaycan Respublikasının təltif etdiyi ilk milli ordu generalı idi.

General Süleyman bəy 1864-cü il oktyabrın 5-də Ağdamda dünyaya gəlmişdir. İlk hərbi təhsilini Yelizavetqrad (indiki Kirovqrad - Ş.N.) şəhərində almışdır. 1899-cu ilin martına kimi eskadron komandiri olan Süleyman bəy Əfəndiyevə Kavaler kimi fəxri ad verilmişdir.

Aprel çevrilişinə kimi Kutaisi quberniyası üzrə baş nəzarətçi vəzifəsində çalışan polkovnik Süleyman bəy xalqımızın maariflənməsində fəal iştirak etmişdir. O, tez-tez Qori şəhərindəki seminariyanın Azərbaycan şöbəsində təhsil alan gənclərə maddi yardım göstərmişdir.

General-mayor Süleyman bəy Əfəndiyevin çox böyük və danılmaz xidməti 1917-ci ilin iyul ayından başlayaraq general Əliağa Şıxlinski ilə birgə Azərbaycan Milli Ordusunu yaratmaq təşəbbüsüdür.

Birinci Azərbaycan piyada diviziyasının rəisi, general-mayor Sülyeman bəy Əfəndiyev 1919-cu il fevralın 21 -də səpmə yatalaq xəstəliyindən vəfat etmişdir. Vəsiyyətinə görə onu Qazaxda dəfn etmişlər.

* * *

1918-ci il yanvarın 9-dan 12-ə dək Şəmkir hadisəsi olub.

Qafqaz-Türk cəbhəsində sülh bağlandqdan sonra - 1917-ci ilin noyabırından başlayaraq bolşevik əhval-ruhiyyəli rus əsgərləri geri -Rusiyaya qayıdırdı. Yeni yaranan ordumuza Tiflisdəki ehtiyat silah anbarından müsəlmanlara heç bir pay verilməmişdir. Lakin gürcülər hərbi korpus yaratmaq üçün silah paylarını almışdılar. Hətta ermənilər onlara çatacaq külli miqdarda silah payını daşıyıb İrəvana aparmışdılar. Ona görə də Gəncədəki "Müsəlman Milli Komitəsi" Qafqaz-Türk Cəbhəsindən qayıdan rus hərbi eşelonlarının Azərbaycan ərazisindən onların gəlib keçəcəyi vaxtı öyrənib həmin günü "döyüş günü" elan etmişdi.

Milli Komitənin başçıları Adil xan Ziyadxanov, Nəsi bəy Usubbəyli, Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfikürdski və başqalar gürcü menşeviklərindən aldıqları zirehli qatarla və Gəncədəki Azərbaycan alayının (bu alay keçmiş "Dikiy diviziya"nın Tatar alayının əsgər və zabitlərindən ibarət idi - Ş.N.) qüvvəsi ilə rus hərbi eşalonunun qabağını Gəncənin otuz kilometirliyində - Şəmkir və Dəllər stansiyaları arasındakı məsafədə kəsdilər. Zirehli qatarda (300 nəfər gürcü əsgər və zabiti ilə birgə) general-mayor knyaz Maqalov, Azərbaycan alayına isə polkovnik Süleyman bəy Əfəndiyev komandanlıq edirdi. Bu qabaqkəsmədə Gürcüstan menşevik hökumətinin də silah təmənnası vardı.

Yanvarın doqquzunda, səhər saat onda başlayan qanlı döyüş dörd gün davam etdi. On beş min tüfəng, yetmiş pulemyot və iyirmi top ələ keçirildi. Azərbaycan tərəfdən on beş, gürcülərdən isə qırx nəfər şəhid oldu. Güclü müqavimətə rast gələn rus əsgər və zabitləri perrona çıxıb ağ bayraq qaldırdılar: "Lənətə gəlsin bu silahları, onları verməyə çoxdan razıyıq, bircə evimizə sağ və salamat gedə bilək" - deyib silahları təhvil verdilər.

Bu, Bakıda özünə yuva qurmuş Sovetlər hakimiyyətinə qarşı gürcü və Azərbaycan xalqının silahlı mübarizəsi oldu. Sonralar isə kommunistlər bu üsyana "qardaş qırğını", "Azərbaycan burjua hökumətinin ruslara divanı" adını verdilər.

Bakıda daşnak Şaumyan başda olmaqla Qafqaz ölkə komitəsi bərk qəzəblənib bildirdi ki, "Şamxor cinayətkarları inqilabi məsuliyyətə alınacaq və Zaqafqaziya komissarlığını devirib, Zaqafqaziya fəhlə, əsgər və kəndli deputatları Sovetlər hakimiyyətini təşkil edəcəkdir".

Lakin tarixi dönüşlər daşnak Stepan Şaumyana bəd niyyətlərini həyata keçirməyə imkan vermədi. Onu 1918-ci il sentyabr ayında güllələdilər.

## Şahzadə-general RZAQULU QACAR

1860-cı il fevralın 4-də general-mayor Şahzadə Rzaqulu Mirzə Qacar ilk zabit rütbəsi alıb. O, məşhur tarixçi, Şahzadə Bəhmən Mirzə Qacarın ikinci oğludur. 1837-ci ildə Cənubi Azərbaycanda anadan olan Şahzadə Rzaqulu Mirzə atası ilə 1848-ci ildə Tiflisə gələrək zadəgan balalarına məxsus kadet korpusu məktəbində təhsil alıb.

Uzun müddət Qafqaz Əlahiddə Ordusunda xidmət edən Şahzadə Rzaqulu Mirzə Qacar əlahəzrət imperatorun adını daşıyan leybqvardiya xas alayında eskadron komandiri olub. O, 1862 və 1864-cü illərdə üsyan etmiş dağlılara qarşı hərbi yürüşlərdə iştirak edib. 1877-78-ci illərdə rus-türk müharibəsində polkovnik kimi döyüşən Şahzadə Rzaqulu Mirzə Qacar 1883-cü il mayın 15-də general-mayor rütbəsi alıb.

Şahzadə Rzaqulu Mirzə hərbçi olmasına baxmayaraq ədəbi yaradıcılıqla da məşğul olub. O, şərqşünas Adolf Berje, böyük dramaturq Mirzə Fətəli Axundov, dövlət müşaviri şərqşünas Aleksandr Şerbin, Müsyö V.Qrimm, Mariya Polan və başqa görkəmli şəxslərlə məktublaşaraq qohumu M.F.Axundovun əlifba və "Kəmalüddövlə məktubları" əsərinin çapı uğrunda çalışmışdır. Şair təbiətli Şahzadə

dərin məzmunlu məktublarını “Şahzadə Rzaqulu Mirzə İrəvani” təxəllüsü ilə imzalayıb.

Mülki müşavir A.Q.Şerbinin Mirzə Fətəli Axundova 14 may 1877-ci il tarixli məktubundan: “Bir az bundan əvvəl cənab V.Qrimdən öyrəndiyim sevinc dolu xəbərlə Sizi təbrik etməyi özümə borc bilirəm. Çox şad oldum ki, Şahzadə Rzaqulu Mirzə iki süvari alayına briqada komandiri təyin olunub.”

Şahzadə Rzaqulu Mirzə Qacarın peterburqlu Mariya Pollana 28 yanvar 1876-cı il tarixli məktubundan: “Mənim Qafqaz ordusunda göndərilməyim yəqin ki, Sizə məlumdur. Mən ayın 15-də Şuşadan Irəvana yola düşdüm. Əlahəzrət böyük knyaz Qafqaz canişininin[13] əmrilə mən oraya təyin edilmişəm... Mənim Tiflisdə bir nəfər qohumum vardır. O, mənim sevimli qardaşım poruçik Xanbaba xanın qayrıatası, polkovnik Mirzə Fətəli Axundovdur. Mən onu gözəl sifətlərinə görə səmimi qəlbdən sevirəm və sizin xanım həzrətlərinizə onu təqdim edirəm...”

Qırx ildən çox nizami orduda şərəflə xidmət edən Şahzadə general-mayor Rzaqulu Mirzə Qacar imperiyanın kavaler ordenlərilə təltif olub. Onun xidmətləri Brilyant qaşlı ordenə (1861), müqəddəs Stanislav ordeninin birinci, ikinci və üçüncü dərəcəsinə (qılınc və bantla birgə - 1862, 1868, 1892-ci illərdə), Müqəddəs Anna ordeninin ikinci və üçüncü dərəcəsinə (qılıncla birgə - 1865, 1877-ci illər), müqəddəs Vladimir ordeninin üçüncü və dördüncü dərəcəsinə - 1875 və 1888-ci illər, layiq görülüb.

General Rzaqulu Mirzə Qaçar iki xarici ölkənin - 1873-cü ildə Prusiyanın “Tac ordeni” və 1891-ci ildə maarifçilik sahəsindəki xidmətlərinə görə Fransanın zabitlərə məxsus “Xaç ordeni” ilə təltif olunub.

## GENERAL-MAYOR AĞASI BƏY AVŞAROV

1902-ci il fevralın general-mayor Ağası bəy Avşarovu Peterburq Süvari Məktəbinin rəisi vəzifəsindən azad edib Baş Qərargahda süvari ordusunun Baş Müfəttişi təyin etdilər. Məşhur rus sərkərdəsi Aleksey Brusilov həmin məktəbdə həmyerlimizin müavini işləmişdir. Tam süvari generalı A.Brusilov “Mənim xatirələrim” hərbi memuarında iftixarla yazır:

“1897-ci ildə general-mayor Ağası bəy Avşarov Peterburq Süvari məktəbinin rəisi təyin olundu. O, Azərbaycanın zadəgan nəslinin nümayəndəsi idi. Azərbaycan Rusiyanın tərkibinə daxil olduqdan sonra onun ulu babaları bütün yerli nəcabətli kübar ailələri kimi - İslam dinini saxlamaq şərtilə rus zadəganları ilə eyni hüquqa malik idilər. Azərbaycanlıların əksəriyyəti orduda, xüsusilə də süvari və draqun alaylarında şərəflə qulluq edirdilər. General Avşarov geniş ürəyə malik, hərbi işi yaxşı bilən bir sərkərdə idi. Amma onda asiyalılara məxsus hiyləgərlik və bir az da tənbəllik vardı”.

1883-cü il iyulun on dördündə general-mayor rütbəsi alan Ağası bəy Avşarov Qafqaz Əlahiddə Ordusunda altıncı süvari briqadasının rəisi kimi yüksək vəzifədə xidmət etmişdir. Türk zabit rütbəsilə 1853-cü il iyunun on ikisində

[13] Çar ordusunda polkovniklə general arsında olan yüksək hərbi rütbə idi – Ş. N.

xidmətə başlayan Ağası bəy nizami orduda şərəflə qulluq etmişdir. O, ikinci dərəcəli Müqəddəs Anna (1878-ci il), dördüncü dərəcəli müqəddəs Vladimir (1883-cü il) və birinci dərəcəli müqəddəs Stanislav (1886-cı il) ordenləri ilə təltif olunmuşdur.

General-mayor Ağası bəy Avşarovun harada anadan olmasını hələlik dəqiqləşdirmək mümkün olmayıb. Şəxsi hərbi xidmət kitabçası tapılmayan Ağası bəyin pərakəndə sənədlərə görə İrəvan şəhərində anadan olmasını güman etmək olar. Onun təvəllüd ili Gürcüstan Dövlət Arxivindən əldə etdiymiz rəsmi sənədlərə təxminən 1830-cu il göstərilir. Vəfatı isə məlum deyil. Yenə rəsmi sənədlərə görə 1902-ci ildə Baş Qərargahda süvari ordusunun Baş Müfəttişi vəzifəsində işləmişdir.

1886-cı ildə “Qafqazdaxidmətdə olan generalların siyahısı” illik məcmuəsində general Ağası bəy Avşarovun adı və soyadı yanında, mötərizədə onun Rusiyada “Aleksandr Aleksandroviç” kimi məşhur olması qeyd olunur.

General-mayor Ağası bəy Avşarov Yaxın Şərqdə döyüşkənliyi ilə adsan qazanmış əfşarlar tayfasındandır. Bu nəsil qızılbaşlarla birgə Səfəvilər dövlətinin yaranmasında fəal iştirak edib. Məşhur sərkərdə və dövlət xadimi Nadir şah Əfşar da bu nəsildəndir.

## GENERAL-MAYOR HƏSƏN AĞA BAKIXANOV

General-mayor Həsən ağa Cəfərqulu ağa oğlu Bakıxanov 1898-ci il noyabrın 28-də vəfat edib. O, Abbasqulu ağa Bakıxanovun qardaşı oğlu, general-leytenant Cəfərqulu ağa Bakıxanovun böyük oğlu idi.

Cəfərqulu ağanın ölümündən sonra üç övladı qalmışdı: Həsən ağa (1833-1898), Əhməd ağa (1837-1882) və qızı Nurcahan xanım (1831-1912).

Oğlanlarının hər ikisi atasının yolu ilə gedib. Böyük oğlu Həsən ağa general-mayor, kiçiyi Əhməd ağa isə qvardiya polkovniki rütbəsinə qədər yüksəlmişdi. Polkovnik Əhməd ağa qırx beş yaşında - 1882-ci il aprelin 13-də nökəri Ocaqqulu ilə birgə Gəncədə öldürülüb.

General Həsən ağa Bakıxanov 1833-cü ildə Qubada anadan olmuşdur. On dörd yaşında Tiflis kadet məktəbini bitirən Həsən ağa hərbi təhsilini artırmaq üçün Peterburqdakı Paj korpusuna daxil olur. Hərbi məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra o, xidmət etmək üçün Əlahiddə Qafqaz Ordusuna göndərilir. Dəfələrlə hərbi yürüşlərdə iştirak etdiyinə görə orden və medallarla təltif olunub.

1894-cü ildə tərtib olunmuş bir arxiv sənədində general-mayor Həsən ağa Bakrxanovun təltif olunduğu orden və medallar qeydə alınıb.

O, Üçüncü dərəcəli “Müqəddəs Vladimir, üzərində “igidliyə görə” yazısı olan dördüncü dərəcəli “Müqəddəs Stanislav, bundan başqa yüz altı nömrəli ikinci dərəcəli hərbi fərqlənmə ordeni, Georgi lenti (üzərində qızıl medal), müqəddəs hərbi Georgi ordeninin yüz illiyi şərəfinə buraxılmış bürünc medalla, 1877-1878-ci il müharibəsi xatirəsinə buraxılmış tunc bürünc medal və Qafqazdakı əla xidmətinə görə xaç ordenilə təltif olunub.

Bir müddət Irandakı Rusiya səfirliyində xidmət etdiyinə görə general-mayor Həsən ağa Bakıxanov həmin ölkənin ali ordeni olan "Şire-Xorşid" ordeninin üçüncü dərəcəsinə layiq görülüb.

Çar ordusunda belə yüksək ordenlərlə təltif olunan zabit və generallara kavaler kimi fəxri titul da verilirdi. Ona görə də arxiv sənədlərinin hamısında, təltifat qrafasında general Həsən ağa Bakıxanovun adının yanında kavaler sözü iftixarla qeyd olunmuşdur.

1855-ci ildə Həsən ağa əmisi Abbasqulu ağa Bakıxanovun böyük qızı Ziba Nisə bəyimlə (1831-1894) ailə qurmuşdur. 1879-cu ildə general-mayor rütbəsilə təltif olunan Həsən ağa Bakıxanov bir il sonra istefaya çıxıb Quba qəzasındakı dədə-baba torpaqlarını idarə etməklə məşğul olmuşdur.

Ömrünün son üç ilini Bakıda yaşamışdır.

1898-ci il noyabrın 28-də vəfat edən general Həsən ağa Bakıxanovu öz vəsiyyətinə görə Bibi-Heybət məqrəbəsində atası Cəfərqulu ağanın yanında dəfn etmişlər. Onun təntənəli və şərəfli dəfni münasibətilə nekroloq dərc edən "Kaspi" qəzeti dekabrın 1-də yazırdı:

"Noyabrın 28-də axşam saat doqquzda uzun sürən ağır xəstəlikdən sonra Bakı şəhərində general-mayor Həsən ağa Bakıxanov altınış beş yaşında vəfat etmişdir. Mərhum, Bakının keçmiş hakimi məşhur Mirzə Məhəmməd xanın nəvəsi idi. Onun mərhum atası general-leytenant Cəfərqulu ağa Bakıxanov Mirzə Məhəmməd xanın ikinci oğlu olmuşdur. Cəfərqulu ağa Qafqaz ordusunda yerli əhalidən ibarət süvari alayına komandirlik etmişdir. Mərhum Həsən ağa iyirmi il bundan əvvəl vəfat etmiş qardaşı polkovnik Əhməd ağa ilə birgə süvari qvardiyasında xidmət etmiş, şərəfli döyüş xidmətlərinə görə Rusiyanın və xarici ölkələrin kavaler ordenlərilə təltif olunmuşdur. O, üçüncü dərəcəli "Müqəddəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Stanislav"" və başqa ali ordenlərə layiq görülmüş nizami ordu zabiti idi.

1879-cu ildə general rütbəsində istefaya çıxan Həsən ağa ömrünün çoxunu Qubadakı şəxsi malikanəsində keçirmişdir. Son üç ili isə Bakıda yasamışdır. Həsən ağa Bakıxanovun ölümü ilə keçmiş Bakı xanlığının kişi nümayəndəsi kəsildi. General Həsən ağadan sonra bacısı Nurcahan xanım və qızı Reyhan xanım qalmışdır.

Dünən, noyabrın 30-da dəfn mərasimi xüsusi təntənə ilə keçmişdir. Səhər tezdən mərhumun həyətinə toplaşan çoxsaylı camaat axırıncı Bakı xanını son mənzilə yola salmağa gəlmişdilər. Saat onda Bakının ali və aşağı rütbəli ruhaniləri, həmçinin şəhərin adlı-sanlı bəyləri, tacirləri mərhumun yas mərasiminə toplaşmışdılar. Həmin anlarda da mərhum xanın evi qarşısında Salyan alayının bir batalyonu musiqi sədaları altında nizamla dayanmışdı.

Zəngin və bahalı parçaya bükülmüş tabut saat on bir də yaxın qohumlarının çiynində Şamaxı küçəsindən Təzəpir məscidinə tərəf istiqamət götürdü. Arxada sonu görünməyən Bakı əhalisi gedirdi. Qabaqda Salyan alayının qvardiyaçı zabitləri ipək döşəkçələrdə mərhumun orden-medallarını, bir zabit isə cilovundan yapışdığı atın üstündə tabutun qapağını aparırdı. Onların dalınca Quba qəzasının sakinləri yarım idarə şəklində müqəddəs Qurandan kədərli ayələri xorla oxuya-oxuya gedirdilər. Quba dərvişləri azacıq fasilə verəndə ali ruhanilərin Qurandan

oxuduqları surə daha gur və əzəmətlə səslənirdi. Tabutun arxasınca gedən insan kütləsinin arasında çoxlu zabit, idarə işçiləri, məmur və ali rütbəli şəxslər vardı. Şəhərin bələdiyyə başçısı Fonder-Nonne də onların arasında idi. Salyan alayının musiqili xoru mərasimə qoşuldu. Ruhanilərin Təzəpir məscidində ibadətindən sonra mərasim eyni ahənglə Persidski və Nikolayev küçələrindən keçib Sahil boyu irəlilədi. Bayıla çatan mərasim ordan Şıx kəndinə istiqamət götürdü. Bibi-Heybət məscidi yanında alınmış ayrıca Bakıxanovlar soyadının sərdabəsində Həsən ağa Bakıxanov torpağa tapşırıldı.

Mərasimi müşayət edən batalyon general-mayor Həsən ağa Bakıxanova axırıncı hörmət əlaməti olaraq tüfənglərdən üç dəfə yaylım atəşi açıb son borclarını verdilər".

## GENERAL ƏSƏD BƏY TALIŞXANOV

General-mayor Əsəd bəy Talışxanov 1857-ci il noyabrın 16-da anadan olub. Talışxanovlar nəsli Azərbaycan hərb tarixinə Mir Mustafa xan, Qara xan, Miribrahim xan və Mirkazım xan kimi generallar bəxş edib.

Əsəd bəy Talışxanov atası Ağaəli bəyin Lənkəranda açdığı müsəlman məktəbində ilk ibtidai təhsil aldıqdan sonra, o vaxtını ən yaxşı tədris ocaqlarından biri olan Bakı ədadiyyə məktəbində oxuyub.

Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirəndə gənc zabit Əsəd bəyin artıq iyirmi yaşı vardı. Nizami ordu üçün püxtələşmiş, yetkin bir zabit idi. 1878-ci il aprelin 16-da Qafqaz Əlahiddə ordusuna göndərilən Əsəd bəy Talışxanov praporşik rütbəsilə əlli ikinci briqadada xidmətə başlayıb. Xidmətinin üçüncü ilində əlaçı zabit olduğuna görə iyirmi birinci artilleriya briqadasında birinci batareyanın komandiri təyin edilib.

Hərbin çətin yolları, müharibələrin əzab-əziyyəti onu nəinki bezdiririb, hətta ürəkdən sevdiyi hərb sənətinə daha da möhkəm bağlayıb.

Çar Rusiyası ötən əsrin otuzuncu illərindən başlayaraq Orta Asiyada işğalçılıq siyasəti aparırdı. Qafqazda Krım müharibəsi (1853-56) sona yetən kimi Şərqə tərəf yürüş başlandı. Ən böyük əraziyə malik olan Kokand və Buxara xanlıqları işğal olundu. Çimkənd, Daşkənd, Səmərqənd şəhərləri bir-birinin dalınca alındı. 1880-cı ildə Türkmənistanı fəth etmək üçün ruslar oraya on bir minlik nizami qoşun yeritdi. Torpağın hər qarışı uğrunda inadla döyüşən mərd Axal-Təkinlilər general Lazerevin ordusunu məğlubiyyətə uğradırdılar. Şərqə yürüşdə qələbə əldə etmək istəyən çar, Göytəpəni, Axal-Təkini ələ keçirmək üçün Şipka qəhrəmanı general Skobolevi də göndərdi. Skobelevin qoşunu Qafqaz Hərbi Dairəsinin döyüşçüləri ilə birləşib Göytəpə şəhərini dağıtdı, onu müdafiə edən iyirmi beş min döyüşçünü qılıncdan keçirtdi. Axal-Təkini və Mərv şəhərini özlərinə tabe etdilər.

Əsəd bəy Talışxanov da öz batareyası ilə Axal-Təkini işğal edən hərbi yürüşün tərkibində iki il (1880-1881) iştirak edib. İşğalçı çarın əmrilə vəzifə borcu kimi din qardaşlarına silah qaldırıb.

Bu döyüşlərdəki igidliyinə görə üçüncü dərəcəli “Müqəddəs Anna (qılınc və bantla birgə), “Müqəddəs Stanislav ordenləri ilə təltif olunub.

On altı il keçəndən sonra həmin ordenlərin ikinci dərəcəsi ilə təltif olunan kapitan Əsəd bəy Talışxanov yeni əsri podpolkovnik rütbəsində qarşılayıb. O, 1904-05-ci illərdə Port-Artur döyüşlərinin də iştirakçısı olub.

Hərbi xidmətinin iyirmi beş illiyi münasibətilə Əsəd bəy 1902-ci ildə dərəcəli “Müqəddəs Vladimir (bantla birgə) ordenilə təltif olunub, 1910-cu il tyuluen doqquzunda isə polkovnik rütbəsi qazanıb. Bu illər ərzində o, əlli ikinci artilleriya briqadasının birinci diviziyonunun komandiri vəzifəsinə qədər yüksələ bilib.

Əsəd bəy Talışxanov ordudakı nümunəvi xidmətlərinə görə 1916-cı il aprelin iyirmi ikisində general-mayor rütbəsilə təltif olunub. O, həmin il iyulun 25-də Qafqaz Əlahiddə Ordusunun əlli ikinci artilleriya briqadasının komandiri kimi yüksək vəzifəyə təyin olunub. Bu ordunun uzun illər tərkibində qüsursuz xidmətlərinə görə birinci dərəcəli “Müqəddəs Anna, “Müqəddəs Stanislav, üçüncü dərəcəli “Müqəddəs Vladimir və dördüncü dərəcəli “Müqəddəs Georgi ordenlərilə təltif olunub.

General-mayor Əsəd bəy Talışxanov 1919-cu ildə Dağıstanın Teymurxan-Şura (indiki Buynaksk) şəhərində vəfat edib və orada da dəfn olunub.

## General-leytenant FƏRƏC BƏY AĞAYEV

General-leytenant Fərəc bəy Ağayev 1891-ci il noyabrın 26-da səksən yaşında Tiflisdə vəfat etmişdir. Ötən il Gürcüstan Dövlət Arxivində xalqımızın hərbçi oğulları haqqında araşdırmalar aparanda indiyədək bizə məlum olmayan çoxlu sayda fotoşəkil və rəsmi sənədlər əldə edə bildim. 1850-55-ci illərdə Yermakov soyadlı bir şəkilçəkən Qafqazın müxtəlif bölgələrini gəzmiş, ötən əsrin görkəmli adamlarının - bəylərin, xan və ağaların foto şəklini çəkmişdir. Onların arasında hərbçilər də az deyil. Yermakovun öz əlilə tərtib etdiyi on beşdən çox iri həcmli foto albomda bir şəkil diqqətimi cəlb etdi. Təxminən 40-45 yaşında cavan zabitdir. Qalın bığlı, iri alınlı, mavi gözlü zabitin qurşağında naxışlı bir xəncər bağlanıb. Onun ağayana oturuşunda bəy vüqarı var. Şəkil sanki dilə gəlib deyir: “Mən azərbaycanlıyam!” Ümumi siyahıda göstərilirdi ki, fondda onun iki fotoşəkli saxlanılır. Hər ikisini sifariş verdim. Hər ikisinin də altında “Tatarskiy bek” sözləri yazılıb. Daha heç nə. Şəkildə kimin təsvir olunduğunu isə fondda saxlanan ad göstəricisi dəftərindən öyrənə bildim. Orada yazılıb: “2899 və 8215 saylı foto şəkillərdə general-leytenant Fərəc bəy Ağayev təsvir olunub”. Bir ay üç günlük yaradıcılıq ezamiyyətimdə bu anlardakı qədər sevinməmişdim. Nə yaxşı ki, zəndim məni aldatmamışdı. Bir də ki, necə sevinməyəydim. Yüz səksən səkkiz il əvvəl anadan olmuş, yüz on bir il əvvəl isə vəfat etmiş generalın fotoşəklini indiyədək Azərbaycanda görən olmamışdı. Hələ iyirmi il əvvəl Sankt-Peterburqda oxuduğum bir sənəddən mənə məlum idi ki, general-leytenant Fərəc bəy Ağayev məşhur maarifçimiz Həsən bəy Zərdabinin atası Səlim bəyin doğmaca dayısı olub. 1858-ci

ildə balaca Həsən bəyin birinci dərəcəli Tiflis gimnaziyasına qəbul olunmasına o kömək edib.

Bəs, general-leytenant Fərəc bəy Ağayev kimdir? Həsən bəy Zərdabi kimi görkəmli maarifpərvəri bizə bəxş edən bu xeyirxah adamın ömür yolu həyatın hansı sınaqlarından çıxıb?

General-leytenant Fərəc bəy Ağayevin haqqında biz ilkin məlumata "Kafkaz" qəzetinin səkkiz dekabr min səkkiz yüz doxsan birinci il tarixli nömrəsində və "Kavkazski kalendar" illik məcmuəsinin 1873-1874-cü illərdəki nömrələrində rast gəldik. Birinci mənbədə haqqında geniş məlumatla "Fərəc bəy" kimi təqdim olunan eloğlumuz, ikincidə Qafqaz Əlahiddə Ordusunun generalları sırasında "Nikolay Nikolayeviç Ağayev" adlandırılır. Ona görə ki, bu yaraşıqlı, igid qafqazlı zabitini 1844-cü ildə imperator birinci Nikolay və onun arvadı Mariya Aleksandrovna xaç suyuna çəkib oğulluğa qəbul etmişdilər.

Uzun müddət Peterburqda xidmət edən padşahın sevimlisi Fərəc bəy Ağayevə Qafqaza qayıtdıqdan sonra yaxın qohumları belə yaxşı münasibət bəsləməmişlər. Hətta Həsən bəy Zərdabi məktublarından birində yazır ki, atam el arasında xəcalət çəkirdi ki, dayısı rus adını qəbul edib. Ona görə də ondan üz döndərib küsmüşdü. Get-gəlimiz belə yox idi. Ömrünün sonlarında Tiflisdə yaşayan generala hamı "rus Ağayev" deyərmiş. Şübhəsiz ki, sonralar səhvini başa düşən general vəsiyyət edib ki, nekroloqunda ad-familiyası Fərəc bəy Ağayev kimi göstərilsin. Onun bu vəsiyyətinə əməl olunmayıb.

General-leytenant Fərəc bəy Ağayev 1811-ci ildə füsunkar Qarabağın Şuşa şəhərində adlı-sanlı bəy ailəsində dünyaya gəlib. İlk hərbi təhsilini Tiflis kadet korpusunda aldıqdan sonra 1837-ci ildə Qafqaz Əlahiddə ordusunda müsəlman süvari polkunda xidmətə başlayıb. Xidmətinin yeddinci ilində ən yaxşı qvardiya rotmistri Fərəc bəy eskadron komandiri kimi Peterburqda göndərilir. Peterburqda o, birinci Nikolayın xüsusi qvardiya kazak polkunda leybqvardiya komandiri vəzifəsinə təyin olunur. Elə burada da o, imperatorun və onun arvadı Mariya Aleksandrovnanın sevimlisi olunmayıb.

Fərəc bəy Ağayev 1811-ci ildə özünün qeyriadi hərbi qabiliyyəti və igidliyi sayəsində xidmətinin on ili ərzində polkovnik rütbəsinə kimi yüksəlir. 1850-ci ilə qədər Peterburqa, xüsusi qvardiya kazak polkunda qüsursuz xidmət edən polkovnik F.Ağayev həmin ili Əlahiddə Qafqaz Ordusunun sərəncamına göndərilir.

1853-cü ildə Krım müharibəsi başlananda polkovnik Fərəc bəy Ağayev Qarabağın azərbaycanlı igidlərindən ibarət süvari alayı təşkil edir, özü də onun komandiri olur. Müxtəlif arxiv sənədləri, komandanlığa göndərilən raport və məktublar göstərir ki, Fərəc bəyin şuşalılardan ibarət süvari polku Kürəkdərə uğrunda - gedən döyüşlərdə altınış minlik korpusa qarşı dönməz bir iradə ilə vuruşmuşdur. 1854-cü ildə osetmlərdən təşkil olunmuş milis alayı da Fərəc bəyin alayına təhkim edilir. Süvari qoşun dəstəsinin komandiri kimi yüksək vəzifə daşıyan eloğlumuz hərbi xidmətinə və qoşun başçısı kimi göstərdiyi qəhrəmanlığa görə üstündə "Cəsurluğa görə" sözləri yazılmış qızıl xəncərlə, çoxlu hərbi ordenlərlə, həmçinin imperator tacı ilə bəzədümiş birinci dərəcəli "Müqəddəs Anna " (qılıncla birgə) ordenləri ilə təltif olunur.

1853-56-cı illərdəki sərkərdəlik fəaliyyətinə görə Fərəc bəy Ağayev general-mayor rütbəsinə layiq görülür.

Müharibə yenicə başlayanda Fərəc bəy Ağayevin başçılığı ilə Qarabağ Azərbaycan süvari dəstəsinin təşkili haqqında Peterburqa məlumat göndərən qraf Vorontsov qeyd edirdi ki, polkovnik Fərəc bəyin sayəsində könüllü dəstələr tezliklə yığıldı. Döyüşçülər yürüşə məşhur Qarabağ kəhərlərində və layiqincə silahlanmış halda başladılar.

Qırx ilə yaxın orduda qüsursuz xidmət edən Fərəc bəy Ağayev 1882-ci ildə general-leytenant rütbəsində istefaya çıxmış, ömrünün sonuna kimi Tiflis Müsəlman Xeyriyyə Cəmiyyətində çalışmışdır.

## GENERAL-MAYOR TƏRLAN BƏY ƏLİYARBƏYOV

1944-ci il fevralın 9-da polkovnik Tərlan bəy Əliyarbəyov döyüş xidmətlərinə görə general-mayor rütbəsi ilə təltif edilib. Keçmiş zamanlarda belə hesab edirmişlər ki, zabit ömrü cəmi iki müharibə əzablarından keçə bilər. Biri onun gəncliyinə, o biri isə yaşlı vaxtına təsadüf edər. Lakin general Tərlan bəy Əlyarbəyov altınış dörd illik ömür yolunda üç müharibənin iştirakçısı olub. O, Birinci Dünya müharibəsində, 1918-1920-ci illərdə Azərbaycan Milli Ordusunda və Böyük Vətən müharibəsində vuruşub. 1911-ci ildə üçüncü Qafqaz alayının əlaçı əsgəri Tərlan bəy Əlyarbəyovu Tiflisdəki piyada hərbi məktəbə oxumağa göndərdilər. Dörd il kursdan-kursa müvəffəqiyyətlə keçən Tərlan bəy hərbi məktəbi birinci dərəcəli diplomla bitirib. Podporuçik Əlyarbəyov Şamaxıdakı 205-ci piyada alayında xidmətə başlayıb.

1914-cü ilin yayında birinci dünya müharibəsi başlandı. Kayzer Almaniyası Rusiyaya müharibə elan etmişdi. Əlyarbəyovun xidmət etdiyi 205-ci alay da Qərb cəbhəsinə göndərilib. Od-alov yağan səngərlərdə gənc zabitin çətin sınaq günləri başlanıb. Komandirin verdiyi tapşırıqları yerinə yetirən, hər döyüşdən qələbə ilə çıxan Tərlan bəy əsgərlərin də sevimlisi olub. Ona görə də rota komandiri təyin edilib.

Öz batalyonunu qələbədən-qələbəyə aparan ştabs-kapitan Əlyarbəyovun igidliyi bütün qərb cəbhəsinə yayilmışdı.

Bir dəfə Verden ətrafinda gedən vuruşmaların qızgın çağında ona 10-cu ordunun komandanı general Əliağa Şıxlinski ilə görüşmək nəsib olub.

General hərbçi qaydası ilə onu başdan-ayağa süzüb: "Səsini-sorağını eşitmişəm, eloğlu, əsl igid kimi vuruşursan", - deyib. Əlini onun çiyninə qoyub – "Böyük şair Puşkin vaxtilə Şamaxı gözəlini vəsf eləyib, indi yeni bir Puşkin lazımdır ki, sənin - Şamaxı Tərlanının qəhrəmanlığını qələmə alsın".

Sonra maraq dolu baxışlarını Tərlana zilləyib:

- Bir de görüm, hansı hərbi məktəbi bitirmisən, oğul?

- Tiflisdəki hərbi gimnaziyanı... General Şıxlinski sevinclə:

- Hə, demək ikimiz də bir yuvadan pərvazlanmışıq. Çox şadam. Bu qürbət diyarda sevindirdin məni, oğul. Onsuz da bir neçə gündür ki, sevincimdən ürəyim köksümə sığışmır. Xəbərin varmı, bu günlərdə bir eloğlumuz qeyri-adi igidlik göstərdiyinə görə Müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsi ilə təltif olunub.

- Xeyr, eşitməmişəm. Düzü, cəbhəyə gələndən heç bir azərbaycanlıya rast gəlməmişəm, cənab general. İcazənizlə soruşum, kimdi belə yüksək təltifata layiq görülən?

- Nijeqorod draqun alayının rotmistri Teymur bəy Novruzovun igidliyi haqqında qəzetlər bar-bar bağırır. Sən isə burdan-buraya eşitməmisən. Eloğlumuz Teymur bəy özünün eskadronu ilə bir ay əvvəl düşmənin süvarilərinə hücum edərək onların hamısını qılıncdan keçirib. Hələ üstəlik də iki gün sonra üç ağır topunu qənimət götürüb. Cəmisi iki ay yarımlıq döyüşdən sonra həmyerlimiz Teymur bəy Novruzov Georgi ordeninin dörd dərəcəsi ilə təltif olunub. Bu çox böyük fəxrdir. O, artıq kavalerdir.

Tərlan bəy bu şöhrətli generalla görüşünü uzun müddət unuda bilməyib. Onlar bir də on səkkizinci ildə Bakıda görüşdülər.

1916-cı ilin yayında general A.A.Brusilovun ordusu Pripyat çayından Rumıniya sərhədinə kimi uzanan 400 kilometrlik cəbhə boyunca hücuma keçib düşmənin müdafiə xəttini yardı. Ağır şəraitdə vuruşan qoşunlar güclü düşməni xeyli geriyə qovdu. Tərlan bəy Əlyarbəyov bu döyüşlərdə sinəsindən ağır yaralandı. Bu, mühribə başlanandan Tərlan bəyin aldığı dördüncü yara idi. Ştabs-kapitan bir müddət Brest şəhərindəki qospitalda müalicə olunduqdan sonra Bakıya göndərildi.

1918-ci ilin avqustunda müsavat ordusuna Tərlan bəy Əlyarbəyov ikinci alayın komandir köməkçisi təyin edildi. Rusiyada qızıl Ordu tərəfindən dağıdılmış Denikin ordusu pərənpərən düşüb ölkənin hər yerinə dağılmışdı. Dərbəndi tutan ağqvardiyaçılar Azərbaycana soxulmaq istəyirdilər. Qusarda yerləşən ikinci Azərbaycan alayı gecə-gündüz vuruşaraq düşməni Azərbaycana buraxmadı.

Iyirminci ilin baharında Tərlan bəy Əlyarbəyov Bakı hərbi idarə rəisinin müavini idi. Ö, heç vaxt əvvəllər Bakını belə qayrıar, belə təlatümlü görməmişdi.

Komandanlıq Tərlan bəy Əlyarbəyovu hansı sahəyə göndərirdisə, o, namuslu bir zabit kimi çalışır, verilən tapşırığı ləyaqətlə yerinə yetirirdi. 1927-ci ildə M.V.Frunze adına Hərbi Akademiyada Ali komanda heyəti kursunu bitirdikdən sonra Bakıya qayıdan Əlyarbəyov hərbi istedadını milli hərbi kadrların yetişdirilməsinə sərf edib. O, ikinci dəfə (1941-ci il) bu Ali hərbi Akademiyanı bitirəndə Böyük vətən müharibəsi başlandı.

Cəbhəyə səfərbər olunan polkovnik Tərlan bəy Əlyarbəyov azərbaycanlılardan ibarət 416-cı diviziyanın komandir müavini, üç ay sonra isə komandiri təyin edilib.

Diviziya 1942-ci il noyabrın 30-da səhər Terek çayı sahilində düşmənlə ilk dəfə döyüşə girib. İki günlük döyüşdən sonra İşşorsk rayonunda faşistlərin müdafiə xətti yarılıb, Novo-Lednev və Kapustino yaşayış məntəqələri azad edilib.

Xalqımızın igid oğullarından ibarət olan bu diviziya dekabrın altısında inamla vuruşaraq düşmənin möhkəmləndirilmiş daha bir atəş nöqtəsini məhv edib. Hücumu müvəffəqiyyətlə genişləndirən polkovnik Tərlan bəy Əlyarbəyov həmişə ön cəbhədə olub, döyüşçülərdə qələbəyə sarsılmaz inam yaradıb.

Qırx dördüncü ordunun tərkibində olan bu diviziya 1942-ci ilin qışında Şimali Qafqazda 350 kilometrlik döyüş yolu keçərək, onlarla şəhər və kəndi düşməndən azad edib. Dəfələrlə ordu komandanlığının təşəkkürünə layiq görülüb.

Sonralar 79-cu, 88-ci alaylara, 402-ci atıcı diviziyaya başçılıq edən və 58-ci korpusun komandir müavini kimi məsul vəzifələrdə çalışan Tərlan bəy Əlyarbəyov özünün komandirlik bacarığını parlaq şəkildə nümayiş etdirib. O, xidmət etdiyi bütün hərbi hissələrdə böyük nüfuza və hörmətə malik olub.

Müharibə illərində Tərlan bəy Əlyarbəyov döyüş xidmətlərini yüksək qiymətləndirən komandanlıq 1944-cü il fevralın doqquzunda ona general-mayor rütbəsini vermişdir.

Peşəkar hərbçi, igid general Tərlan bəy Əlyarbəyov 1892-ci il noyabrın iyirmi səkkizində qədim Şamaxıda anadan olmuşdur. Əsl mənada eli, obası və doğma xalqı üçün əvəzsiz xidmətlər göstərən Tərlan bəy Əlyarbəyovun yetişdirdiyi milli hərbi kadrlar respublikada böyük nüfuza malikdirlər.

Müharibənin ağır sınaqlarında həqiqi sərkərdə şöhrəti qazanan general Tərlan bəy Əlyarbəyovun sinəsini Lenin ordeni, Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və çoxlu medallar bəzəyirdi.

1956-cı il fevralın on beşində vəfat edən general-mayor Tərlan bəy Əlyarbəyovun adına dünyaya gəldiyi Şamaxıda və Bakıda abad küçələr qoyulub.

## Polkovnik Əbülfət ağa Şaxtaxtinski

1896-cı fevralın 26-da 77-ci Tengin süvari alayında xidmət edən Əbülfət ağa Nəcəf oğlu Şaxtaxtinski podpolkovnik rütbəsi alıb. Əbülfət ağa 1858-ci ilin oktyabr ayında Şərür-Dərələyəz qəzasının Şahtaxtı kəndində zadəgan ailəsində anadan olmuşdur. Onun nufuzlu nəsli Azərbaycan tarixinə Məhəmməd ağa, Behbud ağa, İsasultan ağa, Həmid ağa Şaxtaxtinski kimi görkəmli şəxsiyyətlər bəxş edib.

İlk təhsilini Tiflis realnı məktəbində alan Əbülfət ağa Şaxtaxtinski 1877-ci ildə Peterburq Texnologiya Universitetinə daxil olub. Tələbə yoldaşı, ilk marksist Q.V.Plexanovla birgə tələbələri qadağan olunmuş yığıncaqlara təhrik etdiyinə görə bir il sonra - dekabr ayında universitetdən xaric edilib. Mənzilində aparılan axtarış zamanı məlum olub ki, Əbülfət ağa həm də Moskva və Peterburqda təhsil alan qafqazlı tələbələrin "İmdadiyyə" adlı gizli təşkilatın üzvüdür. O, Moskvada təhsil alan həmyerlisi Nəcəf bəy Vəzirova məktubunda yazırdı ki, qaranlıq və cəhalətdən qurtarmaq üçün laxlamış imperiya zülmünü kökündən kəsmək, məhv etmək lazımdır. "İmdadiyə"nin nizamnaməsini aldım. Yaxınlaşan yay "İmdadiyə"nin əsas müddəalarının müzakirəsini təxirəsalınmaz vəzifəmizə çevirir. Müzakirə ona görə lazimdır ki, biz ölkənin müxtəlif yerlərinə yollanarkən bir məqsəd uğrunda hərəkət edə bilək biz öz məqsədimizə nail olmaq üçün bütün vasitələri nəzərdən keçirməliyik. Həmin məqsəd kifayət qədər aydın və dəqiq şəkildə müəyyənləşdirilməlidir. Məqsədimiz sakitliyimizi pozan vicdan əzabının burjua rahatlığı naminə dəf edilməsi deyil. Məqsədimiz pisliyin kökünü yerli-dibli kəsmək üçün mümkün qədər çox işlək əl hazırlamaqdır. Biz vasitə və vəsait axtarırıq, deməli onda işçi əllər, ağırlığı öz üzərinə götürən qüvvələr tərbiyə etməliyik. Biz tərəqqipərvər adamlar kimi nəzərlərimizi yalnız cəmiyyətin aşağı təbəqələrinə yönəltməliyik." Ələ keçən məktubdan sonra Əbülfət ağa

Şahtaxtinskinin üzərində gizli polis nəzarəti qoyulmuşdu. Ekstren yolla Lazarev adına Şərq dilləri institutuna daxil olmuş Əbülfət ağa oranı bitirdikdən sonra Rusiyada ona nə diplom, nə iş verilməmişdi. O, Almaniyaya getmiş, Heydelberq Universitetində diplom işi müdaflə edərək bakalavr dərəcəsi almışdı.

Demokratik baxışlarına və monarxiyaya qarşı çıxişlarına görə Rusiyaya qayıdan Əbülfət ağa Şaxtaxtinskini heç bir qulluğa götürməmişdilər.

1880-ci ildə iyirmi iki yaşlı Əbülfət ağa Şaxtaxtinski Peterburqdakı yunker məktəbinə daxil olub, qısa müddətdə oranı fərqlənmə diplomu ilə bitirib.

Bir il sonra, avqust ayının səkkizində zabit rütbəsində yetmiş yeddinci Tengin süvari alayında xidmətə başlayan Əbülfət ağa Şaxtaxtinski qısa müddətdə divizion komandiri təyin olunub.

Hazırda Tiflis arxivində saxlanan podpolkovnik Əbülfət ağanın 1904-cü ilə məxsus şəxsi hərbi kitabçasında göstərilir ki, əla xidmətinə görə o, 1892-ci ildə Müqqədəs Stanislav ordeninin üçüncü dərəcəsilə, 1900-ci ildə isə Müqəddəs Anna ordeninin üçüncü dərəcəsilə təltif olunmuşdur.

Sənədlərdən məlum olur ki, podpolkovnik Əbülfət ağa Şahtaxtinski bir sıra şərq dillərilə yanaşı, alman, fransız və ingilis dilini də mükəmməl bilirmiş. Ona görə də İsveçrə ordusunun manevrlərinə müşahidəçi kimi ezam olunmuşdur. Həmin ili nizami ordudakı xidmətlərinə görə Əbülfət ağaya polkovnik rütbəsi verilib.

Polkovnik Əbülfət ağa Şaxtaxtinskinin şəxsi işinin təltifat “qrafasında” aldığı xarici ölkə orden-medallarının da sayı göstərilir. O, İranın “Şire-Xorşid” ordeninin dördüncü dərəcəsilə (1889-cu il), Buxara Omirtinin ikinci dərəcəli “Ucalan ulduz” qızıl medalı ilə (1899-cu il), yenə İranın üçüncü dərəcəli “Şire-Xorşid” ordenilə (1900-ci il) və “Fransa-Sudan xilasetmə cəmiyyəti”nin Yuxarı Reyn şəhərinin qızıl medalı ilə (1903-cü il) təltif olunub.

1904-05-ci illərdə rus-yapon müharibəsində iştirak edən Əbülfət ağa Şaxtaxtinski batalyon komandiri kimi məsul vəzifədə xidməti borcunu ləyaqətlə yerinə yetirib.

Əslzadə nəslindən olan polkovnik Əbülfət ağa istər ədəbi, istərsə də maarifçüik sahəsində xalqımız üçün təmənnasız xidmətlər göstərib. O, Volfanq Hötenin “Gənc Verterin iztirabları” əsərini almancadan Azərbaycan dilinə tərcümə edib.

Port-Artur döyüşlərindən sonra polkovnik Əbülfət ağa Şaxtaxtinskinin komandir olduğu 202-ci Qori süvari alayı Qori şəhərində yerləşirdi. 1911-ci ilin yayında vətəninə növbəti məzuniyyətə gələn polkovnik Əbülfət ağa iki azərbaycanlı gəncin təhsil alması üçün xeyirxahlıq göstərib. Mərhum yazıçımız Əli Səbri “Mühitim... təhsil illərim” xatirə qeydlərində yazır:

“Bir təsadüf mənim taleyimi əbədi həll etdi. O zaman polkovnik Əbülfət ağanın komandir olduğu alay Gürcüstanın Qori şəhərində yerləşirdi. Əbülfət ağa Naxçıvana məzuniyyətə gəlmişdi. Məzuniyyət müddəti bitdikdən sonra o öz qohumu, mənimsə məktəb yoldaşım Xəlil ağa Hacılarovu özü ilə Qoriyə - Zaqafqaziya müəllimlər seminariyasına aparmışdı. Mən məramımı heç kəsə bildirmədən qohum-qardaşdan pul yığmağa başladım. Xəlil ağa Qoriyə gedən günün səhərisi mən də onun ardınca yolllandım. Sənədlərimi də özümlə

götürınüşdüm. Böyük bir çətinliklə Qoriyə gəlib çatdım. Seminariyanın həyatinə gələndə Xəlili və polkovnik Əbülfət ağanı orada gördüm. Əbülfət ağanın təəccübdən nitqi qurudu, bir az fikrə gedib sənədlərimi aldı. Birlikdə seminariya direktorunun yanına getdik Sabahı günü lövhədə - imtahan verəcək cavanların adları siyahısında öz adımı görüb sevindim.

Imtahanlar başlandı. Əynimdə zolaqlı paltar içəri girdim. Birinci imtahandan sonra direktor polkovnik Əbülfət ağaya dedi:

Etot polosatıy malçişka budet prinyat... (Əli Səbri "Ömürdən yarpaq düşür" kitabı, 1983-cü il, səh. 129, 130-da).

Xalqımızın görkəmli ziyalısı, polkovnik Əbülfət ağa Şahtaxtinski 1913-cü il martın 13-də Kutaisi şəhərində vəfat edib. Doğma kəndi Şahtaxtıda dəfn edilib. O, XIX əsrin görkəmli jurnalisti İsasultan Şaxtaxtinskinin (1851-1894) kiçik qardaşı idi.

* * *

1918-ci ildə fevralın 22-də Zaqatala dairəsinin camaatı adından Həmzət bəy Xəlilov Zaqafqaziya komissarlığında çıxış edib. Natiq bildirib ki, onun yenicə yaratdığı Ləzgi süvari alayı Gürcüstan ordusuna yox, general Əliağa Şıxlinskinin Müsəlman korpusu heyətinin sıralarına daxil olacaqdır. Lakin nə gürcülər, nə də ermənilər Həmzət bəyin yaratdığı süvari alayını Tiflisdən çıxarılmasına razılıq vermək istəmədilər. Ona görə ki, Tiflisdə yaşayan ermənilər şaiyə yaymışdılar ki, yeni yaranan Ləzgi süvari alayı Müsəlman korpusu ilə birləşib Laqodexi-Balakən ərazisində yaşayan gürcüləri qıracaqlar. Ermənilərin fitvası ilə Snoris-Sxali stansiyasında bir qrup gürcü ziyalısı və səkkizinci gürcü alayı Ləzgi süvari alayının qabağını kəsib. Həmzət bəy Xəlilov yazır ki, mənim şəxsi nüfuzumun hesabına gürcü ziyalıları qarşıdurmaya yol vermədilər. Alayı sağ-salamat Laqodexi çölünə gətirib, orada yerləşdirdik.

Alaya şahzadə polkovnik Xosrov Mirzə Qacar komandir təyin olundu. Sonralar Zaqatala alayı adını daşıyan bu hərbi birləşmə Azərbaycan ordusunun sıralarında Qarabağda daşnaklara, Bakıda və başqa ərazilərimizdə bolşeviklərə qarşı döyüşlərdə qəhrəmanlıqla vuruşdu.

Həmzət bəy Xəlilov (1860-1930) tanınmış mədəniyyət xadimi, 30 ilə yaxın Üzeyir bəy Hacıbəyovun ev muzeyinin direktoru, professor mərhum Ramazan Xəlilovun (1901-1999) atası idi.

Podpolkovnik Xasay xan Usmiyev Mehdiqulu xan Xasay xan oğlu Usmiyev 1895-ci il fevralın 26-da podpolkovnik rütbəsi alıb. O, məşhur şairə Xurşudbanu Natəvanın böyük oğludur. 1855-ci ildə Şuşada anadan olub. 1874-cü ildə Peterburqdakı zadəgan balalarına məxsus Paj hərbi korpusunda təhsil alıb. Rus-türk müharibəsi - (1877-78) illərində Dunay ordusunun sıralarında süvari alayının komandiri olmuşdur. Onun ötən il Gürcüstan Dövlət Mərkəzi arxivindən əldə etdiyimiz fotoşəklinin altında da "1877-ci il, Dunay" yazılıb. İki il cəbhələrdə böyük igidlik və şücaət göstərdiyinə görə knyaz Mehdiqulu xan Usmiyev dörd dəfə ordenlə təltif olunub. O, Müqəddəs Anna ordeninin dördüncü dərəcəsinə (igidliyə görə), üçüncü dərəcəli müqəddəs Stanislav (qılınc və bantla birgə), üçüncü dərəcəli

Müqəddəs Anna (qılınc və bantla birgə) və müqəddəs Vladimir ordeninin dördüncü dərəcəsinə layiq görülüb. Əlbəttə, qısa müddətdə belə yüksək kavaler ordenlərinə qeyri-adi igidlik göstərmiş zabitlər təltif olunurdu. Şübhəsiz ki, knyaz Mehdiqulu xana bu igidlik irsən keçmədi. Axı, onun atası general-mayor Xasay xan Usmiyev (1808-1866) idi! Ötən əsrin məşhur tədqiqatçıları Firudin bəy Köçərli, Mir Möhsün Nəvvab, Məhəmmədağa Müctəhidzadə və başqaları iftixarla yazırlar ki, cənab knyaz Mehdiqulu xan alicah knyaz Xasay oğludur. O, əlahəzrət qüdrətli Çingiz xanın nəslindəndir.

Qafqaz Əlahiddə ordusunun süvari qoşunlarında xidmət edən knyaz-podpolkovnik Mehdiqulu xan Usmiyev ordudakı əla qulluğuna görə sonrakı illərdə də təltif olunub. O, 1887-ci ildə müqəddəs Stanislav ordeninin ikinci, 1891-ci ildə Müqəddəs Anna ordeninin ikinci dərəcəsini və 1881-ci ildə İranın "Şire-Xorşid" ordeninin üçüncü dərəcəsini ala bilib.

Klassik üslubda Vəfa təxəllüsü ilə Azərbaycan və fars dillərində şerlər yazan knyaz-podpolkovnik Mehdiqulu xan Usmiyev 1900-ci il sentyaberın 5-də Tiflisdə Mixaylovski küçəsindəki yüz qırx səkkiz saylı mülkündə vəfat edib. Öz vəsiyyətinə görə Ağdamdakı İmarətdə ata-babalarının yanında dəfn olunub.

Haqqında nekroloq verən "Kaspi" qəzeti (1900-ci il, № 200) yazırdı: "Nadir şərq kitablarını yığmaq və oxumaq onun ən sevimli məşğuliyyəti olmuşdu. Bu kitabları toplamaq xatirinə knyaz Mehdiqulu xan heç bir vəsait əsirgəməzdi. Onun şəxsi kitabxanasındakı ədəbiyyat az-az yerlərdə taplardı".

Knyaz Mehdiqulu xanın müasiri, məşhur alim Mir Möhsün Nəvvab yazır ki, biçarə knyaz Məhdiqulu xan son illər Şuşaya tez-tez gələrdi. Hər dəfə də zəmanənin hərc-mərcliyini görüb əsəblik cəhətindən aşağıdakı fərdləri deyərdi:

**Abad olan vətən axır xərab olub,**
**Bu dəşti-zülmdə min lalələr solub.**
**Dünyada məhv olub namünişanımız,**
**Yoxdur bu möhnətdə tabü-təvanımız.**
**Axır nə vaxtadək bu hala səbr edək,**
**Bunca sitəm görək, belə cəfa çəkək?**
**İcma edin, bu gün dərdə dəva edək,**
**Dinü-təriqətə canlar nisar edək.**

Bəzi müasir yazarlarımız Mehdiqulu xan Usmiyevin general rütbəsi aldığını qeyd edirlər. Lakin nə Tiflis, nə də Bakı arxivlərində Mehdiqulu xanın general olması haqqında sənədə rast gəlmədik. Bütün sənədlərə onun son rütbəsi podpolkovnik göstərilir. Şübhəsiz ki, tədqiqatçılar onu atası general-mayor Xasay xan Usmiyevlə səhv salırlar.

Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin elmi fondunda Mehdiquluxan Usmiyevin 1877-ci ildə Dunay cəbhəsindən ailəsinə yazdığı məktubları saxlanılır. Onların imlasına toxunmadan təqdim edirik:

**Birinci məktub:**

Bu gün ki, ibarət olsun aprelin 12-si padişah cəmi qoşunu bir yerə cəm edib davanı elan etdi və bu gün axşamadək hər tərəfdən qoşun hərəkət edir. Amma biz, yəni Nikolay Nikolayıçin hüzurunda onlar hənuz padşah Peterburqa gedənədək Kişinyovda olarıq, ondan sonra biz həm hərəkət edirik. Amma hansı tərəfə hərəkət olmağın yazmağa məzun degiləm. İnşallah, mümkün olduqca hər məkandan təbl irsal olar. Xatircəm olun mənim üçün çəndən düşvar əmir yoxdur. Ağabikədən və Bilqeyisdən soruş ki, mənim şəklimi tanıyırlarmı!

**Mehdiquluxan,**
**q. Kişinyov,**
**12 aprel 1877q.**

*   *   *

**İkinci məktub:**

Keçib Bulayeşt şəhərinə ki, Ruminiyanın şəhərlərindəndir varid olduq. Kim bilərdi ki, mənim bu səfərim bu növ bəndülhəd olar. Bu gün beş gün izafədir ki, qələdən[14] çıxıb müsafirət əzmin etmişəm. Bu əmr, o növ asan dəgilmiş ki, təsəvvür olurdu. Əlxüsus davanın ittifaqı məni çox müqəyyəd etdi. Xülasə qeydi nəkərdəyəm ki, moyəssər şəvəd... Ağbikə və Bilqeyis mənim şəklimi görəndə yəqin bir şeyi zehinlərinə gəlmir ki çünki ki əslin bəndül-həd qeybəti surəti zehindən zayil edir. Əlhəmdülillah hər növ salamatlıq və asudə xatırlıq vüsuldur. Nigranlıq həmin sizlər tərə-fmdəndir. Kağız yazmaqda kütahlıq olmasın, mənə gələn kağızları zakaznoy edin və əgər fırəng dilini bilən olsa ünvanı firəngcə yazdırın.

**Mehdiquluxan,**
**12 may.**

*   *   *

**Üçüncü məktub:**

Bu haladək səndən kağız vüsul olmayıb, əgərçi til rəf e nigaranlıq etdi. Amma təfsilən bilmirəm ki, necəsən və uşaqlar necədirlər. Velikiy Knyaz Xaç suya düşən zamanda inşallah məni məzun edər və mən qələyə azim olaram. Hər vəqt və hər poçt ilə kağuz yazıb əhvalatdan müxəbbir et. Zəhranı və Ağabikəni, Rüstəm bəyi əhval pürsan ol. Bu kağız vüsal olan kimi cəvab yaz. Çünki çox nigaranam.

Vəssalam.

**Mehdiquluxan.**

*   *   *

**Dördüncü məktub:**

Bu şəhərdə varid ola...

---

[14] Şuşa şəhəri nəzərdə tutulur. – Ş. N.

Ona-bəna bunca gəlməyə ektifa edüb əhval-pürsan pərişanlıq cəndan yoxdur. Bir müddət Odessada olarıq, sonra sərhədə əzm olar onlar sonra nə olar bilmirəm. Oraya kağız təxir ilə çatır. Ancaq salamatlıq olsa kafidir. Ağabikəni, Bilqeyisi, Əzizəni didə busə ol.

Bu kağıza cavab göndər. Vəssalam. Əmanə xanım kağızı burada bənə vüsul oldu.

**Mehdiquluxan,**
**17 fevral.**

* * *

Şahnəzərov oraya varid olub, sənə irsal olan şeyləri yetirınəkdən xəbər yaz və Əkbərə corab anamın və bacımın xoşuna gəlsə yazın irsal olsun.

**Mehdiquluxan.**

* * *

**Beşinci məktub:**

Ruhum bu gün sübh vaxtı Ağstafaya varid oldum. Yollar nəhayət xarabdırlar. Amma bir vaqiə ariz olmayıb hər cəhətdə salamatlıq hasildir. Uşaqlardan çox nigaranəm. Bu səfər uşaqları, ələlxüsus Ağabikəni müfariqəti çox müəssirdir.

Xasayı, Ədil xanı, Əzizəni didə bus ol. Amma Ağabikənin sənə dəxli yoxdur. Vəssalam.

**Mehdiquluxan.**

* * *

Qubernator ilə Ərzi rahda mülaqat oldu. Müşarəleyh Gəncəyə azimdir.

**Mehdiquluxan.**

Qvardiya polkovniki şahzadə Xanbaba xan Qacar 1899-cu il fevralın 26-da podpolkovnik rütbəsi alıb. 1877-78-ci illərdə rus-türk müharibəsinin fəal iştirakçısı şahzadə Xanbaba xan Qacar qırx beşinci Şimal-draqun alayının komandiri kimi döyüş qabiliyyətinə görə müqəddəs Stanislav ordeninin ikinci və üçüncü dərəcəsi ilə (qılınc və bantla birgə), Müqəddəs anna ordeninin üçüncü dərəcəsilə və müqəddəs Vladimir ordeninin dördüncü dərəcəsi ilə təltif olub. O, 1907-ci ilin may ayında polkovnik rütbəsi alıb.

İmperatorun yüksək dərəcəli əmrinə əsasən polkovnik Xanbaba xan və böyük qardaşı general-mayor Rzaqulu Mirzə Qacar Əlahəzrət titulunu daşlyır, üstəlik də şahzadə nəslindən olduğuna görə ildə altı yüz manat təminat alırdılar.

1866-cı ildə mayor Xanbaba xan Qacar atasının dostu Mirzə Fətəli Axundovun böyük qızı Seyrəbəyimlə ailə qurur. Bu saf, ülvi izdivacdan iki övlad - Mələksima adlı qız və Mənsur Mirzə adlı oğul dünyaya gəlir. Altı il sonra - 1872-ci ildə Seyrəbəyim vəfat edir. İki uşağın anasız qalması Mirzə Fətəliyə çox ağır təsir edir. Onların yad qapazı altına düşməməsi və sevimli kürəkəni Xanbaba xanın "xoşəxlaq, savadlı, təmiz cavanlardan biri" olması xatirinə Mirzə Fətəli Axundov ikinci qızı Nisə xanımı da bir il sonra ona ərə verir.

M.F.Axundov 1876-cı il mayın 18-də dostu Manekçi Sahibə yazırdı.

"Bir oğlumdan başqa bir də Nisə xanım adlı qızım vardır ki, şahzadə Bəhmən Mirzənin oğlu Xanbaba xana ərə vermisən. Qızımın əri bizim imperatorun ordusunda xidmət edir. Xoşəxlaq, savadlı, təmiz cavanlardan biridir. Günah işlərin və bəd əməllərin yanından belə keçməz. Mənim kimi o da şərab içmir, həmişə Tiflisdə yaşayır. Öz evimdə ona bir neçə otaqdan ibarət mənzil ayırmışam. Qızımdan və haman Xanbaba xandan iki nəvəm vardır".

Böyük dramaturqun şəxsi arxivində saxlanan məktubların əksəriyyətində polkovnik Xanbaba xan Qacar belə səmimiyyətlə yad edilir.

Tiflisdə dərc olunan "Zarya Vostoka" qəzeti 1926-cı ildə iki gün (11,12 noyabrda) onun ölümü haqqında birinci səhifədə nekroloq vermişdir:

"Uzun sürən ağır xəsnəlikdən sonra Şahzadə Bəhmən Mirzənin oğlu, mərhum Mirzə Fətəli Axundovun kürəkəni polkovnik Xanbaba xan Qacar noyabrın doqquzunda vəfat etdi. Cənazə Krılov küçəsindəki üç nömrəli evdən götürüləcək. Dəfn mərasimi bir nömrəli müsəlman qəbristanlığında olacaq".

Polkovnik Şahzadə Xanbaba xan Bəhmən Mirzə oğlu Qacar 1849-cu ildə Tiflisdə anadan olmuşdur.

* * *

Podpolkovnik İbrahim bəy Davatdarov 1851-ci ildə Bərdənin Ərəblər kəndində anadan olub. 187l-ci ildə ilk zabit rütbəsi alıb, yüz əlli beşinci Quba süvari alayı xidmət edib. 1893-cü il fevralın 6-da podpolkovnik rütbəsi ahb. 1877-78-ci ildə rus-türk müharibəsində iştirak edib. Həmin müharibədə göstərdiyi şücaətə görə 1877-ci ildə dördüncü dərəcəli müqəddəs Vladimir (qılınc və bantla birgə), ikinci dərəcəli müqəddəs Stanislav (qılıncla birgə), 1879-cu ildə ikinci dərəcəli Müqəddəs Anna (qılıncla birgə) ordenlərilə təltif olunub. 1884-cü ildə əlahəzrət imperatorun təşəkkürünü alıb.

1902-ci ildə qəflətən vəfat edən podpolkovnik İbrahim bəy Davatdarovun həyat yoldaşı məşhur Qarabağ ziyalısı Əhməd bəy Cavanşirin qızı Həmidə xanım idi. Onların iki övladı - qızı Mina xanım (1890 - 1928) və oğlu Müzəffər (1900 - 1959) Davatdarovlar olub. 1907-ci il iyunun 15-də Həmidə xanım Cavanşir məşhur dramaturqumuz Cəlil Məmmədquluzadəyə ərə gedib.

* * *

1918-ci il noyabrın 18-də podpraporşik Xosrov bəy Heydərbəy oğlu Şirinbəyov Gəncədəki proporşiklər məktəbini birinci dərəcə ilə bitirib. O, 1896-cı

il mayın 16-da Şuşa qəzasının Xankəndində zadəgan ailəsində anadan olub. İlk təhsilini Qori müəllimlər seminariyasında alıb. 1918-ci il iyunun 30-da Gəncə praporşiklər məktəbinə yunker qəbul olunan Xosrov bəy Şirinbəyov üç ay sonra piyada qoşunları yunkeri kursunu bitirib. Əla oxuduğuna və nizam-intizamlı zabit olduğuna görə hərbi məktəbdə saxlanılıb. 1919-cu il yanvarın üçündə Əlahiddə Qazax batalyonuna hərbi xidmətə göndərilib.

Podpraporşik Xosrov bəy Şirinbəyov Azərbaycanda aprel çevrilişi ərəfəsində Ağstafa stansiyasında hərbi komendant vəzifəsində çalışıb. Bolşeviklər gələndən sonra etibarsız müsavat zabiti kimi komendant köməkçisi təyin edilib. 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirən Xosrov bəy Şirinbəyov ömrünün axırınadək neftayırına mühəndisi işləyib. O, 1948-ci ildə Bakıda vəfat edib.

* * *

1915-ci il noyabrın 28-də Qafqaz cəbhəsində igidliklə döyüşən Sultan bəy Hüseynzadəyə ştabs-kapitan rütbəsi verilib.

1914-cü ildə Birinci Cahan savaşında mərdliklə döyüşən igid zabit Sultan bəy Hüseynzadə göstərdiyi qəhrəmanlığa görə imperiyanın yüksək ordenləri ilə təltif olunub. Onun döyüş xidmətləri dördüncü dərəcəli müqəddəs Anna, üçüncü dərəcəli müqəddəs Stanislav (qılınc və bantla birgə), üçüncü dərəcəli müqəddəs anna (qılınc və bantla birgə), ikinci dərəcəli müqəddəs Stanislav (qılıncla birgə), dördüncü dərəcəli müqəddəs Vladimir (qılınc və bantla birgə) ordenlərinə layiq görülüb.

1918-ci ildə Azərbaycan Milli Ordusu yarananda onun sıralarında könüllü xidmətə başlayan ştabs-kapitan Sultan bəy Hüseynzadə həmin il sentyabrın səkkizindən Əlahiddə Azərbaycan korpusunun qərargahında xüsusi tapşırıqlar zabiti kimi xidmət edib.

1918-ci ilin iyun-sentyabr aylarında Şamaxı, Kürdəmir döyüşlərində bolşevik-daşnaklara qarşı mərdliklə vuruşan Sultan bəy Çoban-Dədə kəndi uğrunda gedən döyüşlərdə kontuziya alıb. 1920-ci ildə birinci Cavanşir süvari polkunda ikinci rotanın komandiri olub. Aprel çevrilişindən sonra taleyi məlum deyil.

## PORT-ARTURUN AZƏRBAYCANLI QƏHRƏMANLARI

1904-1905-ci illərdə Uzaq Şərqdə Port-Artur qalası uğrunda döyüşlərin iştirakçısı iki sərkərdənin - Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovun olduğu oxuculara məlumdur. Təəssüfki, onların da həmin illərdəki döyüş yolları indiyədək xalqımıza çatdırılmamışdır. Hərb tariximizin bu açılmamış səhifələrində arxiv sənədləri əsasında tədqiqat aparanda məlum oldu

ki, indiyədək adı və xidməti unudulmuş general Hüseyn xan Naxçıvanski, şahzadə - general Əmir Kazım Mirzə Qacar, Əbədbəy Talışxanov, şahzadə - podpolkovnik Əliqulu Mirzə Qacar, polkovnik İlyas bəy Ağalarov, Gəray bəy Vəkilov, poruçik Ağababa Sadıqov, Zülfüqar Bağırbəyov da Port-Artur müharibəsində mərdliklə vuruşmuşlar.

Gecə keçirdi, istirahət etməyə hazırlaşırdım. Birdən telefon zəng çaldı. "Belə bivaxt, kimdi görəsən?" - deyə fikirləşib dəstəyi qaldırdım. Zərif səsli bir qadm üzrxahlıq edib:

- Mənə filankəs lazımdır, - dedi.

- Mənəm, eşidirəm sizi...

- Gec olduğu üçün bağışlayın, sizi narahat edən Qalina Semyonovna Səfərovadır. Telefonunuzun nömrəsini indicə çətinliklə öyrənə bildim. Tərtib etdiyiniz general Əliağa Şıxlinskinin "Xatirələrim" kitabını mən də maraqla oxudum. Bilirsiniz, sizi niyə narahat elədim? Bizdə 1905-ci ildə nəşr olunmuş "Niva" jurnalının bir illik nömrələri saxlanılır. Orda Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov haqqında yazılar var, şəkilləri də dərc olunub. Amma nədənsə Şıxlinski kitabına yazdığınız "İzahlar və qeydlər" bölməsində bu barədə oxuculara heç bir məlumat verməmisiniz.

- Qalina Semyonovna, - dedim, - mənim o mənbədən xəbərim yoxdur. Çox sağ olun ki, bu barədə məlumat verdiniz. Günü sabah kitabxanaya gedib...

- Kitabxanaya niyə,- deyə Qalina Semyonovna etiraz etdi, - məmnuniyyətlə jurnalı müvəqqəti istifadə üçün sizə verə bilərəm.

Ertəsi gün Q.Səfərovanın Bəşir Səfəroğlu küçəsindəki mənzilində görüşüb jurnalı birgə vərəqlədik.

"Niva" jurnalı 1905-ci il dördüncü nömrəsinin yetmişinci səhifəsində Əliağa Şıxlinskinin altı nəfər döyüşçü-zabit və iki qadınla birgə çəkilmiş şəklini dərc edib. Şəkilaltı yazıda oxuyuruq:

"Port-Artur müdafiənin igid artilleriya komandiri Əliağa Şıxlinski Suişin kəndinin yaxınlığındakı Drakonovıy Xrebet dağına atəş açaraq yaponların hücumunu dəf etmişdir. Podpolkovnik Şıxlinski göstərdiyi rəşadətə görə "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsinə təqdim edilmişdir. Şəkildə ortada artilleriya komandiri Əliağa Şıxlinski, zabit Mixaylov, Şişkin, Karamışev, Qyünter, Şuleykin və başqaları".

Üçüncü istehkamda olan bu hadisəni illər keçəndən sonra Əliağa Şıxlinski belə xatırlamışdır:

"Tamamilə açıqda duran toplarının atəşi, hücum edən yapon piyada qoşununu geriyə oturtdu. Atışma səsini eşidən polkovnik Mehmandarov general Nadeinin yeraltı qazmasından çıxaraq yanıma gəldi. Fikirləşdim ki, ehtiyatsızlığıma görə hirslənəcəkdir. Vəziyyətlə tanış olduqdan sonra dedi:

-Yaxşı eləmisiniz. Birinci batareyanın bir vzvodunu da sizə köməyə göndərirəm.

Mehmandarov tədbir və sərəncamları bəyəndiyini söyləyib, öz məntəqəsinə qayıtdı. Bu əməliyyata görə mən, köhnə orduda qəhrəmanlıq ordeni olan Georgi Pobedonessov ordeninə təqdim edildim".

Jurnalın həmin səhifəsində həmyerlimiz Səməd bəy Mehmandarovun da şəkli verilib. Haqqında isə belə bir məlumat yazılıb:

"Yeddinci Şərqi-Sibir artilleriya briqadasının general-mayoru Səməd bəy Sadıq bəy oğlu Mehmandarov Port-Artur müdafiəsindəki qəhrəmanlığına görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub".

"Niva"nın yetmiş birinci səhifəsində gözəl, zərif naxışlarla işlənmiş bir buynuz şəkli də verilib. Port-Artur döyüşlərinin komandanı general Anatoli Mixayloviç Stesselə Zaqatala şəhər cəmiyyəti tərəfindən hədiyyə olunan bu buynuz gümüşlə işlənib. Şəklin altında oxuyuruq: "Zaqatala şəhər sakinlərindən general-adyutant A.M.Stesselə dağ keçisi buynuzunu hədiyyə edirik".

"Niva" jurnalı təkcə birillik nömrələrində Azərbaycan xalqının müharibəyə könüllü ianə toplarması haqqında və Qafqaz süvari briqadasının tərkibində vuruşan oğullarımızın qəhrəmanlığı barədə az da olsa məlumatlar verir. Onu da xatırladaq ki, Port-Arturda Ə.Şıxlinski və S.Mehmandarovdan başqa da yapon samuraylarına qarşı döyüşən həmyerlilərimiz olmuşdur. General-mayor Əsəd bəy Talışxanov, Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov,qvardiya polkovniki Kərim bəy Novruzov, polkovnik Davud bəy Yadıgarov, Gəray bəy Vəkilov, poruçik Ağababa Sadıqov və hələ adını bilmədiyimiz onlarca başqaları.

Dövrdən, quruluşdan asılı olmayaraq oğullar həmişə Vətənin əsgərləridirlər. Vətən nə vaxt təhlükə qarşısında olarsa, igidlər bir səslə silaha sarılmağa hazırdılar. Iyirminci əsr tarixə "nəfəsindən" barıt püskürəndə eloğullarımız da bir səslə ayağa qalxıb Vətənin müdafiəsinə gediblər.

Ötən on doqquzuncu əsrin ortalarında Qarabağ igidlərinin, Şirvan alayının, Kəngərli döyüşçülərinin, Qazax süvari dəstələrinin yadellilərə qarşı qeyri-adi qəhrəmanlıqlarının şahidi olan xalqımızın böyük mütəfəkkir oğlu M.F.Axundov fəxrlə deyirdi: "doğmamış Qafqazda analar qorxaq".

Hələ bir xeyli əvvəl (1828-ci ildə) məşhur rus tarixçisi, general Platon Zubov "Gürcüstan və Qafqaz haqqında altı məktub" əsərində yazırdı:

"Müsəlman süvari alayları haqqında mühakimə yürütmək üçün onları döyüşdə görmək lazımdır: bunlar şimşəyi xatırladır, bunlar qəzəblənmiş allahın birdən-birə düşmənlər içərisində düşərək ölüm və dəhşət saçan oduna bənzəyirdi. Müsəlman alaylarının gözlərim önündə törətdikləri igidlik xariqələrini hələ də heyrətlə yad edirəm... Onlar silahdan çox böyük bir məharətlə istifadə edərək, qorxmaz və cəsur süvari kimi döyüşürdülər".

Əgər oxucu Aleksandr Stepanovun "Port-Artur", ya da Trofim Borisovun "Port-arturçular" romanlarını mütaliə edərsə, onda görər ki, 1904-cü il dekabrın on altısında komandan A.Stessel qalanı yaponlara danışıqsız təslim etmək istəyəndə polkovnik S.Mehmandarov və onun zabit heyeti qəti etiraz edərək necə əsəbiləşmişdilər. Səməd bəy Mehmandarov və onun zabit heyəti inad edirdilər ki, qalanı son nəfəsə qədər müdafiə etmək lazımdır. Heç kəs biabırçı vəziyyətdə rusiyaya qayıtmaq istəmirdi.

- Kapitan, sizin kimi zabitlərə orduda qulluq etmək yaramaz, - Mehmandarov onun üstünə qışqırdı. - Siz bizim adımızı korlayırsınız, - deyib yumruğunu havada oynatdı.

- Əlahəzrət, xahiş edirəm, məni təhqirlərdən qoruyasınız, - kapitan Vamezon hirsindən pörtmüş halda Stesselə müraciət etdi.

- Hər şeydən qabaq sakit olmaq lazımdır, cənablar! Polkovnik Mehmandarov, sizi qayda-qanuna riayət etməyə dəvət edirəm.

Qızğın mübahisələr başlandı, zabitlər iki hissəyə bölündülər: bir neçəsi kapitan Vamenzonu, qalanları isə polkovnik Mehmandarovu müdafiə edirdilər" (A.Stepanov, "Port-Artur". səh. 777-778).

1904-cü il yanvarın 26-da Rus-yapon müharibəsi başlananda polkovnik Hüseyn xan Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinci Dağıstan süvari alayına komandanlıq edirdi. Hüseyn xanın alayı 1905-ci il yanvarın 14-də Lan-Lun-Qou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü hücuma keçərək sürətli zərbə ilə yaponları kənddən vurub çıxartmışlar. Bu güclü döyüş səhnəsi məşhur rəssam Mazurovskinin yağlı boya ilə işlədiyi rəsmdə əbədiləşmişdir. Əsərdə alay döyüşçülərinin qızğın həmləsi və süvari polkovniki Hüseyn xan Naxçıvanskinin obrazı ustalıqla işlənmişdir.

Məşhur rus jurnalist A.Kvitka Port-Arturda müharibə başlananda könüllü cəbhəyə getmiş və döyüşlərdə jurnalist-zabit kimi iştirak etmişdir. Müharibə gedə-gedə "Zabaykalye kazak zabitinin gündəliyi" adlı maraqlı bir əsər yazmışdır. 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi həmin kitabda igid eloğlumuz polkovnik Hüseyn xan Naxçıvanski haqqında da maraqlı səhifələr var.

Səhifə 181-də: "Axşam üstü Bensixuda süvari - qvardiyaçı Hüseyn xan Naxçıvanskinin təşkil etdiyi ikinci Dağıstan alayı gözlənilir. Alay qafqazlılardan və süvari qvardiyasında xidmət edən seçmə zabitlərdən təşkil olunmuşdu.

...Avanqard tağımının ardınca yüzlərlə adam polk komandiri, onların da ardınca uca bir ağacın zirvəsində polkovnik Xan Naxçıvanskiyə məxsus qızılı aypara nişanlı dalğalanan dəstə göründü. Alay cərgələnmiş tağımlarla kalon boyu uzanırdı. Biz isə Xanın zabitlərindəki atlara həsədlə baxırdıq. Mən axşam saat onda Hüseyn xanı general Lyubavinin yanına ötürüb, evimə qayıtdım.

Səhifə 245-də: "Dağıstanlıların komandiri Hüseyn xan Naxçıvanski, podpolkovnik Byuntiq və knyaz Tumakov heyətimə daxil olanda səhər saat on bir olardı. Onlar mənimlə nahar etməyə qaldılar... Hüseyn xanın əsgər və komandirləri döyüşlərdə hamıdan seçilirdi. Onları bir şeydə qınamaq olardı, o da həddindən artıq cəsur olmalarında.,."

Səhifə 361-də: "Polkovnik Xan Naxçıvanskinin Qafqaz-kazak briqadasının cəsurları üç yapon nəqliyyatını məhv etmişlər..."

İgid həmyerlimiz, polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı apardığı döyüş məharətinə görə "Müqəddəs Georgi" və dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla "Müqəddəs Vladimir" və "İgidliyə görə" ordenlərilə təltif olunmuşdur.

Rus-yapon müharibəsindəki sərkərdəlik fəaliyyətinə görə Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanskiyə 1907-ci il martın otuz birində general-mayor rütbəsi verilmişdir.

## General Mehmandarov Port-Artur döyüşlərində

1904-cü ildə rus-yapon müharibəsi başlananda Səməd bəy Mehmandarovun qırx səkkiz yaşı vardı. Yelizaveta Nikolayevna ilə evlənmələrinin bir ili tamam olmamışdı. Yelizaveta Kiyev qadın gimnaziyasını bitirmişdi. Port-Artur hərbi səhra xəstəxanasında şəfqət bacısı işləyirdi. Səməd bəy kimi o da zadəgan nəslindən idi. Iyirmi bir yaşlı Yelizavetaya həyat, elə bil anadan olandan səbr dərsi keçmişdi. O, nə ağır hərb işinə, nə də yaralı əsgərlərə qarşı laqeyd deyildi. Zadəganlara məxsus sadəliklə Yelizaveta əsgərlərlə çox mehriban davranırdı. Yaralıları müalicə edir, savadsız olanların ailəsinə məktub yazır, müharibə çətinliyinə səbrlə, dəyanətlə dözürdü.

Bir dəfə Səməd bəy ona deyir: - Komandanlıqdan sənin Peterburqa qayıtmağına icazə almışam. Hazırlıq gör, sabah, ya da birisi gün səni yola salacam.

Ərinin üzünə şax baxan Yelizaveta:

Səməd bəy, demişdi, ölkədə müharibə gedirsə, səncə əsgərin yeri harada olmalıdır? - Əlbəttə cəbhədə! Bax, mən də cəbhədəyəm, yoxsa məni qadın görüb əsgər olmağıma şübhə edirsən? Axı, sən ana olmağa...

Bir də bu söhbətə qayıtmayaq. Söz verirsən... Bu mövzudan vaz keçək, əzizim! Sənsiz mənə Peterburq yox, heç Paris də lazım deyil.

Bu, ərinə, Vətəninə sadiq bir qadının açıq ürək söhbəti idi. Yanvarın iyirmi altısında gecə yaponlar rusların Port-Artur limanında dayanan eskadrasına hücum edib "Retvizan", "Sesareviç" zirehli gəmilərini və "Pallada" kreyserini yandırdılar.

Müharibə başlandı. Səhərisi Səməd bəy Mehmandarovu yeddinci Sibir atıcı topçu divizionunun komandiri təyin etdilər. Bu, quru qoşunlarının komandanı, general-mayor Roman Kondratenkonun əmri idi. Roman İsidoroviç Mehmandarovun döyüşdə dəyanətinə, komandirlik bacarığma yaxşı bələd idi. Məhz ona görə də Səməd bəyi Şərq cəbhəsinin rəisi təyin etdi. Bura Port-Artur müdafiəndə ən mühüm cəbhə hesab olunurdu. Yaponlar ən güclü qüvvəni də buraya yeritmişdilər. Onlar şiddətli həmlələr edirvə arası kəsilmədən bombalar yağdırırdılar. Polkovnik Səməd bəy Mehmandarov komandan Kondratenkonun ən yaxın köməkçilərindən biri idi. Topçuların əməliyyatma bacarıqla rəhbərlik edən Mehmandarov qala mühasirədə olanda həmişə ön mövqelərdə və çox təhlükəli yerlərdə sərrast atəşlə samurayların hücumunu dəf edirdi.

Port-Artur müharibəsinin başlanmasından doxsan yeddi il keçir. Bu müddətdə rus dilində minlərlə ədəbi-bədii, elmi və publisistik əsəriər nəşr olunub. Xüsusilə, 1905-1910-cu illərdə bu mövzuda çoxlu gündəliklər və xatirələr yazılmışdır. 1906-cı ildə P.Larenkonun "Port-Arturun əzablı günləri" kitabı da bu qəbildəndir. Burda sərkərdə eloğlumuz Səməd bəy Mehmandarovun təkcə döyüş qabiliyyəti deyil, həm də onun şəxsiyyət kimi dönməzliyi, böyüklüyü şahidlərin

dili ilə verilib. Ilk dəfə Azərbaycan oxucularına təqdim etdiyimiz gündəlikdən parçaları oxuyanda istər-istəməz həmyerlimizə görə iftixar hissi keçirirsən.

Həmin kitabın "Noyabr hücumları" fəslində, səhifə 494-də: "Hələ avqust bombardmanı zamanı yaponlar hiss etdilər ki, hardansa, arxadakı fortlar xəttindən onları dəqiq atəşə tutublar. Polkovnik Mehmandarovun komandası altında olan yeddinci Şərqi-Sibir artilleriya divizionu (yəni səhra artilleriyası) həmləyə məruz qalmış istehkam xəttinin sağ cinahının arxasında örtülü mövqeləri tutaraq müdafiəyə böyük kömək göstərirdi. Çünki qala artilleriyası hələ bombardmanın ilk günlərində çoxzərər çəkmişdi. Polkovnik Səməd bəy Mehmandarovun səhra artilleriyası ən fədakar həmlələri belə dəf edərək yaxınlıqda olan yapon batareyaları ilə son dərəcə müvəffəqiyyətlə vuruşurdu".

**Səhifə 597-də:**

"S. daxil oldu. O, söhbət edirdi ki, ön həmlənin topçularından polkovnik Mehmandarov (sağ cinahın bütün artilleriya üzrə komandiri) və podpolkovnik Stolnikov öz şəxsi təhlükələrinə qəribə nifrətlə yanasırlar; bombardman vaxtı batareyalarda elə gəzirdilər ki, elə bil partlayan mərmiləri görmürlər. Belə ki, onlar bu hərəkətləri ilə yerdə qalanları da ruhlandırırdılar. Onların birincisi qafqazlılara məxsus cəngavər kimi, ikincisi isə taleyinə sədaqətlə itaət edən dindar adamlar kimi davranırdılar.

Burda - səhra artilleriyasının öhdəsinə başlıca olaraq həmləni və şrapnellə, karteclə düşmən kolonlarını məhv etmək məsələsi düşür. Qala topları çox ziyan çəkdiklərindən, səhra artilleriyası isə tez-tez yerini dəyişdiyindən onlarla mübarizə aparmaq yaponlar üçün çətin idi. O isə zərbələri elə hey endirirdi".

**Səhifə 606-da** (11-24 dekabr):

"Yaralı zabitlərlə apardığım söhbətlərdən polkovnik Mehmandarov haqqında bəzi şeyləri öyrəndim. O, cəsur, özünü çox sevən, tabeliyində olanlara tam ciddiyyətilə yanaşan bir adam idi. Onları məcbur edirdi ki, şəxsi mərdlikləri ilə hamıya nümunə olmağı bacarsınlar. Təbiətən coşqun, hərarətli olan bu adam sözünü çox kəskin deyirdi. Polkovnik Mehmandarov deyirdi ki, yalnız şücaət göstərməyi bacaran, ağlıllı, özünü sevən adamları qiymətləndirir; karyeraçı zabitlərinsə ən böyük arzusu - həyatlarını qoruyub saxlamaq və heç bir xidmət göstərmədən ordenlər almaqdır".

**Səhifə 630-da** (17-30 dekabr):

"Üçüncü fortun məğlubiyyəti bizim artilleriyanın vəziyyətinə pis təsir göstərdimi? - sualına polkovnik Mehmandarov belə cavab verdi ki, o, vəziyyətdə heç bir ağırlaşma görmür. Artilleriya şəraitinin pisləşməsinə üçüncü fortun heç bir mənfi təsiri yoxdur.

Yalnız general Fok özünü birbaşa cavabdan qaçıraraq, ümumi nəticəsi olmayan bir yığın söz dedi".

**Səhifə 643-də** (18-31dekabr):

"Kimsə döyüş meydanından belə bir xəbər gətirdi ki, bu gün general Fokla polkovnik Mehmandarovun arasında ciddi mübahisə olub. Fok sübut etməyə çalışırdı ki, qala artıq dözməyəcək; Mehmandarov isə sübut edirdi ki, ayrı-ayrı istehkamların məhvi hələ qalanın sonu çatdığına sübut deyil, çünki müdafiənin ikinci xəttindən də müqavimət göstərınək olar.

Döyüş meydanında isə tək-tək atırdılar. Qaranlıqdır. Üçüncü fort istiqamətində, bəzən də qayalıqdan qırmızı fənərlər görünürdü. Deyirlər ki, bufənərlər bizim sanitarlara sarğı məntəqəsini nişan verir.

Bərk yorğunluq hiss edirəm, ona görə də indi uzanıb yatacağam".

**Səhifə 690-da** (23 dekabr-5 yanvar):

"S. mənə xəbər verdi ki, dünən yapon artilleriyasının rəisi qərargahı ilə birgə qalaya gəlmişdi və qalanın sağ cinahının artilleriya rəisini, polkovnik Mehmandarovu (mühasirə zamanı general-mayor olmuşdu)[15]" axtarırdı. Səməd bəy Mehmandarov faktiki olaraq avqust ayının ortalarında bütün artilleriyaya rəhbərlik edirdi.

Görüş zamanı o belə bir söz işlətdi: "Hörmətli qonaqlar yəqin səhv salıblar. Onlar çox güman ki, qala artilleriyasının rəisi, general Belını görmək istəyirlər. Lakin qonaqlar cavab verdilər ki, məhz mübarizə aparmaqda böyük əziyyət çəkdikləri özlərinə möhtərəm rəqib sandıqları adamla Mehmandarovla tanış olmaq onlar üçün çox maraqlıdır. Onlar general Mehmandarovun şəninə çoxlu tərifli sözlər, komplimentlər dedilər; etiraf etdilər ki, Port-Artur yaxınlığında yapon artilleriyasının verdiyi itki olduqca çoxdur. Iyirmi bes minə kimi adam tələf olub, çoxlu yapon silahı məhv edilib, həmçinin Port-Arturda mərmilərin çatışmamazlığı onların məsələsini yüngülləşdirib.

General Mehmandarov əsirliyə yola düşdü...O, vicdanına and içib "evə" gedənlərin ən qəddar düşməni olacağanın bildirdi.

Gündüz saat on ikidir. Yaralıların yanında idim. Hər yerdə eyni söz-söhbət - qalanın təhvil verilməsindən və əsirlikdən gedirdi".

**Səhifə 752-də** (3-16 yanvar):

"Hakimiyyətm ələ keçirilməsi" haqqında müxtəlif fikirlər söylənirdi. Məsələn: həmişə döyüş mövqelərinin sağ cinahında olan F. və Ş. qeyd etdilər ki, guya mövqelərdə necə olubsa, onların yanında polkovnik (indi general) Mehmandarov da söhbət əsnasında bu mövzu haqda öz fikrini bildirınişdi: - "Hakimiyyəti ələ keçirmək" nə deməkdir? Mən bunu başa düşmürəm! Əgər mən

---

[15] Port-Artur döyüşlərində xidmətlərinə görə Səməd bəy Mehmandarova 1904-cü oktyabrın 22-də general-mayor rütbəsi verilmişdir. – Ş. N.

komendant olsaydım və vəzifəmin öhdəsindən az da olsa gələ bilsəydim, mənim qanuni hakimiyyətimi görüm əlimdən kim ala bilərdi?!... Əgər elə adam tapüsaydı mən deyərdim: Əlahəzrət, nə qədər ki, kimin əsil komendant olduğunu ayırd etməmişik, bu verdən heç yana tərpənən deyilik... Bu ilin sonu nə qədər axmaq nəticələr versəydi belə, məni bu yolda niyyətimdən heç bir şey döndərə bilməzdi".

Həmişə ön cəbhədə olan Səməd bəy Mehmandarovun Port-Artur döyüşlərində xüsusi xidmətləri olmuşdur. Yaxşı ki, onun müasiri olan jurnalistlər Səməd bəyin döyüş fəaliyyətini qələmə almışlar.

Jurnalist E. K. Nojin Port-Arturda çıxan "Novıy kray" qəzetinin xüsusi müxbiri olmuşdur. Odlu cəbhələri gəzən jurnalist maraqlı gündəliklər müəllifidir. Qeydlərindən aydın olur ki, o, general eloğlumuz Səməd bəy Mehmandarovla həmişə ön xətdə görüşərıniş. Rus jumalisti azərbaycanlı sərkərdənin vətəni Qafqaz üçün darıxmasının da şahidi olub:

"...Blindaja girdim. General Nadein həmişəki kimi sakitdir. Onun qərargah rəisi Stepanov yorğundur. Burda bir neçə zabit var. Polkovnik Mehmandarov da burdadır. Biz həmişəki kimi çox səmimi görüşdük. Mehmandarov heyranlıqla vətəni Qafqazı yad edirdi:

- Qafqaz çox yaxşıdır, çox gözəldir! deyirdı. Təbiət hər şeyin keyfiyyətinə zəmanət verərək ona öz möhrünü vurmuşdur. Amma bədbəxtlik ondadır ki, bəzən daş lazım olan yerdə bir dənə də daş tapmazsan, lazım olmayan yerdə isə sayı-hesabı yoxdur. Su lazım olan yerdə bir damla da su olmur, ehtiyac olmayan yerdə dərya qədərdir. - Ani olaraq dayanan Mehmandarov sözünə davam etdi: Bəs islam? Yaxşı nə varsa onu sonrakı həyatın verəcəyini vəd edir. Hər şey çox yaxşıdır, amma bizə cənnətdə yeddi mələk boyun olublar, yeddisinin də gözü girdə, Sizcə bu nə olan işdir? Peşimançılıq deyilmi? Bilirsinizmi, mən indi heç nə istəmirəm nə cənnəti, nə də mələkləri. Mən yalnız bir azca istirahət istəyirəm.

Ətrafda hər yanda mərmilər partlayırdı. Onların ikisi blindajnı tavanına düşdü. Zabitlər qorxu hissi ilə ayağa durdular. İgid polkovnik Mehmandarov isə heç tövrünü belə pozmadı. Onun iri, ağıllı gözlərində zərrəcə qorxu hissi yox idi".

Səməd bəy Mehmandarovun ən təhlükəli döyüşdə belə özünü itirmədiyinin şahidi olan Əliağa Şıxlinski yazır ki, oktyabrın on dördündə qala topa tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən on bir düyməli topdan, otuz yeddi millimetrlik xırda dəniz topuna qədər müxtəlif toplarla atəşə tutulmuşdur. Həm də, bu mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altı düyməlik mərmi partladı və yerdən qalxan qara palçıq onun üstünü buladı, amma yaralanmadı.

Mehmandarov buna əsla əhəmiyyət verməyərək, böyük bir soyuqqanlıqla cibindən ağ dəsmalını çıxarıb, gözəl təzə paltosunun üzərinə sıçrayan palçığı silməyə başladı.

* * *

Dekabrın ilk günlərində yaponlar qalaya iki ağır zərbə vurdular. Rusların inadlı müqavimətinə baxmayaraq, onlar qalanın bir neçə mühüm fortlarını tutdular.

İkinci ağır zərbə isə dekabrın ikisində oldu. Komandan general Roman Kondratenko qəhrəmanlıqla həlak oldu.Əvəzində iradəcə zəif olan general Fok komandan təyin edildi. On altı gün sonra yaponlar qalanın taleyini həll edən Drakonovıy Xrebet dağını ələ keçirdilər. Port-Arturuq qorxaq və istedadsız komendantı general Stessel qalanı dərhal düşmənə təslim etmək üçün hərbi şuranın iclasını çağırdı. Şurada iştirak edən bəzi komandirlər Stesselin təklifinə şərik odular. Lakin general-mayor Səməd bəy Mehmandarov, polkovnik Semyonov və bir qrup mərd zabitlər təslim olmağa qəti etiraz etdilər. Döyüşkən zabitlər inad edirdilər ki, güclü yapon ordusunu geri oturtmağa hələ qüvvələri çatar. General Mehmandarov başda olmaqla onlar deyirdilər ki, qala hələ özünü saxlamağa qadirdir. Nə qədər ki, mərmi var, toplardan atəş yağdıracağıq. Nə qədər ki, patron var, tüfənglərdən atəş açacağıq. Mərmi və patron qurtardıqda isə süngü ilə döyüşəcəyik.

Lakin cəsarətsiz general Stessel mərd zabitləri eşitmədi, silahı yerə qoymağı qarnizona əmr etdi. Sonralar Rusiyaya qayıdanda general Stessel qala müdafiəçilərinin tələbi ilə Port-Arturu təslim etdiyinə görə hərbi məhkəməyə verildi.[16]

General-mayor Mehmandarov və onun zabit dostları qala təslim edildikdən sonra da hərbi anda sadiq qalaraq başqa əsgər və zabitlər üçün nümunə göstərdilər. Yaponların şərtlərinə görə əsgərlər hərbi əsir almır, zabitlər isə Yaponiyaya qarşı bir daha müharibədə iştirak etməyəcəkləri barədə yazılı iltizam verəndən sonra Rusiyaya qayıda bilərdilər. Stesselin ətrafindakı mürtəce fikirli bir qrup zabit dillərindən belə bir iltizam verdilər. Lakin xalqımızın igid oğlu Səməd bəy Mehmandarov zabit şərəfini təhqir edən belə bir alçaq vəddən boyun qaçırdı. Bir daha Yaponiyaya qarşı müharibədə iştirak etməyəcəyi barədə iltizam vermədiyinə görə general-mayor Səməd bəy Mehmandarov əsir alınıb Yaponiyanın Naqoya şəhərinə göndərildi. O, 1905-ci il avqustun 23-də Portsmut sülh müqaviləsi bağlanandan sonra Rusiyaya qayıda bildi.

Üç yüz otuz iki günlük məşhur Port-Artur qalasının müdafiəsi general Səməd bəy Mehmandarovun taleyinə belə qismət oldu.

* * *

Aleksandr Stepanovun "Port-Aotur", P.Lorenkonun "Port-Arturun əzablı günləri" və Trofım Borisovun "Port-arturçular" romanlarında bir azərbaycanlı soyadında da rast gəldik - poruçik Sadıqov. Bu əsərlərdə poruçik Sadıqovun əzablı döyüş yolu yazıçılar tərəfindən maraqla izlənilir. Hətta P.Lorenkonun 1906-cı ildə Peterburqda nəşr olunmuş "Port-Arturun əzablı günləri" sənədli əsərində (II cilddə) yaralanmış poruçik Sadıqovun hospitalda müalicə olunduğu vaxtda iki dəfə

[16] 1906-cı il noyabrın 27-də Petrburqda başlayan hərbi məhkəmədə general Səməd bəy Mehmandarov şahid kimi iştirak etmişdir. O, Port-Arturu düşmənə vaxtından əvvəl təslim edən general Stesseli, Foku və Simirnovu əsaslı faktlarla günahlandırmışdır. Məhkəmə iki il davam etmişdir. Nəticədə general-leytenaant A. Stesselə əvvəlcə güllənmə, sonra Petropavlovsk qalasında saxlamaqla on il həbs cəzası kəsilmiş, 1909-cu il mayın 6-da isə şar II Nikolay onu əhv etmiş və xaricə getməsinə şərait yaratmışdır.- Ş. N.

fotoşəkli də dərc olunub. Döyüşlərdə mətanət və mərdliklə vuruşan poruçik Sadıqov qəhrəmanlıqla həlak olub. Poruçik Sadıqov kimdir?

Bu barədə “Kommunist” qəzetinin doqquz sentyabr 1984-cü il tarixli sayında dərc edilən yazısından sonra respublikamızın ayrı-ayrı bölgələrindən çoxlu məktub aldım. Xeyli adam poruçik Sadıqovun onun qohumu olduğunu yazırdı. Lakin Sabirabad Böyük-ağa Sadıqovun gətirdiyi faktlar, sənədlər və fotoşəkillər sübut elədi ki, poruçik Ağababa Hacıbaba oglu Sadıqov onun əmisidir. Poruçik Ağababa Sadıqov 1875-ci ildə Şamaxının Ərdəbilli məhəlləsində ziyalı ailəsində anadan olub. Atası Hacıbabanın Peterburq və Moskvada ipək dükanı varmış. 1903-cü ildə oğlu Ağababa Peterburqdakı Mixaylov topçuluq məktəbini bitirib. 1905-ci ilin əvvəllərində igid poruçik Ağababa Sadıqovun həlak olması haqqında qara kağız da alınıb.

Port-Artur döyüşçüləri haqqında aprel inqilabına qədər onlarca əsərlər yazılıb. Kabardan ve çeçen igidlərinin Port-Arturdakı döyüş fəaliyyətləri haqqında Əhmədxan Naloyevin “Dan üzünün atlıları” tarixi romanı, Vikenti Veresayevin “Yapon müharibəsi haqqında hekayətlər” silsiləsi, yazıçının irihəcmli gündəlik və yol qeydləri, Sergey Senskinin “Susima”, N.A.Levitskinin “1904-1905-ci illərdə rus-yapon müharibəsi” maraqla oxunan əsərlərdəndir. Bunların hamısında eloğlularımızın qəhrəmanlığı haqqında az-çox məlumat verilir.

“Niva” jurnalının 1905-ci il iyirmi beşinci sayının 496-cı səhifəsində bir həmyerlimizin də adına və fotoşəklinə rast gəldim. Onun haqqında ancaq bu sözlər yazılmışdı: “Otuz üçüncü Şərqi-Sibir atıcı alayının poruçiki Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov fevral döyüşlərində igidliklə vuruşub kontuziya oldu”.

Adından, atasının adından və soyadından poruçik Zülfüqar Bağırbəyovun azərbaycanlı olması şübhəsizdir. Düşünürdüm. Görəsən, Uzaq Şərq sərhədləri uğrunda igidliklə vuruşan poruçik Zülfüqar Bağırbəyovun qohum-qardaşından sağ qalanı varmı? Doxsan ildən çoxdu bu tərlan baxışlı igid həmyerlimizin fotoşəkli “Niva” jurnalının səhifələrində saralıb solur.

Taleyin qismətinə min şükür ki, axtarışlarım bəhrə verdi. Sevindim ki, uzun illərdən sonra igid həmyerlimizin unudulmuş adı, xidməti xalqımıza bəlli oldu.

1987-ci ildə İçəri şəhərdə yaşayan səksən iki yşlı bir ağsaqqalla görüşdüm. Məmməd Cavad oğlu Bağırov bildirdi ki, “Niva” jurnalından” şəklini götürdüyünüz poruçik Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov mənim doğma əmimdir. Əmim Zülfüqar 1874-cü ildə Şuşada anadan olub. Port-Artur döyüşlərindən sağ-salamat qayıdan əmim Novobəyazid süvari alayında ştabs-kapitan rütbəsində xidmət edib. 1912-ci ildən 1914-cü ilə qədər Bakı şəhərində hərbi komendant işləyib, rütbəsi mayor idi. Birinci dünya müharibəsi illərində Avstriya və Ruminiya cəbhələrində döyüşlərdə iştirak edib.

Zülfüqar bəyin müasiri, Azərbaycan Cümhuriyyətinin liderlərinden biri Nağı bəy Şeyxzamanlı Türkiyədə çap etdirdiyi “Xatirələrim” kitabında yazır ki, Zülfüqar bəy Bağırbəylinin Birinci Dünya müharibəsində, 1915-ci ildə Qafqaz cəbhəsində ucqar Olti qəzasında məchul bir güllə ilə vurulduğunu ailəsinə xəbər verdilər. Sonradan məlum oldu ki, Zülfüqar bəy bir erməni tərəfindən vurulmuşdur. Ancaq rus komandanlığı tərəfindən qatil axtarılmamış və cinayət “məchul güllə ilə törədilmiş” deyə ört-basdır edilmişdir.

*    *    *

Böyük türk dünyasının nüfuzlu orqanı "Tərcüman" qəzeti Port-Artur müharibəsinin gedişatını müntəzəm izləmiş və öz səhifələrində orduda qəhrəmanlıqla döyüşən, dini müsəlman olan əsgər və zabitlərin fəaliyyətindən xəbərlər dərc etmişdir.

Qəzet 11 iyun 1904-cü ildə "Müxtəlif xəbərlər" rubrikasında yazırdı: "İstehkamçı kapitan İlyas bəy Ağalarov yeni podpolkovnik rütbəsi alaraq Uzaq Şərq döyüşlərinə yola düşür. Məşhur bəy nəslinin nümayəndəsi İlyas bəy Ağalarov əla hərbi təhsil almaqla elektrotexnika sahəsində də görkəmli mütəxəssis olmuşdur. Onun orduda keçən hərbi xidməti, həyatı və rutbəsi Rusiyada yaşayan hər bir müsəlman əhlində iftixar hissi doğurur".

Gürcüstan Mərkəzi Dövlət Arxivində İlyas bəy Ağalarova məxsus azsaylı sənədlərdən məlum olur ki, o, Port-Artur döyüşlərinden sağ-salamat qayıtmışdır. Sonralar İkinci Qafqaz istehkamçı batalyonunun komandiri olan polkovnik İlyas bəy Ağalarov 1860-cı ildə Gəncədə nüfuzlu bəy ailəsində dünyaya gəlib. 1913-cü ildə martın on səkkizində qəfil mərmi partlayışından həlak olub. Bu sərkərdə eloğlumuzun məzarı hazırda Gəncədəki İmamzadə məscidinin həyətindədir. Məzarın mərınər başdaşında solmaqda olan "Qvardiya polkovniki İlyas bəy Ağalarov" sözlərini oxuyanda unudulmuş igidin xatirəsi qəlbimi göynətdi. İllərin tufanı mərmər qəbir daşından onun sonuncu izini də silib aparır... sərkərdəlik fəaliyyəti lazımınca öyrənilməmiş və hərb tariximizin heç bir səhifəsində indiyədək adı çəkilməyən belə igidlərimizi düşünəndə: "Hər bir insanın içərisində onunla birgə doğulan və ölən kainat var. Hər bir başdaşı altında bütöv bir dünya tarixi yatır." deyimini xatırlamaya bilmirsən.

"Tərcüman" qəzeti 5 noyabr 1904-cü ildə "Müsəlmanlar Port-Arturda" adlı xəbərində yazırdı: "Mancuriya ordusunun sıralarında və həmçinin Port-Artur döyüşlərinin qəhrəman müdafiəçiləri arasında azsaylı müsəlmanlar da şərəflə vuruşurdular. Redaksiyanın aldığı məktubdan aydın olur ki, yeddinci Şərqi-Sibir artilleriya divizionunun rəisi, general-mayor Səməd bəy Sadıq bəy oğlu Mehmandarov Qarabağ bəylərindəndir. Qala artilleriyasının xəzinədarı isə Litva müsəlmanlarından olan Ədhəm bəy Muxarskidir. Şimali Qafqazdan olan artilleriya podporuçiki E.İ.Dudarov isə avqust hücumlarının birində mərd zabit kimi şərəflə həlak olmuşdur. Allah ona rəhmət eləsin. Amin!".

"Tərcüman" qəzeti iftixarla onu da bildirir kı, Port-Arturda altmış mindən çox müsəlman əsgər və zabiti döyüşür.

## General Əliağa Şıxlinski Port-Artur döyüşlərində

**Azərbaycanılar birinci dəfə deyil ki, vuruş meydanlarında yaponlarla qarşı-qarşıya gəlirlər. Mən Port-Artur uğrunda gedən döyüsiərdə fərqlənmiş məşhur topçu**

**Əliağa Şıxlinskinin adını çəkə bilərəm. Bu ad rus hərbi elmi tarixində şöhrət qazanmısdır.**

**Səməd Vurğun.**

Port-Artur döyüşlərində qala müdafiə zamanı düşmən həmlələrinin dönə-dönə dəf edilməsində top artilleriyasının mahir ustası Əliağa Şıxlinskinin döyüş xidmətləri misilsizdir. Onun 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdı. Qəhramanlığı altı ordenə layiq görülən, rütbəsi kapitandan podpolkovnikə yüksələn Şıxlinski haqlı olaraq "Xatirələrim"də yazır ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm. 1905-ci il aprelin 1-də "Tərcüman" qəzetinin "Müxtəlif xəbərlər" rubrikasında oxuyuruq:

"Dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Əliağa Şıxlinski oktyabrın yeddisindən noyabrın on doqquzunadək Port-Arturda yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün Ali ehtiramla "İgidliyə görə" medalı və üstü yazılı Qızıl qılıncla təltif olunub".

Həmin döyüşlərin iştirakçısı 1906-cı ildə "Port-Arturun əzablı günləri" adlı ikicildlik monumental əsərin müəllifi P.Larenko yazır ki, Laperov dağında batareya komandiri kapitan Əliağa İsmayıl ağa oğlu Şıxlinski ağır yaralanmışdır. Bütün qafqazlılar kimi cəsur olan bu komandir Kinjo döyüşlərində, "Zelyonnı" və "Volçye" dağları vuruşmalarında əsl qəhrəman kimi iştirak etdi. Avqustun əvvəllərində öz batareyası ilə "Vısokaya qora"da, avqustun onundan isə daima Laperovda olmuşdur. Elə buradan da girəcək yerlərini və istehkamları atəşə tutub həmlə kolonnalarını dəf edərək düşmənin səhra artilleriyası ilə inamlı döyüşlər aparırdı.

Port-Artur qalası təslim olandan sonra müharibədə iştirak etməmək şərtilə yaponlar podpolkovnik Əliağa Şıxlinskinin ağır yaralı kimi vətənə göndərdilər. Vətəndə yaraları gözlənildiyindən də tez sağaldığından o yenidən Mancuriya ordusuna göndərilməyi xahiş etdi. Lakin onu buraxmadılar.

Müharibədən sonra Rusiyaya qayıtmağını və yenidən cəbhəyə getmək istədiyini Əliağa Şrxlinski "Xatirələrim" hərbi memuarında daha dəqiq təsvir edir. O, yazır: "Mayın ikinci yarısında mən Peterburqa gedib böyük knyaza təqdim olundum və Mancuriya ordusuna qayıtmaq istədiyimi ona söylədim. O, məndən soruşdu:

- Siz oraya necə gedə bilərsiniz?

Onda mən hospitalımızdan aldığım şəhadətnaməni ona göstərdim. Şəhadətnamədə yazılmışdı ki, yapon tibb komissiyası məni hərbi qulluğa yararsız hesab edərək dilimdən iltizam almadan vətənimə qayıtmağa icazə vermişdir. Beləliklə, - dedim - hazırkı müharibədə iştirak etməyə tam ixtiyarım var. Rusiyaya qayıtmağımın səbəbi ancaq budur, yoxsa müdafiədə iştirak etmiş o biri əsgərlərin taleyinə şərik olardım.

Bu sözləri deyərkən ağlıma gəldi ki, mənim bu fikrim yaponlarla vuruşmamaq üçün dillərindən kağız verərək vətənlərinə qayıdan zabitlərə qarşı bir ittiham kimi düşünülə bilər, odur ki, dərhal əlavə edib dedim:

- Orada zabitlərin arasında iki rəy var idi: bir qismi deyirdi ki, bizim böyük təcrübəmiz var, buna görə də vətənə gedib orada Mancuriya ordusuna göndərilmək üçün yeni qüvvələr hazırlamaqla fayda verə bilərik. O biri hissə isə (o cümlədən mən) başqa cür düşünürdük. Bu zabitlərin fikrincə ordu ancaq qismən səfərbərliyə alınmışdır, vətəndə zabitimiz çoxdur, odur ki, orada bizim köməyimizə heç bir ehtiyac yoxdur. Buna görə də əsgərlərin taleyinə şərik olmaq lazımdır. Mənim bəxtim orada gətirdi ki, məni hərbi qulluğa yararsız hesab etdilər. Belə ki, dilimdən yaponlara heç bir iltizam vermədən evimə qayıtdım. İndi Sizdən xahiş edirəm ki, məni müharibəyə göndərəsiniz.

Sergey Mixayloviç əlilə işarə edərək dedi:

- Müharibədə nələr çəkdiyiniz yetər, buraxmaram".

1905-ci il aprelin 5-də yapon tibb komissiyasının verdiyi arayış generalın arxivində indi də saxlanılır. Onun mətni belədir:

"Arayış doqquz saylı ehtiyat səhra hospitalından dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Şıxlinskiyə verilir. Ondan ötrü ki, onun yapon tibb komissiyası tərəfindən hərbi xidmətə yararlı olmadığı (Əliağa Şıxlinski sol qıçından yaralandığına görə yapon həkimi arayışı belə yazmışdı - Ş.N.) müəyyənləşdirilib. O, Rusiyaya buraxılır".

Yapon tibb komissiyasının onun hərbi qulluğa yararsız hesab etməsinə baxmayaraq, dılindən yazılı iltizam verməyən Əliağa Şıxlinski Vətənə qayıdandan sonra yenidən yaponlarla döyüşmək üçün Mancuriya müharibəsində iştirak etmək arzusunda olduğunu bildirir. Lakin topçu general-müfəttişi knyaz Sergey Mixayloviç "Port-Arturda çəkdiyiniz yetər, buraxmaram" - deyir və onun yenidən cəbhəyə qayıtmasına qıymır.

Onun Port-Arturdakı nümunəvi döyüş xidmətləri "İgidliyə görə" sözlərlə yazılmış qılıncla, dördüncü dərəcəli "Müqəddəs Anna" ordeninə əlavə olaraq qızıl qılınc nişanı, qılınc və bantlı "Müqəddəs Vladimir" ordeni üzərində "İgidliyə görə" sözləri yazılmış qızıl silah və məşhur "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsinə layiq görülmüşdü.

Azərbaycan Tarixi muzeyində generalın şəxsi əşyaları arasında 1908-ci il martın 5-də imperator tərəfindən təsdiq olunmuş "Port-Artur qalasının müdafiəçisi döş nişanı" saxlanılır. Onu Əliağa Şıxlınskinin ünvanına keçmiş Kvantun vilayətinin və Port-Artur şəhər sovetmin sədri podpolkovnik İ.A.Verşinin göndərib.

Port-Artur döyüşlərinin şahidi, yazıçı Aleksandr Stepanovun "Port-Artur" və "Zvonaryovlar ailəsi" romanları tarixi əsər kimi ədəbiyyatın qızıl fonduna daxil olmuşdur. İndiyədək on doqquz dəfə nəşr olunan romanın tirajı milyonu keçmişdir. İngilis, fransız, macar, yapon və başqa dillərə də tərcümə olunan belə bir məşhur əsərin səhifələrində (271, 350, 353 və s.). Kapitan Əliağa Şıxlinskinin qəhrəmanlıq fəaliyyəti öz əksini tapmışdır.

"...İrman ədəb-ərkanla təzim edib çevrildi və otağı tərk etdi. Diviziya rəisinin yanından çıxandan sonra İrman cəld xəstəlik haqqında raport və komandan Kondratenkoya müfəssəl məktub yazdı. Sonra isə məktubu Əliağa Şıxlinskiyə verdi və dərhal generalın yanına getməsini əmr etdi. Irman kapitana xeyir-dua verib dedi:

- Sizdən çox şey asılıdır, Əliağa.

- Narahat olmayın, Vladimir Aleksandroviç. Əliağa hələ indiyə kimi heç kəsin etimadını yerə salmayıb, ömründə satqınlıq eləməyib. Əgər general Fok yeddinci diviziyanı yaponların zərbəsi altına salmaq istəyirsə o, buna nail ola bilməyəcək. Onun kələyini kəsmək və general Kondratenkoya kömək etmək üçün bütün qüvvəmi əsirgəməyəcəyəm.

Bunu deyib, Şıxlinski sıçrayıb ata mindi və dördnala çaparaq ordan uzaqlaşdı...".

Keçmiş SSRİ xalqlarının bir neçə dilinə tərcümə olunan bu qiymətli roman təəssüf ki, hələ də Azərbaycan mütərcimini gözləyir, Romanda təkcə kapitan Əliağa Şıxlinskinin yox, həm də general Səməd bəy Mehmandarovun, poruçik Ağababa Sadıqovun fəaliyyətini oxuduqca fəxr etməyə bilmirsən.

"...Praporşik çadırdan çıxıb öz komandasının qərar tutduğu yerə tərəf getdi. Yolda Əliağa Şıxlinski də ona qoşuldu. İrmanın tapşırığı ilə o, batareyaya baş çəkməli və indiki mövqelərindən getmək üçün onları xəbərdar etməli idi.

Necə, artilleriya da bu sahəni tərk edir? deyə Zvonaryov təəcübləndi.

Fok əmr verib ki, bütün topları yığışdırmalı, mühəndislər isə səngərdəki sipərləri söküb, materiallardan mövqeyimizin başqa sahələrində istifadə etməlidir.

Qısası, Kondratenkoya boş yer verilir ki, orada hər şeydən əvvəl yeni istehkam düzəltsin.

- Ehtimal ki, yaponlar istehkamları sökdüyümüzü görüb bizdən qabaq hücuma keçsinlər.

Bu barədə generalı təcili xəbərdar etmək lazımdır, Zvonaryev qərara gəldi və geri Semyonovun qərargahına qayıtmaq istədi, lakin kapitan Əliağa Şıxlinski təklif etdi ki, ora şəxsən özü getsin.

Çox da narahat olmayın. Mənim briqada komandirim polkovnik İrman qərara gəlib ki, sağ cinahdakı batareyaları Fokun əmrinin əksinə olaraq hələlik yerində saxlamaq lazımdır. Mən şəxsən polkovnik Mehmandarovla görüşəcəm. Biz onunla köhnə dostlarıq, bir-birimizi yek kəlmədən başa düşərik, Fok necə əmr verirsə versin, mənim zabiti olduğum podpolkovnik Laperovun batareyası Kondratenkonun diviziyasının polkunu köməksiz qoyub getməyəcək, deyə Şıxlinski coşmuş halda dilləndi. Romanovskinin sağdakı batareyasından iyirmi altıncı polkun qərargahınadək cəmi üç-dörd verstdir, mən yarım saata ora çatıb lazım olan hər şeyi deyərəm. Siz isə birbaşa Yenceyevskinin yanına gedin".

Əliağa Şıxliniskinin döyüş məharətini gözləri ilə görən ikinci rus yazıçısı Trofim Borisov olmuşdur. Uzaq Şərq həyatından maraqlı, elmi və bədii əsərlər yazan T.Borisov sonu faciə ilə bitən rus-yapon müharibəsi haqqında 1959-cu ildə Vladivostokda "Port- arturçular" adlı sanballı bir roman nəşr etdirmişdi. Müəllif sıravi əsgərlərin və zabitlərin döyüş yolunu özünəməxsus ustalıqla ön plana çəkir. Böyük hərarətlə, məhəbbətlə xalqımızın mərd oğulları Əliağa Şıxliniski və Səməd bəy Mehmandarov haqqında söhbət açır. İlk gündən Şıxliniskinin batareyasında döyüşən podporuçik Trofim Borisov onun qəhramanlığını, xarakter və xasiyyətini daha dəqiq işıqlandırmışdır.

"Səhər saat onda batareyanın baş zabiti kapitan Əliağa Şıxliniski qazarmaya gəldi. Onun iri uzunsov sifətinə bir qədər sivri burnu daha ciddi görkəm verirdi.

Sıx bığları qalın idi, başının tükləri qabaqdan azca seyrəlmişdi. Çatma qaşları bir qədər yuxarı dartılmışdı. Qonur gözlərində sevinc işığı vardı. Balaca ağ əllərinin ağ barmaqlarını arxasında tutmuşdu. Əliağa Şıxliniski hamı ilə görüşəndən sonra orduya təzəcə çağırılmışların adlarını oxudu:

- Antonov Valentin Pavloviç.

- Mən, - deyə o, cavab verdi.

- Sən az savadlısan?

Əsgər dolaşıq sözlərlə nəsə dedi, kapitan Morozovu çağırdı.

- Sənin də savadın yoxdur. Bu necə olur? Böyük şəhərdən gəlibsən, amma heç bir təhsilin yoxdur. Siz niyə oxumayıbsınız?

Morozovun sifətinə yüngül qızartı çökdü.

Kapitan Əliağa Şıxliniski sıranın önündən keçib, əlində yeni çağırılmışların siyahısı olsa da, gülümsəyə-gülümsəyə, bir-bir onların soyadını, adını, atasının adını çəkdi.

- Ancaq biz gözləyir və fikirləşirdik ki, sibirlilər bizim inamımızı doğruldacaqlar... Pribaltika quberniyalarındakı və Mərkəzi Rusiyadakı savadsızlıq orada da hökm sürür. Yaxşı deyil, artilleriyaçı yaxşı biliyə malik olmalıdır. - Kapitan Şıxliniskinin sifətinə bir ciddilik çökdü. Gicgahı tarıma çəkildi, ancaq gözlərində bayaqkı təbəssüm işartısı qalırdı. Təzə çağırlanlarla söhbət edə-edə onlara göstəriş verirdi: - Başını düz tut, sağ çiynini əymə, deyə kapitan Pudovkinə müraciət etdi. Sən məhkəmə palatasında çoxmu işləyibsən? İki il? Bəs ona kimi harada işləyibsən?

- Prikazçik işləmişəm. Ancaq mənim əsas işim balıqçılıqdır.

- Sənin xəttin yaxşıdırmı?

- Mirzəliyi istəmirəm, zatialiləri...

Baxarıq. Bəs mirzəliyə kimi təyin edək? Özün görürsən, yazılarınızı yazmağa mirzə də lazımdır... Abramoviç Moisey İosifoviç! Sən usta-çilingərsən?...

Yaddaşa bax, yaddaş belə olar. Siyahını bir dəfə oxuyan kimi hamının ad və soyadını, atasının adını necə də dəqiq yadında saxladı. deyə Pudovkin fikrə getdi".

Port-Arturdakı oktyabr döyüşlərində podpolkovnik Əliağa Şıxlinskinin qəhrəmanlığını əyani əks etdirən tarixi sənədlər də az deyil. 1905-ci ildə çap olunmuş "Yaponlarla müharibənin salnaməsi" almanaxının səksən birinci nömrəsinin min beş yüz yetmiş yeddinci səhifəsində bu barədə oxuyuruq:

"Müqəddəs Georgi ordenli süvari dumasının təqdimatına əsasən Əlahəzrət imperator 3/IX-1905-ci il tarixdə böyük mərhəmət göstərərək, Port-Arturun müdafiəndə şücaəti ilə fərqlənmiş, 1904-cü il oktyabrın 13-dən 17-dək üç saylı istehkamı və istehkamın digər qurğularını artileriya ilə bacarıqla müdafiə etmiş dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının podpolkovniki Əliağa Şıxlinskini dördüncü dərəcəli şəhid və müzəffər Georgi ordeni ilə təltif etmişdir. Podpolkovnik Əliağa Şıxlinski bu döyüşdə böyük şücaət göstərmiş, ixtiyarında olan yarırıbatareyanın nişançıları həlak olduğundan çox vaxt topları şəxsən özü tuşlayaraq düşmən artileriyasını dəfələrlə susmağa məcbur etmiş və adı çəkilən istehkamlara yaxınlaşmağa can atan yapon piyadalarını qeyri-adi cəsarətlə geri oturtmuşdur..."

*   *   *

Şahzadə Bəhmən Mirzə Qacarın 1905-ci ildə Port-Artur döyüşlərində igidliklə həlak olmuş podpolkovnik oğlu Əliqulu Mirzə hərbdə və fotoqrafiya sənəti sahesində qeyri-adi istedada malik idi. O, Tiflisdəki Kadet korpusunu bitirdikdən sonra əvvəlcə Vladiqafqazda və Oryol şəhərində yerləşən əlli birinci Çerniqov draqun alayında xidmət etmiş, 1903-cü ildə Yeletsdəki əlli ikinci Nejinski alayına dəyişdirilmişdir. Port-Artur döyüşlərində həlak olan podpolkovnik Əliqulu Mirzə Qacar döyüş xidmətlərinə görə "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur. Bu barədə "Tərcüman" qəzeti 18 fevral 1905-ci il tarixli sayında yazırdı:

"Qızıl Xaç Cəmiyyətinin əlahəzrət himayəçisi Məlakə İmperator Mariya Fyodorovna Qızıl Xaç hesabına mərhum podpolkovnik, şahzadə Əliqulu Mirzə Qacarın cənazəsini Qafqaza, Yevlax stansiyasına qədər aparılmasına lazım bilmişdir".

Uzaq Port-Arturda gedən ağır döyüşlərdə minlərlə əsgər və zabit həlak oldu. Onların hamısına öz doğma torpağında uyumaq qismət olmadı. Vətənində, Bərdənin İmamzadə qəbristanlığındakı məqrəbədə dəfn olunmaq şərəfi podpolkovnik Əliqulu Mirzə Qacara ona görə qismət oldu ki, o, şahzadə nəslindən idi səksən ildən çox sovetlərin tənqid atəşinə tutduğu imperator II Nikolay nüfuzlu nəsillərə belə ehtiram göstərirdi.

Şahzadə-podpolkovnik Əliqulu Mirzə Qacar 1854-cü ildə Qarabağın Şuşa şəhərində anadan olmuşdur.

İllər keçir, eloğullarımızın Rus-yapon müharibəsindəki hünərini əks etdirən sənədlər müxtəlif arxivlərdə tədqiq olunmamış qalır. Açılmayan qovluqlar öz yazıçısını, tədqiqatçısını gözləyir.

Unutmaq lazım deyil ki, hərb tarixində misilsiz xidmətlərinə görə "artilleriyanın allahı" sayılan alim-general Əliağa Şıxlinski fəxrlə yazırdı ki, Port-Artur epopeyasının iştirakçısı olduğunu həmişə iftixarla yad edirəm.

## "DİKAYA DİVİZİYA", yoxsa...
## (və Azərbaycan Milli Ordusu 1918-ci ildə necə yaranıb?)

Azərbaycanlılar hərbçilik istedadına, sönməz daxili ruhi zənginliyə malikdirlər. Belə xalq həmişə qalib gələr.

**Alfons Rabbe,**
**fransız tarixçisi**

1930 -cu il martın üçündə Zaqafqaziya Dövlət Siyasi idarəsinin qərarı ilə güllənənən Qarxunlu mərdi Əşrəf bəyi müstəntiqlər ən çox 1918-ci ildə "dinc erməni əhalisi"ni qırdığına və həmin ildə Ərəş mahalında döyüşən əsgəri qüvvə təşkil etdiyinə görə günahlandırmışlar. Bu könüllü hərbi qüvvələrin əksəriyyəti o

vaxt Birinci Dünya Müharibəsindən qayıdan “Tatar süvari alayı”nın əsgər və zabitləri idi. Əşrəf bəy Qarxunlunun özü də 1918-ci ilin iyun-sentyabr aylarında həmin alayın tərkibində Göyçayı, Müsüslünü, Bərgüşadı, Şamaxını və Bakını düşmənlərdən təmizləmək üçün igidliklə vuruşmuşdur.

* * *

Bu gün hamını haqlı bir sual düşündürür: 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan hərbi qüvvələri necə yə nəyin əsasında yaranıb? Axı, deyilənlərə görə, bu tarixdən əvvəl azərbaycanlılar əsgəri xidmətə çağırılmırdı...

Oxucuların bu sualları qarşısında uzun müddət düşünməli olursan. Ona görə ki, bəzi tarixçilərimiz ordunun yaranmasını alqışlayır, digəri onun komandirlərinə tənqidi yanaşır, başqa birisi də yazır ki, 1918-ci ildə ordumuz “könüllülərdən” yaranıb. Mətləb isə açılmır, bu “könüllülər” yerli mülki əhalidən ibarət idi., yoxsa kənardan gətirilmişdi.

Amma ordunun yaranmasında ilkin mənbə kimi bir fakt da var ki, tarixçilər onada ötəri toxunurlar və bu mənbəyə tənqidi münasibət bəsləyirlər. O da Birinci Dünya Müharibəsində iştirak edən “Dikaya diviziya”nın azərbaycanlılardan ibarət nizami “Tatar alayf”nın əsgəri qüvvələridir. 1920-ci ildən ta bu günlərimizə qədər sovet rejimində də “Dikaya diviziya”nın fəaliyyətinə tarixçi alimlərimiz tənqidi yanaşıblar. Aşkarlıq və demokratiyanın sayəsində açılan arxiv qovluqlarında isə bunların tam əksinin şahidi oluruq. Sənədlərlə tanış olanda düşünürsən ki, 1914-cü ildən 1917-ci ilə qədər rus imperiyasını almanlardan, 1918-20-ci illərdə isə Azərbaycanı daşnak-bolşevik əsgəri qüvvələrindən qoruyan və torpağımızın bütövlüyü uğrunda silaha sarılan “Vəhşi diviziya”nın Tatar-Azərbaycan alayı həm bizim, həm də rus hərb tədqiqatçılarının niyə tənqid obyekti olub. Guya səbəbi də ondan ibarətdir ki, “Vəhşi diviziya” 1914-17-ci illərdə çara, 1918-20-ci illərdə isə Azərbaycan Demokratik hökumətinə xidmət edib. Faktlar göstərir ki, Nuru Paşanın ordusu 1918-ci ilin iyun-sentyabr aylarında Bakını düşmənlərdən təmizləyəndə onlarla çiyin-çiyinə vuruşan min nəfərdən çox könüllünün əksəriyyəti “Tatar süvari alayı”nın əsgər və zabitlərindən təşkil olunmuşdu. Bəs süvari alayının o vaxtlarda qöruduğu vuruşduğu torpaqlar onda bizim deyildimi?

Bəli, bitib-tükənməyən bu suallara cavab tapmağın vaxtı çatıb. Bunu bu günkü müstəqil Azərbaycan və onun yenidən yazılan hərb tarixi tələb edir.

Bəzi məqalə müəllifləri ağız dolusu yazırlar ki, Birinci Dünya Müharibəsi illərində şovinist ruslar Qafqaz müsəlmanlarından təşkil olunmuş diviziyaya “Vəhşi” adını təhqir mənasında veriblər. Əvvəla, diviziyanın döyüş yolunu təsvir edən sənədlərdə belə fakta rast gəlmək qeyri-mümkündür. Əslində rus hərb tarixçiləri daha yumşaq tənqidlə yazırlar nəinki bizimikilər. Bütün rəsmi sənədlərdə diviziyanın adı belədir: “Kafkazskaya tuzemnaya konnaya diviziya” - yəni Qafqazın yerli əhalisindən təşkil olunmuş süvari diviziya, “Vəhşi” ayaması isə cəbhədaşları tərəfindən diviziyaya qeyri-rəsmi verilib. Müharibənin ilk günlərindən diviziyanın apardığı döyüş əməliyyatları çox uğurlu və qəhrəmanlıqları parlaq olmuşdur. Diviziya bütün müharibə boyu məğlubiyyətin nə olduğunu bilməyib, hücumları həmişə zəfərlə bitib. Onların döyüş amalı belə idi:

“Nə bir addım geri çəkilməli, nə də əsir düşməli.” Ona görə də döyüşlərin ən çətin məqamında düşmən mühasirəsini yarmaq üçün bu diviziyanın təcrübəsindən və gücündən istifadə olunurdu.

Hətta “Vəhşi diviziyanın sıralarında zəfərlə döyüşən həmyerlilərimizin şərəfinə cəbhədaşları hərbi marş da qoşmuşdular. Hərbi marşın bir bəndi 1920-ci ildən sonra Berlində mühacirətdə yaşayan general-mayor Teymur bəy Novruzovun yaddaşından bizə gəlib çatıb:

**V boyu, v plyaske i v puti,**
**Vseqda Tatarı vperedi.**
**Lixie konniki Qendji,**
**İ vsadniki Borçalinsı.**

Şair Vilayət Rüstəmzadənin tərcüməsində:

**Döyüşdə, cəngidə, zəfər yolunda,**
**İgidlər həmişə - ən öncül olmuş.**
**Gəncə süvarları, sağı-soluna,**
**Borçalı igidlər birinci olmuş.**

Tutaq ki, bizdə bəzi məqalə müəlliflərinin dediyi kimi, diviziyaya təhqir mənasında vəhşi” adı verilmişdir. Bəs, Koroğlu igidlərinə və Dədə Qorqud qəhrəmanlarına “dəli” ayamasının verilməsi necə, onlar həqiqətənmi “dəli” idilər? Əlbəttə, yox!

Hər iki ifadədə incə yumor, sevgi, nəvaziş çalarları var. Niyə uzağa gedirik. Bizim müasirimiz, dünya şöhrətli sərgərdə Əliağa Şıxlinski aydan-arı, sudan-duru olan “Xatirələrim” kitabında yazır ki, bizim nəsil öz cəngavərliyi, tündməcazlığı ilə qəzada tanınırdı. Qəzada bizi “dəli-qazaxlı” adlandırırdılar. Əli Qazaxoğlu nəsli içərisində birinci savadlı adam mənim atam idi. Sual olunur: hərfi mənada başa düşsək “dəli” olan bir nəsil “artilleriyanın Allahı” kimi oğul yetirə bilərdimi? Onu da unutmaq lazım deyil ki, Şıxlinskilər nəsli Azərbaycan maarifinə, ədəbiyyatına və hərb tarixinə bütöv, sağlam ziyalı nəsli bəxş etmişdir.

Sonralar (1917-ci ilin noyabrından - Ş.N.) həmin diviziyanın Tatar (Azərbaycan - Ş. N) süvari alayının əsgərlərindən ibarət ilk dəfə 600 nəfərlik “Müsəlman korpusu” təşkil olundu. 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan Zaqafqziya Seymindən çıxdı. Bu dövrdə ölkədə siyasi durum çox qarışıq və mürəkkəb idi. Bolşevik-daşnak silahlı qüvvələri tərəfindən güclü təhlükə yaranmışdı, Məhz Tatar-Azərbaycan alayının qüvvəsinə arxalanıb, əlavə könüllülər toplamaqla həmin il iyunun 26-da “Əlahiddə Azərbaycan korpusu” yaratmaqla Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov Milli ordunun təməl daşını qoydular.

“...Birləşməyə belə bir ad qoşulanda onun məna mərkəzində müsbət bir münasibət dayanırdı və bununla da “Dikaya diviziya”nın məğlubedilməzliyinə işarə ifadə olunurdu. Xüsusən, daşnak və ifrat bolşevik elementləri “Dikaya

diviziya"dan danışarkən heç də bu sözü həmin diviziyanın şücaətinə olan heyranlığına görə işlətmirdilər. Belə münasibət elə sovet tarixşünaslığının özündə də mövcuddur. Bir sıra müəlliflər "Dikaya diviziya"dan danışarkən bu ifadənin nəzərdə tutulan mənasını deyil, məhz "dikiy" sözünün leksik mənasını qabartmaga çalışmışlar. Bununla da həmin birləşmənin hissələrinin hərbi keyfiyyətlərinə, Cümhuriyyət Ordusunun özülünü təşkil etmiş qoşun hissələrinin nizam-intizamma bir istehza ifadə olunmuşdur. Həmin diviziya 1917-ci ildə ləğv edilmiş və bununla da onun mövcudluğuna son qoyulmuşdur. Diviziya ləğv edildikdən sonra azərbaycanlılardan və çeçenlərdən təşkil olunmuş Tatar süvari alayının qalıqları Azərbaycana qayıtmış və onun bazasında Müsəlman korpusunun ikinci süvari alayı yaradılmışdı". (M.Süleymanov "Azərbaycanda "Dikaya diviziya" olubmu?" məqaləsi, "Hərbi bilik" jurnalı, 1998-ci il, - №4). Və bu hərbi qüvvələrin özəyi əsasında da 1920-ci ilə kimi Azərbaycan Demokratik Cümhuriyyətinin 40 minə yaxın Milli ordusu yarandı. Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov kimi iliyinə qədər hərbçi olan generallar ordunun təməl daşının "dəlilər"dən olmasına razı olardımı?

1917-ci ildə imperiya dağılandan sonra Petroqrada aparılan "Dikaya diviziya"dan qarmaqarşıqlığı yatırınaq və üsyan edən xalqı qırmaq üçün istifadə etmək istədilər. Onlar isə milli adət-ənənəyə və nizamzaməyə sadiq qalaraq silahsız xalqı qırmaqdan imtina edib Qafqaza qayıtdılar.

"Müsəlman milli korpusu"nun əsasında Petroqraddan köçürülən həmin "Vəhşi diviziya"nın "Tatar süvari alayı" dayanırdı. General Əliağa Şıxlinski ümumi komandanlığı qəbul etdi. Tərxis edilmiş rus ordusunun zabitləri də həmin qoşun birləşmələrinə götürüldü. Bu zaman müsəlmanlara üstünlük verilirdi. Bundan əlavə, 1917-ci il çevrilişindən sonra Bakıdakı kadet məktəbində yerli zabit karlarının hazırlanmasına da başlandı."[17]

Ayrı-ayrı sənədlər şahidlik edir ki, Birinci Dünya Müharibəsi cəbhələrində üç mindən çox sıravi və kiçik rütbəli azərbaycanlı döyüşürdü. Bunlar müharibə başlananda səfərbər olunanlar idi. Lakin imperiya qoşunlarının tərkibində yüksək rütbəli zabit və generallarımız da az deyildi. Tam artilleriya generalı Səməd bəy Mehmandarov, general-leytenant Əliağa Şıxlinski, tam süvari generalı Hüseyn xan Naxçıvanski, general Məmmədsadıq bəy Ağabəyzadə, Əsəd bəy və Mirkazım xan Talışxanovlar, Cavad bəy Şıxlinski, İbrahim ağa Usubov, Gəray bəy Vəkilov, rotmistr Teymur bəy Novruzov (1919-cu il avqustun 2-də Milli Ordudakı əla xidmətinə görə general-mayor rütbəsi verilmişdir - Ş.N.), hərbi təyyarəçi Fərrux ağa Qayıbov, praporşik Sayad bəy Zeynalov və onlarla başqa oğullarımız cəbhədə ad-san qazanmışdılar.

1917-ci il noyabrın 15-də Peterburqdan Qafqaza qayıdan general-leytenant Əliağa Şıxlinski ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmışdı. Bununla da o, Milli Azərbaycan Ordusunun təməl daşını qoymuşdu. Bu barədə general "Xatirələrim" hərbi memuarında daha dəqiq məlumat verir:

"Noyabr ayında Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olunduğu barədə əmri oxudum. Öz xalqımı, baş verə biləcək

---

[17] T.Svayatoçevski "Rusiya Azərbaycanı" , 1905-1920-ci illər məqaləsi

təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahını[18] düzəltməyə başladım."

"Açıq söz" qəzeti 1918-ci il yeddi yanvar tarixli nömrəsində nizami müsəlman əsgəri qüvvələrinin yaranması haqqında belə bir xəbər yaymışdı:

"Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xoyski müsəlman əsgəri dəstələri təşkilatı haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə 1917-ci il dekabrın on birində Zaqafqaziya Komissarlığı Zaqafqaziya müsəlmanlarından nizami ordu təşkil etməsi qətnaməsini çıxarmışdır. Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi işi Qafqasiya Mərkəzi - Müsəlman Komitəsinə həvalə edilmişdir. Nizami ordu təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqafqaziya Komissarlığının bu qətnaməsinə bianən dekabrın on doqquzunda beşinci və yeddinci Qafqasiya nişançı firqələrindən ibarət olan altıncı ordu korpusunun Müsəlman nizami ordusuna əvəz edilməsi haqqində Qafqasiya cəbhəsi qoşunlarının baş komandanı tərəfindən Əmrnamə verilmişdir. Həmin əsgər dəstələrinin milliləşdirmək işlərinin nəzarəti general Əliağa Şıxlinskiyə həvalə edilmişdir.

General-leytenant Əliağa Şıxlinski öz vəzifəsinin ifasına başlamışdır."

1918-ci ildə ölkəmiz ağır və təhlükəli günlərini yaşayırdı. Həmin ilin yanvar ayında Türkiyəyə hərbi yardım üçün gedən Azərbaycan hökumətinin əks-kəşfiyyat idarəsinin rəisi Nağı bəy Şeyxzamanlı Türkiyənin hərbi naziri Ənvər paşa ilə görüşəndə demişdir:

- Paşam, Birinci Dünya Müharibəsində biz azərilərdən dörd general rus ordusunda ordu komandiri olmuşdular. Qonşularımız ermənilər və gürcülərdən ordu komandiri çıxmamışdır. Yalnız bir gürcü general hərbi korpus komandiri ola bilmişdir. Azərilərdən ordu komandiri Səməd bəy Mehmandarlı rus-yapon müharibəsində hərbi korpus komandiri olaraq rus ordusunun ən yüksək ordenini almışdır. İkinci general Əliağa Şıxlinskidir. Rus ordusunun topçu baş inspektoru idi. Üçüncü general Hüseyn xan Naxçıvanskidir, Dördüncü isə Xan Yerivanskidir. (N.Şeyxzamanlı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabı, 1997 il, səh., 73-də).

1914-cü ildə Gəncədə, Şuşa və başqa qəzalarda alaylar təşkil olundu. Şuşalılardan "Tatar süvari alayı", gəncəlilərdən isə "İkinci Gəncə süvari müsəlman alayı" yaradıldı. Bunların hamısı "Qafqazın Yerli əhalisindən təşkil olunmuş süvari diviziyası"[19] nın tərkibinə daxil oldu.

Diviziya üç briqadadan və üç süvari alayından ibarət idi: birinci alay Kabardin və Dağıstanlılardan, ikinci alay tatar (Azərbaycan - Ş.N.) və çeçenlərdən, üçüncü alay inquş və çərkəzlərdən təşkil olunmuşdu. Bundan başqa osetinlərdən ibarət piyadalar briqadası və Don kazaklarından səkkizinci artileriya divizionu yaradılmışdı.

---

[18] Qərargah Tiflisdəki "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi.Həmin iki mərtəbəli mülk indi də qalır. Bu sətrlərin müəllifi 1999-cu ilin aprel ayında Tiblisidə yaradıcılıq ezamiyyətində olanda binanı axtarıb tapmışdır. - (Ş.N.)

[19] Bundan sonra "Vəhşi divizya"nın adlı rəsmi sənədlərdə olduğu kimi yazılacaq. (Ş.N.)

Diviziyanın baş komandanı imperator II Nikolayın qardaşı; böyük knyaz Mixail Aleksandroviç Romanov, rəisi isə general-leytenant, knyaz D.P.Baqration idi.

Sıravi əsgərləri (aşağı rütbəliləri) "süvari", bəzən də "atlı" deyə çağırırdılar. Zabitlər ayda 25 manat maaş alırdı. Onların əksəriyyəti ruslardan və Qafqazın xan, bəy və ağa oğullarından ibarət idi.

Diviziya əsgərlərinin yaxşı təlimi, əla döyüş qabiliyyəti vardı. Bunu "Gəncə alayl"nın komandiri podpolkovniuk Q.Polovtsovun 1915-ci il iyulun on birində Gəncə qubernatoru Kovalyovun adına göndərdiyi teleqram da təsdiq edir. Podpolkovnik Q.Polovtsov yazır:

"Qafqazın yerli əhalisindən təşkil olunmuş diviziya"nın alayları arasında Gəncə süvari alayı birinci olaraq öz komandirinə "Müqəddəs Georgi xaçı" ilə təltif olunmaq şərəfi nəsib etdi. Bu yüksək mükafatla fəxr edərək onu Tatar (Azərb. - Ş.N.) süvarilərinin yüksək döyüş bacarığı və fədakar qəhrəmanlığının qiyməti kimi qəbul edirəm. Müsəlman süvari döyüşçülərinin misilsiz şücaəti qarşısında mənim dərin heyrətimi qəbul etməyinizi xahiş edirəm."

Görkəmli şairimiz Məhəmməd Hadi azərbaycanlılardan ibarət alaylarla birgə Polşada, Lvovda, Stanislavda, Karpatlarda, Qaliç və Qorodinka şəhərləri uğrunda gedən döyüşlərdə üç il cəbhə həyatı keçirinişdir. Həmyerlilərimizin qəhrəmanlığından ruhlanan böyük şair bu mövzuda silsilə şerlər yazmışdır. 1917-ci ildə Gəncədə əsgərlər qarşısında çıxış edən Məhəmməd Hadi demişdir:

"Əziz vətəndaşlarım! Alayımızı təşkil edən Azərbaycan türklərinin göstərdikləri hərbi qabiliyyəti və yapdıqları qəhrəmanlıqları söyləməklə bitməz. Ancaq mən burada bir hadisə uzərində dayanacağam. Hərb şiddətlə davam edirdi. General Samsonovun komandasındakı rus ordusu ilə alman qüvvələri şiddətlə çarpışırdı. Samsonovun sağ cinahını "Dikaya diviziya" (müsəlman diviziyası) qorumaqda idi. Almanlar rus ordusunu boğurdular, nəhayət çəmbərə (mühasirəyə) aldılar. Almanlar çəmbəri daraldarkən ətrafla əlaqəsi kəsilən alay komandanımızın verdiyi əmrlə Alman çəmbərinə hücum edərək, çəmbəri yardı və alayı ikiyə böldü. Yanları çəmbərin sağ və solunu sıxışdırmağa başladı. Beş alaydan ibarət olan Qafqaziya qardaşları rusları alman çəmbərindən qurtardı. Bu mühüm hadisə həftələrcə rus mətbuatını işğal etdi. Rus çarı bizim alayın bayrağına ən böyük nişan verdi."

Cəbhədə ruhani kimi vəzifəsini icra edən şair Məhəmməd Hadi əsərlərində eloğullarımızın igidliyini də vəsf etmişdir:

Bu ağır yük çəkilməz,
Bu ağular içilməz.
Sənsiz, a parlaq dilək,
Qaranlıqlar çəkilməz.

Məyus olma amandır,
Məyus olmaq yamandır.
Qorxaq diləksiz yaşar,
Millətim qəhrəmandır.

“Hadi doğma Azərbaycandan minlərlə kilometr uzaqda, Karpat dağlarında, müharibə alovları içində də Vətənin taleyini düşünməyi, onun təbii gözəlliklərini və gələcək xoşbəxtliyini tərənnüm etməyi çox sevirdi.” (Ə.Mirəhmədov “Məhəmməd Hadi” kitabı, Bakı, 1962-ci il səb. 183)

Azərbaycan Demokratik Cümhuriyyətinin liderlərindən biri, dahi bəstəkarımız Üzeyir bəyin kiçik qardaşı Ceyhun bəy Hacıbəyli-Dağıstani 1916-cı ilin fevral-iyun aylarında Birinci Dünya müharibəsində azərbaycanlı əsgər və zabitlərin döyüş yolunu əks etdirən “Müsəlman zabitləri” adlı on dörd silsilə məqalə dərc etmişdir. “Kaspi” qəzetində dərc olunmuş bu məqalələrdə cəbhələrdə şərəflə vuruşan yalnız azərbaycanlıların deyil, ümumi Qafqazda yaşayan din qardaşlarımızın qəhrəmanlığı haqqında da qiymətli məlumatlar var. Ceyhun bəy 19 aprel 1916-cı il tarixli (№86) məqaləsində yazır ki, apardığımız araşdırmalardan məlum oldu ki, yalnız 1915-ci ildə müsəlman zabitlərindən yeddi general, on iki polkovnik, bir kazak qoşun starşinası[20], on doqquz podpolkovnik, iyirmi dörd kapitan, iki yasaul, on yeddi rotmistr, iyirmi bir ştab-rotmistri, on səkkiz ştabs-kapitan, beş podyasaul, üç yüzbaşı, əlli poruçik, iki xonjuri, otuz səkkiz podporuçik, iyirmi bir kornet və on iki praporşik rütbəli müsəlmanlar döyüşlərdə fərqləndiklərinə görə təltif olunmuşlar. Bu saydan üç general üçüncü dərəcəli “Müqəddəs Georgi”, on yeddi zabit, o cümlədən bir polkovnik, beş podpolkovnik, üç kapitan, bir rotmistr, bir ştabs-rotmistr, bir ştabs-kapitan, iki poruçik, iki podporuçik və bir praporşik dördüncü dərəcəli “Müqəddəs Georgi”ordeni ilə təltif olunmuşdur.

On dörd zabitə, bir polkovnikə, iki podpolkovnikə, bir kapitana, bir yasaula, bir rotmistrə, bir ştabs-kapitana, bir yüzbaşıya, dörd poruçikə, bir podporuçikə və bir kornetə isə adlı Georgi silahı bağışlanmışdır.

“Kaspi” qəzetinin 1916-cı il 29 aprel tarixli nömrəsində belə bir fərəhli fakta da rast gəldik: “Qvardiya süvarisindəki Qafqaz ordusunun Baş Komandanın sərəncamında olan general-adyutant, general-leytenant Hüseyn xan Naxçıvanskiyə tam süvari generalı rütbəsi verilsin.” Qafqazın yerli əhalisindən təşkil olunan süvari diviziya”nın qəhrəmanlığından iftixarla danışan Ceyhun bəy yazır:

“Almanlara qarşı vuruşan müsəlman döyüşçülərinin mərdlik və fədakarlığı bütün imperiya mətbuatını onlar haqqında danışmağa vadar etdi. “Dikaya diviziya”nın adı əfsanələşdi. Onu demək kifayətdir ki, üç min müsəlman döyüşçüsünə müharibə vaxtı beş min “Müqəddəs Georgi xaç” ordeni verilmişdir. Bu mərdlikdə heç bir saxtakarlığın olmadığını “Terski vedomost” qəzetində verilmiş aşağıdakı nümunə bir daha təsdiq edir.

Diviziya komandanına xidməti iş üçün bir neçə günlüyə on beş nəfəri Tiflisə göndərmək lazım idi. O, döyüşçüləri yığıb getməyi təklif etdikdə heç kəs könüllü olaraq cəbhəni tərk etmək istəmədi. Axırda püşk atmaq məcburiyyətində qaldılar. Püşk düşən əsgərlər səhər Tiflisə yola düşməli idilər. Amma... səhərisi onlardan heç kəs tapılmadı. Onların döyüşçü dostları gülümsünərək deyirdilər: -“onlar

---

[20] Kazaksüvari qoşunlarında podpolkovnik rütbəsi belə təsis olunmuşdu.- Ş. N.

səngərlərdən çıxmırlar, Tiflisə başqa döyüşçülər göndəriləndən sonra üzə çıxacaqlar.

"Dikaya diviziya"nın əsgərləri sadəcə olaraq cəbhəni tərk etmək istəmirdilər. Tiflisə on beş nəfər yola düşəndən sonra göründülər."

İmperiya dağılıb, "Dikaya diviziya" buraxılandan sonra Azərbaycanda "Tatar alayı"na kim başçılıq etmişdir? Tiflisdə general-leytenant Əliağa Şıxlinski, Gəncədə polkovnik Süleyman bəy Əfəndiyev (1919-cu ildə general-mayor olub, həmin ili də tif xəstəliyindən vəfat edib), Bakıda isə milyonçu Şəmsi Əsədullayevin oğlu Əli Əsədullayev Azərbaycan Demokratik Hökuməti qurulana qədər "Tatar alayı"nın ayrı-ayrı dəstələrinə başçılıq və himayədarlıq etmişlər. Bu dövrdə Gəncə Milli Komitəsinin üzvü Adilxan Zayadxanovun və Ərəş mahalının bəylərbəyisi Əşrəf bəy Qarxunlunun başçılığı ilə "Tatar alayı" Gəncə və Şamaxıdakı rus əsgərlərinin silah ambarını dağıtdı, Şəmkirin Dəlilər stansiyasında Qars və Sanqamışdan qayıdan rusların hərbi eşalonunu tərksilah etdi. Bakıda erməni bolşevik qoşunu ilə döyüşlər apardı...

1917-ci ilin sonunda könüllülərdən yaranan Milli Azərbaycan korpusunda döyüş və təlim görmüş nizami hissə birinci Azərbaycan süvari alayı idi. "Dikaya diviziya"nın ikinci alayından təşkil edilmiş bu süvarilərə 1918-20-ci illərdə "Tatarski polk"da deyirdilər. Həmin illərdə Milli ordumuzda döyüş qabiliyyəti ilə fərqlənən ən yaxşı əsgər və zabitlər də bu alayda vuruşurdu. Məşhur sərkərdə Cəmşidxan Naxçıvanski, poruçik Osman ağa Gülməmmədov, praporşik Lütvəli bəy Vəkilov, poruçik Məhəmməd bəy Aslanbəyov, praporşik Paşa bəy Rüstəmov, Sayad bəy Zeynalov və bir çoxları Birinci cahan savaşında göstərdikləri igidliyə görə imperiyanın ən ali "Müqəddəs Georgi Xaç"ı ilə təltif olunmuşlar.

O vaxt Gəncədə rusların 218 və 219 saylı tibb xidməti alayı yerləşirdi. Bu ehtiyat alayları Birinci Dünya Müharibəsi illərində yaralıları müalicə edib, yenidən cəbhəyə göndərirdi. İmperiya dağılsa da, minə yaxın əsgər və zabiti olan rus alayı hələ də fəaliyyətini davam etdirirdi. Erməni məhəlləsində yerləşən bu rus alayına ermənilər xüsusi qayğı göstərir, onlara ərzaq və silah verir, özlərinin xilaskarı kimi himayədarlıq edirdilər.

Gəncə Milli Komitəsi "Difai" firqəsinin köməyi ilə uzun mübahisədən sonra silahlarınıalıb döyüşsüz, davasız onları Rusiyaya yola saldı.

Qafqaz-Türk cəbhəsində sülh bağlandıqdan sonra 1917-ci ilin noyabr ayından başlayaraq bolşevik əhval-ruhiyyəli rus əsgərləri geri, Rusiyaya qayıdırdı. Yeni yaranan Milli Ordumuza silah lazım idi. İmperiya dağılandan sonra Tiflisdəki ehtiyat silah ambarından biz müsəlmanlara heç bir pay verilməmişdi. Lakin gürcülər hərbi korpus yaratmaq üçün silah paylarını almışdı. Hətta, ermənilər külli miqdarda silah daşıyıb İrəvana aparmışdılar.

Gəncədəki Müsəlman Milli Komitəsi Qafqaz-Türk cəbhəsindən qayıdan rus hərbi eşalonlarının Azərbaycan ərazisindən gəlib keçəcəyi vaxtı öyrənib həmin günü - 1918-ci il yanvarın doqquzunu "döyüş günü" elan etmişdi. Məqsədi onlardan silah almaq idi.

Milli Komitənin başçıları Adil xan Ziyadxanov, Nəsib bəy Usubbəyli, Xəlil bəy Xasməmmədov, Xudadat bəy Rəfıbəyov, Aslan bəy Səfikürdski və başqaları gürcü menşeviklerindən aldıqları zirehli qatarla və Gəncədəki Azərbaycan alayının

(bu alay keçmiş “Dikaya diviziya”nın “Tatar alayı”nın əsgər və zabitlərindən ibarət idi - Ş.N.) qüvvəsilə rus hərbi eşalonunun qabağını Gəncənin otuz kilometrliyində - Şəmkir və Dəllər stansiyaları arasındakı məsafədə keçdilər. Zirehli qatara general-mayor knyaz Maqalov (300 nəfər gürcü əsgər və zabiti ilə birgə), “Azərbaycan-Tatar alayı”na isə polkovnik Süleyman bəy Əfəndiyev koınandirlik edirdi. Bu qabaqkəsmədə Gürcüstan menşevik hökumətinin də silah təmənnası vardı.

Yanvarın doqquzunda, səhər saat onda başlayan qanlı döyüş dörd gün davam etdi. İki mindən çox rus əsgəri öldürüldü və yaralandı. On beş min tüfəng, yetmiş pulemyot və iyirmi top ələ keçirildi. Azərbaycan tərəfindən on beş, gürcülərdən isə qırx nəfər əsgər şəhid oldu. Güclü müqavimətə rast gələn rus əsgər və zabitləri perrona çıxib ağ bayraq qaldırdılar: “Lənət olsun, biz bu süahları verməyə -çoxdan razıyıq, bircə evimizə sağ və salamat gedə bilək” - deyib silahları təhvil verdilər.

Bu, Bakıda özünə yuva qurmuş Sovetlər Hakimiyyətinə qarşı Gürcü və Azərbaycan xalqının ilk silahlı mübarizəsi idi. Sonralar isə kommunistlər bu üsyanı “qardaş qırğını” və “Azərbaycan burjua hökumətinin ruslara divanı” kimi qiymətləndirdilər.

Bakıda daşnak Şaumyan başda olmaqla Qafqaz Ölkə Komitəsi bərk qəzəblənib bildirdi ki, “Şamxor cinayətkarları inqilabi məsuliyyətə alınacaq və Zaqafqaziya komissarlığını devirib, Zaqafqaziya fəhlə, əsgər və kəndli deputatları Sovetləri hakimiyyətini təşkil edəcəkdir.”

Lakin tarixi dönüşlər daşnak Stepan Şaumyana bəd niyyətlərini həyata keçirməyə imkan vermədi. Onu 1918-ci il sentyabr ayında iyirmi altılarla birgə güllələdilər.

* * *

Bəs sonralar “Tatar-Azərbaycan alayı”nın əsgər və zabitlərinin döyüş yolu haradan, hansı oddan, alovdan keçib? 1920-ci ilin aprel ayında XI Ordunun daşnak-bolşevik dəstələri xüsusi şöbəsinin rəisi, cəllad Pankratovun rəhbərliyi ilə yüzlərlə əsgər və zabitlərimizi güllələdi, Sibirə və Solevstsk adalarına sürgün etdi. Çoxunu da Bulla və Nargin adasında təşkil etdikləri konslagerdə saxladılar. Bir az sonra isə onların ayaqlarına dağ basıb, bəzilərinin də boğazına ağır dəmir bağlayıb diri-diri dənizə atıb məhv edirdilər.

* * *

**Zülm etsən istiqlal mücahidlərinə,**
**Və nə qədər zəncir vursan**
**Onların dəmir biləklərinə.**
**Yenə qovuşacaqlar**
**Sönməz, höyük diləklərinə.**
**Əyilməyən və əyilmək bilməyən**
**Ovladlarımız.**
**Istərsin sənin qanlı “Çeka"ların**

**Qurşuna tutsun bizi.**
**Yenə könüllərdə dalğalanacaq**
**Daiğalı bir dəniz-**
**Getdikcə alovlanacaq**
**Alovlu mücadiləmiz.**
**Çünki bizim fikirlərimizin**
**Ufüqləri deyildir dar;**
**Bizdə sönmək bilməyən**
**Bir istiqlal eşqi vari..**

**AĞAKƏRİM BƏYƏLİZADƏ**
İstiqlal şairi

On birinci ordu Bakıya tərəf yeriyəndə onun sıralarında Hacı İlyas soyadlı bir kommunist də vardı. Şəxsən Leninin verdiyi mandatla o, 1920-ci il iyunun 19-da otuz iki saylı əmrlə Azərbaycan Respublikası Hərbi Inqilab səhra məhkəməsinin sədri və kəşfiyyat idarəsinin rəisi təyin olundu. Fəaliyyətə başladığı ilk gündən Hacı İlyas (arxiv sənədlərində onun soyadı M.Z.Xadjilas kimi göstərilir – Ş.N.) imkanlı adamları ailəsi ilə birgə həbs edib çəkidən yüngül, vəzndən ağır olan şeyləri mənimsəyirdi. Günün günorta çağı qız və qadınları saxlatdırır, üstündəki sırğanı, boyunbağını, üzükləri dartıb qoparırdı. Qalib XI ordu üçün "talan həftəsi keçirirdi. Bu "talan həftəsinin müddəti artıq iki ayı keçirdi. 1919-cu il dekabrın 2-də İtaliyadan Milli ordu üçün alınmış otuz beş min dəst geyim və təchizat əşyalarının cındır köynəkdə, yamaqlı şalvarda gəlmiş XI ordunun əsgərlərinə paylayırdı. Üsyan səsini qaldıran ziyalıları, Azərbaycan ordusunun əsgər və zabitlərini isə Krasnovodskiyə, Orta Asiyaya sürgünə göndərmək adı ilə gəmiyə doldurub Nargin, Bulla və Çilov adalarına aparıb boyunlarına daş bağlatdırır, gicgahına güllə ilə vuraraq dənizə atdırırdı.

Insan qanına susamış namərd Hacı Ilyas bir nəfər ras zabitini də həbs edir. Məhbusun arvadı biləndə ki, ərini Hacı İlyas həbs edib, xilas etmək üçün onun qəbuluna gəlir. Onunla söhbət edən qadın təəccübdən donub qalır. Ordan birbaşa Hərbi Səhra Məhkəməsinin sədr müavini Teymur Əliyevin yanına gəlir. O, Teymur Əliyevə məlumat verir ki, sizin sədr əsl inqilabçı Hacı İlyas deyil. Mən Hacı İlyası yaxşı tanıyıram, o ərimin yaxın dostudur. Dəfələrlə bizim evdə qonaq olub, bu əllərimlə ona çay-çörək vermişəm. Teymur Əliyev Respublika İnqilab Komitəsinin sədri Nəriman Nərimanova bu barədə məruzə edir. Nərimanovun tapşırığı ilə "Altıbarınaq Baba Əliyev və Ponkratyov Hacı İlyasın kimliyi barədə axtarışlar aparırlar. Nərimanov həm də göstəriş verir ki, həbsxana rəisinə tapşırın, qadının ərini Hacı İlyas dindirilməyə və ya başqa yerə aparınağa tələb edərsə verməsin.

Ciddi araşdırmalardan sonra məlum olur ki, şəxsən Leninin mandat verdiyi, hazırda Respublika Hərbi Səhra Məhkəməsinin sədri vəzifəsində işləyən şəxs əsl bolşevik Hacı İlyas deyil. O, Odessadan xaricə qaçmaq istəyən ağqıvardiyaçı zabitdir. Bolşeviklər Odessanı alanda cildini dəyişib onlara qoşulur, XI ordu ilə Dərbəndə gəlir. Burada Leninin şəxsən mandat verdiyi əsl inqilabçı Hacı İlyasla

tanış olur. Onunla dostlaşır və qətlə yetirir. Onun sənədləri ilə də XI ordunun sıralarında Bakıya gəlir.

Əsl inqilabçı Hacı İlyasın arvadını da tapıb Bakıya gətirirlər. Gizlindən "ərini ona göstərirlər. Qadın sədrin onun əri olmadığını təsdiq edir. Üstəlik də əsl inqilabçı Hacı İlyasın türmədə olan dostu və onun arvadı da Azərbaycan Respublikasının Hərbi Səhra Məhkəməsinin sədrinin yalançı Hacı İlyas oduğunu təsdiq edirlər.

Üç aydan çox - iyun, iyul və avqust aylarında bu vəzifədə çalışan Hacı İlyas general-leytenant Məmməd bəy Sulkeviçi, general-mayor İbrahim ağa Usubovu, şahzadə-general Feyzulla Mirzə Qacarı, Əbdülhəmid bəy Qatabaşını, Murad Gəray bəy Tlexası, Əlyar bəy Haşımbəyovu, Həbib bəy Səlimovu, polkovnik Rüstəm bəy Şıxlinskini, İsgəndər bəy Seyfullanı və mindən çox dindaşımızı məhv etmişdir.

Fövqaladə Komissiya yalançı, müsəlman qanına susamış Hacı İlyası dərhal həbs etdi. 1921-ci ildə güllələnmə kəsiləndə o, məhkəmədə demişdir: "Müsəlmanları o dünyaya göndərınək üçün var qüvvəmlə çalışırdım. Amma heyf... Mümkün olsaydı, daha çox qırar və daha çox adam öldürərdim.

Respublika Mərkəzi Dövlət Arxivindəki sənədlərdən məlum olur ki, yalançı Hacı İlyasın milliyyəti yəhudidir. O, Odessa şəhərində anadan olub. Ağqvardiyaçı general Denikinin qoşununda xidmət edib. Kəşfiyyatçı olub.

Arxiv sənədlərində bolşeviklərin iç üzünü açan belə bir epizod da var.

1920-ci ilin may ayında bolşevik-daşnak qoşunlarına qarşı Gəncə əhalisi və Gəncədə yerləşən birinci piyada Azərbaycan diviziyası üsyan etdi. Üsyana diviziya rəisi general Cavad bəy Şıxlinski, Azərbaycan ordusunun baş intendantı general-şahzadə Məhəmməd Mirzə Qacar, süvari diviziyasının rəisi general Teymur bəy Novruzov və polkovnik Cahangir bəy Kazımbəyov başçılıq edirdi. May ayının 24-dən 31-dək davam edən döyüşlərdən sonra Bakıdan göndərilən əlavə qoşun və zirehli qatarla bolşeviklər yerli əhaliyə, Milli ordu əsgərlərimizə divan tutdular. Həmin vaxtlar Gəncə ÇEKA-sı olan polkovnik Tuxareli qeyri-bərabər döyüşlərdə general-şahzadə Əmir Kazım Mirzə Qacarı, polkovnik Danyal bəy Həməcovu, kapitan Hüseyn bəy Mirizadəni və onlarla əsgərlərimizi mühasirəyə salıb doğrayırdı. Yüzlərlə azərbaycanlı qanı axıdan Tuxareli üsyan yatırılandan sonra evləri, ailələri talan etməkdə də əli uzunluq edirdi. İyun ayında o, üç bolşevik əsgərinə iki dolu çamadan verib tapşırır ki, bunları Tiflisə aparıb, filan ünvanda, filankəsə verin.

Sınıq körpüdə sərhədçilər üç bolşevik əsgərini saxlayır və tələb edirlər ki, çamadanlar açılsın, yoxlayacağıq. Əsgərlər imtina edib deyirlər ki, çamadanlar Tiflisdəki gizli bolşevik təşkilatında açılacaq. İçindəkilər onlara çatası məxfi sənədlərdir. Uzun mübahisədən sonra şübhələnən sərhədçilər Bakı ÇEKA-sı ilə əlaqə yaradırlar. Respublika ÇEKA-sından "Çamadanlar açılıb, yoxlanılsın! əmrini verirlər.

Açılan çamadanların içindən ləl-cəvahirat, qızıl boyunbağılar, qızıl pul və üzüklər tökülür.

Məlum olur ki, bolşevik polkovniki Tuxarelinin Gürcüstana qohumlarına ötürmək istədiyi bu qiymətli əşyaları Gəncədə güllələdiyi imkanlı azərbaycanlı arvad-uşağın boynundan, qarət etdiyi evlərdən yığıbmış.

Dərhal keçmiş ağ qvardiyaçı Tuxarelini həbs edib Bakıya gətirdilər. Onu indiki Yusif Məmmədəliyev küçəsindəki beş saylı binanın zirzəmisində güllələyirlər. O vaxtlar Respublika ÇEKA-sı həmin küçədə yerləşirdi.

* * *

Vaxtilə Məhəmmədəmin Rəsulzadə İstambulda nəşr etdiyi "Odlu yurd dərgisində Dəmirçioğlu soyadlı müəllifin iki kiçik hekayətini dərc etmişdi. "Ana və "Ölüm" düyünü adlı xatirələri oxuyanda namərd Hacı İlyasın, Pankratovun və Tuxarelinin xalqımıza etdikləri olmazın zülmün şahidi olursan. "Ana" hekayatində oxuyuruq:

"Asobu oddelə (çekadan daha müdhiş bir yer) götürdülər. Soyuqlu bir gün. Sabah erkən, baxdım gənc, əsmər, zəif bir qadın bir məmurla yeyin-yeyin gediyor. Minlərcə adamlar əmri verilmiş ölüm kançılaryasına sevinərək ediyor.

Bu qadının belə gedişi məni çox maraqlandırdı. Bunun kim olduğunu sordum, dedilər ki:

Bu bir azərbaycanlı zabitinin arvadıdır. Ərini bolşeviklər başqa bir şəhərdə həbs edib, sonra da öldürınüşlər. Bu qadın ərinə təsəlliverici bir məktub yazmışdır. Bolşeviklər qadını məktub yazdığı üçün və qoca qaynanasını da məktubu göndərdiyi üçün həbs etmişlər. Qadının bir südəmər uşağı vardır. Gündə üç dəfə uşağı anasına əmizdirmək üçün gətirirlər. Gənc ana da balasını görmək üçün belə tez-tez gedir. Bu qadın günlərlə belə qaçaraq gedirdi!..

Onu hər gün körpəsinin yanına aparan məmur bir gecə gəlib ona amiranə üç kəlməlik bir söz söylədi:

- Şəxsi əşyalarını topla!

Qadın əşyalarını topladı və getdi.

Bu üç kəlmədən ibarət olan bir cümlə gedənlərin yüzdə doxsanının ölümə getdiyini bildiyimiz halda bu gənc ananın da ölümə getdiyinə inana bilmirdik.

O biri gün səhər erkən qadını körpəsinə aparan məmurun uşağı gətirən adama söylədiyi üç kəlməlik:

- Uşağı daha gətirmə! - cümləsi bu gənc ananm edam edilməsinə bir işarə idi.

İxtiyar baba və qaynana həbsxananın bir küncündə oturaraq, heç bir söz söyləmədən ağlayırdılar. Göz yaşları ağ saqqalından üzünə tökülürdü. Məhbuslar da onun ətrafina toplanmış, heç bir söz söyləmədən, bəzisi kinli-kinli baxır, bəzisi də ağlayırdı.

* * *

Məni böyük bir həbsxanaya gətirdilər. Məndən əvvəl gətirilmiş məsləkdaşlarımın saxlandıqları kameraya girdim. Altı adamlıq kameraya on iki kişi yerləşdirilmişdi.

Part, part, part. Dəhşətli bir avtomobil gurultusu eşidildi.

- Bu nədir?

- Ölüm avtomobili.

- Ölüm avtomobili nə deməkdir?

- Hərbi inqilab məhkəməsinin rəisi yəhudi Hacı İlyasın avtomobili.

- Gurultu nə üçündür?

- Edama aparılanların səsləri eşidilməmək üçün.

Yoldaşlar bu sözü deyər-deməz bəzisi teşt, bəzisi ağ tabaq və digərləri də başqa şeylər alaraq çalmağa və şərqi oxumağa başladılar.

Mən vahimələndim və bu nə oxumaqdır - deyə soruşdum. Mənə - sən də oxu! - dedilər.

- İndi ölümə məhkum olanları ovludan içəriyə çıxaracaq və həbsxananın arxasında, dəniz sahilində güllələyəcəklər.

Onların ovludan gedərkən bağırtılarını və edam edilərkən yalvarmalarını, dualarını və güllələrin səsini eşitməmək üçün məhbuslar hər gün belə etmək məcburiyyətində olduqlarını əlavə etdilər.

Mən oxuyammadım, çünki edama aparılanların səsi ovludan və sonra yenə onların və onları öldürən güllələrin səsi çöldən eşidilirdi.

Bu ölüm düyünü ("toy") hər axşam davam edirdi.

Havalar istiləşdikcə dərin basdırılmamış edam edilənlərin ağırlaşmış iyisi həbsxanaya gəlirdi.

Bir gün məhbuslar Hacı Ilyasdan kiçik bir xahiş etdilər: edam edilənlər daha uzaq bir yerdə edam edilsinlər ki, məhbuslar onların və onları öldürən güllələrin səslərini eşitməsinlər. Və bir də ölüləri bir az dərin basdırsınlar.

Hacı İlyas qəzəblənərək dedi ki, bu sizin qarışacağınız iş deyil. Mən istəsəm burda öldürər və burda da qoyaram.

* * *

Hətta qaniçən bolşeviklər Azərbaycana basqın edən günü Samur çayının sahilində onların qarşısına çıxıb vuruşan, ağır döyüşlərdən sonra son nəfəsinə qədər vuruşub həlak olan üç yüz nəfərdən çox əsgər və zabitlərimizin qohum-əqrəbasını da güllələdilər, sürgünə göndərdilər. İndiyədək öyrənilməmiş, yetmiş ildən çox "məxfıdir" qrifilə saxlanan arxiv qovluqlarından onların döyüş və ömür yolu barədə hələlik ilkin məlumatımız bunlardır:

Polkovnik **ŞAHZADƏ SEYFULLA BƏHMAN MİRZƏ OĞLU QAÇAR** - 1918-ci il, noyabrın 15-də Azərbaycan ordusunun Baş Qərargahında intendant şöbəsininin rəisi. 1919-cu il yanvarın 6-dan üçiincü Gəncə piyada alayının komandiri, həmin il iyulun birində xəstəliyinə görə istefaya çıxmış, sentyabrın 15-də yenidən xidmətə qayıtmış və nazirlikdə hərbi donanmanın qərargah işləri ona tapşırılmışdır.

1864-cü il martın 6-da Tiflisdə anadan olan şahzadə Seyfulla Mirzə Tiflis Ədadiyyə Məktəbinin tam kursunu bitirmişdir. 1886-cı il avqustun 30-da isə Tiflisdəki birinci dərəcəli Yunkerlər Məktəbini qurtaran podporuçik Seyfulla Mirzə 152-ci Vladiqafqaz alayında hərbi xidmətə başlamışdır. Rusiyanın müxtəlif şəhərlərində, süvari diviziyalardakı əla xidmətinə görə həmişə fərqlənmişdir. Birinci Cahan Müharibəsi illərində Qərb cəbhəsində batalyon və 208-ci Loru

süvari alayının komandiri olmuşdur. İvanqorod şəhəri uğrunda gedən döyüşlərdə yaralanmışdır. 1916-cı ilin sentyabrında polkovnik rütbəsi ilə təltif olunan şahzadə Seyfulla Mirzə ən nümunəvi zabit kimi Amur sərhəd alayının komandiri idi.

İkinci dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə), dördüncü dərəcəli "Müqəddəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə və Georgi silahı ilə təltif olunmuşdur.

1920-ci il bolşevik istilasından sonra 1921-ci ilin yanvar ayına kimi respublika konvoynizami hissəsinin rəisi olmuşdur. Müsavat zabiti olduğuna görə etibarsız şəxs kimi işdən çıxarılmışdı. Ağır ehtiyac içərisində yaşayan polkovnik Seyfulla Mirzə Qacar 1924-cü ilin martında belə bir məktubla Azərbaycan SSR Hərbi komissarlığından maddi kömək istəmişdir: "Azərbaycanda sovetləşmədən sonra bir neçə hərbi xidmət veteranı qalıb ki, yaşlarının keçməsi ilə ağırlaşan çətin maddi vəziyyətlərinə iltifat göstərərək, hökumət onları ömürlük təqaüdlə təmin edib.

Bütün gəncliyimi Rüsiyada hərbi xidmətdə keçirmişəm. Birinci Dünya Müharibəsində əvvəldən axıradək iştirak etmişəm. Sizə məlum olduğu kimi, Azərbaycanın sovetləşməsinin birinci gündən fasiləsiz olaraq hərbi idarələrdə və o cümlədən son bir il yarımında Azərbaycan proletar hərbi məktəbində müəllim vəzifəsində çalışıram. Lakin pozulmuş sağlamlıq (60 yaşım var) mənim işləməyimə son qoyub və mən ötən ilin sentyabr ayından hər cür yaşamaq imkanlarından məhrumam. Ailəmlə birlikdə dərin maddi ehtiyac keçirirəm.

Bu vəziyyətdə yeganə ümidim odur ki, mən, Sizin iltifatınızla yardımla təmin olunacağam və veteran yoldaşlarımla bir sırada qoyulacağam.

Polkovnik Seyfulla Mirzə Qacar 1926-cı ildə Bakıda vəfat etmişdir.

Polkovnik **VƏLİ BƏY SADIQ BƏY OĞLU YADİGAROV** - 1918-ci ilin sentyabrından Milli Orduda korpus komandirinin yanında eskadron komandiri olmuşdur. XI Ordu Bakıya basqın edəndə üçüncü Şəki süvari alayının pərakəndə dəstəsilə vuruşa-vuruşa Gürcüstan ərzisinə çəkilmişdir. 1921-ci ilin martınadək bolşeviklərə qarşı vuruşmuş və həmin il əvvəlcə Türkiyəyə, sonra Polşaya mühacirətə getmişdir. Polşada "Armiya krayova" xalq ordusunda əməliyyat şöbəsində süvari rəisi və 10-cu süvari atıcılar əlahiddə diviziyasının komandiri olmuşdur.

Polşada çıxan "Jiçe Varşavı" qəzeti 6 iyul 1990-cı il tarixli nömrəsində polkovnik Vəli bəy Yadigarov haqqında yazır:

"Ötən şənbə Varşava qəbirstanlığında Vəli bəy Yadigar müsəlman-tatar qaydası ilə dəfn olunmuşdur.

Dəfn fəxri qarovulun müşayiəti və hərbçi şöhrəti qaydaları ilə keçirilmişdir. Mərhumu son mənzilə yaxın qohumları, dostları, keçmiş alaydaşları yola salmışlar. Yaylım atəşi açılmış, orkestr Şopenin dəfn marşını çalmışdır. Cənazə üzərində müsəlman ayinini Varşava və Belastok yeparxiyasının imamı Aleksandr Əli Şaletski icra etmişdir.

Bəs polkovnik Yadigar kimdir? Müsəlmandır, Azərbaycan knyazıdır...

Bu qərib Polşa ordusu heyətində vuruşmuş, K.Soskovski adına yeddinci Ulan alayının zabiti olmuşdur. O, 1920-ci ildə tabeliyində olan hissə ilə birlikdə

Azərbaycanı tərk etmək məcburiyyətində qalmış, 1921-ci ilin mart ayında Polşada sığınacaq tapmış, müqavilə ilə polyak ordusu sıralarına daxil olmuşdur.

Qruzdendə süvari məktəbini və Varşavada Ali Hərbi Məktəbi bitirdikdən sonra yeddinci süvari polkunun komandir müavini təyin edilmişdir. Polyak qızına evlənmiş, polyak dilini öyrənmişdir. Keçmiş alaydaşları onu son dərəcə yüksək mədəniyyətə, sağlam həyat tərzinə malik insan, həm də olduqca tələbkar zabit kimi xatırlayırlar.

Vəli bəy Polşaya hücum etmiş hitlerçi qəsibkarlara qarşı 1939-cu il sentyabrın on birində təşkil olunmuş müdafiə kampaniyasında iştirak etmiş, Mazovetski süvari briqadasının qərargah rəisi olmuşdur. Polşanın işğalından sonra Armiya Krayovanın (AK) tərkibinə daxil olan "Olen" polkunun komandiri kimi Varşava üsyanında iştirak etmişdir.

Müharibədən sonra Vəli bəy Yadigar Argentinaya mühacirət etmiş, on doqquz il əvvəl - 1971-ci il dekabrın 13-də Buenes-Ayresdə vəfat etmişdir.

Öz vəsiyyəti ilə Polşada təkrar dəfn edilmişdir. Dəfn mərasimində mərhumun qızı - Züleyxa xanım Yadigar-Kalinovskaya da olmuşdur. O, hazırda milliyyətcə polyak olan əri ilə İspaniyada yaşayır."

Vəli bəy Sadıq bəy oğlu 1897-ci ildə anadan olmuşdur. Borçalının Təkəli kəndindəki nüfuzlu Yadigarovlar nəslindəndir. Bu nəsildən 1918-20-ci illərdə Milli Orduda səkkiz zabit şərəflə xidmət etmişdir: poruçik Nadir bəy, kornet Rəhim bəy, praporşik Adilbəy, poruçik Abuzər bəy, ikinci Qarabağ süvari alayında üçüncü bölüyün komandiri, ştabs-rotmistri Məmməd bəy, ikinci Qarabağ süvari alayında ikinci bölüyün rotmistri Daniyal bəy, podpolkovnik İsrafil bəy Həsən bəy oğlu və süvari diviziyasının rəis müavini general-mayor Davud bəy Yadigarovlar. Zadəgan nəslinə məxsus olan Vəli bəy ilk hərbi təhsilini 1909-1915-ci illərdə Tiflis gimnaziyasında almışdır. 1915-ci ildə kornet Vəli bəy Əlahiddə Qafqaz ordusunun korpusunda xidmət etmişdir.

Birinci Dünya Müharibəsi illərində 17-ci Nijedraqun süvari alayında xidmət edən poruçik İsrafil bəy Yadigarov döyüşlərdə göstərdiyi igidliyə görə dördüncü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə), üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə), dördüncü dərəcəli "Müqəddəs Anna" (üzərində "İgidliyə görə" yazısı ilə) və üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə) ordenlərilə təltif olunmuşdur. 1916-cı il aprelin 29-da isə Əlahəzrət imperatorun əmrilə İsrafil bəy Yadigarova rotmistr rütbəsi verilmişdir.

On yeddinci Nijedraqun alayında kornet rütbəsində xidmət edən Kərim bəy Yadigarov isə ön cəbhədə apardığı uğurlu döyüşlərə görə üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə), ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə) və dördüncü dərəcəli "Müqəddəs Anna" (üzərində "İgidliyə görə" yazısı ilə) ordenlərilə təltif olunmuşdur.

Arxiv sənədlərindən o da məlum olur ki, süvari alayında xidmət edən Məmməd bəy Yadigarov üstü "İgidliyə görə" yazılı "Müqəddəs Anna" ordenlərinin dördüncü dərəcəsilə təltif olunmuşdur.

Bunlar Yadigarov qardaşlarının 1914-16-cı illərdə təltif olunduğu ordenlərdir.

Polkovnik **RÜSTƏM BƏY MƏMMƏDAĞA OĞLU ŞIXLİNSKİ** - 1912-13-cü illərdə Birinci Qafqaz atıcı artilleriya divizionunda ştabs-kapitan rütbəsində xidmət edib. 1918-ci ildə Topçu hissəsinin və Ağdamdakı pulemyot məktəbinin rəisi idi.

1919-cu il fevralın beşindən Əlahiddə Ağır Top divizionunun və 1920-ci ilin əvvəlində ikinci Artilleriya briqadasəının komandanı. 1920-ci ilin aprelində bolşeviklər tərəfindən Bakıda güllələnmişdir. Məşhur generalımız Əliağa Şıxlinskinin qardaşı oğlu, general Cavad bəy Şıxlinskinin isə qardaşıdır. 1877-ci ildə Qazaxda anadan olub. Tiflisdəki kadet korpusunu və Peterburqda Mixaylov topçuluq məktəbini bitirib. Birinci Dünya Müharibəsində birinci Qafqaz atıcı artilleriya divizionunda kapitan rütbəsində döyüşüb. Cəbhədəki xidmətləri dördüncü dərəcəli "Müqəddəs Anna" (üzərində "İgidliyə görə" yazısı ilə) və dördüncü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə) ordenlərilə qiymətləndirilib.

Polkovnik **ŞAHZADƏ XOSROV MİRZƏ XANBABA XAN OĞLU QACAR** - 1912-13-cü illərdə 17-ci Nijeqorod draqun alayında rotmistr rütbəsində xidmət edib. Birinci Dünya Müharibəsində on səkkizinci Şimal draqun polkunun komandiri, 1918-ci ildən isə Milli Orduda üçüncü Ləzgi polkunun komandiri olmuşdur. 1920-ci ildə Gəncə üsyanından sonra Türkiyəyə mühacirətə getmişdir. 1914-16-cı illərdə dördüncü və üçüncü dərəcəli "Müqəddəs Anna" ordenlərilə (üzərində "İgidliyə görə" yazısı ilə) təltif olunmuşdur.

Polkovnik **ƏHMƏD BƏY MƏHƏMMƏD OĞLU DİBİROV**
- İkinci piyada Zaqatala alayının komandiri. 1860-cı ildə Balakən rayonunun Mahmalar kəndində anadan olub. Müsavat zabiti olduğuna görə iyirminci ildə həbs edilib. Şəki qalasında bir neçə il saxlanıb. Azad edildikdən sonra 1930-cu ildə yenidən həbs edilib. İki ay sonra həbsxanada ürək partlamasından vəfat edib.

Polkovnik **CAHANGİR BƏY KAZIMBƏYOV** - Üçüncü piyada Gəncə alayının komandiri. 1920-ci il mayın 24-dən 30-dək bolşeviklərə qarşı olan Gəncə üsyanının fəal iştirakçısı. 1888-ci ildə Gəncədə anadan olub. Hərbi təhsilini Peterburqda alıb. Birinci Dünya Müharibəsində iştirak edib. 1918-ci ildə Gəncədə Milli Azərbaycan Ordusunun yaradılmasında çalışıb. Iyirminci ildə Gəncə üsyanı yatırıldıqdan sonra İstambula mühacirətə gedib. Az sonra marşal Yuzef Püsudskinin dəvəti ilə Varşavaya köçüb. Polşa ordusunda diviziya komandiri olub. "Prometey" cəmiyyətində istilaçı ruslara qarşı mübarizədə həyat yoldaşı Vəliyə xanım Xoyskiylə birgə çalışıb. Onlar Azərbaycan dilində qəzet və jurnal nəşr edir, "Azəri-türk" dərnəyini yaradırlar. Böyük Vətən müharibəsi vaxtı Polşa işğal olunanda əsir düşür. Sovet əsirliyindən qaçıb əvvəlcə Almaniyada, sonra isə İtaliyada yaşayır. Əllinci ildə yenidən İstambula gəlir, ağır güzəran keçirdiyindən Almaniyaya köçüb, ömrünün sonuna kimi "Azadlıq" radiosunda əməkdaşlıq edir. 1953-cü ildə Amerikada nəşr edilən "Azərbaycan" Milli jurnalının 12-ci nömərsində polkovnik Cahangir bəy Kazımbəyovun "Gəncə üsyanı haqqında

xatirələr” adlı sanballı yazısı dərc olunmuşdur. 1955-ci ildə Berlində Sovet çekistlərinin əlilə qətlə yetirilmişdir.

Polkovnik **MEHDİ BƏY EYNALI OĞLU SULTANOV** -

1880-ci ildə Gəncədə anadan olub. Altıncı Göyçay piyada polkunun (Bayılda yerləşirdi - Ş.N.) komandiri. 1920-ci ildə bolşevik istilasından sonra Azərbaycan diviziyasında üçüncü alayın komandiri olmuşdur. 1926-cı ildə Gəncədə gizli fəaliyyət göstərən müsavat hərbi təşkilatının üzvü olduğuna görə on il müddətinə Solovetsk həbs düşərgəsinə sürgün edilmişdir.

1937-ci il iyulun 26-da Azərbaycan Xalq Daxili Işlər Komissarlığı xüsusi üçlüyünün qərarı ilə güllələnmişdir.

Polkoynik **HÜSEYNQULU İSKƏNDƏR XAN OĞLU XOYSKİ** - 1912-14-cü illərdə üçüncü Qafqaz atıcı alayında kapitan rütbəsində xidmət edib. 1917-ci ildə Gəncədə cavanlardan ibarət “Zelyonaya qvardiya” adında əsgəri təşkilat yaratmışdı. 1919-20-ci illərdə Gəncə şəhər qubernatorunun müavini olub. Iyirminci ildə bolşevik-daşnak təzyiqindən mühacirətə getmişdir. 1955-ci ildə İstambul şəhərində vəfat etmişdir. Atası İskəndər xan Xoyski imperiya ordusunda general-mayor rütbəsində xidmət etmişdir. İskəndər xan 1820-ci ildə Şəkidə anadan olmuşdur.

Polkovnik **ŞAHZADƏ SƏDRƏDDİN BƏHMƏN MİRZƏ OĞLU QACAR** - 1918-19-cu illərdə Bakı qəzasının hərbi rəisi. 1919-cu ilin sonlarından bolşevik çevrilişinə qədər hərbi Nazirliyin dəftərxana rəisi oiub. 1920-ci ilin aprelində bolşeviklər güllələyib.

Birinci Dünya Müharibəsindəki xidmətləri dərəcəli “Müqəddəs Stanislav və üçüncü dərəcəli “Müqəddəs Anna ordenlərilə qiymətləndirilib. Şuşada şahzadə Bəhmən Mirzənin ailəsində anadan olub.

Azərbaycan Respublikasının Xalq artisti, müğənni Sürəyya Qacarın atasıdır. Sürəyya xanım atasını belə xatırlayırdı: “Atam Sədrəddin Qacar hərbi qulluqçu olsa da, yaxşı skripka çalırdı. Peterburqda təhsil alanda öyrənmişdi. Notları hələ də qalır. Pəsdən zümzümə etməyi də yadıma gəlir. Anam Günəş xanım Tağıbəyovanın da hərdən bir oxumağı vardı. Ev işləri görəndə zümzüməsi kəsməzdi. Atam güllənəndən sonra ailəmiz Şuşadan Bakıya köçdü...”

1993-cü ilin iyun ayında Çingiz xanım və sonuncu Krım xanı Şahin Gərayın nəslinin davamçısı əlahəzrət şahzadə Cezar Gəray dədə-baba vətəni Krımda olanda “Moskovskiye novosti” qəzetinin müxbirinə verdiyi müsahibəsində demişdir:

.. .Sülaləmizin Rusiyada qalan hissəsinə gəldikdə isə, vətəndaş müharibəsi və inqilab zamanı bolşeviklər bizim ailənin bir neçə üzvünü öldürmüşdülər. Qvardiya zabiti, Qafqaz canişinin müavini, senator, Sultan Şahzadə Krım Gəray Nikolay Aleksandroviç (1886-1921) ingilis qızı ilə evlənmişdi. Vətəndaş müharibəsi vaxtı o, Petroqradda acından öldü. Ailəmizin digər üzvü, inqilabdan əvvəl imperiya ordusunun generalı, Birinci Dünya Müharibəsində “Dikaya diviziya”nın komandirlərindən biri general-leytenant Sultan Şahzadə Klıç Gəray (1893 - 1947) bolşeviklərə qarşı vuruşmuş, sonra mühacirətə getmişdi. İkinci

Dünya Müharibəsində o, kazak qoşunlarının komandiri olmuş, ağqvardiaçı general P.N.Krasnovla birlikdə bolşeviklərə qarşı vuruşmuşdu. Sonra tutularaq Avstriyaya gətirilmiş və SMERŞ-ə verilmişdi. Moskvada isə gizli məhkəmə tərəfindən mühakimə edilmiş və 1947-ci il yanvarın on yeddisində edam olunmuşdu.

* * *

1994-cü ildə “Voennaya istoriya jurnalının yeddinci sayında B.A.Enqelqartın “Kamertajın xatirələri məqaləsi dərc olunmuşdu. Məqalədə həmyerlimiz, dünya şöhrətli şərqşünas-alim Mirzə Kazım bəyin nəvəsi Lev Aleksandroviç Kazım bəyin (1876-?) istedadlı rəssam, həm də döyüşkən zabit olmasından söhbət açılır. 1896-cı ildə Peterburqdakı Paj hərbi korpusunu bitirən Lev Kazım bəy imperatriça Aleksandra Feodorovna alayının Ulan leyb-qvardiyasında ən yaxşı zabitlər sırasında xidmət etmişdir. Müəllif onun Birinci Dynya myharibəsindəki fəaliyyəti haqda yazır:

“ ...Bir başqa oğlan yaxınlaşdı. Bu bir az monqol tipini xatırladan solğun bənizli, balaca Lev Kazım bəy idi. O, ətrafindakılardan yaş yarım böyük olduğundan onlara bir az saymamazlıqla yanaşırdı. O, həm də çox dalaşqan idi. Uşaq vaxtı biz onunla çox dalaşardıq.

Lakin bu təkcə bizim korpusun divarları arasında deyil, lap saçlarımız ağardıqdan sonra belə dostluq əlaqələrimizin saxlanılmasına mane ola bilmədi. Kazım bəy qeyri-adi rəssam ola bilərdi. Bu qiyməti ona bizə rəsmdən dərs deyən, professor Aleksandr Novoskoltsev vermişdi. Lakin ilk əvvəl çılğın qvardiya süvariliyi, sonra isə ailənin maddi tələbatını ödəmək üçün məcburi xidmət Kazım bəyin rəssam kimi özünü sınamasına və istedadının inkişafina imkan vermədi.

Müharibə başlanarkən, o Reveldə (indiki Tallin şəhəri) kəndli bankının şöbə müdiri idi. Lev Aleksandroviç dözə bilmədi, mundir geyinərək qırx yaşlı kornet kimi bütün müharibəni birlikdə keçdiyi doğma alaya qayıtdı. Cəbhələrdə süvari zabiti kimi ad-san qazandı. Onun döyüş xidmətləri ordenlərlə təltif olundu.

Bolşeviklərə xidmət etmək istəməyən kornet Lev Kazım bəy 1920-ci il fevralın 2-də Novorossiyskdən “İrtış gəmisində ailəsilə birlikdə zadəgən qüruru ilə Rusiyanı tərk edib xaricə getdi. 1923-cü ildə yaranmış mühacirlər təşkilatında - mladorusların monarxiya ittifaqına rəhbərlik etdi. Qaçqın rusların arasında onun soyadı çox məşhur idi. Onun oğlu da mladorusların liderlərindən idi.

Podpolkovnik **LƏTİF BƏY MƏMMƏDLİ OĞLU İBRAHİMBƏYLİ** - Bakı realnı və Tiflis üç illik hərbi məktəblərini bitirib. Birinci Dünya Müharibəsində yüz əlli üç saylı Bakı alayının tərkibində zabit kimi vuruşub. Kapitan rütbəsində Qars vilayətinin komendantı olub. Döyüş xidmətlərinə görə orden və medallarla təltif olunub. 1884-cü il dekabrın iyirmi doqquzunda Salyanda anadan olub. Müsavat ordusunda Bakı Qala batalyounun komandiri idi.

Şahzadə-kapitan **FİRİDUN MİRZƏ SEYFULLA OĞLU QACAR -** Birinci Dünya Müharibəsi illərində general Doxturovun komandanlıq etdiyi altmış altıncı Butırsk süvari alayında xidmət edib. 1916-cı ildə döyüşlərdə fərqləndiyinə

görə üçüncü dərəcəli "Müqəddəs Anna" ordenilə (qılınc və bantla birgə) təltif olunub. 1919-cu il fevralın 23-dən Azərbaycan Milli ordusunda kapitan rütbəsilə xidmətə başlayıb. 1920-ci il aprelin 28-də Bakıda bolşevik-daşnak qoşunları ilə döyüşdə qəhrəmanlıqla həlak olub. Şahzadə Firidun Mirzə 1890-cı ildə Tiflisdə anadan olub.

Şahzadə - podpolkovnik **MƏMMƏDQULU MİRZƏ QACAR**

- 1910-cu ildən birinci Kuban-kazak alayının komandiri. Birinci Dünya Müharibəsində döyüşlərdə göstərdiyi fəallığa görə ikinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə), ikinci və dördüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və üzərində "İgidliyə görə" yazısı ilə) ordenlərilə təltif olunub. 1872-ci ildə anadan olub, 1920-ci ilin mayında bolşeviklər Nargin adasında güllələyiblər.

Podpolkovnik **FUAD XAN HƏSƏN XAN OĞLU TALIŞXANOV** - Tiflis kadet korpusunu bitirib. Çar ordusunda rotmistr rütbəsinə qədər yüksəlib. 1918-1920-ci illərdə Birinci Cavanşir piyada alayının yavəri olub. Sovetlər vaxtı Qızıl Orduda müxtəltf hərbi vəzifələrində çalışıb, podpolkovnik rütbəsinə qədər yüksəlib. 1930-cu ildə Gəncədə hərbi müfəttişlikdə işləyəndə həbs edilib. 1896-cı ildə Lənkaranda zadəgan ailəsində anadan olub.

Polkovnik **FİKRƏT ƏBÜLFƏT OĞLU AĞALAROV** - 1868-ci il noyabrın 10-da Tiflisdə anadan olub. Şuşa realnı məktəbində və 1885-ci ildən 1888-ci ilədək Nikolayev şəhərindəki hərbi məktəbdə təhsil alıb. Birinci Dünya Müharibəsində iştirak edib. Milli Orduda birinci Azərbaycan süvari alayının komandiri idi.

Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun 1919-cu il on dörd iyul tarixli teleqramı:

"Cənab hərb naziri Zati-alilərinə!

Qarabağın xalq milisi sıralarında Moskva İnstitutunun tələbələri İsgəndər bəy Sultanov və keçmiş Qarabağ süvari alayının əsgəri Xankişi Nuru oğlu xidmət edirlər. Onlardan birinə - ləzgi alayı ilə birlikdə bolşeviklərə qarşı döyüşlərdə iştirak etmiş Sultanova Türk hərbi ordeni "Məcidiyyə", ikincisinə - Xankişi Nuru oğluna axırıncı müharibənin (Birinci Dünya Müharibəsi nəzərdə tutulur - Ş.N.) Georgi Kavaleri ordeni verilmişdir.

Axırıncı Qarabağ hadisələri (1918-ci il nəzərdə tutulur - Ş.N) zamanı onlar böyük bacarıq və şücaət göstərmişlər. Bu haqda Siz Zati-alilərinə məlumat verərək xahiş edirəm ki, Siz onların birinci zabit rütbəsinə təqdim olunmaları haqqında sərəncam verəsiniz."

Ştabs-kapitan **RƏHİM ALLAHQULU OĞLU RƏHİMOV** - 1893-cü ildə Naxçıvanın Baş Noraşen kəndində anadan olub. 1916-cı il mayın birində Tiflis hərbi məktəbini bitirib. 1916-cı il avqustun 19-dan on üçüncü Qafqaz atıcı alayında döyüşüb. Həmin ilin dekabr ayında sol çiynindən yaralanıb. Göstərdiyi şücaətə

görə üçüncü dərəcəli “Müqəddəs Stanislav” ordeni (qılınc və bantla birgə) təltif olunub. 1917-ci il mayın 20-də podporuçik, dekabr ayında isə poruçik rütbəsi verilib və on ikinci rotaya komandir təyin olunub. 1917-ci il noyabrın iyirmi doqquzunda ştabs-kapitan rütbəsi alıb.

1918-ci il dekabrın on dördündə könüllü olaraq ikinci Azərbaycan süvari alayında xidmətə başlayıb. Hərbi tədris komandasının rəisi təyin olunub. 1919-cu il mayın iyirmi ikisində yeddinci rotanın komandiri təyin olunub.

Azərbaycandakı aprel çevrilişindən sonra taleyi məlum deyil.

Ştab-rotmistri **ALLAHYAR MÖVSÜM OĞLU ƏMİRCANOV** - 1907-ci ildən 1914-cü ilədək Vladiqafqaz kadet korpusunda hərbi təhsil alıb və orada xidmət edib. Birinci Cähan Müharibəsində “Dikaya diviziya”da qulluq edib. Göstərdiyi hərbi şücaətlərə görə dördüncü dərəcəli “Müqəddəs Georgi” xaçı ilə təltif olunub. 1897-ci il mayın on birində Nuxada (Şəki) bəy ailəsində anadan olub.

Rotmistr **HACIAĞA MƏMMƏDƏLİ OĞLU İBRAHİMBƏYLİ** - Bakıda kommersiya məktəbini və 1913-cü ildə Tiflis hərbi məktəbini bitirib. 1914-15-ci illərdə Birinci Dünya Müharibəsində iştirak edib. 1890-cı il dekabrın səkkizində Salyanda məmur ailəsində anadan olub.

1946-cı ildə nəşr olunmuş “Səməd bəy Mehmandarov” kitabçasının müəllifı. Həmin kitabçasında Mehmandarovla ilk görüşünü belə xatırlayır:

“Mehmandarov mənə yaxınlaşıb çox nəzakətlə soruşdu:

“Rotmistr, görünür siz vaqonda yer tapa bilməmisiniz... Mənim kupemdə bir boş yer vardır.”

Mən generala rəsmi təzim edib cavab verdim: “Yox, general həzrətləri, mənim yerim vardır, özü də sizin kupenizdədir.” O, cavabında “Aha, yaxşı oldu, mən çox şadam” - dedi. Bu zaman ikinci zəng vuruldu. General Səməd bəy Mehmandarovla vaqona daxil olduq.

Səməd bəy çox söhbətcil və çox yaxşı yol yoldaşı imiş. O, mənimlə bəzən rusca, bəzən də azərbaycanca danışırdı. O, ahəstə-ahəstə danışırdı, hər sözünü ölçüb-biçirdi, fikrini sadə və düzgün ifadə edirdi. Onun danışıq tərzi, səsi, sakit və qəti tonu, özünü sərbəst hiss etməsi göstərirdi ki, bu adam uzun və maraqlı həyat sürmüş, böyük vəzifə sahibi olmuş, şanlı igid əsgər həyatı keçirmişdir. Səməd bəy Mehmandarov yolda mənə bir çox maraqlı və faydalı şeylər danışdı.”

Ştab-rotmistri şahzadə **FİRİDUN ALLAHVERDİ OĞLU QACAR** - Tiflisdəki Klassik Gimnaziyanı və Müəllimlər institutunu, 1916-cı ildə isə Tiflis kadet korpusunu bitirib. 1892-ci ildə məşhur Qacarlar ailəsində anadan olub. Müsavat ordusunda ikinci artileriya briqadasında birinci batareyanın zabiti.

Ştab-rotmistri **ZEYNAL BƏY SADIQOV** - İkinci Qarabağ süvari alayında dördüncü bölüyün komandiri. 1917-ci il iyunun 30-dan “Qafqazın yerli əhalisindən təşkil olunmuş diviziya”nın Azərbaycan alayında kəşfıyatçı kimi hərbi xidmətə başlayıb. Birinci Dünya Müharibəsində Qərb cəbhəsində vuruşub. Əla döyüş xidmətlərinə görə 1916-cı il aprelin 30-da üçüncü dərəcəli “Müqəddəs Stanislav” (qılınc və bantla birgə), yenə həmin il avqustun 30-da üçüncü dərəcəli “Müqəddəs

Anna" (qılınc və bantla birgə), iyunun 17-də dördüncü dərəcəli "Müqəddəs Anna" (üstündə fövqəladə "İgidliyə görə yazısı ilə), 1916-cı ilin iyunun 17-dən 1917-ci il iyunun 28-dək Qərb cəbhəsində gedən döyüşlərdə ikinci, üçüncü, dördüncü dərəcəli "Müqəddəs Georgi" xaçı və dördüncü dərəcəli Georgi medalı ilə təltif olunmuşdur. Ştabrotmistr rütbəsini 23 mart 1918-ci ildə Milli Azərbaycan ordusunda almışdır.

Ştab-rotmistri **ZÜLFÜQAR NƏZƏR OĞLU SULTANOV** - 1894-cü ildə Zəngəzurun Pircəvan kəndində anadan olub. İkinci Tiflis kişi gimnaziyasını və Petroqrad Hərbi Tibb Akademiyasını bitirib. Musavat ordusunda əvvəl poruçik, sonra isə ştab-rotmistr kimi xidmət edib.

Rotmistr **SƏLİM BƏY SULTANOV** - Kürd süvari divizionunun komandanı.

Ştabs-kapitan **YUNİS ŞƏKƏROV** - Kürd atıcı batalyonun komandiri.

Poruçik **OSMAN AĞA GÜLMƏMMƏD AĞA OĞLU GÜLMƏMMƏDOV**- 1914-cü il sentyabnn birindən 1917-ci ilin avqustunadək Birinci Dünya Müharibəsi illərində süvari alayında döyüşüb. Döyüş yolu Avstriya və Rumm cəbhələrində olub. Sıravi əsgər kim xidmətə başlayan Osman ağaya l915-ci ilin avqustunda kiçik uryadnik rütbəsi verilib. Həmin il Avstriya cəbhəsində Briqen şəhəri uğrunda gedən döyüşlərdə yaralanıb. 1916-cı ilin mart ayında baş uryadnik və 1917-ci ilin iyununda milis-yunkeri rütbəsi ilə təltif olunub.

1918-ci ildə Kürdəmir, Müsüslü, Sanqaçal döyüşlərində bolşeviklərə qarşı vuruşub. Onun süvari dəstəsi düşməndən yüz altı nəfər aşağı rütbəli əsgər, üç zabit, bir həkim əsir alıb, qənimət kimi üç pulemyot götürüb.

Poruçik Osman ağa Gülməmmədov 1918-ci il sentyabrın 15-də Bakı döyüşlərinin ən fəal iştirakçısı olub.

Avqustun on yeddisində Bakıya hücum zamanı bolşeviklərlə döyüşlərdə kornet Osman ağa Gülməmmədov süvari kəşfiyyat dəstəsində olarkən Balaxanı kəndinin şimal-qərb hündürlüyündən rəqibin arxasına keçərək onu Bakı şəhəri istiqamətində geri çəkilməyə məcbur etmişdi. Bu zaman özünü çatdırmış bölük Nobel çənləri yanında mövqe tutmuş və düşmən bölüyünə həmlə etməyə başlamışdı. Düşmən bölüyünün cinahında olan kornet Osman ağa Gülməmmədov pulemyot və tüfəng atəşi ilə qarşılandı. O, yaralıları itirsə də, nadir şücaət və mərdliklə, fədakarcasına igidlik nümunəsi göstərərək rəqibin güclü və sayca xeyli çox olmasına baxmayaraq, əlbəyaxa döyüşdə onun müqavimətini qırdı. Düşmənin bir hissəsi qırıldı, qalanları isə qaçdı. Həmlə zamanı cəsur kornet Osman ağa Gülməmmədovun mindiyi at yaralandı, lakin buna baxmayaraq, o, düşməni qıra-qıra onun sıralarını viran etmişdi. Bu güclü hücuma davam gətirməyən düşmən bir zabit, bir həkim, qırx doqquz əsgəri itirdi və üç pulemyotu qoyub qaçdı.

Bakı cəbhəsində bu həmlə qətedici rol oynadı, çünki rəqib qüvvələri sındı. Bizim piyada isə bundan müvəffəqiyyətlə istifadə edə bildi.

Döyüşlərdə göstərdiyi igidliyə görə Osman ağa Gülməmmədova kornet-süvari qoşununda birinci zabit rütbəsi və general Nuru paşanın əmrilə Türkiyənin beş qılınclı “Məcidiyyə” ordeni ilə təltif olundu.

Arxiv sənədlərində yazılr ki, təsvir edilmiş döyüşdə adını çəkdiyimiz kornet Osman ağa Gülməmmədovun komandası altında vuruşan süvarilər öz imzaları ilə onun qəhrəmanlığını şəhaət edirlər: Həmzə İsmayıloğlu, milis yunkeri Kərim Yaqubov, praporşik Paşa bəy Rüstəmov, milis yunkeri Dəmir Paşa oğlu və başqaları.

Poruçik Osman ağa Gülməmmədovun 1919-cu ilin martın altısında tərtib olunmuş şəxsi işindən öyrənmək olur ki, o, 1892-ci il avqustun on altısında Gəncə quberniyasının Qazax qəzasındakı Salahlı kəndində bəy ailəsində anadan olmuşdur. Birinci Dünya Müharibəsi illərində cəbhədə göstərdiyi qəhrəmanlığa görə ikinci, üçüncü və dördüncü dərəcəli “Müqəddəs Georgi” xaçı, ikinci, üçüncü və dördüncü dərəcəli “Müqəddəs Georgi” medalı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası hökumətinin hərbi rütbələr haqqında 16 may 1918-ci il tarixli 26 saylı əmri ilə Gylməmmədova hərbi şücaətlərinə görə starşinalıq imtiyazı ilə poruçik rütbəsi verildi, vəzifəsi yüksəldilərək üçüncü bölüyün komandiri təyin olundu. Əmrin ikisini də Hərbi Nazir vəzifəsini müvəqqəti icra edən general-leylenant Əliağa Şıxlinski təsdiq etmişdi.

Osman ağa Gülməmmədov həmin ilin iyul ayında xidmət üçün bölüyü ilə birgə Qusara göndərilir. Şimal sərhədlərimizin qorunmasında general Denikinə qarşı mübarizə aparan poruçik Osman ağa Gülməmmədov nümunəvi qəhrəmanlıqlar göstərir. 1919-cu ilin yanvar ayında keçirilən baxış-yoxlamasında onun sıralarında döyüşdüyü birinci Azərbaycan süvari alayı hərbi Nazirin şəxsi təşəkkürünü qazanır.

1920-ci ilin martında Qarabağ və Zəngəzurda düşmən təhlükəsi kəskin surətdə artır. Erməni-daşnak qoşun birləşmələri martın iyirmi birindən iyirmi ikisinə keçən gecə Xankəndində yerləşən birinci Cavanşir piyada alayının kazrmalarına qəfil basqın edir. Novruz bayramı axşamı Xankəndinə hücum edib Əskəran yolunu bağlayırlar. Poruçik Osman ağa Gülməmmədov həmin odlu döyüşlərin fəal iştirakçısı olur. Aprelin ikisində onun bölüyü daşnakların Əskərandan qovulmasında mərdliklə vuruşur.

Iyirmi səkkiz aprel istilasından sonra müsavat zabiti Osman ağa Gülməmməd ağa oğlu Gülməmmədov Türkiyəyə mühacirətə geməyə məcbur olmuşdur.

“1937-ci il fevralın yeddisində maarifçi-qadın Mədinə xanım Qiyasbəylinin altıncı dindirilməsindən:

Sual: - Osman ağa Gülməmmədov sizə tanışdır?

Oavab: - Osman ağa mənim həmkəndlimdir. Mən onu 1919 -1920-ci illərdə görmüşəm. Azərbaycanın sovetləşməsindən sonra o, Azərbaycan alayı ilə Türkiyəyə getdi.

Sual: - Sizi musavatçılarla nə bağlayırdı?

Gavab: - Bizim millətçi nəzərimiz, qohumluğumuz və bu adamların mədəniyyəti.”

Respublika Mərkəzi Dövlət Arxivində praporşik Gülağa Məhəmmədağa oğlu Gülməmmədovun cəmi bir səhifəlik şəxsi xidmət vərəqi saxlanılır.

1919-cu il martın birində tərtib olunmuş xidmət vərəqində göstərilir ki, Gülağa Gülməmmədov Birinci Azərbaycan süvari diviziyasında xidmət etmişdir. O, 1899-cu il dekabrın altısında Qazax qəzasının Salahlı kəndində zadəgan ailəsində anadan olmuşdur. Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini və 1918-ci il yanvarın otuzunda Gəncə praporşiklər məktəbini birinci dərəcə ilə bitirmişdir. Az müddət Birinci Müsəlman süvari alayında xidmət edən podpraporşik Gülağanı bilik və bacarığına görə diviziyanın qərargah rəisi təyin edirlər.

Praporşik Gülağa Gülməmmədov 1920-ci il aprel çevrilişindən sonra əmisi poruçik Osman ağa Gülməmmədovla birlikdə Türkiyəyə mühacirətə getmiş və hər ikisi türk ordusunda hərbi xidmətini davam etdirmişlər.

Poruçik **MƏHƏMMƏD BƏY ASLANBƏYOV** - Birinci Azərbaycan süvari alayının zabiti, 1894-cü il martın on altısında Dağıstan vilayətinin Kürə nahiyəsində bəy ailəsində anadan olub. Teymurxan - Şura şəhər ədadiyə məktəbində və Tiflisdəki böyük knyaz Mixail Nikolayeviç adına hərbi məktəbdə təhsil alıb.

Hərbi xidmətə 1914-cü il oktyabrın birində başlayıb. 1915-ci il fevralın birində Qafqaz cəbhəsindəki döyüşən orduda əla xidmətinə görə praporşik rütbəsi verilib. Həmin il fevralın yeddisində, yüz əlli beşinci Quba piyada alayına keçirilib. Noyabrın birində podporuçik, 1916-cı il dekabrın on ikisində isə poruçik rütbəsi alıb. 1918-ci il martın on dördündə birinci Azərbaycan süvari alayındada birinci bölüyün komandiri təyin olunub. Həmin il avqustun iyirmi doqquzunda 1207 nömrəli əmrlə ştab-rotmistri rütbəsilə təltif olunub. Bakı cəbhəsində daşnak-bolşeviklərə qarşı döyüşlərdə igidliklə vuruşub. Poruçik Məhəmməd bəyin qəhrəmanlığını general Nuru paşa Türkiyənin "Hərb medalı" ilə qiymətləndirib.

1918-ci il iyulun səkkizində Baş Qərargah rəisi, polkovnik Həbib Bəy Səlimov Birinci Azərbaycan alayının komandirinə belə bir məlumatla müraciət etmişdir:

"Poruçik Məhəmməd bəy Aslanbəyov özünü alayda yararlı zabit kimi, süvari Azərbaycan alayının bir çox zabitlərindən xeyli yaxşı göstərmişdir. Ona görə də, onun təminat almaq üçün, alaylardan birinə qəbul edilməsi yaxşı olardı. Alayın bir çox zabitləri Tiflisdə eyş-işrətlə məşğul olduqlan halda, o dəstədə yorulmadan çalışır.

Əla və çalışqan zabit olduğuna görə mən poruçik Məhəmməd bəy Aslanbəyovu dəstədən buraxa bilmərəm. Çox təəssüflər olsun ki, işə can yandıran belə zabitlər çox azdır. Dəstədəki xidmətdən -kimin işə sadiq olduğu, kiminsə paqon və pul üçün xidmət etdiyi aydın oldu.

Namusla xidmət edən zabiti cəzalandırınaq çox acı hal olardı."

Arxiv sənədlərindən məlum olur ki, poruçik Məhəmməd bəy Aslanbəyov Birinci Dünya Müharibəsi illərində Azərbaycan süvari alayında da namus və qeyrətlə vuruşmuşdur. O, "İgidliyə görə" medalı ilə və "Müqəddəs Anna" ordeninin dördüncü dərəcəsilə (1915-ci il iyulun 25-də), "Müqəddəs Stanislav"

ordeninin üçüncü dərəcəsilə - bant və qılıncla birgə (1915-ci il dekabrın 20-də), “Müqəddəs Anna” ordeninin üçüncü dərəcəsilə - bant və qılıncla (1916-cı il iyulun on yeddisində), 1918-ci ildə Bakı uğrunda döyüşlərdə göstərdiyi igidliyə görə Türkiyənin “Hərb medalı” ilə təltif olunmuşdur.

Poruçik **SAYAD ZEYNALABDİN OĞLU ZEYNALOV** -

1918-ci ilin noyabrında Gəncədəki podpraporşiklər məktəbini bitirib. Birinci Dünya Müharibəsində “Dikaya diviziya”nın Tatar-Azərbaycan alayında xidmət edib. SSRİ Mərkəzi Dövlət Hərbi Arxivindən 1975-ci ildə aldığımız sənəd bir daha bunu təsdiq edir:

“Sizin sorğunuza cavab olaraq bildiririk ki, arxiv materiallarında Tatar süvari alayının yunkeri, praporşik Sayad Zeynalovun xidmət dəftərçəsi saxlanılır. Sənəddə deyilir ki, o, 30 avqust 1886-cı ildə anadan olub. Yelizavetpol quberniyasmdakı Qazax qəzasının vətəndaşıdır. 1914-cü ildə könüllü olaraq Tatar süvari alayına daxil olub. 1915-ci ildə uryadnik, 1916-cı ildə praporşik, sonra isə yunker rütbəsi alıb.

1914-cü il sentyabrın iyirmisindən Avstriya - Macarıstan və Almaniya döyüşlərinin iştirakçısı olub. “Müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsilə təltif edilib.

“Müqəddəs Georgi” ordeni qədim rus ordenlərindəndir. Onun dörd dərəcəsi vardı. Birinci dərəcəli orden ən yüksək hesab olunurdu. Ordenin devizi belə idi: “Əla xidmət və cəsurluğa görə”. Odur ki, “Müqəddəs Georgi” ordeninin bütün dörd dərəcəsinə yalnız “fövqəladə dərəcədə fərqlənən, xüsusi rəşadət, mərdlik, əla əsgəri rəşadət göstərən hərbi qulluqçular layiq görülürdülər”.

Həmkəndliləri, Ağköynəkli ağsaqqalların yaddaşında poruçik Sayad Zeynalovun 1915-ci ildə Sarıqamış cəbhəsindən yazdığı şerindən bircə bənd yadigar qalıb:

Sarıqamış altında olduq nəzərdə,
Yüyürdük irəli, qalmadıq geridə.
Tatar polkunun adı söyləndi dildə,
Qürbət elə düşdü yolum, neyləyim.

1917-ci ildə vətənə qayıdan Səyad Zeynalov 1918-ci ildən Milli Orduda, əvvəlcə birinci Tatar-Azərbaycan alayında, sonra isə üçüncü Şəki süvari alayında xidmət edib. Qarabağda, Göyçayda və Bakıda daşnak-bolşeviklərə qarşı döyüşlərin fəal iştirakçısı olub.

Iyirmi səkkiz aprel çevrilişindən sonra Qazax milis şöbəsinin rəisi, “El yardımı komitəsi”nin sədri və Gəncə milis idarəsinin rəisi kimi məsul vəzifələrdə işləyib. Otuz yeddinci ildə Müsavat zabiti kimi həbs olunub, 1942-ci ildə sürgündə dünyasını dəyişib.

Poruçik **MAHMUD İBRAHİM OĞLU ƏFƏNDİYEV** -

Qoridəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində təhsil alıb. 1915-ci ildə Telavi praporşiklər məktəbini bitirib. 1890-cı il iyulun

iyirmi dördündə Qazax qəzasının Salahlı kəndində kəndli ailəsində anadan olub. Musavat ordusunda rota komandiri idi.

Poruçik **HACIBALA HACIMƏMMƏD OĞLU ABBASOV -**
Şamaxıda realnı məktəbi və Xarkovdakı texniki məktəbi bitirib. Rus dilini yaxşı bilirmiş, savadlı imiş. 1914-cü ildə Birinci Dünya Müharibəsində iştirak edib. Musavat ordusuna 1918-ci ildə könüllü gəlib. 1898-ci il iyulun dördündə Şamaxıda kəndli ailəsində anadan olub.

Poruçik **ƏYYUB MƏQRUB OĞLU KÖÇƏRLİNSKİ** -
Vladiqafqazdakı realnı məktəbi bitirib. 1900-cü il avqustun iyirmi ikisində Şuşada zadəgan ailəsində anadan olub. 1918-ci il sentyabrın on beşində Bakının daşnak-bolşeviklərdən azad olunmasında iştirak edib.

Poruçik **HÜSEYN SƏMƏD OĞLU RƏHİMOV** - İkinci Tiflis kişi gimnaziyasının beş sinfini və 1920-ci il aprelin iyirmi dördündə Gəncə hərbiyyə məktəbini bitirib. 1893-cü ildə Bakıda meşşan ailəsində anadan olub.

Poruçik **MƏMMƏD HÜSEYN OĞLU SADIQOV** - Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1893-cü ildə Salyanda anadan olub.

Podporuçik **MAHMUD MƏMMƏD OĞLU MAHMUDZADƏ** - Birinci Bakı gimnaziyasını və Gəncə praporşiklər məktəbini 1919-cu ildə bitirib. Fars və türk dillərini mükəmməl bilib. 1893-cü ilin yanvar ayında Lənkəranda meşşan ailəsində anadan olub. 1920-ci ildən sonra Bakı şəhər sovetində vergi müfəttişliyi idarəsinin rəisi işləyib. Bakı şəhər Sovetinin üzvü, 1922-ci ildən "Azərbaycan müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın fəallarından biri olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya "ÇK"-sı həbs edib, sürgünə göndərib.

Podporuçik **MİR ƏHMƏD MİR AĞAƏLİ OĞLU MİRCAVADOV** - Bakıda ruhani təhsil alıb. 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib. 1895-ci il iyunun on səkkizində Bakıda meşşan ailəsində anadan olub.

Podporuçik **MEYDAR ABBAS OĞLU MƏDƏTOV** -
Qusardakı Ali-ibtidai məktəbi və 1920-ci il aprelin iyirmi dördündə Gəncə praporşiklər məktəbini bitirib. 1898-ci ildə Bakının Balaxanı kəndində anadan olub.

Podporuçik **HƏMİD İSKƏNDƏR OĞLU MUSTAFAYEV -**
Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini bitirib. 1914-18-ci illərdə Bakıda müəllim işləyib. 1918-ci ildə Gəncədə türk hərbi məktəbini bitirib. 1898-ci il sentyabrın səkkizində Qazaxda anadan olub.

Podporuçik **MƏLİKMƏMMƏD SƏTTAR OĞLU MƏLİKOV** - Bakıda üçüncü ali-ibtidai məktəbi və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib. 1896-cı il martın on birində Bakıda meşşan ailəsində anadan olub.

Podporuçik **MƏSTAN ZEYNAL OĞLU MƏSTANZADƏ -**
Beşsinifli Bakı realnı məktəbini və 1920-ci ildə Azərbaycan hərbiyyə məktəbini bitirib. 1899-cu ildə Şamaxıda meşşan ailəsində anadan olub.

Podporuçik **MİRMEHDİ MİRƏHMƏDOV -** Ali ruhani təhsili var. 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib. 1894-cü ildə Bakıda anadan olub.

Podporuçik **MAHMUD ƏSƏDAĞA OĞLU MUSTAFAYEV**
- 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib. 1899-cu il martın on birində Qazax qəzasının Salahlı kəndində anadan olub.

Podporuçik **TOFİQ ŞƏRİF OĞLU MİRZƏYEV -** Tiflis gimnaziyasının və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib. İran təəbəsidir. 1900-cü il dekabrın birində Tiflisdə anadan olub. Sovetlər vaxtı Azərbaycan diviziyasının birinci polkunun qərargah rəisi olub. 1930-cu ildə keçmiş Musavatçı kimi həbs edilib.

Unter-zabit **CƏMİL BƏY BAĞIR BƏY RƏFİBƏYOV**
- 1918-ci ildə Gəncədə altı aylıq unterzabit məktəbini bitirib. Həmin ili müsavat ordusunun birinci piyada polkunda Qarabağda erməni daşnaklarına qarşı vuruşub. Müsavat hökuməti süqut etdikdən sonra Qızıl Ordunun on altıncı diviziyasının iki yüz qırx dördüncü polkunda vzvod komandiri kimi xidmət edib. 1921-ci ildə ikinci kəndli süvari polkunda 1924-cü ilə kimi xidmət etdikdən sonra ordudan tərxis olunub. Müsavat zabiti olduğuna görə 1928-ci ilin yayında həbs edilib, iyirmi il müddətinə Novosibirsk, Çustinsk və başqa həbs düşərgələrinə sürgün olunub.
**CƏMİL BƏY RƏFİBƏYOV** 1894-cü ildə Gəncənin Balabağmanlar kəndində bəy ailəsində anadan olub. 1908-ci ildən 1916-cı ilədək Gəncə şəhər səkkiz illik şəhər məktəbində təhsil alıb.

Uryadnik **HƏSƏN BƏY FƏTƏLİBƏYOV** - Birinci Tatar-Azərbaycan süvari alayının kollej registratoru olub, qoşunu ərzaqla təchiz edib və onu mənzillərə yerləşdirib. Dövlət müşaviri, birinci dərəcəli könüllü əsgər[21] olub. Rus-yapon müharibəsinin, Romanovlar sülaləsinin 300 illik xatirə medalı ilə və məişətdə göstərdiyi fəaliyyətinə görə ordeni ilə 1914-cü ildə Qori şəhər pristavı

[21] Bu vəzifənin ruscası belədir: "Bıvşiy volonoopredelyayuşaya perveqo razryada" Tərcüməsi: Müharibə vaxtı konüllü əsgəri xidmət kecirən, ali təhsilli imtyazlı şəxsi - (Ş.N.)

vəzifəsində işləyəndə həmin il iyunun birində "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsilə təltif olunmuşdur.

1886-cı il dekabrın on səkkizində Şuşanın Ətyeməzli kəndində zadəgan ailəsində anadan olub. Qori seminariyasının Tatar-Azərbaycan şöbəsini 1916-cı il martın beşində, 271 saylı şəhadətnamə ilə bitirib. 1917-ci il oktyabrın iyirmi doqquzunda Tatar-Azərbaycan süvari alayının ehtiyat bölməsinə könüllü qəbul olunub. Həmin il noyabrın iyirmi üçündə və dekabrın beşində Müsəlman Korpusuna əsgər yığmaq üçün Borçalı qəzasına ezam olunub. 1918-ci il yanvarın dördündə uryadnik rütbəsi verilib. Həmin il, həmin tarixdə Müsəlman korpusunun komandiri, general-leytenant Əliağa Şıxlinskinin əmrilə oboz komandiri (hərbi araba karvanının) təyin olunub. 1919-cu il yanvarın dördündə ailə vəziyyətinə görə hərbi xidmətdən tərxis olunub.

Həsən bəy Fətəlibəyovun şəxsi işində ailə tərkibi də qeydə alınmışdır. 1896-cı il aprelin on ikisində anadan olan arvadı Ədilə xanım, 1913-cü il dekabrın dördündə anadan olan qızı Leyla xanım, 1915-ci il martın ikisində anadan olan oğlu Ənvər bəydir.

Kapitan **AĞACƏFƏR ABUTALIB OĞLU SEYİDOV** - Bakıda Aleksandrovsk məktəbini və ikinci Tiflis kişi gimnaziyasını bitirib. 1915-ci ildən orduda xidmət edir. 1919-cu ildə praporşiklər məktəbini bitirib. Birinci Dünya Müharibəsində fəal iştirakına görə orden və medallarla təltif olunub. 1894-cü il mayın səkkizində Şamaxıda meşşan ailəsində anadan olub.

Ştabs-kapitan **AĞA XANKİŞİ OĞLU SARAVANSKİ -** Şamaxıda realnı məktəbi və 1915-ci ildə Mixaylov hərbi məktəbini bitirib. 1897-ci il yanvarın iyirmi dördündə Şamaxıda meşşan ailəsində anadan olub.

Ştabs-kapitan **DANİYAL BƏY MƏHƏD BƏY OĞLU ŞƏRİFOV** - 1915-ci ildə Birinci Tiflis praporşiklər məktəbini bitirib. 1891-ci il iyunun onunda Qazaxda anadan olub. Ağalıq nəslindəndir. Müsavat ordusunun Bakı alayında (Salyan qazarmasında yerləşirdi) ştabs-kapitan rütbəsində xidmət edirdi. 1923-cü ildə bolşeviklər həbs edib. Son taleyi məlum deyil. Topoqraf-podpolkovnik Məhəd bəy Şərifovun oğludur.

* * *

Poruçik **ƏLİ ŞƏMSİ OĞLU ƏSƏDULLAYEV** - fevral inqilabından sonra Bakıda "vəhşi diviziya"nın əsgər və zabitlərindən döyüşən alay təşkil edib. Qərargahı "İsmailiyyə" binasında yerləşirdi. 1918-ci ilin mart qırğını vaxtı İçərişəhər ətrafinda, Çəmbərkənddə, Şamaxı yolunda və başqa yerlərdə daşnak-bolşevik qoşunları ilə şiddətli döyüşlər aparıb.

Martın iyirmi doqquzunda poruçik Əli Əsədullayevin komandanlığı altında Lənkəran musavatçılarına silah yardımı apararkən, "Evelina" gəmisində bolşeviklərlə silahlı toqquşma olub. Martın 30-da Bakı əhalisi "Dikaya diviziya" alayının tərksilah olunmasına qarşı etiraz mitinqləri keçirmişdir. Təcili çağrılan müşayirədə M.Ə.Rəsulzadənin iştirakı ilə silahlar Bakı Soveti İcrayə Komitəsindən geri alınmışdır. Həmin günü "Dikaya diviziya" alayı Şamaxı yolundakı və Tatarski

küçəsindəki sovet qoşun hissələrinə hücum edib, Suraxanıdakı qırmızı qvardiya dəstəsini tərksilah etmişlər. Düşmənə xeyli tələfat verməklə yanaşı çoxlu əsgər və zabiti əsir almışlar.

Poruçik Əli Əsədullayev 1921-ci ilin dekabr ayında Gürcüstanda həbs olunub.

"Beriyanın imzaladığı 15 dekabr 1921-ci il tarixli məktuba əsasən, Əli Əsədullayevi Azərbaycan Fövqaladə Komissarlığı tələb edib. Əli Əsədullayev Beriyanın imzaladığı 30 dekabr 1921-ci il tarixli orderlə həbsdən azad edilərək Bağırovun sərəncamına göndərilib. İş üzrə heç bir təhqiqat işi aparılmayıb."

Sonralar Əli Əsədullayev Bakıda cıdır meydanında işləyirıniş, daha sonra arvadı ilə birlikdə İrana qaçıb.

Müttəhim Mircəfər Bağırov bu barədə istintaq zamanı bildirdi ki, Əli Əsədullayevin nə üçün istintaqa cəlb olunmamasını və həbs edilməməsindən xəbəri yoxdur.

Şahidlər Qasımov Əyyub Mikayıl oğlu, Mehdiyev Əliqulu Kur oğlu göstərdilər ki, Mircəfər Bağırovun Əli Əsədullayevlə münasibətləri çox yaxın imiş, ("M.C.Bağırovun məhkəməsi" kitabı səh. 39-40-da, Bakı "Yazıçı" nəşriy., 1993-cü il).

Züleyxa xanım Əsədullayeva - Veber: - Dayını Əli Əsədullayevi Şura hökumətinin adamları buraxmaq üçün küllü miqdarda rüşvət istədilər. Ümumiyyətlə, bu illərdə özbaşınalıq, talançılıq, rüşvətxorluq baş alıb gedirdi. "Qızıl əsgər" hara ayağını qoyurdusa, oranı bərbad edirdi. Xalqa divan tutur, günahlı, günahsız adamları həbs edir, güllələyirdilər. Onların arasında dayım Əli də vardı. H.Z.Tağıyev çoxlu qızıl, briliyant verərək onu həbsxanadan azad etdirdi. Xüsusi sənəd hazırladaraq, ailə üzvləri ilə birlikdə, Azərbaycandan çıxmasına nail oldu.

Poruçik Əli Əsədullayev milyoner Şəmsi Əsədullayevin oğlu, Hacı Zeynalabdin Tağıyevin isə kürəkəni olmuşdur. O, Hacının qızı Leyla xanımın həyat yoldaşı idi.

Poruçik **İSRAFIL BƏY AĞA OĞLU ŞIXLİNSKİ** - 1918-ci ildə Gəncədə hərbi məktəbi bitirib. Məktəbdə ikinci rotanın praporşiki vəzifəsində işləyib. 1897-ci il sentyabrın 10-da Qazaxda Zadəgan ailəsində anadan olub. Qori şəhərindəki seminariynın Azərbaycan şöbəsini bitirib. Iyirminci ildə bolşeviklər gələndə AÇK-yanında qısa müddət xüsusi təyinatlı dəstənin komandiri olub. Müsavatın qatı tərəfdarı və Sovet hökumətinin qatı düşməni olduğu üçün ittiham edilib. 1926-cı ildə Solovetsk həbs düşərgəsinə sürgün olunub.

Poruçik **ADİL BƏY HƏYATOV -** İkinci Bakı süvari alayında ikinci batalyonunun komandiri, Birinci Dünya Müharibəsi illərində eyni adlı batalyonun komandiri olmuşdur. 1918-ci il avqustun iyirmisində Şuşanın Malıbəyli kəndini ermənilərdən qəhrəmanlıqla müdafiə etdiyinə görə 1918-ci ildə Türkiyənin "Məcdiyyə" ordenilə təltif olunmuşdur.

Xankəndində yerləşən Birinci süvari diviziyasının komandanı polkovnik Əfəndiyev və polkovnik Məmmədov 1919-cu il aprelin yeddisində poruçik Adil

bəy Həyatova belə bir xasiyyətnamə vermişlər. “Alayın təşkil olunmasında özünü layiqincə göstərən, tərbiyənin və intizamını nümunəvi təşkilində xüsusi səylərini və böyük enerjisini nəzərə alaraq podporuçik Adil bəy Həyatova layiq olduğu poruçik riitbəsi verilməsi barədə vəsadət qaldırıram.”

Praporşik **PAŞA BƏY RÜSTƏMOV -** 1914-cü il iyulun iyirmi dördündə Azərbaycan süvari alayına qəbul edilib. 1916-cı il dekabrın beşində kiçik uryadnik, 1917-ci il sentyabrın on beşində baş uryadnik, həmin il oktyabrın birində podpraporşik rütbəsilə təltif olunub. 1916-cı il mayın otuz birində göstərdiyi igidliyə görə “Müqəddəs Georgi” ordeninin dördüncü dərəcəsi ilə təltif olunub.

1918-ci ilin oktyabrından Milli Azərbaycan ordusunda hərbi xidmətə başlayıb. Qarayazıda yerləşən Azərbaycan süvari alayının komandiri, polkovnik (sənəddə adını oxumaq mümkün olmadı - Ş.N.) Azərbaycan Əlahiddə korpusunun komandirinə yazır ki, xalqımıza sidq-ürəklə xidmət edən podpraporşik Paşa bəy Rüstəmovun praporşik rütbəsilə təltif olunmasını təmamilə qanuni hesab edirəm.

Arxivdə saxlanan bir sənəddə 1918-ci il oktyabrın on dördündə Paşa bəyin bolşeviklərə qarşı döyüşdə göstərdiyi igidliyi təsvir olunmuşdur: “Zığ yüksəkliyi yaxınlığındakı döyüşdə zabitlərin sayının çatışmazlığı üzündən kiçik gizir Paşa bəy Rüstəmov yarım-bölüyə komandirliyi qəbul etdi. Onda Hövsan tərəfindən yüksəkliyə hücumu süvari ilə bizim piyada aparırdı.

Kiçik gizir Paşa bəy Rüstəmov Suraxanı tərəfdən rəqibin cinahına çıxaraq, öz cürətli hücumu ilə daşnak və bolşevikləri tutduqları səngərlərdən qovmağa kömək etdi.

Ümumiyyətlə, arxa cəbhədə olduğu kimi ön cəbhədə də kiçik gizir Paşa bəy Rüstəmov tapşırılmış zabit vəzifələrinin hamısını layiqincə yerinə yetirirdi.”

Paşa bəy 1895-ci il mayın on ikisində Gəncə qəzasının Yuxarı Ayıblı kəndində anadan olub. Subaydır. Müharibədən əvvəl təsərrüfatda işləyib. Savadlıdır.

Artilleriya podpolkovniki **TEYMUR XAN CAHANGİR XAN OĞLU XOYSKİ** - 1920-ci ilin iyul ayında həbs edilib. Ailəsi ilə birlikdə sürgün edilmişdir. 1891-ci il noyabrın iyirmi yeddisində Gəncədə zadəgan ailəsində anadan olmuşdur. Gəncə klassik kişi gimnaziyasını və 1914-cü ildə Tiflis hərbi kadet məktəbini bitirib. Müsavat ordusunda isə ikinci Bakı süvari alayında komandir müavini olub.

Respublika Mərkəzi Dövlət Arxivində polkovnik Şirin bəy Kəsəmənlinin 1919-cu il yeddi may tarixli raportu saxlanılır. Birinci süvari diviziyasının rəisinə, surəti isə Baş Qərargah rəisinə ünvanlanan raportunda polkovnik Şirin bəy Kəsəmənli yazır:

“Mənə etibar olunmuş alayın kapitanı Teymur xan Xoyski haqqında qısa məlumat və ober-zabitin təltifat vərəqini sizə təqdim edirəm. Məlum edirəm ki, onu hələ praporşiklər məktəbində xidmət etdiyi vaxtdan intizamlı zabit kimi tanıyıram. O, mənim tabeliyimdə xidmət edərkən özünü məktəb heyətinin görkəmli rəhbəri kimi tanınmış, mənim təqdimatımla köməkçim təyin olunmuşdur. Günbəgün öz əməyini və enerjisini heç bir şəxsi mənafe güdmədən hərbi xidmətə

sərf edir. Zabit Teymur xan yaxşı başa düşür ki, Vətənin və millətin naminə xidmət edir. Alaya xidmətə gəldiyi ilk gündən o, sanki on iki hissəyə bölünmüşdür. Onun işinə nəzər yetirdikdə alay komandirinin müavini əvəzinə on iki rota komandirinin vəzifəsini də yerinə yetirdiyininin şahidi olursan.

Yuxarıda qeyd etdiklərimi nəzərə alaraq çox xahiş edirəm, Sizin təqdimatınızla kapitan Teymur xan Xoyskiyə podpolkovnik rütbəsi verilsin. Üstəlik də hazırda tutduğu vəzifə ona podpolkovnik rütbəsini almağa imkan verir.”

Polkovnik **ŞİRİN BƏY KƏSƏMƏNLİ.**

Alayın yavəri, praporşik İlyas bəy Şahtaxtinski-Birinci Dünya Müharibəsində iştirak edən kapitan Teymur xan Cahangir xan oğlu Xoyski cəbhələrdə nüfuzlu nəslinin adına layiq döyüş yolu keçmişdir. Bütün bunları əyani göstərən onun hansı möcüzədənsə salamat qalıb, arxivdə “təmamilə məxfidir” qrifilə saxlanan təltifat vərəqidir. Teymur xan 1915-ci ildən 1917-ci ilə kimi iştirak etdiyi döyüşlərdə dördüncü dərəcəli “Müqəddəs Anna” (üzərində “İgidliyə görə” yazısı ilə), üçüncü dərəcəli “Müqəddəs Stanislav” (qılınc və bantla birgə), üçüncü dərəcəli “Müqəddəs Anna” (qılınc və bantla birgə), ikinci dərəcəli “Müqəddəs Stanislav” (qılıncla birgə), ikinci dərəcəli “Müqəddəs Anna” (qılıncla birgə), knyaz Vladimirin şərəfinə təsis edilmiş dördüncü dərəcəli orden (qılınc və bantla birgə) və 1917-ci ilin fevral ayında Georgi silahı ilə təltif olunmuşdur.

Kapitan **AĞAHÜSEYN MİRZƏHADI OĞLU AĞASIYEV -**

İçəri şəhərdə tacir ailəsində anadan olmuşdur. 1919-cu ildə “Hərbiyyə məktəbi”ni bitirən ilk məzunlardan biri idi. 1920-ci ilin əvvəllərində Milli ordunun “Yardım alayı”nda rota komandiri olmuşdur.

1921-ci il avqustun dördündə Nəriman Nərimanovun təşəbbüsü ilə iyirmi səkkiz nəfərdən ibarət Türkiyəyə gedəcək Azərbaycanın səlahiyyətli nümayəndəliyi təşkil olunur. Onların arasındakı altı nəfər hərbiçidən biri də Ağahüseyn Ağasiyevdi. Diplomatik nümayəndəliyin başçısı İbrahim Əbilov təyin olunmuşdu. Kapitan Ağasiyev əvvəlcə Ankarada səfirliyin hərbi attaşesinin əməkdaşı, sonra isə səfir İbrahim Əbilovun müavini kimi məsul vəzifələrdə çalışmışdır. Qazi Mustafa Kamal Atatürklə görüşmüşdür.

l924-cü ildə Tiflisə çağırılan kapitan Ağahüseyn Ağasıyev Surami şəhərindəki hərbi hissəyə komandir təyin edilir. Bir axşam Surami qalası ətrafindakı gözətçi məntəqələrini yoxlayarkən daşnaklar arxadan xəncərlə vuraraq öldürüblər.

Poruçik **ƏLİAĞA ƏBDÜLSƏMƏD OĞLU MUSTAFAYEV**

- 1919-1920-ci illərdə müsavat ordusunda poruçik rütbəsində qulluq edib. İyirmi səkkiz aprel çevrilişində istilaçı-daşnaklara və XI Orduya qarşı döyüşlərdə fəal iştirak edərək yaralanıb. Otuz yeddinci ilə kimi Salyan və Laçında hərbi komissarlıqda işləyib. Həmin il Salyan NKVD-nin rəisi Artunyan tərəfindən həbs edilib. Təqsiri sübut olunmadığına görə azad edilib. 1945-ci ilə qədər Salyan Xalq Maarif şöbəsində və rayon ictimai-təminat şöbəsində mühasib işləyib. Həmin ili Müsavat ordusunun zabiti olduğu bəhanə edilərək yenidən on il müddətinə həbs

edilib. 1950-ci ildə həbsxanada vəfat edib. 1898-ci ildə Salyanda anadan olub. Salyan şəhər dörd illik ibtidai məktəbini bitirib.

* * *

Praporşik **HÜSEYN HEYDƏR OĞLU EYVAZOV** - Salyan Ali-ibtidai məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. l895-ci ildə Salyanda kəndli ailəsində anadan olub.

Praporşik **AĞABALA ƏLİ OĞLU YUSİFOV** - Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1898-ci ilin yanvar ayında Bakıda fəhlə ailəsində anadan olub.

Praporşik **MÜRSƏL HACI MƏMMƏDƏLİ OĞLU İBRAHİMOV** - Şamaxı şəhər məktəbini və 1918-ci ildə Gəncədə podpraporşiklər məktəbini bitirib. Fars və erməni dillərini mükəmməl bilir. 1899-cu il yanvarın beşində Şamaxıda anadan olub.

Praporşik **MƏHƏRRƏM HÜSEYNQULU OĞLU İSGƏNDƏROV** - Birinci Bakı kişi gimnaziyasının dörd sinfini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1918-ci ildə ağqvardiyaçı Denikin və daşnaklarla döyüşlərdə iştirak edib. 1895-ci ildə Bakıda anadan olub.

Praporşik **KAZIM GÜLMƏMMƏD OĞLU KƏRİMOV** -
1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib. 1897-ci ildə Bakıda meşşan ailəsində anadan olub.

Praporşik **İSA QAFAR OĞLU MANAFOV** - Bakıda üçüncü Ali-ibtidai və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1898-ci il yanvarın beşində Bakıda meşşan ailəsində anadan olub.

Praporşik **BİLAL SƏFƏRƏLİ OĞLU SƏFİYEV** - Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1894-cü ildə Naxçıvanın Baş Noraşen kəndində anadan olub.

Praporşik **LƏTİF ZEYNAL OĞLU SADIQOV** - Dörd sinifli məktəb təhsili var. 1919-cu ildə Gəncə Praporşiklər məktəbini bitirib. Milli orduda rota komandir işləyib. 1899-cu ildə Salyanda anadan olub.

Praporşik **NEMƏTULLA TALIB OĞLU TALIBOV** - Bakıda ticarət məktəbini və 1918-ci ildə Gəncədə hərbiyyə məktəbini bitirib. 1895-ci ildə Maştağa kəndində anadan olub.

Praporşik **FƏRRUX ŞABAN OĞLU ŞABANOV** - Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1900-cu ildə Tiflisdə anadan olub.

Praporşik **MƏMMƏD CƏFƏRQULU OĞLU RƏHİMOV** - Bakıda üçüncü Ali-ibtidai məktəbdə və mühasibatlar kursunda oxuyub. Fars dilini bilir. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1895-ci il aprelin ikisində Bakıda meşşan ailəsində anadan olub.

Praporşik **SALMAN QURBAN OĞLU SƏLİMOV** - Bakıda rus-tatar məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1894-cü ildə Bakıda meşşan ailəsində anadan olub.

Praporşik **ABDULLA BAQİ OĞLU SÜLEYMANOV** - Göyçayda iki sinifli məktəbdə oxuyub. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1895-ci ildə Göyçayda kəndli ailəsində anadan olub.

Praporşik **ABDULLA ŞƏFİ OĞLU ŞƏFİYEV** - Beş sinifli Bakı gimnaziyasını və 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib. 1896-cı ildə Bakıda meşşan ailəsində anadan olub. 1922-ci ildən "Azərbaycan müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya "ÇK"-sı həbs edib.

Praporşik **HƏMİD MƏŞƏDİ AĞA OĞLU RÜSTƏMBƏYLİ** - Gimnaziya təhsili alıb. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1900-cu il oktyabrın on altısında Gəncədə meşşan ailəsində anadan olub.

Praporşik **MİRMEHDİ MİRYUSİF OĞLU SƏMƏNDƏROV** - Ali-ibtidai təhsili var. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1899-cu il mayın iyirmi beşində Ordubadda kəndli ailəsində anadan olub. Müsavat ordusunda rota komandiridir.

Praporşik **AĞASƏLİM SƏFTAR OĞLU ŞƏRİFOV** - Realni məktəb bitirib. Musavat ordusunun nəzdində yaranmış tədris komandasında hərbi təhsil alıb. 1896-cı il yanvarın onunda Bakıda anadan olub.

Praporşik **NƏSİR AĞA CAVADƏLİ OĞLU NUHBAZOV** - Salyanda beş sinifii kənd məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1897-ci il mayın on beşində Salyanda anadan olub.

Praporşik **YUSİF HƏMİD OĞLU NƏCƏFOV** - Bakıda üç sinifli Ali-ibtidai təhsil alıb. 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib. 1901-ci il dekabrın iyirmi beşində Bakının Saray kəndində anadan olub.

Praporşik **NEMƏTULLA HƏNİFƏ BƏY OĞLU RZABƏYOV** - üçüncü Bakı Ali-ibtidai məktəbinin dörd sinfini bitirib. 1918-ci ildə Milli orduya könüllü gəlib. 1900-cu il martın birində Bakıda meşşan ailəsində anadan olub. Sovetlər vaxtı Ali-pedaqoji kursun tələbəsi olub. 1920-ci ildən müsavatçı kimi gizli fəaliyyət göstərib. 1923-cü ilin iyul ayıpnda Zaqafqaziya "ÇK"-sı gizir qardaşı Nəsrulla ilə birgə həbs edib.

Praporşik **İSGƏNDƏR BƏZİRGAN OĞLU RÜSTƏMOV** -

Bakıda rus-tatar məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1895-ci ildə Bakıda anadan olub.

Praporşik **TAHİR NAİB OĞLU QULİYEV** - Qusarda Ali-ibtidai məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1901-ci il mayın iyirmi yeddisində Sabunçu kəndində anadan olub.

Praporşik **FƏRƏCULLA İSMAYIL OĞLU MAHMUDOV** -

Milli orduda rota komandiri olub. Bakıda beşsinifli gimnaziyanı və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1899-cu ildə Bakıda meşşan ailəsində anadan olub.

Praporşik **XOSROV YUSİF OĞLU MƏLİKAHNƏZƏROV** - Şuşa realni məktəbini və 1918-ci il noyabrın iyirmirsində Gəncə podpraporşiklər məktəbini bitirib. İkinci Müsəlman Artilleriya briqadasında və 1919-cu il yanvarın altısından üçüncü Gəncə Süvari alayında xidmət edib. 1900-ci il iyunun altısında Şuşada zadəgan ailəsində anadan olub.

Praporşik **BALA BƏY MEHDİ BƏY OĞLU MÜRSƏLBƏYOV** - Bakıdakı beşsinifli realni məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1896-cı il yanvarın on altısında Bakıda Meşşan ailəsində anadan olub.

Praporşik **MƏMMƏD İBRAHİM OĞLU BABAŞOV -** Bakıda üç sinifli gimnaziyanı və 1919-cu il mayın beşində Gəncə praporşiklər məktəbini bitirib. Müsavat ordusunda vzvod komandiri olub. 1896-cı il martın on beşində Bakının Pirşağı kəndində anadan olub.

Praporşik **SULTAN ƏBDÜL OĞLU DADAŞOV** - Bakıda AİK ibtidai məktəbi və 1919-cu ildə praporşiklər məktəbini bitirib. 1892-ci il yanvarın ikisində Bakının Fatmayi kəndində anadan olub.

Praporşik **RAMAZAN ABUZƏR OĞLU ZEYNALOV** – Dörd sinifli gimnaziyanı və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan hərbiyyə məktəbini bitirib. 1897-ci ildə Bakıda anadan olub.

Praporşik **MÖVSÜM ABBAS OĞLU İBRAHİMOV** -

Musavat ordusunda qərargah vzvodunun komandiri olub. İki sinifli kənd məktəbini bitirib. 1895-ci ildə Qazax qəzasının Azaflı kəndində (indiki Tovuz rayonundadır - Ş.N) anadan olub.

Praporşik **ABDULLA QAFUR OĞLU AXUNDOV** - 1918-ci il oktyabrın üçündə Gəncədəki praporşiklər məktəbinə daxil olub, 1919-cu ildə həmin məktəbi bitirib. Şimal sərhəddimizdə ağqvardiyaçı general Denikinin ordusuna qarşı döyüşlərdə iştirak edib. Milli Ordunun yaranmasından əvvəl, 1918-ciilədək "Qafqaz və Merkuri" şirkətində matros kimi xidmət edib. Bakıdakı Ali-ibtidai məktəbin üç sinifini bitirib. 1896-cı ildə Bakıda, İçəri şəhərdə Soborni küçəsindəki on yeddi saylı evdə meşşan ailəsində anadan olub.

Praporşik **AĞALAR BƏY ABDI OĞLU BƏDİRBƏYOV -** Altı sinifli kişi gimnaziyasını bitirib. 1916-cı ildə Tiflis praporşiklər məktəbində oxuyub. 1895-ci ildə Şamxorun Morul kəndində anadan olub. 1977-ci ildə Bakıda vəfat edib. Xalq artisti Leyla xanım Bədirbəylinin atasıdır.

Praporşik **ABBAS ƏLİ OĞLU AĞAYEV** - Bakının Aşağı Çəmbərəkəndindəki on bir saylı mənzildə kəndli ailəsində anadan olub. Ali-ibtidai təhsil alıb. 1918-ci ildə Gəncə praporşiklər məktəbinə daxil olub.

Praporşik **HƏBİBULLA ƏHMƏD OĞLU ABAKAROV** - Milliyyətcə ləzgidir. 1896-cı ildə kəndli ailəsində anadan olub. Telavi şəhərindəki kişi gimnaziyasının dörd sinfini və 1918-ci ildə Gəncədəki üç aylıq praporşiklər məktəbini bitirib. Milli orduda praporşik kimi xidmət edib.

Praporşik **ƏLİABBAS ƏLƏKBƏR OĞLU ƏLİYEV** - 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1900-cu il martın on birində Bakıda anadan olub.

Praporşik **HÜSEYN KƏRİM OĞLU ƏLİYEV** - 1919-cu ildə Gəncədə Azərbaycan praporşiklər məktəbini bitirib. Bundan əvvəl birinci Tiflis kişi gimnaziyasında təhsil alıb. 1897-ci ildə Cavanşir qəzasında kürd ailəsində anadan olub.

Podporuçik **MİKAYIL CƏBRAYIL OĞLU RƏHİMOV** - Bakıda texniki təhsil alıb. 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1901-ci il martın beşində Bakıda anadan olub.

Podporuçik **CAVAD MİRZƏ MEHDİ OĞLU AXUNDOV** - Bakıda rus-tatar və üçüncü Ali-ibtidai məktəbini bitirib. 1918-19-cu illərdə Gəncə praporşiklər məktəbində oxuyub. Milli orduda pulemyot komandasının rəisi olub. 1896-cı il iyunun iyirmisində Bakının Tverskoy küçəsindəki səksən doqquz saylı mənzildə meşşan ailəsində anadan olub. Sovetlər vaxtı Bakı şəhər sığorta kassasında işləyib. l921-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü olub.

1923-cü ilin iyul ayında Zaqafqaziya “ÇK”-sı həbs edib, Şimal sərhədlərinə sürgünə göndərib.

Podporuçik **HƏSƏNBALA AŞIR OĞLU ƏBDÜSALAMOV** - Bakıda dörd sinifli Ali-ibtidai məktəbi bitirib. 1920-ci il aprelin iyirmi dördündə Gəncə praporşiklər məktəbini bitirib. 1894-cü ilin oktyabrında Bakıda meşşan ailəsində anadan olub. 1923-cü ildə XI ordunun xüsusi şöbəsi tərəfindən həbs edilib.

Podporuçik **ƏLİAĞA MƏMMƏDHÜSEYN OĞLU ABDULLAYEV** - Lənkəranda dörd sinifli ibtidai məktəbdə təhsil alıb. 1920-ci il aprelin iyirmi dördündə Gəncədəki Azərbaycan hərbiyyə məktəbini bitirib. Milli Orduda rota komandiri idi. 1923-cü ildə XI ordunun xüsusi şöbəsi tərəfindən həbs edilən əlli iki musavat zabiti ilə birlikdə Nargin adasına sürgün olunub. 1895-ci il fevralın birində Lənkəranda fəhlə ailəsində anadan olub.

Podporuçik **FƏRRUX İBRAHİM OĞLU ƏLİYEV** - Tiflisdəki dördüncü kişi gimnaziyasını və 1918-ci ildə Azərbaycan hərbiyyə məktəbini bitirib. Müsavat ordusunda rota komandiri olub. 1896-cı il mayın on yeddisində Bakının Ramana kəndində kəndli ailəsində dünyaya gəlib.

Podporuçik **XƏLİL PAŞA OĞLU ƏLİYEV -** Bakıdakı üçüncü Ali-ibtidai məktəbini bitirib. 1896-cı il fevralın iyirmi üçündə Bakının Nardaran kəndində anadan olub. 1919-cu il mayın beşində Gəncədə praporşiklər məktəbini bitirib. 1920-ci il aprelin iyirmi yeddisində bolşeviklər həbs edib.

Podporuçik **ƏJDƏR MEHDİ OĞLU HACIBƏYLİNSKİ -**

1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1897-ci ildə İrəvan şəhərində anadan olub. Altı sinifli İrəvan kişi gimnaziyasını bitirib.

Podporuçik **İBRAHİM MƏŞƏDİ İSMAYIL OĞLU AXUNDZADƏ** - 1918-ci ildə Azərbaycan podpraporşiklər məktəbini bitirib ondan əvvəl Gəncədəki Müəllimlər seminariyasını bitirib, Gəncə şəhər kitabxanasının müdiri işləyib. Müsavat ordusuna könüllü xidmətə gəlib. 1899-cu il oktyabrın iyirmisində Gəncədə ruhani ailəsində anadan olub. Sovetlər vaxtı Azsvod hərbi məktəbində tədris hissə müdiri işləyib. 1921-ci ildən “Azərbaycanın müstəqilliyi uğrunda” gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya “ÇK”-sı həbs edib, SSRİ-nin Şimal sərhədlərinə sürgün olunub.

Podporuçik **MƏMMƏDHÜSEYN HACI FƏRRUX OĞLU ƏLİYEV** - Bakıda üç sinifli ticarət məktəbini və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1895-ci ildə Bakıda Böyük Krepostaoy küçəsindəki beş saylı evdə anadan olub.

Podporuçik **ƏJDƏR QƏNİ OĞLU BABAYEV** - Bakıda beş sinifli gimnaziyanı və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1900-cü il dekabrın iyirmi altısında Bakıda iranlı təbənin ailəsində anadan olub. Sovetlər vaxtı Novoçerkassk Kənd Təsərrüfatı İnstitutunda təhsil alıb. 1922-ci ildən "Musavat gizli hərbi təşkilatı"-nin üzvü olub. 1923-cü ilin iyul ayında həbs edilib. Az.SSR CM-nin 57, 58, 65, 66-cı maddələrilə ittiham olunaraq sürgünə göndərilib.

Podporuçik **MÖVSÜM MƏZAHİR OĞLU BƏYDƏMİROV** - Sabunçu qəsəbəsindəki dörd sinifli Ali-ibtidai məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1899-cu ildə Bül-büldə kəndli ailəsində anadan olub.

Podporuçik **SADIQ ƏSGƏR OĞLU VƏKİLOV** - Müsavat ordusunda üçüncü Gəncə piyada alayında və üçüncü Şəki süvari alayında kiçik zabit kimi xidmət edib. 1895-ci ildə Qazax qəzasının Salahlı kəndində ziyalı ailəsində anadan olub. Zaqäfqaziya (Qori) Müəllimlər Seminariyasını və 1918-ci il noyabrın on səkkizində Gəncədəki podpraporşiklər məktəbini bitirib.

Podporuçik **ABBAS ƏLİ OĞLU ZEYNALOV** - Beş sinifli gimnaziyanı və Gəncədəki hərbiyyə məktəbini bitirib. 1895-ci il mayın iyirmi beşində Poltaratsk şəhərində meşşan ailəsində anadan olub.

Podporuçik **SADIQ HƏSƏN OĞLU İMANOV** - Bakı rus-tatar və ticarət məktəblərini, 1918-ci ildə isə Gəncə praporşiklər məktəbini bitirib. 1898-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. 1920-ci ilin aprel ayında bolşeviklər Bakıya hücum edəndə həbs edilib "filtrasiya" adı ilə Nargin adasına sürgün olunub. Sovetlər vaxtı Azərbaycan ticarət idarəsində işləyib. 1922-ci ildən "Azərbaycanın müstəqilliyi uğrunda!" gizli hərbi təşkilatın üzvü olub. 1923-cü ilin iyul ayında Zaqafqaziya "ÇK"-sı tərəfindən həbs edilərək Şimal sərhədlərinə sürgünə göndərilib.

Podporuçik **AĞƏLİ HACIƏLİ OĞLU İSMAYILOV** - Bakı kişi gimnaziyasının üç sinfini və Gəncə praporşiklər məktəbini bitirib. Rus və türk dillərini mükəmməl bilib. 1895-ci ildə Bakıda meşşan ailəsində anadan olub.

Podporuçik **RƏHİM HADI OĞLU İMANOV** - Bakıda rus-tatar məktəbini və 1918-ci ildə Gəncə praporşiklər məktəbini bitirib. Qusar alayında rota komandiri olub. 1902-ci il martın üçündə Bakıda doğulub.

Podporuçik **AĞARƏHİM BƏHMƏN MİRZƏ OĞLU QULUBƏYOV** - Bakıda beş sinifli gimnaziyanı və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1896-cı ildə Bakıda meşşan ailəsində anadan olub. Milli orduya könüllü gəlib.

Podporuçik **İDRİS İSMAYIL OĞLU QULİYEV** - Şuşada realnı məktəbi və 1920-ci il aprelin iyirmi altısında Azərbaycan Hərbiyyə məktəbini bitirib. Fransız, alman və erməni dillərini kamil bilirınış. 1899-cu il mayın iyirmisində Şuşada kəndli ailəsində anadan olub.

Podporuçik **ƏMİRCAN MƏMMƏDƏLİ OĞLU ƏKBƏROV** - İlk təhsilini Nuxa şəhər dörd sinifli məktəbdə alıb. 1915-ci ildə poçtda çinovnik olub. 1917-ci ildə Tiflisdə praporşiklər məktəbini bitirib. Milli Orduda podporuçik kimi xidmət edib. 1894-cü ildə Nuxa şəhərində anadan olub.

Podporuçik **ƏLİ SƏMƏD OĞLU ALLAHVERDİYEV -** 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Milli Ordunun altıncı alayında podporuçik kimi xidmət edib. 1891-ci il mayın on ikisində Gəncədə meşşan ailəsində anadan olub.

Podporuçik **ƏLİ İSRAFİL OĞLU AXUNDOV** - Bakıda orta politexnik məktəbini bitirib. 1919-cu il sentyabrın onunda Milli Orduya hərbi qulluğa çağrılıb. 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1895-ci ildə Şamaxıda meşşan ailəsində anadan olub.

Podporuçik **MALİK HEYDƏR OĞLU ƏLİYEV** - Bakıda Ali-ibtidai məktəbin dörd sinfini bitirib. 1918-ci il noyabrın on altısında Gəncə hərbi məktəbinə daxil olaraq oranı 1919-cu ildə bitirib. 1898-ci ildə Bakıda meşşan ailəsində anadan olub.

Podporuçik **AĞA DADAŞ OĞLU MƏLİKOV** - Salyanda iki sinifli məktəbi və 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. 1897-ci ildə Salyanda kəndli ailəsində anadan olub.

Podporuçik **ABBAS ZEYNALABDİN OĞLU RƏSULOV -** Üçüncü Bakı rus-tatar məktəbində təhsil ahb. 1919-cu ildə Gəncədə praporşiklər məktəbini bitirib. 1895-ci ildə Bakıda anadan olub.

Podporuçik **CƏLAL ƏLƏSGƏR OĞLU SEYİDBƏYLİ** - Gəncədə dörd sinifli məktəb bitirib. 1901-ci ildə Goranboyun Sarov kəndində anadan olub. 1919-cu ildə Gəncə praporşiklər məktəbini bitirib. Musavat ordusunda rota komandiri olub.

Podporuçik **DƏRAB CABBAR OĞLU SULTANOV** - Birinci Tiflis kişi gimnaziyasını və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1902-ci ildə Zəngəzurda kəndli ailəsində anadan olub.

Podporuçik **ƏBÜLFƏZ VAHAB OĞLU SƏLİMBƏYOV** - Bakıda Ali-ibtidai məktəbi və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1897-ci ildə Bakıda meşşan ailəsində anadan olub.

Podporuçik **ZAHİD CÜMŞÜD OĞLU ŞIXƏLİBƏYOV** - Ali-ibtidai təhsil alıb. 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. Musavat zabiti olduğuna görə şübhəli şəxs kimi 1930-cu ildə Salyan qazarmasında xidmət edərkən həbs edilib. Sürgündə vəfat edib. 1897-ci il oktyabrın altısında kəndli ailəsində anadan olub.

Podporuçik **MƏMMƏD BƏY ƏLİ OĞLU ŞEYDAYEV** – Beş sinifli ticarət məktəbini bitirib. İran tələbəsidir. 1919-cu ildə praporşiklər məktəbini bitirib. 1902-ci il sentyabrın on səkkizində Tiflisdə fəhlə ailəsində anadan olub.

* * *

Feldfebel **CƏLİL CAVAD OĞLU ƏHMƏDOV** - Müsavat ordusuna könüllü xidmət edib. 1895-ci ildə Cəbrayılda kəndli ailəsində anadan olub.

Feldfebel **DAVUD HƏŞİM OĞLU ABDULLAYEV** - Müsavat ordusuna könüllü xidmət edib. Ailədə təhsil alıb. l895-ci ildə Zaqatalada azərbaycanlı türkünün ailəsində anadan olub.

Feldfebel **TAHİR YUSİF OĞLU RAMAZANOV** - Zaqatala sənət məktəbini bitirib. Milliyyətcə ləzgidir. 1900-cü il fevralın altısında Qaxın İlisu kəndində anadan olub.

* * *

Yunker **PAŞA AĞABALA OĞLU BABAYEV** - Altı sinifli Bakı realnı məktəbini bitirib. Müsavat ordusuna könüllü gəlib. Bakıdakı Azərbaycan Hərbiyyə məktəbində təhsil alıb. 1902-ci il aprelin iyirmisində Bakıda kəndli ailəsində anadan olub.

Yunker **MUXTAR ABUZƏR OĞLU ZÜLFÜQAROV** – Quba qəzasında ruhani seminariyasını və Azərbaycan Hərbiyyə məktəbini bitirib. Beş dil bilib: ərəb, türk, fars, alman və tat. 1902-ci il mayın iyirmi beşində Qubanın Çiçi kəndində anadan olub.

Yunker **SULTAN MƏMMƏD OĞLU ŞAYLIKOV** - İki sinifli kənd məktəbini və 1920-ci il aprelin iyirmi dördündə Azərbaycan Hərbiyyə məktəbini bitirib. Hərbiyyə məktəbinə 1919-cu ilin noyabrında qəbul olunub. 1898-ci il aprelin iyirmi beşində Şuşanın Alxaslı kəndində anadan olub.

Kvartimeyster **İBRAHİM AĞAKİŞİ OĞLU ATAKİŞİYEV** - Bakıda yeddinci rus-tatar və Ali-ibtidai məktəbini bitirib. 1919-1920-ci illərdə Azərbaycan Hərbiyyə məktəbini bitirib. 1897-ci ildə Bakıda meşşan ailəsində anadan olub.

Bu siyahını tamamlamaq çox çətindir. Ona görə ki, iyirminci ilin aprelindən sonra bolşevik-daşnak qırmızı orduları tərəfindən qətlə yetirilən, sürgün olunan

zabit oğullarımız haqqında məlumat çox azdır. Arxiv sənədlərində və yaddaşlarda onların bəzilərinin ad-familiyası, bəzilərinin də adı, ya da ancaq soyadı qalıb. Ona görə də onları sizə olduğu kimi təqdim edirik: Polkovnik Hüseyn xan Naxçıvanlı, podpolkovnik Yaqub bəy Əhmədzadə, podpolkovnik Nağı bəy Əlizadə, mayor İlyas bəy Talışxanlı, ştab-rotmistri Murad xan Naxçıvanlı, sıravi hərbi qulluqçular: İbrahim bəy Fəttahov, Cəfər bəy Axundzadə, Fərhad bəy Ağalarov, Hüseyn bəy Mirizadə və Mehdizadə.

Kapitan **YAQUB BƏY SADIQ BƏY OĞLU AXMETYEV** - Milliyyətcə tatardır. 1894-cü ildə Tiflisdə anadan olub. 1914-cü ilin sentyabrında Tiflisdəki kadet korpusunu bitirmişdir. 1917-ci ilə kimi Türkiyənin Ərzincan şəhərində yerləşən 39-cu diviziyanın Quba alayında xidmət etmişdir.l918-ci ildə Azərbaycan Milli Ordusuna könüllü daxil olmuşdur. Bir il sonra Zaqatalaya komendant təyin edilmişdir. 1920-ci il iyulun 9-da Şəki və Zaqatalada bolşeviklərlə qarşı başlanan üsyanın başçılarından biri idi. Zaqatala qalasını tutan üsyançılar kapitan Yaqub bəyin başçılığı ilə on beş gün bolşeviklərə qarşı vuruşur. İyunun 20-də komendant - kapitan Yaqub bəy Axmetyev yaralanıb ələ keçmiş və bolşeviklər tərəfindən edama məhkum edilmişdir. Az müddət Zaqatala qalasında saxlanan mərd kapitan Yaqub bəy ağır yaralı halda kameranın divarına yazmışdır: “Mən kapitan Axmetyev ölüm hökmü altında yatıram. Heç bir cinayət eləməmişəm. Vətənim Azərbaycanın azadlığı uğrunda bolşeviklərə qarşı vuruşdum. Müsavat zabiti olduğuma görə güllələnməyə məhkum olmuşam”. Həyat yoldaşı Vəsilə xanımın Musabəyova Bakı rus-müsəlman qız məktəbində müəllimə idi. Bolşeviklər Yaqub bəyə edam olunması haqqında qərar oxuyanda, “Qorxma, mətin ol, nahaq axıdılan qanın intiqamını unutmarıq.” - deyə hayqırdığı üçün Vəsilə xanımı Cənub cəbhəsi tribunalının sədri cəllad Georgi Atarbekov (Atarbekyan) özü güllələmişdir. Qadına əl qaldıran nadan Atarbekyan sonralar da “fəxrlə” deyirmiş ki, Vəsilə xanım Musabəyovanı və əri Yaqub bəy Axmetyevi özüm güllələdim.

Ordu quruculuğumuz haqqında bir məsələni də xüsusilə vurğulamaq istərdim. Otuzuncu illərdən sonra Rusiya və Azərbaycanın bədnam tarixçiləri tərəfindən çarizmə və cümhuriyyətə qarşı eyni topdan güllə atmaq, azərbaycanlıların ordu sıralarına çağrılmaması iddiasını əsaslandırmaq, ümumiyyətlə Azərbaycan Respublikasının ordu quruculuğu üzərinə kölgə salmaq məqsədilə bu ifadə işlənməyə başlamışdır. Halbuki, nə “Dikaya diviziya” vəhşilərdən ibarət deyildi, nə də qırx minə yaxın ordu təşkil etmiş respublika boş yerdə hərbi quruculuq yaratmamışdı. Üstəlik, onu də deyək ki, bu orduya Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov kimi dünya şöhrətli sərkərdələr başçılıq etmişdi.

Tarixi saxtalaşdırmaq - xalqın ömür yolunu çaşdırmaq, keçmişini qaranlıq içərisində itirmək, gələcəyini dumanlığa qərq etməkdir.

Belə unutqan tarixçilərimiz haqqında istiqlal şairimiz Məhəmməd Hadi Qafqaz İslam Ordusunun Bakını işğalçılardan təmizlədiyi gündə - 1918-ci il sentyabrın 15-də “Türk nəğməsi” şerində yazırdı:

**Türkün tökülən qanları beyhudə gedərmi?**

**Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərini?**
**Dörd ildə verilmiş bu qədər can hədər olmaz,**
**Məfkurə yolunda tökülən qan hədər olmaz.**
**Qan ilə qazandıq zəfəri verməyiz əldən,**
**Xövf eyləmədik atəşi dəhhaşe düvəldən.**

Qəribə burasıdır ki, gec də olsa rus hərb tarixçisi, polkovnik V.V.Popov 1997-ci ildə "Voenno istoriçeskiy junal"nın ikinci sayında "Dikaya diviziya"nın Birinci Dünya Müharibəsində və Port-Artur döyüşlərində qəhrəmanlığını etiraf etmişdir. O, yazır: "1917-ci ilin oktyabr inqilabına və ondan sonra keçirilən tərxisə qədər qafqazlılar hərbi xidməti rus ordusunun seçmə hissələrində, o cümlədən imperatorun mühafizəsində keçirdilər. Rus-yapon və Birinci Dünya Müharibəsində Qafqaz müsəlmanlarından təşkil edilmiş birləşmələr (məsələn, "Vəhşi diviziya" və ya "Tuzemnaya") və süvarilər öz igidliyi və cəldliyilə, cəbhənin ən qorxulu sahələrindəki vuruşmalarda cəsarət və qorxubilməzliyilə fərqlənirdilər."

*　　*　　*

Bəzi müsavat əsgər və zabitinin bioqrafiyasında keçmiş imperiya ordusundan qalma istilah və rütbə adlarına rast gəlirik. 1918-1920-ci illərdə işlənən bu sözlərin və rütbələrin oxunuşunda müasir oxucunun çətinlik çəkəcəyini nəzərə alıb onlardan bəzisinin izahını da veririk.

**Praporşik** - Çar ordusunda orta dərəcəli zabit rütbəsi.

**Feldfebel** - Rota komandirinin təsərrüfat üzrə müavininə verilən hərbi rütbə.

**Yunker -** Rütbə yunkerlər məktəbini bitirən zadəgan balalarına verilirdi.

**Ştab-rotmistri** - Süvari qoşunda qərargah zabiti.

**Kvartirıneystr** - Orduda qoşunu yerləşdirmə işlərinə baxan məsul şəxs.

**Poruçik**- Çar ordusunda podporuçiklə ştabs-kapitan arasında olan zabit rütbəsi.

**Uryadnik** - Orduda tağım komandirinin müavini. Rütbə əsasən Kazak qoşunlarında xidmət edənlərə verilirdi.

**Realnı məktəb** - İnqilabdan əvvəl orta məktəb.

**Meşşan ailəsi** - Şəhərdə xırda alverçilərdən, sənətkarlardan və aşağı təbəqəli qulluqçulardan olan ailələri 1920-ci ilə qədər belə adlandırırdılar.

**Podporuçik** - 1920-ci ilə qədər çar və Müsavat ordusunda kiçik zabit rütbəsi.

**Kadet korpusu** - Aprel inqilabına qədər zadəgan balalarına məxsus qapalı hərbi orta məktəb. Varlı ailələrin uşaqları yeddi-səkkiz yaşında bu məktəbə qəbul olunurdu.

**Podpraporşik** - Yeni təşkil edilmiş əsgəri heyətdə fərqlənən hərbi qulluqçuya verilən kiçik rütbə.

## TÜRK İRSİNİ ÖYRƏDƏN GENERAL

Şöhrətli generalımız Səməd bəy Mehmandarovun 1918-20 - ci illərdəki fəaliyyəti xalqımız qarşısında əvəzsizdir. Onun Milli Ordunun yaradılmasmdakı müstəsna rolu, 1918-ci il dekabrın 25-də Azərbaycan xalqına müraciəti, əsgər və zabit heyəti qarşısında ata nəsihətli (həmin il Səməd bəy Mehmandarovun 63 yaşı vardı - Ş.N.) çıxışları və nəhayət, güclü Vətən təəssübkeşliyi qırx minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Səməd bəy Mehmandarov haqlı olaraq yazırdı ki, düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Yuxudan yenicə oyanmış xalqda sağlam, milli hissi oyatmalıyıq... Xalq arasında türk irsinin milli hisslərini və vüqarını qaldırmaq üçün xalqı, qoşunlarımızı onun tarixi keçmişi ilə tanış etməliyik.

1918-1920-ci illərin arxiv qovluqları açıldıqca bizə məlum olur ki, Milli Ordu tariximiz çox zəngin olmuşdur. O da məlum olur ki, hərb tariximizi zənginləşdirən Əliağa Şıxlinskinin rəhbərliyi ilə onların silahdaşları general Həbib bəy Səlimovun, Məmməd bəy Sulkeviçin, Şahzadə Əmir, Kazım Mirzə Qacarın, Clavad bəy Şıxlinskinin, Murad Gəray bəy Tlexasın, Əbdülhəmid bəy Qaytabaşının misilsiz faliyyəti olmuşdur.

Port Arturda, Birinci Cahan savaşında və 1918-20-ci illərdə şərəfli döyüş yolu keçən general Səməd bəy Mehmandarovun haqqında araşdırmalar apardıqca o illərin sənədlərində və qəzetlərində onun çıxışlarına, nitqlərinə rast gəlmək olur.

Tarixi sənədlərdən xəbərsiz olan bəzi tədqiqatçılar keçərək yazırlar ki, niyə Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin, Həbib bəy Səlimovun və başqa sərkərdələrimizin Napaleon, Kutuzov, Suvorov kimi müdrik fikirləri hərbi-elmi əsərləri qalmayıb. Bir sözlə, özümüzünkülərə qeyri-vətənpərvər damğası vururlar. Yetmiş altı ildən sonra belələrinə general Səməd bəy Mehmandarovun Azərbaycan Hərbiyə məktəbinin ikinci buraxılışıda, 1926-cı il sentyabrın 15-də elədiyi tarixi çıxış cavab verir.

Həmin il Azərbaycan Hərbiyyə məktəbində Səməd bəy Mehmandarov topçuluqdan rusca, Əliağa Şıxlinski isə Azərbaycan dilində mühazirələr oxuyurdular.

## AZƏRBAYCAN HƏRBİ MƏKTƏBİNİN 2-ci BURAXILIŞI HAQQINDA

15 sentyabr 1926-cı il

Yoldaşlar! Bu gün biz yeni qırmızı komandirlər kimi sizi təbrik edirik.

Qırmızı komandir kimi siz daha müstəqil yola çıxdınız. Bu müstəqil yolda sizi çətin və məsul iş gözləyir. Həmin işin bacarıqla və vicdanla yerinə yetirilməsi sizin tabeliyinzdə olan adamların döyüş hazırlığı səviyyəsindən asılıdır. Öz xidməti və döyüş təcrübəmdən istifadə edərək sizin üçün bu əlamətdar gündə həmin iş haqqında bir neçə söz demək istəyirəm.

Azərbaycan hərbi məktəbini qurtaran sizlər, yoldaşlar, həmişə möhkəm yadda saxlamalısınız ki, heç bir məktəb, hətta ali məktəb də olsa, tam bilik vermir, gəncləri gələcək özünütəkmilləşdirməyə hazırlayaraq buraxır. Bu cəhəti biz hərbi qulluqçular, xüsusilə yadda saxlamalıyıq, çünki ümumiyyətlə hərbi işdə, əsasən də qüdrətli mübarizə vasitəsi olan artilleriyada öz əksini tapan hərbi texnika böyük müvəffəqiyyətlərə nail olmuşdur.

Texnika və taktika bir-birilə ayrılmaz surətdə əlaqədardır və texnikanın inkişafi taktika sahəsində böyük dəyişikliklərə səbəb olur. Daimi yeni hərbi-texniki kəşflər sayəsində artilleriya atəşinin gücü ilbəil artır, döyüşün üsullarını və taktiki xüsusiyyətlərini, hücum və müdafiə formalarını əsaslı surətdə dəyişdirir. Buna görə də müasir tələblərdən geri qalmamaq üçün, yoldaşlar, siz yorulmadan öz üzərinizdə ciddi çalışmalı geri qalmamaq üçün cari hərbi ədəbiyyatı diqqətlə izləməlisiniz. Başqa sözlə, yenə də öyrənmək lazımdır. Bu tələblərə əməl etsəniz siz öz yerinizə layiq olacaqsınız və tabeliyinizdə olanların hüsnürəğbətini qazanacaqsınız.

Texnikanın inkişafı və artilleriya atəşinin artan gücü ilə yanaşı, mən deməliyəm ki, irəli getmək coşqunluğu ideyası ilə ruhlanan qoşunlarda əsas amil insandır, texnika isə ikinci dərəcəlidir, çünki texnikanı da insan idarə edir.

Hərbi-elmi cəmiyyətdəki məruzələrimdən birində, yoldaşlar, mən demişdim ki, hərbi iş yaradıcı işdir, bu işdə təcrubə və praktikanın böyük əhəmiyyəti vardır, bu təcrübə və praktika bir çox nəzəri müddəaları üstələməlidir. Bunu deməklə mən nəzəriyyənin əhəmiyyətini heç də azaltmıram, çünki hərbi sənəd nəzəriyyəsi həmin praktikadan doğmuşdur. Əgər bu belədirsə onda bacarıq, təcrübə və praktikanı hansı vasitələrlə mənimsəmək olar?

Müharibə dövründə bacarıq və təcrübə şəxsi praktika ilə, sülh dövründə isə sülh və müharibə dövrlərində göstərişlərini rəhbər kimi qəbul etdiyimiz nizamnamələrini əsaslı surətdə öyrənməklə, taktiki tapşırıqla çölə çıxmaqla, ikitərəfli manevrlərlə, komanda heyətinin çöl təlimləri ilə, hərb tarixini öyrənməklə və başqa üsullarla qazanılır. Bunları mən geniş izah etməyəcəyəm, öyrənilməsinə böyük əhəmiyyət verdiyim hərb tarixi üzərində dayanacağam.

Hərb tarixini öyrənmək dünyagörüşünü genişləndirir, tənqidə qabil olan adamın zəkasını, fərasətini və bacarığını inkişaf etdirir. Hərb tarixini öyrənməklə siz ovcunuzun içi kimi bu və ya o tərəfin səhvini görürsünüz. Görürsünüz ki, nə etmək olar və nə etmək lazım deyil. Hərb tarixini öyrənməklə siz çox mürəkkəb vəziyyətdən baş çıxarmaq, həmin vəziyyətə uyğun bu və ya digər qərar qəbul etmək vərdişləri qazanırsınız. Hərb tarixini öyrənməklə siz qoşunların müharibədə çəkdikləri əziyyətlərin qarşısını almağa təminat verirsiniz.

Mən belə fikirləşirəm ki, hərb tarixini öyrənməyin əhəmiyyətini başa düşmək üçün bu deyilənlər də kifayətdir.

Buna görə də mən belə hesab edirəm ki, sizin özünüzü həsr etdiyiniz sahədə müəffəqiyyət qazanmağınız üçün hərb tarixi kitabı hər bir hərbi qulluqçunun stolüstü kitabı olmalıdır.

Sizin hər bir müvəffəqiyyətiniz sizin keçmiş rəislərinizi sevindirəcək, çünki onlar sizin müvəffəqiyyətlərinizdə öz zəhmətlərinin və öz məsləhətlərinin bir hissəsini görəcəklər.

Sizinlə vidalaşanda sizə demək istədiyim bunlardır. İndi isə, yoldaşlar, mənim ən xoş və səmimi arzularımı qəbul edin.

## ALİM-GENERAL

Məşhur generalımız Əliağa Şıxlinski hərb elmi ilə müntəzəm məşğul olan yeganə sərkərdəmizdir. O, ötən əsrin sonlarından başlayarq Rusiyada dərc olunan müxtəlif qəzetlərdə, "Artilleriya Zabitləri Məktəbinin xəbərləri" jurnalında[22] hərbi elmi-publisistik məqalələrlə çıxış etmişdir. 1910-1914-cü illərdə Luqa şəhərində nəşr olunmuş "Səhra topların cəbhədə işlədilməsi", "Divizion miqyasında topçu manevrlərin təşkili üçün təlimat", "Topçu zabitləri məktəbində Əliağa Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi", "Öz qoşunlarının başı üstündən top atışı haqqında" kitabları Port-Artur qəhrəmanı Əliağa Şıxlinskiyə şan-şöhrət gətirmişdir.

1918-1920-ci illərdə və Sovetlər dövründə də general Əliağa Şıxlinski hərb elmi mövzusunda silsilə məqalələrin və hərbi kitabların müəllifi olmuşdur. Onun 1926-cı ildə "Azərbaycan hərbi redaksiyası" tərəfindən nəşr olunmuş 300 səhifəlik "Rusca-türkcə qısa hərbi lüğətli hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Nadir nüsxəyə çevrilən lüğət bu gün də misilsiz dəyərə malikdir.

1920-ci üdə onun təşəbbüsü ilə yaranan Bakı qarnizonunun Hərbi Elmi Cəmiyyəti, "Hərbi bilik" jurnalı və "Hərbi nəşriyyat" bizə "Əliağa Şıxlinski Azərbaycanda hərb elminin banisidir" - Sovetlər dövründə onun XI Orduda məcburi xidmət etməsi, bolşeviklərin ona çar və müsavat generalı kimi mənfi münasibəti onun əlyazmalarında, müasirlərinin xatirələrində açıq-aydın bilinir. Totalitar rejimin "gözükölgəli" etdiyi general Əliağa Şıxlinski ona görə də bu illərdə bütün gücünü, biliyini hərb elmi ilə məşğul olmağa daha çox sərf etmişdir. Onun "Hərbi bilik" jurnalında və "Kommunist", "Bakinski raboçi" qəzetlərində "Gələcək müharibədə toplar", "Topların piyada və süvarilərlə qarşılıqlı əməliyyatı", "Topların dağlıq yerlərdə atəş xüsusiyyəti haqqında", "Alay topları haqqında" silsilə məqalələri dərc olunmuşdur.

Bu günlərdə "Kommunist" qəzetinin 1926-cı il fevral ayı nömrələrini vərəqləyərkən məşhur sərkərdəmizin indiyədək bizə məlum olmayan dəyərli bir məqaləsinə rast gəldik. "Darılmaq istəməz" adlı məqalədə tam artilleriya generalı Əliağa Şıxlinski bu gün də vacib olan dilimizin saflığından, istər danışığımızda, istərsə də yazılarımızda türkləşməni, türk hərbi istilahlarını daha vacib bilir.

O yazır: "Dili türkləşdirınək istəyənlər Azərbaycanın uca dağlarında, dərin dərələrində yaşayan kəndlərə, yenə kəndlərə getməlidirlər. Şəhərlərdə türk sözü qalmamışdır. Onların yerlərini ərəb, fars, rus sözləri tutmuşdur. Xüsusən, hərbi istilahlar üçün kəndə üz çevirməlidirlər. Çünki topoqrafiya istilahları və hər dürlü silaha aid sözlər orada işlənir. Şəhərdə isə işlənən sözlərin çoxu dükan-bazar, arşın-girvənkəyə aiddir. Biz kəndlərimizdə saxlanmış sözləri tapmalı, yığmalı və

---

[22] Bu jurnal 1912-ci ildə Əliağa Şıxlinskinin təşəbbüsü ilə Sank- Peterbuqda nəşr olunmuşdur – Ş.N.

yaşatmalıyıq. Unudulmuş türk sözləri yalnız danışmaq üçün deyil, ən gərəkli kitablarımıza yazılmalıdır ki, bu sözləri öyrənmək oxuyanlarınyarağı olsun".

General Əliağa Şıxlinskinin yetmiş dörd il əvvəl qələmə aldığı "Darılmaq istəməz" məqaləsinin üslubuna, cümlə quruluşuna toxunmadan təqdim edirəm.

## DARILMAQ İSTƏMƏZ

"Müvəqqəti topçu təlimnaməsi"nin (atış qaydalarının) tərcüməsi Səttarov yoldaşı çox acıtmışdır ("Kommunist" № 81). Yoldaşın tənqidi kəskin, fəqət büsbütün haqsızdır. Məqalə yeni araya çıxmış təlimnaməni görməyən gənc topçularımızın ürəklərini qopara bilər. Buna görə də cavab verməyi özümə borc bildim.

Azərbaycan Xalq Maarif Komissarlığı yanında düzəlmiş "İslahat" komisyonu dilimizdən yad sözlərin çıxarılmasını və yerlərinə mümkün olduqca türk sözləri qoyulmasını qərara almışdır. Hərbi nəşriyyat komisyonu da bu yol ilə getməyə çalışır. Əlbəttə, yanlışımız olmaya bilməz. Yanlışsız kim işləyə bilər? Təlimnamə müvəqqətidir. Birya iki ildən sonra dəyişdiriləcəkdir. O vaxtadək komandalarımızın sınağı (təcrübəsi) və yazıçılarımızın tənqidlə yanlışlarımızı düzəldə biləriz. Fəqət tənqidi də bilikli adamlar etməlidirlər. Bir çoxları hər il istilah dəyişdirilməyəcəyini söyləyə bilərlər. Ancaq öz dilini ədəbiyyat və elmə uydurmaq üçün uzun-uzun illər çalışmalı və götürülmüş münasibətsiz sözlər daha uyarları ilə dəyişilməlidir. Tərcümə etdiyimiz rus təlimnamələrində də 200 ildən artıq işlənən istilahların çoxu inqilabdan sonra dəyişdirilmişdir. Bəzi istilahlar 1922-ci ildən indiyədək 2-3 dəfə dəyişdirilmişdir. Indi Səttarov yoldaşın anlamadığı və tənqid etdiyi sözlərə keçəlim. Təlimnamədə yazılmış:

1) "Gecikdirənli və gecikdirənsiz - toqquşmalı tapası və həmçinin ölçülməli tapası olan qumbara". Bunu tərcüməsi belədir:

"Qranata s vzrıvateləmi s zamedleniem i bez zamedleniə, a takje s distanüionnoy trubkoy".

Bunlar topçu istilahlarıdır. Kim olursa-olsun, topçuluq işi ilə tanış deyilsə - bu istilahları anlamaz.

2) "Danə" fars sözüdür. Və əsl mənası taxıl toxumudur.

Osmanlı türkləri bu sözü (400-500 il bundan əvvəl) "atdığına"uyduranda topun gülləsi yumru və bütün idi. Bu güllələrə rusca(qranata) deyil, (yadro) deyilir. İndiki top gülləsinin içi barıt ilə doldurulmuş.[23] Yenə ona qumbara deyilir. Osmanlılar əski adı (danəni) - yeni gülləyə də qoymuşlarsa bizə bu, əl verməz.

3) Təpə. Insan və heyvan bədəninin yuxarısına, dağın başına, hər bir şeyin yuxarı ucuna və bir də kiçik dağa deyilir. Təpəyə rusca bir neçə məna verilə bilər.

[23] İllərin saralıb-solmuş sətirlərində bu cümləni oxumaq mümkün olmadı - Ş.N.

(Temya)-xolma, verşina. Təpə, yaxud tipa şüşənin ağzını qapayan tıxaca deyilir ki, ruscası (propkadır). (Şəmsəddin Samini[24] sözlüyünün 370 və 878-ci səhifələrinə baxın). Topçuluqda təpə top gülləsinin ağzına burulan və yeri gələndə onun iç barıdına od verən alətə deyilir ki, ruscası (trupkadır). Bununla təpə ilə tipanın arasında böyük fərq vardır.

4) Mərmu Ərəb sözüdiir. Mənası da "Atılan şey" deməkdir. "Roma" atdı, tulladı "atdıq" isə türk sözüdür: "Atdıqdan" yaranıb. Dilimizin qanuni üzrə uydurulmuş sözdür ki, mənası mərmidir. "Atdıq" istilahının doğruluğunu göstərınək üçün iki cümlə alalım: "Atdığınız nədir?" - Qumbaradır. Qonşu batareyanın atdığı nədir?

- Şirapeneldir".

5) Rusca (vzrıvatel) və ya (udarnayə trubka) dəniləni. Osmanlılar "musadəməli" yerinə biz türk sözü "toqquşmalı " işlədirik.

6) "Təyyarə" osmanlılar uçar şeyə deyirlər. Uçaya təyyar deyirlər. Maarif komissarlığının istilahlar komisyonu və hərbi nəşriyyat komisyonunun qəbul etdiyi üsula görə bütün Avropa və Amerikada işlənən texniki istilahlar - məsələn: ayroplan, avtomobil, lokomativ və sonra - türkcəyə çevrilməlidir. Fəqət rusun (letçik)inə -"uçucu" və (samolet)una – "uçqaç" deməyi biz "təyyarə" və "təyyar"dan daha yaxşı sanırıq.

7) Şöbə ərəb sözüdür və əsl mənası türkcə - butaqdır. (Osmanlı ləhcəsində "dal", "budaq", Ş.Sami sözlüyünün 778-ci səhifəsinə baxın). Ruscada (otdel) sözünün əsl mənası ayrılmış şişin adıdır. Türkcə "butaq-butaq ayrılmaq" təbiri çox işlənir. Ərəbcə "şöbə" deməkdən isə öz dilimizcə "butaq" deyə bilərik

8) Nişangah - fars sözüdür. Əsl mənası "nişan qoyulanyer"dir. Türkiyə ordusu Azərbaycana gəlincəyə qədər heç kəs top və tüfəngi nişana doğrultmaq üçün olan alətə nişangah deməzdi. Deyilməməlidir də, çünki bu, yanlış bir istilahdır.

Nişangah yerinə biz "tuşlamağ" yazdıq. Fəqət bu söz Səttarov yoldaşı çox acıtmışdır. Və öylə acıtmışdır ki, özü də bizim ağır günahlarımıza uğradan sözündən yeni söz çıxarınışdır (düzümləmə). "Tuşlamağ"ı biz "tuşlama" sözündən düzəltdik. "Tuşlama" isə "navodka", "pritslivanie" sözlərinə ən yaxın türk sözüdür.

9) Tuşlama - yəni tuş qoyma, quş tutma. "Tuş" isə - "muzey" sözü, yaxud bəzi qəzalarda işlənən sözlərdən degildir.

Azərbaycanın Qazax, Gəncə, Ağdam, Cəbrayıl və başqa qəzalarında, Gürcüstanın Borçalı, Sığnaq qəzalarında, Ermənistanın İrəvan, Yeni Bəyazid, Sürınəli və başqa qəzalarında bu söz bəllidir.

"Tuş" sözü yalnız Zaqafqaziya "muzeylərində" deyil, başqa türk ölkələrində də işlənir. Cıgatay ləhcəsində: "tuş"- tərəf, "səmt" deməkdir: "Tuşlamağ", "Tuşnlamaq", "duşlatmaq" - qarşı-qarştya gəlmək. "Hər tuşda " - hər səmtdə deməkdir. "Tuş çağı" - günorta, yəni gün baş üstündə olan çağ deməkdir.

---

[24] Şəmsəddin Sami (1850-1904). Məhşur türk leksoqrfiyasi və yazçısı. Şərqdə altı cildlik "Qamus ül-ələm"ensiklopediyasını, iki cildlik "Qamusi-fransəvi" və yenə iki cildlik "Qamusi-türki" kimi qiymətli türk dillərinin izahlı lüğətinin müəllifidir. Şəmsəddin Sa-minin əsərlərində Azərbaycana dir məlumatlar vardır Onun "Dəmirşi Gavə" pyesi 1920-ci il aprel şevrilişindən əvvəl Azərbaycan səhnəsində tamaşaya qoymuşdur – Ş. N.

Qırğız ləhcəsində: “Tuşda” - qarşıda. “Tuşuna” - üz-üzə”. “Tuşçu” - qarşılayıcı deməkdir.

Başqır ləhcəsində: “Tuşyanı” – “Günorta səmti” deməkdir.

Altay ləhcəsində: “Tuşdamaq, qarşılamaq, qabaq-qabağa” deməkdir.

Səttarov yoldaş tuşlamaq yerinə “düzənəmək” deyir. Türk dilində belə söz yoxdur, ola da bilməz.

“Düzən” əsl türk sözüdür, mənası da ərəbcə tərtib, nizam (Ş.Sami 626-cı səhifə), rusca isə (poryadokjdur. Səttarov yoldaş göstərdiyi “qayda” (pravilo) deməkdir.

Səttarov yoldaşın arzusu çox böyükdür: Onu yaratmaq mümkün deyildir. Yoldaş Səttarov kənddən yeni gələn əsgərlərin və bütün xalqın topçu təlimnaməsini görən kimi anlamasını istəyir. Bütün xalqa bu heç lazım deyildir. Topçu əsgərlərinə də bu təlimnaməyə öncə komandanlar ağızdan və göstərişlə öyrədirlər.

Ancaq bundan sonra istilahları öyrənmiş savadlı əsgərlər təlimnaməni özləri oxuyub anlaya bilərlər. Yalnız Azərbaycanda deyil, bütün ölkələrdə bu böylədir.

Elm, fənn və sənət kitablarını anlamaq üçün ya bir işlə tanış olmaq və ya bir öyrədiciyə müraciət etmək lazımdır. Əsgərlərə komandanları öyrədir.

Yeni çıxmış təlimnamənin istilahlarına alışanadək komandanlarımız da bir qədər çətinlik çəkəcəklər. Fəqət bu çətinlik 2-3 həftədən artıq sürməyəcəkdir.

Səkkiz il bundan əvvəl Azərbaycana gələn türk ordusu içimizə bir neçə ərəbcədən alınmış hərbi istilahlar atıb getmişdir. Nədən isə biz bu yad sözləri atmaq istəmirik. Bizə deyirlər ki, eşidilməmiş türk sözlərini ortalığa çıxarmayın. Fəqət Türkiyə ordusu gəlməmiş ərəbcə hərbi istilahlar Azərbaycanın hansı qəzalarında eşidilmirdi?

Dili türkləşdirmək istəyənlər Azərbaycanın uca dağlarında, dərin dərələrində yaşayan kəndlərə, yenə kəndlərə getməlidirlər, şəhərlərdə türk sözü qalmamışdır. Önların yerlərini ərəb, fars, rus sözləri tutmuşdur. Xüsusən, hərbi istilahlar üçün kəndə üz çevirınəlidirlər. Çünki topoqrafiya istilahları və hər dürlü silaha aid sözlər orada işlənir. Şəhərdə isə işlənən sözlərin çoxu dükan-bazar, arşın-girvənkəyə aiddir. Biz kəndlərimizdə saxlanmış sözləri tapmalı, yığmalı və yaşatmalıyıq. Unudulmuş türk sözləri yalnız danışmaq üçün deyil, ən gərəkli kitablarımıza yazılmalıdır ki, bu sözləri öyrənmək oxuyanların yarağı olsun.

Danə, mərmi, təyyarə, şöbə, nişan alma, tərtib və bunlar kimi ərəb, ya fars sözlərini öyrənə bilən türklər qumbara, atdıq, uçqaç, budaq, tuşlama, düzən və bu kimi türk sözlərini də öyrənə bilməzlərmi?

(“Kommunist” qəzeti, № 38-39, 14-15 fevral 1926-cı il).

**Əliağa ŞLXLİNSKİ**

## İLK HƏRBİ MEMUARIMIZ

**General Əliağa Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib. Əliağa Şıxlinskinin**

**“Xatirələrini”i son dərəcə maraqlı və ibrətlidir. Bunu bütün vətənimizin geniş oxucu dairələrinə tövsiyə etməli, ordunun komanda heyəti onunla tanış olmalı, topçular isə öyrənməlidirlər.**

**Əliağanın aldığı hərbi tərbiyə, təhsil, orduda xidməti, şanlı döyüş fəaliyyəti və keçdiyi yol elə bir həyat nümunəsidir ki, öz Vətəninin şərəf və namusunu, azadlıq və istiqlaliyyətini qorumaq kimi müqəddəs bir vəzifəyə layiq olmaq istəyən hər bir kəs ondan nümunə götürməlildir.**

**Yevgeni BARSUKOV, general-mayor,**
**hərb elmləri doktoru, professor,**
**Dövlət mükafatı laureatı.**

Durğunluq dediyimiz illərdə şöhrətli sərkərdəmiz Əliağa Şıxlinskinin “Xatirələrim” hərbi memuarına izahlar və qeydlər fəsli əlavə etməklə yenidən nəşrə hazırladım. (1982-1984). Kitabı hansı neşriyyata təqdim edirdimsə bir iki aydan sonra özümə qaytarırdılar ki, çar və müsavat generalı olub, nəşr edə bilmərik. Nəhayət, mərhum xalq yazıçımız İsmayıl Şıxlıya müraciət etdim. Daha doğrusu, ondan kömək istədim. Qovluğu götürüb İsmayıl müəllimlə birgə nəşriyyata getdik. Mübahisələr, yersiz iradlar başlandı, nə başlandı...

Vüqarla əyləşib, səbrlə bu nadanları dinləyən İsmayıl Şıxlının əvəzinə mən əsəbiləşirdim. Yerimdə otura bümirdim. Onun səbrinə heyran qalmışdım. Dinib cavab vermək istəyirdim. Düzü, İsmayıl müəllimdən çəkinirdim. O biri tərəfdən də burdakıların hamısı məndən yaşca böyük idi.

Qocalar o qədər “alovlu” danışırdılar ki, biri asqırdı, biri öskürdü, üçüncüsünün səsi xırıldayanda İsmayıl Şıxlı eynilə qəhrəmanı Cahandar ağa sayağı sərt səslə:

Qurtardınız? - dedi. Sizin üçünüzə bircə sualım var. Bu kitabı 1944-cü ildə hamımızın yaxşı tanıdığı filosof-alim Heydər Hüseynov yazdırıb, cəmisi yeddi min nüsxə nəşr etdirib. Elə bir vaxtdakı Mircəfər Bağırovun qılıncının dalı da kəsirdi, qabağı da. Təbiidir ki, Stalin də hakimiyyətdə idi. İndi deyin görüm, siz ağıllısınız, vətənpərvərsiniz yoxsa Heydər Hüseynov? Nə deyirsiniz?.. Aparaq bu kitabı rusca, ermənicə çap etdirək? Öz nəşriyyatımız, öz dilimiz ola-ola...

Üçlərdən heç biri dinmədi. Otağa ağır, çox ağır bir sükut çökmüşdü. Mən fəxrlə, həm də böyük qürur hissiylə döyüşdən qalib çıxmış sərkərdə - kişi kimi əyləşən İsmayıl Şıxlıya baxdım. Baxırdım və düşünürdüm ki, ürəyi, varlığı Azərbaycan üçün yanıb-yaxılan İsmayıl Şıxlılar niyə azdır... Amma ötəri də olsa gördüm ki, əzəmətli İsmayıl Şıxlının yaraşıqlı üzünün əti əsəbdən titrədi. O, şümşad barmaqları ilə eynəyini düzəldib:

- Gedək, Şəmistan,- deyib ayağa durdu. Bir-iki addım atar-atmaz başda əyləşən qoca yumşaq səslə:

- İsmayıl, qoy qovluq qalsın, baxarıq, yuxarılarla məsləhətləşərik, dedi:

İsmayıl müəllim sərt hərəkətlə geriyə dönüb:

- Yuxarıları bəhanə gətirməyin, dedi. Siz kitabı plana salın, yuxarılarla özüm danışaram...

1984-cü ildə general Əliağa Şıxlinskinin “Xatirələrim” kitabı uzun əziyyətdən və mübahisələrdən sonra “Azərnəşr”də rus və Azərbaycan dillərində altmış min tirajla nəşr olundu.

Yeni nəşr olunmuş “Xatirələrim” kitabından üç nüsxəni Moskvaya, hərbi Sovet Ensiklopediyasının baş redaksiyasına göndərdim. Əlavə məktub da yazıb baş redaksiyaya iradlarımı da bildirdim ki, rus general-mayorları və polkovnikləri haqqında ensiklopediyanızda məqalələr var. Amma general-leytenant Səməd bəy Mehmandarov, nə də Əliağa Şıxlinski haqqında sətir belə yoxdur. Bunu necə başa düşək? Nə üçün belə şöhrətli generalların haqqında səkkiz cildlik “Hərbi Sovet Ensiklopediysı”nda qısaca bir məqalə verilməyib. Əgər general Şıxlinski haqqında məlumatımız yoxdursa, onun haqqında yazıb sizə bildirirəm. Həm də kitabından üç nüsxə sizə göndərirəm, ordan daha geniş məlumat ala bilərsiniz.

Düz bir aydan sonra “Hərbi memuar ədəbiyyatı” redaksiyasının baş redaksiyasının baş redaktoru V.Makeyevdən cavab məktubu aldım. O yazırdı ki, məktubunuzu və general-leytenant Əliağa Şıxlinskinin kitabların aldıq. Generalın kitabını rəy üçün SSRİ Müdafiə Nazirliyinin Hərbi Tarix İnstitutuna göndərdik. Yaxın günlərdə onlardan aldığımız rəyi sizə bildirəcəyik.

Nəhayət, 1986-cı il iyulun 26-da “Hərbi nəşriyyatdan sevindirici cavab aldım. Bu dəfə hərbi-memuar redaksiyasının baş redaktor əvəzi A.Kryukov yazırdı ki, general-leytenant Əliağa Şıxlinskinin kitabını redaksiyada oxuduq və onun yenidən çapını hərbi-tarixçi alimlərlə məsləhətləşdik. Kitab onların da çox xoşuna gəldi, institut əməkdaşları “Xatirələrim” kitabının çox qiymətli olmasını xüsusi qeyd etdilər. Lakin kitabın yenidən çap olunması üçün azı beş il növbəyə durmaq lazımdır.

Baş redaktor A.Kryukov mənə göndərdiyi cavabında M.V.Frunze adına Hərbi Akademiyanın Hərb-sənəti tarixi kafedrasının baş müəllimi, polkovnik L.Zaytsevin general-leytenant Şıxlinski kitabının yeni nəşri üçün yazdığı rəyi də göndərmişdi.

Düzü rəyi oxudum fərəhdən heyrətə gəldim. Ona görə ki, polkovnik L.Zaytsev böyük bir ürəklə və hərarətlə yazdığı altı səhifəlik makina yazısında Əliağa Şıxlinskini xalqının həqiqi qəhrəmanı, alovlu vətənpərvəri adlandırırdı. Port-Artur, Birinci Dünya müharibələrindəki və artilleriya sahəsindəki misilsiz xidmətlərini xüsusi qeyd edirdi. Kitabın yenidən çapına tam məsuliyyətlə redaktor kimi cavabdeh olduğunu bildirirdi. Təəssüflənirdi ki, nə üçün kitab respublikamızda çox az - cəmisi 30 min (ruscası) tirajla nəşr olunub. Bunları ona görə qeyd edirəm ki, “Azərnəşr”də mənim kitaba yazdığım izahlar və qeydlər fəslində məhz bu sözləri “xalqımızın qəhrəman oğlu, igid generalı ixtisar etmişdilər.

Əlavə olaraq polkovnik L.Zaytsev bildirirdi ki, “Birinci Dünya müharibəsi” adlı iri həcmli xatirələr, reportajlar, oçerk və sənədlər məcmuəsini nəşrə hazırlayırıq. Sizin göndərdiyiniz general Əliağa Şıxlinski kitabından “1916-cı ilin yayında Qərb cəbhəsində” fəslini bütövlükdə mən həmin məcmuəyə daxil etdim. Kitab 1989-cu ilin tematik planına daxil edilib.

Həmin ili 607 səhifəlik məcmuədə Əliağa Şıxlinskinin xatirələrindən bir parça bu kitabda dərc olundu. Lakin sovet hakimiyyəti dağıldığına görə generalın kitabı Moskvada işıq üzü görmədi...

M.V.Frunze adına Hərbi Akademiyanın hərb-sənəti tarixi kafedrasının baş müəllimi, polkovnik L.Zaytsevin şöhrətli generalımız Əliağa Şıxlinskinin kitabı haqqında 3 iyun 1986-cı ildə yazdığı rəyin oxucuların xoşuna gələcəyinə əminəm. Ona görə də möhtərəm oxuculara təqdim edirəm.

## ƏLİAĞA ŞIXLİNSKİNİN "MƏNİM XATİRƏLƏRİM" KİTABI HAQQINDA RƏY

Ədəbiyyatın spesifik sahəsini özündə təmsil edəri hərbi memuarlar, Silahlı Qüvvələrin əsgərlərinin xüsusilə, böyüməkdə olan gənc nəslin, keçmişdə baş vermiş hadisələri daha dərin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir.

Keçilən çətin yollar, çox ağır sınaqlar haqqında danışarkən, keçmiş tarixi hadisələrin, xüsusilə müharibə kimi hadisələrin məzmununu və mənasını şərh edən memuarların müəllifləri keçmişin həqiqi mənzərəsini yaratmağa kömək edir, keçmiş ilə bu gunkü gün arasına körpü yaradır, gənclərdə öz Vətənləri uğrunda iftixar hissini inkişaf etdirir, onları yeni qəhrəmanlıq işlərinə çağırır.

Hərbi memuarlar kütlələrin siyasi tərbiyəsi və tarixi maariflənməsi sahəsində mühüm əhəmiyyət kəsb edir. Böyük elmi dərketmə və tərbiyəvi əhəmiyyətə malik olmaqla, memuarlar faşizmin və imperializmin müdafiəçiləri ilə, hərb tarixinin burjua saxtakarları ilə mübarizədə mühüm ideya silahıdır.

Ölkəmizdə nəşr edilən və oxucu kütləsinə çatdırılan hərbi memuarların sayı daim artır. Lakin, bir qayda olaraq, son illərdə nəşr edilən memuarların əksəriyyəti Böyük Vətən müharibəsi haqqındadır. Vətəndaş müharibəsi tarixi ilə, inqilaba qədər baş vermiş hərbi hadisələr ilə bağlı xatirələr çox az hallarda nəşr edilir. Bu o qədər də təəccüblü hal deyildir. İllər keçir və keçmiş tarixi hadisələrin şahidlərinin sayı günü-gündən azalır. Ona görə də bu cür memuarlar nadir tapılan kitablara çevrilirlər.

Bizim Vətənimizin daha uzaq keçmişinə həsr edilmiş bu cür əsərlərin az tapılması ilə əlaqədar olaraq nəşriyyatlar, o cümlədən hərbi nəşriyyat özünün tarixi-idraki qiymətini saxlamış, kitabxana rəflərində və kitab mağazalarında çox çətin tapılan, keçmişdə nəşr olunmuş hərbi memuarları təkrarən nəşr etməyə məcburdurlar.

Oxucular və tədqiqatçılar üçün böyük marağa səbəb olan bu cür əsərlərdən biri də general Əliağa Şıxlinskinin 1943-cü ildə yazdığı, 1944-cü ildə Bakı şəhərində nəşr olunmuş və həmin nəşriyyat Azərnəşr tərəfindən 1984-cü ildə, cəmi 30 min nüsxə tirajı ilə yenidən çap edilmiş "Mənim xatirələrim" kitabıdır.

Əliağa Şrxlinski öz xatirələrini Böyük Vətən müharibəsi günlərində yaratmışdır. Əsəri tamamlayarkən o, yazır: "Mən Azəbaycan xalqının qardaş xalqlar ilə çiyin-çiyinə öz vətənini qoruduğunu və bizim ölkəni əsarət altına almağa çalışan faşist dəstələrinə məhvedici zərbələr vurduğunu düşündükcə qürur hissi keçirirəm. Mən tamamilə əminəm ki, dahi Stalinin rəhbərliyi altında Qələbə

bizim olacaqdır. Əgər gənc nəsil, o cümlədən də zabitlər, mənim xatirələrimdə düşmən ilə əzəmətli döyüşdə onlara kömək edə bilən bəzi məlumatlar əldə edə bilsələr, mən özümü xoşbəxt sayaram" (səh. 187).

Bu sözlərdə Vətənin qorunmasını özünün müqəddəs borcu hesab edən, öz ölkəsinin əsl vətənpərvərlərinin surəti dəqiq təsvir edilir.

Bu sözlər rus-yapon və Birinci Dünya müharibəsində həqiqi qəhrəmanlıq göstərmiş, rus ordusunun general-leytenant rütbəsini qazanmış və ədalətli inqilab mübarizəsinə qalxmış öz xalqının tərəfini saxlamış şəxs tərəfindən yazılmışdır.

Qeyri-adi topçu Əliağa Hacı İsmayıl bəy oğlu Şıxlinskinin adı həm keçmiş rus ordusunda, həm də Rusiyanın xaricində məşhur idi.

Bu haqda, SSRİ Dövlət mükafatı laureatı, hərbi elmləri doktoru, professor Y.Z.Barsukovun, rus ordusunun artilleriyasında birgə xidmətdən şəxsən tanıdığı Şıxlinskinin kitabına yazdığı müqəddimə tam doğruluqla məlumat verilmişdir.

Barsukov yazır: "Bu maraqla kitabın müəllifinin adı daima böyük nüfuza və rəğbətə malik olmuşdur, o, təkcə rus topçularına deyil, rus ordusunun keçmiş dairələrində çox yaxşı tanınmışdı və son dərəcə məşhurlaşmışdı. Onu 1904-1905-ci illər rus-yapon müharibəsi, 1914-1918-ci illər dünya müharibəsi iştirakçıları, xüsusilə Ə.A.Şıxlinskinin qəhrəmanlıq göstərdiyi məşhur Port-Artur epopeyasının iştirakçıları yaxşı tanıyırdılar" (səh.3). Topçu Şıxlinskinin nüfuzunun beynəlxalq adəmdə də tanınması, onun 1912-cı lldə Fransa hökumətinin Fəxri "Legion ordeni" və "Legion xaçı" ilə təltif olunması bir daha təsdiq edilir.

Azərbaycan xalqının şanlı oğlu general Əliağa Şıxlinskinin xatirələri - onun özünün, məktəb skamyasından başlayaraq, ordu komandanı vəzifəsi ilə bäşa çatan, müxtəlif hadisələr ilə zəngin, peşəkar hərbçi həyatını təsvir edən sadə, başa düşülən maraqlı üslubda yazılmış avtobioqrafı yasıdır.

General Əliağa Şrxlinskinin ömür yolunda onun qeyri-adi şəxsiyyət olduğunu təsdiq edən çoxlu dəlillər var. Onlardan bir neçəsini misal gətirək. O, gimnaziyada oxumağa başlayarkən iki illik kursu yeddi ay ərzində başa çatdırmışdır. Tiflis hərbi gimnaziyanın tamamlayarkən bütün fənnlərdən əla qiymət almışdır. O, 1886-cı ildə Mixaylov adına topçuluq məktəbini qurtaran ən yaxşı üç tələbədən biri olmuş və hətta məktəbdə oxuyarkən əldə etdiyi müvəffəqiyyətlərə görə pul mükafatı və qızıl saat da almışdır. Məktəbdə oxumaq ilə yanaşı, o, müstəqil olaraq məktəb proqramına daxil olmayan, ehtimal nəzəriyyəsini də öyrənmişdir. O, Mühəndislər Akademiyasında oxunan məruzələri, Baş Qərargahın Akademiyasında general M.İ.Draqomirovun məruzələrini dinləyirdi.

Məktəbi qurtardıqdan sonra podporuçik Əliağa Şıxlinski 39-cu topçu briqadasında xidmət edir və əla xidmətinə görə ona iki orden verilir. 1904-1905-ci illərdə onun Rus-Yapon müharibəsindəki iştirakı, birinci minomyot yaradanlardan biri, məşhur rus topçusu, kapitan Qobyato ilə birlikdə fəaliyyət göstərdiyi Port-Arturun uzaq girəcək yollarındakı döyüşlərdən başlamışdı.

General Əliağa Şıxlinski mühasirəyə alınmış Port-Artur döyüşlərində fərqləndi. O, bu döyüşlərdə o zaman üçün yenilik sayılan, artilleriya toplarından şrapnellə "kombinasiya edilmiş atəş" üsulunu işləyib hazırladı və geniş tətbiq etdi. Elə orada da yaralanmışdı. Port-Artur təslim edildikdən sonra Şıxlinski yaponlara qarşı gələcək döyüşlərdə iştirak etməmək haqqında yazılı iltizamnamə vermədi və

Rusiyaya gəldikdən sonra o, yenidən Mancuriyaya cəbhəyə getmək xahişi ilə müraciət etdi. Rus-Yapon döyüşlərində iştirakına görə o, 6 mükafat və polkovnik-leytenant rütbəsi aldı.

Rus-Yapon və Birinci Dünya müharibəsi arasında olan müddətdə Şıxlinski Artilleriya Zabitləri məktəbində işləyərək, general-mayor rütbəsini aldı. O vaxt o, polkovnik rütbəsindən general rütbəsinə qədər cəmi 4 il xidmət etmişdi, halbuki, adətən bu müddət 10 il, xüsusi fərqlənənlər üçün isə 8 il davam edir. Əliağa Şıxlinski müharibə getməyən ölkədə çox qısa müddətdə general-mayor rütbəsini qeyri-adi hərbi biliyinə və bacarığına görə almışdır. Bu zaman Əliağa Şıxlinski öz qoşunlarının başı üstündən atış və təyyarələrə atəşaçma üsulu daxil edilməklə, artilleriyanın atışı və döyüşdə tətbiq məsələləri ilə bağlı bir sıra kitabçalar, təlimatlar, konspektlər yazdı. Məşhur "Şıxlinski üçbucağı"ndan Fransa, Avstriya, Norveç və digər ölkələrin topçuları tərəfindən istifadə edilirdi. Əliağa Şıxlinski döyüşdə artilleriyanın piyadanı müşayət etməsi məsələsini də qaldırdı ki, bu ideya da alay və tabor artilleriyasının yaranmasına səbəb oldu.

Birinci Dünya müharibəsi illərində general Əliağa Şıxlinski fəaliyyətdə olan rus ordusunda Peterburqun (Petroqradın) müdafiə artilleriyasının rəisi, 5-ci ordunun, Şərq-Sibir cəbhəsinin artilleriya inspektoru (indiki-komandan), 10-cu ordunun komandanı kimi yüksək vəzifələri daşımışdı. O, dəfələrlə mükafata layiq görülmüş, general-leytenant rütbəsini almışdı.

Çar hökuməti devrildikdən sonra və hakimiyyətə müvəqqəti hökumət gəldikdən sonra Şıxlinski orduda xidmət etməyi davam etdirir. O, Minski milisinin birinci rəisi M.V.Mixaylovun[25] (Frunzenin) üzv olduğu Minski soveti ilə sıx əlaqədə işləməli oldu. M.V.Mixaylov (Frunze) ilə onun arasında çox səmimi münasibət yaranmışdı.

Qeyd etmək lazımdır ki, Şıxlinski öz xatirələrində, o zamankı məşhur siyasi və hərb xadimləri ilə görüşləri haqqında yazır və onların haqqında, bəzən çox qısa, lakin dəqiq xarakteristika verir. 1917-ci ilin noyabrında Şıxlinski səhhətinə görə ordudan azad olunmağa və Bakıya qayıtmağa məcbur oldu. 1920-ci ildə Qafqazda bir sıra əksinqilabi çıxışlar baş verdiyi zaman Bakı inqilab komitəsinin sədri general Şıxlinskini və general Mehmandarovu, onlardan mərkəzi hərbi apparatda, dəyərli hərbi mütəxəssis kimi istifadə etmək üçün, Moskvaya, Leninin yanına göndərınək qərarına gəldi. Əliağa Şıxlinski Ali Artilleriya məktəbində müəllim və Artilleriya Nizamnamə Komissiyasının tərkibində işləyirdi.

1921-ci ildə o, Bakıya qayıtdı və Bakı qarnizonunun hərbi-elmi cəmiyyətində sədr müavini vəzifəsini tutdu. 1921-1929-cu illər o, artileriyanın döyüşdə tətbiqi məsələləri haqqında çoxlu çrxışlar etmiş, qarnizonun topçularının praktiki hazırlıqları ilə məşğul olmuşdu. General Əliağa Şrxlinski Azərbaycanda, onun fəaliyyətini yüksək qiymətləndirən Frunze ilə iki dəfə görüşmüşdü. Bu görüşlərdə Şıxlinski yenidən, bu dəfə artıq M.V.Frunzenin qarşısında Qızıl Orduda alay və tabor artileriyasının yaradılması məsələsini qaldirmışdı.

1929-cu ildən sonra Şıxlinskinin səhhəti birdən-birə pisləşdi, onun görmə və eşitmə qabiliyyəti zəiflədi. O, 1943-cü ildə vəfat etdi. Ölümündən qabaq diktə

---

[25] Görkəmli sərkərdə və dövlət xadimi M.F.Frunzenin (1885-1925) inqlabından əvvəlki gizli imzasıdır.- Ş.N.

etdiyi “Mənim xatirələrim” kitabı bütün həyatı boyu qulluq etdiyi rus ordusunun artileriya tarixinə general Əliağa Şıxlinskinin son əmanəti oldu.

Kitab sadə, asan, anlaşılan dildə yazılmış və rahat oxunur. Ayrı-ayrı stilistik nöqsanlar kitabdan alınan ümumi təsəvvürü korlamır, elə bil ki, onlar təsvir edilən hadisələrin zamanı ilə bu günkü gün arasında olan fərqi göstərir.

Oxucu üçün əhəmiyyətə malik olmayan bəzi şəkilləri kitabdan xaric etmək olar. Bizim fikrimizə görə Əliağa Şıxlinskinin həyat yoldaşının şəkillərindən birinin generallardan S.S.Mehmandarovun, N.Q.Stoletovun, A.A.Brusilovun portretlərinın bu kitabdan çıxarılması yaxşı olardı.

NƏTİCƏ: Məzmununa, tarixi əhəmiyyətinə, faktiki materialların bolluğuna, rus ordusunun, xüsusilə onun artilleriyasının döyüş fəaliyyətinin və həyatının geniş işıqlandırılmasına görə general Əliağa Şıxlinskinin “Mənim xatirələrim” kitabı yenidən nəşr edilməyə layiqdir.

## GENERAL ƏLİAĞA ŞIXLİNSKİNİN ŞERLƏRİ

Əliağa Şıxlinski Tiflisdə gimnaziyaya girdiyi ilk gündən elmləri mənimsəməkdə böyük səy göstərmiş, iki illik kursu yeddi ay ərzində başa çatdıran yeganə şagird olmuşdur. Hətta o, 1876-cı ildə daxil olduğu kadet korpusunu 1883-cü ildə qurtarıncaya qədər birinciliyi əldən verməmişdir. Peterburqda Mixaylov topçuluq məktəbində Əliağa dərslərdə müvəffəqiyyətinə görə ilk üç əlaçı kursantdan biri olaraq diqqəti cəlb etmişdir.

**Yevgeni BARSUKOV,**
**Hərb Elmləri doktoru,**
**Professor, general-mayor,**
**Dövlət Mükafatı laureatı.**

Tam artilleriya generalı Əliağa Şıxlinski təkcə hərbçi olaraq qalmamışdır. O, hərbi-elmi publisistik məqalələrin, artilleriyaya aid dərsliklərin də müəllifi olmuşdur. Onun “Divizion miqyasında topçu manevralar” təşkili üçün təlimat”, “Dağ və səhra artilleriyası üçün məsələ və misallar məcmuəsi” (1913-cü ildən 1916-cı ilədək üç dəfə nəşr olunub), 1910-cu ildə “Səhra toplarının cəbhədə işlədilməsi” və “Topçu zabitləri məktəbində polkovnik Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi” kimi samballı kitabları Peterburq və Luqa şəhərində çap olundu. Həmin əsərlərin surətini 1983-cü ildə Sankt-Peterburqdakı Saltıkov-Şedrin adına kütləvi kitabxananın nadir fondundan çıxarıb gətirınişəm. Əsərlər tərcümə olunub şəxsi arxivimdədir.

1906-cı ildən 1914-cü ilə kimi Əliağa Şıxlinski Çarskoe Selodakı Artilleriya Zabitləri məktəbində rəis müavini işləyib. 1912-ci ildə generalın təşəbbüsü ilə “Artilleriya Zabitləri məktəbinin jurnalı” nəşr olunmuşdur.

1913-cü ilin payızında Artilleriya Zabitləri məktəbinin rəisi, artilleriya generalı A.N.Sinitsin qocalığına görə istefaya çıxır. Jurnal bu münasibətlə

Sinitsinin portretini və ikinci səhifədə haqqında böyük bir yazı verib. Əliağa Şıxlinskinin iki bəndlik vida şerini də dərc edib.

**Yorulmaq bilmədən sən uzun illər.**
**Öz ağır topuna sükançı oldun.**
**Hər dəfə əmrinlə birləşdi əllər.**
**Bir ailə kimi sənin mərd ordun.**

**Toplardır əbədi məktəbimiz də;**
**Siz onun atası, tarix yazanı.**
**Ürəkdən salamlar göndərib sizə,**
**Hörmətlə önündə baş əyir hamı...**

Həmin ilin payızından 1914-cü ilin oktyabr ayına kimi Artilleriya Zabitləri Məktəbinin rəisi vəzifəsini general-mayor Əliağa Şıxlinski aparmışdır.

General Şıxlinski bədii yaradıcılıqla da məşğul olmuşdur. Çoxlu şerlər tərcümələr və bədii parçalar müəllifi olan bu təvazökar insan heç vaxt onları dərc etdirməmişdir. Azərbaycan Tarix Muzeyindəki şəxsi qovluğunda və Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində, akademik Heydər Hüseynovun şəxsi fondunda general Əliağa Şıxlinskiyə məxsus çoxlu sənəd və materiallar var.

Beş yüz on dörd nömrəli fondda generala məxsus bir dəftər də saxlanılır. Muzeydə və arxivdə saxlanan Şıxlinskinin “Zabitin yaddaşı” dəftərində şerlərə, bədii parçalara, tərcümə və qeydlərə rast gəldik.

1900-cü il oktyabrın 21-də tərtib olunmuş “Zabitin yaddaşı” dəftərindəki qeydlərdən aydın olur ki, görkəmli dramaturqumuz Cəfər Cabbarlının yaradıcılığına generalın xüsusi məhəbbəti olub, Cabbarlının vaxtsız ölümü onu hədsiz dərəcədə kədərləndirib. General ədəbiyyatımızın görkəmli nümayəndələri Səməd Vurğunun “Böyük ədib” və Osman Sanvəllinin “Yaşar” şerlərini məharətlə rus dilinə tərcümə edib.

General Əliağa Şıxlinskinin şəxsi fondunda şair Osman Sanvəlliyə yazdığı məktubların şurəti və poçt qəbzi saxlanılır. O, şair Osman Sarıvəlliyə yazır ki, mən cəsarət edib böyük dramaturq Cəfər Cabbarlıya yazdığınız “Yaşar” və “Ölüm” şerlərini türkcədən ruscaya tərcümə etdim. Xahiş edirəm, tərcümə ilə tanış olun, xoşunuza gəlsə dərc etdirmək üçün rüsxət verin.

Generalın şəxsi fondundakı məktublar arasında şairin heç bir cavabına rast gəlmədim. Ona görə də 1980-ci ilin qışında Osman müəllimin görüşünə getdim. Yazılan məktubların tarixini ilini ona xatırlatdım. - Osman müəllim, - dedim Sizin cavablarınızı tapa bilmədim. Bəlkə generalın məktubları sizə çatmayıb. Osman Sarıvəlli bir xeyli narahatçılıqla:

- Mənim - dedi, generalın məktublarının almağım yadıma gəlir. Tərcümələrini də oxuyub bəyənmişdim. Sən nə danışırsan, a bala, mən o vaxt çar və musavat generalına hansı cəsarətlə məktub yaza bilərdim. Axı, o vaxtlar otuzuncu illərin repressiyası tüğyan eləyirdi... sonra təəssüflə heyf ki, generalın mənə yazdığı məktubları da elə o vaxtlarda cırıb atınışam... Onlar çox məzmunlu və zərif xətlə yazılmışdı.

Generalın "Zabitin yaddaşı" dəftərində onun həyat və məslək yoldaşı, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanım Mirzə Hüseyn Əfəndi qızına yazdığı "Ey sevdiyim, ey dilruba", "Ana və onun əziz Nigarına", "Adi povest", "Vitse admiral Makarovun xatirəsinə", VII əsr yapon şairi Ş.Munetodan "Sən mənə vəhşi dedin" şerlərinin rus dilinə tərcüməsi və başqa parçalar saxlanılır.

1948-ci ilin noyabrın 28-də gecə saat ikidə dünyadan köçən dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyovun pianosunun üstündə bitməmiş bir not qalıb. Üzeyir bəy general Əliağa Şıxlinskinin həyat yoldaşına 1912-ci ildə yazdığı altı bəndlik "Ey sevdiyim, ey dilruba" şerinin yalnız iki bəndində romans yaza bilmişdir. Ömür ancaq buna vəfa edib...

Klassik şairlərimiz Molla Vəli Vidadinin (1707-1808), Mustafa ağa Arif (1781-1842) və Kazım ağa Salik Şıxlinskilərin (1781-1842) nəvəsi olan tam artilleriya generalı Əliağa Hacı İsmayıl ağa oğlu Şıxlinski iki dildə rus və Azərbaycan dillərində şer yazmaq, tərcümə etmək qabiliyyətinə malik olub.

**Əliağa Şıxlinski**

## MƏNİM

Ey sevdiyim, el dilrüba,
Səbrim, qərarımsan mənim.
Səd mərhəba, səd mərhəba
Nə türfə yarımsan mənim.

Görən səni ey nazənin,
Deyər: pəh-pəh, səd afərin!
Dünyada misli yox yəqin,
Əcəb dildarımsan mənim!

Gözəl zahirdə surətin,
Gözəl batin, təbiətin.
Gözəl hər işdə qeyrətin,
Namusum, arımsan mənim.

Mənim baharda bülbülüm,
Mənim qızılca sünbülüm.
Gülşənlərdə zərif gülüm,
Bağlarda barımsan mənim.

Səni ziyarət eylərəm,
Sənə ibadət eylərəm.
Həm çox sədaqət eylərəm,
Çün sən Nigarımsan mənim.

Mən aşiqin adı Əli,
Verdin bu dərsi bilməli.
Eşqindən olmuşam dəli,
Sən ahu-zarımsan mənim.

1912-ci il.

## ANA VƏ ONUN ƏZİZ NİGARINA

Dənizin üstündə bir ulduz yandı,
Dalğalar vuruldu işartısına.
Oxudu, ağladı, qəmli dayandı,
Yalnız əzabları qalmışdı ona.

Kədərli qayalar, dumanlı sahil,
Gecənin qoynunda inləyirdilər.
Fikirli dayanıb onlar elə bil,
Qəmli dalğaları dinləyirdilər.

Fəryada dönmüşdü dənizin səsi;
Ulduzlar sularda yırğalanırdı.
Tənha məhəbbətin qəmli nəğməsi,
Qaya-qulaqlarda sırğalanırdı.

O uzaq göylərin dərinliyində,
Sözlü dodaq kimi səyridi ulduz.
Həsrət mənzilində, əzab dilində,
Sanki öz dərdini deyirdi ulduz.

O mavi göylərdən silinməyib iz,
Uzaq bir həsrətin ağrısı qalıb.
Kədərlə dinləyir göyləri dəniz,
Hıçqırır, inləyir, gözləri dolub...

## ADMİRALIN XATİRƏSİNƏ[26]

Yat, igid qəhrəman, yaşayır adın;
Yuxu qalasını tez aldın, dostum.
Şöhrət çələngi yox, sən əzab aldın,
Cəsur dəstən ilə min səddi pozdun.

---

[26] 1904-cü il aprelin 13 Port-Artur döyüşlərində "Port-Artur döyüşlərində "Petropavlovski" zirehli gəmisində yaponların qəfil mərmi partlayışından həlak olmuş görkəmli donanma xadimi, vitse-admiral Stepan Osipoviç Makarovun(1848-1904) şərəfinə yazlıb. - Ş.N.

O soyuq məzarın zirehli, dərin..,
Matroslar çətin ki, ora baş vura.
Sulara kədərlə baxan əsgərin,
Az qalır heyrətdən bağri yarıla.

Dəniz cəsurları qısqanır, nədir,
Onları torpağa vermək istəmir.
Okeanın dibi - o sirli qəbir, Susub...
Eşidilmir nə səs, nə səmir.

Külək için-için hıçqırır indi,
Yağışla ağlayır buludlar sənə.
Göydə top səsitək ildırım dindi,
Matəm atəşitək sərkərdəsinə...

Çarskoe selo, 1906 il

## ВЕЛИКИЙ ПИСАТЕЛЬ

Самед ВУРГУН
На смерть Джафара Джаббарлы

Постучалось к нам в дверь злое ненастье:
Не бьется ум сердце-умер поет.
Так это-ли твое в людях участье,
Природа? На вопрос дай мне ответ.

О, ты сего края писатель-гигант-
Где твой писанья, твое перо.
Горюет-плачет родной Азербайджан,
Скорбит весь Кавказ по тебе герой.

Застыл смех, молви, на увядщих губах?
Лилось много-ли слез из любимых глаз?
Твой вдумчивый мозг обратился во прах?
Взглянул ты на жизнь в последний-то раз?

Заплачет всяк, знаю, вспомнив о тебе,
Потонет он в горе безысходном;
Туманные горы Арасу, Куре
Ручьи слез пошлют с ветром холодным.

Цветы его жизни завяли хоть вдруг,
Взяла его хоть безвременно смерть,

Мир будет хоть полон, хоть дуст весь вокруг-
В легендах вечно жив будет поэт.

Перевел с тюркского
Алиага ШЫХЛИНСКИЙ

## ОСМАН САРЫВЕЛЛИ
## ЯШАР

Памяти Джафара Джаббарлы

В жизни сей кто не оставит следа,
Тот вскоре будет забыт навсегда.
Умершим себя не считай Джафар!
Вечно будет жив твой герой. "Яшар".
А "Севиль" твоя- вечно любима;
С ними жить будет и твое имя!

Перевел с тюркского
Алиага Шыхлинский.

## Ш. МУНЕТО

(ЯПОНСКИЙ поэт VII века.)

Ты говаришь, что я дикарь
Что не культурный я и темный
Что я брожу среди лесов,
Что я босяк, босяк бездомный
За то в кустах лишь для меня
Поют про волю нежно, птицы,
За то к полям лишь для меня.

Цветов пестреют вереницы.
Как я богат: сквозь небеса
Мне солнце золото бросает,
Как я богат: сквозь облака
Мне серебро луна свивает
На небе утренном заря
Мне шлет кровавые рубины
Алмазы ночью для меня
Плетут по небу поутины
Я не хочу культурным быть!

Им не понять душою темной,
Что счастлив я, что я богат,
Бродяга дикий и бездомный...

Перевод: Али-Ага Шыхлинский
1906 Село Царское

**AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ ZƏROŞ XANIM HƏMZƏYEVAYA!**

Atanız Mirzə Bağır Əliyevin 1993-cü ildə "qanlı günlərimiz" adlı kitabını çox böyük maraqla oxudum. Uzun illər hərb tariximizdən və görkəmli sərkərdələrimizdən silsilə yazdığıma görə kitabın hər səhifəsi məni valeh elədi. Xüsusilə, döyüş səhnələrini və ayrı-ayrı tarixi şəxsiyyətlər barədə olan epizodları oxuduqca özümü saxlaya bilməyib sətirlər altından xətt şəkir, yanına işarələr qoyurdum.

Çünki burada adı çəkilən, döyüş fəaliyyəti yazıları şəxsiyyətlərin əksəriyyətinə arxiv sənədlərində rast gəlmişəm. Xüsusilə kəngərli oğullarının fəaliyyətini və 1917-18-ci illərdə Naxçıvan əhlisinin erməni daşnaklarına qarşı yenilməz mübarizəsini atanız çox maraqla qələmə alıb.

Kitabı oxuduqca istər-istəməz belə maraqlı əsəri bizim üçün yadigar qoyan mərhum atanız Mirzə Bağıra rəhmət diləyirdim.

Bu qiymətli sənədli əsərin son səhifələrinə çatanda gecə saat üç idi. Bir nəfəsə oxuduğum kitabdan yorulmamışdım. Amma səksən üç il əvvəl olmuş faciələr mənim yuxumu ərşə çəkmişdi. Nə yatmaq, nə də dincəlmək haqqında düşünmək belə istəmirdim. Məni düşündürən atanızın azərbaycanlı qeyrəti və fədakarlığı idi. Hər birimiz öz dövrümüzün tarixi hädisələrini vaxtında beləcə qələmə alsaq şübhəsiz ki, Azərbaycan hərb tarixi daha zəngin olar.

Düşüncələr burulğanından ayrılıb gördüm ki, kitabın son iki vərəqində Sizin "Atam haqqında bir neçə söz" yazınız da var. Onu da oxudum. "Əmim Nağı bəy Əliyev hərbçi olub, xaricdə təhsil almışdı. Müsavat hökumətinin rütbəli zabiti idi. Bakıda və Naxçıvanda xidmət etmişdi".

Bəli, bu ad və soyad mənə nə qədər tanış və doğmadır - deyə öz-özümə fikirləşdim. Hələ 1920-ci ildə, müsavat dövründə rusca nəşr olunmuş "Ünvan-təqvim" jurnalını vərəqlədim. Jurnalın 25-ci səhifəsində Azərbaycan Cümhuriyyəti Parlamentinin mühafizə alayının rəisi, podpolkovnik Nağı bəy Əliyevin adına rast gəldim təsəvvür edirsinizmi, bu fakt mənim necə böyük sevincimə səbəb oldu. Sevindim ki, Azərbaycanın yüksək rütbəli bir zabiti də tariximizin səhifəsinə qayıtdı.

Mənim şəxsi arxivimdə Parlament mühafizə alayının dəftərxana əməkdaşları ilə birgə 1919-cu il mayın 27-də çəkilmiş foto-şəkil də saxlanılır. Qırx üç nəfərin təsvir olunduğu bu fotoşəkildə yaraşıqlı zabit Nağı bəy Əliyevin adı, soyadı da fotoşəklinin altında  qeyd olunub.

Zəroş xanım, xahiş edirəm, fotoşəklə diqqətlə baxın. Sizdə əriniz podpolkovnik Nağı bəy Əliyevin fotoşəkli saxlanılırsa onu mənim dərc etdirdiyim foto şəkillə tutuşdurun.

Əgər bu kiçik zəhmətimlə Sizi sevindirə bilsəm, özümü xoşbəxt sanardım. Bir daha bu qiymətli kitab üçün atanıza rəhmət diləyir, sizə isə Mirzə Bağır Əliyev kimi şəxsiyyətlərin xatirəsini əziz tutduğunuza görə uzun ömür, cansağlığı arzu edirəm.

## QÜRUR VƏ QÜSSƏ

Unvanı, dah doğrusu, ad və familiyanı dəyişməklə unudulmaz yazıçımız Əbdürrəmbəy Haqverdiyevin məşhur xitabı ilə müraciət etmək istəyirəm: - Şəmistan Nəzirlini tanıyırsınızmı?

Yəqin ki, çoxlarınız bu suala müsbət cavab verəcəksiniz. Səbəbi sadədir: axı televiziya və radioda, müxtəlif mətbuat orqanlarında vaxtaşırı çıxış edir, iyirmiyə yaxın kitabı nəşr olunub. Həyat və fəaliyyəti, uğurlu tədqiqatların, tapıntıların xalqımızın qəhrəmanlıqla dolu keçmişinin obyektiv və əhatəli öyrənilməsi sahəsindəki rolu barəsində ehtiyac hiss edildiyi qədər olmasa da, hər halda, az yazılmayıb. Məqalə müəllifiəri Şəmistanın zəhmətsevərliyini, faktik materiallara dəqiq və son dərəcə məsuliyyətli münasibətini, xüsusən keçmişdən yazan gənc jurnalistlərə nümunə, örnək sayıblar. Bəzən isə arxivlərin toz-torpağını uda-uda qızıldan qiymətli məlumatları üzə çıxarmasını ön xəttdə-döyüş səngərindəki əsgərin şücaəti, cəsurluğu ilə müqayisə ediblər. Həm də belə epitetlər heç də zahiri səciyyə daşımır. Əksinə, bu, görülən işlərin əhəmiyyətindən, sambal və siqlətindən irəli gəlir.

Hər dəfə belə "döyüş-səngər əməliyyatından" sonra müəllif oxucularla görüşə üzü ağ, əli dolu gəlib. Həmin xüsusiyyət hələlik son əlaqəyə, ünsiyyətə də aiddir. Həm də bu iş, şübhəsiz ki, asan başa gəlməyib. Odur ki, kitabla birnəfəsə tanış olub, ibrətamiz faktlardan nə qədər qürur və qayğılansaq, qüssələnsək də, əsərin hasilə gəlməsinə sərf olunan yuxusuz, narahat gecə və gündüzləri, heyrətamiz bir inadkarlıqla "xərclənmiş" üzüntülü ayları, illəri də gərək unutmayaq.

Şəmistan Nəzirlinin xidməti yalnız qiymətli fakt və hadisələri çox zaman ilkin araşdırmasında, ortaya, hasilə gətirməsində deyil, həm də bu hadisələrə həssas və uzaqgörən yazıçı müdaxiləsində, səciyyəvi, tarix, cəmiyyət, xalq üçün əhəmiyyətli mətləblərin bədii, obrazlı şəkildə şərhində, orijinal, cəlbedici süjet quruluşunda, maraqlı təhkiyə tərzində, lakonik, ruhuna atalar sözü, xalq yaradıcılığının digər nümunələri hopdurulmuş canlı dialoqlarda, təsvirlərdədir. Bir sözlə, onun digər kitablarında olduğu kimi, son əsərində də faktik materialların yeniliyi və əhəmiyyəti, dilin bədii təsvir və ifadə vasitələri, yeri gəldikcə, təbiət təsvirləri, insanın qəlb aləminin gizli və məhrəmanə duyğuların inikası ilə bir vəhdət, harmoniya təşkil edir. Bu isə, öz növbəsində, məqsəd və ideyanın qabarıq şərhinə, estetik təsir gücünün daha da qüvvətlənməsinə səbəb olur.

Bu baxımdan yalnız Azərbaycanda deyil, ümumən Zaqafqaziyada yeganə topoqraf general olmuş İbrahim ağa Vəkilovun mürəkkəb və kəşməkeşli həyatından söz açan material xüsusi maraq doğurur. Müəllif onu müqəddəs bir insan, yurduna, xalqına qırılmaz tellərlə bağlı olan vətənpərvər kimi səciyyələndirib, daxili aləmini açmaq üçün ciddi səy göstərib və buna müvəffəq olub. İbrahim ağa Vəkilovun, xüsusən, Gəncə qubernatoru olarkən azərbaycanlıları ermənilərin qırğın və qətllərindən qorumaq üçün gördüyü tədbirlər hafizəmizdə həkk olunur. Onun həmin məsələ ilə əlaqədar daxili işlər nazirinə yazdığı məktub çox təsirlidir. Əsərdən bir parçanı məhz aktuallıq və əhəmiyyətinə görə misal gətiririk.

İbrahim ağa yazır:

"... Əhali dinc həyat həsrətindədir...

Sülh həsrətində olan əhalidən mən müsəlmanları, rusları və alman koloniyalarını nəzərdə tuturam. Ermənilər bu sarıdan, görünür, tamam başqa fikirdədirlər... Onlar müsəlmanlara nifrətlə çulğalanaraq qandan tamam məst olmuşlar, müsəlman kəndlərinin talan edilməsi, sakinlərin qırılması, qadınların və uşaqların zorlanması ilə ifadə olunan öz düşmənçilik hərəkətlərinə son qoymurlar.

Onların vəhşiliklərinin həddi bilinmir, bunlar qarşısında zülmət orta əsr dəhşətləri kölgədə qalır. İnanmaq istəmirsən ki, 20-ci əsrdə öz mədəniyyəti haqqında bütün Avropaya car çəkən, müdafiəz dinc əhaliyə vəhşi məxluqatın bütün üsullarını tətbiq edən xalq mövcuddur. Qubemiyanın hər tərəfindən gələn gündəlik raport və məlumatlarda səslənən o dəhşətlərin təəssüratı altında bu sətirləri yazmaq ağırdır: qadınlar zorlanıb, uşaqlar tonqallarda yandınlır, dillər, qulaqlar kəsilir..."

Bu murdar əməllər bizə erməni faşistlərinin son dövrlərdə törətdiyi faciələri, qədim İrəvan mahalında azərbaycanlıların doğma yurd-yuvalarından qovulub qətlə yetirlməsini, uşaqların borulara doldurulub işgəncə ilə öldürülməsini, Azərbaycan torpağındakı misilsiz fəlakətləri, Xocalı faciəsini... də yada salır. Həm də dahi fars şairi, ölməz Sədinin uzunmüdətli müşahidə, daxili inam nəticəsində hökm şəklində etdiyi bəyana, dediyi aşağıdakı misralara bəraət qazandırır:

**Ermənidir yer üzünün Əhriməni,**
**İnsanlığın düşmənidir, düşməni.**

Eyni zamanda, bizi qəddar, qart düşmənimizlə ifrat dərəcədə həlim rəftarımız barədə düşünməyə vadar edir.

Nə qədər qəribə olsa da soyqırım siyasəti həyata keçirən qəddarlar cəzadan kənarda qalmışdı, əhalinin, günahsız insanların, o cümlədən qadın, uşaq və qocaların qırılmasının qarşısını almaqdan ötrü hər cür fədakarlıq göstərmiş İbrahim ağa Vəkilov, oğlu Faris bəy uzunmüddətli sürgün, həbs və işgəncələrə düçar olmuş, general-mayor İbrahim ağa Usubov, həmçinin Həbib bəy Səlimov, Qalib bəy Vəkilov, Bahadur bəy Vəkilov həmin o qatil daşnak-bolşeviklər və ya onların nümayəndələri tərəfindən xalq düşməni adı ilə güllələnmişlər. Görünür, Səməd Vurğunun, yazdığı kimi, elə həqiqətən də "Tarix utanmazdır, gülüncdür desəm".

Biz yuxarıda qürur və qüssə ifadələrini təsadüfən yanaşı işlətmədik. Şəmistan Nəzirlinin təsvirlərində ömür yolu izlənilən tarixi şəxsiyyətlərin xalqa

xidməti, qətiyyət və qəhrəmanlığı bizi nə qədər sevindirirsə qəddarlığın, tarixi ədalətsizliyin, patoloji kin və küdurətin qurbanı olmaları bir o qədər məyus edir. Müəllif belə hallara - ifşaedici real faktlara da az diqqət yetirməyib. Qəhrəmanlardan biri - İbrahim ağa Vəkilovun oğlu Faris bəy nahaq yerə ürək yanğısı ilə demir ki, “Mənim... ömrümün qarası ağından çox olub”. Bəli, müəllifin təsvirində hər iki rəng - qara da, ağ da çox aydın görünür və bizi nəticə ilə yanaşı və bəlkə də nəticədən daha, artıq səbəb barəsində düşünməyə vadar edir...

...Kitab tariximizin olsa-olsa yalnız bir səhifəsini gözlərimiz önündə canlandırır. Lakin həmin səhifə o qədər maraqlı və canlı, faktik materiallar baxımından elə zəngindir ki, oxucunu valeh edə bilər və yəqin ki, belə də olacaq. Ancaq onun müvəffəqiyyətləri barəsində müfəssəl söhbət açmaq fikrində deyiləm. Çünki ən gözəl şərh və təhlil də maraqlı əsərin mütaliəsindən alınan estetik həzz və duyğunu əvəz edə bilməz...

**Mahmud Mahmudov.**

## MÜƏLLİFDƏN

Rəşid Faxralı kitabı oxuyub qurtardıqdan sonra düşüncəli tərzdə:

- Bir redaktor kimi məsləhət bilirəm ki, bu kitaba son fəsil yazasınz. Nə üçün bu kitabı yazdım mövzusunda.

Düzü, şair-redaktor dostum sanki mənim günlərlə qəlbimdən keçəni duyub, eşitmişdi.

İndi düşünürəm: bəli, doğrudan bu kitabı niyə yazmışam? Hələ totalitar Sovet rejimi dövründə illərlə qəlbimdə gəzdirdiyim şəxsiyyəti və fəaliyyəti ilə fəxr etdiyim topoqraf-general İbrahim ağa Vəkilovu 80 ildən sonra da olsa istər bir hərbçi, istərsə də bir insan kimi doğma xalqıma qaytarmaq ən ümdə arzum olub. Yetmişinci illərdə ASE buraxılanda arxivlərdən və ayrı-ayrı adamlardan topladığım fotoşəkil və sənədləri, bir də general haqqında yazdığım yığcam məqaləni ensiklopediya redaksiyasına sevinclə apardım. Təəssüf ki, otaq-otaq gəzdirilən bu məqaləm rəhbərlikdən keçmədi. Qovluğu özümə qaytarıb nümayişkarənə şəkildə dedilər ki, çar və müsavat generalı olduğuna görə verə bilmərik.

Mən onda üsyan səmimi qaldırıb haray saldım ki, axı, İbrahim ağa Vəkilov topoqraf-general kimi nəinki Azərbaycanda, Zaqafqaziyada yeganə mütəxəssis olub. Dahi Lev Tolstoyla məktublaşıb, böyük yazıçının müsəlman dininə hüsni-rəğbətini, generalın 1918-20 illərdə milli orduda əvəzsiz xidmətini və sairə faktları söylədim.

Məni sona qədər dinləməyə səbri çatmayan "qoca kommunist alim" - elə məhz bu faktlara görə verə bilmərik. - Daha sərt səslə: Lev Tolstoy hansı hüquqla müsəlman dinini xristianlıqdan qat-qat üstün tutur və onu misilsiz elmi din deyə tərifləyir - sualını verdi.

Mən də cavabında:

- Onu 1910-cu ildə vəfat etmiş dahi Tolstoydan soruşsanız yaxşıdır deyib oranı tərk etdim.

Dünyanın işinə bax ki, vaxt gəldi, zaman da, quruluşda dəyişdi. Beş-on il əvvəl Sovet hökumətini ağızdolusu tərifləyib müdafiə edən həmin o "qoca kommunist alim" bu gün demokratiyadan dəm vurur, radio-televiziyada və mətbuatda yeri gəldi-gəlmədi, Sovet totalitar rejiraminin ədalətsizliyindən bol-bol danışır.

"General İbrahim ağa Vəkilov" kitabında sevgili oxucuların onun hərbçi müasirləri və nüfuzlu nəslinin yetirdiyi görkəmli oğulları haqqında maraqlı faktlarla qarşılacaqlar.

Kitabda unudulmuş, tamam yaddan çıxmış ölməz adamların tərcümeyi-halını, fəaliyyətini qısa da olsa vermişəm. O adamlar ki, öz dövründə tanınmış və məşhur olmuşlar. Lakin əsr və illər keçib onların kimisini quruluş, kimisini dövr, kimisin də tədqiqatsızlıq unutdurmuşdur. Bir sözlə baxtı gətirməmiş nəsillər və adamlar olub ki, onların taleyi ancaq Tiflis, Sankt-Peterburq, Moskva və Bakı arxiv sənədlərində pərakəndə halda "yaşayır". Hələ Sovet dövründə bu şəhərlərin arxivlərində işləyəndə harda Azərbaycanlı soyadına rast gəlirdimsə qeyd dəftərçəmə köçürürdüm. Bunların arasında sözün əsil mənasında qısa, lakin

əfsanəvi ömür yaşamış general-mayor Həbib bəy Səlimov, 21 yaşlı kapitan Bahadır bəy Vəkilov, polkovnik Gəray bəy Vəkilov, Bəhram bəy Nəbibəyov da var. Ayrıseçkilik olmasın, bunların sırasında 39 yaşında, 1920-ci ildə bolşevik-daşnakların güllələdiyi mərd general Həbib bəy Səlimovun taleyi məni daha çox yandırıb-yaxdı.

Müxtəlif taleyi hərbçilərin ömür yolunu yazmaqda mənim bircə məqsədim və amalım olub. Vaxtilə silaha sarılıb anamız Azərbaycanın azadlığı, istiqlaliyyəti uğrunda ölümə gedənlərin xatirəsini yaşatmaq və heç kəsin ürəyinə və qəlbinə fleytanın həzin səsilə hüzn gətirməmək, əksinə vətənpərvərlik ehtiraslarını qızışdırıb ulularımızdan qalan qəhrəmanlıq ənənəsilə xoşbəxt yaşamaq.

Kitabdakı qəhrəmanların hər biri ömrün əzablı nəşəsini dadmış şəxsiyyətlərdir. Bəxt, tale onların əksəriyyətinin üzünə gülməyib. Çoxusu sürgündə, türmələrdə, mühacirətdə Azərbaycan, Vətən - deyə-deyə dünyasını dəyişdilər. Şübhəsiz ki, mərd babalarımızın taleyinə qismət olmuş əzabların xoş nəşəsini bu gün müstəqil yaşadığımız vətəndə biz dadırıq.

Mənim sərkərdə qəhrəmarlarım böyük filosof Siseronun amalı ilə Azərbaycan uğrunda vuruşmuşlar: “Mən ya Vətənin rifahı üçün yaşamalı, yaxud da onunla birlikdə məhv olmalıyam.” 1918-1920-ci illərdə Qarabağ döyüşlərində yenilməz bir igid kimi vuruşaraq daşnak generalı Dəli Qazan süvarisi ilə birgə məhv edən polkovnik Bəhram bəy Nəbibəyov 1930-cü il aprelin 13-də totalitar Sovet rejiminə qarşı “Zaqatala-Şəki üsyanı”na məhz bu amalla rəhbərlik etdi.

Azərbaycan adlı füsünkar torpaqda yaşamağa o oğlun haqqı var ki, onu mərd babalarımız kimi qorumağa layiq olsun. Hər hansı bir xalqın mənəvi varlığı onun hərbi gücündə və yetişdirdiyi sərkərdə oğullarındadır. Biz keçmişimizdən ibrət götürməsək, onu öyrənməsək bu gün və gələcəkdə yetişdirdiyimiz sərkərdələr vətənin üstünü təhlükə alanda döyüşdə qələbə çala bilməz.

“Millətin süqutu o zaman başlayır ki, o, öz tarixini unudur... öz tarixini unudan millət də millət sayıla bilməz.

Tarix millətin keçmişinin, indisinin, gələcəyinin dastançısıdır. Tarix millətin bütün varlığını, onun öz ömrü və davamlılığı üçün topladığı qüvvə və ehtiyatı güzgü kimi əks etdirir” (İlya Çavçavadze).

“General İbrahim ağa Vəkilov” kitabı da tarixi sənədlər əsasında bu ruhda yazılıb.

Məhz bu qəbil faktları, sənədləri üzə çıxarmağa, tarixi tarixləşdirməklə özümün tədqiqatçı taleyimdən gileyli deyiləm. Hələ neçə-neçə yazılası kitabın səhiflərində tapacağam yazıçı xoşbəxtliyimi...

## KİTABIN İÇİNDƏKİLƏR


Qəribə tale

- Topoqraf-general İbrahim ağa Vəkilov
- Alim sözü
- Ailənin bəxt ulduzu
- Lev Tolstoya məktub
- Gecikmiş cavab
- Qürbətdən gələn məktub
- Tiflisdəki izimiz

Hərbçi Vəkilovlar
Polkovnik Gəray bəy Vəkilov
Uzun ömür səhifələri
General-mayor İbrahim ağa Usubov
Yarah söhbət .
Əzabkeş insanm xatirələri
General mayor Həbib bəy Səlimov
Danışan sənədlər
Iyirminci iildə Qarabağ döyüşləri

- Polkovnik Bəhram bəy Nəbibəyovun igidliyi
- Qəhrəman alay
- Düşmən təslim olmayanda
- General Səməd bəy narahatdır

Otuzuncu il Şəki üsyanı
Hərb tariximizdə nələr olmuşdur
Şahzadə-general Rzaqulu Mirzə Qacar
General Ağası bəy Avşarov
General Həsən ağa Bakıxanov
General Əsəd bəy Talışxanov
General-leytenant Fərəc bəy Ağayev
General Tərlan bəy Əliyarbəyov

- Podpolkovnik Əbülfət ağa Şaxtaxtinski
- Podpolkovnik Xasay xan Usmiyev

Port-Arturun azərbaycanlı qəhrəmanlan
“Dikaya diviziya” yoxsa
Türk irsini öyrədən general
Alim-general
İlk hərbi memuarımız
General Əliağa Şıxlinskinin şe'rləri
Azərbaycan Respublikasının xalq artisti
Zəroş xanım Həmzəyevaya
Qürur və qüssə (Mahmud Mahmudov)
Müəllifdən

Müəllifin icazəsi olmadan əsərdən parça və mənbəə kimi istifadə etmək qətiyyən qadağandır. Əks təqdirdə həmin şəxs üzünü köçürən plagiat kimi məhkəmə qarşısında cavab verməli olacaqdır.

Şəmistan Əmiraslan oğlu Nəzirli
Topoqraf-general İbrahim ağa Vəkilov
Bakı - Zaman - 2002

Redaktoru: Mayor Rəşid Faxralı.
Nəşriyyat redaktoru: Xaliq Rəhimli.
Kompyütor tərtibatçısı: Elman Məmmədov.
Üz qabığını işləyən: Mətanət Qaraxanlı.

Çapa imzalanmışdır 04.04.2002. Formatı 60x84 1/16,
Həcmi 20,5 ç.v. Tiraj 500. Sif № 53. ,
Qiyməti sərbəst.

Kitab hazır plyonkalardan
"Qızıl Şərq" mətbəəsində çap olunub.
(Bakı, H.Aslanov, 80)